

# Amalietti PETER

## BİR NƏFƏR HAMI ÜÇÜN, YAXUD MİXAYLONUN QİSASI

*Kitabın ərsəyə gəlməsində göstərdiyi təşəbbüsə görə Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri cənab Azər Xudiyevə təşəkkürümüzü bildiririk.*

**Azərbaycan Tərcümə Mərkəzi**

**Tərcümə:**
***Fərhad Abdullayev***

**Redaktor:**
***Mahir N.Qarayev***

ISBN 978-9952-503-81-4

**Peter Amalietti. Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası**
Azərbaycan Tərcümə Mərkəzi. Bakı: 2018 – 352 səh.

**Azərbaycan Tərcümə Mərkəzi**
**Bakı – 2018**

*"Tiflis hərbi məktəbini əla qiymətlərlə bitirdim. Dünən silah və hərbi forma verdilər. Bilmirəm, bu silahla adam öldürməyə əlim gələcək, ya yox... Ömrümdə toyuq başı da kəsməmişəm. Neyləyim, belə tərbiyə almışam. Allah qoysa, tezliklə görüşərik! Sabah yola düşürük, çatan kimi yazaram".*

***(Mehdi Hüseynzadənin məktubundan)***

***Peter Amalietti***

# Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası



*Ey Vətən,*
*bu çətin, ağır zamanda*
*qoynunda böyüdüb bəslədin məni!*
*Vəfalı oğlunam, ana torpağım,*
*düşmən tapdağında qoymaram səni.*

*İstərdim bir xəzan yarpağı kimi*
*küləklər qaldırsın məni göylərə,*
*uçum meşələrin, dağların üstdən,*
*doğma Vətənimdə kaş enim yerə!*

***(Mehdinin mahnısından bir parça)***

# Ön söz

Elə adamlar var ki, onlar üçün qəhrəmanlıq – epizodik halların, konkret vəziyyətlərin cəsarət aktı yox, sadəcə, həyat tərzidir. Xalqımızın tarixində belə fədakarların sayı az deyil. Onlardan biri də əfsanəvi partizan, Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadədir. 2018-ci ilin dekabrında Azərbaycanın bu igid oğlunun anadan olmasının 100 illiyi qeyd olunacaq.

Ölkəmizdə onun adını daşıyan qəsəbə də var, küçə də, məktəb də, gəmi də. 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıda M.Hüseynzadənin heykəli qoyulub. Bu münasibətlə keçirilmiş təntənəli tədbirdə H.Əliyev onun şücaətini yüksək qiymətləndirib: "...Azərbaycan Pedaqoji İnstitutunun tələbəsi Mehdi Hüseynzadə hərarətli qəlbinin çağırışı ilə ölkəmizin müdafiəçilərinin sıralarına qoşuldu. Stalinqrad ətrafındakı vuruşmada ağır yaralanan Mehdi əsir düşdü. Lakin nə tikanlı məftil, nə Hitler həbs düşərgəsinin azğın keşikçiləri cəsur döyüşçünün iradəsini qıra bildi. O, faşist zindanından qaçdı və Yuqoslaviya partizanları sırasında düşmənlə mübarizəni davam etdirdi. Mehdi Hüseynzadə doğma torpaqdan uzaqlarda, Adriatik dənizi sahillərində onlarla cəsarətli əməliyyat aparmış, kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmişdir. Mehdi Hüseynzadə yüzlərlə hitlerçini məhv etmiş, qatarları sıradan çıxarmış, körpüləri dağıtmış, avtomaşınları və təyyarələri partlatmışdır. Bütün bunlar faşist işğalçıları üzərində qələbəyə qəhrəman Mehdinin döyüş köməyi idi".

Sloveniya yazıçısı, şair, musiqiçi və bəstəkar Peter Amaliettinin (1955) "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" adlı publisistik romanı igid həmyerlimizin həyat və döyüş yolundan bəhs edir. Müəllif Mehdi Hüseynzadənin uşaqlıq, gənclik illərini, Böyük Vətən müharibəsində onunla bağlı olan və indiyədək qaranlıq qalan qəhrəmanlıq səhifələrini oxucunun gözləri qarşısında bir sənətkar ustalığı ilə açır. Əsərdə uzun illər ərzində toplanmış nadir faktlar əsasında əfsanəvi partizanın keçdiyi döyüş yolu geniş işıqlandırılır, onun silah və əqidə dostlarının fəaliyyətindən ətraflı bəhs edilir. Nəticədə isə biz M.Hüseynzadənin müharibə illərində sloven, italyan, sovet partizanlarını heyran qoyan, almanları vahiməyə salan neçə-neçə qəhrəmanlıq epizodları ilə tanış oluruq.

P.Amalietti Mixaylonun ən yaxın silahdaşları ilə birlikdə yüksək voltlu elektrik transformatorunu, kinoteatrı, restoran və kazinoları, SS qərargahını, strateji əhəmiyyət daşıyan körpüləri... partlatmasını, silah və ərzaq dolu hərbi maşınları qaçırmasını, çox mühüm sənədləri əldə edib partizan dostla-

*rına çatdırmasını, minlərlə faşisti məhv etməsini maraqlı faktlar əsasında obrazlı şəkildə oxucuya təqdim edir.*

*Kitabda xüsusi xidmət orqanlarının arxivlərindən, şahid xatirələrindən, sənədli-publisistik əsərlərdən və yazıçının öz araşdırmalarından geniş istifadə olunub, Mixaylonun təxribat əməliyyatları arxiv sənədləri əsasında təsvir edilib, bir çox faktlar və şəxs adları həqiqidir. Müəllif Mehdinin əsirlikdə çəkdiyi əziyyətlərə, daxili iztirablara rəğmən, faşistlərə boyun əymədiyini bədii dillə təsvir edir, çətin anlarda əsir yoldaşlarına mənəvi dayaq olduğunu göstərir, Azərbaycan legionuna üzv yazılmasının gerçək səbəblərini açıqlayır.*

*P. Amaliettinin kitabında qəhrəman Mixaylo barədə bildiyimiz və bilmədiyimiz bir çox məqamlar yenidən araşdırılıb, müharibə illərində Sloveniyada baş verən ictimai-siyasi proseslərə qiymət verilib. Maraqlıdır ki, əsərdə Mixaylo həm faşistlərə qarşı mübarizə aparan partizan, həm də Sloveniya milli-azadlıq hərəkatının sadiq əsgəri kimi qələmə verilir. Yazıçı öz qəhrəmanının dili ilə Azərbaycan və Sloveniya arasında tarixi paralellik aparır, hər iki xalqın təcavüzə, soyqırımına məruz qaldığına, azadlıq və müstəqillik uğrunda mücadilə apardığına dair konkret faktlar göstərir.*

*Əfsanəvi qəhrəmanın dəfn mərasimində komandir Dulenin vida nitqi kitab üçün leytmotiv sayıla bilər: "Yolunda həyatından, canından və qanından keçdiyi torpaq Mixaylonu heç vaxt unutmayacaq! Ən yaxın dostumu itirdiyim üçün kədərlənirəm. Cavan olsa da, təcrübəli və müdrik adam idi. Düşmənə aman vermir, kazarmaları, silah anbarlarını, körpüləri partladır, faşistlərin mənfur planlarını alt-üst edirdi. Ancaq Mixaylo çox mərhəmətliydi, qarışqanı da incitməyə ürəyi gəlmirdi, hamıya yardım əlini uzadırdı. Bununla belə, düşmənə qarşı çox soyuqqanlı və barışmaz mövqe tuturdu. Faşistlərdən törətdikləri cinayətlərə, xalqları və millətləri fəlakətə sürüklədiklərinə görə qisas alırdı. Özünü ölüm mələyi – Əzrayıl adlandırırdı. Amma bizim üçün bu şən və istiqanlı oğlan dostluq, yoldaşlıq, qardaşlıq və sevgi mələyi idi. Qısa müddət ərzində Sahilyanı diyarda hamı onu sevmişdi, dostları Mixaylo ilə fəxr edirdi... Məzarında rahat yat, əziz dost! Mütərəqqi bəşəriyyət əfsanəvi qəhrəmanlığına, insanlara sevginə görə sənə daim minnətdar olacaq! Qisasını düşməndən mütləq alacağıq, Mixaylo!"*

*P. Amaliettinin "Hamı bir nəfər üçün, yaxud Mixaylonun qisası" romanı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 2013-cü ildə rus dilində işıq üzü görüb. Əsər Azərbaycan Tərcümə Mərkəzinin təşəbbüsü ilə dilimizə tərcümə olunub. Ümid edirik ki, "Hamı bir nəfər üçün, yaxud Mixaylonun qisası" romanı əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin 100 illik yubileyinə layiqli töhfə olacaq.*



# Kras. Noyabr 1994-cü il

– Qulaq as, Tone, bu mağara barədə kimdən eşitmisən? Araşdırdım, amma Sahilyanı diyarın[1] spleoloji xəritələrinin heç birində bu mağara göstərilməyib, – hündürboy, qaragöz, qarabuğdayı Frantsel dedi. O həm də “Qara dəlik” adlı yerli *spleoloqlar*[2] cəmiyyətinin sədri idi. Bu gün isə iş-gücünü atıb köhnə, əzik-üzük “Lada”sının sükanı arxasına keçmişdi.

– Bilirsən, Frantsel, bir dəfə söhbət əsnasında Nataşa nənə mağaradan danışmışdı. Slapdan olan qarını deyirəm. Düşündüm, əgər mağara xəritədə yoxdursa, əvvəl-axır ora salacaqlar!

– Yaxşı, Tone, nə deyirəm! Amma havaya bir bax, yağış, soyuq! Belə havada gərək isti yer tapıb başını soxasan ki, bədənin qızsın!

– Ancaq, öz aramızdır, yayda girib mağarada oturmağın da başqa ləzzəti var, düz demirəm? Gəl maşını o ağacların altında saxlayaq. Nataşa nənə dedi ki, yolun qalan hissəsini piyada getmək lazımdır.

Maşının yük yerindən spleoloji avadanlığı götürüb çiyinlərinə aldılar. Kol-kos basmış dar cığırla yavaş-yavaş aşağı endilər. Tezliklə qayaların arxasından uçurum göründü.

– Hə... Əgər mağaranı tapsaq, cənab Perko demişkən, tarixi hadisə olacaq! Keçən dəfə maşınla aləmi dolaşdıq, amma mağara-zad gözə dəymədi! – Frantsel uçurumun dibinə baxdı. – Mağaranın girişi, yəqin, şimal tərəfdəki sərt yoxuşdandır, bax ordan, uçurumun dibindən bir az yuxarı. Baxanda bilinmir, ona görə indiyə qədər tapan olmayıb. Bəlkə də, fikir verməyiblər, gözdən qaçıb.

---

[1] **Sahilyanı diyar** – slovenlər Adriatik dənizinin sahilində yerləşən doğma torpaqlarını nəvazişlə belə adlandırır.

[2] **Spleologiya** (yun. spelation – mağara və logos – elm, təlim) – mağaraları öyrənən elm

Söhbət edə-edə uçurumun dibinə enib ayaq saxladılar. Tone şimal tərəfdəki yoxuşa diqqətlə baxıb dostuna səsləndi:

– Frantsel, tapdım! Mağaraya giriş burdandır. Görəsən, dərindir? Birdən dünyanın ən dərin mağarası olar ha! Nataşa nənə deyirdi ki, girişdə iri oyuq var, ehtiyatlı olmaq lazımdır! Qayaların üstündə sürüşüb yıxılmasaq yaxşıdır!

– Əşi, bu qarıların işi-peşəsi qorxulu nağıllar uydurmaqdır, ha-ha-ha, – Frantsel qəhqəhə çəkdi. Girişi tez tapdıqları üçün kefikök idi, nəhayət, istəyinə çatmışdı. – Girişsiz mağara, ümumiyyətlə, mağara sayıla bilməz. Biz, spleoloqlar dəqiq bilirik, hər mağaranın ən azından bir girişi olmalıdır, – həyəcandan səsi titrəyir, ayaqları əsir, qəribə hisslər keçirirdi. Adətən, spleoloqlar yerin dərin qatlarına enməzdən əvvəl bu vəziyyətə düşür.

Frantsel spleoloqlar cəmiyyətinin sədri olduğu üçün oyuğa birinci girdi. Girişi daş-kəsək örtmüş, kol basmışdı. Yoldaşını gözləmədi, fənəri yandırmayıb özünü birtəhər içəri dürtdü. Dərhal da quyuya yuvarlandı. Müvazinətini güclə saxladı, ayağını qoymaq üçün qaranlıqda kor-koranə yer axtardı, amma qəfildən büdrəyib yıxıldı. Hiss etdi ki, ayağının altı kiçik daş parçaları ilə doludur. Həyəcandan özünü elə itirmişdi ki, dəbilqəsindəki fənəri yandırmağı unutmuşdu. Tone də mağaraya girməyə çalışırdı, başını içəri soxan kimi dəbilqəsindəki fənər ətrafı işıqlandırdı.

– Frantsel, Frantsel, sağsan?

– Sağam, sağam! İstədim divardan yapışam, ayağım sürüşdü!

– Sözə qulaq asmırsan da! Nataşa nənə xəbərdarlıq etmişdi axı! Ağzımı açmağa macal vermirsən, özünü hara gəldi dürtürsən! Yaxşı qurtardın, Frantsel! Nə isə, əsas odur ki, sağ-salamatsan! Başına bir iş gəlsəydi, bunu heç vaxt özümə bağışlamazdım. Gözlə, indi gəlirəm. Sənin fənərin niyə işləmir? Batareyası zəifləyib, yoxsa lampası sınıb? Frantsel, heç olmasa, iməkləyə bilirsən?

– Eh, Tone, zarafat eləməyə vaxt tapdın da! Mən nə hayda, sən də başlamısan...

– Qız kimi nə dəymədüşər olmusan! Söz demək mümkün deyil! Onsuz da, əzilməmisən! Fənərin də yanır, deməli, faciə baş verməyib. Əksinə, bəxtin gətirib ki, əl-ayağın yerindədir! – Tone güldü.

– Bəxtdən danışma, qardaş! Mənim kimi yıxılıb əzilsəydin, baxardım halına... Bəxtim onda gətirəcək ki, bizim spleoloji cəmiyyətin səyi ilə yeni mağara kəşf ediləcək. Amma ürəyimə dammışdı ki, nəsə olacaq. Hissiyyatım güclüdür. Büdrəyəndə başım daşa dəydi, ancaq, cənab Perko demişkən, bunu kimsənin yanında danışma, hörmətdən düşərəm. Ağrıdan gözlərim qaraldı, düşündüm ki, “Frantsel, bu, hələ başlanğıcdır!”– susdu, ürəyində nəyi isə götür-qoy edib sözünə davam etdi. – Bura yaman yel çəkir, havasından görünür ki, mağaranın ölçüləri böyükdür.

Orda, səndən bir az aralıda səngərə oxşayan qazma var. Elə bilirdim daşın üstünə yıxılmışam, amma diqqətlə baxanda gördüm ki, ayağımın altındakı köhnə hərbi bel çantalarıdır, içində də nəsə var. Daşın üstünə yıxılsaydım, başım belə incitməzdi.

Frantsel ilk təəssüratlarını danışanda Tone sürünüb quyunun dibinə endi. Frantsel sakitcə dayanıb ayağının altındakı köhnə çantalara baxırdı.

– Başında dəbilqə olmasaydı, işin bitmişdi, – Tone dostuna baxdı, bilmək istəyirdi ki, zədə alıb, ya yox? – Hə, orda nə tapmısan?

Tone çantasından kiçik məşəl çıxarıb yandırdı, mağara işıqlandı. Düşündü ki, görəsən, buradan digər çıxışa aparan tunel var, ya yox? Bu barədə Nataşa nənədən heç nə soruşmamışdı, qadın ona yalnız ehtiyatlı olmağı tapşırmışdı. Görünür, Nataşa nənə də mağaraya bələd deyildi.

Frantsel çantalardan birini özünə tərəf dartdı. Qaldıranda içindəkilər səs-küylə yerə dağıldı – sanki metalı zərblə daşa vurmuşdun. Mağaranın rütubətindən çürümüş çanta əşyaların ağırlığına dözə bilməzdi. Frantselin əlində cırıq-cırıq olmuş çantanın bir parçası qaldı.

– Metala oxşayır! Silahdır? – Tone ehtiyatla soruşdu.

– Əşi, silah nə gəzir? – Frantsel dəmirlərdən birini götürüb əlcəyinə sürtdü.

– İnanmazsan, amma əlimdəki qızıldır, daha doğrusu, külçə! Cənab Perko yanımızda olsaydı, belə deyərdi. Yaxşı, o birisinə baxaq. Deyəsən, burda altı çanta var...

Çantaları yerdən qaldırmadılar, düşündülər ki, dibləri cırılar, yalnız içini boşaltdılar. Hamısına qızıl külçəsi yığılmışdı. Səliqə ilə yerə düzüb saydılar – fənərin zəif işığında otuz külçə parıldayırdı.

– İlahi, bu ki otuz kiloqram qızıl deməkdir, yəni hər külçənin çəkisi bir kilodan... Əziz Tone, mağaraya bir dəfə düşməklə gör nə qədər qazandıq?! Peşəkar spleoloqlar bunu heç yuxuda da görə bilməz. Bu bel çantaları, deyəsən, alman malıdır. Yəqin, İkinci Dünya müharibəsindən qalıb.

– Nəticə çıxarmağa tələsmə. Yaxşısı budur, Nataşa nənədən soruşarıq. Frantsel, çantaların yan ciblərini də yoxlamaq lazımdır...

Frantsel boşalmış çantalardan birini qaldırıb yan ciblərinə baxdı, cürbəcür qızıl əşyalar – portsiqar, boyunbağı, saat, kulon, sırğa, üzük tapdı.

– Bilirsən, Tone, bunlar qızıldandır, bir-iki sırğanı, üzüyü saymasaq, qalanları platindən düzəldilib. Təklif edirəm, zinət əşyalarını və iki-üç külçəni özümüzlə götürək, qalanı üçün sabah gələrik. Əvvəlcə külçələrdən birini Postoynaya aparıb zərgər Andreyə göstərək, məktəb yoldaşım olub. Əyarını müəyyən etsin, məncə, xalis qızıldandır. Yoxsa mağarada gizlətməyin nə mənası vardı?

Zinət əşyalarını bel çantasına yığdılar, hərəsi özü ilə iki külçə götürdü. Yük ağır olsa da, birtəhər yuxarı dırmaşıb mağaradan çıxdılar. Ətrafa göz gəzdirdilər, kimsə yox idi. Günortadan xeyli keçmişdi. Yağış kəsəndən sonra günəş buludların arxasından boylanıb işıq saçır, adamın canını qızdırırdı. Xəzinə tapdıqları üçün sevinirdilər, amma elmə məlum olmayan mağara kəşf etdiklərini tamam unutmuşdular. Uçurumun kənarında çantanı açıb bir də baxdılar. Zinət əşyaları və külçələr bərq vurub göz qamaşdırırdı.

Dostlar qanad çalıb uçmağa hazır idi: zarafat deyil, gözləmədikləri halda başlarına var-dövlət yağmışdı! Razılığa gəldilər ki, xəzinəni qardaş malı kimi bölsünlər. Bir-birini uşaqlıqdan tanıyırdılar, yaxşı dost idilər. Nataşa nənəyə baş çəkmək üçün maşını Slap kəndinə sürdülər. Qadın küçənin başındakı evdə yaşayırdı. Frantsel gördü ki, Tone bu qadını "nənə" adlandırmaqda böyük səhvə yol verib. Nataşa nənə yaşına görə çox cavan və gümrah görünürdü. Ev sahibəsi onları səmimi qarşılayıb şəraba və peçenyeyə qonaq etdi. Oradan-buradan söz salıb xeyli söhbət etdilər. Nəhayət, Tone dedi:

– Bu gün mağarada bəzi hərbi ləvazimatlar tapdıq. Deyəsən, müharibədən qalıb. Bu barədə bir şey bilirsiniz?

– Bu mağaranın yeri yalnız bizim ailəyə məlumdur, sirri nəsildən-nəslə ötürürük. Babam köhnə qaçaqmalçı idi, polislərin təqibindən qaçıb orda gizlənirdi. Özüm mağarada olmamışam, amma babam nəsə aparıb orda gizlədəndə uçurumun kənarında dayanıb keşik çəkirdim ki, gələn olsa, xəbər verim. Tone, mağaranın sirrini sənə ona görə danışdım ki, nəsildə məndən başqa kimsə qalmayıb. Sirri özümlə o dünyaya aparmaq istəmirəm. Sən yaxşı adamsan, həm də spleoloqsan. İndicə müharibədən söz saldın, yadıma düşdü ki, vaxtilə bu sirri bir adama da etibar etmişdim. Partizan Mixaylo yaxın dostum idi. Mağaranın yerini ona nişan vermişdim ki, faşistlərdən gizlənə bilsin. Hərbi ləvazimat, yəqin, ona məxsusdur, axı atam bütün müharibəni İtaliya ordusunun tərkibində Afrikada döyüşüb, sonra Liviyada ingilislərə əsir düşüb.

Mixaylodan danışanda Nataşa xanımın çiçəyi çırtladı, çöhrəsinə təbəssüm qondu. İllər ötsə də, bilinirdi ki, cavanlıqda çox gözəl olub.

– Mixaylo kim idi? – Frantsel soruşdu.

– O dəqiqə bilinir ki, ağzınızdan süd iyi gəlir! Bu adam haqqında eşitməmisiniz? Sahilyanı diyarda uşaqdan böyüyə qədər hamı Mixaylonu tanıyır. Niyə də tanımasınlar? İkinci Dünya müharibəsində Mixaylo Sahilyanı diyarın ən məşhur qəhrəmanı idi, üstəlik, mənim də ürək sirdaşım. Canlara dəyən oğlan idi! İnanın, belə adamlar yüz ildə bir dəfə doğulur!



# Azərbaycan. Noyabr 1994-cü il

Qədim Odlar Yurdunun paytaxtı Bakı qızıl payızın şirin nağılına bürünmüşdü. Günorta çağı, şəhərin baş küçələrindən birinin enli səkisi ilə qədd-qamətli, gözəgəlimli bir qadın gedirdi. Saçlarına dən düşsə də, dodağına qırmızı pomada çəkmişdi, qara gözləri həyat eşqi ilə alışıb-yanırdı. Bu qadın Azərbaycanın tanınmış yazıçısı və etnoqrafı Əzizə Cəfərzadə[1] idi. Yanında iki azyaşlı nəvəsi vardı. Uşaqlar əlindən tutmuşdu, gedə-gedə maraqla maşınlara, gəlib-gedənə baxırdı. Qızcığazın da adı Əzizə idi, bacısından iki yaş böyük olan Cavad isə nənəsinin əlindən möhkəm yapışmışdı. Birdən balaca Əzizə cingiltili səslə soruşdu:

– Dünən bağçada müəllim deyirdi ki, hər adamın adı olduğu kimi, şəhərdə də hər küçənin adı var. Nənə, bəs bu küçənin adı nədir?

– Əziz balam, bax, bu küçə çox geniş olduğu üçün ona “prospekt” deyirlər. İkinci Dünya müharibəsinin qəhrəmanı Mehdi Hüseynzadənin adını daşıyır! – Əzizə xanım bunu deyib ayaq saxladı, köks ötürüb susdu.

– Bəs Mehdi kim olub, ay nənə? – Cavad maraqla soruşdu.

Qadının gözləri yol çəkdi, danışmağa başlayanda səsi titrəyirdi.

– Əziz balalarım, yaşadığımız bu gözəl dünya çox igidlər, qəhrəmanlar görüb. Bu gün əgər sözə qulaq asıb özünüzü yaxşı aparsanız, şam yeməyindən sonra sizə belə qəhrəmanlardan biri haqqında danışaram. Cavanlıqda Mehdi haqqında şeir də yazmışdım, jurnalda dərc olunmuşdu.

---

[1]**Cəfərzadə Əzizə Məmməd qızı (1921–2003) –** yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor, 1946-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü

Onun haqqında çoxlu kitablar var, igidlikləri dillər əzbəridir. Mehdi unudulmayıb, insanların qəlbində əbədi yaşayır. Mənim də yaddaşımda Mehdi ilə bağlı neçə-neçə xatirə var. Azərbaycanın bu şanlı övladı yadıma düşəndə göz yaşımı saxlaya bilmirəm. Baxın, yenə gözlərim yaşardı. Amma Mehdi üçün ağlamaq yox, ona dua oxumaq lazımdır... Mənim gül balalarım, Azərbaycan ta qədimdən qəhrəmanlar diyarı olub, bu şanlı estafet nəsildən-nəslə ötürülüb. Azərbaycanın Dövlət himnində gözəl deyilir:

*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*

– Bu himni bağçada sizə öyrədiblər, onu heç vaxt unutmayın! Bir az səbir edin, axşam sizə Mehdi haqqında maraqlı əhvalatlar danışacağam...

# NOYABR 1943-cü il



**I**

Çarpayıda uzanmış xəstə diksinib yuxudan oyandı. Əvvəlcə gözünü açа bilmədi. Özünə gələndə gördüklərindən heyrətləndi: təmiz mələfə salınmış, üzlənmiş yorğan-döşəkdə uzanmışdı, tünd-boz adyalı da boğazına qədər çəkmişdilər. Başa düşdü ki, çox rahat bir yerdədir, amma harada olduğunu anlaya bilmədi. Nə qədər əlləşsə də, kimliyini, bura necə gəlib düşdüyünü xatırlamadı. Axırıncı dəfə belə qar kimi ağ, yumşaq yataqda nə vaxt uzandığı yadına gəlmirdi. Künc-bucağa göz gəzdirdi, divarları açıq-yaşıl rənglə boyamışdılar. Çarpayısı küncdə idi, başını azacıq qaldırıb baxdı, palatada ondan başqa daha üç xəstə vardı.

“Deməli, xəstəxanadayam”, – ağlından keçən ilk fikir bu oldu.

Pəncərədən xəstəxananın həyətindəki ağacların başı görünürdü. Xəfif meh ara-sıra saralmış yarpaqları tərpədirdi. Burnuna dəyən dərman və spirt qoxusundan bir daha yəqin etdi ki, həqiqətən, xəstəxanadadır.

Payızın son nişanəsi olan saralmış yarpaqların arasından üfüqdə, təpənin üstündə qala görünürdü. Günəş çoxdan qalxmışdı, anladı ki, günorta saatlarıdır.

Pəncərədən baxmaq üçün başını azacıq qaldırdı, amma gücü çatmadı, çox yorğun və halsız idi, başı yenidən yastığa düşdü. Sakitcə uzanıb gözlərini yumdu, səslərə qulaq asmağa başladı. Xəstələrdən ikisi sakitcə xoruldayırdı. Dəhlizdə kimsə qapını örtdü, sonra xərək təkərlərinin səsi gəldi, deyəsən, xəstə aparırdılar. Dəhlizdən bir qızın zümzüməsi gəlirdi, elə bil bülbül oxuyurdu – Mehdi ömründə belə həzin nəğmə eşitməmişdi. Mahnı ona uşaqlıq illərini xatırlatdı. Yaman dəcəl idi, yatmaq istəməyəndə xalası həmişə laylay oxuyar, o da şirin yuxuya gedərdi...

Qapı ehmalca aralandı və günəşin qızılı şəfəqlərinə bürünmüş palataya ağxalatlı tibb bacısı daxil oldu. Cingiltili səslə alman dilində dedi:

– Hə, deyəsən, bizim Şaxta baba oyanıb axı! Belə qəşəng oğlan olasan, həm də yuxudan doymayasan! Ay yatağan, hamımız narahat idik: görən, nə vaxtsa oyanacaqsan, ya yox?

– Bacı... nə vaxtdan... buradayam? – sakitcə soruşdu. Qara gözlərini qaldırıb sual dolu baxışlarını tibb bacısına zillədi, gözlərinin altı göyərib şişmişdi.

– Səni ötən şənbə gətiriblər, huşun özündə deyildi. Hərarətin çox yüksək idi, sayıqlayırdın. Qaşıq-qaşıq yemək verdik, yenə də oyanmadın. Hə, bu gün cümə axşamıdır, 6 noyabr 1943-cü il.

– Nəsə, dumanlı xatırlayıram... kimsə qaşığı ağzıma soxmağa çalışırdı... Görünür, çox zəifləmişəm, heç nə yadımda deyil...

– Bir-iki qaşıqdan artıq yemirdin, xoşbəxtlikdən, sağ qalmağın üçün elə bu da kifayət elədi.

– Bacı, elə bil bütün bədənimi əziblər, ağrıyıram, amma indi mənə elə gəlir, cənnətə düşmüşəm.

– Bax ona görə də gərək sakit uzanıb hərəkət etməyəsən, güc toplayasan. Mən də gedim sənə çay-çörək gətirim. O biri xəstələrin yeməyini vermişəm, – tibb bacısı əvvəlki cingiltili səslə gülümsünüb mələk kimi qeyb oldu.

O gedəndən sonra Mehdi anladı ki, bu qız tayı-bərabəri olmayan şimal gözəlidir! Əsl mələkdir! Hündürboy, qədd-qamətli, gözəgəlimli, ağ tibb papağının altından dəniz qumu rəngində saçları görünür, mavi gözləri də adamın ağlını başından alır. Ona elə gəldi ki, bu qız müharibə başlayandan gördüyü ən gözəl məxluqdur.

Müharibə? Bu sözdən halı dəyişdi, başından küt ağrı qopdu, vücudunu soyuq tər basdı, huşa getdi. Bir azdan tibb bacısı əlində siniylə gəldi. Xəstənin yatdığını görüb geri döndü.

Nə qədər yatdığını bilmədi, pəncərə önündəki çarpayıda yatmış xəstənin bağırtısına oyandı. Palatada işıq yanırdı. Axşam düşmüşdü.

“Yəqin, yuxusunu qarışdırıb, ona görə bağırır,” – düşündü. Xatırladı ki, xəstə alman dilində danışırdı, tibb bacısı da ona bu dildə müraciət etmişdi. “Deməli, alman hərbi hospitalındayam, – beyni silkələndi. – Belə-belə işlər... Əsgərəm! Özü də alman əsgəri! Dünyada bundan pis nə ola bilər? Nə yaxşı ki, hospital cənnət kimidir, yataqda rahat uzan, mələklər də sənə qulluq eləsin...”

O ta qədimlərdən Oda və Günəşə sitayiş edən bir xalqın övladı idi. Günəş buludların arxasında gizlənəndə belə onun hərarətini, gücünü

duyurdu. İlahi, dəhşətə bir bax! Belə möhtəşəm xalqın övladı cəbhənin bütün istiqamətlərində məğlubiyyətə uğrayıb geri çəkilən, dünyanın nifrət bəslədiyi, ölümə məhkum bir ordunun əsgəridir! Bu ağlasığmaz fikri özündən uzaqlaşdırmağa, palatanın sakitliyindən, yatağının rahatlığından həzz almağa çalışdı. Bir əsgər kimi bu günlə yaşamağa alışmışdı: axı hər dəqiqənin öz hökmü var və ətrafında nə baş verirsə, hamısı sağ qalmağın üçün böyük əhəmiyyət kəsb edir. Halbuki sağ qalmağı əsl möcüzə idi, bilirdi ki, döyüş yoldaşlarının çoxu həlak olub.

Palataya başqa tibb bacısı daxil oldu. Qarasaç, girdəsifət, bəstəboy qadın idi. Bayaq bağıran xəstəyə yaxınlaşdı, zavallının bütün bədəni gipsdə idi, üz-gözü sarğıdan görünmürdü. Qadın əyilib ana nəvazişi ilə dedi:

– Hə, əziz Erix, sakit olun, həyəcanlanmayın. Şərq cəbhəsində deyilsiniz ki! Burda, Qratsda, təhlükəsiz yerdəsiniz. Hamı qayğınıza qalır, su istəyəndə, xahiş edirəm, sakitcə əlinizi uzadıb başınızın üstündəki zəngin düyməsini basın. Bir stəkan suya görə bağırmaq nəyə lazımdır? – qadın xəstəni yüngül məzəmmət elədi.

– Cənab mayor, həm də qraf! O adət edib ki, nökərlər həmişə qulluğunda dursun, orduda adyutantı yanında olub. Bu səbəbdən, cənab mayorun kiçik hövsələsizliyini başa düşüb bağışlamaq olar, düz demirəm, əziz Mariya bacı? – qonşu çarpayıda uzanmış xəstə gülümsündü. Başı tənziflə sarınmış bu adam kapitan Karl Lixtenberq idi. Slovakiyada partizanlarla döyüşdə yaralanmışdı və bu palatada çoxdan yatırdı. Uzun müddət müalicə alırdı və həkimlərin etirafına görə, görmə qabiliyyətini tam bərpa etmək mümkün deyildi.

Tibb bacısı palatadan çıxanda küncdəki çarpayının yanında ayaq saxlayıb gülümsündü və nəvazişlə dedi:

– Əziz Mehdi, bizim mələklər ocağına xoş gəlmisiniz! Narahat olmayın, tezliklə yaralı qanadlarınızı müalicə edəcəyik. Quş kimi pərvazlanıb gəldiyiniz yerə qayıdacaqsınız...

Tibb bacısı bunu deyib Mehdinin yastığını və adyalı rahladı.

– Hörmətli bacı, qayğıya görə dərin təşəkkürümü bildirirəm. Ancaq, zəhmət olmasa deyin, bura necə düşmüşəm? Özümü çox pis hiss edirəm, hərarətim düşmür, amma bədənimdə sarğı gözə dəymir. Başımda uğultu var, ağrıyır. Çox yatmışam, yəqin, ona görə beyin fəaliyyətim pozulub, kim olduğumu da xatırlaya bilmirəm.

– Baş zədələnəndə xəstənin vəziyyəti belə olur. Beyin çox şiddətli silkələnməyə məruz qalıb, həm də sarılıq xəstəliyinin ağır formasına tutulmusunuz. Siz yuxuda ikən başınızdakı yaralar sağaldı, ona görə də dünən sarğını açdıq. Amma sizi əmin edirəm, yaxın günlərdə yaddaşınız bərpa olacaq. Düşünürəm, olub-keçənləri tamam unutmaq və həyata sıfırdan başlamaq sizin üçün heç də pis olmazdı.

– Başım uğuldayır, mənə elə gəlir ki, ətrafımda dəhşətli döyüş gedir, qasırğa tüğyan edir. Birdən sanki sükuta bürünmüş kimsəsiz adaya düşürəm. Bura isə mənə cənnəti, sevgi və xoşbəxtlik adasını xatırladır.

– Sükuta bürünmüş ada barədə dediklərinizdə həqiqət var. Çünki hospitalda bu sakitlik baş tibb müşaviri, podpolkovnik Leytnerin səyi ilə qorunur, çox təcrübəli, bacarıqlı və insanpərvər adamdır. Amma hər ayın ilk günü hospitala SS polkovnikinin başçılığı ilə yoxlama briqadası gəlir. Bu polkovnik özünü dəymədüşər balerina kimi aparır, kabinetdə oturmaqdan dizləri şişib, ürəyi də daşdandır.

– Mənimçün nə fərqi? Kim olduğumu xatırlamasam da, cəbhədə dəymədüşər balerinaları çox görmüşəm. Açığı, belə adamlardan zərrə qədər də qorxmuram!

– Dəyanətli adama oxşayırsınız, sizin kimi düşmənimin olmasını istəməzdim. İndi isə, Mehdi, yaxşısı budur, bir az dincəlin. Şam yeməyinə az qalıb. Sizə tam sakitlik və istirahət lazımdır, hərarətiniz də hələ yüksəkdir.

Tibb bacısı ilə söhbət əsnasında Mehdinin təsəvvüründə iki il əvvəl baş vermiş dəhşətli, tükürpədici mənzərələr canlandı. Bu xatirələr Moskva ətrafında və Stalinqrad uğrunda gedən döyüşlər, alman əsirliyində keçirdiyi dəhşətli günlərlə bağlı idi. O vaxt Mehdiyə elə gəlirdi ki, daha çıxış yolu yoxdur, sonu gəlib...

Tibb bacıları tezliklə təkərli arabada şam yeməyi gətirdilər. Bacılardan biri Mehdiyə yaxınlaşıb ətirli toyuq şorbasını onun qarşısına qoydu, qaşığı Mehdinin ağzına yaxınlaşdırmazdan əvvəl şorbanı üfürüb soyutdu. Hər dəfə üfürəndə dodaqlarını yumurlayıb irəli uzatması Mehdiyə ləzzət verirdi, qızın bu hərəkəti ürəyinə yağ kimi yayılırdı, şorbanı içdikcə mədəsində istilik duyurdu.

Həvəslə yeyirdi, hiss edirdi ki, itirdiyi gücün cüzi bir hissəsi bərpa olunur. Düşündü ki, gərək şorbanı kömək olmadan özü yeyəydi. Bununla belə, tibb bacısına imkan verdi ki, onu yedizdirsin, özü isə diqqətlə qızın çöhrəsinə, saçlarına və mavi gözlərinə baxıb həzz alırdı. Amma cəmi yeddi qaşıq yeyə bildi, iştahası küsdü, uşaq kimi üz-gözünü turşudub başını buladı. Tibb bacısı gülümsəyib zarafatından qalmadı:

– Əgər əsgər olmasaydın, düşünərdim ki, aktyorsan...

– Siz isə tibb bacısı olmasaydınız, şübhəsiz, model kimi hamını heyran qoyardınız, əvəzində də çoxlu pul qazanardınız.

– Söz danışdın da! Bircə modelimiz çatmırdı! Mehdi, burada özünü evdəki kimi hiss edə bilərsən. Kim bilir, bir də belə fürsət əlinə nə vaxt düşəcək? Buradakı yeməklərin çeşidi az olsa da, dadlıdır. Xəstələr çox bəyənir. Xüsusən, Şərq cəbhəsindən gələnlər. Burada beləsi çoxdur. Deyirlər, orada əsgərlər acından qırılır.

– Hə, əziz bacım, əsir düşərgəsində, həqiqətən, aclığın nə olduğunu, insanı nə günə saldığını öz gözlərimlə görmüşəm. Ac adamlar qoyun sürüsünə, ya da vəhşi heyvana çevrilir. Ancaq bu barədə danışmaq istəməzdim... Hərdən qan-tər içində diksinib yuxudan oyanıram. Mənə elə gəlir ki, hələ də əsirlikdəyəm. Bu xəstəxana, palata isə sanki yuxuma girib. Düşünürəm: indi gözümü açıb gerçəkliyi – əsir düşərgəsini görəcəyəm!

– Bəxtin gətirib ki, partlayışda başın dibindən üzülməyib. Belə kəllə zədəsində şüur çox vaxt reallıqla əlaqəni itirir. Qoy yuxuda gördüyün dəhşətlər səni narahat etməsin. Hələ cavansan, canın suludur, hər şey düzələcək. İndi yalnız bir şeyə ehtiyacın var: yuxuya! Yatsan, gücün bərpa olunacaq.

Tibb bacısı gülümsünüb onun yastığını rahladı, sonra digər xəstəyə yaxınlaşıb onu da tələsmədən, qaşıqla yedizdirməyə başladı. Bu xəstənin hər iki qoluna gips qoyub sarımışdılar, ona görə də qaşıq tuta bilmirdi. Tibb bacısı gedəndən sonra ətir qoxusu bir müddət otaqda dolaşdı, Mehdi də bu xoş ətri ciyərlərinə çəkib gözlərini yumdu.

Abşeron yamaclarında da yaz çiçəkləri belə ətir saçırdı. Bakıda keçirdiyi xoşbəxt gənclik illəri yadına düşdü, qəlbi riqqətlə döyündü. Valideynlərini erkən itirmişdi, əvvəl nənəsi, sonra da xalasının himayəsində yaşamışdı. Ata nəzarəti olmadan böyüdüyü üçün yüyənsiz at kimi idi, vurğunu olduğu Abşeron çöllərində gecə-gündüz yorulmaq bilmədən çapırdı. Yaşıdları çətinliyə düşəndə anasının ətəyi altında gizlənirdi, Mehdi isə hər vəziyyətdən çıxış yolunu özü tapmalı idi.

Nənəsi və xalası xasiyyətcə çox mülayim adamlar idi, Mehdiyə heç bir qadağa qoymurdular. On iki yaşına çatanda boy-buxunlu oğlan olmuşdu. Mehdi ağıllı oğlan idi, sirrini kimsəyə verməzdi. Hər şeydə yaşıdlarından fərqlənirdi, dərsləri yaxşı mənimsəyir, biliyi ilə müəllimləri heyran qoyurdu. Nümunəvi şagird olsa da, dəcəl idi, ipə-sapa yatmırdı, hərdən aləmi qatıb elə aradan çıxırdı ki, sonradan kimsə onun günahını sübut edə bilmirdi.

Ailə əvvəllər Abşeronda yaşadığı üçün balaca Mehdi asudə vaxtını həyət-bacada keçirməyə alışmışdı. Səhərdən-axşamadək küçədə oynamaqdan yorulmurdu. Amma məktəb yaşına çatanda Bakıya köçdülər. Mehdi ilk gündən şəhərdə çoxlu dost tapdı, tezliklə yaşıdları arasında liderə çevrildi. On beş yaşlı Mehdi nəinki məhəllədə, həm də sinif yoldaşları arasında dərin hörmət qazanmışdı. Dostları hər şeydə onunla məsləhətləşir, bir sözünü iki eləmirdilər. Hospitalda gördüyü gözəl alman qızı Mehdiyə sevgilisi Əzizəni xatırladırdı. Əzizə qarasaç, tibb bacısı isə sarısaç idi, buna baxmayaraq, hər ikisi özünü ləyaqətlə

aparır, baxışları ilə adamın qəlbini ovsunlayırdılar. Əzizə ondan üç yaş kiçik olsa da, çox ağıllı və istedadlı qız idi. On altı yaşlı məktəbli qızın Mehdiyə həsr olunmuş "Əzrayıl" adlı hekayəsi mətbuatda dərc edilmişdi. Mehdi əvvəlcə Moskvanı, sonra isə Stalinqradı faşistlərdən müdafiə edəndə Əzizədən çoxlu məktub almışdı, hamısını da əzbərdən bilirdi. Əzizə ilə eyni fakültədə oxumuşdular, qız təhsilini bitirəndən sonra ucqar dağ kəndlərindən birinə müəllim kimi işləməyə getmişdi. Kənddən ona məktublar göndərirdi, Mehdi də onların sayını əzbər bilirdi – Əzizə altı məktub yazmışdı. Mehdi Stalinqrad uğrunda döyüşlərdə əsir düşmüşdü. Faşistlər bu şəhərə girəndə hələ bilmirdilər ki, bir neçə aydan sonra bura onların məzarına çevriləcək. Mehdi əsir düşəndə Əzizənin məktubları çadırdakı kiçik çantada qalmışdı...

*Mən sənə aşiqəm, gəzmə aralı,*
*Nazlı baxışından oldum yaralı.*
*Bu zümrüd yamacın sənsən maralı,*
*Mən sənin heyranın olaydım, ay qız!*

*Gözlərin canalan, qaşın qaradır,*
*Qəlbimin çöhrəsi sənsiz yaradır,*
*Bir düşün, zavallım, bura haradır?*
*Mən sənin qurbanın olaydım, ay qız!*

*Mənə üz verəcək yenə yüz kədər,*
*Çəkdiyim zəhmətlər olarsa hədər,*
*Yazığın gələydi mənə bir qədər,*
*Yanında mehmanın olaydım, ay qız!*

*Uzaq bir üfüqdə, günəş batanda,*
*Sənsə evə gəlib yorğun yatanda,*
*Üstünə bir güllü yorğan atanda,*
*O güllü yorğanın olaydım, ay qız!*

*Vəfasız dünyaya uyma, yalandır,*
*Tanrı verdiyini geri alandır,*
*Dünyada yaxşılıq bircə qalandır,*
*Mən sənin qadanı, alaydım, ay qız!*

***M.Hüseynzadə***

Mehdi hospitalda hər dəfə huşunu itirəndə ötən günlər gözü önündə canlanırdı. Röyalar elə gerçək və inandırıcı idi ki, bəzən çaşbaş qalırdı: hospitalda yatması yuxudur, yoxsa gerçəklik? Yüksək hərarət huşunu aparırdı, yuxulu vəziyyətdə xəyalən keçmişə, müharibənin ilk günlərinə qayıtdı.

Bazar, 22 iyun 1941-ci il. Qızmar yay günlərindən biri. Bakı radiosu xəbər verir ki, Hitlerin silahdaşı Rudolf Hess[1] İngiltərəyə səfər edib, günorta isə faşist Almaniyasının Sovet İttifaqına hücumu barədə şəhərdə şayiələr dolaşmağa başladı.

Bakıda kimsənin ağlına gəlməzdi ki, böyük ölkənin qərb sərhədləri – Finlandiyadan tutmuş Qara dənizə qədər olan ərazi almanların dörd milyonluq ordusunun təcavüzünə məruz qalacaq və Sovet qoşunları bu hücuma hazırlıqsız yaxalanacaqlar.

Mehdi təhsil illərində hər bazar günortadan sonra dostları ilə futbol oynayırdı. Əla hücumçu olsa da, adətən, qapını qoruyurdu. Yaxşı fəhmi vardı, topun qapının hansı küncünə yönələcəyini əvvəlcədən bilirdi, heç vaxt da yanılmırdı. Şübhəsiz, hücumçu qismində komandasına daha çox xeyir verib qol vura bilərdi. Amma o vaxtlar adamların şəxsi təşəbbüsü heç də məqbul qarşılanmırdı. Kommunist partiyasında da vəziyyət eyni idi: kollektivçilik əsas meyar sayılırdı. Sovet İttifaqında insanın şəxsi rəyi, fikir və arzusu ilə hesablaşmırdılar, hər şey partiya və dövlətin iradəsinə tabe olunmuşdu.

Doğma komandasının qapısını çoxsaylı toplardan qoruyanda Mehdinin ağlına da gəlməzdi ki, üç aydan sonra Vətənin müdafiəsinə qalxanlardan biri olacaq. Bakılılar Qərbi Avropada gedən cahan savaşını o qədər də ciddi müzakirə etməyib deyirdilər ki, Almaniya Sovet İttifaqının müttəfiqidir, ölkəni işğal etməz. Bəziləri isə israr edirdilər ki, Rusiyaya yalnız Yaponiya hücum edə bilər...

– Mehdi, bəlkə, köhnə yerimizə, kafeyə gedək? – soyunub-geyinmə otağında dostu Novruz ona yaxınlaşdı.

Cavanlar, adətən, məşqdən sonra hamamda çimirdilər. Mehdi duşdan sonra özünü çox qıvraq hiss edirdi. Oyunda çox yorulmurdu, qapıçı meydançada ora-bura qaçmır, mübarizəni izləyib qapıya yönələn topları geri qaytarır. Bu da qapıçıdan xüsusi diqqət və müşahidə qabiliyyəti tələb edir... Dostlar söhbət edə-edə idman kompleksindən uzaqlaşıb ağacların kölgə saldığı küçə ilə kafeyə üz tutdular. Yolda Mirdamədə

[1]**Rudolf Hess (alm. Rudolf Walter Richard Hess)** (26.04.1894 – 17.08.1987) – Hitlerin müavini. 1941-ci il mayın 10-da Böyük Britaniya ilə sülh danışıqları aparmaq üçün Şotlandiyaya üz tutur, nəticədə Hitlerin qəzəbinə tuş gəlib uzun müddət azadlıqdan məhrum edilir.

rast gəldilər. Hündürboy, qədd-qamətli, damağında papiros tüstülədən bu oğlanı Mehdi çoxdan tanıyırdı, qonşu idilər. Görüşüb hal-əhval tutdular. Novruz Mirdamədə dedi ki, yaxınlıqdakı mağazada tennis ayaqqabısı satılır. Novruz bu ayaqqabıları iki həftə əvvəl görmüşdü, almaq üçün ürəyi gedirdi. Mirdaməd və Novruz mağazaya getdilər, Mehdi isə onları kafenin qarşısında gözlədi. İçəridən qəhvənin məstedici ətri gəlirdi. Günəş göydən od ələyirdi, kafenin həyətində isə kimsə gözə dəymirdi, bir-iki sahibsiz it sərinləmək üçün özünü yaxınlıqdakı ağacın kölgəsinə vermişdi.

– Cavan oğlan, cəmi üç qəpiyə fala baxıb gələcəkdən xəbər verə bilərəm! – arxadan qadın səsi gəldi.

Mehdi çevriləndə qarşısındakı qaraçını gördü. Yaşını müəyyən etmək mümkün deyildi: güllü ətək geymişdi, gülümsəyəndə də qızıl dişləri parıldayırdı. Qadın razılıq gözləmədən Mehdinin əlini dartıb ovcuna aldı.

– Hə, orada nəsə yazılıb? – Mehdi saymazyana soruşub gülümsündü.

Qadın onun ovcunu xeyli nəzərdən keçirdi, sonra başını qaldırıb Mehdiyə baxdı. Qaraçının qəribə gözləri vardı – biri mavi, digəri isə şabalıdı rəngə çalırdı. Nəhayət, dilləndi:

– Ovcunda yazılıb ki, səni uzaq yol gözləyir. Bu yol sənə uğur qazandıracaq. Cavan oğlan, xoşbəxt adamsan. Ömrün qısa görünür, amma məşhurlaşıb milyonlar qazanacaqsan, dünyadan da vaxtsız köçəcəksən!

Mehdi qaraçıya üç qəpik verdi. Mirdaməd və Novruz qayıtmışdılar, Mehdini səsləyib birlikdə kafeyə girdilər. Hər bazar olduğu kimi, içəridə bu gün də qələbəlik idi, müştəri əlindən tərpənmək olmurdu, sanki arı yuvasına girmişdin. Dostlar müştərilərin səs-küyündən belə başa düşdülər ki, nəsə fövqəladə hadisə baş verib. Adamlar adəti üzrə masa arxasında yox, kafenin bir küncünə toplaşıb nə barədəsə qızğın müzakirə aparırdılar. Tezliklə anlaşıldı ki, söhbət müharibədən, Almaniyanın təcavüzündən gedir.

Stalinin radiomüraciətindən[1] bir həftə keçmişdi. Həmin çıxışında ölkə başçısı vətəndaşlara ilk dəfə “qardaşlar və bacılar” deyə müraciət edib bildirmişdi ki, Vətən böyük təhlükədədir, alman qoşunları Sovet İttifaqının sərhədlərini pozub, torpaqları işğal edib. Üç gündən sonra Mehdi mavi zərfdə bildiriş aldı. Burada yazılmışdı ki, bu gündən Qızıl Ordunun əsgəri sayılır və gələn həftə Moskvadakı minaatanlar məktəbində olmalıdır. Mehdi burada iki ay təlim keçdi, müharibə

[1]**Stalinin radiomüraciəti** – SSRİ Dövlət Müdafiə Komitəsinin sədri İ.V. Stalinin 1941-ci il iyulun 3-də radio ilə xalqa müraciəti nəzərdə tutulur.

şəraitinə görə birillik tədris proqramı qısa hazırlıqla əvəz edilmişdi, üstəlik, səhra şəraitində fəaliyyət göstərə biləcək xüsusi kəşfiyyatçılar kursunu da bitirdi. Sentyabrda Mehdiyə kiçik leytenant rütbəsi verib, 62-ci diviziyanın 5-ci piyada alayının minaatanlar taqımının komandiri təyin etdilər. Diviziyanı Moskva ətrafındakı müdafiə halqasının axırıncı cinahında yerləşdirdilər. Əsgərlər səngərə çəkilib almanların nə vaxt hücuma keçəcəyini gözləyirdilər. İlk günlər döyüşçülər istehkamlarda genişləndirmə və bərkitmə işləri aparırdılar. Havalar isti və quraq keçirdi, səmada bir dənə də bulud gözə dəymirdi. Belə hava hərbi əməliyyatlar üçün çox əlverişli sayılırdı.

İsti yay axşamlarında əsgərlər tonqal ətrafına toplaşıb mahnı oxuyur, söhbət edirdilər. Mehdinin oxumaq, çalmaq və oynamaq bacarığı hamını heyran qoymuşdu. Məşhur rus xalq mahnılarını xüsusi avazla oxuyur, dodaq qarmonikasında da məharətlə çalıb rəqs edirdi. Taqımda hamı bir-birinə rəğbətlə yanaşır, yumşaq və həlim xasiyyətli cavan komandir – Mehdiyə isə dərin hörmət bəsləyirdilər. O, taqımın bütün minaatan silahları üçün yerin düzgün seçilməsi, düşmən üçün görünməz olmasına xüsusi əhəmiyyət verir, tabeliyindəki əsgərlərlə dostcasına rəftar edirdi. İstehkamlarda bərkitmə işləri başlayandan üç gün sonra əsgərlər ilk dəfə müharibənin canlı səsini eşitdilər – uzaqdan topların gurultusu gəlirdi.

Döyüş hələ başlamamışdı, Mehdi vaxtının çox hissəsini alay qərargahında keçirir, komandir Melnikovla şahmat oynayırdı. Hər ikisi mahir şahmatçı idi. Sovet İttifaqında bu, adi hal sayılırdı, çünki şahmat populyar stolüstü oyuna çevrilmişdi. Komandirlə ustalıq səviyyəsi eyni olduğundan oyun çox maraqlı keçirdi.

Faşistlərin Stalinin əmrindən xəbərləri yox idi: “Cinahdan bir addım da geri çəkilmək olmaz!” Ali Baş Komandanın əmri müzakirə olunmurdu. Almanlar bilmirdilər ki, sovet döyüşçüləri Stalinin əmrini can-başla yerinə yetirməyə hazırdırlar. Faşistlər bir neçə aydan sonra hiyləgər “ivanlar”ın qazdığı quyuya düşəcəklərindən, dəhşətli şaxtada donub öləcəklərindən xəbərsiz idilər. Hələlik üstünlük onların tərəfində idi, ildırım sürətilə sovet məmləkətinin dərinliklərinə doğru irəliləyirdilər. Almanların hərbi gücü cəbhənin üç istiqamətində özünü aşkar büruzə verirdi, kimsəsiz kəndlərdən və çöllərdən keçib yüz kilometrlərlə yol qət etmişdilər. Onlar bu marşı “torpaqların azad edilməsi” adlandırırdılar.

Hitlerin Rusiyaya, sonra da Asiyaya sahib çıxmaq arzusu cəmi bir il sonra puç oldu. 1942–43-cü ilin qışı sərt keçdi, dondurucu şaxta

almanların kələyini kəsdi. Feldmarşal Paulusun[1] ordusu sovet qoşunlarının mühasirəsinə düşdü. Almanlar özlərini məğlubedilməz ordu hesab edirdilər, müharibənin ilkin mərhələsində dalbadal qazandıqları qələbə onların başını gicəlləndirmişdi. Düşünürdülər ki, kimsə onların hərbi gücünün qarşısında tab gətirə bilməz.

Ancaq Sovet ordusu Moskva ətrafında faşistlərin qarşısını almağa müvəffəq oldu. Almanların 2-ci tank diviziyasının beş yüz zirehli maşınından ibarət iki alayı Kremlin otuz kilometrliyinə qədər gəlib çatmış və Moskva şəhər tramvay xəttinin son dayanacağı yaxınlığında mövqe tutmuşdu. Zabitlər durbinlə Kreml qüllələrinə baxıb bir-birilərini təbrik edirdilər. Tezliklə Mehdinin xidmət etdiyi alayın da daxil olduğu 62-ci diviziya faşistləri geri oturtdu. Almanlar İkinci Dünya müharibəsində ilk ciddi məğlubiyyətlə üzləşdilər. Hitler azğın köpəyə dönmüş, az qala, iflic olmuşdu.

İndi Moskva döyüşlərini xatırlayanda Mehdinin qəlbi fərəhlə döyünməyə başladı. Təntənəli qələbədən sonra dünya gördü ki, faşistlərin məğlubedilməzliyi barədə yaradılmış xülya boş bir şeymiş!

...Hospitalda müalicədən sonra Mehdinin səhhəti yaxşılaşmış, hərarəti normallaşmış, sayıqlamaları səngimişdi. Müharibə dəhşətlərinin acı xatirələri artıq onu qarabaqara izləmirdi. İndi daha çox həyatının ürəkaçan hadisələri kino lenti kimi gözü önündə canlanıb ona ruh verirdi. Moskva ətrafında ilk döyüşü yadına düşdü. Paytaxtın müdafiəsinə qalxmış hər bir əsgər kimi, onu da qorxu bürümüşdü, amma düşmənin qaçdığını görəndə uşaq kimi sevinmişdi. Bu, yaddaşında dərin iz buraxmışdı. Moskva uğrunda döyüşlər üç gün, üç gecə davam etdi. Azğınlaşmış düşmənin həmlələrinə tab gətirmək heç də asan deyildi. Hərbi sursat, ilk növbədə mina ehtiyatı tükəndi, Mehdi pulemyotun arxasına keçib son patrona qədər atəş açdı, sonra tüfəngi əlinə aldı. Həmin döyüşdə yerə sərdiyi faşistlərin sayını xatırlamağa çalışdı. Allah bilir, bu bir saat ərzində düşmənə nə qədər mərmi atmışdı? Faşistləri məhv etmək üçün əlinin altında olan hər şeydən istifadə etməyə çalışırdı. Cəbhə xəttindən 500 – 2000 metr məsafədə yerləşən minaatan silahlardan uçan mərmilər düşməni lərzəyə salırdı. Mehdi durbinlə baxıb nişançıya ucadan göstəriş verir, hədəflərin yerini dəqiq müəyyən

---

[1]**Fridrix Paulus (**alm. ***Friedrich Wilhelm Ernst Paulus*)** (23.09.1890 – 01.02.1957) – İkinci Dünya müharibəsində mühüm rol oynamış alman general-feldmarşalı. 6-cı ordunun komandanı. Stalinqrad döyüşlərində mühasirəyə düşmüş Paulusun ruslara təslim olacağını hiss edən Hitler ona: “Sizi feldmarşal elan edirəm və bunu da unutmayın ki, indiyə qədər heç bir alman feldmarşalı əsir düşməyib”, – deyir. Lakin Paulus ertəsi gün təslim olur.

edirdi. Belə döyüşdə atıcı silahların bütün növləri köməyə gəlir: yaxın məsafədən nişan alıb vurursan və düşmən səngərindəki çaxnaşmanı, canlı itkini öz gözlərinlə görürsən...

Taqım komandiri olsa da, cibində siçan oynayırdı. Çünki əsgərlər maaş əvəzinə cibxərci üçün qəpik-quruş alırdılar. Mehdinin isə nə əmanət kitabçası, nə də pulu vardı. Bir neçə ay əvvəl Bakıda qaraçı qadının dediklərini yaxşı xatırlayırdı. Qəribə də olsa, qaraçıya inanmışdı. Əmin idi ki, bu vurhavurda sağ qalacaq. Qaraçının sözləri ürəyində arxayınlıq və soyuqqanlılıq yaratmışdı. Əsgərlər arasında davanın dəhşətlərinə dözməyənlər, əsəbləri tab gətirməyib psixoloji sarsıntı keçirənlər çox idi. Amma Mehdi başqalarının ümidsiz hesab etdiyi ən gərgin vəziyyətlərdə sağlam və iti düşüncə tərzini qoruyub saxlayır, özünü itirmirdi. Bilirdi ki, problem yaranan kimi onu dərhal çözmək lazımdır, ölümün tüğyan etdiyi bir məkanda hisslərə qapılmaq olmaz! Mehdi bu həyat prinsipinə uşaqlıqdan alışmışdı. Vicdanı, saflığı və pak mənəviyyatı qoruyub saxlamaq bacarığı hər işdə əlindən tutur, təhlükələrdən yan keçməyə imkan verirdi. Dəfələrlə ölümlə üz-üzə gəlmişdi, amma bilirdi ki, səhvə yol verməyə haqqı yoxdur!

Moskva uğrunda döyüşləri unuda bilmirdi. Rus çöllərində savaşmaq əsgərlər üçün müəyyən çətinliklər törədirdi. Çöldə düşmən gülləsindən gizlənməyə, mərmilərdən daldalanmağa yer tapmırsan. Ona görə də döyüşdə fasilə yaranan kimi bel götürüb səngər qazır, minaatan silahların yerini bərkidirdi. Bununla belə, fövqəladə vəziyyətdə mövqelərdən geri çəkilmək üçün ehtiyat yollar, səngərlər qazmaq lazım gəlirdi – hamı yaxşı bilirdi ki, geriyə yol yoxdur, arxada Moskvadır! Deməli, son damla qanadək mübarizə aparmaq lazımdır! Kimsə qorxaqlıq göstərib geri qaçmaq istəsə də, mümkün deyildi. Komissar xəbərdarlıq etmişdi: fərarilər yerindəcə güllələnəcəklər! Orduda çox ciddi və sərt nizam-intizam vardı. Hücum vaxtı alayın siyasi komissarları əldə silah arxadan gəlirdilər və gözlərindən heç nə yayınmırdı...

Mehdinin alayı artıq üç gün idi ki, hücum əmri gözləyirdi. Hava xoş idi, külək buludları qovub aparmışdı. Dördüncü gün səhər uzaqdan gurultu eşidildi. Hamı düşündü ki, ildırım çaxır, göy guruldayır, indi qara buludlar gələcək, yağış yağıb bürkülü havanı sərinlədəcək. Amma tezliklə məlum oldu ki, gurultunun ildırımla heç bir əlaqəsi yoxdur, bu, alman toplarından atılan mərmilərin səsidir. Havadan barıt qoxusu gəlirdi. Gurultu səsləri getdikcə daha yaxından eşidilməyə başladı və Mehdinin alayının mövqeləri güclü top atəşinə məruz qaldı. Gənc komandir düşünürdü: döyüşdə kimin başına nə gələcəyi bəlli olmaz! Hadisələrin inkişafını, hansı məcraya yönələcəyini əvvəlcədən bilmək

mümkündürmü? Xoşbəxt sonluğu yalnız arzulamaq, ona ümid bəsləmək olar! Əgər əvvəlcədən bilsən ki, həlak olacaqsan, necə döyüşə bilərsən?

62-ci diviziyanın mövqelərinə hücum aviazərbə ilə başladı. Faşist bombardmançıları havada dövrə vurur, köksü yarılmış torpağa mərmi yağdırırdılar. Səngərdən atəş açan əsgərlərin beynində suallar dolaşırdı: müdafiə xətti zəifləsə, düşmənin qarşısını necə alacağıq? Faşistlər müdafiə xəttini yarsa, sabah, ya da bir həftə sonra cəbhədə nələr baş verəcək?

Səngərdəkilər və elə Mehdi üçün də bu, davada gördükləri ilk bombardman idi. Mərmilər torpağı sovurub havaya qaldırır, qəlpələr ətrafa sıçrayır, gurultudan qulaq tutulurdu. Toz-dumandan göz açmaq mümkün deyildi. Xoşbəxtlikdən, bu dəfə ölüm ondan yan ötdü...

Mehdi hər gün günorta qərargaha gəlib vəziyyət barədə raport verməli və yeni təlimat almalı idi. Bu gün gələndə gördü ki, qərargahda aləm bir-birinə dəyib. Çünki rabitə məntəqəsinin yerləşdiyi qazmaya mərmi düşmüşdü.

– Bəlkə, bir kart oynayıb başımızı qataq, hə? – beşinci alayın komandiri dedi.

Eynəkli, daz Peter Petroviç Boykov anadangəlmə əsgər və qətiyyətli komandir idi. Masanın üstündəki papiros kötükləri ilə dolu böyük külqabını kənara itələdi. Diviziya qərargahının komandiri, ağsaçlı, ucaboylu Krotov da fikrini dağıtmaq üçün oyuna qoşuldu.

Aramsız aviazərbələr üç gün davam etdi. Mərmilər gurultu ilə səngərlərin yaxınlığında partlayır, torpaq titrəyir, tüstü və duman ərşə qalxırdı. Düşmən hücumunu gözləmək döyüşün özündən daha ağır, həm də üzücü idi. Bu vəziyyət, demək olar, bir həftə çəkdi. Bombardmandan sonra, dördüncü gün sübhçağı, günəşin ilk şəfəqləri görünəndə alman batareyaları rusların mövqelərini minaatan silahlardan intensiv atəşə tutdular. Mehdi taqımın başında, komandir qazmasında idi. Partlayışların intensivliyi anbaan artırdı. Mehdi döyüş meydanından gələn səslərə qulaq verdi və başa düşdü ki, faşistlər minaatan silahların sayını artırıb. Bu, düşmənin xeyli irəlilədiyinə işarə idi. Mehdi həyəcanla döyüş meydanını müşahidə edirdi. Birdən faciə baş verdi: qərargahın giriş qapısının ağzına papiros çəkməyə çıxmış bir qrup zabit partlayışın hədəfinə düşdü. Məsuliyyətsizlik onlara baha başa gəldi... 122 mm-lik minaatan silahdan atılmış mərmi bir göz qırpımında yerin altını üstünə çevirib zabitlərin həyatına son qoydu. Mehdi sonradan öyrəndi ki, ölənlərin hamısı NKVD komissiyasının üzvləri imiş. Belə komissiyalar cəbhə bölgələrinə yoxlamağa gəlir, əsgərlərin döyüş ruhunu yüksəltməyə çalışırdılar.

Alman tankları gözə dəymirdi. Səngərə sığınmış döyüşçülər yenə gün boyu gözləməli oldular. Ancaq tanklar hücuma keçmədi, əvəzində təyyarələr bolluca mərmi yağdırdılar. Mehdinin alayından da bir neçə əsgər həlak oldu. Diviziya komandiri, general A.İ. Leontyev növbəti əmrlə səngərlərdə aparılan bərkitmə işlərində fərqləndiklərinə görə əsgər və zabit heyətinə təşəkkürünü bildirdi. Dərhal da xəbərdarlıq etdi ki, yaxın saatlarda alman tank və piyadalarının hücumu gözlənilir. Artıq səngərdə gözləmək vaxtı bitmişdi, göydən od ələnsə də, hücuma atılmaq lazım idi.

...Qərargah bunkeri geniş, divarlar da möhkəm idi. Amma lazımi avadanlıqla təchiz olunmuş bu divarlar da partlayışların zərbəsinə davam gətirməyib silkələnirdi. Zabitlər kart oynayırdı. Alay komandiri Boykovun əlindəki kartlar yaxşı idi, kefi kökəldi, nazik bığlarına sığal çəkib diviziya qərargahı rəisindən zarafatla soruşdu:

– Viktor Filippoviç, bilmirsiniz, dava nə vaxt bitəcək?

Krotov dərindən köks ötürüb cavab verdi:

– Deyirlər, dostları marşal Jukovun sürücüsünü öyrədiblər ki, ondan müharibənin nə vaxt bitəcəyini soruşsun. Jukov isə maşına əyləşən kimi sürücüdən xəbər alıb: “De görüm, müharibə nə vaxt qurtaracaq?”

– Hörmətli Viktor Filippoviç, davanın nə vaxt bitəcəyini mən də deyə bilərəm. Az qalıb, çox gözləmək lazım gəlməyəcək, faşistlərin hamısını gəbərdəcəyik! Qabağımıza qatıb Berlinə qədər, hətta oradan da uzağa iti qovan kimi qovacağıq!

Alay komandiri Boykovun alovlu nitqi sübut edirdi ki, bu zabit qələbəyə dərin inam bəsləyir. Kart oynayanlar gülümsünüb bir-birilərinə göz vurdular. Zabitlər hələ faşistlərlə üz-üzə gəlməmişdilər, ona görə də müharibənin sonunu təsəvvür edə bilmirdilər. Amma dillənməyib oyuna davam etdilər. Sonra Boykov “kozırları” şəstlə masanın üstünə çırpıb dedi:

– Adamın anasını belə ağlar qoyarlar, əziz Viktor Filippoviç! Necə ki, sizi uddum, bu faşist əclafların da bax beləcə əzib suyunu çıxardacağam! Ali Baş Komandan Stalinin əmri ilə!

Hərbi akademiya məzunları olan zabitlər yaxşı bilirdilər ki, əmri müzakirə etmirlər, yerinə yetirirlər!

Alay komissarı Qasımov hiss etdi ki, komandirin dediklərinə nəsə ağıllı, tutarlı əlavə lazımdır. Odur ki üzünü Stalinin divardan asılmış portretinə tutdu, əlindəki stəkanı qaldırıb dedi:

– Yoldaşlar, gəlin xalqımızın dahi oğlunun, atamızın sağlığına içək! Allah ona uzun ömür versin!

Sağlıq bir az kobud səsləndi, ancaq Stalinin dahiliyi bu hərbçilərdə şübhə doğurmurdu. Toplaşanlar Kremldə əyləşmiş sadə və ağıllı rəhbərin şərəfinə badə qaldırdılar.

– Qoy ömrü uzun olsun, onsuz biz neyləyərdik?

– Əzizlərim, əgər problemin həlli ilə şəxsən yoldaş Stalin özü məşğuldursa, onda vay faşistlərin halına!

Kəşfiyyat bölüyünün komandiri otağa daxil oldu. Mavigözlü leytenant hərbi mundirin yaxasına ağ qardeniya çiçəyi taxmışdı. O, kapitan Boykovun qulağına nəsə pıçıldadı. Tabeliyindəki zabitin sözlərini eşidən Boykov farağat dayanıb hərbi addımla general Lopatinə yaxınlaşdı. General masa arxasında əyləşib xoş xəbər eşitmək ümidi ilə əllərini ovuşdururdu. Kapitan Boykov əyilib onun qulağına uzun-uzadı nəsə pıçıldadı. Sözünü bitirəndə general razılıqla gülümsünüb üzünü zabitlərə tutaraq ucadan dedi:

– Hə, nəhayət, başlandı! Faşistlər peyda oldular, indi dərslərini verərik! Gücümüzü göstərərik! Əclafların başını əzərik! Hə, dostlar, düşmənə ağır zərbə endirməliyik! Onların bir addım da irəliləməsinə yol vermək olmaz! Bu qansızlar özlərini ağa kimi aparır, qarşılarına çıxan hər şeyi viran qoyur, qırğınlar törədir. İndi faşistlər rus ayısının iti pəncəsinin gücünü görərlər! Ölüm-dirim savaşı başlayır, yoldaşlar! Bu döyüş azğın faşistlərin sonu, bizim şanlı qələbələrin başlanğıcı olacaq!

Otaqdakılar komandanın əmrinə sevindilər. Üzləri gülürdü. Generalın sözləri döyüş əzmini artırmışdı, dalbadal badə qaldırıb qələbənin şərəfinə içdilər. Acı həqiqət – Sovet qoşunlarının Qərb sərhədlərindən Don çayına qədər geri çəkilməsi bir anlığa unuduldu. Başa düşürdülər ki, almanların hərbi yürüşünün qarşısını alıb onları bir addım da irəli buraxmaq olmaz!

– Əziz yoldaşlar! Bizim taktiki planda geri çəkilmək nəzərdə tutulmur. Müdrik yoldaş Stalin belə əmr verib və borcumuz onun bu tarixi əmrini müzakirə etmək yox, yalnız və yalnız yerinə yetirməkdir. Hamınıza məlumdur ki, yoldaş Stalinin Sovet ordusuna əmrində deyilir: "Düşmənə Sovet torpağının bir qarışını da verməyin! Əmr almadan bir addım da geri çəkilməyin!" Anamız Rusiyanın ürəyi paytaxt Moskvadır! Biz düşmənin paytaxta aparan yoluna sipər çəkməliyik! İndi ölkənin bütün vətəndaşlarının gözü bizə dikilib. Müqavimətə sinə gərmək borcumuzdur, əks təqdirdə, tarix bizi bağışlamaz! Gələcəkdə Moskvanın müdafiəçilərinin qəhrəmanlığı dərsliklərə düşəcək, tarixi romanlar yazılacaq, şanlı əsgərlərimiz barədə filmlər çəkiləcək. İndi isə, yoldaşlar, mövqelərə, döyüşçülərin yanına gedin! Əsgərlərə bildirin ki, bu gecə düşmən tanklar və piyadalarla hücuma keçəcək!

Mehdi qərargahdan çıxıb yaxınlıqdakı təpədə yerləşən müşahidə məntəqəsinə gəldi. Artilleriya durbini ilə üfüq xəttini diqqətlə nəzərdən keçirdi. İlk iki saat ərzində heç bir tərpəniş nəzərə çarpmadı. Quşların nəğməsi eşidilmirdi, onlar sanki amansız döyüşün baş verəcəyini duyub gizlənmiş, ya da uçub getmişdilər. Mehdi düşündü ki, biz quş yox, insanıq, təhlükə duyanda budaqdan-budağa qonub gizlənə, yaxud haradasa daldalana bilmərik. İnsanların müqəddəs borcu və öhdəlikləri var! Bakılı leytenant Mehdi Hüseynzadə əlində silah Moskvanı qorumalıdır. Faşistlərin yaxınlıqda olması və hücuma hazırlaşması onu əsla narahat etmirdi. Axşamçağı, günəş qüruba enəndə Mehdi alman tanklarını gördü. Uzaqdan qarışqaya bənzəyirdilər, ancaq heç on beş dəqiqə keçməmiş elə böyüdülər ki, artıq tankların üstündə əyləşmiş piyadaların silueti aydın nəzərə çarpırdı. Alman əsgərləri tank tırtıllarının, hərbi sursat daşıyan yük maşınlarının ərşə qaldırdığı tozdan qorunmaq üçün üzlərini tənziflə sarımışdılar. Hərbi geyimləri toz-torpağa bulaşmış, yorğunluq və yuxusuzluqdan gözləri qızarmışdı. Yazıq, acınacaqlı görkəmləri vardı, amma bununla belə, məğlubedilməz ordunun əsgərləri hesab olunurdular. Alman döyüşçülərinin ruh yüksəkliyi hətta uzaqdan duyulurdu, səsucaldanın ətrafa yaydığı hərbi marşın sədaları tank və motosiklet mühərriklərinin səsini batırırdı. Mehdi indiyədək bu melodiyanı heç yerdə eşitməmişdi. Amma marş sədalarından çox, piyadaların əhatəsində onlara tərəf yavaş-yavaş yaxınlaşan tankların səsinə diqqət verdi. Yalnız ön xətdəki hərbi texnikanı və əsgərləri görürdü, düşmən qüvvələri isə üfüq boyu uzanır, bitib-tükənmək bilmirdi. Çölü bürümüş toz-duman hücuma qoşulmuş texnikanın bütün miqyasını nəzərdən keçirməyə imkan vermirdi. Günəş batdı, qaranlıq çökdü, indi Mehdi heç nə görmür, səs-küydən başqa heç nə eşitmirdi. Yaxşı bilirdi ki, düşmən həmləni səhərəyaxın endirəcək, əvvəlcə toplardan və minaatanlardan yaylım atəşi açacaq, yalnız bundan sonra irəli şığıyıb müdafiə xəttini yarmağa çalışacaq.

Yəqin, həyatda döyüşü gözləməkdən üzücü heç nə yoxdur. Dəqiqə adama bir əsr kimi görünür, hər şeydən bezirsən. Səngərlərə çəkilmiş əsgərlər döyüş meydanında baş verənlərdən xəbərsiz idilər, yalnız sual dolu baxışlarla bir-birilərinə baxırdılar: "Üstümüzə neçə tank gəlir? Hamısı eyni vaxtda atəş açacaq, yoxsa tək-tək? Döyüş necə keçəcək: səngərləri minaatanlardan atəşə tutub bizi biçəcəklər, yoxsa tanklarla əzəcəklər? Geri çəkilməyə də yol yoxdur: çölün düzündə nə irəli, nə də geri gedə bilərsən!"

Mehdinin əsgərləri səngərdə əlverişli mövqe tutmuşdular. Ümumiyyətlə, müdafiə xətti yaxşı qurulmuşdu, əsgərlər vicdanla

işləmiş, dərin xəndək və səngər qazmışdılar. Bütün bunlar düşmən üçün bir xəbərdarlıq rolunu oynayırdı: on beş aylıq aramsız zəfər yürüşünün sonu çatıb, indi məğlubiyyət, qaçıb qurtulmaq barədə fikirləşmək vaxtıdır! Amma almanlar bunu başa düşmək istəmirdilər.

Hər şey sübhçağı başlandı. Müdafiə xəttində olan əsgər və zabitlər hələ belə intensiv atəşin şahidi olmamışdılar. Faşistlər yarımsaatlıq artilleriya atəşindən sonra tankları irəli göndərdilər. Rusların müdafiə xəttinin ən zəif nöqtələrinə mərmi yağdırırdılar. 62-ci diviziyanın cəbhə xətti 40 kilometrdən artıq idi. Mərmilər dalbadal partlayır, qəlpələr ətrafa səpələnirdi. Xeyli əsgər həlak oldu, Mehdi bu amansız müharibədə ilk dəfə insan ölümü ilə qarşılaşdı. Hələ ağlına gəlməzdi ki, ömrünün son gününə qədər belə ölümləri dəfələrlə görəcək...

Gözünə intendant xidməti[1] bölüyündən olan bir qrup adam sataşdı.

Söyüşürdülər, ayırd etmək istəyirdilər ki, səhra anbarından donuz cəmdəyinin yarısını kim oğurlayıb. Bu adamların dayandığı yerə mərmi düşəndə Mehdi diksindi – bir neçəsi dərhal göyə sovruldu, qalanları ağır yaralandı, xeyli əsgər kontuziya aldı...

Almanların ilk ikisaatlıq hücumunun qarşısını almaq o qədər də çətin olmadı. Məlum oldu ki, rusların müdafiə mövqeyi ustalıqla qurulub. Düşmənin yüksəkliyi almaq cəhdi hər dəfə boşa çıxırdı. Yüksəkliyə qalxmaq istəyəndə faşistlərin atəşi xeyli zəifləyirdi, bundan istifadə edən ruslar da düşmənə mərmi yağdırırdılar. Birinci döyüşdə Mehdigilin alayından iki döyüşçü həlak oldu, bir neçəsi yaralandı. Taqım cəbhə xəttindən bir az aralı idi, ona görə də əsgərlər əlbəyaxa döyüşdə iştirak etmirdilər. Üç gün ərzində Mehdinin yalnız bir minaatan silahı sıradan çıxdı – mərmi lülədən keçməyib partlamışdı. İlk hücumun almanlara çox baha başa gəldiyi məlum olanda Mehdi çox sevindi. İndi onun üçün başqa heç nəyin əhəmiyyəti yox idi. Ağır döyüşdən sağ-salamat çıxmaq böyük xoşbəxtlikdir! Faşistlərin bir neçə saatdan sonra növbəti həmləsi də Mehdini narahat etmirdi, bu barədə düşünmək belə istəmirdi. Diviziya ilk döyüşdən uğurla çıxmışdı. Bəzi zabitlər və şəxsən komandir A.Ş.Lopatin Birinci Dünya müharibəsində yaxşı döyüş təcrübəsi qazanmışdı, amma Mehdi kimi zabitlər əsl qanlı davanın acısını yalnız indi dadmağa başlamışdılar.

Hamıya elə gəlirdi ki, hərbi sursat kifayət qədərdir. Lakin döyüşlərin üçüncü günü ehtiyat tükəndi. Sursatı nə vaxt gətirəcəklər? Bunu kimsə bilmirdi. Alaydakılar elə düşünürdülər ki, rəhbərlik onları yaddan

---

[1] **İntendant xidməti –** orduda ərzaq təminatı, maliyyə və təsərrüfat işləri ilə məşğul olan xidmət

çıxarıb. 62-ci diviziyanın komandiri gün ərzində Baş Qərargahla əlaqə yaratmağa çalışdı. Amma radioqəbuledicilərin çoxu sıradan çıxmışdı, rabitə xətləri də zədələnmişdi.

Alayda ikigünlük ərzaq ehtiyatı qalmışdı, sonra o da tükəndi. Xoşbəxtlikdən, müdafiə xəttinin arxa hissəsindən bulaq axırdı, təmiz su içmək imkanı vardı. Faşistlər çayın sahilini hələ tuta bilməmişdilər, amma quraqlıq səbəbindən suyun səviyyəsi azalmışdı, deməli, düşmən də sudan korluq çəkirdi. Mehdinin minaatan taqımının yerini dəyişib atıcıların səngərində yerləşdirdilər. Düşmənin birbaşa görüntü zonasında olması Mehdini ürəkləndirdi, indi faşistləri tank əleyhinə mərmiatanla qıra bilərdi. O, mahir atıcı kimi fərqlənirdi, bu səbəbdən də ona tank əleyhinə silah etibar etmişdilər.

Ancaq tezliklə bu silah üçün olan sursat da tükəndi. Mehdi cəbhə bölgəsinə gələn könüllülərin dəstəsinə qoşuldu. Onlar sürünə-sürünə gedib içində alışqan maddə olan şüşə qabları düşmən səngərlərinə atırdılar.

Beşgünlük qanlı döyüşlər ərzində Mehdi altı düşmən tankını məhv etdi, yeddinci tankı isə döyüş yoldaşı Cavadla birlikdə partlatdı. Bu hücumlar Mehdiyə uşaq oyununu xatırladırdı. Qəlbini qəribə əminlik bürümüşdü: heç nədən qorxmurdu, hər dəfə güllə və ölüm ondan yan keçirdi. Mehdi üçün zaman sanki dayanmış, səs-küy səngimişdi. Döyüş meydanında baş verənlərə elə bil böyüdücü şüşənin arxasından baxırdı. Şəxsi təcrübəsindən bilirdi ki, əsgər döyüşdə zaman anlayışını itirir, vaxtın necə keçdiyini bilmir. Bir gün bir an kimi görünür, düşünüb-daşınmağa, gerçəkliyi dərk etməyə imkan qalmır. Adama elə gəlir ki, başının üstündən vıyıltı ilə uçan güllələr, mina və bombaların dəhşətli partlayışı, avtomatlardan və tanklardan açılan aramsız atəşlər heç vaxt bitməyəcək, döyüş günlərlə, aylarla uzanacaq. Amma tank tırtıllarının şumladığı çöldə, güllə yağışı altında bir səngərdən digərinə sürünəndə adamın ağlından cürbəcür fikirlər keçir. Sənə elə gəlir ki, cəmi bir neçə saniyə sürünmüsən. Əlbəyaxa döyüşdə isə, ümumiyyətlə, zaman anlamını itirirsən. Ona görə də hansı əsgərdən soruşsan ki, son döyüş nə qədər çəkdi, cavab verə bilməyib gözlərini döyəcək.

İçində alışqan maddə olan şüşə qablar da tükənəndə Mehdi qumbara ilə tanklara hücum etdi. Amma tanka yaxınlaşmazdan əvvəl səngərdə qalıb zirehli maşını qoruyan piyadaları güllə ilə vurub yerə sərmək lazım idi. Sonra yerə yatıb tankın səngərin üstündən keçməsini gözləyir, qalxıb arxadan ona yaxınlaşırdı. Sol tərəfdən tankın üstünə sıçrayıb tapançanın dəstəyi ilə lyukun qapağını döyəcləyirdi. Qapaq açılan kimi qumbaranı tankın içinə atıb bir göz qırpımında yerə tullanır, səngərə

qaçırdı. Mehdinin bu ildırım sürətli hərəkətlərinə kənardan baxan düşünərdi ki, o, insan qiyafəsində olan şeytandır. Səngərdə yalnız Cavadı, onun titrəyən əllə patron darağını silaha necə qoyduğunu və yaxınlaşan düşməni görür, sonra da dəqiq atəş açıb faşistləri qırırdı. Bu minvalla düşmən həmlələrinin qarşısını alırdılar. Amma azğınlaşmış faşistlərin hücumu səngimək bilmirdi. Adama elə gəlirdi ki, onların gözü qandan heç vaxt doymayacaq, geri addım atmayacaqlar. Mehdi müdrik Çin kəlamını qulağında sırğa eləmişdi: “Döyüşdə qulağınla eşitmə, çünki qulaq adət etdiyi səsləri eşidir, qəlbinlə dinləmə, çünki ürək yalnız özünə lazım olanı dinləyir. Nəfəsinlə duy, yalnız bu təqdirdə gözlənilməz təhlükəni hiss edə bilərsən!”

Əldən düşmüş Qızıl Ordu Don çayının sahilindəki mövqelərini inamla qoruyur, imkan düşən kimi əks-hücuma keçirdi. Son on gündə bəxt hərdən müdafiəçilərin, hərdən də işğalçıların üzünə gülürdü. Nəhayət, avqustun 7-də faşistlər həlledici hücuma keçdilər. Alman qoşunlarının bir qismi Don çayı sahilinin şimal tərəfindən, digər hissələr isə şimaldan cənub istiqamətinə zərbə endirdilər. İki gün davam edən amansız döyüşlərdən sonra düşmən dəstələri Kalaç şəhərinin qərb istiqamətində birləşdilər. Bununla da, sovet qoşunları mühasirəyə düşdü, onlar yalnız Don çayını keçib geri çəkilə bilərdilər. Yüz mindən çox sovet əsgər və zabiti, hərbi texnika almanların mühasirəsində qaldı. Xoşbəxtlikdən, Mehdinin alayına bundan bir qədər əvvəl arxa cəbhəyə çəkilmək əmri verilmişdi. Sonra onları Moskva ətrafındakı cəbhəyə – paytaxtı qorumağa göndərdilər. Mehdinin xidmət etdiyi diviziya nəinki müdafiə xəttini qoruyub saxladı, həm də düşməni geri oturtmağa müvəffəq oldu.

Amma bu, asanlıqla başa gəlmədi. Moskva ətrafındakı döyüşlərdə xaos hökm sürürdü. Hər iki tərəf döyüş meydanını güclü projektorlarla işıqlandırırdı. Yaralı əsgərlərin iniltisi ürək dağlayır, bombalar ölüm saçırdı. Məhz bu anlarda Mehdinin qəlbində bir hiss doğdu: faşistlərin sonu çatıb, onların məğlubiyyəti qaçılmazdır! Bu hiss öz-özünə yaranmamışdı. Qərargahda xidmət edən zabitlər Mehdinin taqımındakı əsgərlərlə çiyin-çiyinə döyüşür, həmlələrin qarşısını alırdılar. Bütün bunlar Mehdinin ürəyində bir arxayınlıq hissi yaratmışdı. Həqiqətən, get-gedə üstünlük onların tərəfinə keçdi və faşistlər geri çəkildilər. Bu, Mehdinin ən xoşbəxt günlərindən biri idi. Qaçan düşməni qovmaq, yaxalayıb əzmək geri çəkilməkdən qat-qat yaxşıdır. İnsan kimisə qovanda gözləri yalnız irəli baxır, yaxalamaq istədiyi adamdan başqa heç nə görmür! Və qollarına, ayaqlarına, ümumiyyətlə, bütün vücuduna güc gəlir! Təqibdən qaçıb qurtarmağa çalışan adamın isə, əksinə, canına qorxu düşür, taqəti tükənir və o, əvvəl-axır təslim olur!

...Hospital palatasında əvvəlki kimi sakitlik hökm sürürdü. Amma Mehdinin fikri o qədər qarışıq idi ki, yenə başından ağrı tutdu. Müharibə səhnələri yenə kino lenti kimi gözləri önündə canlanırdı. Ürəyində tibb bacısının dediyinə haqq qazandırdı. Bəli, hər şeyi unudub yatmaq lazımdır!

Gözlərini açanda böyük tibb bacısını çarpayının yanında gördü.

– Hə, indi özünüzü necə hiss edirsiniz? Əhvalınız necədir, Mehdi? Deyəsən, bir az özünüzə gəlmisiniz, rənginiz də əvvəlki kimi solğun deyil. Bilirsiniz, təlimata görə, tibb bacısı başından zədə almış xəstələrə tez-tez baş çəkməli, yatıb-yatmadığını yoxlamalıdır. Fikir vermişəm, siz həmişə, hətta yuxuda da qarnınızla nəfəs alırsınız, döş qəfəsiniz tərpənmir. Bu, çox qəribədir. Gecə növbəsində çalışan həmkarımla düşündük ki, komaya düşmüsünüz, axı sinəniz enib-qalxmırdı. Yalnız əlimi qarnınızın üstünə qoyandan sonra gördüm ki, diafraqma hərəkətdədir. Belə qənaətə gəldik ki, dərin yuxuya getmisiniz.

– Əziz bacı, yaxşı müşahidə qabiliyyətiniz var. Uşaqlıqdan beləyəm, yeni doğulmuş körpə kimi qarnımla nəfəs alıram. Uşağınız var?

– Bəli, iki övlad anasıyam. Uşaqlar gimnaziyada oxuyur – Lidiya və İvan.

– Çox gözəl. Yəqin, xatırlayırsınız, təxminən iki yaşa qədər sizin Lidiya və İvan qarınları ilə nəfəs alırdılar...

– Bəli, siz deyəndən sonra bunu xatırladım. Həqiqətən, belə idi.

– Hamımız qarınla nəfəs almağı öyrənsək, yaxşı olar. Gəlin söhbətin mövzusunu dəyişək. Məncə, alman deyilsiniz, hə? Övladlarınıza rus adları qoymusunuz...

– İraq olsun, əlbəttə ki, alman deyiləm. Bircə bu çatmırdı! Anam da, atam da slovendir. Nasistlərin bütün təbliğatına baxmayaraq, həmişə də sloven olaraq qalacağam. Hələ Birinci Dünya müharibəsinə qədər bizim gözəl Koroş diyarımız Aşağı Ştayer vilayəti kimi başdan-başa slovenlərdən ibarət idi.

– Deməli, bayaq bir tibb bacısının zümzümə etdiyi nəğmə alman mahnısı deyildi?

– Əlbəttə, bizim Betka yalnız sloven mahnılarını zümzümə edir. Bizim gözəl nəğmələrimiz var.

– Bəs adınız nədir?

– Mariya Ploynar. Ərim Natse alman ordusunda unter-zabit idi, Stalinqradda əsir düşdü, bəlkə də, artıq çoxdan ölüb.

– Mən də Stalinqradda döyüşmüşəm, sonra almanlara əsir düşdüm. Sizə deyim, bütün cəbhələrlə müqayisədə, Stalinqraddan çətin yer yox

idi. Biz şəhər kənarında vuruşurduq. Hərbi əsir düşərgəsində yoldaşlar danışırdılar ki, şəhərdəki döyüşlər daha dəhşətli olub.

Mehdi bunları pıçıltı ilə söyləyirdi, qonşu çarpayılarda uzanmış alman zabitlərindən çəkinirdi.

Mariya da Mehdiyə tərəf əyilib pıçıltıyla dedi:

– Ərimdən son məktub ötən Milad bayramında gəlmişdi. Onda mühasirəyə düşdüyünü bilmirdik. Məktubda bu barədə bir kəlmə də yazmamışdı. Əvvəlkilərdən çox qısa idi, sanki yazmağa taqəti qalmamışdı. Bildirirdi ki, sağ-salamatdır, dəhşətli şaxta var, Milad gecəsi acqarına yatmağa gedir. Məktubun qalan hissəsini senzura pozmuşdu.

– Əgər Milad bayramına qədər sağ qalıbsa, çox güman, əsir düşüb və hələ ümid var. Əziz Mariya, ümidinizi üzməyin.

– Ah, Mehdi, Tanrı ağzınızdan eşitsin. Hər axşam dua edirəm ki, sağ-salamat qayıtsın.

– Bu bir həqiqətdir ki, Rusiyada uzun illərdir belə şaxta olmamışdı, üstəlik, almanların ərzaq və silah ehtiyatı da tükənmişdi. Ən əsası, Almaniyanın məğlubedilməzliyi puça çıxdı. Ona görə də dabana tüpürüb qaçmaqdan başqa çarələri qalmadı! – xəstə gülümsündü.

– Təki mənim İvanım sağ qalaydı. Ümid edirəm, ruslar almanlardan fərqli olaraq, ona çox işgəncə verməzlər. Eşitmişəm, ruslar almanların başına oyun açır.

– Yox, slavyan slavyana zülm etməz. Buna görə narahat olmağa dəyməz, əziz Mariya. Ola bilsin, indi sizin İvan rusların təşkil etdiyi sloven könüllülərdən ibarət dəstənin tərkibində döyüşür. Məsələn, mən almanların təşkil etdiyi azərbaycanlı könüllülərdən ibarət dəstənin üzvüyəm. Bu müharibədə hər şey qarışıb. Boşboğaz Gebbelsin dediyi kimi, həqiqətən, total müharibədir. Xoşbəxtlikdən, əriniz indi məndən fərqli olaraq, bu müharibədə gələcək qaliblərin tərəfindədir. Alman təlim mərkəzində hazırlıq keçəndə hamımıza çətin idi, başa düşürdük ki, bura mehmanxana, ya da istirahət evi deyil. Mən diviziyada tərcüməçi idim. Hamını sıraya düzürdülər, ən acığım gələn Hitler və Gebbelsin çıxışlarını tərcümə etmək idi. Gərək diqqətlə, sözbəsöz çevirəsən, çünki alman zabitləri arasında Azərbaycan dilini bilənlər var. Bakıda əsrin əvvəllərində neft çıxarılan vaxtlardan şəhərimizə xeyli alman ailəsi köçmüşdü. İndi həmin ailələrin övladlarından çoxu bizim diviziyanın zabitləridir.

– Qeydiyyat vərəqində yazılıb ki, sən də zabitsən, düzdür?

– Qızıl Orduda əvvəl leytenant, sonra baş leytenant olmuşam. İndi isə Türküstan diviziyasının leytenantıyam.

– Hə, əgər zabit olmasaydın, səni ikinci mərtəbədəki palataya qoymazdılar. Burada yalnız zabitlər müalicə alır. Birinci mərtəbə isə

əsgərlər üçün nəzərdə tutulub. Orada şərait pisdir – qırx əsgər kiçik palatada yatır, onlara cəmi iki tibb bacısı qulluq edir, yeməkləri də yaxşı deyil.

– Açığını deyim, buradakı xidmət və yeməkdən şikayətlənmək günah olar. Hörmətli Mariya, siz təsəvvür edə bilməzsiniz ki, əsir düşərgəsində aclıq məni necə əldən salmışdı. Əlimizə keçəni yeyirdik. Desəm, inanmazsınız, kartof qabığı, soxulcan, çürümüş kələm və çuğundur, at leşi tapanda sevinirdik. Pişik, qarğa, başqa quşların əti ilə qidalanırdıq. Bəzən yapışqan, çiy darı, dəri kəmər, uzunboğaz çəkmə gəmirirdik, zabitlərin yeməkxanasının toz-torpağa bulaşmış tullantılarını yeyirdik. Alman təlim mərkəzində, məlum məsələdir ki, yemək bir qədər yaxşı idi, amma açığı, hospitalın yeməklərindən sonra gözümə işıq gəlib.

– Haqlısınız, əziz Mehdi, aşpazlarımız sloven qadınlardır, bacarıqlarına söz ola bilməz. Yeganə çətinliyimiz təchizatla bağlıdır – gündən-günə zəifləyir. İndi bəzi dərmanlar çatışmır... Bəli, müharibə ağır dərddir.

– Əziz Mariya, məndə təəssürat yaranıb ki, hospitalın əməkdaşları arasında yaxşı adamlar çoxdur. Xüsusən də tibb bacısı Betka xoşuma gəlir, ancaq xahiş edirəm, bunu ona söyləməyin. Belə gözələ hər gün rast gəlmək olmur. Üstəlik, hər gözəl qız başından yaralanmış nasistə qulluq etmək istəməz.

– Razıyam, bizim Betka gözəllər gözəli, həm də mələkdir! Əlləri də qızıldır! Xəstənin yatağındakı camaşırları onun kimi tez, həm də səliqə ilə dəyişən ikinci tibb bacısı tapmazsan. Hələ oxuduğu nəğmələri demirəm, bütün hospital onun heyranıdır!

Mehdi artıq özünə gəlmişdi, qaşığı əlində rahat tuturdu. Amma dərin tənəkə qabdakı naharın hamısını yeyə bilmədi. Dərhal yuxuladı – başı zədə alandan bəri ilk dəfə idi ki, bu qədər çox danışmış, həm də dadlı xörəkdən xeyli yemişdi...

## II

Hospitaldakı şam yeməyi mərcimək şorbası və kartof püresindən ibarət idi. Mehdi hər xörəkdən bir az yeyib doydu. Tezliklə kapitan Lixtenberq palataya, öz yatağına qayıtdı. Şərq cəbhəsində döyüşmüşdü və aclığın nə demək olduğunu yaxşı bilirdi. İndi bu isti yemək kapitana ləzzət verirdi.

– Deyəsən, qonağımız özünə gəlib, əhvalı da yaxşılaşıb. Deməli, cəbhədəki durumdan bizi agah edə bilər. Yoxsa, gözümüzün kökü saralıb, orda baş verənlərdən bixəbər qalmışıq.

– Cənab kapitan, mən 162-ci Türküstan diviziyası, 314-cü alayın moto-kəşfiyyat bölüyünün leytenantıyam. Komandirimiz də polkovnik

baron Peter fon Le Fortdur. Adım Mehdi, soyadım Hüseynzadədir. Başımdan zədə almışam, yaddaşım itib. Təkcə bu yadımdadır ki, qatarla Şimali İtaliyadan Sloveniyaya gedirdik, yatmışdım, heç nə xatırlamıram, – Mehdi bildirdi.

Qonşu çarpayıda uzanmış mayor sanki canlandı:

– Baronu yaxşı tanıyırdım, müharibədən əvvəl ziyafət zamanı tanış olmuşduq. Deyilənə görə, bacarıqlı, peşəkar hərbçidir.

Kapitan Karl əlavə etdi:

–Qonşu palatada yatan kapitan Tannholtser də bazar ertəsi bu partlayışdan danışırdı. Ona baş çəkməyə gələnlərdən biri xəbər verib ki, Türküstan diviziyasını aparan qatar partlayıb. Hadisə Pastoyna yaxınlığında baş verib. Dediyinə görə, ölən çoxdur. Şübhəsiz, bu təxribat yerli quldurların işidir. Sloveniyada onların sayı yağışdan sonra bitən göbələk kimi gündən-günə artır. Faşist İtaliyasının süqutundan sonra yerlilər azğınlaşıb. Yəqin, başınız qəzada zədələnib. Partlayışdan sonra vaqonlar relsdən çıxaraq dərəyə yuvarlanıb. Yaddaşınızın itməyində qəribə heç nə yoxdur. Zədədən sonra beyin, adətən, şok olur. İndi isə, cənab leytenant, icazənizlə, palatada yatan yaralı həmkarlarımı təqdim edim... Baş leytenant Avqust Naqldan başlayım. Şərq cəbhəsindən Oderin bu sahilinə, əvvəlcədən hazırlanmış ehtiyat mövqelərə geri çəkiləndə çənəsindən qəlpə yarası alıb. Danışa bilmir, amma həkimlər ümid edir ki, sağalacaq. Partlayış həm də qulaq pərdələrini zədələyib, zəif eşidir. Əvvəllər də medalı çox idi, döyüşdə yaralandığı üçün, yəqin, birini də verərlər. Onun yataq qonşusu cənab baron, mayor fon Qardenştutsla bayaq söhbət edirdiniz. Hərdən bağırıb hamının yuxusuna haram qatır. Başa düşürəm, əgər sənə bir içim su vermirlərsə, bağırmaq olar! Amma tibb bacısı bir saat əvvəl ona bir böyük bardaqda su gətirdi, cənab baron da acgözlüklə içdi. İçindəki bu yanğı hardandır, deyə bilmərəm! Sadəcə, cənab baronu yaralardan əlavə abstinent sindromu[1] narahat edir. Ərz edim ki, ona su yox, vurmağa, yəni boğazını yaşlamağa bir şey lazımdır. Dərdinə şərikəm! Əslində, elə hamımız bu sindromdan əziyyət çəkirik. Əgər cəbhədə içki verməsəydilər, əsgərlər bir-birinin boğazını gəmirərdi, heç düşmənə də ehtiyac qalmazdı. Ordu üçün içki hərbi sursatdan da vacibdir. Hospitala daxil olanda tibb bacısı dedi ki, burda gündəlik rom və ya konyak norması verilmir. Zəhmət olmasa deyin, sizdə içməyə bir şey var? Ciblərinizi yaxşı-yaxşı yoxlayın, bəlkə, dostlar hospitala yola salanda çantanıza bir şüşə içki qoyublar, hə?

---

[1]**Abstinent sindromu** – insan psixikasına təsir göstərən maddələrin qəbulunun qəflətən dayandırılması, məsələn, siqaret və ya narkotik maddələrin qəbulunun kəsilməsi nəticəsində yaranır.

Kapitanın bu sözlərinə mayor istehza ilə cavab verdi:

– Xəyallara qapılmayın, Lixtenberq. Unutmusunuz ki, hospitala daxil olan bütün yaralıların paltarını dəyişirlər? Köhnələri isə anbara göndərirlər. Bəli, nahardan sonra xahiş etdim ki, su versinlər, içmək istəmirdim, sadəcə, boğazımda sümük qalmışdı. Dünənki balıq şorbasının içi xırda sümüklərlə dolu idi, biri boğazıma ilişmişdi, zəhrimar, bütün gecəni yatmağa qoymayıb.

– Belə deyin də! Onda bağırıb hay-küy salmağınızda qəribə heç nə görmürəm. Boğazda ilişib qalmış sümük çox təhlükəlidir. Heç bilirsiniz, bu səbəbdən ildə nə qədər insan ölür? Zavallı tibb bacısı başınızın üstündəki zəng düyməsinin nə üçün olduğunu üç dəfə sizə izah etdi, düz demirəm?

– Lixtenberq, rütbəcə sizdən böyük zabitlərin işinə qarışmayın. Əgər bilavasitə tabeçiliyimdə olsaydınız, dərsinizi çoxdan vermişdim. Mənim alayımda sizin kimi boşboğazların nazı ilə oynamırlar. Əlinə kağız verib göndərirlər ön xəttə, səngərdə döyüşməyə, işin qalan hissəsini isə düşmən görür, yəni sizin kimilərin anasını ağladır!

– Cənab mayor, hədələriniz vecimə deyil. Səhhətimə görə məni ordudan tərxis ediblər, deməli, heç vaxt tabeliyinizdə olmayacağam. Mən topçuyam, siz isə piyada qoşununda xidmət edən. Cənab leytenant Mehdi, bəs siz hansı qoşundasınız?

– On ay Türküstan diviziyasının təlim mərkəzində hazırlıq keçdim. Sonra imtahan verib leytenant rütbəsi aldım, məni moto-kəşfiyyat alayına təyin etdilər. Bədbəxtlikdən, qatar qəzasında yaralandım, indi də hospitalda yatmağa məcburam.

– Eh, müharibə hələ bitməyib, dostum. Təlimdə qazandığınız bilikləri təcrübədə tətbiq etməyə vaxtınız olacaq. Səhv etmirəmsə, əvvəllər Qızıl Ordunun zabiti olmusunuz. Deməli, Şərq cəbhəsində döyüşmüsünüz. Daha doğrusu, qarşı tərəfdə!

– Bəli, əvvəl Moskva, sonra da Stalinqrad cəbhəsində vuruşmuşam. 1942-ci ilin avqustunda əsir düşmüşəm.

– Çox güman, səngərdən bir-birimizə güllə də atmışıq. Yadımdadır, Don çayı sahilində sizin 62-ci ordunun minaatanları üstümüzə mərmi yağdırıb kələyimizi kəsmişdilər, girməyə siçan deşiyi axtarırdıq.

– Don sahillərində vuruşmuşam, altı minaatan qurğusu olan bölükdən yeganə sağ qalan adamam. Amansız hücumlarınızı yaxşı xatırlayıram, təbii ki, heç vaxt da unuda bilməyəcəyəm. Yoldaşlarım hamısı həmin döyüşdə həlak oldu. Bizim taqımı yerlə-yeksan etdiniz. Əgər NKVD batalyonu köməyə gəlməsəydi, tikəmiz də qalmazdı.

– Hə, onda kifayət qədər sursat, yanacaq, ərzağımız vardı, cəsarətli idik. Havalar da isti keçirdi. Yayın qızmar çağı idi, günəş şəfəq saçırdı,

dondurucu rus qışı hələ kələyimizi kəsməmişdi. Yayın ortasında qış barədə fikirləşən kimdir? Xüsusən də Hitler! Məhz o zaman hərbi əməliyyatlara rəhbərliyi öz üzərinə götürdü. Deyirlər, Stalinlə rəqabətə giribmiş: hər ikisi eyni vaxtda Ali Baş Komandan rütbəsinə yiyələndi. Payızda Moskvanı tutub qışı orda keçirəcəyimizə əmin idik. Amma rus ayısı bizi yuvasına buraxmadı, şəhərin girəcəyində, əkinçi sərçələri qovan kimi, ağzımızdan vurub geri oturtdular. Məlum oldu ki, ruslar döyüşə böyük qüvvə cəlb edib. Getdikcə elə təəssürat yaranırdı ki, ruslara qalib gəlmək, ümumiyyətlə, mümkün deyil. Moskva ətrafında ilk məğlubiyyətə uğradıq. Növbəti qış Stalinqradda, Şərq cəbhəsində Vermaxtın qoşunları darmadağın edildi.

– Lixtenberq, bu bədbin fikirləri ürəyinizdə saxlayın! – mayor hiddətləndi. Dərrakəli, ağıllı adam idi, özü də görürdü ki, Vermaxt müharibəni uduzur, amma hamı kimi o da bu barədə başqalarının yanında danışmaq istəmirdi.

– Özünüzü ələ alın, cənab mayor, əsəbiləşmək cana ziyandır. Bizim vəziyyətdə gərək hisslərini cilovlamağı bacarasan. Ağlı başında olan adam həqiqətin gözünün içinə düz baxıb onu olduğu kimi qəbul etməlidir. Şikar ovçudan gizlənən kimi, həqiqətdən üz çevirib qaçmağın mənası yoxdur!

– Bəli, əziz Erix, tale bizi sınayır, sanki uçurumun kənarı ilə gedirik. Həyat bu gün səni göylərə qaldırır, sabah isə uçurumun dibinə yuvarlanırsan. 1941-ci ilin yayında Quderianın[1] tank qoşunları, Paulusun 6-cı ordusu, digər hərbi birləşmələr Rusiyaya hücum edəndə ruslar dərhal küncə sıxışdırıldı. Biz ildırım sürəti ilə Ukraynanın yüz min kvadrat kilometrlərlə ərazisini sovet işğalından azad etdik, bununla da bütün dünyaya hərbi bacarığımızı göstərdik. Müharibənin canı sayılan təşəbbüs əlimizdə idi. Rusiyanın içərilərinə doğru aramsız irəliləyirdik, sovetlərin ən kəskin əks-hücumu belə qarşımızı ala bilməzdi. 1941-ci ilin oktyabr ayınadək Rusiyanın Avropa hissəsinin yarısını tutub, iki aydan sonra Moskva ətrafına çatmışdıq.

– Hörmətli cənab baron, Afrika kampaniyası, Dünkerk[2] ətrafındakı uğurlu döyüşlər də ilk baxışdan zəfər yürüşünü xatırladırdı. Bəs Norveç, Yunanıstan hərbi kampaniyaları necə? Axı hər şey Britaniya adalarının işğalı ilə nəticələnməli idi. Şərqdə inamlı qələbələr, Volqa çayına çatmaq

---

[1]**Haynts Vilhelm Quderian** (alm. *Heinz Wilhelm Guderian*; 17.06.1888 – 14.05.1954) – İkinci Dünya müharibəsi dövründə alman generalı

[2]**Dünkerk** – La-Manş sahilində liman şəhəri, Parisdən 295 km şimalda, Belçika ilə sərhəddə yerləşir.

üçün qət etdiyimiz min kilometrlərlə məsafə, Leninqrad və Stalinqradın mühasirəsi də istənilən nəticəni vermədi, Qızıl Ordunu tamamilə məhv edə bilmədik. Elə təəssürat yaranmışdı ki, bütün işlər başa çatıb, yalnız xırım-xırda məsələləri yoluna qoymaq lazımdır... Həqiqətən, Stalinqradda, Volqa çayından bir neçə yüz kilometr aralıda dayanmışdıq. Həmin ərazilərdə dağıdılmış zavod və fabriklərdən, xarabalığa çevrilmiş şəhər və kəndlərdən başqa heç nə yox idi. Qərb sərhədlərindən keçib irəlilədikcə, yay kampaniyasında gördüyümüz gözəl mənzərələrlə müqayisədə bura cəhənnəmi xatırladırdı. Axı Rommel[1] də Misirin bir neçə kilometrliyinə qədər gəlib çatmışdı. Fransada, Dünkerkdə tam qələbə üçün bizə bir neçə kilometr lazım idi...

Həmişə düşməni darmadağın etmək üçün bizim cəmi bir neçə kilometrə ehtiyacımız olub. Hamımız yaxşı başa düşürük ki, əgər qalibiyyət ordusunun ehtiyat qüvvəsi çatışmırsa, irəlilədikcə arxa cəbhədən uzaq düşürsə, cinahlarda boşluqlar yaranır.

– Bəli, əziz Erix, Moskva ətrafında "ivanlar" bizə ilk dəfə diş qıcıdılar. Həmin vaxta qədər məğlubiyyətin acısını dadmamışdıq. Klaystın[2] Qafqaz qruplaşması Maykopda Sovetlərin neft emalı zavodlarını zəbt etmişdi. Alman əsgərləri heç bir müqavimətlə üzləşməyərək Nordkapda[3], Kritdə[4], Finlandiyanın şimalında və La-Manş sahillərində asudə dolaşırdılar. General-feldmarşal Ervin Rommel İskəndəriyyənin səksən kilometrliyində dayanmışdı. Alpinistlər Elbrus zirvəsinə qalxıb ora

---

[1]**Ervin Oygen Yohannes Rommel** (alm. *Erwin Eugen Johannes Rommel*; 15.11.1891 – 14.10.1944) – Faşist Almaniyasında ordu feldmarşalı, taktiki hiylələrinə görə onu "Səhra tülküsü" adlandırırdılar.

[2]**Paul Lüdviq Evald fon Klayst** (alm. *Paul Ludwig Ewald von Kleist*; 08.08.1881 – 13.11.1954) – feldmarşal. Qafqaz istiqamətində hücuma keçmiş alman tank qoşunlarının komandanı. SSRİ-nin Vladimir şəhərindəki hərbi əsir düşərgəsində müharibədən sonra vəfat etmiş yeganə feldmarşal

[3]**Nordkap** (ing. *North Cape*, norv. *Nordkapplatået*) – Skandinaviya yarımadasından şimalda, Barents dənizi sahillərində yerləşən, Norveçə məxsus Maqeyoya adasının ucqar şimal nöqtəsi. İnzibati mərkəzi adanın cənubunda olan Nordkap kommunasına daxildir.

[4]**Krit** – Yunanıstanın tərkibində, Aralıq dənizində ada. Sahəsi 8,3 min km², əhalisi 537,2 min nəfərdir. Krit qədim Egey mədəniyyətinin mərkəzlərindən biridir. E.ə. 67-ci ildə Krit Roma tərəfindən işğal edilib. 395–823, 961–1204-cü illərdə Bizansa, 823– 961-ci illərdə ərəblərə məxsus olub. 1204-cü ildə səlibçilər Kriti zəbt etmiş və Venetsiyaya satmışdılar.1715-ci ildən Osmanlı imperiyasının tərkibində idi. 1898-ci ildə Krit böyük dövlətlərin "himayəsində" muxtariyyət aldı. 1913-cü ildən Yunanıstana məxsusdur.

nasist bayrağı sancmışdılar. General Manştayn[1] iriçaplı topları, minaatanları və yeni reaktiv artilleriya qurğularını bolşevizmin beşiyi sayılan Leninqrada doğru çevirmək barədə əmr almışdı. Eyni zamanda, Paris, Vyana, Praqa və Brüssel Almaniyanın əyalət şəhərlərinə çevrilmişdi. Qələbə ovcumuzun içində idi.

Sonra isə Moskva ətrafında "ivanlar" müharibədə ilk dəfə səmada üstünlüyü ələ aldı, bu da piyadaların manevrini asanlaşdırdı. Sovet ordusunun güclü əks-hücumu bizi on kilometr geri oturtdu. Bu, yaponların Perl-Harbora[2] hücumundan bir gün əvvəl baş vermişdi. Bununla da Moskva həmişəlik əlimizdən çıxdı. Biz ilk dəfə Şərq cəbhəsində əsl məğlubiyyətin acısını daddıq, sonra günbəgün geri çəkilməyə başladıq. Şaxta kələyimizi kəsmişdi, bir tərəfdən də yanacaq qıtlığı yaranmışdı. Qısa zaman kəsiyində nizamlı surətdə geri çəkilə bilmədik. Qızıl Ordu bizi addım-addım izləyirdi, hətta döyüşlərə qısa fasilə veriləndə də arxamızda onların ölüm saçan nəfəsini duyurduq. Görünür, müharibənin birinci ilində böyük itkilərə məruz qalmış "ivanlar" strategiyanı dəyişmişdilər. Rusların bir müddət geri çəkilməsinin səbəbi vardı: onlar gözləyirdilər ki, arxa cəbhədən uzaqlaşaq, sursat və ərzaq ehtiyatımız tükənsin, bizi arxa cəbhə ilə birləşdirən kommunikasiya xətləri sıradan çıxsın. Yalnız bundan sonra bütün qüvvələri səfərbər edib əks-hücuma keçdilər. Skiflərin bu məşhur manevri çoxdan məlumdur, hələ Herodot onu təsvir etmişdi. Yeri gəlmişkən, bu manevrin adı da var: cəhənnəmsayağı təqib! Əgər skiflərin düşməni qida və su ehtiyatını artırmaq üçün dayanırdısa, skiflər yola qoyun sürüsü buraxırdılar. Məqsəd düşməni şirnikləndirib səhraya cəlb etmək idi. Onlar səhrada əvvəl-axır aclıq və susuzluqdan məhv olacaqdılar. Stalinqradda Paulusun ordusu da bu vəziyyətə düşdü.

Kapitanın bu sözlərindən sonra Mehdi ötən il Moskva ətrafındakı qış hərbi kampaniyasını xatırladı. Sovet ordusunun həlledici əks-hücumunda iştirak etmək ona da nəsib olmuşdu. Həmin gün Mehdinin iyirmi dörd yaşı təzə tamam olmuşdu. İgid əsgər üçün ən gözəl və yeganə hədiyyə döyüş meydanından düşmənin qaçması idi.

---

[1]**Erix fon Manştayn** (alm. *Fritz Erich Georg Eduard von Lewinski; 24.11.1887 – 10.06.1973*) – Üçüncü Reyxin ən məşhur generallarından biri

[2]**Perl-Harbor** – Havay adalarına məxsus Oahu adasındakı liman. ABŞ hərbi dəniz donanmasının Sakit okeandakı mərkəzi bazası burada yerləşir. 1941-ci il dekabrın 7-də Yaponiyanın bu bazaya hücumu ABŞ-ı İkinci Dünya müharibəsinə qoşulmağa vadar etdi.

Uzun söhbət Mehdini üzdü, halbuki danışmaqdan çox, qulaq asırdı. Ona görə də adyalı başına çəkib yuxuya getdi. Yuxuda həyatının ən ağır çağlarını, ötən il avqustun sonuncu günü Stalinqrad cəbhəsində almanlara əsir düşməsini gördü. Dünyada əsgər üçün əsirlikdən faciəli heç nə ola bilməz!

Stalinqrad cəbhəsində Mehdinin xidmət etdiyi 62-ci ordu birinci müdafiə xəttinin özəyini təşkil edirdi. Müdafiə qurğuları şəhərdən xeyli aralı idi, Moskva ətrafındakı döyüşlərlə müqayisədə burada savaş çox kəskin davam edirdi. Hərbi sursat azlığı yalnız üç həftədən sonra özünü büruzə verdi, bir neçə gündən sonra isə Mehdi əsir düşdü. Moskva uğrunda döyüşlərdə onların müdafiə xətti gecə-gündüz intensiv atəşə tutulurdu, Stalinqradda isə artilleriya zəif idi. Düşmən piyadaları Mehdi və yoldaşlarının döyüşdüyü səngərə fasiləsiz həmlə endirirdilər. Almanlar səhvən öz piyadalarını vurmamaq üçün artilleriyadan istifadə etmirdilər. Toplar susanda və alman piyadaları hücumu dayandıranda meydan Luftvaffenin[1] hərbi təyyarələrinə verilirdi, onlar da tonlarla mərmi yağdırırdı.

Lakin Stalinqrad uğrunda döyüşlərdə hiss olunurdu ki, almanların sursat ehtiyatı tükənib və təchizatla bağlı problemləri yaranıb. Yeri gəlmişkən, Sovet ordusunda da bu sahədə vəziyyət ürəkaçan deyildi.

Faşistlər Stalinqradın süqutunu gözləyib ümid edirdilər ki, müharibənin gedişində əsaslı dönüş yaranacaq. Amma məhz Stalinqrad döyüşləri almanların bir çoxunun gözünü açdı. Aydın oldu ki, Fürer qaniçən, səfeh adamdır, milyonlarla alman vətəndaşının həyatını mənasız yerə qurban verməyə hazırdır. Sovet komandanlığının ilkin planına əsasən, Qızıl Ordu Volqa çayına qədər geri çəkilib faşistləri çölün düzündə qışın dondurucu soyuğu ilə üz-üzə qoymalı idi. Alman hərbi birləşmələri iki qrupa bölünəndə Stalin əmr verdi: Stalinqrad düşmənə təslim olmamalıdır!

Stalinqrad uğrunda döyüşlər hələ başlamamışdı. İki ay idi, bura bir damcı yağış yağmamışdı, bürküdən nəfəs almaq olmurdu. Çay kənarında yerləşən şəhər üçün adi sayılan rütubətli havada istiyə dözmək çətin idi. Qərbdən əsən xəfif meh sərinlik gətirmir, əksinə, bürkünü daha da şiddətləndirirdi. Bu qızmar və rütubətli havada insanın normal nəfəs alması mümkün deyildi. Küçələrin asfalt örtüyündən buxar qalxırdı. Adamlar istidən qorunmaq üçün şəhərin park və xiyabanlarına üz tuturdular. Amma kimsənin ağlına gəlmirdi ki, xeyli keçəcək və bu gözəl şəhər sözün əsl mənasında cəhənnəmə çevriləcək. Qədim torpaq

---

[1]**Luftvaffe** (alm. *Luftwaffe*) – Üçüncü Reyxin hərbi hava qüvvələri



bir çox tarixi döyüşlərin şahidi olmuşdu. XV və XVI əsrdə rus süvariləri monqol-tatarlarla savaşa buradan yollanmışdılar.

Əvvəllər şəhərin adı Tsaritsın idi. 1670-ci ildə cəsur kazak atamanı Stenka Razin bu kiçik şəhərciyi tutub ətrafına qala divarları hördürmüş və amansız döyüşlər aparmışdı. Yüz ildən sonra digər kazak atamanı Yemelyan Puqaçov bu şəhərdə İkinci Yekaterinanın əleyhinə qiyam qaldırmış, nəticədə boynu vurulmuşdu. 1875-ci ildə bir fransız şirkəti Tsaritsında ilk poladəritmə zavodu tikəndən sonra burada sənaye inqilabı başlandı, əhalinin sayı yüz mini ötdü. 1920-ci ildə Stalin burada bir dəstə Qızıl Ordu əsgəri ilə bolşevik inqilabının ən əhəmiyyətli qələbələrindən birini qazandı. Ona görə də şəhərin adını dəyişib Stalinqrad qoydular. İndi isə Paulusun şanlı ordusu burada güclü müqavimətlə üzləşmişdi. Stalin əsgər və zabitlərə əmr vermişdi: “Sovet

torpağının bir qarışı da düşmənə verilməməlidir! Yuxarıdan əmr olmasa, bir addım da geri çəkilmək olmaz!”

Tanınmış rus jurnalisti İlya Erenburq “Krasnaya zvezda” qəzeti vasitəsilə əsgərlərə müraciət etmişdi:

“Əgər bir alman öldürmüsənsə, digərini də gəbərt! Faşist cəsədlərini yan-yana düzməkdən yaxşı şey yoxdur! Günləri, kilometrləri sayma. Yalnız bir şeyin hesabını apar: nə qədər faşist qırmısan? Faşistləri öldür! Analarımız gecə-gündüz yalvarır. Faşistləri öldür! Gözüyaşlı körpələr xahiş edir. Faşistləri öldür! Ana torpaq nalə çəkir. Əlin titrəməsin! Düşmənə aman vermə! Onu məhv et!”

Bir dəfə döyüş axşamadək davam etdi və Mehdi komandiri olduğu minaatan taqımını tam heyətlə – iyirmi dörd əsgər – itirdi. Hər şey ondan başladı ki, günorta mərmi tükəndi, nahardan sonra isə atıcı silahlarda da patron qalmadı. Həmin axşam Mehdi qərargah üzvləri ilə birlikdə, adi atıcı əsgər kimi, Donun sahilindəki mövqeləri müdafiə edirdi. Səngərə düşən mərmi torpağın altını üstünə çevirdi. Partlayış dalğasından Mehdi havaya uçdu, xoşbəxtlikdən, yaxınlıqdakı ot tayasının üstünə düşdü. Bəxti gətirsə də, huşunu itirdi. Kimsə avtomatın qundağı ilə onu tərpədəndə özünə gəldi. Gördüklərindən, az qala, yenidən huşu başından çıxacaqdı. Mehdi faşistlərin əhatəsində idi – anladı ki, əsir düşüb. Kiminsə kobud əlləri onu yerdən qaldırıb qabağa itələdi. Mehdi əsir düşmüş yoldaşlarını yalnız indi gördü. Tale onun və silahdaşlarının üzünə gülməmişdi: min nəfərlik alaydan kiçik bir dəstə sağ qalmış və düşmən əlinə keçmişdi. Düşündü ki, anası namaz üstündə imiş, ona görə ölməyib! Onu da əsirlərə qatıb apardılar. Həyatının son iki ilini cəbhələrdə keçirmiş Mehdi yaxşı bilirdi ki, ən çətin vəziyyətdə də ümidi itirmək olmaz! Əgər sağ qalmısansa, ağlını itirməmisənsə, əl-ayağın yerindədirsə, deməli, çıxış yolu tapmağa qadirsən! İnsan başına nə gələcəyini əvvəlcədən bilmir. Qarşıda səni nə gözləyir? Tale səni hara sürükləyir? Həmin anlarda bu mürəkkəb suallara cavab tapmaq çox çətin idi. Amma Mehdi başa düşürdü ki, həyat onu sınayır və əsirliyin əzablı yollarından keçməyə məcburdur.

* * *

– Hayl Hitler![1] – potaboy, qarnı çəlləyə bənzəyən kişi ucadan dilləndi.

Ağ xalatının altından zabit forması görünürdü, hiss olunurdu ki, sifarişlə tikilib, amma bədəninə dar idi.

---

[1]**Hayl Hitler** – Yaşasın Hitler (*alm.*)

– Ah, bu sizsiniz, cənab ali tibb müşaviri! Baş həkim, podpolkovnik Leytner! Ümidvaram, bazar günü həyat yoldaşınızla Vrbsk gölü sahilində yaxşı dincəldiniz, – tibb bacısı Mariya rəisini sevinclə qarşılayıb hörmət əlaməti olaraq uşaq kimi təzim etdi.

– Bəli, əziz Mariya, əsl romantik həftəsonu keçirdik. Gölün suyu ılıq idi, günəş canımı elə qızdırdı ki, hətta müharibəni də unutdum. Amma imkan vermədilər – iki, ya da üç dəfə başımızın üstündən Amerikanın bombardmançı təyyarələri uçdu, harasa Bavariya tərəfə üz tutmuşdular. Bunu nəzərə almasaq, yerdə qalan hər şey əla idi! Yaxşı, xəstələrin durumu necədir? Təəssüf, bu gün tələsirəm, rəhbərlik çağırıb, ona görə də xəstələrə çox vaxt ayıra bilməyəcəyəm. Sarğı materiallarını hələ gətirməyiblər? Ümid edirəm, tələsdiyim üçün palatada yatanlar günahımdan keçər, amma istənilən halda yeni xəstəmiz, cənab leytenantla hal-əhval tutmalıyam. Cənab Leytner bunu deyib küncdəki çarpayıya yaxınlaşdı. Tibb bacısı Mariya Mehdinin xəstəlik tarixçəsini ona uzatdı.

– Demək belə. Görünür, kəllədaxili zədənin müalicəsi normal gedir. Məncə, yüngül zədə idi, bunu beyin silkələnməsi hesab etmək olar. Amma partlayışdan sonra uzun müddət huşsuz vəziyyətdə qalmısınız. İndi məni daha çox sizin qan analizi narahat edir, hərarətiniz və qanda bəzi hissəciklərin yüksək olması xoşuma gəlmir. Başqa çarə yoxdur. İstirahət və pəhriz – məsləhətim budur! Hər şeydən əvvəl, yataqdan qalxmaq olmaz, sağlam yuxu bir nömrəli dərmandır.

– Ayaqlarımda, qollarımda güc qalıb ki, yataqdan qalxım? – Mehdi zəif səslə cavab verdi.

– Gözlərinizin ağı nə vaxt saralıb?

– Təxminən iki ay əvvəl qəflətən özümü çox pis hiss etdim, baxdım ki, gözümün ağı saralıb.

– Bəs niyə dərhal batalyon həkiminə müraciət etmədiniz?

– Getmişdim, cənab baş həkim, amma məni dinləmək istəmədi, söyüb qovdu. Dedi ki, asiyalı adamlar üçün gözlərin sarı olması normal haldır.

– Sən bir işə bax! Eşitdiniz də, əziz Mariya? Bu üzdəniraq həkimlər haradan peyda olur, görəsən? Bu adamın sarılıq xəstəliyinə tutulduğunu hətta birinci kurs tələbəsi də başa düşər. Yaxşı, hörmətli bacı, xahiş edirəm, bundan sonra da əziz leytenantın qayğısına qalın. Sizi tərk etməyə məcburam. Hayl Hitler!

Cənab professor Leytner dolubədənli adama xas olmayan iti addımlarla palatanı tərk etdi.

– Təlim mərkəzindəki həkim, – Mehdi xatırladı, – fırıldaqçı və qaniçənin biri idi. Nasist həkimlərin böyük əksəriyyəti indi heç kimi

müalicə etmir, yalnız günahsız adamları öldürməklə məşğuldur. Faşist cəlladlarına xəbər verirlər ki, filan əsir xəstədir, ömrünə az qalıb, işgəncə planını yerinə yetirməyə tələsin! Bəli, müharibə dünyanın nizamını pozub. Əsir düşəndən sonra başımda ağrıların əmələ gəlməsində qəribə heç nə yoxdur. Hiss edirəm ki, tezliklə qəlbim də azara tutulacaq – hər dəfə gözəl tibb bacısı Betkaya baxanda ürəyim sürətlə döyünür, pərvazlanıb göyün yeddinci qatına uçmaq istəyirəm. Bəzi əlamətlər ona dəlalət edir ki, Betka da mənə biganə deyil. Əgər xəstə olmasaydım... Amma, deyirlər, sevgi hər dərdə məlhəmdir!

Betkanın mavi gözləri barədə fikirləşə-fikirləşə yuxuya getdi.

Yuxusunda gördü ki, Bakıya qayıdıb, Abşeronun güllü-çiçəkli bağlarında dolaşır, torpağın, yaşıllığın ətrindən bihuş olub... Birdən zərif qadın əlinin ona toxunduğunu hiss etdi, bir neçə gün ərzində ürəkdən bağlandığı səs onu yuxudan oyatdı.

– Mehdi, yanınıza gələn var... Buyurun, cənab leytenant, keçin, deyəsən, xəstə yuxudan oyanır!

Yarıyuxulu vəziyyətdə düşündü ki, ömründə hələ heç vaxt yuxudan belə şirin oyanmayıb və gözlərini açdı. Amma Betka bacının gülümsər çöhrəsinin əvəzinə çarpayısının yanında bölük yoldaşı Cavad Həkimlini[1] gördü. Yaraşıqlı və cüssəli cavanın əli sarğılı idi, leytenantın əynində Türküstan diviziyasının boz-yaşıl forması vardı. Cavad gülümsünüb dostunu qucaqladı və sakitcə dedi:

– Əziz dostum, Allaha çox şükür! Səni sağ-salamat görməyimə ürəkdən sevindim. Amma hələ zəifsən, bir müddət burda qalıb müalicə alsan, yaxşı olar! Mümkün qədər qal, dincəl.

O, çarpayının kənarında oturdu və dostlar Azərbaycan dilində danışmağa başladılar.

---

[1]**Cavad Ataxəlil oğlu Həkimli** – 1914-cü il oktyabr ayının 28-də Noyemberyan rayonunun Ləmbəli kəndində anadan olub. 1936-cı ildə sovet ordusunda xidmətə başlayıb, 1938-ci ildə Tbilisi Ali Hərbi məktəbini bitirib. Taqım komandiri, bölük komandirinin müavini, batalyon qərargahının rəisi olub.

1941– 42-ci illərdə Krımda gedən döyüşlərdə iştirak edib. 1942-ci ilin mayında ağır yaralanaraq əsir düşüb. Almaniya, İtaliya və Yuqoslaviyanın hərbi əsir düşərgələrində saxlanılıb.

Düşərgədə Mixaylo – Mehdi Hüseynzadə ilə tanış olub. Onlar bir-birinə "əmioğlu" deyə müraciət etməyə başlayıblar və getdikcə səmimi dosta çevriliblər. II Dünya müharibəsinin iştirakçısı, əfsanəvi partizan Mehdi Hüseynzadənin komandiri, 162-ci Türküstan diviziyasının legioneri, İtaliya və Yuqoslaviya azadlıq hərəkatının qəhrəmanı, "Russkaya Çeta" bölüyünün rəhbəri Cavad Həkimli 27 fevral 2006-cı ildə vəfat edib.

– Cavad, nə yaxşı ki, gəldin. Əlindəki bu yaranı hesaba almasaq, şükür, görürəm yaxşısan. Gəlişinə çox sevindim. İnan, ürəyim qubar bağlamışdı...

– Sağ ol, əziz dost. Ancaq məni xilas etməsəydin, Allah bilir, indi harda idim, çaqqallara yem olmuşdum. Həyatım boyu bu yaxşılığın əvəzini ödəyə bilməyəcəyəm. Allah sənə uzun ömür versin, Mehdi.

– Cavad, başa düşmürəm nədən danışırsan? Nə xilas, nə borc? Zarafat edirsən?

– Yox, Mehdi, ciddi sözümdür. Məni ki yaxşı tanıyırsan, belə ciddi məsələ ilə zarafat etmək olmaz! Yəqin, xatırlamırsan, axı mindiyimiz qatara hücum etmişdilər...

– Xatırlamırsan nədir, ümumiyyətlə, heç nə yadımda deyil. Əvvəl baş verən hadisələr yadından çıxa bilər, amma bilmədiyin bir şeyi necə unutmaq olar?

– Həmişəki kimi haqlısan, Mehdi. Həqiqi sözümdür: məni ölümdən qurtarmısan. Buna görə sənə ürəkdən minnətdaram. Bağışla, əliboş gəlmişəm, axı xəstə yanına sovqatsız gəlmək yaxşı deyil. Məsələ burasındadır ki, Qratsa təsadüfən gəlib düşmüşəm.

– Necə yəni təsadüfən?

– Sağ əlimin baş barmağı sınıb. Məni xidmətdən azad edib sərəncama göndəriblər. Müvəqqəti olaraq kuryerlik işini tapşırıblar. Klagenfurtla Lüblyan arasında qalmışam, SS generalı Rosener üçün məktub daşıyıram. Klagenfurta isə komandan Nidermayerin məktubunu gətirmişəm, qaulyayter Raynerə çatdırmalıyam. Amerikalılar təyyarədən mərmi atıb Qrats yaxınlığındakı dəmir yolu körpüsünü partladıblar, ona görə də bizim qatar hələ vağzaldadır. Gözləyirik, yolu təmir etsinlər. Fürsətdən istifadə edib sənə baş çəkməyi qərara aldım, həm də təşəkkürümü çatdırmaq istədim.

– Spittalda İtaliyanın şimalına gedən qatara minməyimiz dəqiq yadımdadır. Sloveniyaya girəndə məni yuxu tutdu. Doqquz gündən sonra burda, xəstəxanada oyandım. Hətta bir neçə gün adımı da xatırlaya bilmirdim. İndi vəziyyətim yaxşıdır, çox şeylər yavaş-yavaş yadıma düşür.

– Bəzən sağlam adamın yaddaşı itir, qaldı ki başından ağır zədə alasan. Sağalmısan. Nə əcəb səni geri, hərbi hissəyə göndərmirlər?

– Düzdür, vəziyyətim bir az yaxşıdır, başım əvvəlki kimi ağrımır, amma sarılıq keçirdiyim üçün çox zəifləmişəm. Sarılıq məndə bir fəsad da doğurub: faşistlərin hərbi formasını görəndə ödüm ağzıma gəlir.

Dostlar doğma dildə danışırdılar, kimsənin xəlvətcə qulaq asa biləcəyindən çəkinmirdilər.

– Mehdi, ancaq bir məsələ var ki, əvvəl-axır bu formanı geyinməyə məcbur olacaqsan!

– Bu barədə bir qədər sonra danışarıq. Zəhmət olmasa, sənin həyatını necə xilas etməyimdən danış. Ümumiyyətlə, qatardakı partlayış necə baş verdi, sonra nə oldu, bizimkilərdən kim yaralandı – hamısını söylə.

– Mehdi, yəqin, səni Allah özü göndərmişdi. Partlayış zamanı məni qorudun, amma, az qala, özün öləcəkdin. Bəlkə, yadındadır, bizim bölük birinci vaqonda idi. Ümumiyyətlə, birinci vaqon həmişə təhlükəli sayılır – qəza anında bütün vaqonlardan əvvəl relsdən çıxır. Partlayışın təsirindən lokomotiv aşdı, bizim vaqonu da özü ilə bərabər dartıb apardı. Xoşbəxtlikdən, vaqon yol kənarındakı ağaclara ilişib qaldı, lokomotiv isə uçuruma yuvarlandı. Məncə, vaqon aşanda hərbi sursat partladı. Onları birinci kupeyə, ərzaqların yanına yığmışdılar. Vaqon alışdı, bizim kupeni də alov bürüdü. Sınıq pəncərədən birtəhər sürünüb vaqondan çıxdıq, ağacın kötüyündən yapışıb yavaş-yavaş aşağı enməyə başladıq. Növbəti güclü partlayış məni havaya atdı, mayallaq vurub çevrilmiş vaqonun üstünə düşdüm, alnımdan yaralanmışdım, huşumu itirirdim. Sən aşağı enməyib geri qayıtdın, alov bürümüş vaqonun üstünə dırmaşıb yanıma gəldin. Hər ikimiz zəhərli tüstüdən boğulurduq. Məni kürəyinə alıb ağacın gövdəsi ilə aşağı enməyə başladın. Ağac ikimizin ağırlığına dözməyib sındı, yerə düşdük. Məni qorudun, amma özün başı üstə yerə dəydin. Huşum özümdə idi, yalnız baş barmağım sınmışdı. Elə bilirsən, hamısı yadımdadır, sonra uşaqlar danışdılar... Xoşbəxtlikdən, partizanlar dəmir yolunu partladıb gizlənmişdi, əgər qəzadan sonra silahlı basqın olsaydı, vay halımıza! Nə isə. Stansiyada yaralıları sanitar maşınına mindirdilər. Digər bölükdən dörd əsgər həlak olmuşdu. Partlayışın zərbəsi onları vaqonun pəncərəsindən birbaş uçuruma atmışdı. Meyitləri yük maşınına qoyub apardılar. Bizim bölükdən ölən, yaralanan yoxdur, bizdən başqa.

– Bilirsən, Cavad, belə görünür, yaxşı qurtarmışıq. İndi dünyanı gəzib maraqlı şəhərlər görürsən, tarixi abidələr görürsən, mən isə burda, cənnətdəyəm, mələklər də başıma dolanır.

– Düz deyirsən, qardaş. Məni qarşılayan tibb bacısı mələk kimidir. Belə sarışın mələk adamın ağlını başından çıxarar. Amma zövqümüz fərqlidir, mən daha çox qaragöz, qaraqaş qızları xoşlayıram.

– Ay Cavad, onun sarı saçları heç mənim də xoşuma gəlmir. Amma zalım qızına çox yaraşır, səsi də cingiltilidir, bülbül kimi cəh-cəh vurur. Hər eşidəndə elə bilirəm, doğma məhəlləmizdə, küçəmizdə dolaşıram...

– Eh... Bakı... Mehdi, dərdimi təzələmə. Əgər bilsən, şəhərimiz üçün necə darıxmışam? Əzizlərimi hər gecə yuxuda görürəm, burnumun ucu göynəyir! Mənim Leylam, sənin Əzizən... Məhəllənin qızları... görəsən, haradadırlar? Mehdi, yaxşı başa düşürəm: tale elə gətirə bilər ki, onları, doğma Xəzəri bir daha görmərik. Kim bilir, sonumuz necə olacaq? Amma bu gün xoş xəbərlə gəlmişəm. Bizi Triest şəhəri yaxınlığındakı kazarmalarda yerləşdiriblər. Sənə deyim, orda özümü evdəki kimi hiss edirəm. Sanki Bakıdayam! Liman şəhəridir, Adriatik dənizi də bizim Xəzərə oxşayır. Amma suyu yaman duzludur.

– Bundan sonra nə baş verəcəyini deyə bilmərəm, ancaq Triestə qayıtmağa tələsmirəm. Burda istirahətim pis keçmir. Həm də bəzi məsələlər barədə düşünüb ətraflı götür-qoy etmək üçün ilk dəfə yaxşı imkan yaranıb. Halım yaxşıdır, hospitala gələndə günlərlə yuxudan oyanmırdım. Qəti qərara gəlmişəm: bundan sonra faşistlərin iyrənc hərbi formasını yalnız lazım olanda geyinəcəyəm. Hospitalda xəstələrə verilən geyim o mənfur hərbi formadan min dəfə yaxşıdır. Bu paltarda özümü rahat hiss edirəm. Faşist zabitləri ölüm saçır, mən isə insanlara sevinc və səadət bəxş edən zabit olmaq istəyirəm. Həyatım bahasına da olsa, məqsədimdən dönən deyiləm. Səndən bir xahişim var: Sahilyanı diyarın partizan hərəkatı ilə əlaqə yarat! Partizanların tərəfinə keçmək istəyirəm, rabitəçiyə böyük ehtiyacım var... Moskva ətrafında, Stalinqrad uğrunda döyüşlərdə faşistləri ot kimi biçirdim – sayı yadımda deyil. Ancaq, Cavad, unutma, bu yalnız başlanğıcdır. Nəyin bahasına olursa-olsun, bu qaniçənlərin axırına çıxacağam, bircə-bircə gəbərdib cəhənnəmə göndərəcəyəm! – Mehdinin səsində qəzəb və qətiyyət duyulurdu.

– Mehdi, partizanların tərəfinə keçəndə, xahiş edirəm, məni unutma! Birlikdə gedək. Qatardakı partlayışdan sonra bizi yük maşınlarına mindirib Lixtenvalda apardılar, bir müddət orda qaldıq. Sonra Lüblyana gətirib, ordan da Tolminə göndərdilər. Sənə deyim, Lüblyan çox gözəl şəhərdir. Hə, deməli, Tolmində, döyüş zamanı birinci batalyondan otuz legioner partizanların tərəfinə keçdi. Bu işdə Saşa İsgəndərovla Mixail Arşanovun əvəzsiz xidmətləri oldu. Bir neçə gün əvvəl bizim hərbi əsirlərdən ibarət mühəndis xidmətinin iki bölməsi Novo şəhəri yaxınlığında Krka çayı üzərindəki körpünü təmir etməli idi. İşdən sonra kazarmaya qayıdanda Ənvər Məmmədov yoldaşları ilə birlikdə keşikçilərin gözündən yayınıb qaçıblar. Ümid edirəm, yerli partizanlarla artıq əlaqə qurublar. Bu hadisədən sonra bizi Triest yaxınlığındakı Opçina kəndinə köçürdülər. Alay qərargahı köhnə qəsrdə yerləşir, bizə isə keçmiş İtaliya Hərbi Akademiyasının kazarmasını veriblər. Bəzi batalyonlar Trjiç, Mil və Kontoveldə yerləşdirilib. Legionerlər hərbi

hissədən qaçandan sonra diviziyada aləm bir-birinə dəyib. Bizi döyüşə göndərmirlər, yalnız Triest ətrafındakı postlarda keşik çəkməyi, patrulluq etməyi tapşırırlar. Şəhər əsgərlə doludur, restoranlarda istənilən qoşun növünün nümayəndəsinə rast gələrsən. Onlar partizanlar barədə dəhşətli əhvalatlar danışır. Dediklərinə görə, partizanlar Qızıl Ordunun əsgərləri kimi, son patrona qədər döyüşür, həm də çox cəsur və məğlubedilməzdirlər. Almanlardan da bəziləri partizanlara rəğbət bəsləyir.

– Partizanlar əsl bizim adamlardır. Allah mənə qismət etməsin ki, onlara güllə atmağa məcbur olum. Qərarım qətidir: hərbi hissəyə qayıdan kimi partizanların tərəfinə keçəcəyəm! Cavad, müqavimət hərəkatının üzvləri ilə əlaqə qurmağa çalış!

Mariya palataya daxil oldu, çöhrəsində xoş təbəssüm vardı. Qonağa nəzakətlə başa saldı ki, artıq yarım saatdan çoxdur ki, xəstənin yanındadır, Mehdiyə sakitlik və istirahət lazımdır.

– Bilirsiniz, bizim Mehdi hələ tam sağalmayıb, tez yorulur, yatıb dincəlməlidir.

Mehdi nəvazişlə tibb bacısına baxdı:

– Hörmətli Mariya bacı, qayğı və diqqətinizə görə çox minnətdaram, düzü, dostum, döyüş yoldaşım Cavadı görən kimi əhvalım yaxşılaşdı. Elə xoş xəbərlər gətirib ki, indi özümü gümrah hiss edirəm.

– Əslində, belə olmalıdır. Nənəm deyərdi: xəstə gərək hər gün xoş xəbərlər eşitsin ki, tez sağalsın, – Cavad almanca əlavə etdi və hər üçü güldü.

Dostlar qucaqlaşıb ayrıldılar. Cavad palatadakı digər xəstələrlə də səmimi sağollaşdı, hətta əlini irəli uzadıb nasist hərbi salamı verməyi də unutmadı. Mehdi başını yastığa dirəyib düşündü: hər bir insan öz taleyini yaşayır və bu taledən qaçmaq mümkün deyil. Cavadın gəlişi ona Türküstan legionunu, Polşada təlim mərkəzində hazırlıq keçdiyi günləri, həbs düşərgəsinin dəhşətlərini onunla birgə yaşamış bölük və taqım yoldaşlarını xatırlatdı. Döyüşdüyü cəbhələr ona bir qapı kimi görünürdü, hər adam bu qapıdan keçə bilmir, düşmən gülləsinə tuş gəlib həyatını itirənlər qapının arxasında qalırdı. Həyat təcrübəsindən yəqin etmişdi ki, taleyin ona göndərdiyi hər sınaq əvvəlkindən daha mürəkkəbdir. Mehdi Moskva ətrafında döyüşəndə diviziyada hər beş əsgərdən yalnız biri savaş meydanından sağ çıxa bilirdi. Stalinqrad döyüşlərində isə vəziyyət daha acınacaqlı idi. 62-ci ordunun hər yüz iyirmi əsgərindən yalnız biri döyüşdən sağ çıxırdı. Faşistlərin əsir düşərgəsində isə bu rəqəm rekord həddə çatmışdı. Mehdi və legioner yoldaşları burada üç ay dəhşətli əzab çəkdi. Yüz min hərbi əsirdən

yalnız kiçik bir qrup sağ qaldı: Mehdi, bir neçə həmyerlisi, on gürcü və beş erməni. Onlar məcburən alman könüllülər dəstəsinə üzv yazıldılar, qalanlar isə aclıq və işgəncələrə dözməyib həlak oldu.

“Məncə, düzgün qərar verdim. Sağ-salamat faşist olmaq, ölmüş rusdan daha yaxşıdır!” – Mehdi belə düşünürdü. Amma milliyyətcə alman deyildi və faşist kimi ölmək istəmirdi. Gərək canını Vətən uğrunda fəda edəsən! Deməli, Azərbaycan və Sovet İttifaqı uğrunda!

Mehdi yaxşı başa düşürdü ki, əsl döyüşçü sağlam və möhkəm olmalıdır. Hospitaldakı intensiv müalicə özünü göstərdi. Az sonra Mehdi artıq dəhlizdə və həyətdə kimsənin köməyi olmadan gəzirdi. Qüvvəsini bərpa etmək üçün hamıdan gizli gimnastika ilə məşğul olurdu. Ona sağlam ruh və sağlam bədən lazım idi, çünki qarşıdakı sınaqların çətin olacağını bilirdi. Qollarına güc gəldikcə inamı artırdı: deməli, qarşısında duran vəzifənin öhdəsindən uğurla gələcək! Bunu hansı yolla edəcəyini hələ bilmirdi, amma narahat deyildi. Başlıcası, ən mühüm suala cavab tapmışdı: Vətən uğrunda canından keçməlisən! İçində aşıb-daşan kin, nifrət və intiqam hissi faşistləri qırmağa kifayət edərdi, bunu necə həyata keçirmək isə ikinci dərəcəli məsələ idi – onu zamanın öhdəsinə buraxmışdı. Hələlik kiçik bir təxribat törətmişdi: Mehdinin hospitalda qalması alman ordusunda bir zabitin çatışmaması deməkdir və buna görə də tam sağalmaq bəhanəsi ilə burada mümkün qədər çox qalmalıdır! Bu müddət ərzində iyrənc alman hərbi formasından yaxa qurtarmaq, faşistləri məhv etmək üçün uğurlu plan hazırlamalıdır. Əsir düşməzdən əvvəl döyüşdüyü hər iki cəbhədə faşistləri kin səbəbindən öldürmürdü, sadəcə, belə lazım idi və o, zabit kimi əmri yerinə yetirirdi. Mehdi bunu ac ovçunun dovşanı təqib etməsinə bənzədirdi: ovçu dovşanı vurub yeyir və qarnı doyur. Düşmənə ona görə atəş açırdı ki, əks təqdirdə, özü məhv olacaqdı.

Həbs düşərgəsində keçirdiyi ağır günlər, işgəncə və əzablar qəlbinə sağalmaz yaralar vurub nifrət doğurmuşdu, intiqam hissi aşıb-daşırdı. Düşərgədə ilk dəfə Allahın yazdığı qismət, tale və qədər barədə düşünməyə başladı. Sovet hakimiyyəti illərində Bakıda mədrəsəyə gedənləri barmaqla saymaq olardı. Mehdi dini təhsil almamışdı. Ancaq dayısı Səlim “qismət” kəlməsini tez-tez işlədirdi, düşərgədə də həmyerlilərinin dilindən “Allah” kəlməsi düşmürdü. Namaz onların qəlbinə rahatlıq gətirən yeganə vasitə idi. Əsirlərə namaz qılmaq qadağan edilmişdi, ona görə də ürəkdə dua edib bunu ətrafdakılara bildirmirdilər. Molla demişdi ki, imkan olmayanda, belə namaz qılmaq da keçərlidir.

Mehdi üçün “qismət” məfhumu Allah tərəfindən əvvəlcədən müəyyən edilmiş bir yazı anlamına gəlmirdi. Başa düşürdü ki, insanın azad iradəsi ona tale yazısını həyata keçirməyə kömək edəcək. Amma taleyin

sənin üçün nə hazırladığını son nəfəsədək bilmirsən. Ruhun göylərə uçanda qismətin məlum olur, cismin isə torpağa qovuşur. Bu məsələlər barədə düşüncələr olan-qalan gücünü də aldı, üstəlik, Cavadın gəlişindən bərk həyəcan keçirmişdi, gözlərini yuman kimi dərhal yuxuya getdi.

Mehdi günəşli bazar səhəri hamıdan əvvəl yuxudan oyandı. Hospital xidmətçiləri yataq ağlarını dəyişirdilər. Tibb bacısı Mariya səhərlər Mehdini vanna otağına aparırdı. Burada kimsə onlara mane olmur, doyunca söhbət edirdilər. Bazar günü nahara qədər həkimlər xəstələrə baş çəkmirdilər, yaxınlarına dəyməyə gələnlərin də sayı az idi. Tibb bacısı tələsmədən vətəni Sloveniya, orada yaşayan adamlar barədə ağızdolusu danışdı.

– Nasistlər Sloveniya xalqını ölümə düçar edib. Hələ Birinci Dünya müharibəsindən başlayaraq Koroş və Şteyr vilayətində yaşayanları zorla almanlaşdırmağa başladılar. Bu müddət ərzində Sloveniya bölgələrində azadlıq uğrunda mübarizə aparan yüzlərlə vətənpərvər öldürüldü. Almanlar başımıza min oyun açdı, təkcə Koroş vilayətindən deyil, həm də Aşağı Şteyr və Qorendən bütün kişiləri davaya apardılar. Bu ildən Koroşda kəndliləri kütləvi surətdə deportasiya etməyə başlayıblar. Əvəzində bura alman ailələrini yerləşdirirlər. Vəziyyət çox mürəkkəbdir, Mehdi.

– Başa düşürəm. Mən azərbaycanlıyam. Xalqın təqiblərə, soyqırıma məruz qalmasının nə demək olduğunu yaxşı bilirəm. Bizim də tariximiz bir qədər sizin, sloven xalqının keçmişinə bənzəyir. Fərq yalnız bundadır ki, azərbaycanlılar ermənilər tərəfindən soyqırıma məruz qalıb, sovet hakimiyyəti dövründə isə bolşeviklərin əsarəti altına düşmüşük. Kiçik xalqların başı həmişə bəlada olur. Əlbəttə, mən azərbaycanlıları və slovenləri kiçik xalq hesab etmirəm. İndiyə qədər rast gəldiyim yeganə sloveniyalılar sən və Betkadır. Sənin timsalında bir daha yəqin etdim ki, slovenlər düşmənə baş əyməyən, məğrur, sadiq və cəsur adamlardır!

– Gözəl sözlərdir. Sənə baxıb inamla demək olar ki, Azərbaycan qəhrəmanlar və igidlər diyarıdır! Bizim Sloveniya kimi! Əziz Mehdi, biz, Koroş və Şteyr vilayətindən olan slovenlər təhqirə dözə bilmirik. Məsələ burasındadır ki, Birinci Dünya müharibəsindən sonra bir imza ilə bizi Avstriyaya birləşdirdilər. Amma torpaqlarımızda əsl almanlaşdırma prosesi XIX əsrin ortalarından başlayıb. O zamanlar bizim vilayət Sloveniyanın mərkəzi sayılırdı, Bismarkı[1] isə yalnız almanlaşdırılma

[1]**Otto Eduard Leopold fon Bismark-Şönhauzen** (alm. *Otto Eduard Leopold von Bismarck-Schönhausen*; 01.04.1815 – 30.06.1898) – Almaniyanın dövlət xadimi, XIX əsr dünya siyasətinə ciddi təsir etmiş şəxs. 1867-ci ildə Şimali Alman İttifaqının, 1871-ci ildə isə Birləşmiş Almaniya İmperiyasının ilk kansleri olub və yeni dövlətin möhkəmlənməsi üçün mühüm işlər görüb. Sərt diplomatiyası və güclü idarəçiliyinə görə ona "dəmir kansler" ləqəbi verilib.

maraqlandırırdı. Az sonra slovenləri sıxışdırmağa başladılar. Bu barədə mənə babam danışıb. Villaxda əczaçı idi, maraqlıdır ki, həmin binada orta əsrlərin məşhur həkimi Paratselsin[1] uşaqlığı keçib. Almanlar artıq yüz ildir Sloveniya əhalisini sistemli şəkildə sıxışdırıb doğma torpaqlardan çıxarır, bura alman kəndlilərini yerləşdirirlər. Birinci Dünya müharibəsində olduğu kimi, kişiləri yenə orduya aparır, ən təhlükəli döyüş bölgələrinə göndərirlər. Şəhərlərimizin qədim adlarını dəyişiblər, övladlarımıza məktəbdə sloven dilində danışmaq qadağan edilib, doğma dilində danışanı dərhal cəzalandırırlar. Bunun axırı necə olacaq? Bu müharibə təsadüfən başlamayıb. Sanki cərrah əlinə bıçaq alıb xərçəng şişini kəsib atmaq istəyir. Dua edib Tanrıya yalvarmalıyıq ki, bu xərçəng xəstəliyi bütün bədənə yayılıb fəsadlar törətməsin. Mehdi, Koroş və Şteyr vilayətlərində yaşayanların başına gələnlər Sahilyanı diyarın slovenlərinə yaxşı məlumdur. Fərq yalnız ondadır ki, onları italyanlar, bizi isə almanlar əzir. Şərqdə, Macarıstanda yaşayan slovenlərin də vəziyyəti ağırdır – son yüz ildə onları zorla macara çevirmək prosesi gedir. Dünya elə bil qarşısına məqsəd qoyub ki, slovenlər bir xalq kimi yer üzündən silinsin.

– Bu söhbət mənə xalqımın taleyini xatırlatdı. Əlli ildən çoxdur ki, ermənilər azərbaycanlılara qan uddurur. Doğma torpaqların yağı tapdağı altında qalmasından ağır heç nə ola bilməz. Amma ən dəhşətlisi odur ki, insan, mənim kimi, özgə torpağında da yada çevrilsin.

– Özünü üzmə, Mehdi. Həyatda adamın başına çox iş gələ bilər, əsas odur ki, sağ qalasan, əlin-ayağın, ağlın yerində olsun, sonrasını taleyin ümidinə burax. Bu müharibənin gerçəklərini zəmanənin yeganə həqiqəti kimi qəbul etməkdən ötrü özümlə uzun müddət mübarizə aparmışam. İndi anlayıram ki, gözüm kor olub, milli mənsubiyyətimə görə məruz qaldığım təhqirlərə, ayrı-seçkiliyə, şərəf və ləyaqətimin alçaldılmasına göz yummuşam. Hər şeyi sakit qəbul edib özümü elə aparırdım ki, guya heç nə baş verməyib. Dəvəquşu kimi başını kolluğa soxub yaşamaq düzgündürmü, Mehdi? Taleyinlə barışmağı bacarmalısan. Amma bu, çarəsiz xəstənin öz qədəri ilə barışıb bir gecə ölümün ağuşuna atılmasına bənzəməməlidir. Təkrar edirəm, taleyə boyun əyməyi yox, onu qarşılamağı bacarmaq lazımdır. Bu, silahı yerə qoyub mübarizəni dayandırmaq deyil. Hər şeyi olduğu kimi qəbul etməli, sonra isə həyatını dəyişdirmək üçün mücadilə aparmalısan. Qəlbin inam hissi ilə coşub-daşmalıdır, əmin olmalısan ki, həyatın gec-tez yaxşılığa doğru dəyişəcək, hər şey xoşbəxt sonluqla bitəcək! Çünki Tanrı bizimlədir, O, hamıya göz qoyur!

---

[1]**Paratsels** (1493–1541) – məşhur isveçli kimyaçı, həkim və filosof

– Bəli, əziz Mariya. Cəbhədə, düşmən gülləsi altında yeganə düzgün qərar real şəraitlə barışıb bunkerdə gizlənməkdir. Əgər bunker yoxdursa, mərmilərdən gizlənmək üçün, heç olmasa, bir çala qazmalısan. Müharibənin bu yeganə gerçəkliyinə kimsə göz yuma bilməz. Əmin-amanlıq dövründə, açığı, hərə öz kiçik dünyasında yaşayır. Müharibə isə hamıya ağır zərbə vurur, insanın önəm verdiyi, sevdiyi şeyləri əlindən alır. Ağıllı adamların böyük əksəriyyəti sülh tərəfdarıdır. Bəşəriyyət üçün ən qiymətli nemət sülhdür. Müharibə isə sülhün düşmənidir! Ona görə də müharibə dövründə azacıq da olsa daxili sakitlik, əmin-amanlıq axtarmağa məcburuq. Döyüş vaxtı bu mümkün deyil. Həyatını qurban verməyə hazır olan əsgər savaşın ən ağır anında həyat və ölüm barədə düşünür, qəlbinə etinasızlıq hissi hakim kəsilir. Bütün varlığı ilə döyüşə atılır, sağ qalmaq barədə düşünmür, amma qeyri-ixtiyari olaraq gülləden qorunmaq üçün özünə sığınacaq axtarır. Mən uşaqlıqda dini bayrama gəlmiş səmazənlərlə rəqs edib yerimdə fırlananda bu hissləri keçirmişəm. Bayram gizli təşkil olunurdu, çünki Sovet İttifaqında belə mərasimlər qadağan edilmişdi, iştirakçıları ağır cəza gözləyirdi... Amma bu dini bayramlar çox gözəl idi! Sonra mən də səmazənlər kimi rəqs edib fırlanmaq istədim, hamıdan gizli məşq etməyə başladım və məqsədə çatdım. İndi bu səma rəqsini məharətlə yerinə yetirirəm. Əlbəttə, dayandığın yerdə fırlanmaq çətin deyil, bunu uşaq da bacarar, əsas məsələ odur ki, başın gicəllənməsin.

– Haqlısan, Mehdi, həyatımız boyu nə qədər vals, polka oynamışıq, ürəkdən rəqs etmək üçün böyük enerji sərf etmişik. Bəzən vals oynayanda cütlük sürətlə fırlanır, nəticədə, başı hərlənir. Bu, unudulmaz hissdir – sevdiyin adamla vals oynayıb fırlanırsan. Səninlə birlikdə sanki dünya da fırlanır, ətrafında hər şey pərvazlanır, nəyin harada olduğunu müəyyən edə bilmirsən. Aydın gördüyün yalnız bir şey var: əlindən tutub sevgi dolu baxışlarını sənə zilləmiş bir şəxs. Əcdadlarımız valsdan zövq almağı bacarıb, sonradan, Ştraus[1] Sloveniyada kəşf olunmuş bu rəqsi nota köçürüb, Vyanaya və bütün dünyaya bəxş edib.

– Mariya, valsı çox sevirəm. İncə bir çiçəyin əlindən tutub rəqs edirsən, fırlanırsan və bu çiçəyin bənzərsiz ətrindən məst olursan... Amma səmazənlərin fırlanması ilə valsdakı fırlanma arasında böyük fərq var. Valsda qarşındakı adamın əlindən tutub fırlanırsan, bir növ

---

[1]**İohann Ştraus** (alm. *Johann Strauss* – 25.10.1825 – 03.06.1899) – XIX əsrdə yaşamış Avstriya bəstəkarı. Vals musiqisinə gətirdiyi yeniliklərlə tanınır.

özünə dayaq verirsən ki, yıxılmayasan. Səmazənlər isə təkbaşına, özü də sürətlə fırlanır, əlləri dayaq rolunu oynayır. Hətta biz, Bakıda yaşayanlar yaxşı bilirik ki, polka rəqsi kimi valsın da vətəni Vyanadır. Açığı, polkanı da çox bəyənirəm. Sloven melodiyaları ilə çoxdan tanışam, hətta musiqi alətində də ifa edirəm.

– Həqiqətən, bu rəqs bütün dünyaya Vyanadan yayılıb. Bu da İohann Ştrausun xidmətidir. Amma o zamanlar Vyana Sloveniyanın paytaxtı idi. Valsın beşiyi isə Koroş vilayəti hesab olunur, Vyanaya da oradan gəlib. Əvvəllər valsın melodiyasını Avstriya imperiyasının cənub ərazilərində yaranmış xalq mahnısı kimi təqdim edirdilər. Rəqsin adı – "Valçek" buna işarədir. Kişi və qadın rəqqasların hərəkətləri kiçik dalğanı xatırladır, almanca buna "Valçek" deyirlər. Bu rəqsin almanca adı – *"Waltzer"* "dalğa" mənasını verir. "Vals" sözü də belə yaranıb.

– Maraqlı söhbətə görə təşəkkür edirəm, əziz Mariya. Vyananı yaxşı tanıyıram, bu şəhər çox xoşuma gəlir. Alayın qərargahında vyanalı tərcüməçi var, müharibədən əvvəl Almaniyanın Ankaradakı səfirliyində çalışıb, Azərbaycan dilində səlis danışır. Qatı antifaşistdir, alman zabitlərini görməyə gözü yoxdur, tez-tez legionerlərin qonağı olur, Sovet İttifaqındakı ali təhsil sistemi ilə maraqlanır. Onunla möhkəm dostlaşmışıq. Ötən ilin mayında məni Vyanaya qonaq çağırmışdı, məzuniyyəti orda keçirdim. Müharibə şəraitinə baxmayaraq, gözəl şəhərdir, məni valeh etdi, hətta "Vyana" adlı şeir də yazdım. Dunayı Volqa və bizim Kür çayı ilə müqayisə etmişəm.

– Mehdi, şeir də yazırsan? Bunu bilmirdim...

– Necə deyim, özümü şair hesab etmirəm, amma təbi gələndə uydururam... Ümumiyyətlə, düşüncələrimi yazmağı xoşlayıram, bir də görürəm ki, şeir öz-özünə yaranıb. Musiqini çox sevirəm, gitarada çalıram. Vals melodiyasını həvəslə ifa edirəm, bu notların arxasında güclü enerji gizlənib, adama ruh verir. Təəssüf, dodaq qarmonikam bölükdə qalıb, sənin üçün çala bilməyəcəyəm...

– Ah, Mehdi, bu nə sözdür? Məgər Betka ölüb? Bir saatdan sonra gələcək, həm çalar, həm də oxuyar. Məncə, xahişimi yerə salmaz! – Mariya bunu deyib qonşu palataya getdi, xəstələrdən kimsə tibb bacısını səsləyirdi...



# DEKABR 1943-cü il

**IV**

Günəşin qızılı şüaları palataya işıq saçırdı. Mehdi səs-küyə oyandı, kimsə ucadan danışırdı. Mayor Hardaenştuts yataq yoldaşı kapitan Erixə nəyi isə başa salmağa çalışırdı, səsi elə titrəyirdi ki, sanki indi ağlayacaqdı.

– Erix, ən böyük səhvimiz onda idi ki, Qızıl Ordunun adi əsgərlərini, "ivan"ları lazımınca qiymətləndirə bilmədik. Sonra gördük ki, sovet əsgərləri mühasirəyə düşəndə də, sayca azlıqda qalanda da döyüşü davam etdirir. Bildiyiniz kimi, Quderian Rusiyanın qərb sərhədlərini keçib irəliləyəndə onun yanında olmuşam. Bəzən cəbhədə elə vəziyyət yaranırdı ki, Qərbi Avropa ölkələrinin istənilən ordusu həmin şəraitdə məğlub olardı, amma rusları sarsıtmaq mümkün deyildi. Onlar əsir düşməyin nə olduğunu yaxşı bilirdi. Anlayırdılar ki, əsirlikdə heç kim onların başını sığallamayacaq. Sovet İttifaqına hücumun ilk günündən məhz belə əsgərlərlə üzləşib böyük itkilərə məruz qaldıq.

– Hamımız, başda Hitler olmaqla, – Erix cavab verdi, – əmin idik ki, Sovet İttifaqı çürük qozdur, vuran kimi ikiyə bölünəcək. 1937-ci ildə, Stalin repressiyaları nəticəsində ordunun komanda heyətinin yarıdan çoxu məhv edilmişdi. İki il sonra Finlandiya ilə müharibədə Qızıl Ordu əvvəlcə dəhşətli məğlubiyyətə uğradı. Sovetlər yalnız böyük canlı qüvvə və artilleriya sayəsində qələbə qazandı. Mənə elə gəlir, cənab baron, "ivan"lar indi də bu taktikadan istifadə edir. Müharibənin ilk aylarında zəfər yürüşümüzün qarşısını təbiətin şıltaqlığı aldı. Yadınızdadırsa, Moskva ətrafına çatanda noyabr ayı idi. Əvvəlcə yağış, sonra da güclü qar yağdı. Hər şey əleyhimizə işləyirdi. Yağış əvvəlcə təchizat işlərini çətinləşdirib manevr imkanlarını məhdudlaşdırdı, bir-iki həftədən sonra isə güclü şaxta düşdü. Məhz həmin vaxt "ivan"lar əks-hücuma keçib bizi Moskva ətrafından geri oturtdu. Bizi Don çayına

tərəf qovurdular, donmuş torpaqda isə yeni istehkamlar qurmaq, səngər qazmaq mümkün deyildi. Təkcə 1942-ci ilin yanvarında şaxta və xəstəlik səbəbindən on iki diviziya itirdik. Bu nəinki Rusiya, həm də Qərbi Avropanın tarixində ən soyuq, ən şaxtalı qış idi. Əlimizə keçəni yandırırdıq ki, donub ölməyək. O çöllərdə bir dənə də ağac yox idi! Bax cəhənnəm əzabı onda başlandı! Bu cəhənnəmin ortasında Homerin bir fikrini xatırladım: "Başqasına bədbəxtlik arzulama, öz başına gələr!" Rusların başına gətirmək istədiyimiz Stalinqrad döyüşündən sonra öz başımıza gəldi...

– Eh, əziz Erix, heç vaxt piyada qoşunlarına həsəd aparmamışam, nə sülh dövründə, nə də onlar Moskva ətrafında şaxtadan donanda. Stalinqrad barədə isə, ümumiyyətlə, danışmağa dəyməz. Çünki insan belə şaxtaya tab gətirə bilməz. Erix, niyə məğlubiyyətdən və ordumuzun geri çəkilməsindən danışırsan, hə? Savaşdan söz düşəndə mən yalnız qələbələri xatırlamağa çalışıram. Məsələn, Parisi tutanda tankı "V Georq" hotelinin qarşısındakı çəmənliyə sürdürdüm, inzibatçılardan kimsə cınqırını çıxara bilmədi. Qırmızıyanaq inzibatçı məni təbəssümlə qarşılayıb təzim etsə də, sakitləşə bilmirdi, cib dəsmalı ilə tərini silirdi. Bəli, qalib olmaq çox gözəldir, Erix! Şampan şərabı su yerinə axırdı, fransız mətbəxinə isə söz ola bilməz! Ləziz yeməkləri var, bizim Avstriya mətbəxinə əsla bənzəmir. Fransız qızları isə... onları elə bil rəssam çəkib, heykəltəraş mərmərdən yonub. Bu qızlar eyş-işrət üçün yaranıb! İnsan gərək yaxşı şeylər barədə fikirləşsin, xoş xatirələrlə yaşasın, pisi unutmaq lazımdır! İnsan keçirdiyi iztirablardan nəticə çıxarmalı, dərs almalıdır. Ən çox nəyi arzulayırsansa, onun bir gün gerçək olacağına inan! Səhvən düşünürdük ki, "ivan"ları bir göz qırpımında darmadağın edəcəyik...

– Hörmətli cənab baron, siz ləyaqətli və hörmətli adam, həm də əsl filosofsunuz. Sizinlə bir palatada yatmaq mənim üçün böyük şərəfdir. Yaxşı ki, bura başqa xəstə gətirməyiblər.

Bir neçə ay eyni palatada müalicə alan mayor və kapitan həvəslə söhbət edirdi, çünki vaxtı başqa cür öldürmək mümkün deyildi, xüsusən də kapitan üçün – başı tənziflə elə sarınmışdı ki, yalnız gözləri, burnu, bir də ağzı görünürdü. Mayor isə qəzet-jurnal, kitab oxuyurdu, amma əlləri gipsdə olduğu üçün səhifəni çevirə bilmir, bu işi tibb bacıları görürdü. Mütaliə tezliklə onu bezdirdi, çünki yazılanların böyük əksəriyyəti uydurma idi. Ona görə də darıxanda palatadakı kapitanla, tibb bacıları və həkimlərlə söhbətə girişirdi.

– Əziz Erix, müharibədə düşmənə ziyan verə biləcək hər şey məqbul sayılır. Ruslara qarşı yalnız bir hiss ola bilər: nifrət! Müharibə uşaq oyuncağı deyil, burda qan tökülür. Qula çevrilmək, ya da romalılar

kimi dünyanı idarə etmək! Ya biz onları, ya onlar bizi! Əsas məsələ budur. Bəşəriyyət bu sahədə yeni heç nə kəşf etməyib, savaş min illərdir ki, davam edir. Sonu necə olacaq? Məncə, bu, heç kimi maraqlandırmır.

– Baxın, bizim leytenant indicə yuxudan oyanıb, gözlərini döyə-döyə bizə baxır. Cənab leytenant, özünüzü yaxşı hiss edirsiniz?

– Təşəkkür edirəm, cənab mayor, pis deyiləm.

– Çox gözəl! Hələ cavansınız. Gənclər isə biz qocalara nisbətən tez sağalır, düz demirəm, Erix?

– Bəli, cənab mayor, haqlısınız. Qocaların sağlamlığı çox gec bərpa olunur. Düzünü desəm, tələsən yerimiz yoxdur, cəbhədə bizsiz də keçinərlər!

– Rica edim, əziz Mehdi, əgər əhvalınız yaxşıdırsa, xidmət etdiyiniz diviziyadan danışın. Bu hərbi hissə barədə jurnaldan oxumuşam. Nə vaxt təşkil olunub?

– Türküstan diviziyası ötən ilin sonunda yaradılıb. Burda Türküstandan olan hərbi əsirlər – könüllülər xidmət edir. Almanlar Qafqazda yaratmaq istədikləri protektoratı "Türküstan" adlandırır. Bizim 162-ci piyada diviziyası isə bu il mayın iyirmi birində təşkil olunub, cənab kapitan, – Mehdi cavab verdi. – Burda qeyri-alman millətindən olanlar xidmət edir.

– Leytenant, hansı millətlərdən söhbət gedir?

– Diviziyada gürcü, erməni və azərbaycanlıların sayı bərabərdir, slavyanlar da var. Komandanlıqda, məlum məsələdir, almanlar təmsil olunub, cənab kapitan. Əvvəlcə uzun müddət Polşanın Kruşinyanı kəndindəki təlim mərkəzində hazırlıq keçmişəm, sonra Berlin yaxınlığındakı kəşfiyyat məktəbini bitirmişəm.

– Ah, Berlin, Berlin! Yadınızdadır, müharibədən əvvəl bu şəhər cənnəti xatırladırdı, indi isə... Deyirlər, müttəfiqlərin təyyarələri göydən mərmi yağdırıb şəhəri xaraba qoyublar. Cənab leytenant, hərbi formanız hansı rəngdədir?

– Vermaxtın adi yaşıl formasında gəzirik. Bu gün mənə baş çəkməyə gəlmiş yoldaşımın əynində də belə forma vardı, qoluna da bizim bölmənin emblemi tikilib: qırmızı və mavi zolaqların yuxarı hissəsində açıq-mavi hərflərlə "Türküstan" yazılıb.

– Axı siz, gərək ki, Türküstandan deyilsiniz, nəsə "Bakı" kəlməsini eşitdim, deyəsən, Azərbaycanın şəhəridir. Neftinə görə Bakı "Barbarossa"[1]

[1]**Barbarossa əməliyyatı** (alm. *Unternehmen Barbarossa*) – İkinci dünya müharibəsində Almaniyanın SSRİ-yə qarşı həyata keçirdiyi ildırımsürətli müharibə (alm. *Blitzkrieg*) planı. Əməliyyatın adı Müqəddəs Roma imperiyasının imperatoru I Fridrix Barbarossanın adından götürülüb. Plana görə, SSRİ-nin Avropa hissəsi 3 ay ərzində tutulmalı idi.



***Mehdi Hüseynzadə (sağdan ikinci) partizan dostları arasında, əlindən tutduğu qız Anjelikadır.***

əməliyyatının strateji məqsədi idi. Ancaq biz bu şəhərə gedib çata bilmədik, heç bir strateji əhəmiyyət kəsb etməyən Stalinqrad cəbhəsi başımızı qatdı. Bəli, döyüşdən sonra hamı general ola bilər, amma döyüşdən əvvəl hətta generallar da bilmir ki, savaşın sonu necə olacaq! Hazırda Almaniya iqtisadi böhran içindədir. Doğma şəhərim Mayntsdan arvadım yazır ki, "kartoçka" ilə verilən ərzaq payını yarıbayarı azaldıblar, onsuz da, əvvəllər verilən payla ac-yalavac keçinirdik. İlahi, bizi nə gözləyir?

Yaradana müraciət edəndə kapitan gözlərini qaldırıb yuxarı baxdı. Hospitalda çox üzgün və ümidsiz vəziyyətə düşmüşdü, ancaq əvvəllər belə deyildi. Cəmi bir il qabaq Şərq cəbhəsində piyada batalyonuna komandirlik edir, hərbi nizam-intizamı pozanlarla barışmaz mübarizə

aparırdı. Tabeliyindəki əsgərlər onu gizlincə lağa qoyub gülürdü: kapitanın əsəb gərginliyi o həddə çatmışdı ki, danışanda bir gözü səyriyirdi. Əsəb gərginliyi Birinci Dünya müharibəsində yaranmışdı – Avstriya ordusunun unter-zabiti kimi, bir neçə ay Soş cəbhəsində amansız döyüşlərdə sinəsindən yaralanmışdı. Əsir kapitanı dərhal Triestdəki hospitala aparmışdılar. Əslində, bu yara onu ölümdən qurtarmışdı, belə ki, həmin gecə taqımın bütün əsgərləri həlak olmuşdu... Kapitanın yarası ölümcül deyildi, tezliklə sağaldı, lakin onu cəbhəyə göndərmədilər. Hospitaldan çıxana qədər Avstriya-Macarıstan monarxiyası təslim oldu. Kapitan əsirlikdən azad edildikdən sonra Almaniyaya köçüb zabit oldu. Şərq cəbhəsindəki məğlubiyyətin acı dərslərindən sonra alman ordusuna və ümumiyyətlə, müharibənin mənasına baxışı dəyişmişdi. Vermaxt qoşunlarının gündən-günə geri çəkilməsi, cəbhədə keçirdiyi iztirab və qorxulardan sonra qələbəyə inamı itmişdi. Belə qənaətə gəlmişdi ki, müharibə vaxtı ilk növbədə gərək başına çarə qılıb davaya getməyəsən!..

“Əgər oğlum olsaydı, – xəstəxana çarpayısında uzanıb hərdən düşünürdü, – onun hərbçi olmasına izin verməzdim. Babam, atam hərçi olub, mən də onların yolunu davam etdirmişəm. Amma nə fayda? Həyat fanidir, dünyaya gələn vaxtı çatanda gözlərini əbədi yumacaq. Hərbçi isə hər an ölümlə üzləşə bilər...”

Qonşusu barona baxıb nəzakətlə dedi:

– Bilirsiniz, cənab baron, atam, Bismarkın süvariləri arasında ən məşhur zabit idi. Bismark hərbi akademiyada təhsil alanda dostu ilə duelə çıxıb sol əlindəki baş barmağının ucunu itirmişdi. Ömrü boyu bunun altını çəkirdi, əlcəyinin içinə salfet doldururdu ki, barmağının yoxluğu bilinməsin. Bəli, müharibə ancaq ziyan verir. Sonu da görünmür...

## V

– Gözlər qəlbin aynasıdır, Betka. Ürəyinin genişliyi, mərhəmətli insan olmağın gözlərindən bəllidir. Səni yaxından tanıyandan sonra dünya gözümdə dəyişib. Məni xəstəxanaya gətirəndə halım özümdə deyildi, sayıqlayırdım. Ancaq sənin gözəlliyini görəndən sonra düşündüm ki, bir mələk məni hifz etməyə gəlib. Mənə göstərdiyin qayğı sayəsində gündən-günə əzələlərimə güc gəlir, – Mehdi çarpayının kənarında oturmuş Betkaya olan hisslərini gizlətməyib pıçıltı ilə danışırdı. Tibb bacısı onun etirafına təbəssümlə cavab verdi:

– Mehdi, şadam ki, gündən-günə yaxşılaşırsan, amma hər şey göründüyü kimi deyil. Bu həqiqəti Koroş vilayətinin avstriyalılara aid

hissəsində yaşayan sloveniyalı qadın kimi çoxdan anlamışam. Hələ iki nəsil əvvəl ora Sloveniya ərazisi sayılırdı. Çox istərdim ki, indi deyəcəklərim öz aramızda qalsın. Qonşu çarpayıda yatan cənab barona, əslində, heç nə olmayıb. O, sadəcə, baş həkimlə möhkəm dostdur, burda ona görə qalıb ki, Şərq cəbhəsinə dönmək istəmir, əllərinə yalandan gips qoyublar ki, yoxlama gələndə duyuq düşməsin. Tibb xidməti böyük müfəttişi, polkovnik Şrauer adlı bir qaniçən var. Hər ay gəlib palataları bir-bir gəzir, sağalanları və ya özünü xəstəliyə vuranları hospitaldan qovub, Şərq cəbhəsinə göndərir. Yoxlama briqadası sonuncu dəfə gələndə sən huşsuz idin. Baronun bədəninə gips biləərəkdən sıx qoyulmayıb ki, əzələlərini hərəkət etdirə bilsin. Digər çarpayıda yatan lal-kar xəstənin isə, əslində, çənəsi sınmayıb, boğazı, səs telləri də qaydasındadır. Almanca bir kəlmə də danışa bilmədiyi üçün özünü lal-karlığa vurub. Əslində, tam sağlam İtaliya yəhudisidir. Vaxtilə Triestin zəngin tacirlərindən olub. Yəhudi düşərgəsinə deportasiyadan canını qurtarmaq üçün külli miqdarda rüşvət verib. Bu şəxs də baş həkimin dostudur, baronla birlikdə müharibənin bitməsini gözləyir... Özü xahiş edib ki, tənziflə çənəsini sıx bağlasınlar, bir kəlmə də danışa bilməsin. Qorxur ki, ağzından bir söz çıxar, yalanın üstü açılar... Əzizim, səni də hələ bir ay bundan əvvəl hospitaldan buraxmalı idilər. Amma laboratoriyada çalışan texnik Branko analizin cavablarını saxtalaşdırıb – qanda bilirubinin miqdarını çox göstərib. Baş həkim, yəqin, bunu başa düşür, amma heç nə demir.

– Bəli, əziz Betka, şübhəsiz, belədir.

Məlum oldu ki, hər ikisi fransız dilini bilir. Mehdi palatada tibb bacısı ilə bu dildə danışırdı ki, kimsə başa düşməsin. Bakılı oğlan üçün fransız dili dünyanın ən romantik dili idi, Betka kimi gözəl qızla qəlb söhbəti etməyə tam uyğun gəlirdi.

– Betka, hiss edirəm ki, sağalmışam, canıma, ruhuma güc gəlib. Xüsusən də səni görəndə kefim durulur. Bütün günü yataqda uzandığım üçün oynaqlarımda ağrı əmələ gəlib. Amma başım ağrımır. Düşünəndə ki, əvvəl-axır burdan getməliyəm və bir daha sənin ilahi çöhrəni görməyəcəyəm, qəlbimdən qara qanlar axır.

– Ayrılmaq mənim üçün də ağır olacaq, Mehdi! Qərara almışam ki, qalan vaxtdan səmərəli istifadə etməliyik. Təsəvvür edə bilməzsən, Mariyaya deyəndə ki, bu ay onun da əvəzinə gecə növbəsində qalacağam, sevincdən qanad çalıb uçmağa hazır idi. Çalışaq ki, səni bir ay da burda saxlasınlar. Xoşbəxtlikdən, əfi ilan Şrauer yoxlamaya gələcəyi barədə əvvəlcədən xəbər verir. Həmin ərəfədə sənə dərman verərəm. Gecə əhvalın dəyişəcək, ürəyin bulanacaq, səhər halsız xəstəyə bənzəyəcəksən, müfəttiş də heç nədən şübhələnməyəcək. İndiki vəziyyətdə sənə ağır

xəstə diaqnozu qoymaq mümkün deyil. Xəstəlik tarixçəsində sarılığın ağır forması yazılsa da, müfəttiş bunu nəzərə almayacaq. Gözlərinin sarısı gedib, sağlam görünürsən. Mariyadan xahiş edərəm, səhər sənə damcı versin, göz bəbəklərinin parıltısı solsun. Damcını tökəndən sonra gözlərin qaşınacaq. Başqa əlac yoxdur. Yalnız bu yolla səni yanvarın ilk həftəsinə qədər hospitalda saxlaya bilərik.

– Hamınıza ürəkdən minnətdaram. Əslində, sağlamlığım bərpa olunub, bu vəziyyətdə cəbhəyə qayıda bilərəm. Amma almanlara xidmət etmək fikrində deyiləm. Ayın sonuna qədər qaçıb müqavimət hərəkatına qoşulacağam, sonra isə son damla qanıma qədər faşistlərlə mübarizə aparıb onları qıracağam... Gəl indi bu barədə danışmayaq... Bu gün Milad gecəsidir, əziz Betka, xoşbəxtəm ki, mənə bu bayramı dünyanın ən gözəl qızı ilə keçirmək nəsib olub!

– Mən də çox şadam, Mehdi. Axşamı birlikdə olacağımıza sevinirəm. Əgər bu gün gecə növbəsində olmasaydım, yəqin, evdə oturub gözümün qorasını sıxacaqdım. Səninlə söhbət edəndə davanın ağrı-acısını unuduram. Elə gözəl danışırsan ki, səni ömür boyu dinləməyə hazıram.

– Qadına onun yaraşıqlı olduğunu xatırlatmaq heç də qəbahət deyil, Betka! Bu axşam nədən istəyirsən bəhs edək, ancaq davanı bir kənara qoyub sevgidən danışsaq, yaxşı olar.

Dünyanın bu qarışıq vaxtında sevgidən danışmaq, bəlkə də, yersiz görünürdü. Amma Mehdi üçün Betka bir mələk idi, gözəllik və zəriflik rəmzinə çevrilmişdi.

– Bilirsən, hospitala gəldiyin ilk günlərdə, sən huşsuz olanda bədənini nəm əsgi ilə silirdim. Güclü əzələlərindən, kişini bəzəyən çapığından zövq alırdım. Təəssüf ki, nişanlıyam. Eh, kim bilir, başına nə gələcək?

– Həqiqətən, taleyin yazısını əvvəlcədən bilmək mümkün deyil. Söz verirəm, əgər sağ qalsam, müharibədən sonra səni mütləq tapıb əla bir qonaqlıq verəcəyəm, bolluca vals oynayarıq! Bəlkə, bu yolla yaxşılığının əvəzini çıxa bildim.

– İnanıram, Mehdi! Burda, səninlə birlikdə olmaq xoşdur, davadan sağ-salamat qayıtsan, yüzqat artıq sevinərəm... Sənə Milad hədiyyəsi hazırlamışam...

Betka gecə palataya gələndə hamı yatmışdı. Mehdi də şirin yuxuda idi. Birdən üzündə Betkanın ilıq nəfəsini duyub gözlərini açdı. Betka onu öpüb pıçıldadı: “Əzizim, bu da mənim Milad hədiyyəm!” Mehdi bu “hədiyyəni” böyük məmnuniyyətlə qəbul edib qarşılıq verdi...

– Yuxun şirin olsun, əzizim! – Betka gedəndən sonra Mehdi yuxulamağa çalışdı. Neçə il idi ki, tale onu cəbhədən-cəbhəyə atırdı,

silahdan, mərmidən, tankdan, faşistdən, əsir düşərgəsində zillətdən başqa heç nə görməmişdi. Qadın nəvazişini yadırğamışdı, ümumiyyətlə, bu barədə düşünməyə macal tapmırdı. İndi Betka kimi gözəlin nəvazişi qəlbini riqqətə gətirmişdi. Amma yuxulaya bilmədi. Gözünü yuman kimi kabuslar onu qarabaqara izləyirdi. Yuxuda gördü ki, Moskva ətrafındakı müdafiə xəttindədir, döyüş yoldaşları ilə birgə səngərə sığınıb və minaatandan aramsız atəş açıb faşistləri qırır...

Səhər yuxudan oyananda qəlbində rahatlıq və məmnunluq duydu. Düşündü ki, vaxt daralıb, tezliklə cəbhəyə qayıdıb faşistlərə qarşı yenidən döyüşməlidir. Görüləsi işlər çoxdur! Qonşusu baron kimi, gipsin içində oturub müharibənin bitməsini gözləyə bilməz! Dünyadan təcrid olmaq Mehdi üçün yazılmayıb. Bu mənfur müharibənin bitməsi üçün əlindən gələni etməlidir! Milyonlarla insan həlak olub, dünya faşizmin zülmü altında inildəyir, hamı sülh istəyir. Müharibənin vurduğu yaralar nə vaxt sağalacaq?



# YANVAR 1944-cü il

**VI**

– Əziz Mehdi, hospitaldan sağalıb çıxan yeganə xəstəsən ki, səni yola salmaq üçün vağzala gəlmişəm. Hərçənd özün də gedə bilərdin. Təlimata əsasən, ölüm ayağında olan yarımcan xəstələri, şikəst arabasından qalxa bilməyən adamları müşayiət edib yola salırıq. Sən isə, göz dəyməsin, dəf kimisən. Hospitalda bir az da saxlatdıra bilərdim, amma razı olmadın. Niyyətini başa düşürəm, sənin kimi igidlər olmasa, müharibə bitməyəcək. Davanın bizə gətirdiyi dəhşətlərin içində yeganə sevincim, ümidim sənsən, Mehdi! Amma əlimdən nə gələr?

Tibb bacısı Betka özünü şən göstərməyə çalışırdı, əslində, gözləri dolmuşdu, hönkürməkdən özünü güclə saxlayırdı. Kənardan xoşbəxt cütlük kimi görünürdülər, Qratsın mərkəzi küçəsi ilə əl-ələ tutub vağzala gedirdilər. 1944-cü il yanvarın 6-sı bazar ertəsi olduğundan küçə qələbəlik idi. Amma Mehdi ilə Betkanın gözü heç nə görmürdü, sanki küçədə onlardan savayı kimsə yox idi.

– Mənim əziz Betkam, səninlə keçirdiyim anları ömrüm boyu unutmaram. Bu xoş xatirələr daim qəlbimdə yaşayacaq, mənə ruh verəcək. Bax sənin əlindən tutmaq, qoxunu duymaq hər şeydən əzizdir.

– Mehdi, səmimiyyətini, nəvazişini heç vaxt unutmaram. Heyif ki, mənimçün yalnız bir dəfə mahnı oxudun, o da dünən. Böyük məmnuniyyətlə nəğmələrini dinləyərdim!

– Bilirsən, Betka, bizdə belə bir adət var: insan qəmə batanda, dərd çəkəndə nəğmə oxuyur. Bununla da könlü açılır, üzü gülür. Ayrılıq ürəyimi sıxır, qüssəyə batmışam, amma digər tərəfdən də sevinirəm

ki, həyatda sənin kimi yaxşı insana rast gəlmişəm. Bu iki ay ərzində mənə etdiyin yaxşılıqlara görə təşəkkürümü bildirirəm.

– Səni unutmaram, Mehdi. Qayğını, isti nəfəsini, xoş münasibətini duydum, qəlbim fərəhlə doldu. Hisslərimə qarşılıq verdin, məni səbirlə dinləyib ürəyini açdın. Səninlə keçirdiyim günlərə görə əsla peşman deyiləm. Qara gözlərinin işığı məni həmişə qızdıracaq. Bundan sonra nə olur-olsun, vecimə deyil. Gələcəkdə görüşməsək də, bəlkə, ruhumuz göylərdə qovuşdu...

– Ya da o biri həyatda. Bilirsən, bizdə elə adamlar var ki, ruhun bədəndən bədənə keçməsinə inanır. Bəlkə də, əvvəlki həyatımızda bir-birimizi tanıyıb sevmişik, Qratsdakı görüşümüz də həmin həyatın bir epizodudur. Bilmirəm, bu mümkündür, ya yox, ancaq çox xoşbəxtəm.

– Mən də, Mehdi. Təsəvvürümə gətirə bilmirəm ki, əvvəlki həyatım necə olub və sonrakı həyatda məni nə gözləyir. İndi yaşadığım real həyatda qayğılarım çoxdur. Evdə, işdə başımı qaşımağa vaxtım yoxdur, məsuliyyətim böyükdür. Bir tərəfdən də sən, sevdiyim yeganə insan, gəlişinlə gedişin bir oldu. Bir daha səni görəcəyəmmi? Müharibə mənə dərs verib: insan bir anın içində hər şeyini itirə bilər, hətta həyatını da! Ona görə də bu günün verdiyi payla – qismətinlə barışıb yaşamalısan! Əgər günün sevdiyin adamla keçibsə, deməli, hədər getməyib.

– Sənə söz verdim, Betka! Faşistləri məğlub edən kimi gəlib səni tapacağam, sonrasına baxarıq.

– Ah, Mehdi, davanın tezliklə bitməsini arzulayıram. İstəyirəm, mən yatmağa hazırlaşanda qapımı döyəsən. Güclü qollarının və isti nəfəsinin həmişə həsrətini çəkəcəyəm. Səninlə tanışlıqdan əvvəl inanmazdım ki, belə cüssəli bədənin içində incə bir ürək döyünə bilər, – Betka ağlamsınıb Mehdinin yanağından öpdü.

– Hətta ən sərt balıqqulağının da içində yumşaq ürək var, əziz Betka! Sübut etdin ki, sarısaç qızların heç də hamısı səfeh, ağılsız deyil. Sənin kimi zəkalı və gözəl qıza heç vaxt rast gəlməmişdim. İndi bilirəm ki, əgər qadında ağıl və gözəllik qovuşubsa, deməli, onun adı Betkadır!

– Ah, Mehdi, – bu ana qədər əl-ələ verib yanaşı gedirdilər, indi isə Betka Mehdiyə qısılıb qəmli-qəmli dedi: – Bundan sonra yanımda olmayacaqsan, belə gözəl sözləri mənə kim deyəcək? Hər axşam sənin üçün dua edib Tanrıya yalvaracağam ki, mənim Mehdim partizanlara qoşulsun, qarşısına qoyduğu məqsədə çatsın! Axı bu məqsəd barədə dəfələrlə danışmısan!

– Betka, söz verirəm, bu dəfə ilk faşisti sənin şərəfinə öldürəcəyəm!

– Yox, Mehdi, lazım deyil. Əgər məcbursansa, öldür, amma məni bu işə qatma.

– Hə, bunu yaxşı dedin. İnsan gərək lazım olan işi görsün, mənim də işim faşistləri öldürməkdir, dünyada bir dənə də olsun faşist qalmamalıdır, hamısı qırılmalıdır!

– Mehdi, çox istərdim ki, səndən uşağım olsun. Çoxlu körpə doğardım. Ətrafı ölüm qoxusu bürüyüb, insanlar qırılır, dünyanın uşaqlara ehtiyacı var.

Vağzalın qarşısında adam əlindən tərpənmək olmurdu. Perronda da əsgər çox idi. Onlar bölüklərə bölünüb perronun müxtəlif hissələrində dayanmışdı. Az sonra bu əsgərləri cəbhəyə yola salacaqdılar. Ağlından keçdi ki, əgər çantasında mina olsaydı, burada partlayış törədib xeyli faşist qırardı. 1944-cü ilin yanvarında, şərq, qərb və cənub istiqamətlərində almanların ayağının altındakı torpaq od tutub yanırdı, Reyxin mərkəzi şəhərləri və sənaye obyektləri müttəfiqlərin aramsız aviazərbələrinə məruz qalırdı. Qrats vağzalında, perronun ortasında dayanmış Mehdi yalnız indi xatırladı ki, müharibə bütün dünyanı çənginə alıb və döyüş onun alnına yazılıb. Hospitalda, Betkanın isti ağuşunda reallıqdan uzaq düşmüşdü, ana qucağına sığınmış körpə kimi, özünü təhlükəsiz hiss edirdi. Betka onun nazını çəkirdi. Mehdi elə bil futbolçu idi, Qrats hospitalında müalicə ona futbolçunun oyunun birinci və ikinci hissəsi arasındakı fasilədə dincəlməsini xatırladırdı, matçın nəticəsi isə hələ məlum deyildi.

Betka ilə vağzalın qarşısında görüşüb ayrıldılar. Çünki vağzala yalnız bileti olan sərnişinlər buraxılırdı. Ətraf qələbəlik olduğu üçün tez qucaqlaşdılar, öpüşüb ayrıldılar – hərə öz yoluna davam etdi, heç biri çevrilib arxaya baxmadı. Betkanın ürəyindən keçdi ki, Mehdinin arxasınca baxsın, sonra fikrindən daşındı, istəmədi ki, sevdiyi adam onun göz yaşlarını görsün. Mehdi də Betkanın arxasınca baxmadı, qorxdu ki, onu gözüyaşlı görsə, ürəyi dözməyib geri dönəcək, ya da özünü də ağlamaq tutacaq. Düşündü ki, onun kimi ölüm mələyinə və alovlu qisasçıya belə hərəkət yaraşmaz. Dişini dişinə sıxıb yoluna davam etdi. Xatırlayanda ki, alnına ölüm mələyi – Əzrayıl olmaq yazılıb, vücudundan gizilti keçdi, bədəninə güc gəldi, qəlbi inamla doldu. Müharibədə sevgilisi Əzizənin ona həsr etdiyi “Əzrayıl” əsəri tez-tez yadına düşürdü. Bu gün ilk dəfə anladı ki, bu, adi əsər deyil. Qəhrəman həyatı xilas etmək üçün ölüm saçan, insanları xilas etmək üçün canını qurban verən mələkdir. Betkaya demişdi ki, müharibədən sonra axtarıb onu tapacaq. Amma qəlbinin dərinliklərində aydın bilirdi ki, bu sözləri deməkdə yalnız bir məqsəd güdüb: Betka həmin an bu sözləri eşitmək istəyirdi və qızın könlünü almaq üçün Mehdi bu sözləri deməli idi. O ki qaldı özünə, ürəyinə dammışdı ki, müharibənin sonunu görmək ona

qismət olmayacaq. Amma buna görə narahat deyildi. Üstəlik, bilirdi ki, vaxtından əvvəl heç kim ölmür, kimin alnına, taleyinə nə yazılıbsa, o da olacaq və ölüm onun bacısıdır, qorxmaq lazım deyil.

Ümumiyyətlə, Mehdiyə elə gəlirdi ki, müharibədə dəfələrlə ölübdirilib. Stalinqrad uğrunda döyüşlərdə bölüyün bütün əsgərləri həlak olandan sonra Mehdi də sanki həyatını itirmişdi. İndi yaşadığı həyatı isə müvəqqəti borc alıb və bu borcu yalnız düşməndən əvəz çıxmaqla, faşistlərin ölüm düşərgələrində işgəncə verdiyi günahsız insanların intiqamını almaqla qaytara bilər. Xəyalən, öz həyatını çoxdan qurban vermişdi. İndi cavabını gözləyən bir sual qalırdı: cismən bu dünyadan köçənədək nə qədər faşist qıra bilər?

Mehdi ölümdən qorxmurdu, yalnız vaxtsız ölümdən çəkinirdi. Narahat idi ki, borcu qaytarmaq və qisas almaq üçün ona ayrılmış vaxt kifayət etməsin. Bu qətiyyət ancaq Mehdiyə xas olan cəhət deyildi. Qızıl Ordu döyüşçülərinin böyük əksəriyyəti belə düşünürdü və sonrakı aylarda sloven partizanların sayca üstün olan düşmənlə apardığı amansız mübarizə bunu bir daha sübut edəcək. Onlar son patrona qədər döyüşür, sonra isə guya yaralanıbmış kimi yerə uzanır, ya da özlərini ölülüyə vururdular. Faşistlər yaxınlaşanda bədəninin altında gizlətdikləri qumbaranı partladır, həlak olub xeyli düşməni o dünyaya göndərirdilər. Mehdi düşünürdü ki, belə edəcək, amma qumbaranı təhlükəsiz məsafəyə çəkiləndən sonra partladacaq ki, sağ qalsın. Bu fikir üzünü güldürdü, eyni açıldı, çünki Betkadan ayrılandan bəri dilxor olmuşdu.

Maribora gedən qatar birinci platformada dayanmışdı. Qatarda cəmi üç sərnişin vaqonu vardı, yerdə qalan yük vaqonları İtaliya cəbhəsinə yollanan artilleriya diviziyası üçün nəzərdə tutulmuşdu. Mehdi sonuncu vaqondakı boş kupeyə əyləşdi. Keçirdiyi qatar qəzasından sonra belə qənaətə gəlmişdi ki, sonuncu vaqon daha təhlükəsizdir. Keçən dəfə birinci vaqona minmişdi, nəticədə, az qala, həyatını itirəcəkdi, amma sonu sevgi macərası ilə bitdi.

Kupenin qapısı açıldı və son dəbə uyğun qəhvəyi kostyum geymiş yaraşıqlı bir qadın içəri daxil olub xalis alman dilində salamlaşdı. Qadın ağır dəri çamadanını qaldırıb yuxarı yatağın üstünə qoymaq istəsə də, gücü çatmadı, Mehdi əsl centlmen kimi cəld ayağa qalxıb tanımadığı sərnişinə kömək etdi. Qarasaç qadın gülümsünüb təşəkkürünü bildirdi. Mehdi düşündü ki, qadına on səkkiz yaşdan artıq vermək olmaz, qonur gözləri işıq saçırdı. Görünür, bu gözlər çoxlarının ağlını başından çıxarıb, deməli, qadının yeniyetməlik çağı arxada qalıb. Mehdinin baxışları onun zərif çöhrəsində ilişib qalmışdı, özünü elə

alıb üzünü yana çevirdi. Qadın Mehdinin diqqətli baxışlarından sanki nazlandı, mənalı-mənalı gülümsünüb dedi:

– Bilirsiniz, atam zərgər, həm də dəri ustasıdır. Mariborda emalatxanası var. Qratsdan bəzi əşyalar aparırıq ki, qızıl suyuna salsın. Əhəmiyyətli bir şey deyil: kilsə əşyaları, bir də dini mərasim üçün qab-qacaq.

– Çamadanın qulpundan yapışanda düşündüm ki, görəsən, belə zərif qadın onu necə daşıyır? İçindəkilər məni əsla maraqlandırmır. Ürəyiniz istəsə, minaatan da apara bilərsiniz. Müharibədir, adamların silah daşımasında qəribə heç nə yoxdur. Üzr istəyirəm, özümü təqdim etmədim: leytenant Mehdi Hüseynzadə!

– Çox məmnunam, Silvana Qozdana! Amma hamı məni qısaca Danitsa çağırır.

– Adınızdan bəlli olur ki, almansınız.

– Sizin də adınızdan görünür ki, alman deyilsiniz...

Hər ikisi güldü və bununla da ilk tanışlığın gərginliyi aradan qalxdı. Bəli, davanın qızğın çağında müxtəlif millətlərə mənsub adamların yanında alman olduğunu dilə gətirmək cəsarət tələb edir! Qatar fit verib yola düşdü. Vaqonun adi vətəndaşlar üçün nəzərdə tutulmuş hissəsində sərnişin az idi, amma hərbçilərin olduğu kupelərdə adamlar qaynaşırdı. Onlar kupedə tək idi. Söhbət zamanı müharibədən bir kəlmə də kəsmədilər. Danitsa yeni tanışına Sloveniya, bu diyarın insanları haqqında ətraflı danışdı. Eşitdikləri Mehdidə dərin maraq doğururdu. Axı qisas missiyasını həyata keçirmək üçün Sloveniyanı seçmişdi. Bu səbəbdən hərtərəfli məlumat əldə etmək, slovenlərin həyat tərzi və dilini anlamaq istəyirdi. Sloven dilində bəzi kəlmələri Betka və Mariyadan öyrənmişdi.

Danitsa bütün qadınlar kimi, boşboğazlıq etməyi xoşlayırdı. Yola götürdüyü yeməkləri süfrəyə düzüb Mehdini qonaq elədi. Kiçik masanın üstündə suda bişmiş yumurta, pendir və ətirli ev çörəyi vardı. Mehdi tərxun qatılmış ruleti çox bəyəndi. Ona elə gəldi ki, ömründə belə dadlı şey yeməyib. Ruletin axırıncı tikəsini ağzına qoyanda qatar Maribor vağzalına daxil oldu. Perron əsgərlə dolu idi, yenidən müharibəni və missiyasını xatırladı. Danitsaya çamadanı perrona düşürtməkdə kömək etdi, qadını qarşılamağa atası gəlmişdi. Əynində bahalı palto vardı, barmaqlarındakı üzüklərin qaşları par-par yanırdı. Təkərli araba sürən yükdaşıyan çamadanı götürdü. Danitsa Mehdini atasına – cənab Draqoya təqdim etdi və onlar vidalaşıb köhnə dostlar kimi ayrıldılar. Mehdi kupeyə qayıdanda düşündü: "Görünür, tale məni qadınlarla bir-bir görüşdürür ki, mənəvi qida alım!"

Kupenin qapısını açanda içəridə dolubədənli, qırmızıyanaq bir kişi gördü. Əynində adi kostyum vardı, kəpənək qalstuk taxmışdı, paltosunu da asılqandan asmışdı.

Kişi Mehdini görən kimi ikiqat əyilib təzim etdi. Alman dilində güc-bəla ilə, həm də cır səslə danışırdı.

– Ümidvaram, gəlişim əlahəzrət zabiti narahat etməyəcək! İcazənizlə, özümü təqdim edim: topdansatış taciri Alloiz Srebovşek! Tsel şəhərinə qədər yol yoldaşı olacağıq. Hörmətli cənab zabit bizim gözəl Şteyr vilayəti ilə tanışdırmı? Bura ilk gəlişinizdir?

– Bəli, cənab Alloiz, ilk səfərimdir. Gözəlliklərinə heyran olmuşam, təəssüratımı çatdırmağa söz tapmıram. Sloveniyaya bir könüldən min könülə aşiq olmuşam. Amma sloven qızları daha çox xoşuma gəlir. Adamın ağlı başından çıxır!

– Bəli, sloven qızlarına söz ola bilməz! Tanrı qorusun! Qadınlarsız kişilərin halı necə olardı?

Mehdi düşündü ki, belə cır səsli adamı kişi adlandırmaq düzgündürmü? Amma heç nə demədi və pəncərədən Drava çayına tamaşa etməyə başladı. Dəmir yolu çayın kənarı ilə uzanır, köpüklənən sular da sanki qatarla ötüşürdü. Sonra şəhər kənarındakı kimsəsiz qəsəbələrin yanından keçdilər. Şəhər arxada qaldı və qatar qar basmış düzənliklə irəliləməyə başladı. Ara-sıra damına qədər qarla örtülü daxmalar görünürdü. Üfüqə qədər hər yer ağ örpəyə bürünmüşdü. Yanvar günəşinin zəif istisi oğrun-oğrun sürünən dumanı əritməyə kifayət etmirdi. Bu valehedici mənzərələr Mehdini riqqətə gətirdi. Ona elə gəldi ki, qış nağılına düşüb. Amma bu nağıl heç də xoşbəxt sonluqla bitmir. Tezliklə müharibənin viran qoyduğu kənd və qəsəbələr, yanıb kül olmuş evlər göründü. Bu mənzərə ona faşistlərə əsir düşəndən sonra düşərgədə keçirdiyi qışın dəhşətlərini xatırlatdı. Rus hərbi əsirlərlə bağlı faşistlərin yalnız bir planı vardı: ölüm! Əsir düşərgəsində sovet əsgərlərini ac saxlamaq, onlara işgəncə vermək bu məqsədə xidmət edirdi.

Mehdini digər əsirlərlə birlikdə Kalaç yaxınlığındakı Vetryanı qəsəbəsindəki əsir düşərgəsinə göndərdilər. Əvvəlcə dindirmək üçün ordu qərargahına gətirdilər. Ancaq, xoşbəxtlikdən, kimsə Mehdini sorğu-suala tutmadı. Onsuz da, almanları maraqlandıran heç nə danışa bilməyəcəkdi. Qət eləmişdi ki, ad, soyad və xidmət etdiyi alayın nömrəsindən başqa bir şey söyləməsin – işgəncələrə dözüb ağzını açmasın. İstintaq gedən otağın qarşısında bir neçə əsirlə növbə gözləyirdi, içəridən alman zabitin zəhmli bağırtısı, işgəncə verilən əsirlərin qışqırığı gəlir, Mehdi də özünü diş həkiminin qəbulunda

gözləyən uşaq kimi hiss edirdi. Xoşbəxtlikdən, müstəntiq, batalyon kəşfiyyat xidmətinin zabiti və kəşfiyyat bölüyünün komandiri son üç gündə o qədər rus əsiri dindirmişdilər ki, artıq cana doymuşdular. Ona görə də Mehdini və qapı arxasında gözləyən digər əsirləri sorğu-sual etmədən keşikçilərin müşayiəti ilə düşərgəyə göndərdilər. Almanlar son həftə ərzində rusların müdafiə xəttini bir neçə yerdən yarıb güclü əks-hücuma keçmişdi. Bu səbəbdən əsir düşmüş sovet əsgərlərinin verə biləcəyi hərbi məlumatlar faşistləri o qədər də maraqlandırmırdı. Çünki bu məlumatlar anbaan dəyişib köhnəlir, yaxud həqiqətə uyğun gəlmirdi.

Kalaç yaxınlığındakı cəbhəyanı həbs düşərgəsində Mehdini döyən, təpikləyən, ya da avtomatın qundağı ilə başına döyəcləyən olmadı. Amma düşərgədə aclıq tüğyan edirdi. Aclıq isə elə bir qüvvədir ki, orqanizmi məhv edir, insanı ruhdan salır, iradəsini zəiflədir. Çovğun zamanı çayda bir-biri ilə toqquşub şahə qalxan buz parçaları, qar uçqunu, quraqlıq, sel, epidemiya kimi aclıq da təbii hadisədir və bu zaman bütün canlılar tələf olur. İnsanın aclıq çəkməsindən dəhşətli heç nə yoxdur. Gecə-gündüz yemək barədə düşünür, bir parça çörək tapmaq istəyirsən, amma tikanlı məftillər və əli silahlı keşikçilər qarşına sədd çəkir. Günlərlə ac-susuz qalmaq – bu artıq təbii hadisə deyil! Aclıq Mehdiyə qara cadugərliyi xatırladırdı. Bilirdi ki, təbii fəlakətlər vaxtı iztirab keçirən insanlarda heyvanlara xas instinktlər yaranır. Düşərgədə bir daha şahid oldu ki, aclıq zamanı bəzi əsirlər insani keyfiyyətləri itirib siçovula çevrilir, heyvan görkəmi alır, özlərini iblis kimi aparır. Əsirlər kiçik çəlləkdəki bulanıq sudan içmək üçün bir-birinin boğazını gəmirməyə hazır idi. Faşistlər bu suyu “müalicəvi şorba” adlandırırdı. Alman əsgərinin qarnı tox, üzü səliqə ilə taraş olunmuş, pal-paltarı təmiz idi. Onlar qəhqəhə çəkib avtomatın lüləsi ilə ılıq su üçün yerdə sürünüb bir-biri ilə əlbəyaxa olan əsirləri aralayırdı. “Müalicəvi şorba”nın tərkibi barədə isə danışmağa dəyməz.

Bu “şorba”da insanı doyura biləcək heç nə yox idi, bir-iki qurtum içəndən sonra aclıq yenidən güc gəlirdi. Gün ərzində əsirlərə çovdar unundan kiflənmiş çörək verilirdi – elə nazik idi ki, qəzet kağızına oxşayırdı.

Əsirlərə həftədə iki, yaxud üç dəfə yemək verirdilər, qalan günlər isə aclıq hökm sürürdü. Mütəmadi aclıq çəkən adamlar əvvəl-axır insanlıq simasını itirir, yoldaşını öldürüb, ətini yemək dərəcəsinə çatır.

Aclıq orqanizmdən zülal və yağları yuyub aparır, ağır fəsadlar törədir, qanı azaldır, başgicəllənmə əmələ gəlir, əzələlər quruyur, əsəb sistemi pozulur, ruh düşkünlüyü yaranır, şərəf və ləyaqət hissini məhv

edir, mütilik, alçaqlıq, pessimizm və etinasızlıq hissi doğurur. Müharibə dövründə bolşeviklər Ukraynada kəndlilərin əlindən taxılı alandan sonra dəhşətli aclıq yaranmışdı. Leninqradın mühasirəsi zamanı adamlar aclıqdan əziyyət çəkirdi. Həbs düşərgələrinə salınmış milyonlarla insan məhz aclıqdan məhv olmuşdu.

Düşərgədə Mehdi dostu Mixayloya belə demişdi:

– Belə getsə, acından, soyuqdan, ya da işgəncədən öləcəyik! Hansını seçək? Bir aydan artıq tab gətirə bilmərik! Orqanizm maye itirir, kalori çatışmır, Sibir soyuğuna dözmək olmur. Taqətdən düşmüşük...

İlk həftələrdə əsgərlər aclığa və soyuğa birtəhər dözür, düşdükləri vəziyyəti qızğın müzakirə edirdilər.

Təzə gələn əsirlər cəbhədəki vəziyyət barədə danışdıqca adamların ürəyində ümid qığılcımı yaranırdı. Ruslar son günlər Stalinqrad ətrafına milyondan çox canlı qüvvə cəlb etmişdi. Sentyabrın iyirmi birində, almanlar hələ şəhərdə olanda üç istiqamətdən rusların əks-hücumunun birinci fazası başlandı. Noyabrın birində isə sovet qoşunları cənubdan hücuma keçdi. Noyabrın on doqquzunda artilleriya hazırlığından sonra Sovet ordusunun üçüncü hücumu başlandı. Noyabrın iyirmi üçünə qədər təxminən iyirmi iki alman diviziyası – üç yüz min düşmən əsgəri mühasirəyə alındı. Bir gün əvvəl Paulus "B" qoşun qrupunun qərargahına məlumat verdi: "Qoşun mühasirəyə alınıb. Əsgərlərimiz müdafiədə möhkəm dayanıb. Buna baxmayaraq, Tsaritsa çayı ətrafındakı ərazilər, Sovetskaya stansiyasından Kalaç stansiyasına gedən dəmir yolu və Don çayı üzərindəki körpü, çayın qərb sahilindəki yüksəkliklər rusların əlinə keçib... Silah və sursat ehtiyatı tükənib, altı günə ancaq çatar..."

Aclığın əldən salıb dizin-dizin süründürdüyü əsirlər, Yeni il ərəfəsində eşidəndə ki, Paulusun qoşunu Stalinqradda mühasirəyə düşüb acından qırılır, sevincin həddi-hüdudu yox idi. Kapitan-tankçı Bruxaşvili əsir yoldaşlarına qətiyyətlə bildirdi:

– Stalinqradda döyüşməyən əsgərin, ümumiyyətlə, müharibədən xəbəri yoxdur!

– Yox, razı deyiləm, – artilleriyaçı mayor Kopulov etiraz etdi. – Şübhəsiz, Stalinqrad sovet adamlarının qəhrəmanlıq, mətanət və qətiyyət rəmzidir, silahımızın gücünü nümayiş etdirir. Bunu danmaq gülünc olardı. Ancaq mən Stalinqrad uğrunda döyüşlərin iştirakçısı olmamışam. Bununla belə, müharibənin nə olduğunu yaxşı bilirəm. Həmişə də ölümün gözünə dik baxmışam. Piyadalar, tanklar, hətta aviasiya da artilleriyasız keçinə bilməz.

– Məsələni şişirtməyin, yoldaş mayor, – kapitan Bruxaşvili onun sözünü kəsdi. – Öndə həmişə tanklar olub, hücumun taleyini də onlar

həll edib. Tank manevr döyüşündə mühüm əhəmiyyət kəsb edir, bunu uşaq da bilir.

Aclığın ikinci ayından sonra qadınlardan, ümumiyyətlə, söhbət salmır, yalnız yeməkdən və davadan danışırdılar.

– Biz Volqa sahilində almanların qarşısını kəsdik, – podpolkovnik Çertov fəxrlə bildirdi. – Ana Volqanın suyu canlıdır, düşmən onun qarşısında tab gətirə bilməz!

– Stalinqrad, Stalinqrad! – kapitan Slavikov pafosla dedi. – Bəli, strategiyamızın təntənəsi və xalqımızın iradəsi bir nöqtədə – Stalinqradda birləşdi!

Almanların Moskva ətrafında uğursuzluğu böyük məğlubiyyətin təməlini qoydu. Rusların bu qələbəsi sübut etdi ki, faşistləri məğlub etmək mümkündür. Bir il sonra, Paulusun qoşunu Stalinqrad ətrafında üzük qaşı kimi mühasirəyə alınanda hamı anladı ki, bu bir işarədir – Almaniya gec-tez müharibəni uduzacaq. Faşistlərin mühasirəyə düşməsi xəbəri əsirləri sevindirsə də, digər tərəfdən, ciddi narahatlıq üçün əsas yaradırdı. Düşərgədə ölüm-dirim savaşı gedirdi, görəsən, azad olub geri qayıdanda Stalinin əsirlərə münasibəti necə olacaq? Ancaq bu sual Mehdini əsla narahat etmirdi. Qəlbinin dərinliklərində hiss edirdi ki, bir daha Sovet İttifaqına dönməyəcək və bu səbəbdən Stalinin qanunları ona şamil olunmur. Şübhəsiz, doğma Bakıya qayıtmağı arzulayırdı. Amma Sovet hakimiyyətinə tabe olmayan Bakıya! Cəbhədə başına gələnlərdən sonra sovet sisteminə və bolşeviklərin hakimiyyətinə kor-koranə sitayiş etməyin mənasız olduğunu anlamışdı. Bu hakimiyyət bir çox xalqlara, xüsusən də Azərbaycan xalqına bəlalar gətirmişdi.

Xeyli sonra legionerlərin təlim mərkəzində bolşevik repressiyaları barədə dəhşətli faktlar öyrəndi. Yadına düşdü ki, hələ o vaxt Bakıda qonum-qonşu bu faktlar barədə qorxa-qorxa, pıçıltı ilə danışırdı. Vətəni azad deyildi və bu gerçəklik, az qala, faşistləri qırmaq inadını zəiflədəcəkdi. Bəli, faşistlərə qoşulmuşdu, ancaq bu addımı ona görə atmışdı ki, sonradan onlarla haqq-hesab çəksin. Bu, şahmat qambitinə bənzəyirdi, oyunçu bilərəkdən piyadanı, hətta fiquru qurban verir...

Mehdi cəbhə xətti yaxınlığındakı həbs düşərgəsində aclıqla bir neçə ay mübarizə apardı. Sovet qoşunları Stalinqradın küçə və məhəllələrini yavaş-yavaş düşməndən azad edirdi. Mehdi əmin idi ki, məruz qaldığı aclıq və susuzluq həyatının ən acı günləridir və artıq ölümün bir addımlığındadır. Ancaq 1942-ci ilin dekabrında almanlar əsirlərin böyük bir qrupunu qərbə – Mirqoroda göndərdi. Qoyun sürüsü kimi qabaqlarına qatıb aparırdılar, yeriyə bilməyənləri isə yerindəcə güllələyirdilər. Əsirlər arasında dizenteriya xəstəliyi yayılmışdı,

verilən suyu içmək mümkün deyildi – sarı rəngli mayenin üzəri mazut ləkəsi ilə örtülmüşdü. Yol kənarları heyvan cəsədləri ilə dolu idi. Mehdi at leşi yeyir, çürük kartof tapanda sevinir, aclığa təslim olmurdu. Həyatı, yaşamağı seçmişdi və niyyətindən bir addım da geri çəkilmək istəmirdi. Əslində, başqa yol yox idi. Aclığa, soyuğa birtəhər dözmüşdü, ancaq dizenteriyadan ölmək haqsızlıq olardı. Bilirdi ki, büdrəyib yıxılsa, faşistlər ən yaxşı halda başına güllə çaxacaq, meyiti də yol kənarında qalıb çürüyəcək, qurd-quşa yem olacaq.

Əsirlər çovğun və dondurucu şaxtada güclə irəliləyirdi. Soyuq adamın iliyinə işləyir, bəziləri yolda donub ölürdü. Yorulub əldən düşənləri güllələyib yol kənarına atırdılar. Hələ düşərgədə ikən, komissarları seçib ayırmışdılar. Onları şaxtada çılpaq soyundurub dirəyə bağlayır, üstünə su tökürdülər. Səhər bu adamlar buz heykələ bənzəyirdi. İnsanlar taun xəstəliyindən siçovul kimi qırılırdı. İki həftə yol gedəndən sonra sağ qalanları həbs düşərgəsinə gətirdilər. Mehdi yola çıxmazdan əvvəl əsirləri saymışdı, düşərgəyə çatar-çatmaz sayını bir də yoxladı – 398 əsirdən 139 nəfər qalmışdı.

Əsirlərə hündür taxta çəpərin qarşısında dayanmaq əmri verildi. Darvaza dərhal açıldı və onları 19 saylı blokun həyətinə saldılar – almanlar barakları “blok” adlandırırdı. Bu blok yeni gələn əsirlər üçün nəzərdə tutulmuşdu. Həyətə “Opel” markalı ağ minik maşını daxil oldu. Maşından eynəkli, boynu xəzli qara dəri plaş geymiş hündürboy SS zabiti düşdü. Mayor sıraya düzülmüş əsirlərin qarşısında ayaq saxladı, xoruz kimi boynunu uzadıb baxdı, sonra tələsmədən maral dərisindən olan əlcəklərini çıxarmağa başladı. Sağ əlində qısa, yoğun dəyənək vardı. Diqqətlə adamların gözünün içinə baxırdı, elə bil qul bazarına gəlmişdi və qorxurdu ki, onu aldadıb “saxta mal” verərlər. Hərəkətlərindən görünürdü ki, heç yerə tələsmir. Ağarmış, boz-mavi gözləri eynəyin altından qəribə görünürdü, üz-gözündən qəzəb və nifrət yağırdı. SS mayoru susub diqqətlə əsirlərə baxırdı. Mehdiyə elə gəldi ki, bu qəzəbli mayor nəyi isə gözləyir. Bu an əsirlikdəki ən yaxın dostu, kəşfiyyat bölüyünün keçmiş komandiri, kapitan Mixaylo Solovyov ona qısılıb pıçıldadı:

– Görəsən, bu özündənrazı xoruz nə istəyir? Məncə, gözləyir ki, boğazını üzüb qazanda bişirsinlər!

Mehdi gülməkdən özünü güclə saxladı, dodaqlarını bir-birinə sıxıb qaşlarını çatdı ki, təbəssümü hiss olunmasın. Əslində, Mixaylo ürəyindən xəbər vermişdi. Dostlar sevinci də, kədəri də birlikdə bölüşdürməyə alışmışdı.

– Ağzını açıb söz deməyə cürəti çatan kim idi? Əsir yalnız zabit və ya keşikçi icazə verəndə danışa bilər. O boşboğazı yanıma gətirin, görək nə çərənləyir? *Ferfluchtes Schwein, du! Sauhund Verdammer Drecksack!*[1] – Mayor bağırdı və qəzəblə köməkçi zabitə baxdı. O da əsirlərin arasından söz atanı axtarmağa başladı.

– Qoy o murdar donuz özü qabağa çıxsın, yoxsa əmr verəcəyəm, sıradakı hər üç nəfərdən birini güllələsinlər. Onsuz da, bizim bu qonaqpərvər düşərgədə bütün bloklar ağzınadək doludur, hamınızı yerləşdirmək çətin olacaq! – Mayor ağzı köpüklənə-köpüklənə ucadan danışır, tüpürcəyi birinci sırada dayanmış Mehdi ilə Mixaylonun üstünə sıçrayırdı. Gözlənilmədən Mixaylo bir neçə addım irəli çıxıb, mayorla üzbəüz dayandı.

Mayor hələ də bağırırdı.

– Ey, təlxək, yoldaşına nə dedin? Söylə, biz də gülək! Gülmək xeyirlidir, burdakıların gülməyə böyük ehtiyacı var! Şəxsən mən bu iztirab və əzab sarayında sizə elə bir toy tutacağam ki, gülməkdən adınızı da unudacaqsınız! Alman ordusuna silahlı müqavimət göstərən hər kəs ölümə layiqdir! Əgər sizi hələ gəbərtməyiblərsə, deməli, gülləyə heyfimiz gəlib, qarışqa kimi elə çoxsunuz ki, sizi əllə, ya da silahla məhv etmək mümkün deyil... Hə, boşboğaz, bayaq yoldaşına nə dedin?

Mixaylo sırada dayananda Mehdinin qulağına pıçıldadığı sözləri təkrar etdi:

– Dedim ki, bu zabit xoruza oxşayır, onun başını üzüb qazanda bişirmək lazımdır!

Kimsə gülmədi, əsirin sözləri heç təbəssüm də doğurmadı. Hamının canına qorxu düşdü ki, görəsən, SS xoruzu bu sözlərə necə reaksiya verəcək? Mixaylonun rus dilində dediyi sözləri potaboy daz bir əsir alman dilinə tərcümə etməli idi, ancaq cürəti çatmadı. Mayor daz əsirə xatırlatdı ki, iki adi cümlənin tərcüməsini bu qədər gözləməyə vaxtı və hövsələsi yoxdur. Mayorun dəyənəyini havada görən daz əsir dərhal Mixaylonun sözlərini ucadan tərcümə edib zırıldamağa başladı. Və dərhal da susdu. Çünki təhqiramiz sözləri eşidən mayor “parabellum Po8” tapançasını çıxarıb onun alnına bir güllə çaxdı.

– Əlbəttə, bilirəm ki, bu əsir mənim barəmdə elə düşünmürdü, o yalnız tərcümə edirdi. Amma gərək həddini biləsən, belə təhqiramiz sözləri mənim üzümə, həm də ucadan söyləmək olmaz! Hər halda, ölmüş rus diri rusdan min dəfə yaxşıdır! Amma mənə şər atan bu zarafatcıl boşboğaz üçün güllə ən bahalı hədiyyə sayılardı. Bəli, onun

[1]Lənətə gəlmiş donuz! Zibilin biri! (alm.)


ПАСПОРТ

Действителен по 7-Апреля 1946 года

1. Имя, отчество, фамилия Гусейн-заде Мехти ... Оглы

2. Время и место рождения 1918 года АзССР гор. Баку

3. Национальность Азербайджанец

I-ЛС № 531178

4. Подпись владельца паспорта

... положение Учащийся

6. Отношение к военной службе Военнообязанный

7. Кем выдан паспорт Паспортным столом 4 Отделения Милиции гор. Баку

8. На основании каких документов выдан паспорт пасп 1-ГПС № 749127 выд 1/IV-40 23-Отд Мил гор Ленинграда

Начальник Р.-О. милиции

М. П.

Начальник паспортного стола

Дата выдачи 7/IV-1941 года

I-ЛС № 531178

***Mehdi Hüseynzadənin pasportu***

boğazını xoruz kimi elə indi üzmək lazımdır. Düzünə qalsa, siz hamınız mənə kəsimə gedən toyuq-cücəni xatırladırsınız! Görürəm, donuz kimi ətli və yağlısınız. Yox, belə əclaf üçün güllə çox tez və asan ölüm olardı! – Mayor əlindəki dəyənəklə Mixaylonun başına, bədəninə, harasına gəldi vurmağa başladı.

Zərbələrdən görünürdü ki, mayor bu işə alışıb, onu xüsusi məharət və amansızlıqla yerinə yetirir. Əlindəki dəyənək kərgədan dərisindən idi, ucuna da metal diyircəklər taxılmışdı, belə zərbələrin ağrısı dəhşətli olur – əsirin gözü çıxır, yaxud çənəsi sınır. Mayor qarşısındakı Mixaylonu bir neçə dəqiqə amansızcasına döydü. Amma o, zərbələrə dözüb cınqırını da çıxarmırdı. Qaya kimi məğrur dayanmışdı. Sifətinə dəyən güclü zərbədən sonra huşunu itirib yerə sərildi.

– Məncə, kifayətdir. Bu, ağır cəzanın yalnız başlanğıcı idi. Əsl dəhşətlər sonra olacaq! Baxarıq, görək bu qarğa necə qarıldayacaq!

Dostuna Mehdinin gözü qarşısında işgəncə vermişdilər, o da sakit dayanıb baxmağa məcbur idi. Həmin an qərara gəldi ki, bundan sonra da bütün mümkün vasitələrlə faşistlərə qarşı mübarizə aparacaq.

Əvvəl yeganə məqsədi sağ qalmaq idisə, indi fikrini dəyişmişdi: qisas almaq üçün sağ qalmalıdır! Məhz bu vaxt həbs düşərgəsində blokun qarşısındakı meydançada qəlbinin səsini duydu. Bu təkcə onun yox, düşərgələrində inildəyib cəlladlardan qisas almağı düşünən insanların səsi idi. Dostu Mixaylonun qana bulaşmış üz-gözü də buna sövq edirdi. SS mayoru əvvəlcə onu dəyənəklə xurd-xəşil elədi, sonra da göstəriş verdi ki, Mixaylonun əllərinə kəndir bağlayıb assınlar və bir neçə gün bu vəziyyətdə qalsın. Mayorun fikrincə, bu, hamıya dərs olmalı idi. Bir neçə gündən sonra Mixaylonu kəndirdən azad edəndə Mehdinin qolları arasında canını tapşırdı.

– Mehdi, qisasımızı al! – son nəfəsində belə dedi.

Mehdiyə elə gəlirdi ki, gözlərini əbədi yuman minlərlə əsir son nəfəsində yalvarıb ondan yalnız bunu xahiş edir. Keşikçilər səbəbsiz yerə avtomatın qundağı ilə onları döyürdü. Hər gün aclıq və işgəncədən xeyli insan tələf olurdu. Əsirlər üzərinə dəri çəkilmiş skeletə oxşayırdı. İnsanları döyüb əzab vermək keşikçilər üçün əyləncəyə çevrilmiş, sanki narkotikə aludə olmuşdular, təbi gələndə adamları döyüb öldürməsəydilər, sakitləşə bilmirdilər. Əsirləri döyüb qol-qıçını sındırandan, başını yarandan sonra yırtıcı heyvan kimi məmnunluq duyurdular. Mehdi artıq cəhənnəmin mövcudluğuna inanırdı, elə bilirdi ki, cəhənnəmin düz ortasındadır. Həmin axşam ona digər əsirlər kimi, alman ordusunda könüllü döyüşmək təklif olundu. Könüllüləri cərgəyə düzüb Stalinin 1941-ci ilin avqustunda imzaladığı 8 saylı fərmanını oxudular. Sənəddə deyilirdi ki, düşmənə təslim olan hər bir əsgər dövlətə qarşı cinayət törətmiş sayılır. Geri qayıdandan sonra əsgərləri həbs düşərgəsi, zabitləri isə güllələnmə gözləyir. Lakin bu da Mehdini narahat etmirdi, inanırdı ki, əgər insanlar birləşib tədbir görməsə, şər qalib gələcək. Amma tədbir görmək üçün ilk növbədə sağ qalmaq lazımdır. Mehdi yoldaşları ilə müqayisədə çətinliklərə qismən davam gətirsə də, möhkəm bədəni və əzələləri yavaş-yavaş gücdən düşürdü. Onları bu əsir düşərgəsinə gətirəndə yolda bir neçə dəfə hiss etmişdi ki, artıq yeriməyə taqəti qalmayıb. Başa düşürdü ki, dayansa, keşikçilərin gülləsinə tuş gələcək, bəlkə də, bu qorxu hissi onu sıradan çıxmayıb hamı ilə birlikdə addımlamağa məcbur edirdi. Onsuz da, əsirlər yavaş-yavaş, addım-addım gedir, bu da Mehdiyə vəziyyətdən birtəhər çıxmağa imkan verirdi. Könüllü əsgər olmağa razılaşanda düşündü ki, Vətənə verdiyi əsgər andını pozsa da, bu gün sağdır. İlk baxışdan xəyanət kimi qiymətləndirilən bu addımı atmaqda Mehdinin məqsədi vardı: and içmişdi ki, Vətənin azadlığı və xoşbəxt gələcəyi uğrunda canından keçəcək!

*Ey ana, ey həyat, ey böyük Vətən!*
*İnan ki, səninçün yaşayıram mən.*
*Həsrətin çəkmişəm mən uzun zaman*
*İndi bambaşqadır gördüyüm dövran.*
*Göylərin də ağlar, yerin də ağlar,*
*Bu böyük hicranın qəlbimi dağlar!*
*Mənim də bir böyük Vətənim vardır,*
*Mənim də gülüm var, gülşənim vardır!*
*Bilirəm, çiçəyin rəngi solğundur,*
*Bilirəm, anamın gözü yorğundur!*
*Ağlaraq səsləyir: "Oğul, hardasan?"*
*Anacan, ölməyib hələ bu insan,*
*Onun Vətən adlı bir dərdi vardır.*
*And içirəm sənin böyük adından,*
*Düşmən hasar çəksə bir dəniz qandan,*
*Gözlərimi örtsə ölüm pərdəsi,*
*Vətən uğrunda sönməz həvəsim!*
*And olsun xalqımın namus varına!*
*And olsun vicdanın xilqət varına!*
*And olsun bəşərin var qüvvətinə!*
*And olsun göylərin şah hikmətinə!*
*Elimin yolunda meydan eylərəm,*
*Döyüş cəbhəsində al qan eylərəm.*
*Ya ölüm, ya Vətən – budur son sözüm!*
*Bu yolda parlar mənim ulduzum!*

***M.Hüseynzadə***

Stalinqrad döyüşlərində Paulusun qoşununun mühasirəyə düşməsi xəbəri əsirlər arasında ildırım sürəti ilə yayıldı. Rus ayısı, axır ki, sərt üzünü göstərmişdi. Bunu eşidən Mehdi qərara gəldi: sağ qalmaq üçün əlindən gələni edəcək, faşistlərin şəxsən ona və yoldaşlarına verdiyi işgəncələrə görə qisas alacaq. Mehdinin başqa çıxış yolu yox idi. Çünki qolları arasında ölmüş əziz dostu Mixayloya qisas barədə söz vermişdi. Yaranmış şəraitdə Vətənə xəyanəti Mehdi xoşməramlı addım sayırdı, çünki bunu doğma torpağın azadlığı uğrunda mübarizəni davam etdirmək kimi qiymətləndirirdi.

Könüllülər dəstəsinə yazılmaq təklifini də bu səbəbdən qəbul etdi. Müharibənin bu mərhələsində almanlar könüllülərdən ibarət dəstələr

yaradıb cəbhəyə göndərirdi. Faşistlər Şərq cəbhəsindəki böyük itkilərə göz yuma bilməzdi. Belə ki, milyondan çox alman əsgər və zabiti ruslara əsir düşmüşdü. İtaliyada Mussolini rejimi süquta uğramışdı, alman komandanlığının təcili surətdə döyüş qabiliyyətli hərbi birləşmələrə ehtiyacı vardı. Faşistlər həmçinin Reyxin qərb sərhədlərini – əvvəllər italyanların nəzarəti altında olan əraziləri möhkəmləndirməyi düşünürdü. Onlar Fransada da böyük qoşun kontingenti saxlamağa məcbur idi, çünki müttəfiqlərin desant çıxaracağından qorxurdular. Amma Fürerə kor-koranə pərəstiş edən adamlar inanmaq istəmirdi ki, minillik tarixi olan Reyx tezliklə yer üzündən silinəcək – Almaniyanın süqutuna sayılı günlər qalırdı! Çoxları aydın dərk edirdi ki, bu dəhşətli xaosda sağ qalmaq böyük sual altındadır. Amma bu adamlar üçün hər şey necə də uğurlu başlamışdı. 1939-cu ilin sentyabrında Polşa iki-üç həftəyə işğal olunanda düşünmüşdülər ki, bundan sonra dünyaya ağalıq edəcəklər.

Almanlar "düşmənimin düşməni mənim dostumdur!" prinsipi əsasında sovet əsirləri hesabına əsgər sayını artırmaq istəyirdi. vlasovçulardan[1] ibarət böyük diviziya yaratmışdılar, tərkibində də yalnız ruslar döyüşürdü. Bununla yanaşı, almanlar Sovet İttifaqında yaşayan müxtəlif xalqların və millətlərin nümayəndələrindən ibarət çoxsaylı könüllü diviziyalar təşkil etmişdi. Məsələn, alman ordusunun tərkibində Ukrayna, Estoniya, Latviya, Türkmənistan, Ermənistan, Azərbaycan diviziyaları fəaliyyət göstərirdi. Bu hərbi hissələrin böyük əksəriyyəti SS komandanlığına tabe edilmişdi, ona görə də Mehdi eşidəndə ki, xidmət etdiyi Türküstan diviziyası Vermaxtın nizamlı qoşunlarının tərkibinə daxil edilib, rahat nəfəs aldı.

– Alman zabiti, – düşünürdü, – bu adı daşımağa birtəhər dözmək olar, amma Allah göstərməsin, SS zabiti olmaqdan pis heç nə yoxdur! Başıma güllə çaxsalar da, buna razılıq vermərəm!

Könüllüləri yük maşınlarına mindirib aparanda məlum oldu ki, həbs düşərgəsindəki üç min əsirdən yalnız qırx nəfər almanlara könüllü xidmət etməyə razılıq verib. Bu adamlar alman cəhənnəmindən qurtulmağın, sağ qalmağın yeganə yolunu seçmişdi. Könüllülər arasında Mehdinin bir neçə həmyerlisi də vardı. Döyüş yoldaşı və sadiq dostu Cavad Həkimli də könüllülərə qoşulmuşdu, bu cüssəli cavan oğlanın həbs düşərgəsində keçirdiyi üç ay ərzində saçları tamamilə ağarmışdı.

Mehdi yoldaşları ilə şərt kəsmişdi ki, fürsət düşən kimi qaçıb canlarını qurtarsınlar. Maşının yük yerində erməni, gürcü və üç-dörd

---

[1] **Vlasovçular –** İkinci Dünya müharibəsi dövründə nasist Almaniyası tərəfində sovet ordusuna qarşı vuruşan rus azadlıq ordusu

nəfər rus könüllü də vardı. Düşərgədəki dözülməz həyat şəraiti Mehdini əldən salmışdı. Halı özündə deyildi, başında və bədənində ağrılar əmələ gəlmişdi. Maşın düşərgənin həyətindən çıxdı, darvaza bağlananda başa düşdü ki, faşist cəhənnəmində yanıb kül olmaqdan son anda qurtulub. Üç ay davamlı aclıq və susuzluq özünü büruzə vermişdi: Mehdinin fiziki və mənəvi gücü tükənmiş, gözləri solmuş, reaksiyası zəifləmişdi. Əgər bir-iki gün də orada qalsaydı, yəqin, faşist cəhənnəminin məngənəsində çapalayan digər əsirlər kimi, ürəyi dayanacaq və gözlərini əbədi yumacaqdı.

– Əgər əsirlərin normal düşünmək, vəziyyəti real qiymətləndirmək imkanı olsaydı, bizim kimi onlar da könüllü dəstəyə daxil olardı. Hamıya ağılsız demək düzgün deyil: birinin ağlı iti işləyir, digərinin şüuru isə hadisələri yavaş-yavaş dərk edir. Amma düşünüb vaxtında qərar verənlər çox azdır. Ölmək ölməkdir, xırıldamaq nə deməkdir! Məncə, insan ən cüzi şansı da əldən buraxmamalıdır! – Mehdi yol boyu bu barədə düşünürdü.

Könüllüləri müşayiət edən keşikçilər bu dəfə nəzakətlə dolanırdı – keçmiş əsirləri hətta içməli suya qonaq etdilər. Mehdi ötən il Don ətrafındakı döyüşlərdən sonra belə təmiz su içməmişdi.

Almaniyanın Noyhammer şəhəri yaxınlığında sovet hərbi əsirləri üçün nəhəng düşərgələr salınmışdı. Almanlar qərara gəlmişdi ki, Orta Asiya və Qafqaz respublikalarında yaşayan millətlərin nümayəndələrindən ibarət döyüş batalyonları təşkil etsinlər. Əvvəlcə onları iki həftə kazarmada saxladılar, qidalanma normal idi, eyni zamanda ideoloji təbliğat aparılırdı. Asudə vaxt da vermişdilər, çünki könüllülərin, demək olar, hamısı həbs düşərgəsində zəifləmiş, psixoloji gərginlik keçirmişdi. İlk günlər Mehdi hər şeyə, hətta alman zabitlərinin dediyinə də etinasız yanaşır, hamı kimi əsgər yeməkxanasında qidalanıb, dostları ilə oradan-buradan söhbətləşirdi. Bir həftədən sonra hiss etdi ki, yavaş-yavaş dirçəlir, bədəninə güc gəlir.

Kazarmaya hər gün müxtəlif düşərgələrdən yeni könüllülər gətirirdilər. Aralarında Ukrayna, Gürcüstan və Sibirin azsaylı xalqlarının nümayəndələri daha çox idi, rusları isə barmaqla saymaq olardı.

Bir neçə gündən sonra komandir öyrəndi ki, Mehdi alman dilində yaxşı danışıb yazmağı bacarır. Onu qərargaha tərcüməçi və mirzə vəzifəsinə təyin etdilər. Məşğələlərdə alman zabitinin çıxışını tərcümə edən Mehdidə hərb elmini öyrənmək həvəsi oyandı. Əvvəllər bu sahə onu bir o qədər də maraqlandırmırdı, amma indi anladı ki, hərbi bilik köməyinə gələ bilər, əlindən tutar, sağ qalmaq imkanı yaradar. Hərb elminə acgözlüklə yiyələnirdi. Alman komandanlığı batalyon yoldaşlarının

Mehdiyə dərin hörmət və ehtiramını görəndən sonra bakılı oğlana münasibət kökündən dəyişdi: onlar qərargah mirzəsini öz tərəflərinə çəkməyə çalışırdı. Mehdi hər dəfə cəbhə xəbərlərini legionerlərə tərcümə edəndə yazılmış mətn əvəzinə, qərargah zabitlərinin cəbhədəki vəziyyət barədə öz aralarında apardıqları söhbətləri məzəli şəkildə çatdırırdı. Mehdi legionda gizli antifaşist təşkilatına rəhbərlik edirdi. Əsgərlər onun nikbin və Vətənə məhəbbət dolu şeirlərini əzbərdən bilirdilər. Mehdi yazılarına “Huberzadə-şair” imzası qoyurdu.

Mehdi düşərgə radiosu ilə müntəzəm çıxış edib Azərbaycanın müstəqilliyindən danışır, Sovet imperiyasının süqutuna inandığını bildirir, təşviqatçı kimi fəaliyyət göstərib nasist təbliğat filmlərinin mətnini tərcümə edirdi. Tezliklə azərbaycanlı legionerlər gördülər ki, Almaniya Azərbaycanın müstəqilliyi üçün əlini ağdan-qaraya vurmur. Bu səbəbdən yekdil qərara gəldilər: imkan düşən kimi yerli müqavimət hərəkatına qoşulsunlar.

Mehdinin alman hərbi formasını görməyə gözü yox idi, yalnız bir fikir ürəyini sakitləşdirirdi: tezliklə düşməndən qisas almaq vaxtı yetişəcək!

...Qatar sürətini azaldanda Mehdi hələ də yuxuda, son illər həyatında baş vermiş dəhşətli hadisələrin məngənəsində çırpınırdı. Oyanıb pəncərədən baxdı, deyəsən, stansiyaya yaxınlaşırdılar. Birdən xatırladı ki, indi düşərgədə, hospitalda deyil, kupedə zəhlətökən bir adamla yol gedir. Səbəbini heç özü də bilmədən, bəlkə də, nəzakət xətrinə qırmızıyanaq kişiyə dedi:

– Əgər viran qalmış xutorları, kəndləri nəzərə almasaq, qış nağılına söz ola bilməz! Amma bu ürəkdağlayan mənzərə bütün təəssüratları alt-üst edir. Xarabalıqlar mənə cəbhəyanı əraziləri xatırladır. Ancaq, mən bilən, Sloveniyada heç bir cəbhə xətti yoxdur, döyüşlər isə almanlarla yerli partizanlar arasında gedir, elə deyilmi? Şərq cəbhəsində olduğu kimi, orada da rus partizanları çox fəaldır...

– Görürəm, hər şeydən xəbəriniz var, cənab leytenant. Axırıncı dəfə Sloveniyada əsl cəbhə xətti iyirmi beş il əvvəl, Birinci Dünya müharibəsi zamanı Soş çayı sahillərində olub. İndiki Sloveniya ərazisində gizli döyüşlər getsə də, burada əsl cəbhə xətti tapa bilməzsiniz. Əslində, hər tərəf cəbhədir, mən xalq cəbhəsini, yəni yerli müqavimət hərəkatını nəzərdə tuturam. İstənilən total müharibədə böyük miqyaslı partizan cəbhəsi var, cənab leytenant, – Mehdinin yol yoldaşı müdrikcəsinə dilləndi.

– Bəli, deyirlər, Stalinqradda da belə olub, cənab Alloiz. Almanlar orada hər küçə, hər ev uğrunda döyüşüb.

– Şübhəsiz, əsgər döyüşməlidir, əgər vuruşmursa, onun harası əsgərdir? Tacirlər də belədir: alver etməsə, ona tacir demək olarmı? Məsələn, mən topdan donuz əti satıram. Öz aramızdır, yaxşı adama oxşayırsınız, sizə etibar etmək olar. Bu çətin zamanda işim heç də pis getmir. Bu gün donuz ətinə tələbat böyükdür. Bu isə, hörmətli cənab leytenant, hər şeydən əvvəl, sizin hərbi hissələrin sayəsində baş verir. İntendant xidmətinin zabitləri satdığım cəmdəkləri çox bəyənir, ona görə də əlimdən qapırlar. Bir dost kimi bildirim ki, mənim ucuz qiymətə satdığım donuz cəmdəklərini çıraqla gəzsəniz, tapa bilməzsiniz! Ucuz qiyməti eşidəndə çoxları dəli olur, ancaq iri müştərilərə topdan satanda sərf edir. Görürəm, hərbi hissələrin ərzaq təchizatı ilə heç bir əlaqəniz yoxdur. Qəhrəman döyüşçüyə, hətta deyərdim, cəngavərə bənzəyirsiniz. İcazənizlə, özümü tövsiyə edim, əla donuz ətini topdan, həm də ucuz qiymətə yalnız məndən alın. Məxsusi olaraq, sizin üçün endirim təklif edirəm: hər aldığınız on cəmdəyə birini pulsuz verirəm! Yəni bonus, endirimi belə adlandırırıq. Bir düşünün, hörmətli cənab zabit, əgər batalyonun intendant xidmətini mənimlə calaşdırsanız, xeyli bonus əldə edə bilərsiniz! Sizin hərbi hissənin harada yerləşdiyini bilmək olar?

– İndi hissəmiz Opçina ətrafında yerləşir, cənab Alloiz. Yəqin, oranı məndən yaxşı tanıyırsınız.

– Əlbəttə! Ayda, ən azı, bir dəfə Triestə donuz əti aparıram. Sizə vizit kartımdan bir neçəsini verərəm, kim maraqlansa, əlaqə saxlasın. Yaxşı adamı axtarmaqla deyil, gərək Tanrı özü onu rast gətirsin! Bəxtə bax, bu kupeyə ayaq basanda ağlıma gəlməzdi ki, yaxşı adamla tanış olacağam. Güman edirəm, yaxın vaxtlarda sizinlə tərəfdaş kimi fəaliyyət göstərəcəyik. Bu barədə nə düşünürsünüz, cənab leytenant?

– Nə deyirəm, sizin təklifinizi hərbi hissədəki müvafiq şəxslərə çatdıraram. Təsadüfən bilmişəm ki, bizim intendant xidmətinin komandiri donuz ətini çox sevir. Əlimdən gələni əsirgəmərəm, cənab Alloiz, – Mehdi nəzakətlə cavab verdi. Ancaq legionun mətbəxində, ümumiyyətlə, donuz ətindən istifadə olunmadığını söyləmədi.

– Biznes sahəsi elədir ki, gərək Tanrı özü yol açsın, düz demirəm, cənab leytenant? Etiraf etməliyəm ki, biznesim əvvəllər, yəni Lüblyan İtaliyanın nəzarəti altında olanda da çiçəklənirdi. Hərçənd italyanlar almanlar kimi, donuz ətinin dəlisi deyil. İtalyanlar daha çox mal və dana ətinə üstünlük verir. Bilirsiniz, məndə dana miyantəngi var, qızardanda ləzzətindən doymaq olmur, barmaqlarını yalayarsan! Bu yaxında Tselyedəki istehkam batalyonunun təchizatçısı mənə dedi ki, hətta Almaniyada bu cür dadlı donuz ətinə rast gəlməyib. Düşünün,

cənab leytenant. İşim əla gedir, malım çox olsa da, satılar. Digər tərəfdən, az olmağı yaxşıdır. Bilirsiniz, cənab leytenant, tələbat artdıqca qiymət qalxır, əgər söhbət donuz ətindən gedirsə, deməli, qiymət gündən-günə qalxır. Məlum məsələdir, müharibə gedir! Müharibə bütün qiymətləri bahalaşdırır. Bu, yaxşı tacir üçün əla fürsətdir. Əlbəttə, əgər alveri, müştəri şəbəkəsini mükəmməl qura bilmisənsə, deməli, uğur qazanacaqsan. Əsas məsələ odur ki, əlinə pul gələn kimi onu mala çevirəsən. Belə tacir heç vaxt müflis olmaz! Əgər malın yoxdursa və qalaq-qalaq pulları evdəki sandıqda gizlətmisənsə, axırın pis olacaq! Çünki pul gündən-günə dəyərini itirir. Səhv etmirəmsə, maliyyə mütəxəssisləri bunu inflyasiya adlandırır. Bəli, müharibə dövründə hər şey bahadır, bircə insanın və pulun dəyəri qalmayıb! Mən adi tacirəm, işim də pis getmir. Əsgər deyiləm, podaqraya görə hərbi xidmətdən azad ediblər. Öz aramızda qalsın, hərbi biletimdə podaqra yazdırmaq mənə yüz donuz cəmdəyinə başa gəlib. Amma bu, həyatımın ən uğurlu sərmayəsidir. Cəbhəyə getsəydim, ölüb, qurd-quşa yem olacaqdım, indi isə donuz əti satmaqla məşğulam. Onsuz da, hərbi işdən başım çıxmır, amma hansı donuzu nə vaxt və necə kəsmək lazım olduğunu yaxşı bilirəm. Dərindən düşünsək, hərbi işlə donuz kəsmək arasında bir oxşarlıq var: birində insanı, digərində isə donuzu öldürürlər.

Cənab zabit, hər axşam dua edirəm ki, müharibə bitməsin, çünki işlərim qaydasında gedir. Eyni zamanda yazda yeni filial açıb kolbasa satışı ilə də məşğul olmağı düşünürəm. Bilirsiniz, bizim diyarın kolbasası dünyada məşhurdur. Müştərilər deyir ki, kolbasanın dadından doymaq olmur. Bacanağım Dravdakı Brestanitse ovçuluq təsərrüfatının rəisidir. Maral əti ilə təmin edəcəyinə söz verib. Maral ətindən hazırlanmış kolbasa, məncə, Sloveniyanın ən dadlı məhsuludur. İndiki gündə onu hazırlamaq, ya da dükandan almaq müşkül məsələdir. Müharibədir, ovçu patronları çatışmır. Bacanağım belə deyir, sözün düzünü danışan adamdır. Belə mətləbləri tək mənə söyləsəydi, dərd yarı idi, amma tanımadığı adamların yanında ağzına gələni danışır. Pis xasiyyətdir, hörmətli cənab leytenant, yəqin, mənimlə razılaşarsınız ki, yerin də qulağı var, hər şeyi danışmaq çox təhlükəlidir. Yaxşı deyiblər: susmaq qızıldır! Təəssüf, bacanağım bu işin nə ilə bitəcəyini anlamır. Bir gün əlli-ayaqlı gedəcək, gözünü qırpmağa da macal tapmayacaq, düz demirəm?

Mehdi yol yoldaşının bu uzun monoloquna cavab verməyə macal tapmadı, çünki qatar sürətini azaltdı. Tacirin başı söhbətə elə qarışmışdı ki, qatarın Tselye dəmiryol vağzalına nə vaxt daxil olduğunu hiss etmədi. Cənab Alloiz qalxıb paltosunu, iri dəri çantasını götürdü. Mehdi

yalnız indi başa düşdü ki, yol boyu duyduğu təzə ət qoxusu haradan gəlirmiş. Görünür, çanta ağzınadək ətlə dolu idi. Tacir kupedən çıxmazdan əvvəl yenə də ikiqat əyilib Mehdiyə təzim etdi, bir neçə vizit kartını təntənəli surətdə onun ovcuna basdı, xudahafizləşib vaqondan düşdü.

Tacir gedən kimi Mehdi kupenin havasını dəyişmək üçün pəncərəni açdı, buz kimi soyuq havadan doyunca ciyərlərinə çəkdi. Kupe isti olduğu üçün bayaqdan onu yuxu basmışdı, soyuq hava əhvalını dəyişdi, yuxusu qaçdı. Hələ Mariborda vaqon bələdçisi üzrxahlıq edib bildirmişdi ki, qızdırıcının tənzimləyicisi xarab olub, ona görə kupelərə həddindən artıq istilik verilir.

Tselye dəmiryol vağzalı digər stansiya binalarından fərqlənmirdi. Mehdi düşündü ki, deyəsən, bütün bu stansiyaların layihəsini bir adam verib. Görünür, bu memarın fantaziyası kasad imiş, çünki Koroş və Şteyr vilayətlərində gördüyü bütün vağzal binaları bir-birinə bənzəyirdi. Lüblyana qədər Mehdi kupedə tək getdi, fürsətdən istifadə edib doyunca yatdı.

“Hospitaldan sonra yaman yatağan olmuşam, – yuxuya getməzdən əvvəl düşündü, – gözlərim açılmır. Yuxusuz adam isə diqqətini cəmləşdirə bilmir, onu ətalət basır, fikri yayınır, reaksiyası zəifləyir”.

Vaqon ləngər vurub dayananda oyandı, pəncərədən baxanda anladı ki, qatar Sloveniyanın iri şəhərlərindən biri olan Lüblyana çatıb. Mehdi burada Triestə gedən ekspressi gözləməli idi.

Hiss etdi ki, bərk acıb, Maribora yola düşməzdən əvvəl kupedə sarısaç gözəlçənin açdığı süfrədəki dadlı yeməklər yadına düşdü. Burada perron digərlərindən daha enli və uzun idi. Mehdi əvvəlcə qərara gəldi ki, vağzaldan çayın sahilinə doğru uzanan yolla gedib qarşı tərəfdəki xiyabana və qədim kilsəyə tamaşa etsin. Çayın üstündən yan-yana üç körpü salınmışdı, Mehdi heç vaxt belə bir şeyə rast gəlməmişdi. Çayın digər sahilində isə kiçik bazar vardı. Günortadan keçmişdi, qış günəşinin şəfəqləri bir-birindən yaraşıqlı, fasadı müxtəlif rənglərlə boyanmış binalara zəif işıq saçırdı. Neoklassik tərzdə ucaldılmış bu tikililər Mehdiyə Bakını xatırlatdı. Hava xoş idi və Mehdi özünü yaxşı hiss edirdi. Küçədən keçənlərin ona qəzəb və nifrətlə baxdığını görəndə yadına düşdü ki, əynində alman forması var. “Bu forma yerli adamlarda ikrah doğurur. Bu geyimdən mümkün qədər tez yaxa qurtarmaq lazımdır!” – “Qrand hotel Union”a daxil olanda düşündü. Restoranda əyləşib nahar sifariş verdi. Qonşu masalardakıların böyük əksəriyyəti alman zabiti idi, qadınla gəlmişdilər. Gülərüz qarsonlar müştərilərə canla-başla xidmət göstərirdi.

Sifariş verdiyi yeməyi gözləyəndə böyük məmnuniyyətlə bir siqaret yandırıb, restoranın kiçik səhnəsində piano çalan oğlana baxdı. "Gözəl, mavi Dunayda" mahnısının melodiyası səslənirdi. Həzin musiqi sədaları altında həlak olmuş yoldaşı Mixaylo, düşərgə dəhşətləri və aclıq keçirdiyi günlər yadına düşdü. Xəyalən dostu Mixaylo ilə danışdı: "Eh, dostum, bir az da döz, sonra bu əclaf faşistləri necə öldürdüyümə baxıb məəttəl qalacaqsan! Sənin qisasını yüz yox, min qat alacağam!"

Bu fikirdən kefi kökəldi, əhvalı yaxşılaşdı. Düzü, axırıncı dəfə nə vaxt belə xoş əhvalda olduğunu xatırlamırdı. Çatışmayan yeganə bir şey vardı: şəxsi silah! Əsgər olduğu gündən yanında silah gəzdirməyə alışmışdı, indi silahsız özünü sanki çılpaq hiss edirdi. Başa düşürdü ki, gəzintiyə çıxmayıb, Avropanın göbəyində, faşistlərin qarışqa kimi qaynaşdığı yerlərin birindədir. Qarsonun gətirdiyi deserti yeyəndən sonra kefi bir az da duruldu. Restorandan çıxıb vağzala gəldi. Triestə gedən qatarın adi vətəndaşlar üçün nəzərdə tutulmuş vaqonlarından ən axırıncısına minib sonuncu kupedəki yumşaq oturacağa sərildi. Qatarın yola düşməyinə beş-altı dəqiqə qalmışdı, düşündü ki, bu şəhərin üstündə sanki qoruyucu təbəqə var, adamların içində yığılıb qalmış iztirab və ölüm kabusunun püskürüb çıxmasına imkan vermir. Almaniya və Polşanın müxtəlif şəhərlərində hərbi formada dəfələrlə küçədə gəzmiş, amma əhalinin nifrət dolu baxışları ilə üzləşməmişdi. Burada isə aşkar hiss olunurdu ki, alman formasında gəzmək təhlükəlidir. Küçədə gördüyü çoxsaylı polis və hərbi patrul bu qənaətin doğruluğuna əyani sübut idi.

Bu, Mehdinin ürəyincə oldu. Faşistlərin işğal etdiyi şəhərdə özlərini təhlükədə hiss etməsi onu sevindirdi. Düşmənin ürəyinə xof salmaq lazımdır. Faşistlər burada hər tıqqıltıdan diksinir, hər tinbaşı əsgər dolu yük maşınları gözə dəyir, motosikletçilər küçələrdə gecə-gündüz keşik çəkirdi. Mehdi bu xaosdan uzaqlaşıb vaqonun isti kupesində, təhlükəsiz bir yerdə, həm də təkbaşına oturduğu üçün məmnun idi.

## VII

Səhər Lüblyan gestapo idarəsinə, kəşfiyyat xidmətinin rəisi mayor Razoumekaya məktub gəlmişdi. Bu xidmət Qoren və Lüblyan dairəsi üzrə SS generalı Rosenerə tabe idi. Məktubu Postoynadakı agent yazmışdı. Xəfiyyə bildirirdi ki, gizli şəraitdə fəaliyyət göstərən müqavimət hərəkatı şəhər təşkilatının sıralarına soxula bilib. Mayor qərara aldı ki, elə həmin gün agentlə görüşüb hər şeyi ətraflı öyrənsin. Hiss edirdi ki, məhz bu əməkdaşın köməyi ilə rəisi general Rosenerə verdiyi sözə əməl edəcək. Son günlər general çox qəzəbli görünür və yarıtmaz işə

görə mayoru danlayırdı. Hərbi geyimdə, həm də təkbaşına agentlə görüşə gedə bilməzdi, ona görə Jarko Benediçiçi də özü ilə aparmağı qərara aldı. Jarko faşistlərə can-başla xidmət edirdi, hava qaralandan sonra agentin evinə gedib onu xiyabana, mayorla görüşə çağırmalı idi.

Güclü qar Lüblyan ətrafındakı bütün yolları iflic etmişdi. Cüssəli və yaraşıqlı, sarısaç və mavi gözlü avstriyalı cavan mayor Razoumek qərara gəldi ki, Postoynaya qatarla getsin, çünki bu yol ona daha təhlükəsiz görünürdü.

"Hər ehtimala qarşı, sonuncu vaqona minsəm, yaxşıdır. Bu vurhavurda bircə hospitala düşməyim əskikdir!"

Qoburu kəmərinə taxdı, içində Belçika istehsalı olan 7,65 kalibrli tapança vardı. Orduda bu tapançanı "brevet" adlandırırdılar. Silahı çox bəyənirdi, yekəpər və kobud "parabellum"dan yaxşı idi. Belçikada hazırlanmış bu kiçik tapança hədəfi dəqiq vururdu.

Lüblyan dəmiryol vağzalının girişindəki polis buraxılış məntəqəsinin yanında mayorun mülki geyimdə olan iki əməkdaşı dayanmışdı. Onlar rəisə ehtiramla salam verdi. Polislər mayoru və onu müşayiət edən Jarko Benediçiçi saxlamadı. Ortaboylu, cılız bədənli, sarısaç, dişləri mırıq, qəhvəyi şalvar və dəri pencək geymiş Jarko heç vaxt adamın gözünün içinə baxmırdı. Mayorun zahiri görünüşə görə adamları saf-çürük etmək imkanı yox idi, arzu edənlərin hamısını işə götürürdü, onsuz da, başçılıq etdiyi xidmətdə əməkdaş çatışmırdı. İşin öhdəsindən gələ bilməyənləri isə sonradan ölüm düşərgəsinə göndərib məhv edirdi. İşə yaramayan belə agentlər onun gözündə birdəfəlik əlcək kimi idi: işlətdin, tulla getsin! Mayor Razoumek şəxsi təhlükəsizlik məsələlərində heç bir mənəvi prinsiplərə əməl etmirdi. Peşəkar polis xəfiyyəsi kimi bilirdi ki, şahid olmasa, ona heç nəyi sübut edə bilməzlər! Hiss edirdi ki, Hitlerin bu ağılsız avantürasının axırı pis qurtaracaq, ona görə hər dəfə təkrar edirdi: palaza bürün, ellə sürün! Hələlik ətrafındakı bu yalquzaq sürüsündə başını birtəhər girləyir, suyu üfürə-üfürə içir, faşist təbliğatına inanmırdı. Amma Vaqnerin[1] "Tanrıların qürubu" faciəsinin qəhrəmanı kimi, bu təbliğatdan yalnız öz şəxsi məqsədləri üçün istifadə edirdi... Mayor və onu müşayiət edən şəxs sonuncu vaqona mindi. Kupelərin, demək olar, hamısı sərnişinlə dolu idi. Yalnız birində hündürboy, qarasaç və qaragöz alman zabiti əyləşmişdi.

Mayor Razoumek bir saatlıq yolda Jarkodan bəzi məsələləri ətraflı öyrənib, ona bir neçə yeni tapşırıq vermək fikrində idi, amma kupedəki

---

[1]**Rixard Vilhelm Vaqner** (alm. *Wilhelm Richard Wagner*; 22.05.1813 Leypsiq – 13.02.1883 Venesiya) – Alman bəstəkarı, dirijor, teatr xadimi, publisist, musiqi nəzəriyyəçisi, esseçi

zabit onu təlimata uyğun, nəzakətlə salamlayanda fikrini dəyişib leytenantla bir az söhbət etmək qərarına gəldi:

– Hə, əziz leytenant, sizə əsl xoşbəxtlik üz verib, gözəl yerlərə gedirsiniz. Triest mənim ərazimə aid olmasa da, ora tez-tez səfər edirəm. Postoynanın gözəllikləri barədə sizə yol boyu danışa bilərəm. Amma necə deyərlər, min eşitməkdənsə, bir görmək yaxşıdır!

– Hörmətli cənab mayor, çox güman, bu yaxınlarda, bizim diviziyanı İtaliya cəbhəsinə göndərəcəklər. Ona görə də Triestdə nə qədər qalacağımı bilmirəm. Ancaq bildirim ki, Qratsdan Lüblyana gələndə yol boyu gördüyüm təbiət mənzərələrinə heyran qaldım.

– Haqlısınız, buranın qışı valehedicidir. Qış hər yerdə gözəldir. Vay o gündən ki, alman ordusunun əsgəri kimi, Rusiyanın qarlı çöllərində olasan. Məncə, siz isti ölkədə doğulmusunuz, hə?

– Bəli, cənab mayor, ancaq buna baxmayaraq, soyuğa yaxşı dözürəm. Bəziləri şaxtadan şikayətlənir, amma mən soyuğu çox sevirəm.

– Kimə necə xoşdur, nizam-intizama öyrəşən adam həmişə özünə qarşı tələbkar olur. Müdrik bir kəlam var: “Nə əkərsən, onu biçərsən!” Bizim günlərdə çox aktual səslənir. Amma bir məsələ var ki, əgər yüyəni qadının əlinə vermisənsə, gərək vərdişlərindən əl çəkib, qadının sözü ilə oturub-durasan. İndi zərif məxluqların sözü hər yerdə keçir. Hərb aləmində qadınlara yer olmasa da, əsgərlər yuxuda yalnız arvad görür. Biz də kəşfiyyat idarəsində qadın agentlərin xidmətindən geniş istifadə edirik.

– Haqlısınız, cənab mayor. Hər bir müharibə müəyyən mənada qadın uğrunda mübarizədir. Daha doğrusu, düşmənin qadınlarına sahib çıxmaq üçün mənasız savaş aparılır. Heç düşünmədən qadınları da hərbi qənimətlər siyahısına daxil etmək olar.

– Dediklərinizə böyük məmnuniyyətlə imza atıram. Qadınlar ilk baxışda göründüyündən də məkrlidir. Bəşəriyyətin taleyi onların əlindədir. Qadınsız dünyanın nə mənası var, düz demirəm? Əks təqdirdə, nə biz, nə də dünya olardı. Qadınsız nəsil artarmı? Yox, qadınsız bəşəriyyət məhvə labüddür!

– Cənab mayor, eşitmişəm, qədimdə insanlar qadın allahlara sitayiş edib, ancaq bizim patriarxal dünya bunu sadəcə unudub.

– Bəli. Amma bu gün dəyənək kişilərin əlindədir, hərbi formada da gəzən onlardır. Hər şey dəyişir, nə vaxtsa allahlıq edən qadın indi kişinin əmrini yerinə yetirən müti qula çevrilib. Bilirsiniz, bu vəziyyət ürəyimdən xəbər verir, şikayətlənmirəm, əziz leytenant. Xoşbəxtlikdən, qalib olan yerdə qadın da var, həm də ən gözəli. Qələbəni isə yalnız kişi qazanmalıdır. Bu, orduya da aiddir. Hazırda kiçik böhran keçiririk,

əgər onu dəf edə bilsək, daha güclü olarıq. Vaxtilə bolşeviklər deyirdi: "İki addım irəli, bir addım geri!" – Mayor sözünü bitirib güldü.

– Bəli, cənab mayor, hər şey göründüyü kimi deyil. Medalın iki üzü var, bəzən yaxşı görünən bir şey, əslində, pisdən başqa heç nə deyil.

– Haqlısınız, görüntü və reallıq bir növ forma və məzmunu xatırlatsa da, əslində, başqa-başqa şeylərdir. Axı görüntü ilə reallıq arasında heç bir bağlılıq yoxdur, ancaq forma və məzmun bilavasitə bir-birindən asılıdır. Bu yaxınlarda baş vermiş bir hadisəni misal çəkmək istəyirəm: Şərq cəbhəsində yaralanmış tanış bir kapitan mənə dedi ki, sovet əsgərləri döyüş zamanı patronları tükənəndən sonra yerə uzanıb özlərini ölülüyə vururdu. Təsəvvür edin, bizim döyüşçü yerdə uzanmış sovet əsgərinə yaxınlaşır, əyilib onun ölüb-ölmədiyini yoxlamaq istəyir. "Part!" – özünü ölülüyə vuran rus əsgəri son gülləni bizim döyüşçünün alnına sıxır. Bax bu halda görüntü və reallıq əkslik təşkil edir.

Mayor Razoumek yarıqaranlıq kupedə leytenantın parıltılı gözlərini görürdü. Əmin idi ki, qarşısındakı adam onun dediklərini yaxşı başa düşür: cavan zabitin ağlı, iti düşüncə tərzi mayoru heyran qoymuşdu. Benediçiç alman dilində pis danışdığı üçün söhbətin məğzini anlaya bilmirdi. Heyvanlar bir-birilərinin iyini uzaqdan duyduğu kimi, Razoumek də bütün varlığı ilə hiss edirdi ki, müsahibinin söhbətə göstərdiyi diqqətin arxasında ehtiyat və soyuqqanlılıq durur. Ürəyinə dammışdı ki, təsadüfi yol yoldaşı çox təhlükəli adam ola bilər. Düşündü: "Xoşbəxtlikdən, təzə tanışı alman zabitidir. Təəssüf ki, belələrini barmaqla saymaq olar!"

Mayor sözünə davam etdi:

– Görürəm, çox təcrübəli və dərrakəli cavansınız. Sizin kimi nadir adamlara həmişə rast gəlmək mümkün deyil: nə etmək lazım olduğunu bilirsiniz, başqasının məsləhətinə və əmrinə ehtiyacınız yoxdur! Bizim hərbi hissələr Prussiya ordusu timsalında, sərt komandanlıq strukturu əsasında qurulub və bütün səviyyələrdə təşəbbüskarlıq çatışmır. Bilirəm, Türküstan diviziyası keçən ilin yazında yaradılıb, amma mənə elə gəlir ki, zəngin döyüş təcrübəniz var.

– Cənab mayor, Şərq cəbhəsində vuruşmuşam. Əvvəl Moskva ətrafında, sonra Stalinqrad döyüşlərində iştirak etmişəm, deməli, zənniniz sizi aldatmayıb. Amma bilavasitə Stalinqradda, yəni şəhərin içində döyüşməmişəm.

– Bəxtiniz gətirib, inanın. Düzdür, bu barədə danışmaq qadağandır, amma sizə deyə bilərəm, Paulusun qoşunundan bir əsgər belə rus əsirliyindən sağ çıxmayacaq. Ruslar əsirlərin, necə deyərlər, "qayğısına qalmağı" bacarır. Düzdür, bizimkilər də Şərq cəbhəsində amansız

döyüşürdü. Ancaq mənə belə gəlir ki, hər ikimiz başa düşürük, müharibə əsəbi zəif olanlar üçün deyil! Gərək düşmənə aman verməyəsən, düz demirəm, cənab leytenant? Üstünə "katyuşa"[1] yağdıran adama necə yazığın gələ bilər?

– Fikrimcə, əsgər kimisə öldürməzdən əvvəl daxilindəki mərhəmət hissindən azad olmalıdır. Yerdə qalan özü gələcək. Amma bir həqiqət də var ki, gündəlik döyüşlərdə bəzən sevgi hissi də baş qaldırır. Əsgər öz silahını və hərbi ləvazimatını sevməli, onun qayğısına qalmalıdır. Üstəlik, əgər öz canı, öz həyatı ona əzizdirsə, döyüş yoldaşlarına da sevgi və qayğı ilə yanaşmalıdır. Məlum məsələdir ki, cəbhə həyatını nəzərdə tuturam. Görünür, sizin kəşfiyyat işiniz başqa xarakter daşıyır, cənab mayor.

– Etiraf edim, cənab leytenant, çoxları yatıb yuxuda görür ki, məni Şərq cəbhəsinə göndərirlər. Amma elə bura da Şərq cəbhəsi kimi çətin və mürəkkəb yerdir, hərçənd ilk baxışdan hər şey sadə görünür. Əslində, burda heç bir sığınacaq yoxdur ki, başını soxub özünü təhlükəsiz hiss edəsən. Hətta evdə oturmaq da qorxuludur, hər tində səni ölüm gözləyə bilər, adamlara, xüsusən də yerli sakinlərə etibar yoxdur. Hara gəldi, başlarını soxurlar, bilmək olmur səmimidirlər, yoxsa altdan-altdan iş görürlər. Sloven qadınlarından isə, ümumiyyətlə, danışmağa dəyməz. Hərdən mənə elə gəlir ki, yüzbaşlı əjdaha ilə döyüşürəm, bir başını kəsirsən, yerində on dənəsi peyda olur. Həm də nəzərə alın ki, hərbçilərlə yox, mülki əhali ilə təmasdayam. Hərbçilərlə mülki əhali arasında sərhəd çoxdan silinib. Çox güclü müqavimət hərəkatı var, gizli fəaliyyət göstərir. Deyin, belə həyatdan qocalmayasan, neyləyəsən?!

– Amma başınızda bir dənə də ağ tük yoxdur, cənab mayor Razoumek. Heç vaxt inanmaram ki, mülki əhalidən kimsə sizin kimi təcrübəli zabit üçün problem yaratsın. Bir də ki, silah onların yox, sizin əlinizdədir, – leytenant nəzakətlə sözünü bitirdi.

– Bəli, Şərqdə hər şey sizin dediyiniz kimidir. Orada mülki vətəndaş bir qara qəpiyə dəyməz, burda isə imkan daxilində adamlarla çox ehtiyatlı davranmaq lazımdır. Bu, xoşuma gəlir. Məncə, zorakılıq xətrinə zorakılıq törətmək vəhşilikdir. Zorakılıqdan cərrah bıçağı kimi, yerində və ustalıqla yararlanmaq lazımdır. Ancaq hansı tərəfdən baxsan, məqsədə çatmaq üçün bütün yollar məqbuldur.

Mayor fəlsəfədən dəm vurur, Mehdi də diqqətlə dinləyirdi. Düşünürdü ki, yaxşı tərbiyə görmüş və nəzakətli davranışı ilə fərqlənən bu SS

---

[1]**"Katyuşa" –** BM-8 (82mm), BM 13 (132 mm) və BM-31 (310 mm) reaktiv artilleriyaya verilmiş qeyri-rəsmi ad

mayoru heç də ağılsız deyil. Amma hiss edirdi ki, onun daxilində vəhşi heyvan xisləti gizlənib. Mehdiyə elə gəlirdi ki, bu an mayordan qorxmaq lazım deyil, çünki bu adam maraqlı həmsöhbət tapdığına sevinir. İnsanları ilk baxışdan saf-çürük edə bilsə də, onların ürəyini oxumağı öyrənməyib.

Mehdi gülümsündü, ağ dişləri göründü, mayor da özünü onunla həmrəy kimi göstərib güldü. Cibindən bir qutu siqaret çıxarıb Mehdini və bayaqdan mürgü döyən köməkçisini qonaq etdi. Benediçiç mayorun leytenanta nə izah etməyə çalışdığını anlamırdı, amma bu iki adamın bir-birini yaxşı başa düşdüyünə əmin idi. "İt itin ayağını tapdalamaz!" – köməkçi düşünüb zabitlərin söhbətə ara verməsinə sevindi. Əgər kupedə tək olsaydı, mayor onun baş-beynini aparıb söz almağa çalışacaq, sonra da fəlsəfi söhbətləri ilə zəhlə tökəcəkdi. Bütün bunlardan canı qurtardığı üçün Tanrıya şükür elədi və mayorun təklif etdiyi siqareti götürüb təşəkkür əlaməti olaraq gülümsündü.

Mayor sözünə davam edəndə köməkçi söhbətin qadınlardan getdiyini anladı. Doğma Mirna Peç kəndindəki qəssab dükanında işləyən ətli-canlı gözəlçə Mitskanı xatırladı. Axırıncı dəfə görüşəndə Mitska onu ehtiraslı öpüşlərə qərq edib çoxlu vəd vermişdi. Jarkonun bu qadın üçün burnunun ucu göynəyir, mayorun tapşırığını yerinə yetirib evə qayıtmağa tələsirdi. "Hər axşam Mitska ilə evdəki sobanın üstünə dırmaşıb yatağa girmək, onun isti nəfəsini duymaqdan gözəl nə ola bilər? Anam da, atam da qoca adamlardır. Hava qaralan kimi yatmağa gedirlər. Mitska ilə məni kimdir itirib-axtaran? – Jarko yaşadığı sevgi macəralarını gözləri önündə canlandırdı.

Bu vaxt mayor eyhamla dilləndi:

– Qadın soba kimidir, qışda istisinə qızınırıq, düz demirəm, cənab leytenant?

– Ərəblərdə bir məsəl var: qadın dəvə kimidir, səni tərkinə alıb səhradan keçirər!

– Bəli, görünür, ərəblərin qadınlardan yaxşı başı çıxır, ona görə də hərəsinin bir neçə arvadı var. İstənilən halda, bu islam adətini alqışlamaq lazımdır, ərəblərə də başucalığı gətirir. Yəqin, bilirsiniz, insan kamil məxluq deyil, qadın isə kamillikdən qat-qat uzaqdır. Bu səbəbdən normal kişiyə həmişə iki qadın lazımdır, Avropada bu ənənə çoxdan bərqərar olub. Kişilərin böyük əksəriyyətinin arvaddan başqa məşuqəsi də var. Amma qadın məsələsində ərəblər bizdən xeyli irəli gedib. Deyirlər, qadınla bağlı Çin müdriklərinin dedikləri ilə ərəblərin adətləri üst-üstə düşür.

– Cənab mayor, bildiyim qədər, çinlilərin və ərəblərin çoxarvadlılığı texniki və formal cəhətdən bir-birindən fərqlənir. Ərəbin birinci arvadı

evin baş həremi sayılır, aldığı digər qadınlar isə sənəddə qulluqçu, yaxud baş hərəmin bacıları kimi göstərilir. Əslində, baş hərəmlə bu qadınlar arasında heç bir fərq yoxdur. Buna sözünüz nədir, cənab mayor? Üstəlik, qadınların təhlükəsizliyini qorumaq üçün onları hərəmdən kənara buraxmırlar. Çinlilər isə çıxış yolunu belə tapıb: qadınların hərəkət imkanını məhdudlaşdırmaq üçün qız vaxtından ayaqlarını tənziflə möhkəm sarıyır və nəticədə bədənin bu orqanı inkişafdan qalır. Belə qadınların pəncəsi çox kiçik olur.

– Bilirsiniz, əgər lazımdırsa, hörmətli cənab leytenant, qadına güclə sahib çıxa bilərəm, amma onun yavaş-yavaş ram olub qarşılıq verməyindən xoşum gəlir. Bu, ilanın dovşanı hipnoza salmasına bənzəyir. Yalnız bundan sonra qadın sənin çaldığın havaya oynayacaq. Ondan nəsə başqa bir şey gözləməyin mənası yoxdur. Cənab leytenant, təəssüf ki, Postoynada düşmürsünüz, yoxsa sizi, böyük məmnuniyyətlə, dəmiryol vağzalındakı aşxanaya dəvət edərdim, orda əla yemək verirlər.

Mayorun səsində dərin təəssüf hissi duyulurdu. Belə maraqlı adama və ağıllı həmsöhbətə çoxdan rast gəlməmişdi.

Mehdi səmimi cavab verdi:

– Mayor Razoumek, təklifdən imtina etmək məcburiyyətində qaldığım üçün təəssüflənirəm. Ancaq bu gün Sejanda məni maşın gözləyəcək, birbaş alayın kazarmasına aparacaq. Yəqin, son iki ayda mənimçün çox darıxıblar.

– Sizinlə mənalı vaxt keçirdiyimə görə təşəkkür edirəm, cənab leytenant! Əgər yolunuz nə vaxtsa Lüblyana düşsə, xahiş edirəm, məni tapın, sizin kimi qonağın gəlişindən məmnun qalaram. Məni tapmaq çətin deyil, çünki bizim idarə dəmir yolu stansiyası ilə üzbəüz yerləşir. Gəlişiniz məni ürəkdən sevindirər. Tanrı sizə yar olsun, cənab leytenant!

Mehdi kupedə tək qalanda düşündü: “Bəxtim gətirdi ki, mayor Razoumek kimi təhlükəli rəqib Triestdə yox, uzaq Lüblyanda işləyir. Mina dolu çanta ilə Triestin küçələrində gəzəndə onunla üzbəüz çıxmaq istəməzdim. Bu ağılla indi gərək mayor yox, polkovnik olaydı, yaşı da uyğun gəlir. Belə hiyləgər alman mayoruna rast gəlməmişəm. Əgər tale bizi yenidən görüşdürsə, Allaha yalvaracağam ki, o, məni yox, mən onu nişan alım! Mayor sözün əsl mənasında peşəkar oyunçudur. Sanki pərdə arxasında gizlənib kuklaları iplə idarə edir, onun gözündə, insan həyatı adi futbol topudur, hara istəsə, vurar! İlk növbədə belə hiyləgər zabitləri məhv etmək lazımdır!” – pəncərədən yol mənzərələrinə tamaşa etsə də, qəlbini sıxan fikirlərdən yaxa qurtara bilmirdi.

Qatar gecənin zülmətini yara-yara irəliləyirdi. Hər tərəf ağ örpəyə bürünmüşdü. Ay işığında parıldayan qar, qaranlığa bürünmüş nəhayətsiz

meşələr və bacasından tüstü çıxan daxmalar indi Mehdiyə başqa cür təsir bağışlayırdı.

Qatar Sejanda dayandı. Buradakı stansiya da əvvəlkilərin tayı idi – Qratsdan gələ-gələ gördüyü bütün vağzallar bir-birinə bənzəyirdi. Mehdi qatardan düşüb batalyonun zabit daşıyan avtomobilinə mindi. Sürücü onu nəzakətlə salamlayıb Opçina kəndinə apardı. Kazarmaya yollananda həyatı barədə düşünürdü. İndi Moskvanın caynağından azad olub Berlinin iti dişinə ilişmişdi. Diviziya komandiri fon Nidermayerin nitqindəki sözlər yadına düşdü:

– Cənablar, dahi alman Reyxi sizi, 162-ci Türküstan diviziyasının döyüşçülərini şərəflə salamlayır. Bu gündən bizim dahi Vermaxtın, yenilməz zəfər ordusunun şanlı əsgərləri sayılırsınız...

İndi alman hərbi maşınında balaca bir vintcik idi – hər dəfə bunu fikirləşəndə Mehdinin ürəyindən ağrı keçirdi. Yeganə təsəllisi ondan ibarət idi ki, müqavimət hərəkatının sıralarına qoşulub düşmənə ağır zərbələr vura bilər. Cinayətkar Himmlerin[1] Türküstan diviziyasının şəxsi heyəti qarşısında çıxışı zamanı dediyi sözlərini unutmamışdı – Mehdi onun nitqini tərcümə edirdi. Himmler demişdi:

– Ən yaxşı siyasi silah adamlar arasında qorxu və nifaq toxumu səpmək, xof yaratmaqdır. Amansızlıq mərhəmətdən daha effektlidir. Həmvətənlərinizin barənizdə nə düşündüyü qoy sizi narahat etməsin. Harda və kimə qarşı mübarizə aparmağımız əhəmiyyətli deyil. Əgər Vətən naminə düşməni öldürmək lazımdırsa, bunu mütləq etməliyik. İnsan öldürmək bizim üçün qoyun kəsmək kimi asan olmalıdır... Yalnız bu fəlsəfə ilə zəfər çala bilərik!

Mehdi dolu bədənli, üst-başına bol odekolon səpmiş Himmlerdən bir-iki metr aralı dayanıb onu müşahidə edirdi. Himmler minillik Reyxin ən möhtəşəm fiqurlarından biri idi. İsti və günəşli may günü olsa da, boz-mavi gözlərindən yağan soyuqluq sanki Mehdinin iliyinə işləyirdi. Himmler bayağı və cinayətkar çıxışını bitirəndə Mehdini soyuq tər basmışdı, qəzəbini güclə boğurdu. Bir fikirlə təskinlik tapırdı ki, Himmleri elə indi, yerindəcə, çox asanlıqla qətlə yetirə bilər, hətta ətrafa nəzər salıb silah kimi işinə yaraya biləcək nəsə axtarırdı. Himmlerin mühafizəçiləri görüşdən əvvəl hamının silahını toplamışdı. Mehdi beynində ildırım sürətilə yaranmış bu plandan vaz keçməli oldu, başa düşdü ki, istəyinə çata bilməyəcək. Beynində qurduğu planı

---

[1] **Henrix Himmler** (alm. *Heinrich Luitpold Himmler*; 07.10.1900 – 23.05.1945) – III Reyxin əsas hərbi və siyasi xadimlərindən biri, SS reyxsfüreri. Çoxsaylı hərbi cinayətlərdə və soyqırımında təqsirli bilinib.

özünə qarşı qəsd kimi qiymətləndirdi, Himmler isə nəticə etibarilə sağ qala bilərdi. Hətta indi onu öldürsə, bəlkə də, yerini “oxşarı” tutacaq. Söz gəzirdi ki, alman komandanlığının başında dayanan şəxslərin hər birinin “oxşarı” var. Qərara aldı ki, səbirlə uyğun məqamı gözləsin... İndi Opçina kəndinə yaxınlaşanda hiss etdi ki, bu məqam yetişir, yəni partizanlara qoşulmağı gün məsələsidir.

## VIII

1943-cü il sentyabrın 27-də general-leytenant Nidermayer diviziyanı İtaliyanın şimal-şərqinə köçürmək barədə əmr aldı. Diviziyanın tərkibinə daxil olan və polkovnik Pollun başçılıq etdiyi 314-cü alay cənuba yollanmaq üçün Ştraus vağzalına gəldi. Mehdinin legioner yoldaşları yüksək əhval-ruhiyyədə idi. Eşitmişdilər ki, gedəcəkləri yerdə müqavimət hərəkatı güclüdür, deməli, tezliklə partizanlara qoşulmaq imkanı var.

Polkovnik Poll cılız bədənli, daim gözləri tülkü kimi oynayan hiyləgər alman zabiti idi. Almaniyanın Türkiyədəki səfirliyinin keçmiş agenti olsa da, türk dilində çətinliklə danışırdı. Yola düşməzdən əvvəl polkovnik dedi:

– Cənablar! Biz İtaliyanın şimalına, Udine-Triestə, kommunist bandaları ilə döyüşə yollanırıq. 314-cü alayın komandanlığı adından sizə mühüm tapşırıq çatdırmaq mənə həvalə olunub: hər biriniz layiqli sıravi təbliğatçı olmalı, kommunistlərlə mübarizədə Böyük Almaniyanın niyyətlərini əhaliyə izah etməyi bacarmalısınız!

Sonra üzünü Mehdiyə tutdu:

– Mehdi əfəndi! Legionerlər arasında böyük hörmətiniz var. Alman komandanlığı sizə etibar edir və söz verir ki, müharibə qurtarandan sonra sədaqətinizə görə mükafat alacaqsınız! Azərbaycanda sizə yüksək vəzifə və pul veriləcək!

Mehdi almanların gözünə kül üfürməyi yaxşı bacarırdı, gülümsünüb cavab verdi:

– Əlbəttə, hörmətli cənab polkovnik, ümid edirəm, vaxtı çatanda xidmətlərim yüksək qiymətləndiriləcək!

Triestə gələndən sonra polkovnik Poll vağzalın qarşısındakı meydanda əsgərləri sıraya düzüb çıxış etdi:

– Cənablar! Biz İtaliyanın şimal-şərq torpaqlarına qədəm basmışıq. Bura əla şərab və gözəl qızlar diyarıdır. Amma bütün bunlardan zövq almazdan əvvəl Haribaldinin[1] quldur kommunist dəstələrini dağıdıb

---

[1]**Cüzeppe Haribaldi** (it. *Giuseppe Garibaldi* (04.07.1807 – 02.06.1882) – İtaliya sərkərdəsi, siyasi xadim və inqilabçı, milli qəhrəman, yazıçı

nəzarəti ələ almalıyıq. Düşmən dəstələrinin tərkibində kommunistlər, italyan əsgər və zabitləri döyüşür. Bu silahlı dəstələr əraziyə yaxşı bələddir və quldur basqınları törədir. Onlar dağ şəraitində döyüş üsullarına mükəmməl yiyələnib. İtalyan partizanları qonşu Yuqoslaviya müqavimət hərəkatının üzvləri ilə sıx əlaqə qurub. Cənablar, Böyük Almaniya imperiyası adından komandanlıq sizi kommunist quldurlarla amansız mübarizəyə səsləyir! Qələbə bizimlədir! Hayl Hitler!

Natiqin ağlına gəlməzdi ki, bu məlumat legionerləri necə sevindirdi. 162-ci diviziyanın qərargahı Udinedə, 314-cü alayın qərargahı isə İtaliyanın kiçik şəhərlərindən birində – Remanzattsoda yerləşirdi. Şəhər sakinləri faşistlərə nifrəti gizlətmirdi. Zabitlər legionerlərə yerli əhali ilə ünsiyyət qurmağı qadağan edib şayiə yaymışdılar ki, guya şəhər sakinləri italyan ekspedisiya korpusu əsgərlərinin Rusiyada həlak olmasına görə qisas almaq istəyir və əllərinə keçən rus əsgərini öldürür.

Artıq ilk amansız döyüşdə legionerlərin bir qismi Haribaldi adına partizan dəstəsinin tərəfinə keçməyə müvəffəq oldu. Ona görə də partizanlarla əlaqəni kəsmək üçün tacik, özbək, qazax və tatar legionerlərini də Azərbaycan alayına göndərdilər. Ancaq bu addım istənilən nəticəni vermədi. Yeni gəlmiş legionerlər də alman əsarətindən qurtulmağı arzulayırdı, birləşib partizanlarla əlaqə axtarmağa başladılar və tezliklə istəklərinə çatdılar. Legiondakı gizli təşkilat üzrə Mehdinin köməkçiləri Cavad Həkimli, Aleksandr İsgəndərov, Mikayıl Qulubəyov[1], qərargah rabitəçisi Əli Şıxəliyev, üçüncü batalyonun taqım komandirinin müavini Firudin Hüseynov və Məzahir Quliyev idi. Mehdi alman zabitləri arasında elə məşhur idi ki, hətta polkovnik Poll onu müşayiət edən ober-feldfebel xəstələnəndə həmişə bakılı legioneri müvəqqəti köməkçi təyin etmişdi. Bir dəfə polkovnik əmr etmişdi ki, Mehdi onu səhər altıda oyatsın – alay qərargahında keçiriləcək müşavirəyə hazırlaşmalı idi. Mehdi səhər təyin olunmuş vaxtda polkovnikin yataq otağının qapısını döydü. Yuxulu zabit ona çəkmələrini silməyi tapşırdı, özü isə adyalı başına çəkib yenidən yatdı. Kiçik masanın üstündəki alayın möhürlü sənədləri Mehdinin diqqətini çəkdi. Çəkmələri siləndən sonra

---

[1]**Qulubəyov Mikayıl Rəhim oğlu (1915–1993)** – kimya elmləri doktoru, professor, Böyük Vətən müharibəsi veteranı. Stalinqrad uğrunda döyüşlərin iştirakçısı (1942-ci ilin sonunda) yaralanaraq əsir düşüb, Almaniyaya, oradan İtaliyaya, daha sonra Yuqoslaviyaya sürgün olunub. Sağalandan sonra əsirlikdən qaçıb (1943-cü ilin əvvəlində) və azadlıq hərəkatına qoşulub, Mehdi Hüseynzadə ilə çiyin-çiyinə döyüşüb. Partizan ləqəbi "Doktor Mişa" idi. Yuqoslaviyanın üç "Qəhrəmanlıq ordeni" ilə təltif edilib.

otağa qayıdan Mehdi polkovnikin hələ də xorultu ilə yatdığına əmin olub sənədləri gözdən keçirdi – partizanlara qarşı hərbi əməliyyat planı idi.

Remanzatto partizanları ilə artıq əlaqə qurulmuşdu, ertəsi gün gecə Rəşid Rəhimovu və Həsən Cabbarovu patrul təyin edib, şəhərin küçələrində keşik çəkməyə göndərdilər. Onlar almanların hücum planı barədə məlumatı rabitəçi partizana ötürdü. Legionerlər geri dönəndə digər hərbi hissədən olan alman patrulu ilə qarşılaşdılar. Özlərini şübhəli apardıqları üçün legionerləri həbs edib SS batalyonunun qərargahına gətirdilər, mənasız sorğu-sualdan sonra 314-cü alayın qərargahına təhvil verdilər. Komandanlıq legionerlərin kütləvi surətdə partizanların tərəfinə keçmək istədiyindən xəbər tutduğu üçün Rəşid və Həsəndən söz almağa çalışdı. Dəhşətli işgəncələrə baxmayaraq, legionerlər heç kimi satmadı və onları güllələdilər.

Ertəsi gün hitlerçilərin partizanlara qarşı planlaşdırılmış hücumu başlasa da, uğursuz alındı. Çünki bu plan qəfil hücuma hesablanmışdı, Mehdinin vaxtında ötürdüyü məlumatdan sonra partizanlar qabaqlayıcı tədbir görmüşdü. Legionerlərin çoxunun partizanlara qoşulduğunu görən rəhbərlik alayı Avstriya sərhədinə – Lixtenvald-Drava köçürtdü. Məhz o zaman şəxsi heyəti aparan qatar partizanların təxribatı nəticəsində Qoren vilayətində qəzaya uğramış və Mehdi də Cavad Həkimlinin həyatını xilas edəndən sonra hospitala düşmüşdü.

* * *

Mehdi gecədən xeyli keçmiş Opçina kəndindəki kazarmaya gələndə hamı yatmışdı. Səhər yoldaşları Mehdini görüb sevindi. Alman zabitlər legionerlərlə maraqlanmırdı, Mehdi isə yoldaşlarının qayğısına qalan əla zabit və xeyirxah insan idi. Tabeçiliyində olanlar onun bu keyfiyyətini yüksək qiymətləndirirdi. Mehdini səmimi salamlayır, tapşırıqlarına sözsüz əməl edirdilər. Geniş alnı, qara saçları, parıltılı gözləri, nazik bığı və incə burnu Mehdiyə xüsusi yaraşıq verir, xoş aurası hamını özünə cəlb edirdi. Əzəmətli duruşu, iti addımları və möhkəm əzələləri onun qətiyyətli və cəsur lider olduğundan xəbər verirdi. Mehdinin çöhrəsindən nur yağırdı, bu da insanda xoş ovqat doğurur, düşmənə qarşı gözlərindən oxunan nifrət isə bədxahları qorxuya salırdı.

Mehdi yoldaşlarına ucadan səsləndi:

– Əzizlərim, Allaha min şükür! Yaradan ölümü bizə həyatın əvvəlində yox, sonunda bəxş edib. Qardaşlarım, yenidən birlikdəyik, sağ-salamatıq, Allahın verdiyi bu neməti qoruyub saxlamalıyıq. Xəstəxanada asudə vaxtım çox idi, yaxın gələcəkdə görəcəyimiz işləri götür-qoy etmişəm.

Söz verirəm, tezliklə bu plan barədə ətraflı danışacağam. Cavadın barmağı da artıq sağalıb. Bu, məni sevindirir. Amma özümü bağışlaya bilmirəm, onu çiynimə qoyub yanan vaqonun damından enəndə partlayış baş verdi, hər ikimiz yıxıldıq, Cavadın barmağı sındı. Eh, təki adamın başı əzilməsin, barmağın qorxusu yoxdur!

– Bəs sənin başın necədir, Mehdi? Sağaldın? Yoxsa yenə ağrıyır? Ağacdan yıxıldığını görmüşdüm, daş kimi yerə dəydin, Cavadı da belinə almışdın, – serjant Qədir İsgəndərov dedi.

– Xəstəxanada bir-iki həftə özümü çox pis hiss elədim, hərarətim yüksək idi, başımda dözülməz ağrılar vardı. Sonra yavaş-yavaş keçdi, qar kimi dümağ yataqda uzanıb dincəlirdim, mələklər də ətrafımda dolaşırdı. Ağxalatlı tibb bacılarını deyirəm! Bir görəydiniz, əsl mələklərə bənzəyirdilər. Camaşırlar qar kimi xışıldayırdı, elə bil ütünün altından təzə çıxıb. Tibb bacılarının zərif qoxusu hələ də burnumdan getməyib. Hərbi paraddan əvvəl parıldayan avtomat kimi tərtəmiz idilər, göz qamaşdırırdılar...

– Ay Mehdi, sənin əlin kimə toxunsa, par-par yanacaq! Cavad sənin xəstəxanada bir sarısaç gözəlçə ilə dostluğundan dəm vururdu. Deyir, qız Mehdinin yanından bir dəqiqə də olsun ayrılmırdı, düzdür? – Serjant Qədir İsgəndərov gülə-gülə soruşdu, dostları da ona qoşulub güldü.

– Xəstəxanada üz-gözüm, əl-ayağım elə təmiz idi ki, özümü tanıya bilmirdim. Belə mələklərin əlinə düşsən, sən də parıldayarsan! Qədir, mələklərdən biri, həqiqətən, sarısaç idi, Cavad haqlıdır, qız hər yanıma gələndə ağlım başımdan çıxırdı. Mənə elə bir Milad hədiyyəsi bağışladı ki, ömrüm boyu unutmaram! Nə isə. Səhər yeməyinin vaxtıdır. Sonra cənab komandir fon Nidermayer çıxış edəcək, hamımız orda olmalıyıq!

İlıq qış günəşi bayraq ağacındakı qara-qırmızı nasist bayrağına işıq salırdı. Diviziyanın əsgər və zabit heyəti sıraya düzülmüşdü. Meydanın baş tərəfində dayanmış hərbi orkestr alman və Türküstan diviziyasının himnlərini çaldı və general fon Nidermayer hərbçilərin qarşısına çıxdı. Nitqinin rəsmi hissəsindən sonra titrək səslə əsgər və zabitlərə müraciət etdi:

– Əgər Türküstan diviziyasının bütün üzvləri bizim nümunəvi leytenant Mehdi Hüseynzadə kimi xidmət etsəydi, legionumuz məğlubedilməz olardı. Bununla əlaqədar, moto-kəşfiyyat bölüyünün komandiri Hüseynzadəyə şəxsi işinə yazılmaqla təşəkkür elan edirəm. Yəqin, bilirsiniz, qəhrəmanlıq göstərərək dostunu ölümdən qurtarıb, həyatı təhlükədə olsa da, yoldaşını darda qoymayıb. Özü ağır yaralanıb, iki ay hospitalda müalicə alıb. Qəhrəmanlıq göstərməsəydi, silah yoldaşı vaqonda yanıb kül olacaqdı. Dostuna görə həyatını ölümə atmağa



hazır olan bu adam hamıya nümunədir. Bir nəfər hamı üçün, hamı bir nəfər üçün! – bizim şanlı legionun devizi belədir! Sevimli fürer uğrunda döyüşürük, çünki o, daim bizi fikirləşir. Hayl Hitler!

Komandir alman dilində danışsa da, fars dilini təmiz bilirdi. Mehdi onun nitqini tərcümə edirdi. Amma bu iş heç ürəyincə deyildi – alman zabitlərinin mənasız zarafatlarını və sayıqlamalarını tərcümə etməkdən bezmişdi. Səfeh alman zabitləri arasında fon Nidermayer istisna təşkil edirdi. General fon Ştauffenberqin yaxın qohumu, nəcib qraf, mayor Nikolaus fon Uksull-Gillenbad da yaxşılar cərgəsində idi. Mehdinin rəyinə görə, bu iki zadəgan digər zabitlərdən ağıl və düşüncə baxımından üstün idi. Təsadüfi deyil ki, müharibədən sonra onlar yüksək vəzifə tutub yeni ordu quruculuğunda yaxından iştirak etdilər.

General fon Nidermayerin həyatının böyük hissəsi Şərqdə keçmişdi. Birinci Dünya müharibəsi dövründə alman hökumətinin neytral Əfqanıstana göndərdiyi hərbi ekspedisiyaya rəhbərlik etmişdi. Yerli hakim əmir Xanı inandırmağa çalışmalı idi ki, Hindistandakı ingilis qoşunlarına hücum etsin. Əfqanları yola gətirmək mümkün olmadı, çünki onlar bütün xaricilərə etibarsız yanaşırdı və görünür, bu, səbəbsiz deyildi. Birinci Dünya müharibəsi qurtarandan sonra fon Nidermayer özünü coğrafiya elminə həsr edib, elmlər doktoru və professor dərəcəsi almışdı. On il Moskvada hərbi attaşe, sonra isə Almaniyanın İrandakı səfiri vəzifəsində çalışmışdı.

Birinci Dünya müharibəsindən sonra soyuqqanlı "Ərəbistanlı Lavrens"[1] ləqəbini qazanmışdı, çünki dönmə xristianlıqla müqayisədə İslam dinini yüksək qiymətləndirirdi. Bildirirdi ki, əgər nə vaxtsa özündə dövrünün dahisi sayılan əbədi Adolfun dinindən uzaqlaşıb başqa dinə keçmək arzusu yaransa, şübhəsiz, İslamı seçəcək. Fon Nidermayer faktiki olaraq Hitlerin qəsbkar imperialist siyasətindən vəcdə gəlmiş ilk alman zadəganlarından idi. Ona görə də nasist partiyasına birincilər sırasında daxil olmuş, faşist Almaniyasında ən mötəbər mükafata – partiyanın qızıl medalına layiq görülmüşdü. Medalın üzərində dəfnə yarpağının əhatəsində nasist bayrağı təsvir olunmuşdu. Bu medalla 1933-cü ildə Hitlerin seçkilərdə qələbəsindən əvvəl partiyaya daxil olmuş şəxslər təltif olunurdu.

Fon Nidermayer sovet-alman müharibəsi başlayanda 162-ci piyada diviziyasının komandiri təyin edilmişdi. 1942-ci ilin payızı almanlar

---

[1]**Tomas Edvard Lourens** (ing. *Thomas Edward Lawrence, Lawrence of Arabia*; 16.08.1888, Tremadok – 19.05.1935, Bovinqton düşərgəsi, Dorset) – Britaniya zabiti, səyyah, casus, yazıçı

üçün uğursuz oldu. Fon Nidermayer Moskva ətrafında döyüşlərdə şəxsi heyətin, demək olar, yarısını itirdi. İki həftədən sonra sovet hərbi əsirlərinin – könüllülərin hesabına diviziyanı, qismən də olsa, bərpa edə bildi. Stalinqraddakı dəhşətli itkilər nasistləri çıxılmaz vəziyyətə saldı. Onlar Sovet İttifaqında yaşayan azsaylı xalqların və millətlərin əsir düşmüş nümayəndələrindən ibarət könüllü dəstələr yaratmağa başladı.

General həm də Hitlerlə Qüdsün ali müftisi arasında keçirilmiş görüşün vasitəçisi olmuşdu. İlk dövrdə Vermaxt orduya yalnız qeyri-rus millətindən olan əsirləri cəlb edirdi. Az sonra almanlar müsəlmanlardan ibarət döyüş birləşmələri yaradıb, cəbhənin ön xəttinə, birbaşa ölümə göndərməyə başladı. Məsələn, alman komandir döyüş meydanında rus mövqelərinin harada yerləşdiyini bilmirsə, legion əsgərlərini irəli buraxır, yalnız bundan sonra atəşin hansı nöqtədən açıldığına əsasən düşmənin yerini müəyyənləşdirirdi. Başqa sözlərlə desək, legion əsgərləri ilk zərbəni öz üzərlərinə götürür, rusların həmləsi zəifləyəndən sonra almanlar hücuma keçirdi. Sovet komandanlığı da oxşar taktikadan istifadə edirdi. Cəbhənin ağır nöqtələrində qeyri-rus millətindən olan əsgərlər ön xətdə döyüşüb, arxada gözləyən rus qoşunu üçün yol açırdı.

1943-cü ilin mayında generalın başçılıq etdiyi 162-ci diviziyanın adını dəyişib Türküstan legionu qoydular. Qeyri-alman millətindən olan könüllülərin böyük əksəriyyətini SS zərbə briqadalarına göndərirdilər. Mehdi bunu yaxşı bilirdi və Vermaxtın nizami ordusuna düşdüyü üçün Allaha şükür edirdi. Halbuki, Himmlerin başçılığı altında SS qoşunlarının şərqi-türk birləşməsinə daxil olan “Azərbaycan” adlı zərbə briqadasına göndərilə bilərdi. Digər tərəfdən, arxayın idi ki, düşmən ordusunda xidməti uzun sürməyəcək.

Generalın dilindən tərif eşitmək Mehdiyə xoş gəlmirdi. Xüsusən də hospitalda üç ay müalicə alması barədə generalın ağızdolusu söylədiklərinə ürəyində güldü. Çünki komandir bu hadisəni çox şişirtmişdi, deyilənlər həqiqətə uyğun gəlmirdi. Yaxşı ki, general danışanda bir nöqtəyə baxırdı, yoxsa Mehdinin üzündəki təbəssümü görüb qəzəblənə bilərdi.

Legionda belə bir zarafat dolaşırdı: guya general pafoslu nitq söyləyəndə trans vəziyyətinə düşüb Hitlerin ruhu ilə əlaqəyə girir! Bununla belə, general fon Nidermayer pis komandir deyildi, imkan tapıb şəxsi heyətin üzvləri ilə söhbət edir, onların problemləri ilə maraqlanırdı. Əsl professor kimi xoşxasiyyət, yumşaq adam idi, legiondakı nizam-intizama müavini, podpolkovnik Buş nəzarət edirdi.

Komandirdən fərqli olaraq, insana xas bütün mənfi cəhətlər onun simasında birləşmişdi: zalım, pozğun, hiyləgər və təhlükəli adam idi. Boş bir şeydən problem yaradıb aləmi qarışdırırdı. Bu səbəbdən diviziyada digər hərbi hissələrlə müqayisədə həmişə narazılıq və gərginlik hökm sürürdü.

Podpolkovnik Buşun əlinə imkan düşən kimi komandirdən başqa hamını alçaldırdı. Rütbəcə özündən böyüklərə yaltaqlanır, böyür-başına keçir, köpək kimi sədaqətlə qulluğunda dururdu. Komandanlığın əmrlərinin icrasına nəzarət podpolkovnik Buşa həvalə olunmuşdu. Elə şərait yaradırdı ki, komandirin humanist göstərişlərinin icrası çətinliyə düşsün. Bir sözlə, legionerlərin həyatını cəhənnəmə döndərmişdi. Əsgərlər arasında ruh düşkünlüyü hiss olunurdu. Xoşbəxtlikdən, podpolkovnik asudə vaxtının çox hissəsini diviziya qərargahında keçirib generalı əvəz edirdi. Fon Nidermayerin işi başından aşırdı, ünsiyyəti sevən adam olduğu üçün qərargahda tapılmırdı. Təcili iş olmayanda kazarmalara baş çəkmək əvəzinə, məşuqələrinin yanına gedirdi. Legion hansı şəhərə gəlirdisə, general dərhal yerli gözəlçələrdən bir neçəsi ilə tanış olurdu. Bu səbəbdən Buş donuza oxşayan bir dəstə oberfeldfebellə birlikdə diviziyanın başına keçib əsgərlərin gününü qara edirdi. Mehdinin tərcüməçi təyin olunmasına şəxsən general əmr vermişdi, ona görə də vaxtının çoxunu köpək Buşla keçirməyə, onunla əməkdaşlıq etməyə məcbur idi. Mehdinin başı elə qarışırdı ki, axşamın nə vaxt düşdüyünü hiss etmirdi. Buş heç bir xarici dil bilmirdi, ona görə Mehdiyə böyük ehtiyacı vardı. Hərdən Mehdiyə elə gəlirdi ki, podpolkovnik heç alman dilini də əməlli-başlı anlamır. Tez-tez belə bir mənzərənin şahidi olurdu: Buş öz qurbanını pişik siçana əzab verdiyi kimi incidir, saxta dəlillər toplayıb həbsxanaya atır. Bu həbsxanadan isə kimsə geri qayıtmırdı.

Xoşuna gəlməyən əsgərləri Şərq cəbhəsindəki cərimə batalyonlarına, aşkar ölümə göndərirdi. O hər beş dəqiqədən bir tərcümə üçün Mehdiyə müraciət edirdi. Axı legion üzvlərinin əksəriyyəti alman dilini bilmirdi. Mehdi yoldaşları ilə məhz Buşun növbədə olduğu gün aradan çıxmaq istəyirdilər ki, podpolkovniki gözdən salsınlar. Qaçandan sonra, əgər Buş təsadüfən hardasa Mehdinin qarşısına çıxsaydı, onu quduz köpək kimi, düşünmədən güllə ilə vurardı.

Səhər düzülüşündən sonra bölüklər gündəlik işlə məşğul olmağa başladı. Növbətçilər keşik çəkməyə, Mehdi isə bölmə komandiri kimi, hər bazar ertəsi keçirilən toplantıda iştirak etmək üçün qərargaha yollandı. İclası diviziya komandiri və müavini keçirirdi. Toplantıda tərcüməyə ehtiyac yox idi, zabitlərin hamısı alman dilində danışırdı –

legionun rəhbər heyətində isə yalnız almanlar təmsil olunmuşdu. Mehdi komandirin şanlı qələbə barədə uzun-uzadı nitqini dinləmirdi. General alman ordusunun zəfər yürüşündən, düşmənə endirilən amansız zərbələrdən dəm vururdu. Halbuki faşistlər bütün cəbhələrdə əvvəlcədən hazırlanmış mövqelərə geri çəkilirdi. Bütün bu cəfəng fikirləri eşitməmək üçün Mehdi xəyala daldı. Dünən general onun hospitalda müalicəsindən danışmışdı. Mehdi də xəstəxanada keçirdiyi günləri, tibb bacılarının qayğısını, Betkanın Milad hədiyyəsini və təravətli nəfəsini xatırladı. Generalın yalanına qulaq asmaqdansa, hospitaldakı mələkləri xatırlamaq daha yaxşı idi... İclasın bitməsini səbirsizliklə gözləyirdi, bu gün Cavadla ciddi söhbəti vardı. Bilmək istəyirdi ki, dostu yerli müqavimət hərəkatının üzvləri ilə əlaqə yaradıb, ya yox? Çünki özünə qəti söz vermişdi: faşistlərin yanında bir aydan artıq qalmasın.

Cavadla kazarmaların yanında görüşdü. Oturacağa əyləşib siqaret yandırdılar. Cavad güclü adam olsa da, ürəyiyumşaq idi, hansısa şad xəbər çatdıranda uşaq kimi sevinirdi. Bu dəfə də Mehdiyə xoş xəbərlər gətirmişdi, danışa-danışa əlini-əlinə sürtürdü, barmağındakı qızıl üzük də parıldayırdı.

– Bilirsən, Mehdi, yerli müqavimət hərəkatı ilə əlaqə yaratmaq heç də asan məsələ deyil. Yaxşı bilirsən, yerlilərin faşistləri görən gözü yoxdur. Alman forması görəndə elə bil yumurtlamayan toyuq görürlər. Əvvəlcə əynimdəki formaya baxıb, kimsə məni yaxın buraxmadı. Burda hitlerçi zabitlərə etibar etmirlər. Yaxşı ki, dərimin rəngi tünddür, almana bənzəmirəm, dadıma çatan da bu oldu. Yoxsa əliboş geri dönəcəkdim. Şəhərdə yaraşıqlı, qarasaç bir sloven qızı ilə tanış oldum. Kafeyə dəvət etdim. Bir həftədən sonra Jiva ilə yenidən görüşdük, özündən qat-qat gözəl, qarasaç bir qızla gəlmişdi. Dedi, xalam qızıdır, adı da Anitsadır. Vallah, mənim gözümdə Jiva hamıdan gözəldir. Özün görərsən! Milad axşamı idi, ikisini də şam yeməyinə dəvət etdim. Xeyli söhbətdən sonra, axır ki, onları öz tərəfimə çəkib faşist olmadığıma inandıra bildim. Sən demə, qızlar müqavimət hərəkatının fəal üzvləridir. Söz verdilər ki, məni partizan rəhbərliyi ilə əlaqə yarada biləcək kuryerlə tanış etsinlər. Amma qızın qara gözləri, gülüşü yuxuma haram qatıb, ay Mehdi, deyəsən, vurulmuşam...

Mehdi gülüb əlini Cavadın çiyninə qoydu:

– Təbrik edirəm, dostum. Düzü, müharibə vaxtı kimisə sevmək ağılsızlıqdır, amma nə etmək olar, ürəyə hökm edə bilməzsən! Harda nə vaxt kimi sevəcəyin bəlli olmaz! Hə, sonrasını danış.

– Milad axşamı onlara bir az siqaret, patron və isti geyim verdim ki, partizanlara ötürsünlər. Sonra Leonid və Qədirlə birlikdə legionun

hərbi ehtiyatından bəzi ləvazimatları götürüb, partizanlara göndərdik. Əsasən, tibb-sarğı materialları idi, yəqin, partizanların indi bunlara böyük ehtiyacı var. Qızlar Kovalye kəndində yaşayır, motosikletlə getsən, beş dəqiqəyə çatarsan. Razılaşdıq ki, bu həftə yenidən görüşək, partizan kuryeri də gələcək.

– Halal olsun, Cavad! Ömrüm boyu sənə borcluyam. Səhər qərargahda xəlvətcə zabitlərin növbətçilik cədvəlinə baxdım. Aradan çıxmaq məsələsini fevralın birinci həftəsinə saxlayaq, həmin vaxt o köpək oğlu Buş növbədə olacaq. Hazırlıq üçün üç həftə kifayətdir, – Mehdi razılıqla gülümsündü. Şad xəbərə ürəkdən sevinmişdi, dostunu bağrına basıb öpdü:

– Bilirsən, Cavad, tək getməyəcəyik, yoldaşlar da bizə qoşulacaq. Həmçinin uşaqlıq dostum Mirdaməd Seyidov[1] da! Bəlkə də, onu tanıyırsan. Universiteti məndən iki il əvvəl bitirib. Mərd, bacarıqlı, ağzıbütöv oğlandır, bir sözlə, əsl kişidir! Belə adam heç vaxt darda qoymaz! Ona özüm kimi inanıram. Bazar günü təsadüfən şəhərdə rastlaşdıq, indi fəhlə batalyonundadır. Hər üçümüz partizanların tərəfinə keçəndən sonra bölmədəki digər yoldaşlara da qaçmağa kömək edərik. Bəlkə, elə Seyidovun bölməsindən də bizə qoşulmaq istəyənlər çoxdur. Batalyonda hamı gecə-gündüz bu barədə düşünür.

– Mən razı! Mehdi, sənə inanıram. Ümid edirəm, hər şey yaxşı olacaq. Hələ sənə can borcum da var, bunu ömrüm boyu unutmaram! Yolunda ölümə də gedərəm!

– İndi bu söhbətin yeri deyil. Əgər hər şey əksinə olsaydı, sən də həyatını təhlükəyə atıb məni ölümdən qurtarardın. Dost dosta tən gərək, tən olmasa, gen gərək! Həmişə çətin anlarda dosta arxalanmışam!

– Dünyada ən əziz şey dostluqdur. Dost adamı darda qoymaz. Deyərdim ki, əsl dostluq özünü cəbhədə, döyüş meydanında göstərir. Burda dostsuz, yoldaşsız məhv olarsan. İnsanlar əl-ələ verib döyüşəndə güclü olur. Necə deyərlər, bir nəfər hamı üçün, hamı bir nəfər üçün! Tək əldən səs çıxmaz!

---

[1]**Mirdaməd Seyidov** (05.04.1922 – 04.11.2011) – İkinci Dünya müharibəsində alman faşizminə qarşı vuruşmuş azərbaycanlı partizan. Müharibənin ilk günlərindən cəbhəyə gedib, almanlara əsir düşüb. Dahau ölüm düşərgəsində olub. 1943-cü ildə faşistlər onu İtaliya, Triest və Yuqoslaviyaya sürgün edib. Düşmənin yaratdığı legiondan qaçıb partizanlara qoşulub. Yuqoslaviya və İtaliya ərazisində işğalçılara qarşı mübarizə aparıb. Əfsanəvi partizanlar Cavad Həkimli, Mehdi Hüseynzadə ilə çiyin-çiyinə döyüşüb. Mavi gözlü gənc partizan "İvan Ruski", "Miriço Mario" və "Veselin" təxəllüsləri ilə tanınıb. Yuqoslaviya Xalq Azadlıq Ordusunun XI korpusunun Haribaldi adına xüsusi kəşfiyyat-təxribat qrupunda fəaliyyət göstərib.

– Elə ona görə partizan olmağı qərara almışam. Təkbaşına, əliyalın yox, məhz partizanların cərgəsinə qoşulub faşistlərə böyük zərbə vura bilərəm. Amma əvvəlcə bu partizanları tapmaq lazımdır. Gələn həftə qızlarla görüşəndə hər şeyi ətraflı öyrənib mənə xəbər ver.

– Mütləq şad xəbər gətirəcəyəm. Qərargahda mirzə vəzifəsində çalışıram, hərbi hissədən də rahat çıxa bilirəm. Qızlarla bazar günü görüşəcəyəm, narahat olma! Əsas məsələ odur ki, Qratsa sağ-salamat gedib çıxasan. Amma qızlar çox yaraşıqlıdır, qarasaç, təravətli. Anitsanın gilas kimi qara gözləri var, Jiva isə çox məzəli qızdır, üzündən təbəssüm əskik olmur. Anitsa xalası qızından bir yaş kiçikdir. Eh, danışmaqdan nə çıxar, görəndə heyran qalacaqsan!

* * *

Mehdi yaxşı başa düşürdü ki, almanlar böyük tarixi səhvə yol verib, ona görə də bu müharibədə düzgün mövqe tutmağa çalışırdı. Amma sadəcə, qaçıb canını qurtarmağı özünə sığışdırmırdı, əvvəlcə partizanlarla əlaqə qurdu, sonra da yoldaşlarının köməyi ilə kazarmalarda hərbi sursat, texniki ləvazimatlar, ərzaq toplamağa başladı. Legionerlər patrul qismində şəhərə çıxanda silah-sursatı öz motosikletlərində xəlvətcə daşıyıb partizanların Opçina və Sejana ətraflarında əvvəlcədən hazırladıqları gizli saxlanc yerlərinə qoyurdu. Mehdinin partizanlarla əlaqə qurması Anitsanın sayəsində mümkün oldu. Çox bacarıqlı qız idi, heç nədən qorxmurdu, müharibədə belə adamların qiyməti yoxdur. Üstəlik, yaraşıqlı azərbaycanlı oğlan Anitsanın ürəyindən idi.

Mehdinin həmyerlisi diviziyanın motosiklet üçün ehtiyat hissələri saxlanılan anbarında çalışırdı. O, motosiklet üçün üç dəst ehtiyat hissəsi hazırlayıb gizlətmişdi. Mehdi partizanların yanına motosikletlə qaçmağı planlaşdırırdı. Anbarda işləyən yoldaşı ehtiyat hissələrini qayalıq ərazidəki zeytun ağacının dibində, daşların altına qoymuşdu. Bu ehtiyat hissələri əvvəl-axır Mehdiyə lazım olacaqdı. Alman forması onda ikrah hissi doğursa da, legionda olduğu müddətdə motosikletə böyük marağı yaranmışdı. Hələ təlim düşərgəsində zəhlətökən məşğələlərin əvəzinə, motosikletlə Polşanın çöllərində gəzməyi xoşlayırdı. Mühərriki 26 at gücündə olan "BMW R75" markalı motosikleti çox bəyənirdi. "NSU", "DFW" və "Zündapp" modellərindən olan motosikletləri də sürmüşdü – almanlar bu ikitəkərli maşınlardan patrul və kuryer xidmətində geniş istifadə edirdi.

Almanların tank diviziyalarının hər birində ayrıca moto-piyada hissəsi vardı. Moto-batalyon, adətən, iki-üç motosikletçi bölməsindən və qərargah bölüyündən ibarət idi. Müharibənin əvvəlində Şərq

cəbhəsində döyüşən bir piyada diviziyasında 450 yedəkli motosiklet vardı. Mehdinin rəhbərlik etdiyi kəşfiyyat bölüyünə isə "BMW R75" markalı 45 ədəd yedəkli motosiklet verilmişdi. Mehdi də onlardan birinə minib qaçmağı planlaşdırırdı.

Bütün uşaqlar kimi, hələ balaca vaxtından sürət dəlisi idi, velosiped sürməyi xoşlayırdı. Amma hərdən Novxanıda monqol cinsli ata minib çapırdı. Bu anlarda özünü sanki təyyarədə hiss edir, səmanın ənginliklərinə baş vurmaq istəyirdi. Abşeron düzləri ona bəzəkli, sehrli xalçanı xatırladır, elə bil nağıllardakı Qıratın belində sehrli xalçaya minib uzaq məmləkətlərə yollanırdı. Motosiklet sürət yığanda da bənzər hisslər keçirirdi. Mehdi hansı işə əl atırdısa, onu hamıdan yaxşı görməyə çalışırdı. Motosiklet sürməkdə də əvəzi yox idi. Döyüşçü dostları deyirdi ki, Mehdi motosikleti peşəkarcasına idarə edir. Gələcəkdə həyata keçirəcəyi təxribat əməliyyatlarında motosikletdən istifadəni planlaşdırırdı. Amma bu ikitəkərli maşının çatışmayan bir cəhəti vardı – mühərriki səs salırdı. Motosikletlə düşmən mövqeyinə səssiz yaxınlaşmaq mümkün deyildi.

Mehdi yaxşı bilirdi ki, haqq və ədalət carçısı olan safqəlbli adamlar əvvəl-axır uğur qazanır. Gərək əvvəlcə idrakla qalib gələsən, yalnız bundan sonra döyüş meydanında gücünü göstərə bilərsən. Başına nə gələcək? Bunu əvvəlcədən bilmək mümkün deyil, amma gözlənilməz vəziyyətə həmişə hazır olmalısan. Mehdi də bu prinsiplə yaşayır və indi partizan briqadasının Sejanaya gəlməyini gözləyirdi. Partizanlara qoşulan üç legioner yerli müqavimət hərəkatı rəhbərləri ilə razılığa gəlmişdi ki, digər yoldaşlarının hərbi hissəni tərk etməsinə şərait yaradılacaq. Şərq cəbhəsindəki əsirlikdən, təlim düşərgəsindəki üzücü günlərdən sonra Mehdi taleyin onu gətirdiyi yerə – döyüş meydanına qayıdıb şərə qarşı mübarizə aparacaq, dostu Mixayloya verdiyi sözə əməl edib, düşməndən amansız qisas alacaqdı.

## IX

Torpaq, lacivərd dəniz, bəyaz dalğalar, mavi səma, möhtəşəm qayalar... Sahildə ucalan qayaların yaşını bilən yoxdur, küləyə sinə gərir, günəşdən yanıb, yağışın və dənizin duzlu suları yalasa da, onlar tarixin canlı şahidi kimi əzəmətini itirmir... Triest körfəzi bu axşam da qüruba yollanan günəşin şəfəqlərində çimirdi. Triestin dar-dolanbac küçələrindəki köhnə evlərə də bu şəfəqdən pay düşmüşdü. Əhalisi, əsasən, slovenlərdən ibarət olan və əsrarəngiz gözəlliyi ilə fərqlənən bu böyük şəhər hələ XIX əsrdə Avstriya-Macarıstan imperiyasının böyük liman mərkəzi idi. Birinci Dünya müharibəsindən sonra

Sloveniyanın sahil əraziləri, Triestlə birlikdə İtaliyanın nəzarəti altına keçdi. Şəhər sakinləri – slovenlərin qara günləri başlandı. Onlar təqib və təhqirlərə məruz qaldı. Çoxları bu ağır həyata dözməyib Yuqoslaviya krallığının tərkibində qalmış vətənlərinə döndü.

...Yanvar günəşinin ılıq şüaları hər tərəfə işıq saçırdı. Mehdi nifrət etdiyi alman formasında şəhərin küçələrini dolaşırdı. Xəfif meh dənizin təravətini şəhərə yaymışdı. Bazar günü olduğu üçün Mehdini hərbi hissədən buraxıb axşam saat 10-a qədər asudə vaxt vermişdilər. Şəhərin baş meydanı Korzoda, qələbəliyin içində ayaq saxlayıb ətrafa baxdı. Sanki evlərdə adam qalmamışdı, hamı şəhərə gəzməyə çıxmışdı. Meydanda müxtəlif qoşun növlərini təmsil edən zabitlər çox idi. Emblemində insan kəlləsi təsvir olunmuş SS zabitləri, paraşütçülər, dəri şalvar və uzunboğaz çəkmə geymiş süvarilər, qara dəri şalvar, qəhvəyi, yaşıl və tünd-mavi zolaqlı formada gəzən piyada qoşun əsgərləri, sarı-qəhvəyi rəngli gen forma geymiş rumınlar və macarlar, çetniklər[1], domobranetslər[2] və ustaşlar[3] – bir sözlə, Triestin baş meydanında Avropanın bütün qoşun növlərini təmsil edən hərbçilər vardı. Əsgərlər qrup şəklində, zabitlər isə cüt-cüt gəzirdi. Yerli gözəlçələrlə qol-qola gedənlər də çox idi – elə ucadan qəhqəhə çəkirdilər ki, səsləri yaxınlıqdakı evlərin divarlarında əks-səda verirdi.

"Triestdə gözəl qızlar çoxdur", – Mehdi düşünüb gülümsündü. Küçədə o qədər yaraşıqlı qıza rast gəlmişdi ki, başını itirmişdi. Ciddi görkəm alıb düşündü: "Bilirsən nə var, Mehdi? Bu Betka səni ovsunlayıb, ağlını başından alıb. Başqa heç nə barədə düşünə bilmirsən. Bura xüsusi missiyanı yerinə yetirməyə gəlmisən və bu missiyanın sevgi ilə heç bir əlaqəsi yoxdur. Məqsəd faşistləri, onların əlaltılarını məhv etməkdir!"

Qələbəliyin uğultusu içindən gözlənilmədən tanış səs eşitdi:

– Mehdi, əziz dostum!

Dönüb baxdı və qarşı səkidən onu səsləyən alman unter-zabitini gördü.

– Bu ki Mirdaməd Seyidovdur! – elə ucadan dedi ki, öz səsinə diksindi. Bakı ətrafındakı kənddə bir məhəllədə böyüdüyü uşaqlıq dostunu

---

[1]**Çetniklər –** özlərini haydukların davamçısı sayan, millətçi, antikommunist və monarxist təmayüllü partizan dəstələri

[2]**Domobranetslər –** sloven antikommunist hərbi-polis birləşmələri. Nasist Almaniyası tərəfindən 1943-cü ilin sentyabrında Şimali Sloveniyada yaradılıb.

[3]**Ustaşlar –** xorvat ultrasağ təmayüllü millətçi təşkilat. 1929-cu ildə İtaliyada Ante Paveliç tərəfindən yaradılıb.

dərhal tanıdı. Onların son görüşündən iki il keçmişdi. Cəbhəyə birlikdə yola düşmüş, Mehdini Moskva yaxınlığındakı minaatanlar məktəbinə, Mirdamədi isə paytaxtın cənubunda yerləşən sanitar məktəbinə göndərmişdilər. Sevastopol uğrunda amansız döyüşlər zamanı Mirdaməd orada batalyon sanitarı qismində xidmət edirdi. Almanlar hücuma keçib qalanı alanda yaralı Mirdaməd döyüşçü yoldaşlarının cəsədi altında qalmışdı. Faşistlər onu tapıb əsir aldı – sanitara alman ordusunda da ehtiyac duyulurdu. Mirdamədi fəhlə batalyonuna göndərdilər, Triestə Milad bayramından əvvəl gəlmişdi. Sloveniya sahilindəki bu iri şəhərdə almanların İtaliya cəbhəsinə göndərdiyi hərbi hissələr cəmləşmişdi.

Dostlar qucaqlaşıb adəti üzrə üç dəfə öpüşdülər. Mirdaməd dedi:

– Əziz dostum, inanmazsan, son iki ildə səni nə qədər xatırlamışam! Səni bu gözəl şəhərin küçəsində görəndə gözümə inanmadım. Amma bura necə də bizim Bakıya oxşayır! Təkcə dənizi, limanı yox, memarlıq üslubu da bizdəki kimidir, düz demirəm?

– Əlbəttə! Həmişə beləsən: yaraşıqlı bina görəndə çiçəyin çırtlayır, amma mən bu binaları partlatmaqdan zövq alıram. Yaxşı, danış görək, burda, doğma Bakıdan uzaqlarda nə gəzirsən?

– Əynimizdəki formadan bəlli olur ki, ikimiz də eyni zibilə düşmüşük, başımız dərddədir. Ay Mehdi, niyə burda dayanmışıq, gedək bir yerdə oturaq, görüşü qeyd eləmək lazımdır, ya yox?

– Bəxtə bax! Nə yaxşı ki, Aralıq dənizinin sahilində, bu romantik şəhərdə qarşılaşdıq. Yoxsa, Allah eləməsin, cəbhədə, həm də düşmən kimi üzləşsəydik, necə olardı? Vay halımıza!

Dostlar yaxınlıqdakı kafedə əyləşib bir şüşə şərab sifariş verdi. İçkini Mirdaməd seçdi, dedi ki, bu, əla, yüngül şərabdır. Qurtum-qurtum içib dərdləşməyə başladılar. Hər şeydən – Bakıda Qızıl Orduya xidmətə çağırış aldıqları gündən tutmuş bu günə qədər olub-keçənləri xatırladılar.

– Qratsda, hospitalda yatanda papağımı qabağıma qoyub xeyli fikirləşdim. Qərara gəldim ki, bu zəhrimara qalmış alman formasını ancaq lazım olan günə qədər geyinəcəyəm. Müharibədə kimsə deyə bilməz ki, nə qədər ömrü qalıb. Ancaq istəmirəm öləndə əynimdə bu forma olsun!

– Mehdi, niyə ölümdən danışırsan? Son iki ildə çəkdiyin müsibətlərdən sonra indi ölməyə haqqın yoxdur!

– Razıyam, Mirdaməd! Açığı, hələlik ölmək fikrim yoxdur. Ancaq faşistlərə qan udduracağam! Dünya da dağılsa, partizana güllə atmaram. Əksinə, almanlardan qaçıb onlara qoşulmağı düşünürəm.

– Bunu necə edəcəksən, ay Mehdi?

– Qratsdakı hospitalda tibb bacılarından biri ilə dostluq edirdim, mələk kimi qız idi, şirin söhbət edirdik. Milliyyətcə sloven olan tibb bacılarının almanları görən gözləri yox idi. Qızlar mənə danışdı ki, Sloveniyada partizan dəstələri fəaliyyət göstərir, burda, Sahilyanı ərazidə isə onların sayı həddindən artıq çoxdur. Amma müqavimət hərəkatına qoşulmaq heç də asan deyil. Gərək kimsə sənə zəmanət versin, əks təqdirdə, adamın başını əkib, heç adını da soruşmazlar! Hospitaldan çıxan kimi dərhal partizanlara qoşulmaq istəyirdim. Nəzərdə tutmuşdum ki, Opçinadakı Türküstan diviziyasına qayıtmayım. Öyrəndim ki, Koroş və Şteyr vilayətlərinin Avstriyaya aid hissəsində partizan dəstələrinin sayı azdır, ona görə də tibb bacısı məsləhət gördü ki, hərbi hissəyə qayıdıb, partizanlarla əlaqə yaradım. Burda onların sayı çoxdur. Betka mənə Sejanada yaşayan xalası qızının ünvanını verib dedi ki, bu qız sənə partizanlarla əlaqə yaratmağa kömək edər... Hospitalda yatanda qərargahda xidmət edən dostum Cavad Həkimli mənə baş çəkməyə gəlmişdi. Onu tanıyırsan, Bakıdandır, limanın yanında yaşayırdı. Xahiş etdim, partizanlarla etibarlı rabitə yaratsın. Məsələ həll olundu, öyrənmişik ki, partizan korpusunda rus batalyonu və bir neçə rus bölüyü var.

– Bilirsən, bu alman forması məni də boğaza yığıb, gəl, birlikdə qaçaq!

– Əla fikirdir, Mirdaməd! Bu hərbi geyim sənə heç yaraşmır. Gələn bazar burda, elə bu vaxt görüşək, hər şeyi konkret danışaq. İndi isə pis nə varsa, hər şeyi unut, bu gözəl şəhəri doyunca gəzib zövq al, həm də nəyin harda yerləşdiyinə göz qoy! Məncə, şəhər haqqında bilgilər bizə hələ çox lazım olacaq. Özümü təxribatçı kimi sınamaq istəyirəm. Çünki bir təxribatçı təkbaşına düşmənə böyük ziyan verə bilər.

– Bizim bölükdə də, yəqin, bu iyrənc alman formasından yaxa qurtarmağı arzulayan çoxdur.

– Bu məsələ ilə maraqlan, amma ətraflı məlumat vermə. Əvvəlcə ikimiz gedib, sonra da başqalarına kömək edərik. Özündən muğayat ol!

Görüşdən məmnun qalan dostlar xudahafizləşib ayrıldılar. Sərt rus qışına alışmış Mehdini Aralıq dənizi sahillərinin yumşaq iqlimi çaşdırmışdı – düşünürdü ki, artıq yaz gəlib. Anlaya bilmirdi ki, əsgərlər havaların əlverişsiz keçməsindən niyə şikayətlənir. Dalbadal iki qışı dəhşətli cəbhə şəraitində keçirmişdi, faşistlərin həbs düşərgəsində vəziyyət ondan da ağır idi, bu səbəbdən mülayim iqlim ona cənnət havası kimi görünürdü. Hospitalda iki ay müalicə alıb dincəldikdən

sonra sağlamlığı bərpa olmuş, ruh yüksəkliyi artmışdı, özünü faşistlərə qarşı mübarizəyə hazır sayırdı. “Partizanlarla rabitə nə vaxt yaranacaq?” – neçənci dəfə idi ki, ürəyində özünə bu sualı verirdi. Triestin dağlıq hissəsində yerləşən kiçik Opçina kəndinə kanat yolla qalxıb-enən kiçik vaqonda da bu fikirlər onu rahat buraxmırdı. Buradan Triest körfəzinə füsunkar mənzərə açılırdı. Şam meşəsi sahilə qədər uzanıb dənizlə torpaq arasında təbii sərhəd çəkmişdi. Uca daş abidə isə şəhərin hər tərəfindən aydın görünür, insanlar üçün sanki mayak rolunu oynayırdı. Bu abidə 1930-cu ildə, Vyananı dəniz limanı ilə bağlayan və Krasdan keçən ilk magistral yolun şərəfinə ucaldılmışdı.

Kanatla qalxan vaqonun son dayanacağından onların kazarmasına qədər piyada bir neçə dəqiqəyə çatmaq mümkün idi. Kəndarası yol yaşıl tala, zəmi və meyvə bağlarının içindən keçirdi. Yol kənarındakı zeytun ağacları isə bu mənzərəyə xüsusi yaraşıq verirdi. Hərdən Mehdinin yanından öküz və eşşək qoşulmuş kəndli arabaları keçirdi – demək olar, hamısına iri şərab çəlləkləri yüklənmişdi. Mehdi Opçinaya gələndən sonra dadına və rənginə görə şərabları ayırd etməyi öyrənmişdi. Xüsusən də şərabın nəfis “teran” və “refoşk” növlərini çox bəyənirdi. Hisə verilmiş ət və təzə sıxılmış zeytun yağına söz ola bilməzdi. Müharibə dövrünün çətinliklərinə baxmayaraq, yerli sakinlər özlərinə korluq vermir, süfrələri dadlı və ləziz yeməklərlə bol olurdu...

Mehdi kazarmada hərbi formanı çıxarıb, hirslə stulun başına atdı. Çarpayıya uzananda bir fikir ona rahatlıq vermirdi: “Görəsən, bu mənfur formadan canım nə vaxt qurtaracaq?”

* * *

Cavadın təzə tanışı Jiva barədə dediyi sözlər düz çıxdı – qız, həqiqətən, çox yaraşıqlı, gözəgəlimli idi. O, Mehdini Konavlye qəsəbəsində partizan kuryeri Stanko ilə xəlvətcə görüşdürdü. Kuryerlə qısa söhbətdən sonra Mehdi anladı ki, bu sarısaç oğlan heç də göründüyü kimi sadə deyil, gizli rabitə işinə hələ müharibədən əvvəl, Sloveniyanın müstəqilliyi uğrunda mübarizə aparan gənclərin “TİQR”[1] təşkilatında başlamış və bu illər ərzində zəngin təcrübə toplamışdı. Stanko Mehdini diqqətlə dinləyib Opçinadakı Via Natsionale küçəsində yaşayan dərzi Olqanın yanına göndərdi. Dərzinin yaşı otuzdan çox olmazdı, gözəl bədən quruluşu vardı. Həmin gündən Mehdi, demək olar ki, hər gün Olqanın

[1]**“TİQR”** – müqavimət hərəkatının gənclərdən ibarət təşkilatı, adı “Triest”, “İstriya”, “Qoritsa” və “Rieka” sözlərinin baş hərflərindən əmələ gəlib.

yanına gəlirdi. Az keçmiş qadın dərzinin mənzili partizanların tərəfinə keçməyə hazırlaşan legionerlərin toplantı yerinə çevrildi.

Mehdi bildirdi ki, əvvəlcə beş legionerin qaçmasına kömək etmək lazımdır, daha sonra yüzdən çox legioner də partizanlara qoşulmaq üçün hazır vəziyyətdə gözləyəcək. Bu, müqavimət hərəkatı fəallarını çox sevindirdi. Amma qaçış əməliyyatı planını ətraflı düşünüb dəqiq hazırlamaq lazım idi ki, almanlar son anda legionerləri ifşa edib yaxalamasın.

Gülərüz dərzi Olqa kuryeri və Mehdini Pliskovitsa və Veliki Dol kəndləri arasında yerləşən gizli P-15 postuna göndərdi. Bu postda on kuryer fəaliyyət göstərirdi. Mehdi partizanlarla hərbi hissədən fərarilik edəcək legionerlərin qəbul edilməsi şərtlərini müzakirə etdi. Axı yeni gələnlərin kömək və qayğıya ehtiyacı vardı – onları Krasdakı iri partizan birləşməsinə qoşmaq lazım idi. Xəbər gəldi ki, Qradnikov briqadası həmin vaxt yaxınlıqda olacaq, Mehdi də kuryerlə razılaşdı ki, fevralın 6-da Pliskovitsa kəndinin girişində onları qarşılayıb P-15 postuna aparsın.

Mehdi kuryer Stanko ilə qaçış günü barədə danışanda ağlına gəlməzdi ki, fevralın 6-dan sonra hərbi hissəni tərk etməyə hazırlaşan legionerlər böyük təhlükə ilə üzləşəcək. Bunun bir neçə səbəbi vardı. Belə ki, yanvarın axırına yaxın Cavad ona yaxınlaşdı, çox həyəcanlı idi, səsi titrəyirdi:

– Eşitmisən, birinci batalyonun bölmələri Kontovel şəhərində yerləşdirilib. Bizimkilər orda partizanların tərəfinə keçəndə faciə baş verib. Bunu dünən mənə Firudin Hüseynov danışdı, bu işlə şəxsən məşğul olub. Ona Mariya Star adlı yerli qadın kömək edib. Otuz üç legionerin qaçışı srağagün gecə saat üçdə nəzərdə tutulmuşdu. Amma onların aradan çıxmağa hazırlaşdıqlarını görüb Ştaynerə xəbər çatdırıblar. O da dərhal hadisə yerinə gəlib. Aləm qarışıb, həyəcan siqnalı səslənib. Şəxsi heyətə sıraya düzülmək əmri verilib. Bu vaxt ərzində Məzahir otuz iki legionerlə aradan çıxmağa macal tapıb. Almanlar fərariləri təqib etmək üçün silahlı dəstə göndərib. Məzahirin dəstəsi pusquda dayanıb təqibçilərə atəş açıb, iyirmi faşist öldürüblər, xeyli də yaralı var, sonra dağlara çəkiliblər. Ertəsi gün səhər bölükdə qalmış əsgərləri sıraya düzüblər. Komendantın əmri ilə aralarından iyirmi əsgər seçiblər – gecə atışma zamanı öldürülən iyirmi faşistin sayı qədər! Əsgərləri qaçan yoldaşlarına kömək etməkdə günahlandırıb güllələyiblər. Bütün müavinləri, bölük və taqım komandirlərini dəyişib alman zabitləri və unter-zabitlərlə əvəzləyiblər. Köpək Buş da xüsusi təhqiqata başlayıb.

Bir neçə gündən sonra, fevralın əvvəlində Əkbər Əliyev və Rza Orucovun rəhbərliyi altında qərargah bölüyündən olan bir qrup legioner də hissəni tərk edib dağlara çəkildi. 314-cü alayın komandanlığı legionerlərin sıralarında fəaliyyət göstərən gizli təşkilatı üzə çıxarmaq üçün işə başladı, hətta Mehdinin də adı şübhəlilər siyahısına düşdü. Aradan çıxmaq vaxtı çatmışdı. Planlaşdırılmış qaçış günü yaxınlaşırdı...



# FEVRAL 1944-cü il

**X**

Günəşli və qızmar bazar günlərinin birində Mehdi əvvəllər olduğu kimi yenə də sevimli “BMW” markalı motosikletinin sükanı arxasına keçmişdi. İkitəkərli maşın daş-kəsəkli yollarla sürətlə irəliləyirdi. Cavadın idarə etdiyi yedəkli motosiklet ona çata bilmirdi. Mehdi motosiklet sürməyi dostları ilə birlikdə Polşanın Kruşina kəndindəki Türküstan diviziyasının təlim bazasında öyrənmişdi. Ancaq orada hər tərəf düzənlik idi, burada isə daş-kəsəklə dolu enişli-yoxuşlu yollarda motosikleti idarə etmək heç də asan deyildi. Polşa yollarından fərqli olaraq, burada hər an sərt döngə və təhlükə ilə üzləşmək mümkün idi.

Amma Mehdinin məhz belə çətin yolda motosiklet sürmək xoşuna gəlirdi. Sərt döngələrdən ustalıqla keçir, peşəkar yarışçılar kimi, bəzən motosikletin ön təkərini yuxarı qaldırıb, arxa təkəri üstündə sürürdü. Bu dəfə isə motosikleti yüksək sürətlə qovurdu, çünki qarşıda onu azadlıq gözləyirdi. İndi qisasını həyata keçirmək üçün kimsə ona əngəl ola bilməzdi. “Bircə təkərlər boşalmasın, qalan hər şey düzələr!” – Mehdi düşünüb köks ötürdü.

Mehdi, Cavad, onları müşayiət edən Qədir və Leonid motosikletlərə minib guya şəhərdə patrulluq etmək üçün hərbi hissədən çıxmışdı. Bu iş onların hissəsinə həvalə edilmiş gündəlik döyüş tapşırığı idi. Legionerlər Opçinadan, Triestin qərb sərhədləri boyunca, sahildəki Devin qəsrinə qədər, sonra Trjiçdən keçməklə geri, Opçinaya qədər olan ərazidə patrulluq edirdilər. Mehdinin başçılıq etdiyi moto-kəşfiyyat bölüyünün də daxil olduğu 314-cü alayın komandanı, polkovnik baron Le Fortun əmri belə idi...

Çoxsaylı döngələrdən, enişli-yoxuşlu yollardan keçən legionerlər, nəhayət, XIX əsrdə tikilmiş Devin qəsrinə çatırdı. Bu möhtəşəm saraydan

bir az aralı, sahildəki qayaların arxasında onları bir zabit gözləyirdi. Bu, Mirdaməd Seyidov idi.

Mehdi dostunu motosikletinin tərkinə aldı və onlar Trjiç yolu ilə sürətlə irəliləməyə başladılar. Mirdaməd silahsız gəlmişdi – bazar günü ona asudə vaxt verib axşama qədər hərbi hissədən buraxmışdılar. Mehdi tapançasını dostuna verdi, özü isə avtomatı əlinə alıb sazlığını yoxladı.

Asfalt döşənmiş dar yol meşənin içindən keçirdi. Yolayrıcına çatdılar, buradan daş-kəsəkli torpaq yol başlayırdı. Mehdi motosikleti sola döndərib bir neçə metr sürdü və yol kənarında saxladı. Cavad kimi, mühərriki söndürüb motosikleti ağacın altına çəkdi.

Hərbi hissədən fərarilik planını bir ay əvvəl hazırlayıb ən xırda detalları da nəzərə almışdılar. Ancaq qaçış günü üçün dəqiq plan yox idi – Mehdi hər şeyi Allahın ümidinə buraxmış və qərara almışdı ki, gözlənilməz problem yaransa, şəraitə uyğun davranacaq. Şübhəsiz, fərarilik faktını hamıdan gizlətməyə çalışırdı. Əslində, bu fakt digər iri legioner dəstənin qaçışı üçün siqnal rolunu oynayacaqdı. Amma çox sayda adam hərbi hissəni eyni vaxtda asanlıqla tərk edə bilməzdi, bunun üçün düşməni çaşdıran yayındırıcı manevr lazım idi.

"Stop" yol nişanına və şlaqbauma rast gələndə Mehdi düşündü ki, bu, hamının səbirsizliklə gözlədiyi həmin şansdır. Özü ilə, adətən, yol polisinin qoluna taxdığı qara lent və motosiklet üçün əlavə nömrə nişanı götürmüşdü. Hər ikisini Polşadan gətirmişdi, bilirdi ki, bir gün lazım olacaq.

Günəş batır, hava getdikcə qaralırdı. Meşə kənarında quşların səsindən başqa heç nə eşidilmirdi. Dostlar siqaret yandırdı və Mehdi planı izah etməyə başladı:

– Bu gecə Ay görünməyəcək, deməli, işimiz yüngül olacaq. İndi bəzi məsələləri yoluna qoymalıyıq. Bizə dörd alman hərbçisinin cəsədi lazımdır. Gəlin, burda gizlənib gözləyək. Amma şərtimiz belədir: yalnız dağ istiqamətində qalxan faşistlərə hücum edəcəyik. Mən aşağıda, yolayrıcında gizlənib, gəlib-gedənə göz qoyacağam: planımıza uyğun gələn hərbçilər tapmalıyıq. Əgər almanlar sayca bizdən çox olsa, şlaqbaumu yığışdırıb onlara toxunmarıq, qoy keçib-getsinlər. Özümüz isə kolluqda gizlənərik. Narahat olmayın, sizə işarə verəcəyəm. Bir az səbirli olun. Hə, Allah köməyimiz olsun!

Sonra vəzifə bölgüsü apardılar. Seyidov tapançanı Mehdiyə qaytarıb, avtomatı götürdü – burada qalıb lazımi anda şlaqbaumu yığışdırmalı idi. Digər üç nəfər isə pusquda durdu. Gecə saatlarında yolda yalnız hərbi maşınlara rast gəlmək mümkün idi, çünki komendant saatı

səhərə qədər davam edirdi. Mehdi düşünürdü ki, düşmən sayca üstün olsa, döyüşə girişməyəcək. Cəmi dörd faşist cəsədinə görə risk etməyə dəyməz!

Dostlar siqareti təzəcə çəkib qurtarmışdı ki, maşın səsi eşidildi. Ağır hərbi yük maşını yolayrıcını keçib yavaş-yavaş yoxuşu qalxırdı. Mehdi şlaqbaumun yanına cumdu. Sağ əlində hərbi yol polisinin çubuğu, qolunda isə fərqləndirici qara sarğı vardı.

Yük maşını yaxınlaşanda faralar yolu bağlamış şlaqbaumu işıqlandırdı. Polis zabitinin çubuqla "dur" işarəsi verdiyini görən sürücü maşını saxlayıb qapının şüşəsini endirdi. Zabit yaxınlaşıb hərbi salam verdi: "Hayl Hitler!" Sürücü ağzını açmağa macal tapmadı: zabit onu güllə ilə vurub dərhal qapını açdı və dartıb yerə saldı. Mehdi istəmirdi ki, maşının kabinəsi qana bulaşsın. Cavad sürücünün yanında əyləşmiş ober-feldfebelin boynundan yapışıb düşürtdü və güllə ilə başından vurdu. Meyitləri sürüyüb kolluğa qoydular, Leonid isə sükan arxasına keçib maşını ağacların arxasına sürdü. Sonra şlaqbaumun yanına qayıtdı və daşın üstündə oturub siqaret yandırdı.

Çox gözləməli olmadılar, tezliklə motosiklet səsi eşidildi. Mehdi bu səsin "NSU" markalı hərbi motosikletə məxsus olduğunu dərhal anladı. Bu modeli o qədər də bəyənmirdi, "BMW" bütün göstəricilərə görə qat-qat üstün idi. Mehdi yenidən yola çıxıb şlaqbaumun qarşısında dayandı. Yedəkli motosiklet yaxınlaşanda əlindəki çubuqla "dur" işarəsi verdi. Motosiklet zabitin yanında dayandı. Mehdi almanca dedi: *"Ziq hayl!"*[1]

Cavab gözləmədən faşisti güllə ilə vurdu. Bu vaxt yedəkdə oturmuş faşist atəş açmaq istədi, ancaq pusqudakılar cəld tərpənib onu zərərsizləşdirdi.

Legionerlər bu iki cəsədi də şlaqbaumun qarşısından sürüyüb kolluğa apardı. Leonidlə Mehdi gizlətdikləri yük maşınına minib, meşədəki gizli saxlanc yerinə getdilər. Son günlər Mehdinin göstərişi ilə legionerlər bura hərbi hissənin emalatxanasından motosiklet üçün ehtiyat hissələrini daşıyıb gizlətmişdi. Amma ehtiyat hissələrini maşına yükləmək o qədər də asan olmadı. Çünki yük yerini açanda gördülər ki, bura tibb ləvazimatları ilə doludur. Sevindilər, axı partizanların dərman və sarğı materiallarına böyük ehtiyacı vardı. Dostlar bir neçə yeşik tibb ləvazımatını saxlanc yerinə qoyub, əvəzində ehtiyat hissələrini yüklədilər. Geri qayıdıb ehtiyat hissələrini asfaltın üstünə boşaltdılar. Mehdi "NSU" markalı yedəkli motosikleti də sürüyüb bura gətirdi.

---

[1]**"Ziq hayl!"** – "Qələbə naminə!" (alm.)

Dostlar dörd alman cəsədini ehtiyat hissələrinin üstünə uzatdı. Meyitlərin cibindən şəxsiyyət vəsiqələrini götürüb əvəzində öz hərbi biletlərini qoydular.

Mehdi qumbaranın çivini çəkib meyitlərin üstünə tulladı, qaçıb yol kənarındakı qayaların arxasında gizləndi. Partlayışdan sonra meyitlər və motosiklet tanınmaz hala düşdü. Bu, planın bir hissəsi idi. Cəsədlərin qalıqları altında piyada əleyhinə üç mina yerləşdirdi. Faşistlər cəsədləri yerdən qaldıranda minalar partlamalı idi...

* * *

Fərari dəstə iki motosiklet və yük maşını ilə Pliskovitsa kəndinə gəldi. Şərtləşdikləri kimi, rabitəçi Stanko onları gözləyirdi. Legionerləri kəndin kənarındakı yarğanın kənarına gətirdi – gizli P-15 partizan postu burada yerləşirdi. Məntəqədə beş rabitəçi vardı, almanlara məxsus yük maşını və motosikletçiləri görəndə təşvişə düşdülər, amma Stanko ucadan səsləndi:

– Uşaqlar, mənəm, Stanko! Dostlarla gəlmişəm!

Bu sözlərdən sonra cavanlar postdan çıxıb, qonaqları qarşıladı. Rabitəçilər legionerlərin gətirdiyi qənimətləri görüb sevindi. Onları maşın yox, içindəki yük maraqlandırırdı. Partizanlar dərman və sarğı materialları sarıdan korluq çəkirdilər, xüsusən də son döyüşdə xeyli ölən və yaralanan olmuşdu. Mehdi ilə Mirdaməd motosikletlərini ot tayasında gizlətdi, rabitəçi Stanko isə yük maşınını harasa aparıb, tezliklə qayıtdı. Legionerlər postda gecələdi, ertəsi günün axşamı onları P-13 postuna apardılar. Bu məntəqə Qorni Branitsa yaxınlığında, Ştaniel kəndinin yamacında yerləşirdi.

Alman ordusundan fərarilik etmiş legionerlər indi mülki paltar geymişdi. Mehdi, Mirdaməd, Cavad, Qədir İsgəndərov və Leonid günəşli fevral səhərini meşəbəyinin evində qarşıladılar. Həyətdə oturmuşdular, qəhvə içib siqaret çəkir, son hadisələri müzakirə edirdilər. Rabitəçi Stanko da gecəni onlarla birlikdə meşəbəyinin evində qalmış, ərzaq gətirmək üçün tezdən kəndə yollanmışdı. Mehdi səbirsizliklə döyüş tapşırığı gözləyirdi, qisas almaq istəyi ona rahatlıq vermirdi.

– Mənfur alman formasından qurtulduğum üçün özümü xoşbəxt hiss edirəm. Bax, Mirdaməd, üç gündür azad yaşayırıq, amma, yolda öldürdüyümüz dörd almandan başqa, hələ bir dənə də faşisti cəhənnəmə göndərməmişik, – Mehdi gülümsündü.

Mehdini ilk dəfə yaraşıqlı qəhvəyi kostyumda və jiletdə görən dostları onu tanımadı. Yalnız mehriban təbəssümündən bilinirdi ki, bu cavan onların döyüş komandiridir.

– Hava sarıdan bəxtimiz gətirib. Yemək də pis deyil, cəbhədəki xörəklərlə əsla müqayisəyə gəlməz. Yerli sakinlər gülərüz və qonaqpərvərdir. Qızlar çox istiqanlıdır, işvəli baxışlarından doymaq olmur, – Cavad dilləndi. O da yoldaşları kimi mülki paltar geymişdi, cəsur döyüşçüdən çox, səyyar tacirə bənzəyirdi.

– Cavad, özünü gözlə, yoxsa bu gözəlçələrin felinə düşərsən ha! Yerli oğlanlar gəlmələrin sevgi macəralarına çox pis baxır, amma partizan qızların heç nə vecinə deyil. Ona görə də bəyəndiyin qızla gərək axşamlar görüşəsən. Həm də ay işığında gəzməyin ayrı ləzzəti var! Yəni, demək istəyirəm ki, sevişdiyini başqası görməsin. Biz burda qonağıq, köhnə bazara təzə nırx qoya bilmərik! – Mehdi dostuna nəsihət verdi.

– Qızıl kimi sözlər söylədin, qardaşım! Bir Allah şahiddir ki, sözün mənim üçün qanundur! – Cavad zarafatla cavab verdi.

– Cavad, sözümü qəribçiliyə salma. Sevgi məsələsində sənə heç nəyi qadağan edə bilmərəm. Stalin deyiləm ki, əmr verim! Bir məsələ də var. Buranın partizanları bizim bolşeviklər kimidir. Onların yanında Allahın adını çəkməyin. Bu adamların gözündə din xalq üçün tiryəkdir! Müqavimət hərəkatının üzvləri ilə söhbətlərdən sonra bu qənaətə gəldim ki, onlar Sovet İttifaqında olduğu kimi, hələ də süd gölü, bolluq və xoşbəxt gələcək barədə köhnə bolşevik nağıllarına inanır. Biz məsələnin əsl mahiyyətini yaxşı bilirik, amma slovenlərin kommunizm barədə xəyallarını, bolşevik əqidəsini alt-üst etmək olmaz. Belə çətin zamanda slovenlərin olan-qalanı budur. Ona görə bolşevikləri pisləməyin, onsuz da, müharibədən sonra məsələnin nə yerdə olduğunu dərk edib həqiqəti anlayacaqlar. Bizim missiyamız başqadır. Onlara faşist əsarətindən qurtulmaqda kömək etməliyik. Vəssalam! Mənə güc verən, ayaqda saxlayan yalnız qisas hissidir, əsirlikdə də bu səbəbdən sağ qaldım. Canımı qurtarmaq naminə heç vaxt düşmən bayrağı altında dayanmazdım. Faşistlərin axırına çıxmaq üçün bu dəfə də Moskva ətrafında və Stalinqradda olduğu kimi, hərbi hiylə işlətdim.

– Haqlısan, Mehdi! Üç gün keçib, biz isə cəmi dörd hitlerçi öldürmüşük. Amma çətini başlamaqdır, sonra Allah kərimdir! Qardaşım, bir maşın sarğı materialı ələ keçirdik, bunu da hesaba almaq lazımdır! – Mirdamədin səsində qətiyyət və məmnunluq duyulurdu.

– Mirdaməd, əhsən sənə! Leonidlə elə dəqiq atəş açdınız ki, yedəkdə oturmuş o soxulcana bənzəyən faşisti vurmağa macal tapmadım.

– Nənəm deyərdi ki, nə qatarsan aşına, o da çıxar qaşığına! Amma rəhmətlik arvad deməmişdi ki, hər gün nahara qədər gərək bir bölük faşist qırasan! – Cavad zarafatından qalmadı.

– Nənən köhnə zəmanənin adamı idi. Xoşbəxtlikdən, faşistlər dəri-dən-qabıqdan çıxsa da, Bakıya soxula bilmədi. Dünyada müharibə kabusu gəzir, bizim məmləkətdə isə güllə səsi eşidilmir. Ürəyini sakitləşdirən də budur, düz demirəm, Mirdaməd? – Mehdi dostuna müraciət etdi.

Legionerlər bir anlığına susdu, doğma ev-eşik, əzizləri üçün bərk darıxmışdılar.

– Mirdaməd, bax, "İl Piccalo"nun dünənki nömrəsində yenə ağızlarına gələni yazıblar: "Vermaxtın qoşunları İstra yarımadası və şərq ərazilərində partizan dəstələrini aşkar etmək üçün uğurlu əməliyyatlar keçirib. Yarımadada sülh bərqərar olub, qənimət kimi xeyli sayda müxtəlif çaplı silahlar ələ keçirilib. Quldurlar bu silahların böyük əksəriyyətini İtaliyanın hərbi anbarlarından oğurlayıb. Dörd gün ərzində almanlar 53 top, 64 minaatan, 414 pulemyot, 19 mindən çox avtomat aşkar edib götürüb. 13 mindən çox quldur məhv edilib və əsir alınıb. Bundan başqa, İtaliya istehsalı olan hərbi yük maşınları və güllə keçirməyən avtomobillərə həbs qoyulub", – Mehdi xəbəri italyanca oxuyub tərcümə etdi.

– Sovet İttifaqında hamıya çoxdan məlumdur ki, qəzetə, radioya inanmaq olmaz! – Mirdaməd gülə-gülə dedi.

– Bu, sadəcə, psixoloji müharibə, siyasi təbliğatdır. Bir dəli şeytan deyir, partlat bu qəzetin redaksiyasını! – Mehdi əlavə etdi.

Şam meşəsindən qırılan quru budaqların şaqqıltısı eşidildi. Gələn alçaqboylu, mavi gözlü, qarasaç rabitəçi Stanko idi. Əlində dolça və parçaya bükülmüş kömbə vardı. Mehdinin yadına düşdü ki, dünəndən bəri dilinə heç nə dəyməyib. Stankonu əl işarəsilə yanına çağırdı. Rabitəçi hal-əhval tutub dedi:

– Partizanlar öz əsgərlərinin qayğısına belə qalır! Əhali də partizanları sevir, boğazından kəsib onlara verir. İcazənizlə, bizim yerlərin ən ləziz yeməyini sizə təqdim edim: süzmə və təzə təndir çörəyi. Nuş olsun! Axşam korpus qərargahına gedəcəyik, orda sizi maraqlı görüşlər gözləyir. Mehdi, səninçün bir xəbər də var. Adamlar danışır ki, kimlərsə pusqu qurub, motosikletçi patrulları güllələyib, sonra ora üç ədəd mina qoyub, partlayış zamanı beş alman əsgəri ölüb.

– Əziz Stanko, bu, dünyanın ən şad xəbəridir! Bax indi sözün əsl mənasında iştaham açıldı, min faşistin ətini yesəm də, doymaram! – Mehdi qəhqəhə çəkdi.

Meşəbəyinin evində bir gecə də qalandan sonra dəstə Vipav vadisindəki Erzel kəndinə yollandı. Yaşayış məntəqəsinin ən ucqar yerində – tənha daxmada İvan Qradnikin briqada qərargahı yerləşirdi.

Dünən axşam bura xəbərdarlıq etmədən IX korpusun komandanı, general Novlyanko gəlmişdi. O, partizan zabitləri arasında ən məzəli hərbçi sayılırdı, gülərüz adam idi. Amma kimsə görməmişdi ki, başqasının dərdinə gülsün, yaxud kimisə lağa qoysun. Bütün generallar kimi, yeri gələndə sərt üzünü göstərir, nizam-intizama tabe olmağı tələb edirdi. Bununla belə, tabeliyindəki əsgər və zabitlərə dost münasibət bəsləyir, onlara qayğı və hörmətlə yanaşırdı. İnsanlara mehriban davranışı hələ müharibədən əvvəl, bədən tərbiyəsi müəllimi işləyəndə yaranmışdı. Amma müharibə onun taleyini kökündən dəyişmiş, özü can atmasa da, hərbi karyerada pillə-pillə yüksəlmişdi... Briqada ağır günlər keçirirdi, ona görə də Novlyanko komandir Duleyə ciddi tərzdə dedi:

– Ötən il noyabrın əvvəllərində sizin briqadada min beş yüzdən çox döyüşçü vardı. Noyabrın sonunda, düşmən hücumundan sonra cəmi min əsgər qalıb. 1943-cü il dekabrın 1-dən 1944-cü il fevralın 1-dək briqada səkkiz dəfə məğlubiyyətə uğrayıb. Daim zəfər çalan briqada üçün bu, bağışlanılmazdır. Mənə izah edin: bura qocalar klubudur, yoxsa zərbə briqadası? Son döyüşlərdə briqada daha 259 nəfər itirib. Hərbi dilə çevirsək, bu, iki batalyon deməkdir. Hörmətli yoldaş, indi qarşımızda iki vəzifə durur: əvvəlcə aramızdakı satqını tapmalı, sonra nəzarətimizdə olan ərazilərdən briqadaya könüllülər cəlb etməliyik.

– Yoldaş general, Tserkno partiya məktəbindəki faciədən iki həftə keçir, amma biz hələ də satqının kim olduğunu müəyyən etməmişik, – diviziya komandiri Dule üzrxahlıq edib generalın siqaretini yandırdı.

Hamı şübhələnirdi ki, uğursuzluqların kökündə satqın barmağı var. Amma kimsənin ağlına gəlməzdi ki, satqın komanda heyətinin içindən, yəni onlardan biri olsun. Əlbəttə, general Novlyanko, diviziya komandiri Dule və kəşfiyyat zabiti Pemts satqın ola bilməzdi. General Novlyanko dedi:

– Məğlubiyyət zəncirinin yalnız bir səbəbi ola bilər – kimsə bizə əməlli-başlı badalaq vurur. Səhv etmirəmsə, sizdə də qəribə, həm də şübhəli təsadüflər baş verir.

Kəşfiyyatçı Pemts fikirli-fikirli əlavə etdi:

– Kimsədən qorxub çəkinməyən düşmən çox təhlükəlidir. Amma cərrahın xəstəyə diaqnoz qoyması üçün onun özünün mütləq xəstələnməsinə ehtiyac yoxdur. Başqa sözlə desək, satqını tapmaq üçün satqın olmaq lazım deyil. Narahat olmayın, biz bu xaini tapacağıq. Tserknodakı hadisəni mənim ən yaxşı əməkdaşlarım araşdırır.

Çex əsilli Pemts fiziki cəhətdən zəif adam idi, amma hamı bilirdi ki, ağıllı, həm də keçi kimi tərsdir. Eynəyinin girdə şüşələri zəhmli baxışlarını gizlədə bilmirdi. İti zəkası vardı, qarşısındakı şəxsin

mahiyyətini və məqsədini çətinlik çəkmədən duyurdu. Bu, Pemtsin təhlükəli və mürəkkəb işində həmişə dadına çatırdı. Hərdən qımışır, bəzən də zarafat edirdi, amma soyuqqanlılığını heç vaxt itirmirdi. Generala dediyi sözlər ona işarə idi ki, təhqiqat sona yaxınlaşır və xain tez bir zamanda aşkar olunacaq.

Qapı döyüldü, gələn keşikçilərdən biri idi.

– Yoldaş komendant, P-13 postundan patrul gəlib!

General Novlyankonu maraq bürüdü:

– Bu fərarilər hardan peyda oldu? Dule, sən bir işə bax, bu adamlar əvvəl Qızıl Ordunun əsgəri olub, sonra könüllü surətdə almanların tərəfinə keçib, indi də bizə sığınmaq üçün gəliblər. Eh, azadlıq mübarizəsi belədir də! Görəcək günlərimiz hələ qarşıdadır!

– Novlyanko, bəs komandirləri Mehdinin gətirdiyi tibb materiallarını nəzərə almırsınız? Yük maşını ağzına qədər dolu idi! “Franya” xəstəxanasında adi tənzif belə çatışmır, hələ dərmanları demirəm! Legionerlərin gətirdiyi ləvazimatlar uzun müddət kifayət edər! – Dule qətiyyətlə bildirdi. “Stalinsayağı” bığları onun idmançı cüssəsinə əsla yaraşmırdı. Bu adamı təəccübləndirmək və ya asanlıqla məğlub etmək mümkün deyildi, hamı bilirdi ki, Dule, arxasını yerə verən deyil, pişik kimi, həmişə dörd ayağı üstə yerə düşür.

General Novlyanko qımışıb dedi:

– Əsas məsələ sıralarımızdakı satqını tapmaqdır. Yalnız bundan sonra həlledici hücuma keçib Vətəni düşməndən azad edə bilərik. Faşistlər nə qədər müdafiə olunsa da, xeyri yoxdur, əvvəl-axır uduzacaqlar. Pemts dedi ki, Mehdi özü ilə çoxlu legioner gətirəcək. Triest yaxınlığında yerləşən fəhlə batalyonundan da bizə qoşulmaq istəyənlər var. Onların bir nümayəndəsi artıq tərəfimizə keçib – Mirdaməd Seyidov. Bizim Qradnik briqadasında rus dəstəsi var, Mehdinin legioner dostları da gəlsə, rus bölüyü yaratmaq olar. Məsələn, Sreçko Kosovelin briqadasında rus bölüyü, Soşkonun briqadasında isə rus batalyonu var. Bu əsgərlərin hazırlıq səviyyəsi çox yüksəkdir, deməli, gücümüz ikiqat artacaq. Həm də əsas müttəfiqimiz – Sovet İttifaqı ilə sıx əlaqələr yaranacaq. Bu ikiüzlü ingilislərin vədlərinə inanmaq olmaz. Müttəfiqlərin hərbi missiyasından olan ingilis podpolkovniki söz vermişdi ki, əsgərlər üçün ayaqqabı göndərəcək. Üstündən nə qədər keçib? Nə ayaqqabı var, nə də podpolkovnik!

– Novlyanko, ayaqqabıları gözləməkdən gözünün kökü saralacaq. İngilis hərbi attaşesinin boş vədlər verib adamları aldatmaqdan başqa işi-peşəsi yoxdur. Bir söz soruşursan, cavab tapa bilməyəndə başlayır qəlyan tüstülətməyə. Gözə kül üfürməyi yaxşı bacarır. Bu adamda xoşuma gələn yalnız bir şey var: çəkdiyi tütünün qoxusu! – Dule dedi.

– Balıq başından iylənər! Tütünə dünyanın ən bahalı ətirini də qatsan, xeyri yoxdur, çürümüş balığın iyini ört-basdır etməyəcək! – Permts gülə-gülə bildirdi.

– Razıyam, bu donuza oxşayan kapitalistləri mənim də görməyə gözüm yoxdur. Amma, öz aramızdır, sovet hərbi missiyasının yeni rəhbəri Rıbaçenkonu da bəyənmədim. Bu yaxında polkovnik rütbəsi alıb. Zalım oğlu, elə bil odekolon bolluğuna düşüb, hər dəfə litr-litr üstünə səpir. Eh, nə isə. Yaxşısı budur, de görüm, bu Mehdiyə, onun adamlarına etibar etmək olarmı? – Dule soruşdu.

Pemts sifətinə ciddi görkəm verdi.

– Bəli, Branko. Dediklərini yoxlamışam, iki postun hər iki keşikçisindən xəbər almışam. Hər şey düz gəlir. Bu adamları yaxından tanıyıb qiymətləndirmək imkanımız olacaq. Xüsusən, Mehdini çox tərifləyirlər. Deyilənə görə, igid, cəsarətli, qətiyyətli və soyuqqanlı adamdır. Barəsində yalnız xoş sözlər eşitdim. Hərbi hissədən qaçanda doqquz hitlerçini öldürüb, həm də kazarmadan yoxa çıxmağını ört-basdır etmək üçün ağıllı plan fikirləşib. Deyirlər, hər vəziyyətdən çıxış yolu tapır. Moskva ətrafında, Stalinqradda döyüşüb, qırğınlardan sağ çıxıb. Elə bu fakt özü çox şeydən xəbər verir. Budur, özləri də gəldi!

Generallıq sanki Novlyankonun boyuna biçilmişdi, görkəmi də rütbəsinə uyğun gəlirdi – hündürboy, yaraşıqlı adam idi, səmimi gülüşü, iti baxışları vardı. Adamları saf-çürük etməyi, şəraiti düzgün qiymətləndirməyi, dəqiq qərar çıxarmağı bacarırdı. Yaşıl rəngli partizan gimnastyorkası bəzən ütüsüz olurdu, uzunboğaz çəkmələri digər generallardakı kimi parıldamırdı. Amma bu adamın ən ağır döyüşlərdə iştirakı, hücuma şəxsən rəhbərlik etməsi əsgərlərdə böyük ruh yüksəkliyi və qələbəyə inam yaradırdı.

Mehdi otağa daxil olanda generalın yaşıl plaşının yaxası açıq idi, qonaqları görəndə çöhrəsinə xoş təbəssüm qondu, gözlərini qıyıb diqqətlə baxdı. Generala bir neçə saniyə kifayət etdi ki, ürəyində Mehdiyə qiymət versin.

“Bu şəxs dağı dağ üstünə qoya bilər!” – general Novlyanko düşünüb legionerləri rus dilində ucadan və səmimi salamladı: “Xoş gəlmisiniz, yoldaş Mehdi! Yoldaşlar, sizi görməyə çox şadam!”

Mehdi masa arxasında əyləşmiş komandirlərin qarşısına keçib farağat dayandı, başında papaq olmasa da, hərbi salam verdi.

Novlyanko qalxıb əl uzatdı:

– Hərbi salama ehtiyac yoxdur, gəlin, qardaş kimi görüşək!

Əvvəl Mehdini, sonra isə legionerlərdən dördünü də bir-bir bağrına basdı. Generalın təsirləndiyi dərhal nəzərə çarpırdı.

– Yoldaşlar, IX korpusun adından sizi ürəkdən salamlayır, qardaş kimi bağrıma basıram! Bundan sonra faşistlərə qarşı çiyin-çiyinə döyüşəcəyik! Düz demirəm, Mehdi?

– Tamamilə haqlısınız, yoldaş general! Sizi elə buna görə axtarırdım. Hələ Polşada, təlim düşərgəsində motosikletə minib fərarilik edə bilərdim. Amma Şərq cəbhəsinə çatmaq üçün 700 kilometrdən çox məsafə qət etməli idim. İndi Şərq cəbhəsi getdikcə qərbə doğru uzanır. Qərara aldım ki, gözləyim, bilirdim almanlar əvvəl-axır bizi bura göndərəcək. Bu torpaqlarda azadlıq mübarizəsinin getdiyini əsir yoldaşlarımdan eşitmişdim. İndi əl-ələ verib vuruşsaq, kimsə bizi məğlub edə bilməz! Stalinqrad döyüşlərində bizim minaatan bölüyündə belə bir ifadə vardı: "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!" Döyüşlərin birində dörd saat davam edən artilleriya həmləsindən sonra bölüyün bütün əsgər və zabit heyəti həlak oldu. Onlar mənim uğrumda canlarından keçdi, deməli, bu igidlərin əvəzinə qisas almaq müqəddəs borcumdur!

Komendant Dule dedi:

– Sizi yaxşı başa düşürəm, komandir üçün öz əsgərlərini itirməkdən ağır dərd yoxdur. Sanki ən əziz adamlarını itirmisən. İcazənizlə, gətirdiyiniz tibbi ləvazimatlara görə minnətdarlığımı bildirmək istəyirəm. Dərmanlar, sarğı materialları yerinə düşdü. Cəbhənin bir çox nöqtələrində qızğın döyüşlər gedir, yaralıların sayı gündən-günə artır, indiki vaxtda tibbi ləvazimat silaha bərabərdir.

– Triestdəki faşistlərin də vəziyyəti ağırdır. Yaralıların ardı-arası kəsilmir, xəstələr üçün yer tapa bilmirlər. – Mehdi bu məlumatı verib bir anlığa susdu, sonra sözünə davam etdi: – Yoldaş general! Ölkənizin azadlığı uğrunda mübarizəyə qoşulduğuma görə ürəkdən sevinirəm!

General Novlyanko qonağın səmimi ürək sözlərinə sualla cavab verdi:

– Bu təhlükəli məqamda insanlar kimin tərəfinə keçməyi necə müəyyən edir?

Mehdi cavab verdi:

– Yoldaş komandan, dünya savaşı gedir, əgər öldürmək lazımdırsa, dostu yox, düşməni məhv etməlisən! Qismətində ölmək yazılıbsa, təcavüzkara görə yox, Vətən uğrunda həlak olmaq daha şərəflidir!

General Novlyanko soruşdu:

– Eşitmişəm sənin köməyinlə legionerlərin böyük bir dəstəsi də qaçıb bizə qoşulmaq istəyir. Bu, çox yaxşı olardı, çünki bacarıqlı əsgərlərə ehtiyacımız var. Məncə, Qızıl Ordunun keçmiş döyüşçüləri peşəkarlıq baxımından fərqlənir. Sizin Türküstan legionu da Qızıl Ordunun keçmiş əsgərlərindən təşkil olunub?

– Bəli. Tərkibində iki diviziya olan legionun milli tərkibi, demək olar ki, eynidir. Hər on əsgərdən üçü azərbaycanlı, üçü gürcü, üçü ermənidir. Qalan bir döyüşçü isə ya tacik, ya tatar və ya rus millətinin nümayəndəsidir. Milli tərkib vacib deyil, əsas məsələ onların almanlara necə münasibət bəsləməsidir. Hələlik üç bölüyün bizim tərəfə keçməsinə çalışırıq – mənim bölüyümdən başqa, II batalyonun ikinci və üçüncü bölüyü, cəmi 150 nəfər qaçmağa hazırlaşır. Devin qəsrinin yaxınlığında yerləşən fəhlə batalyonundan da bizə qoşulanlar olacaq. Mirdaməd, ən azı, bir bölük gətirəcək, bu da 100 nəfər deməkdir.

– Əla oldu, Mehdi! Bu adamların hamısını xüsusi bölüyə daxil edib adını da “Rus bölüyü” qoyarıq. Hazırlıq üçün müəyyən vaxt lazımdır, hələlik qisasa başlaya bilərsən. İngilislər mina göndərib. Əmr verərəm, sənin üçün iki yeşik ayırsınlar. Təxribat törətmək üçün bir həftə vaxt verirəm. Dostun Mirdamədi də özünlə götür. Necə deyərlər, tək əldən səs çıxmaz!

– Əmrə hazıram, yoldaş general! Başqa göstərişiniz varmı?

– Dəmir yolunu partlatmaq yaxşı olardı, ancaq son qərar sənindir, Mehdi!

– Etimad göstərdiyinizə görə, təşəkkür edirəm. Yoldaş general, açığı, dəmir yolunu partlatmaq heç də çətin deyil. Relslərin qaçmağa yeri, danışmağa dili yoxdur, sakitcə gözləyir ki, nə vaxt gəlib mina qoyacaqsan, – Mehdi cavab verdi.

– Amma partlayış anında relslərin üstündən düşmənin canlı qüvvə və hərbi texnikasını daşıyan qatar keçirsə, bu təxribatın qiyməti olmur, başa düşürsən, Mehdi?

– Bəli, yoldaş general. Partlayıcıdan bacardıqca səmərəli istifadə etmək lazımdır. Təklif edirəm, düşmən qatarlarının keçdiyi körpünü partladıb almanlara böyük zərbə vuraq! – Mehdi qətiyyətlə bildirdi.

– Əsl bizim adamsan, əmrin mahiyyətini dərindən anladın! – Novlyanko gülüb, Mehdinin əlini sıxdı.

Üç partizan komandirinin arasında Mehdi özünü çox sərbəst hiss edirdi. Bir daha əmin oldu ki, bu adamlar amansız döyüşlərdə bərkiyib, əsl kişilik məktəbi keçib, deməli, onlara nəinki adi həyatda, həm də müharibə şəraitində arxalanmaq mümkündür.

“Əgər bütün partizanların xarakteri bu üç komandirinkinə bənzəyirsə, onda inamla demək olar ki, onların simasında özümə müttəfiq tapmışam”, – Mehdi dostları ilə otaqdan çıxanda düşündü. Günəş işıq saçırdı, adamlar ocağın ətrafına toplaşıb söhbət edirdi, qızardılmış donuz ətinin qoxusu da ətrafı bürümüşdü. Kəşfiyyat zabiti Pemts üzrxahlıq elədi:

– Bilmirəm, sizə donuz əti təklif etmək yerinə düşər, ya yox?

Cavad onu sakitləşdirib bildirdi ki, müsəlman döyüşçülər yürüş vaxtı hər şey yeyə bilər, hətta donuz əti də! Müharibədə gərək ağına-bozuna baxmayasan, nə verirlər, onu da yeməlisən. Ac əsgər – pis əsgər deməkdir! Partizanlara yeni qoşulmuş legionerlər qırmızı şərabdan da imtina etmədi. Mehdi şərabdan ləzzət almaq üçün qurtum-qurtum içirdi. Hesab edirdi ki, sərxoşluq – könüllü dəli olmaqdır, həmişə ayıq-sayıq olmağa üstünlük verirdi, indiyə qədər kimsə onu sərxoş görməmişdi.

Dostluq mühitində başlanmış nahar axşamadək davam etdi. Söhbətlər çox maraqlı idi, hamıdan çox general Novlyanko danışır, partizanlar da onu diqqətlə dinləyirdi. Hava qaralanda Mehdi və Mirdaməd bel çantalarını mina ilə doldurub ilk təxribat əməliyyatına yollandı. Digər legionerlər Qradnik briqadasının tərkibinə verildi. Qərar belə idi: rus bölüyü yaranana qədər onlar komandir Tixinin rəhbərliyi altında birinci bölükdə xidmət edəcək.

## XI

“Həyat karuselə bənzəyir – istədiyin vaxt minib-düşə bilməzsən. Gərək çox ehtiyatlı tərpənib başını itirməyəsən. Amma bir məsələ var ki, karusel fırlandıqca, adamın başı da hərlənir. Mehdi, gözlərini aç, ətrafa yaxşı bax, hər tıqqıltıya qulaq ver, yoxsa vaxtından əvvəl ölərsən, ruhun göylərə uçar”, – Mehdi motosikletin yedəyində oturub düşünürdü. Gözləyirdi ki, Mirdaməd motosikletin yanacaq çənini doldursun.

Meşədəki gizli saxlanc yerlərində yanacaq kifayət qədər idi. Mehdi partizanlara qoşulmazdan əvvəl bu məsələni bacarıqla yoluna qoymuşdu. Yerli fəalların köməyi ilə Triestin şimal və şimal-qərb ərazilərində xüsusi yerlərdə yanacaq çəlləkləri gizlətmişdilər. İndi də Mirdaməd bu benzinlə motosikletin çənini doldururdu. Mehdi fikirli idi, ürəyində öz-özü ilə danışırdı. “Yox, qardaş! Canını tapşırmağa tələsmə! Ölməli o qədər faşist var ki! Hamısı sıraya düzülüb növbəsini gözləyir!”

“Mehdi, qisasımı al!” – dostu Mixaylonun son nəfəsində dediyi sözlər qulaqlarında səsləndi.

“Hə, Mehdi, belə-belə işlər. Qisas günü uzaqda deyil! Bu faşist alçaqlarını bircə-bircə Əzrayıla təhvil verməsəm, ürəyim soyumaz! Ah, bircə o günü görə bilsəydim! Nə isə. Ancaq partizan komandirlərinin üçü də – Novlyanko, Dule və Pemts işgüzar, bacarıqlı adama bənzəyir. Hətta Novlyankonu görəndə keçmiş komandirim Yeremenko yadıma düşdü. O da qətiyyətli, cəsur adam idi...”

İstehkam diviziyasının sursat anbarı Ştivana gedən yolun kənarında, Devin qəsrinin üst tərəfindəki sərt yoxuşun başında, şam meşəsinin

əhatəsində yerləşirdi. Çınqıl tökülmüş yoldan yalnız anbarın darvazası və keşikçi görünürdü – obyekt iki metr hündürlüyündə tikanlı məftillə əhatə olunmuşdu.

İlk dəfə idi ki, əynindəki alman forması Mehdidə ikrah doğurmadı. Əksinə, geyim yerinə düşmüşdü. Mehdi və Mirdaməd hərbi hissədən fərarilik edəndə Volçi Qrad kəndi yaxınlığındakı Veynik xutorunda gizlətdikləri motosikletlə yola çıxmışdılar. Yedəkli motosikletləri kəndli Pavel həyətindəki kiçik daxmada gizlədib üstünü samanla örtmüşdü.

Yeni doğmuş ay gecənin ağuşunda nazlı-nazlı xumarlanır, kəhkəşana səpələnib sayrışan ulduzlar sanki bir-birinə göz vururdu. Gecənin qaranlığında yamacdan baxanda Triestdəki evlərin siluetindən başqa heç nə görünmürdü – küçələrdə bir dənə də olsun lampa yanmırdı, müharibə hər yeri zülmətə bürümüşdü.

Onlar dolanbac yolun başında mühərriki söndürdülər. Siqaret yandırıb zülmətə qərq olmuş şəhərə göz qoymağa başladılar. Dənizdən əsən sərin meh özü ilə yosunların, balıqların qoxusunu gətirmişdi. Bu, dostlara aynalı Xəzəri xatırlatdı. Mehdi Triestdə cəmi bir neçə dəfə olmuş və şəhərin gözəlliyi onu valeh etmişdi. Binaların əksəriyyəti neoklassik üslubda tikilmişdi. Bu üslubla hələ Bakıdan tanış idi. Triest körfəzini, sahil bağını görəndə ürəyi dağa dönmüşdü. Buralar necə də Bakıya bənzəyirdi. Doğma şəhəri üçün darıxırdı, düşündü ki, kaş bir günlüyünə qayıdıb Bakını gəzə biləydi... Triestin küçələrində ara-sıra hərbi və polis avtomobillərinin işıqları görünürdü. Mehdi motosikletin farasını yandırmamışdı, yolu yaxşı tanıyırdı, həm də ay işığında hər şeyi ayırd etmək mümkün idi. Torpaq yolla anbarın arxasındakı hündür çəpərə yaxınlaşanda keşikçini duyuq salmamaq üçün yenə faraları yandırmadı.

Mirdaməd isə motosikleti əsas yolla anbara tərəf sürdü. Gecə saatlarında qapını yalnız bir keşikçi – üç kilometr aralıda yerləşən istehkam batalyonunun əsgəri qoruyurdu. Saatın əqrəbləri on biri göstərirdi, keşikçini gecəyarı dəyişəcəkdilər. Mehdi bir saat ərzində planlaşdırdığı təxribatı həyata keçirib aradan çıxmalı idi. Motosikleti çəpərin yanında saxlayıb ağaca söykədi. Hər ehtimala qarşı açarı üstündə qoydu ki, bir hadisə baş versə, mühərriki dərhal işə salsın. Tələsmək onun planına daxil olmasa da, təxribatçılar üçün mövcud olan bütün təlimatlara riayət edirdi. Təlimatlardan biri belə idi: təxribatdan sonra aradan çıxmaq üçün bütün yolları əvvəlcədən müəyyən et!

Pliskovitsadan olan partizan dəstəsinin kəşfiyyatçıları silah anbarı barədə ətraflı məlumat verib, ərazinin dəqiq planını çəkmişdi. Mehdi

təxribat üçün nə qədər mina lazım olduğunu dəqiq müəyyənləşdirmişdi. Partlayıcıları elə yerləşdirməli idi ki, anbar binaları eyni vaxtda havaya sovrulsun. Altı uzun binanın ortasında iri yanacaq çəni qoyulmuşdu. Mehdi bura da mina qoymaq istəyirdi ki, hər şey yanıb kül olsun. Anbarların üstünü sıx küknar budaqları elə örtmüşdü ki, kəşfiyyat aparan ingilis təyyarələri görməsin. Üstəlik, dama tor çəkib üstünə yarpaq səpmişdilər, yarpaqları da günaşırı təzələyirdilər.

Aylı gecənin səssizliyini qəfil əsən küləyin uğultusu pozdu. Mehdi sevindi: partlayışdan sonra külək alovu daha da qızışdıracaq!

Dəri əlcəklərini taxıb fəhlə kombinezonunu geyindi və tikanlı məftilləri aşdı. Geri qayıdanda işini asanlaşdırmaq üçün çəpərin sütununa bağladığı uzun kəndiri açmadı. Bir göz qırpımında anbarlardan birinin divarına çatdı. Əyilə-əyilə bir neçə addım atıb qapının önündə dayandı. Cib fənərini yandırıb zəncirə bağlanmış asma qıfılı yoxladı. Çantasından kəlbətin çıxardıb qapını birtəhər araladı, indi rahat girib-çıxa bilərdi. İçəridən kəskin dəri qoxusu gəlirdi. Mehdi üzərində saat mexanizmi olan birinci minanı burada quraşdırdı, saatın əqrəblərini də birə on iki dəqiqə işləmişə qoydu. Qol saatına baxdı: partlayışa əlli iki dəqiqə qalmışdı.

Anbardan çıxıb qapını elə səliqə ilə bağladı ki, kimsə açıldığından duyuq düşməsin. Bu minvalla digər binalara da mina qoydu. Hər anbardan gələn özünəməxsus qoxuya əsasən burada nə saxlandığını müəyyən etmək mümkün idi. Binaların birində burnuna dadlı qoxu gəldi, həbs düşərgəsində aclıq keçirdiyi günlər yadına düşdü.

“Ay Mehdi, kimin ağlına gələrdi ki, ərzaq anbarını partlatmalı olacaqsan, – düşündü. – Gələcəkdə anbarı partlatmazdan əvvəl gərək içini boşaldaq, partizanlar ehtiyac içində yaşayır, ərzaq işə yarayardı. Təxribat planında mütləq düzəliş etmək lazımdır”.

Axırıncı anbara silah-sursat yığılmışdı, stellajlardakı yeşikləri eşələyib bəzi şeylər götürdü. Alman dəqiqliyi burada da özünü göstərmişdi: yeşiklərin qapağına içindəkilərin dəqiq siyahısını səliqə ilə yazıb yapışdırmışdılar.

Bir yeşikdən mina və detonator, digər yeşikdən isə Vermaxtın yüksək rütbəli zabitləri üçün nəzərdə tutulmuş iki tapança götürdü. Çantada qalmış boş yerə isə patron doldurdu.

“Bu silahları partlatmağa adamın əli gəlmir, – anbardan çıxanda düşündü. – Axırıncı anbarda xeyli ləngidim. Tələsmək lazımdır!”

Gözlənilmədən yük maşınlarının səsi eşidildi. Mehdi boylanıb yola baxdı – hərbi yük maşınları nərildəyə-nərildəyə yoxuşu qalxıb anbara tərəf gəlirdi.

* * *

Mehdinin anbar binalarına mina yerləşdirməsi üçün Mirdaməd gözətçinin başını qatmalı, şəraitdən asılı olaraq onu öldürməli, ya da zərərsizləşdirməli idi. Mehdi anbarın arxa tərəfinə keçəndə Mirdaməd darvazanın təxminən üç yüz metrliyində idi. Karbüratora hava verən borunun qapağını yarıyadək bağladı, mühərrikdən öskürəyə bənzər qəribə səslər çıxmağa başladı. Motosiklet üç yüz metr məsafəni boğula-boğula, birtəhər qət etdi. Darvazanın qarşısındakı yeganə işıq dirəyinin altında dayanmış keşikçi diqqətlə ona baxırdı. Mühərrik sönəndə Mirdaməd almanca deyinib söyüş yağdırmağa başladı:

– Bircə bu donuz oğlu Kraus əlimə keçsin, başına oyun açacağam! Mexanik deyil, eşşəyin dal ayağıdır! Tapşırmışdım, əyləci, bir də karbüratoru yoxlasın. Bəs o neyləyib? Yanımda olsaydı, əngini əzərdim. İndi bu zəhrimarı necə işə salım?

– Sənə nə lazımdır? – gözətçi Vyana faytonçuları kimi kobud tərzdə soruşdu. – Yol kənarındakı nişanı görmədin? İki kilometr radiusda maşın saxlamaq və bura yaxınlaşmaq qadağandır!

– Bilirsən, dost, – Mirdaməd motosikletdən enib sakitcə cavab verdi, – əvvəla, burda dayanmaq fikrim yox idi. Qərargaha tələsirəm, mühüm sənəd aparıram. Burda nə itim azıb?! Onsuz da, baxmalı heç nə yoxdur. Meşənin ortasında balaca lampa asıblar, vəssalam! O da şam kimi közərir, düz demirəm? Motosiklet xarab olmasaydı, dayanmazdım. Başıma gələni görürsən də! Narahat olma, mühərrikdən başım çıxır, beş dəqiqəyə düzəldib gedəcəyəm. Bizim o səfeh Krausdan çox bilirəm! IX diviziya, 223-cü alay, ikinci artilleriya batalyonunun altıncı bölüyündə xidmət edirəm. Bəs sən hansı hissədənsən?

– XII diviziya, 412-ci alay, dördüncü istehkam batalyonunun ikinci bölüyü, feldfebel Adolf Trost! – keşikçi avtomatı çiynınə salıb nəzakətlə cavab verdi. – Adətən, feldfebellər keşikdə dayanmır. Amma mənə cəza kəsiblər. O murdar donuz, zabit Şvartsın əlindən başqa nə gəlir ki?! Kartda uduzdu, dərisini soydum köpək oğlunun, indi də cəzasını çəkirəm! Naryada göndərib ki, bu zəhləmgetmiş anbarın keşiyini çəkim. Bizimkilərə istirahət verib şəhərə buraxıblar, kefdədirlər! Yığışıblar “Çez”ə, gecə klubunu deyirəm, qızlarla yeyib-içirlər. Mən də soyuqdan dona-dona burda it döyürəm! Belə haqsızlıq olar?

– Hə, dostum, müharibəni görüm lənətə gəlsin! Mən də, böyük məmnuniyyətlə, isti yer tapıb başımı soxardım. Pivədən vurub gözəlçələrdən birini ağuşuma alardım. Soyuqda dayanıb hansısa feldfebellə mırt vurmazdım! Feldfebel Trost, unutma ki, leytenantam, sənin kimi ağzından süd iyi gələnin tayı deyiləm! Bizim IX diviziyanın

2-ci artilleriya batalyonunun 6-cı bölüyündə sənin kimiləri qarışqa kimi əzib, heç “uf” da demirlər. Bayaqdan çərənləyirsən, amma özün it iyi verirsən! Məni aldada bilməzsən, posta gəlməzdən əvvəl boğazını yaşlamısan ki, soyuq kar etməsin! Düzdür, rütbən kiçikdir, amma nəzakət xətrinə, suqabındakı içkiyə məni də qonaq edə bilərdin! Yüz faiz əminəm, ora nə su, nə də çay doldurmusan, bizim şanlı alman ordusunun bütün təlimatlarını pozub araq tökmüsən!

– Bəli, cənab leytenant, boynuma alıram, suqabında araq var, amma dibində az qalıb. Axı neçə saatdır postdayam, soyuqdan donuram! Çay adamın bədənini isitmir, ona görə də araqdan qurtum-qurtum vururam. Çarəm nədir? Deyirəm, yaxşı ki, əcdadlarımız bu arağı kəşf edib, yoxsa məhv olardıq!

Feldfebel kəmərinə bağladığı suqabını çıxarıb leytenanta uzatdı. Mirdaməd qabı alanda Trost ayaqlarını birləşdirib farağat dayandı və ucadan dedi:

– Nuş olsun, cənab leytenant, sizin qiymətli motosikletinizin sağlığına! Ha-ha-ha!

Mirdaməd bir qurtum içib dodaqlarını yaladı – həqiqətən araq olduğunu yoxlamaq istəyirdi. Əmin olandan sonra suqabını başına çəkib ruslar kimi əlinin dalı ilə ağzını sildi:

– Hə, feldfebel Trost, bu, başqa məsələ! Əla araqdır! Canıma yağ kimi yayıldı! Hamısını içdim, sənə bir qurtum da saxlamadım. Düzdür, əsgər davada hər şeyə hazır olmalıdır, məsələn, boş suqabı ilə postda dayanmağı bacarmalıdır. Ancaq qəm yemə, bəxtin gətirib. Nişanlım Ziqfrida dünən mənə yazıb ki, valideynləri, nəhayət, evlənməyə razılıq verib. Sənin kimi başıboş, yelbeyin feldfebel təsəvvür edə bilməz ki, mənim Ziqfridam necə gözəldir! Ətli-canlı, qabarıq sinəsi adamın gözünü deşir. Məni elə sığallayır ki, ağlım başımdan çıxır. Bu səbəbdən nişanlımın şərəfinə badə qaldırmalıyıq, mənim suqabımdakı araqdan vuracağıq. İndi görərsən ki, cındır feldfebeldən fərqli olaraq, əsl alman zabiti nə içir!

Mirdaməd özündə olan suqabını feldfebelə uzatdı. Trost məəttəl qalmışdı: Vermaxtda xidmət etdiyi yeddi il ərzində hələ bir dəfə də olsun zabit onu arağa qonaq etməmişdi. Alman zabitləri belə hesab edirdilər ki, aşağı rütbəli hərbçilərin “zabit şərəfi” barədə, ümumiyyətlə, məlumatı yoxdur. Düzdür, zabitlər hərdən öz suqabısını ona verirdi, ancaq içməyə yox, yalnız içini doldurmağı tapşırırdılar. Trost təcrübəli əsgər kimi, qarşısındakı zabiti sorğu-suala tutmadı. İçi yanırdı, ürəyindən içmək keçirdi, qorxdu ki, birdən zabit fikrini dəyişər. Titrəyən əlləri ilə suqabını alıb qapağını açdı. Ağırlığından başa düşdü ki, içi doludur.

Dilinə vurub dadına baxmadı, qoxulamayıb başına çəkdi. Sonra da bərəlmiş gözləri ilə suqabına baxıb qəmli-qəmli dedi:

– Axırına çıxdım, əcəb araqdır, adamın qanına işləyir... Beləsini içməmişdim... – gözləri kəlləsinə çıxdı, nəsə demək istəsə də, macal tapmadı, şappıltı ilə yerə yıxıldı.

Mirdaməd gözətçinin huşsuz vəziyyətə düşdüyünü görüb sevindi. Mehdidən fərqli olaraq, faşistlərə nifrət bəsləsə də, adam öldürməyə meyilli deyildi. Düşünəndə ki, bu zavallı feldfebeli öldürməyə gərək yoxdur, ürəyi sakitləşdi. Dostu və komandiri Mehdi kimi, qəlbi qisas hissi ilə coşub-daşmırdı. Amma cəsurluq və sayıqlıqda Mehdidən heç də geri qalmırdı. Bu vaxt uzaqdan maşın karvanının səsi eşidildi. Hərbi yük maşınları nərilti ilə yoxuşu qalxıb anbara yaxınlaşırdı. Mirdaməd huşsuz vəziyyətdə uzanmış keşikçinin silah və patronlarını götürüb çantasına qoydu, motosikleti işə saldı, faraları yandırmayıb uzaqlaşdı. İşıq dirəyinin altında keşikçidən başqa kimsə qalmadı. Mirdaməd yoxuşun başında motosikleti bir anlıq saxlayıb anbarın qarşısına baxdı. Alman əsgəri ilə dolu üç yük maşını gəlmişdi – silah anbarını qoruyan keşikçini dəyişib digər obyektlərə yollanmalı idilər. Karvanın önündə, adətən, zabitləri gəzdirən "Kübelvagen" gedirdi. Bu, "Folksvagen-juk" modelinin kabrioletə çevrilmiş variantı idi. Anbara yaxınlaşanda "Kübelvagen"in işıqları yerdə uzanmış feldfebelin üstünə düşdü. Yanında ağzı açıq suqabı vardı. Keşikçilərin komandiri, kapitan Şults sürücü Vebranın üstünə elə bağırdı ki, yazığın bağrı yarıldı. Birinci Dünya müharibəsində artilleriya mərmisi partlayanda qulaq pərdələri yırtılmışdı, ağır eşidirdi. Köməkçisinin üstünə qışqırıb dedi ki, gödənini qaldırıb maşından düşsün, anbarın qarşısında nə baş verdiyini öyrənib məruzə etsin. Dolu bədənli, yöndəmsiz köməkçi qalın şüşəli eynək taxırdı, üzünün dərisi də solğun idi. Kapitan onun əlindən zara gəlsə də, birtəhər dözürdü, çünki öz gözləri də pis görür, amma eynək taxmaq istəmirdi. Xüsusi hallarda, məsələn, fahişəxanada məşuqə seçəndə, yaxud qərargah iclaslarında hansısa mühüm sənədi oxumaq lazım gələndə monokldan istifadə edirdi. Döyüş tapşırığına yollananda monoklu özü ilə götürmürdü, köməkçi onun görən gözü, eşidən qulağı idi... Köməkçi qorxa-qorxa yerdə uzanmış keşikçiyə yaxınlaşanda feldfebellər yük maşınlarından düşdülər. Köməkçi bir neçə dəqiqədən sonra sevincək qayıdıb kapitana məruzə etdi:

– Cənab kapitan, icazənizlə bildirim ki, keşikçi feldfebel donuz kimi içib, it iyi verir. Ayağımın ucu ilə tərpətdim ki, görüm sağdır, ya yox? Zalım oğlu, donuz kimi xoruldayır!

– Belə axmaqları hərbi tribunala verib Şərq cəbhəsindəki cərimə batalyonuna göndərmək lazımdır! – kapitan bağırdı. – Ciblərini eşələyib anbarın açarlarını tapın! Əməlli-başlı axtarın!

Kapitanın ağlına bir fikir gəldi: bu axmaq vəziyyətdən istifadə edib əsgərlərin gecə vaxtı ərazidə axtarış aparmaq məharətini yoxlasın. Üç ay əvvəl bu əsgərləri Şərq cəbhəsindən Cənub cəbhəsinə göndərəndə onlar möcüzə baş verdiyini düşünmüşdü. İndi Çividale-del-Frule şəhərindəki kazarmalarda yaşayırdılar. Kapitan bekarçılıqdan özünə yer tapa bilmirdi. Hər axşam zabitlər üçün nəzərdə tutulmuş kazinoda tənha oturub düşünürdü ki, dünya ölüm-dirim savaşı apardığı bir vaxtda əsgərləri ilə birlikdə kazarmada əsnəyir, güllə atmağı da yadırğayıb.

“Belə də müharibə olar?” – yıxılıb qalmış keşikçi feldfebelin ciblərini yoxlayan köməkçisini gözləyə-gözləyə məyus halda düşündü. Sərxoş feldfebel bədənində kiminsə əlinin gəzdiyini hiss edib gözünü açdı, deyəsən, özünə gəlmişdi, amma sərxoşluq dumanı hələ əriyib getməmişdi. Gözləri süzülür, hansısa məşhur alman mahnısını zümzümə etməyə çalışsa da, dili söz tutmurdu. Feldfebelin nə səsi vardı, nə musiqi duyumu. Nəğmənin ilk beş kəlməsindən başqa heç nə xatırlamırdı. Mahnı əvəzinə, zarıltı alınırdı. Feldfebelin ciblərini yoxlayan köməkçinin hərəkətlərini diqqətlə izləyən əsgərlər zarıltını eşidəndə sevindi – deməli, keşikçi sağdır! Kapitan Şults güc-bəla ilə ayağa qalxmış feldfebelə yaxınlaşıb sifətinə bir yumruq ilişdirdi – zümzümə kəsildi, feldfebelin iki dişi sındı, yenidən huşunu itirib yerə sərildi. Kapitanın hirsi soyumadı, bağırdı:

– Səsin yoxdursa, oxuyub zəhləmizi tökmə! – yerdə uzanmış feldfebelin qarnına bir təpik ilişdirdi. Köməkçi isə hələ də sərxoşun ciblərini eşələyirdi.

– Tapdım! Bu da açarlar! – sevincək darvazaya yaxınlaşıb qıfılı açdı. Müharibədən əvvəl maşın təkəri satırdı, mağazanın mal dolu anbarının qapısını gün ərzində dəfələrlə açıb-bağlamağa adət etmişdi. Kapitan Şults ağır addımlarla anbarın qapısına yaxınlaşdı. Beynində hələ də əsgərlər üçün gecə axtarışı ilə bağlı təlim planını götür-qoy edirdi. Nəhayət, ucadan əmr verdi:

– Birinci və ikinci bölmə anbarı yoxlasın, üçüncü bölmə, bu təxribatçını maşının yük yerinə atıb keşiyini çəkin! Gecə yarısına az qalıb, onu başqa keşikçi ilə əvəzləyin!

Feldfebellər kapitanın əmrini dərhal yerinə yetirdi.

* * *

Mehdi anbarın binalarından birinin qapısını örtəndə yoldan maşın səsi eşidib boylandı və faraların işığını gördü. Saatına baxanda anladı ki, ilkin planın həyata keçirilməsi çox vaxt aparıb və partlayışa 26 dəqiqə qalıb. Şam ağacının arxasında gizlənəndən sonra anbarın darvazası önündə dayanmış "Kübelvagen"i gördü. Başa düşdü ki, Mirdamədlə cızdıqları plan pozulub. Yoldaşı üçün narahat deyildi, arxayın idi ki, Mirdaməd anbardan vaxtında uzaqlaşıb. Özünü düşünmürdü, bilirdi ki, partlayışa qədər aradan çıxa biləcək. Qayıdıb yenidən silah və partlayıcı maddələr saxlanan anbara daxil oldu və detonatorun saatındakı əqrəbi 9 dəqiqə irəli çəkdi. Sonra yanacaq çəninin altına qoyduğu tank əleyhinə minanın saatında da düzəliş etdi – silah anbarındakı partlayışdan 3 dəqiqə sonra bu detonator işə düşməli idi. Tikanlı məftillərin yanına qaçıb çəpərdən tullandı və meşəyə qaçıb iri palıd ağaclarından birinin arxasında gizləndi. Bu hündür nöqtədən anbar binaları ovuc içi kimi görünürdü. Əsgərlər anbarları bir-bir yoxlayır, həyətdə ora-bura vurnuxub künc-bucağı axtarırdı. Anbarların yoxlanma üsulu Mehdiyə qəribə göründü. Belə ki, əvvəl əlində fənər tutmuş əsgərlərdən biri qapıya yaxınlaşır, qıfıla diqqətlə göz gəzdirib açır, ehtiyatla içəri girir, sonra da həyətdə gözləyən yoldaşlarını səsləyirdi. Yoxlama bitdikdən sonra feldfebellər həyətə çıxıb qapını bağlayır, bölmə komandiri isə kapitana qıfıl və anbarda hər şeyin qaydada olması barədə raport verirdi. Yalnız bundan sonra feldfebellər digər anbarın qapısına yaxınlaşırdı. Əsgərlər elə ləng tərpənirdi ki, bu, Mehdiyə sürəti azaldılmış kino kadrlarını xatırlatdı. Birdən yadına düşdü ki, sonuncu anbardan çıxanda maşın səsi diqqətini yayındırdığı üçün qıfıl asılmış zənciri yerinə bağlamağı unudub. Saatına baxdı, ilk partlayışa iki dəqiqə qalmışdı.

Əlində fənər tutmuş əsgər sonuncu anbarın qapısına yaxınlaşıb zəncirdən asılmış qıfılın üstünə işıq saldı, diqqətlə baxıb ucadan dedi:

– Diqqət! Anbarın qapısına müdaxilə olub!

Qayda belə idi: keşikçilər növbə çəkməyə başlayanda anbarların qapı və qıfılları yoxlanılır, zabitin nəzarəti altında təhvil-təslim həyata keçirilirdi.

Bölük komandiri olan leytenant əsgərlərə anbarı dərhal mühasirəyə almaq əmri verdi. Ümid edirdi ki, oğrunu iş başında yaxalamaq mümkün olacaq.

Mehdi gizləndiyi yerdən bir az da boylandı: indicə mina qoyduğu anbarın yan-yörəsində çaxnaşma yaranmışdı. Leytenantın amiranə səsi eşidildi:

– *Banditen! Hande hoch!*[1]

Sonra səs-küy kəsildi və leytenantın əmri ilə əsgərlər anbara soxuldu, kimsə avtomatdan havaya atəş də açdı.

Mehdi sanki dayanacaqda avtobus gözləyirmiş kimi çox sakit və arxayın görünürdü. Alman əsgərlərinin indicə daxil olduğu anbardakı minanın işə düşməsinə iyirmi saniyə qalmışdı. Qərara aldı ki, bu təxribatla yanaşı, almanlara bir az da sarsıdıcı zərbə endirsin. İçi tapança və mina ilə dolu olan bel çantasından yeddi əl qumbarası çıxardıb yerə düzdü. Hər əlinə bir qumbara alıb təxminən beş saniyə gözlədi və anbarın qaranlıq həyətinə – əsgərlərin vurnuxduğu yerə atdı. Qumbaralar dörd saniyə ara ilə partlayıb dəhşətli çaxnaşma yaratdı. Mehdinin ürəyi soyumadı, sonuncu qumbaranı da atıb, avtomatına sarıldı, qəfil partlayışdan özünü itirib gizlənməyə yer axtaran əsgərləri gülləyə tutdu. Patron darağını boşaldanda yadına düşdü ki, beş saniyədən sonra anbarlarda və həyətdə yerləşdirdiyi minaların detonatorları işə düşəcək. Gizləndiyi yerdən çıxdı, tullanıb bir göz qırpımında motosikletə mindi, mühərriki işə salmadan yoxuşdan üzüaşağı hərəkətə başladı. Mühərriki işə sala bilərdi, çünki partlayışdan sonra elə dəhşətli gurultu qopmuşdu ki, səsi bir neçə kilometr uzağa yayılmışdı. Motosiklet torpaq yolun sonuna çatanda Mehdi bir anlığa çevrilib anbara baxdı – hər şey od tutub yanır, alov ərşə qalxırdı. Ürəyində partlayışları sayırdı, əmin olmaq istəyirdi ki, detonatorların hamısı işə düşüb. Axırıncı partlayışın səsindən məmnunluq duydu və yoluna davam etdi. Anbarların içində və həndəvərində olan əsgərlərin çoxu ölmüş, ortalıq qan gölünə dönmüşdü. Yaralılar bağırır, sağ qalanlar isə söyüş yağdırıb hara gəldi atəş açırdı.

Təxminən yüz metr gedəndən sonra torpaq yol bitdi, ancaq Mehdi yenə mühərriki işə salmadı. Motosikleti yoldan kənara çəkib iri gövdəli ağaclardan birinə söykədi. Ağacın altı sıx kolluq olduğu üçün motosikleti kimsə görə bilməzdi. Mehdi piyada yoxuşa qalxıb, yamacda kiçik bir tala tapdı – buradan alova bürünmüş anbarlar əla görünürdü. Əvvəl əlcəklərini və kombinezonu çıxartdı, sonra bardaş qurub yerini rahatladı və təxminən bir kilometr aralıdakı yanğına tamaşa etməyə başladı. Bəli, təxribat baş tutmuş, faşistlərə böyük zərbə endirmiş, düşmənə sağalmaz yara vurmuşdu. Siqaret yandırıb dalbadal sümürdü, çantadan binoklu çıxarıb gözünə tutdu. Hadisə yerində xeyli faşist vardı, çaxnaşma səngiməmişdi. Görünür, kapitan kömək üçün əlavə qüvvə çağırmışdı. Mehdinin hesablamasına görə, indi anbarın həyətindəki iri yanacaq çəni partlamalı idi. Belə də oldu – dəhşətli partlayışdan yer-göy titrədi.

---

[1] "Quldur! Əllər yuxarı!" (alm.)

Anbar binaları yerlə-yeksan olmuş, alov hər şeyi çənginə almışdı. Belə dəhşətli yanğında insanın sağ qalması mümkün deyildi.

“Bu yanğın almanlar üçün əsl sürpriz oldu!” – Mehdi düşündü, siqaret kötüyünü yerə atıb tapdaladı, əlcəkləri və kombinezonu büküb bel çantasına qoydu. Bu vaxt uzaqdan maşın karvanının səsi gəldi. Düşmən yenə gecikmişdi. Çantanı belinə taxıb, öz-özünə dedi:

– Bu gün savab iş gördün, Mehdi! İndi əl-ayağını uzadıb rahat dincələ bilərsən!

Mühərriki işə salsa da, faraları yandırmadı, Mirdamədlə əvvəlcədən şərtləşdikləri görüş yerinə yollandı. Ətrafda kimsə yox idi. Buna baxmayaraq, Mehdi asfalta çıxmadı, torpaq yolla getməyi qərara aldı. Əsasən kəndlilərin istifadə etdiyi bu yardımçı yollara yaxşı bələd idi – bir kənddən digərinə gedəndə kimsənin gözünə görünməmək üçün dəfələrlə bu dar yollardan istifadə etmişdi. İndi də bir xeyli gedib Verniklər ailəsinin kəndin kənarında yerləşən fermasına çatdı. Bir müddət əvvəl Pavel Vernikovun oğlu ilə birlikdə burada xəlvəti çala qazıb benzin çəlləyi basdırmışdı. Fermanın qapısı ağzında Mirdamədi sağ-salamat siqaret çəkən görəndə ürəkdən sevindi. Deməli, dostu vaxtında aradan çıxa bilmişdi.

Motosikleti fermanın həyətinə sürüb Mirdamədin yanında saxladı – təkərlə dostunun ayağı arasında təxminən üç santimetr məsafə qaldı. Mirdaməd heç gözünü də qırpmadı, Mehdiyə, onun motosikleti məharətlə idarə etmək bacarığına yaxşı bələd idi. Hərdən zarafatla deyirdi ki, “deyəsən, anadan motosikletçi kimi doğulmusan!”

– Ay Mirdaməd, axı belə danışmamışdıq! – Mehdi zarafatından qalmadı. – Demişdin ki, anbarda bir keşikçidən başqa kimsə yoxdur. Bəs nə oldu? Bir dəstə faşisti üstümə atıb getdin. Gərək bağışlayasan, anbarla birlikdə onlara da od vurdum. Adam əvvəlcədən xəbərdarlıq eləyər də! – Mehdi qəhqəhə çəkdi. – Amma, ay Mirdaməd, bir görəydin, az qalmışdı şalvarlarını batırsınlar! – Ciddi görkəm alıb əlavə etdi: – Partizan kəşfiyyatçılardan xahiş etmək lazımdır ki, ölü və yaralı sayını dəqiq öyrənsinlər, görək, əlimizi bulamağa dəyərdi, ya yox? Nə isə, uğurlu əməliyyat münasibətilə səni təbrik edirəm! – Mehdi əlini dostunun çiyninə qoyub motosikletdən düşdü.

İkitəkərli maşınları fermanın həyətindəki kiçik daxmada, ot tayasının içində gizlətməyi qərara aldılar. Mirdaməd dedi:

– Əziz dostum, anbarı məcburən tərk etdim, amma sənə görə ürəyim ağrıdı, narahat oldum. Alman maşınları yaxınlaşıb məni anbarın qapısında görsəydilər, həbs edəcəkdilər. Bilirdim, uzaqdan hər şeyi görüb eşidirsən. Arxayın idim ki, həmişə olduğu kimi, bu dəfə də işi sona çatdırıb vaxtında aradan çıxa biləcəksən...

– Bəs o yazıq keşikçinin başına nə oyun açmısan? – Mehdi maraqlandı. Mirdamədin köməyi ilə zabit formasını soyunub, qəhvəyi paltarını geyindi. Ümumiyyətlə, Mirdaməd hər işdə dostuna yardımçı olurdu. Bəzən Mehdiyə deyirdi ki, "sən xırda məsələlərə baş qoşma, onları mənim öhdəmə burax, özün isə düşün, yeni təxribat planları hazırla!"

– Hər şey düşündüyümdən də asan oldu, Mehdi. Amma anbarı qoruyan o keşikçiyə yazığım gəlir. Yəqin, düşünür ki, "kaş güllələyəydilər, indi başım bəlalar çəkəcək – hərbi tribunala verib Şərq cəbhəsindəki cərimə batalyonuna göndərəcəklər!" – Mirdaməd təəssüflə əlavə etdi.

– Onun üçün artıq fərqi yoxdur: hara göndərəcəklər, kim öldürəcək? Taleyinə yazılmışdı ki, qarşısına sən çıxasan, belə də oldu! Qismətdən kim qaça bilər? Nə isə, ardını danış! – Mehdi jileti geyinə-geyinə dedi.

Mülki paltarının gündəlik səliqə-sahmanına dərzi Olqa baxırdı. Mehdiyə yaraşan köynəklər seçir, bəzən alverçilərdən ucuz qiymətə bahalı parça alıb kostyum, gödəkçə tikirdi.

– Ehtiyac yaransaydı, gözətçini vurardım. Pis adam deyildi, hətta məni arağa qonaq etdi. Mən də borclu qalmayıb ona araq verdim. Amma deməyi unutdum ki, suqabımın içindəki 95 faizli tibb spirtidir. Mən gələnə qədər bir az vurmuşdu, kefikök idi, spirti içəndə gözləri kəlləsinə çıxdı, rəngi ağardı, dili tutuldu, huşunu itirib şappıltı ilə yerə dəydi. Elə bildim ölüb. Faşistlərdən fərqli olaraq, biz meyitə güllə atmırıq. Bir də gördüm maşınlar gəlir, tez aradan çıxdım!

– Afərin Mirdaməd, düz eləmisən! Bəxtimiz gətirdi. Gərək bir-iki həftə gözə görünməyək, heç motosikletə də minməyək. O sərxoş feldfebel özünə gələndən sonra motosikletli alman zabiti barədə ifadə verəcək. Yaxşı ki, əkiz qardaşlar kimi bir-birimizə bənzəmirik, yoxsa faşistlər bizi səhv salardı. Qarşıda mühüm döyüş tapşırıqları var. Novlyanko və Dulenin göstərişi ilə dəmir yolunu partlatmalıyıq. Motosikletləri etibarlı yerdə gizlətməliyik, bizə hələ çox lazım olacaq. Dəmir yolunu partlatmaq su içmək kimi asandır. Bunu adi partizan da bacarar. Ora motosikletlə getməyin nə mənası var, düz demirəm? Həm də piyada gəzmək cana xeyirdir. Xüsusən də indi, yazın ılıq nəfəsi duyulanda. Hərdən düşünürəm, müharibə insanlara bədbəxtlik gətirməklə yanaşı, yaxşı şeylər də bəxş edib. Məsələn, dava olmasaydı, motosiklet sürməyi heç vaxt öyrənməzdim, ya da Qrats hospitalında mələk simalı tibb bacıları ilə tanış olmazdım, Triest kimi gözəl şəhəri görməzdim. Bəyəm dinc həyatda hər şey yağ kimi gedir? Bəzən müharibə insan həyatının müəyyən məqamlarını yaxşılığa doğru dəyişir. Eh, hərdən yaxşı hesab etdiyin şey axırda pis çıxır, ya da əksinə! Görünür, insanlar yalnız keçmişə qiymət verə bilər, bunun üçün əvvəlcə

keçmişi yaşamaq lazımdır. Mirdaməd, indi bizim üçün ən yaxşısı həşərata bənzəyən bu faşistləri əzməkdir! Bu ərazidən müvəqqəti uzaqlaşsaq yaxşıdır. Axı növbəti tapşırığı dənizdən uzaqda, bu gözəl ölkənin mərkəzində yerinə yetirməliyik. Sonra hər şeyi izah edərəm...

## XII

Pavel Podalın arvadı qarabaşaq sıyığı bişirmişdi, evdə olanı qazana töküb qarışdırmışdı. Şərab içəndən sonra hamının dili açıldı, gecədən xeyli keçənədək söhbət etdilər. Mehdi və Mirdaməd həyətdəki daxmaya yatmağa getdi – samanlıqda uyumağın başqa ləzzəti vardı, həm də ev sahibini təhlükə altında qoymaq istəmirdilər. Hər ikisi hələ də silah anbarındakı təxribatın təsiri altında idi, uzun müddət yuxuya gedə bilmədilər. Mehdi isə artıq beynində növbəti təxribatın planını cızırdı – dəmir yolu körpüsünü partlatmağı düşünürdü. Elə etmək lazım idi ki, faşistləri daşıyan qatar körpüdən keçəndə partlayıcı qurğu işə düşsün.

– Almanlar körpünü ciddi qoruyur, giriş-çıxışında bunker qurublar. Ona görə piyada yolla körpüyə yaxınlaşmaq mümkün olmayacaq. O gün motosikletlə seyrə çıxmışdım, xeyli gəzib-dolaşdım, növbəti təxribat üçün hədəf, daha doğrusu, körpü axtarırdım. Çayın nisbətən dayaz yerindən kiçik bərələrin keçdiyini gördüm. Mirdaməd, minaları qayığa qoyub, körpüyə yaxınlaşmaq lazımdır. Əgər ay işıq salmasa, bizi görən olmaz. Düzdür, körpüdəki elektrik dirəklərindən lampalar asılıb, amma biz bu işi həll edərik. Sahilin yuxarı tərəfində balıqçı qayıqları gördüm, xahiş edib birini götürərik. Uşaqlıqda at çapmağı, avar çəkməyi, balıq tutmağı, bir də sualtı üzgüçülüyü sevirdim. Əgər imkan düşsə, yolüstü balıq da tutarıq.

– Ay Mehdi, səninki də elə balıq olsun...

– Hə, özü də ikiayaqlı, alman dilində danışan balıqları tutmaqdan xoşum gəlir!

Yuxuya getməzdən əvvəl Mehdi təsəvvüründə belə bir mənzərə canlandırdı: içi faşistlə dolu vaqonlar körpüdən aşıb çaya düşür. Mirdamədin də gözünə yuxu getmirdi – Bakıda qoyub gəldiyi əzizləri barədə düşünürdü. Doğma şəhəri üçün darıxırdı, ürəyinə dammışdı ki, nə o, nə də Mehdi, bu şəhəri bir daha görməyəcək. Bədbin fikirləri özündən uzaqlaşdırmağa çalışıb səhərki əməliyyat barədə fikirləşdi...

Partizan rabitəçisi, Pliskovitsadan olan Stankonun əmisi Müqəddəs Peter kəndindəki dəmir yolu stansiyasının rəisi idi. Mehdi ondan öyrəndi ki, sabah saat 23.03 dəqiqədə Zaltsburqdan gələn “Herman Görinq” adına SS tank diviziyasını daşıyan qatar körpüdən keçəcək.

Diviziyanı Monte Kassino yaxınlığındakı cəbhəyə gətirirdilər – burada müttəfiqlərin ordusu ilə alman qoşunları arasında ağır döyüşlər gedirdi. Faşistlər Şərq cəbhəsində olduğu kimi yalnız geri çəkilsə də, İtaliyanı əldən buraxmaq istəmir, hər qarış torpaq uğrunda qan tökürdülər. Almanlar müharibəni çoxdan uduzmuşdu. Mehdi bunu hələ Moskva ətrafındakı döyüşlərdə faşistlərin ilk böyük məğlubiyyətindən sonra başa düşmüşdü. Bununla belə, onların ən kiçik uğursuzluğu barədə eşidəndə sevinirdi. O, rəssam ruhlu, ehtiraslı adam idi. Ömrü boyu tapşırılan işi həvəslə, dəqiq və mükəmməl yerinə yetirməyə çalışırdı. İndi də faşistlərdən intiqam almaq üçün bütün bilik və bacarığını səfərbər edirdi. Faşistləri qırmaq onun üçün rəssamlığı, ədəbiyyatı və musiqini sevmək kimi xoş bir məşğuliyyətə çevrilmişdi.

İri SS diviziyasını məhv edib dünyanı bir qrup qaniçəndən xilas etmək həvəsi ilə tezdən yuxudan oyandı. Səhər yeməyi zamanı Mirdamədi tələsdirib dedi ki, vaxt azdır, getmək lazımdır. Qonaqpərvər Pavel və onun gülərüz ailəsi ilə səmimi xudahafizləşib dağlara doğru yollandılar. Sıldırım qayaların arası ilə təxminən bir saat yol getməli idilər. Mülki paltar geymiş, çantalara mina, silah və qumbara yığmışdılar. Mehdi avtomatı və tapançanı həmişə yanında gəzdirir, onları “ayrılmaz dostlar” adlandırırdı. Nanos dağına qalxmaq xeyli vaxt apardı. Əlçatmaz sərt qayalara keçi kimi dırmaşırdılar, ani diqqətsizlik faciə ilə nəticələnə bilərdi. Dağın başından Vıpav vadisinə gözəl mənzərə açılırdı – vadi sanki ovcunun içində idi, suyu gümüşü rəngə çalan çay ilan kimi qıvrılıb üfüqə doğru uzanırdı. Yorulmuşdular, dincəlməyi qərara aldılar. Mirdaməd tövşüyə-tövşüyə dedi:

– Motosikletlə getsəydik, yaxşı olardı...

– Əziz dostum, əgər dünən o keşikçi feldfebelin canını alsaydın, biz bu gün çəkinmədən motosikletə minib, dağ yollarında rahat gedərdik. Amma iş elə gətirib ki, piyada getməyə məcburuq. Bu gün, yəqin, hər yerdə faşistlər gücləndirilmiş postlar qurub, motosikletçiləri bir-bir yoxlayır. Piyada getməyimiz məsləhətdir, onsuz da, körpüyə gecə çatacağıq. Bir dik yoxuşumuz qalıb, onu keçmək çətin olacaq. Mirdaməd, fikir ver, bura əsl cənnətdir, həbs düşərgəsində, hospitalda keçirdiyim ağır günlərdən sonra belə səfalı yerlərdə dolaşmaq qəlbimə rahatlıq gətirir.

– Haqlısan, mən də burda özümü yaxşı hiss edirəm. Almanlar özlərini ali irqə mənsub xalq sayır, amma onların sevdiyi hərbi formada gəzəndə bədənim qaşınır, elə bil insan yox, vəhşiyəm!

– Bunu əla dedin, Mirdaməd. Özünü ali irqə mənsub sayanlar, əslində, insanlıqdan uzaqdır, heyvandan heç nə ilə fərqlənmir. Faşistlərin də, ilk baxışda, bizim kimi, ağzı, burnu, gözü, qulağı var. Ancaq bu

vəhşilərlə yaxından tanış olanda görürsən ki, onların bir orqanı çatmır. Bu, sevgi, mərhəmət və nəciblik hissi doğuran ürəkdir! Məncə, faşistlər təkamülün səhvi nəticəsində yaranan vəhşidir.

– Əlbəttə, belə vəhşilər hər yerdə var, elə bizim Sovet İttifaqında da! – Mirdaməd bu sözləri xüsusi vurğuladı. – Məsələ burasındadır ki, dəfələrlə nəcib almana rast gəlmişəm, hətta eləsi olub, məni ölümdən qurtarıb! Bəs buna nə deyirsən? Hər xalqın içində yaxşısı da var, pisi də! Məncə, hamıya eyni gözlə baxmaq düzgün deyil. Sözümün canı budur ki, faşistlərin arasında ağıllı, mərhəmətli, sağlam düşüncəli adamlar çoxdur.

– Eh, dostum, almanların əsir düşərgəsini görməmisən, dəhşətli işgəncələrin nə olduğunu bilmirsən...

– Hardan bilim? Almanlar sanitar olduğumu öyrənib fəhlə batalyonuna göndərdi. İşgəncə verməyib xoş rəftar edirdilər.

– Mirdaməd, o işgəncələri heç düşmənimə də arzulamıram. Həbs düşərgəsində günlərlə ac-susuz qalmaqdan, yoldaşlarına işgəncə verib lağa qoyan o qansızların qəhqəhəsini eşitməkdən dəhşətli heç nə yoxdur! Faşizmin iç üzü, iyrənc mahiyyəti bundan ibarətdir! Yoldaşını döyüb söyür, üz-gözünü qana bulayır, sənin isə əlindən heç nə gəlmir. Bəlkə də, sevinməlisən ki, səni yox, onu incidirlər, amma ən dəhşətlisi də budur! Hə, nəfəsimizi dərdik, yolçu yolda gərək!

Ağır bel çantaları olmasaydı, sıldırım qayaya asanlıqla dırmaşardılar. Bir saat ötdü. Nəfəs dərib dincəlmək istəyəndə Mirdaməd bildirdi:

– Mehdi, bayaqdan ürəyimdə götür-qoy edirəm, gərək o feldfebeli güllə ilə vuraydım. İndi keçi kimi dağa dırmaşmazdıq, motosikletlə gedərdik.

– Müharibədə hər şey baş-ayaqdır, dostum. Bəzən göstərdiyin mərhəmətin altını çəkirsən. Rəqiblə amansız rəftar etməyə borclusan, tərəddüd etsən, sağ qalmaq şansın sıfıra bərabər olacaq. Gərək düşmənə yazığın gəlməsin – bu, müharibənin qanunudur! Demirəm ki, faşist kimi qəddar ol, amma amansızlıqda ondan geri qalma! Düşmənə yox, yoldaşlarına yazığın gəlsin, onlara mərhəmət göstər! Mirdaməd, bəxtimiz gətirib ki, güclü, nizamlı partizan ordusu müttəfiqimizə çevrilib. Bir azdan Nanos dağının arxasındakı Strane kəndinə çatacağıq. P-15 postundan göndərilmiş rabitəçi bizi gözləyir. Körpüyə yaxın kənddə yaşayan digər rabitəçi ilə də görüşəcəyik. Səni sevindirmək istəyirəm, Prestranek kəndinə yük maşını ilə gedəcəyik. Piyada çətin olardı, gecəyə ancaq çatardıq, həm də yolu qar basıb. Darıxma, tezliklə aşırıma çatacağıq. Amma, öz aramızdır, buranın əcəb seyrangahı var, əlini uzatsan, sanki buludlara çatar...

Nanos dağının zirvəsi qalın qar örpəyinə bürünmüşdü. Dostlar çətinliklə də olsa, zirvəyə çatdılar. Buradan şimal tərəfdəki Trnovo meşəsinə füsunkar mənzərə açılırdı. Yaşıl vadidən əsən cənub küləyi aşırımı çənginə almışdı. Aşağıdakı kəndlərdən kilsə zənglərinin səsi eşidilirdi. Dağın zirvəsində günorta istisinə dözmək çətindir: əvvəla, oksigen çatışmır, digər tərəfdən, günəş şüaları dərini yandırır, bəyaz qarın parıltısı göz qamaşdırır. Mehdi və Mirdaməd sıldırım qayanın kölgəsində dincələndən sonra aşırımla enməyə başladı. Hər ehtimala qarşı, yanaşı yox, bir-birindən iyirmi-otuz addım aralı gedirdilər. Mehdi qarda dizəcən bata-bata cığır açır, Mirdaməd isə, necə deyərlər, arxa cəbhəni qoruyurdu. Yarım saatdan sonra yerlərini dəyişdilər. Qarlı cığırda biri digərinin ləpirini basa-basa gedirdi. Bu, partizanların əl atdığı hiylələrdən biri idi: kimsə sonradan baxsa, buradan bir, yaxud iki adamın keçdiyini anlaya bilməsin. Ancaq faşistlərin bu yüksək dağ aşırımında peyda olması ehtimalı sıfıra bərabər idi. Sərt qayaların baş-başa verdiyi keçilməz dağ yamaclarında, insan ayağı dəyməmiş əsrarəngiz meşələrdə, ayıların və qartalların hökmranlıq etdiyi məkanda partizan axtarmaq almanların ağlına da gəlməzdi.

Strane kəndinin girəcəyindəki evdə rabitəçi Tine ilə görüşdülər. Nahar vaxtı idi, sadə kəndli evində açılmış süfrə arxasına keçdilər. Qarabaşaq unundan hazırlanmış dadlı kökə Mehdinin çox xoşuna gəldi. Duz-çörəyə görə qonaqpərvər Smolelər ailəsinə təşəkkür edib xudahafizləşdilər. Tine də onlara qoşuldu və hər üçü Qruşeve kəndinə gəldi. Müqəddəs Pyotr kəndindəki qəssab dükanına məxsus ətdaşıyan maşın partizanları gözləyirdi. Mehdi və Mirdaməd sürücünün yanında əyləşdi, Tine isə qətiyyətlə bildirdi ki, yük yerində – soyuducuda gedəcək. Donmaqdan qorxmurdu, dedi ki, yol qısadır. Hətta silahının yağ sürtülmüş detallarının dona biləcəyi də Tineni narahat etmirdi: İtaliya istehsalı olan tapança-avtomatın yağ sürtülmüş detalları soyuğa davamsız idi. Kəndarası yollarla təxminən iki saata Prestranka kəndinə çatdılar. Müqavimət hərəkatında rabitəçi funksiyasını yerinə yetirən ev sahibi Tone qonaqları səmimi qarşıladı. Odun sobası qalanmışdı, ev isti idi. Rabitəçi Tine qızınmaq üçün sobaya yaxın oturdu, ev sahibi onlar üçün qəlyanaltı süfrəsi açıb arağa qonaq etdi.

Hava qaralanda rabitəçi Tine getdi, Mehdi isə ev sahibi Tone ilə Pivki çayının sahilinə gəldi. Rabitəçi ona körpünün ətrafında almanların qoruduğu bütün əraziləri göstərdi. Qış ayları olsa da, çayda suyun səviyyəsi yüksək idi. Bu, Mehdiyə əvvəlcədən planlaşdırdığı kimi qayıqdan istifadə etməyə imkan verirdi. Tone bildirdi ki, çayda su nadir hallarda artır. Sonra onlar müqavimət hərəkatının daha bir fəal

üzvü – elektrik Tine ilə görüşdülər. Razılığa gəldilər ki, Tine saat 21.33-də körpü ətrafındakı bütün kəndlərdə elektrik enerjisini on beş dəqiqəlik kəsəcək. Bu, şübhə doğurmamalı idi, çünki müharibə gedən ölkədə, onsuz da işıqlar tez-tez kəsilirdi. Çox güman, almanlar elektrik enerjisində fasilə yarandığı üçün körpünün mühafizəsini gücləndirməyəcək. Keşikçilər qaranlıqda qayığın körpüyə yan almasını görməyəcək. Ümumiyyətlə, Mehdi təxribat əməliyyatı planlaşdıranda düşmənin diqqətini yayındıra biləcək əlavə tədbirlərin nəzərdə tutulmasına üstünlük verirdi...

Rabitəçi Tone oğlu ilə birlikdə çaydan balıq tutmuşdu. Şam yeməyində süfrəyə ocaqda qızardılmış qızıl balıqla əla ev şərabı veriləndə Mehdi düşündü ki, dünyada baş verən dəhşətlərə baxmayaraq, həyat gözəldir. Haqq-ədalətin bərpası missiyası isə onun – qisas və ölüm mələyinin üzərinə düşür. Mehdi və Mirdaməd ev sahibinə qonaqpərvərliyə görə təşəkkürlərini bildirdilər, bel çantalarını götürüb qaranlıqda gözdən itdilər.

Küləyin şimal-qərbə qovduğu buludlar qaranlıq kəhkəşana sanki çətir çəkmişdi, ulduzlar görünmürdü. Mehdi sahilə aparan cığırı dərhal tapdı. Səhər rabitəçi ilə buraları qarış-qarış yoxlamışdı. Tone qayıq seçməkdə kömək etmiş, onu sahildə hansı ağaca bağlamağı göstərmişdi. Qayıq çayın burulan yerindən bir az aralıda idi və körpüdən görünmürdü. Mehdi və Mirdaməd qayıqla qarşı sahilə keçib, kolluqda gizləndi. Qayığı sahil dirəklərindən birinə bağladılar. Mehdi dörd ədəd minanı quraşdırıb hazır vəziyyətə gətirdi. Dəmiryol körpüsü çox uzun deyildi, altından axan çayın bu hissəsi dayaz idi. Mehdi dilxor oldu, çünki dəfələrlə xəyalında belə bir mənzərə canlandırmışdı: körpü partlayır, SS zabitlərini daşıyan vaqonlar, hərbi texnika çaya tökülür, faşistlər boğulur!

Pivka çayı geniş olmasa da, körpü mühüm strateji əhəmiyyət daşıyırdı – Triestə gedən yeganə dəmir yolu buradan keçirdi. Almanlar Cənub cəbhəsini gücləndirmək üçün diviziyaları İtaliyaya məhz bu yolla daşıyırdı. Xətt həm də Reka şəhəri ilə Kvarneri adasını birləşdirirdi. Adada almanlarla partizanlar arasında ağır döyüşlər gedir, faşistlər cəbhə xəttinə yeni qüvvələr cəlb edirdi. Deməli, körpü düşmən üçün çox qiymətli idi və onu gecə-gündüz göz bəbəyi kimi qoruyurdu. Körpünün giriş-çıxışındakı bunkerlərdə atəş nöqtələri qurulmuşdu, bundan əlavə, körpü ilə yol kəsişməsini silahlı altı əsgər qoruyurdu, Mantenya Bas kəndi yaxınlığında isə polis bölüyü vardı. Üç kilometr aralıda – Peteline kəndində alman moto-piyada batalyonu yerləşirdi. Bu günə qədər müttəfiqlərin hərbi aviasiyası körpünü yalnız bir dəfə

mərmi atəşinə tutmuşdu. Ətraf ərazilərin hava məkanını Postoynada quraşdırılmış zenit qurğuları qoruyurdu. Sıx meşə zolağı körpünü müttəfiq aviasiyası üçün görünməz edirdi.

Mehdi ilk dəfə on gün əvvəl, kəşfiyyat üçün zabit formasında motosikletlə körpüyə yaxınlaşanda çayda suyun səviyyəsinin azaldığını görüb qərara gəlmişdi ki, təxribat üçün uyğun zamanı gözləmək lazımdır.

Minalar hazır olanda partlayışa bir saatdan da çox vaxt qalmışdı. Mehdi dostuna söz verdiyi kimi, səhər qayığa qoyduğu tilovu çıxartdı, qarmağın ucuna soxulcan keçirib suya tulladı. Yarım saat gözləsə də, qarmağa heç nə düşmədi. Elektrik enerjisinin kəsilməsinə on dəqiqə qalmış Mehdi gülə-gülə Mirdamədə dedi:

– Əslində, biz bura balıq tutmağa yox, faşistlərin başını əzməyə gəlmişik. Onları cəhənnəmə yollamağın tam zamanıdır. Təklif edirəm, yavaş-yavaş körpüyə tərəf üzək, projektorun işıq salmadığı yerə! Suyun üstünə sallanmış budaqların arxasında gizlənək.

Avar çəkməyə ehtiyac qalmadı, qayıq axara düşüb yavaş-yavaş körpüyə yaxınlaşdı. Yuxarıda, körpünün üstündə iki silahlı keşikçi var-gəl edirdi. Avtomatı çiyinlərindən aşırmışdılar, siqaret çəkib söhbət edirdilər. Mehdi küləyin qırıq-qırıq gətirdiyi alman sözlərini güc-bəla ilə eşidirdi. Saata baxdı – elektrik enerjisinin kəsilməsinə bir dəqiqə qalmışdı. Mirdaməd avar çəkdi, Mehdi isə minaları götürdü. Körpüyə yaxınlaşanda qəfildən işıqlar kəsildi. Ətrafı bürümüş zülmət keşikçiləri çaşdırdı. Məhz bu an qayıq körpünün altına girdi. Mirdaməd qayığı körpünün birinci dayağına yönləndirdi. Artıq keşikçilərin danışığı aydın eşidilirdi. Faşistlər qayığın yaxınlaşmasından duyuq düşmədi. Mehdiyə yeddi dəqiqə kifayət etdi ki, minaları körpünün dörd dayağının altında yerləşdirsin. Sonra çay boyu aşağı üzdülər. Mehdi detonatorun elektrik naqilini əlində tutmuşdu, sahilə yan alan kimi naqilin ucunu detonatora birləşdirdi. Mirdaməd qayığı sahilə çəkib ağaca bağladı – bu yeri rabitəçi nişan vermişdi.

Buradan körpü əla görünürdü, projektorlar yenə ətrafa işıq salır, keşikçilər də əvvəlki kimi söhbət edə-edə relslərin kənarı ilə gəzişirdi.

Partlayış üçün hər şey hazır idi, partizanlar qatarın yaxınlaşmasını gözləyirdi. Mehdi yenə də tilovu götürüb qarmağı suya tulladı.

– Kimsə bizi görsə, deyərik ki, balıq tutmağa gəlmişik, ha-ha-ha! – sakitcə güldü. Bu vaxt tilovun dartıldığını hiss etdi. Qaldıranda qarmaqda iri durnabalığının çapaladığını gördü. Mirdaməd avarla balığın başından vurdu. Mehdi yenə saata baxdı, qatarın yaxınlaşmasına, ən azı, beş dəqiqə qalmışdı. Yenidən qarmağa yem taxıb suya tulladı. Tilov bir göz qırpımında yenidən dartıldı – bu dəfə qarmağa qızıl balıq düşdü.

– Görürsən, Mirdaməd, faşistləri də bircə-bircə bu cür ovlamaq lazımdır. Bəxtimiz gətirdi, bu gün şam yeməyinin dərdini çəkməyəcəyik. Ev sahibi süfrəyə bir şüşə şərab da qoysa, əla olar, çünki balıq yeyib üstündən şərab içməyin başqa ləzzəti var. Yerlilər arasında bir zərb-məsəl dolaşır: balıq üç dəfə üzməlidir – əvvəl suda, sonra yağda, axırda da şərabda! Bu faşist qatarına əncam çəkəndən sonra balığı ocaqda qızardarıq. Hə, deyəsən, qatarın səsi gəlir! Dostum, bu körpü onların son mənzili olacaq!

Mirdaməd də təkərlərin taqqıltısını eşitdi – səs zülməti yarıb dalğa-dalğa ətrafa yayılırdı. Onlar sol sahildə gizlənmişdi, qatar isə sağ tərəfdən gəlirdi. Əvvəlcə parovoz göründü, körpüyə daxil olanda adəti üzrə uzun fit verdi. Bu, Mehdi üçün sanki işarə idi – əməliyyat başladı! Parovozun keçməsini gözlədi, vaqonlar körpünün ortasına çatanda partlayıcı qurğunun düyməsini basdı. Əsas zərbənin qatarın orta hissəsinə düşməsini planlaşdırmışdı, çünki orta vaqonlarda, adətən, zabit heyəti gedirdi. Birinci vaqon körpünün başına çatanda dəhşətli gurultu qopdu – dörd dirək partladı, hərbi texnika və şəxsi heyəti daşıyan vaqonlar çaya uçdu.

Dostlar əməliyyatın uğurla başa çatdığını görüb aradan çıxdı. Mehdi müvəqqəti istifadə üçün götürdüyü tilovu qayığın içinə qoydu. Dostlar Tonenin səhər göstərdiyi cığırla yaxınlıqdakı meşəyə qaçdı. Şərtləşdikləri yerdə elektrik Tine ilə görüşdülər. Tine onları partizan postuna ötürməli idi.

Mehdi əvvəlcə Tineyə işığı vaxtında kəsdiyi üçün minnətdarlığını bildirdi. Elektrik sevinclə cavab verdi:

– Əksinə, mən öz təşəkkürümü bildirməliyəm! Əvvəla, faşistləri məhv etdiyinizə görə çox sağ olun, ikincisi, ürəyimdən tikan çıxardınız! Qatarın partladığı anı heç vaxt unutmaram! Belə mənzərəni hətta kinoda da görmək mümkün deyil. İlahi, faşistlər vəhşi heyvan kimi necə də bağırırdılar! İnanmıram, ordan sağ adam çıxsın! Təbrik edirəm, yoldaşlar! İndi isə, necə deyərlər, yolçu yolda gərək! Postda yatıb dincələrsiniz...

Mehdi qaranlıq cığırda ayağının altına baxmadan irəliləyir, Tine və Mirdaməd də arxasınca gəlirdi. Partlayan körpü və vaqonların çaya düşməsi gözləri önündən çəkilmirdi. Tine haqlı idi, belə anlar heç vaxt unudulmur! Fermaya çatanda əla şam yeməyi artıq onları gözləyirdi. Sobada qızardılmış durna balığı və qızıl balıqdan doyunca yeyib, şərab içdilər. Tine ev sahibinə baş verənləri nəql edəndə o, sevincək anbara enib onillik meyvə arağı gətirdi. Mehdiyə, əsl qəhrəman kimi, çarpayıda yumşaq yataq ayırdılar – ev yiyəsinin nənəsi ortancıl oğlunun yanına

qonaq getmişdi, çarpayısı boş idi. Mehdi yuxuya getməzdən əvvəl uğurlu əməliyyatlar barədə komandir Duleyə necə raport verəcəyini düşündü. Sonra növbəti əməliyyatların planı barədə fikirləşdi. Bu dəfə daha ciddi təxribat törədib adının qəzetlərə düşməsini istəyirdi. Hiss edirdi ki, Triest onun üçün növbəti döyüş meydanına çevrilib və hələ bir müddət dəniz sahilində qalacağına sevinirdi.

Amma bir məsələni yoluna qoymalı idi – legioner yoldaşlarını faşistlərin məngənəsindən azad edib partizanların yanına, Qradnik briqadasına aparmaq! Qradnik briqadasının komandiri Stanko, siyasi komissarı isə Strela idi. Tapşırığın yerinə yetirilməsi barədə raport verəndə onlar ürəkdən sevinib Mehdiyə təşəkkür etdi. Xüsusən gətirdiyi hədiyyə – alman zabitlərinin gəzdirdiyi Valter P-38 markalı tapança partizan komandirlərinin ürəyincə oldu. Sonra Mehdi Opçina kəndi, Triest və Türküstan diviziyasındakı vəziyyət barədə ətraflı məlumat verib təklif etdi ki, Mirdamədlə Opçina kəndinə qayıdıb, gənclər arasında təbliğat aparsın, onları partizanların tərəfinə keçməyə sövq etsin. Briqada komandiri və siyasi komissar Mehdiyə, Mirdamədə böyük inam bəsləyirdi, təkliflə razılaşıb Pliskovitsa kəndinə getmək üçün onlara keşikçi dəstəsi ayırdılar. Mehdi P-15 postunun rabitəçiləri, Pliskovitsa kəndində müqavimət hərəkatı gənclər təşkilatının qadın üzvləri, Opçina kəndində yaşayan dərzi Olqanın köməyi ilə fəal gənclərlə əlaqə yaratmağa müvəffəq oldu. Eyni zamanda, Türküstan diviziyasındakı legionerlər arasında da təbliğat işini gücləndirdi.

Onlar Pliskovitsa və Veliki Dol kəndlərində özlərini təhlükəsiz hiss edirdi, Opçina kəndində isə ehtiyatı əldən vermək olmazdı, burada alman qarnizonu yerləşirdi və faşistlər hər şeydən xəbər tuta bilərdi. Türküstan diviziyasında elə bilirdilər ki, Mehdi döyüşlərin birində qəhrəmancasına həlak olub, Mirdamədin adı isə fərarilik edib partizanlara qoşulan xainlərin siyahısında idi. Şübhəsiz, alman hərbi polisində Mirdamədin fotosu vardı. Bu səbəbdən, Opçina kəndində hər ikisi yalnız mülki geyimdə gəzir, fəallarla əlaqə isə rabitəçilərin vasitəsilə həyata keçirilirdi. Bundan başqa, dostlar dəfələrlə Devin kəndində olmuş, Mirdaməd burada keçmiş legioner dostları ilə əlaqə yaradıb onları partizanlara qoşulmağa sövq etmişdi.

1944-cü il fevralın 22-də, Qızıl Ordu bayramı ərəfəsində alman baş leytenantı forması geymiş Mehdi axşam Qoritsadan içi silahla dolu hərbi yük maşını oğurlayıb gətirdi. Bu, partizan qismində onun ilk əməliyyatı idi. Solkanda alman yük maşınını saxlayıb sürücünün yanına əyləşmiş və xalis alman dilində ona maşını geri çevirməyi əmr etmişdi. Cavan sürücü əvvəl zabitin əmrini yerinə yetirməkdən boyun qaçırmış, amma Mehdi əmri ucadan elə təkrar etmişdi ki, əsgərin qorxudan

başqa çarəsi qalmamışdı. Çrniçe kəndini keçəndən sonra Mehdi göstəriş vermişdi ki, maşını dağlara tərəf sürsün, alman əsgər yalnız bundan sonra məsələnin nə yerdə olduğunu başa düşmüşdü. Digər tərəfdən, Mehdinin əlindəki tapança onu vahiməyə salmışdı. Sürücüyə sakitcə izah etmişdi ki, partizanların yanına gedir. İki saatdan sonra Belvederdəki qonaq evinə – partizanların postuna çatmışdılar.

Pliskovitsalı gənclər Mehdi və Mirdaməd üçün partizanların taxdığı və üzərində beşguşəli ulduz olan beret gətirib bayram təşkil etdi. Hər ikisi təntənəli surətdə partizan andı içdi:

– Biz, Sloveniya milli azadlıq ordusunun partizanları, xalqın müstəqilliyi, sülh və əmin-amanlığın bərqərar olması uğrunda Sovet İttifaqı fəhlə və kəndlilərin şanlı Qızıl Ordusu ilə, həmçinin digər xalqlarla çiyin-çiyinə döyüşərək, yoldaşlarımız qarşısında təntənəli and içirik: sloven xalqının azadlığı uğrunda, fəhlə və kəndlilərin, sülhsevər insanların qəsbkar və təcavüzkar faşistlərə qarşı apardığı müqəddəs müharibədə canımızdan keçməyə hazırıq! And içirik ki, könüllü və şüurlu surətdə daxil olduğumuz partizan dəstəsini tərk etməyəcək, faşizm üzərində tam qələbə çalanadək, sloven xalqı azadlıq və müstəqilliyə qovuşanadək silahı yerə qoymayacağıq!

– Hə, Mirdaməd, ömrümüzdə üçüncü dəfədir ki, hərbi and içirik. Atalar üçdən deyib! – Mehdi dostunun qulağına pıçıldayıb onu dümsüklədi. Mirdaməd cavab verdi:

– Bir də deyirlər ki, Allah üçüncüdən qorusun! – gülüb gözlərini qıydı.

Təntənəli andiçmə mərasiminə rəhbərlik edən rabitəçi Stane üzünü partizan sıralarına yeni qəbul olunmuş dostlara tutub dedi:

– Əziz dostlar, sizi ürəkdən təbrik edirəm. Bundan sonra sloven ordusunda döyüşməyin necə böyük şərəf olduğunu öz gözünüzlə görəcəksiniz. Biz böyük ailəyik. Dəstənin hər yeni üzvünə ləqəb veririk, indi sizin üçün də ləqəb seçməliyik. Bu, gizliliyi qorumağa, təhlükəsizliyə kömək edir. Yoldaşlar, sıramıza daxil olmuş yeni partizanlara hansı ləqəbi verək?

Partizanlar qısa müzakirədən sonra belə qərara gəldilər: Mehdi "Mixaylo", Mirdaməd Seyidov isə "Rus İvan" olsun! Mehdi kimsəyə dostu Mixaylodan, onun əsirlikdə faciəli ölümündən danışmamışdı. Ona görə də partizan dostlarının təsadüfən "Mehdi"ni "Mixaylo"ya çevirməsi ürəyincə oldu. Bu ləqəb ona çox yaraşır, faşistlərdən qisas almaq qətiyyətini artırırdı.

Rəsmi andiçmə mərasimi qısa məruzələrlə başa çatdı. Gənclər Vətən barədə şeirlər səsləndirdi. Bayram başlandı, mahnı və rəqslər

səhərədək davam etdi. Qızlar Mehdi ilə rəqs etmək üçün bəhsə girmişdi. Qarayanız, gülərüz oğlan isə heç kimin xətrinə dəyməyib hamı ilə həvəslə rəqs edir, zarafatından qalmırdı. Mehdinin dodaq qarmonikasında ifa etdiyi mahnılar toplaşanların alqışına səbəb oldu. Bayramın sonunda yerli qızlar arasında ən gözəl və işvəli sayılan qarasaç Nina Mehdini evinə qonaq apardı...

Fevral-mart aylarında Mehdi və Mirdaməd geniş təbliğat işi aparıb keçmiş sovet əsgərlərinin partizan dəstələrinə qoşulmasına nail oldu. Mehdi, adətən, Ninanın evində gecələyir, hərdən də Opçinaya, Olqaya baş çəkirdi. Bu qadına böyük hörmət bəsləyirdi. Qradnikin briqadası yenidən Qoren vilayətinə qayıdandan sonra, Mixaylo alman ordusundan fərarilik etmiş legionerləri müvəqqəti orada yerləşdirirdi. Fərarilərin ardı-arası kəsilmirdi, bu səbəbdən P-15 və P-13 postlarındakı rabitəçilər vasitəsilə Sahilyanı diyarın partizan dəstələri ilə əlaqə yaradıb legionerləri ora yönləndirirdi. Axırıncı dəfə gəlmiş legionerlərdən öyrəndi ki, fərarilik artdığı üçün Türküstan diviziyasında fövqəladə vəziyyət elan olunub, Berlindəki Baş Qərargahdan xüsusi yoxlama briqadası göndərilib. Alman rəhbərliyi diviziya komandiri fon Nidermayerin fəaliyyətini ciddi yoxlamağı qərara almış, generalı ev dustağı etmişdi. İndi diviziya podpolkovnik Buşun sərəncamına keçmişdi. Bu adam isə legionerlərə işgəncə verməkdən zövq alırdı. Dünən bir bölüyün tam heyəti qaçmaq üçün Mehdi ilə əlaqə yaratmışdı. Mehdi Türküstan diviziyasının bölük komandiri Mixail Arşanovla Opçina kəndində, dərzi Olqanın evində görüşdü. Mixail and içirdi ki, qaçmazdan əvvəl qaniçən podpolkovnik Buşdan qisas alıb onu öldürəcək. Mixaylo bu hiyləgər alman zabitinin xasiyyətinə, vərdişlərinə yaxşı bələd idi, Mixailə ətraflı təlimat verdi. Podpolkovnik Buşun əsgərlərdən, xüsusən də qeyri-alman millətindən olan legionerlərdən zəhləsi gedirdi, dünyada sevdiyi yeganə məxluq Tor adlı qıvrımtüklü bəyaz pudeli idi. Səhər və axşam köpəyini Opçina kəndində gəzməyə çıxarırdı. Əvvəllər Mehdi bir tərcüməçi və köməkçi kimi gəzintidə onu müşayiət etməyə məcbur idi, ona görə də Buşun marşrutunu əla bilirdi. Mixaylo podpolkovniki axşam gəzintisi zamanı aradan götürmək üçün uyğun bir yeri nişan verdi.

– Bu donuz oğlunu şəxsən güllələyə bilmədiyim üçün heyifsilənirəm! Mixail, yeganə xahişim var: çalış, pudelə, o günahsız heyvana ziyan dəyməsin!



# APREL 1944-cü il

### XIII

Mixaylo və Mirdaməd vaxtın çox hissəsini P-13 postunda keçirir, hərbi hissədən qaçıb gələn legionerləri qarşılayıb partizan dəstələrinə yola salırdı. Mixaylo fərarilərdən öyrəndi ki, yaxınlıqdakı daş karxanasına çoxlu partlayıcı gətiriblər. Dərhal ağlından keçdi ki, bu partlayıcılardan təxribat əməliyyatlarında istifadə etmək olar. Bir neçə gündən sonra Mixaylo, Mirdaməd və iki rabitəçi Kras rayonunda yerləşən Lipa kəndindəki partlayıcılar saxlanan anbara gəldi. Burada çalışan Mirko adlı fəhlə ilə köməkləşib minaları iki böyük çantaya yığdılar. Çantaları Pliskovitsada yaşayan etibarlı bir adamın evində gizlədib tapşırdılar ki, sabah onları Opçina kəndində yaşayan dərzi Olqanın evinə gətirsin. Mixaylonun ağlına gəlmirdi ki, bu ingilis partlayıcıları gücünə görə digərlərindən fərqlənir. Gecəni postda qalıb, ertəsi gün səhər paltarını və zahiri görkəmini dəyişmək üçün dərzi Olqanın yanına yollandı. Qadın böyük məmnuniyyətlə Mixaylonun saçlarını və qaşlarını şabalıdı rəngə boyayıb bığını qırxdı.

Olqanın köşkdən alıb gətirdiyi "İl Piccolo" qəzetinin birinci səhifəsində iri hərflərlə yazılmışdı: "MONTE KASSİNO VƏ ANTSİYA ƏTRAFINDA AĞIR DÖYÜŞLƏR DAVAM EDİR".

– Gör nə yazırlar, – Mixaylo qəzeti Olqaya göstərdi, – guya nasistlər mövqelərini qoruyub müttəfiqlərin hücumunun qarşısını alıb. Həyasızlığın dərəcəsinə bax! Bir-iki təxribat törədib bu qansızların yuxularına haram qatmaq lazımdır! Azğın faşistlərlə haqq-hesab çəkməyin əsl vaxtıdır!

Krım cəbhəsi barədə dərc olunmuş xəbər Mixaylonu sevindirdi:

– Hə, Olqa, nəhayət, ağır döyüşlərdən sonra almanlar Odessa və Ostravadan, Şərq cəbhəsinin bütün istiqamətlərindəki mövqelərdən

geri çəkilməyə məcbur olub. Bundan şad xəbər nə ola bilər? Gör nə yazılıb: "Baş qərargah xəbər verir ki, Şərq cəbhəsində müdafiə xarakterli döyüşlər gedir. Mübarizənin mərkəzi Ukraynanın Proskurov şəhərindən cənub-qərbdə yerləşən Buq şəhəridir. Düşmənin Koveldən şimalda başladığı amansız hücum iflasa uğrayıb. Sovetlər tank qoşunları və piyada hissələri ilə Pleskovdan cənubda güclü həmlə endirib. İtaliyada isə alman hərbi hissələri Monte Kassino ətrafında müttəfiq ordusunun qarşısını alıb". Sən bir işə bax! "İl Piccolo" diqqəti məğlubiyyətdən yayındırmaq üçün yapon qoşunlarının İmpaldan şimala irəliləməsindən yazıb. Allah bilir, bu İmpal harada yerləşir? Hə, əgər faşistlər yaponların hücumundan təsəlli tapırsa, deməli, vəziyyət ürəkaçan deyil!

– Dünən qonşumuz, satıcı Mario Romadan qayıdıb, – Olqa dilləndi. – Deyir, müttəfiq qoşunları Monte Kassinonu güclü artilleriya atəşinə tutub. Təsəvvür edirsən, Romadan 270 kilometr aralıdır, amma gurultu orada da aydın eşidilirmiş.

– Bu gurultu faşistlərdən başqa hamını sevindirir! Bilirsən, Olqa, təxribatçı törətdiyi partlayışa kənardan baxıb səsinə qulaq asanda özünü xoşbəxt sayır. Bu səs adama həzin melodiyanı xatırladır.

Mixaylo mətbəxdə köynəksiz oturmuşdu. Onun enli kürəkləri, möhkəm əzələləri Olqanı ehtirasa gətirirdi. Nişanlısı – italyan ordusunun əsgəri Timoti 1937-ci ildə, Abissiniyada[1] həlak olandan sonra Olqa özünə təlqin etmişdi ki, bəxti bağlanıb, ər üzünə həsrət qalacaq, hansısa günahlarına görə Tanrı onu tənhalığa məhkum edib. Olqa artıq taleyi ilə barışmışdı, bəlkə də, bir gün hər şeyin daşını atıb qadın monastırına pənah aparacaqdı. Amma uzun illərin tənhalığından sonra yaraşıqlı cavanın nəvazişini və ılıq nəfəsini duyanda vücudunu qəribə hisslər bürüyürdü. Mixaylo hər dəfə ona baxıb təbəssümlə danışanda qəlbindəki tənhalıq buzu əriyir, nəbzi sürətlə vururdu. Qəlbində baş qaldırmış sevgi və şəhvət hissini boğa bilmir, Mixaylonu hər an yanında görmək, onun qoxusunu duymaq istəyirdi. Bu anlarda həlak olmuş nişanlısı Timotini tamam unudurdu, sanki yer üzündə belə adam olmayıb. Gözlənilmədən həyatına daxil olmuş qarasaç cavanın nəvazişlərindən duyğulanır, özünü dünyanın ən xoşbəxt qadını sayırdı. Mixaylo üçün Olqa silah yoldaşı idi, eşq elan edib sevgi vədləri verməyi əsla düşünmürdü. Olqa bunu yaxşı başa düşür, cavan partizanla şəxsi münasibətin perspektivləri onu narahat etmirdi. "Yalnız məharətli təxribatçılar gələcək əməliyyatlar üçün əla plan hazırlaya bilər", – Olqa düşünüb gülümsündü və Mixaylonun gözlərinin içinə baxdı.

---

[1]**Abissiniya** – Efiopiyanın qədim və qeyri-rəsmi adı

Mixaylo ülgüclə qırxılmış bığının yerini qaşıyıb dedi:

– Olqa, əhsən sənə, əgər dərzi olduğunu bilməsəydim, düşünərdim ki, dəlləksən.

– Uşaqlıqda hər gün səhər atamın üzünü qırxardım. İflicdən sonra əlləri əsirdi, ülgücü tuta bilmirdi.

– Ömrümdə ilk dəfədir özümü bığsız görürəm. Bu günə qədər heç vaxt bığımı qırxmamışam. Özümü sanki çılpaq hiss edirəm, amma bığımı ümumi işin uğrunda qurban verməyimə peşman deyiləm. Bizdə bığsız kişini adam yerinə qoymurlar, deyirlər, kişinin gərək bığı olsun! Yəni belə adamı yumurtlamayan toyuq hesab edirlər! – Mixaylo güldü.

– Adamların sözünü vecinə alma! Əsl kişi başqa şeydir – istər bığlı, istər bığsız!

– Bakıda iki kişi mübahisə edəndə bəzən biri digərinə deyir: “Bığını dibindən qırxaram!” Əsl kişi üçün bığ çox vacibdir!

– Amma öpüşəndə bığ mane olur. Mixaylo, inan, bığsız kişi ilə dodaq-dodağa öpüşməyin ayrı ləzzəti var! – Olqa bu sözləri titrək səslə dedi.

– Hardan bilim? Bu günə qədər həmişə bığım olub! – Mixaylo günahkarcasına gülümsündü.

– İndi bilərsən... – Olqa yaxınlaşıb Mixaylonu qucaqladı və ehtiraslı öpüşlərə qərq etdi...

Bir neçə dəqiqədən sonra qapının zəngi üç dəfə çalındı. Bu, ona işarə idi ki, döyüş yoldaşı Mirdaməd gəlib. Mixaylonun partizanlara qoşulduğu gündən iki ay keçsə də, bu gün ilk dəfə idi, alman zabiti forması geyinmişdi. Sol qolundakı Türküstan diviziyasının fərqləndirici nişanı görünməsin deyə, ora hərbi polisə aid qara sarğı bağlamışdı. Olqanın evindən alman zabiti kimi şax addımlarla çıxdı. Əlində kiçik dəri çanta vardı. Alman zabitləri xidmətə gedəndə, adətən, belə çanta gəzdirirdi. Mixaylo çantaya daş karxanasından götürdüyü minalardan bir qismini yığmışdı.

Seyidov da hərbi formada gəlmişdi. Mixaylonu görən kimi farağat dayanıb hərbi salam verdi. Mixaylo heç nə deməyib onun əlindəki çantalardan birini aldı və dostlar Opçina kəndinin mərkəzinə yollandı. Əməliyyata ciddi hazırlaşmışdılar, indi onu həyata keçirmək qalırdı. Mirdaməd irəlidə gedirdi. Mehdi addımlarını yavaşıdıb diqqətlə ətrafa göz gəzdirdi – izlənmədiklərinə əmin olmaq istəyirdi. Bir dəqiqə sonra addımlarını yeyinlədib Seyidova çatdı. Onlar kənd mərkəzindəki böyük kinoteatrın qarşısına gəldi. Çanta ağır olsa da, Mixaylo onu əlində elə aparırdı ki, guya içində heç nə yoxdur. Yüngül çanta görüntüsü yaratmaq o qədər də asan deyildi. Kinoteatrın qarşısında xeyli alman zabiti və feldfebel vardı, bəziləri qadınla gəlmişdi. Axşam seansı yalnız alman

zabitləri və onlarla birlikdə gələn qadınlar üçün nəzərdə tutulmuşdu. Mixaylo ilk ciddi təxribat obyekti kimi kinoteatrı seçmişdi. Demək olar, hamı, xüsusən feldfebel və zabitlər əlində kiçik çantalar tutmuşdu. Pornoqrafik açıqçaları, içki, konfet və qənimət kimi ələ keçirdikləri bahalı zinət əşyalarını ora yığırdılar. Çantanı kazarmada qoymağa, yaxud kiməsə etibar etməyə qorxurdular, ona görə də həmişə özləri ilə gəzdirirdilər. Mixaylo qələbəliyə qarışıb içəri daxil oldu. Bir neçə dəqiqədən sonra əlində çanta tutmuş Mirdaməd də içəri keçdi.

Afişada filmin adı yazılmışdı: "Xəyalımdakı qız". Məhəbbətdən bəhs edən musiqili filmdə baş rolları Mariya Merkader[1] və Tito Qobbi[2] ifa edirdi. Mixaylo düşündü: "İndi bu əclaflara bir musiqili kino göstərim ki, ömür boyu unutmasınlar! Zaldakı yağlı alman donuzları filmin dəhşətli finalını heç ağıllarına belə gətirmir. Məncə, final belə adlansa, yaxşı olar: "Zərb alətləri orkestrinin müşayiəti ilə faşistlərin hönkürtü və göz yaşı ariyası. Dirijor – əfsanəvi terrorçu Mehdi!" Ha-ha-ha!"

Kinoteatrın girişində müxtəlif qoşun hissələrinə mənsub zabitləri görəndə Mixaylo ürəkdən sevindi. Əvvəla, adamların arasında gizlənmək asandır, ikincisi, zalda tamaşaçı nə qədər çox olsa, təxribat böyük effekt verər. Bəs zabitlərdən kimsə onu tanısa, necə olacaq? Mixaylo bu barədə, ümumiyyətlə, düşünmürdü. Olqa demişdi ki, bığsız tamam başqa adama bənzəyir, saçlarını da başqa rəngə boyamışdı.

Mixaylo diviziya yoldaşlarına xəbər göndərmişdi ki, bazar günü kinoteatra gəlməsinlər, ümumiyyətlə, bu həndəvərdə dolaşmasınlar. Dünən axşam bığları hələ yerində idi, mülki geyimdə çox yaraşıqlı görünürdü. Rabitəçi Stanko ilə Opçina kəndindəki kiçik pivəxanaya getmişdi. Alman zabitləri bura gəlmirdi, pivəxananın müştəriləri əsasən yerli sakinlər, bir də diviziya əsgərləri idi. Mixaylo Stanko ilə masa arxasına keçib pivə sifariş verdi. Tezliklə Mixaylonun diviziyadakı dostları – Həkim Ağazadə və Mixail Qulubəyov da gəldi. Pivə içib Mixaylonun şərəfinə badə də qaldırdılar. Sonra Mixaylo xəbərdarlıq etdi ki, sabah kinoteatrda güclü partlayış baş verəcək. Xoşbəxtlikdən, müttəfiq qoşunlarının hava hücumundan qorunmaq üçün gecə saatlarında

---

[1]**Mariya Merkader** (isp. *María Mercader*; 06.03.1918, Barselona – 26.01. 2011, Roma) – ispan əsilli məşhur italyan və fransız aktrisası, Lev Trotskinin qatili sayılan agent Ramon Merkaderin bacısı, tanınmış italyan rejissoru və aktyoru Vittoriya De Sikanın arvadı

[2]**Tito Qobbi** (24.10.1913 – 05.03.1984) – italyan opera müğənnisi (bariton). Opera səhnəsində ilk çıxışı 1938-ci ildə Romada olub. 1947-ci ildən bir çox ölkənin məşhur teatrlarında (Metropoliten-opera, Qrand-opera və s.) çıxış edib, musiqili filmlərə çəkilib.

evlərdə və küçələrdə işıq yandırmaq qadağan olunmuşdu. Bu səbəbdən kinoteatrın qarşısındakı meydança qaranlıq idi. Foyedə də çilçıraqların yalnız biri yanırdı. Siqaret tüstüsündən göz-gözü görmürdü. Mixaylo və Seyidov foyenin əks künclərində dayanmışdı. Özlərini elə aparırdılar ki, guya bir-birilərini tanımırlar. Tamaşaçılar zala daxil olmağa başlayanda onlar ayrı-ayrılıqda kassaya yaxınlaşıb bilet aldı. İşıqlar söndü, ekranda cəbhə xronikası göstəriləndə zala daxil oldular. Mixaylo beşinci sırada oturdu. Seyidov – "Rus İvan" isə sonuncu sıraya keçib orta yerlərin birində əyləşdi. Mixaylo hələ Olqanın evində detonatorları elə quraşdırmışdı ki, seans başlayandan yarım saat sonra işə düşəcəkdi. Zalda 350-dən çox tamaşaçı vardı. Gecikənlər qaranlıqda birtəhər yer tapıb əyləşir, xidmətə tələsən bəzi zabitlər isə zalı tərk edirdi. Partlayışa on dəqiqə qalmış Mixaylo çantanı oturacaqda qoyub zaldan çıxdı. Kimsə ona fikir vermədi. Hamı gözünü ekrana zilləmişdi – Almaniyanın təbliğat naziri Gebbels[1] total müharibədən alovlu nitq söyləyirdi. Bir neçə dəqiqədən sonra Seyidov da zalı tələsik tərk etdi. Ona da fikir verən olmadı, çünki "Xəyalımdakı qız" filmi yenicə başlamışdı. Mixaylo zala girəndə başında yüngül hərbi beret vardı, çıxanda isə bereti cibinə qoyub furajkanı taxdı. Təcrübədən bilirdi ki, papaq insanın zahiri görkəmini tanınmaz dərəcədə dəyişir.

Mixaylo Pliskovitsa kəndinə gedib, orada gecələməyi qərara aldı. Kinoteatrın yaxınlığındakı parkda ayaq saxladı, siqaret yandırıb skamyada əyləşdi və gözləməyə başladı. Düz saat doqquzda dəhşətli partlayış yeri-göyü titrətdi. Pəncərə şüşələri çilik-çilik oldu, qaranlıqda sanki vulkan püskürmüşdü, qızılı alov dilimləri, tüstü-duman ərşə qalxır, sirena səsləri ucalırdı. Mehdi kinoteatrın qarşısına qayıtdı. Adamları aralayıb irəli keçdi, gördüyü mənzərədən dəhşətə gəldi. Kinoteatrın bir divarı uçmuş, altında xeyli insan tələf olmuşdu. Yanğından əmələ gəlmiş tüstü Opçina kəndinin üstündən səhərə qədər çəkilmədi. Kinoteatra axışan təcili yardım və yanğınsöndürən maşınların ardı-arası kəsilmir, ölənlərin və yaralıların sayı anbaan artırdı.

Seyidov və Mixaylo sevinc dolu baxışlarla bir-birini təbrik edib qaranlıqda gözdən itdilər. Ertəsi gün səhər almanlar Opçina kəndinin mərkəzində dördü qız olmaqla on bir yerli sakini dar ağacından asdı.

---

[1]**Paul Yozef Gebbels** (alm. *Paul Joseph Goebbels*; 29.10.1897 – 01.05.1945 ) – Hitlerin yaxın silahdaşlarından biri, 1933–1945-ci illərdə Almaniyanın təbliğat naziri. Yəhudi qırğınları və Holokostun ideya müəllifi

## XIV

– Ah, əzizim Ulrix! Səni görməyimə şadam!

– Mən də həmçinin, Marina! Həyatım, gözəlim! Tanışlığımızdan cəmi bir həftə keçib, amma elə bir gün yoxdur ki, səni düşünməyim. Hər gecə gözümün önünə gəlirsən, adın dilimdən düşmür, Marina! Gözəlliyindən doya bilmirəm, icazə ver, səni kazinonun yanındakı Korso hotelinin barına dəvət edim. Sənin kimi mələklə bir qədəh şərab içmək xoşbəxtliyindən məni məhrum etmə!

– Səninlə şərab içmək üçün hara desən gedərəm, əziz Ulrix! Ancaq əvvəl gərək bir dəqiqəliyinə də olsa, evə baş çəkim. Atam xəstədir, ona təcili dərman lazımdır. Dərmanı indicə almışam, verim ki, içsin! Gəl bir saatdan sonra burda, poçtun qarşısında görüşüb Korso hotelinə gedək, yaxşı?

– Gözümün işığı Marina! İndicə görüşmüşük, səni gözümdən uzaq qoya bilmərəm. Bir saat necə dözüm? Təklif edirəm, səni evə ötürüb küçədə gözləyim. İlahi, sən bir bu axşamın möcüzəsinə bax! Göylər də sevgimə şahidlik edir! Ay hardasa gizlənib, çıxmır, yəqin, oğrun-oğrun bizə baxır. Sayrışan ulduzları görürsən? Sanki sevgimizə xeyir-dua verir, əziz Helqa, daha doğrusu, Marina. Ağlım çaşıb, nə dediyimi özüm də bilmirəm. Gözəlliyin gözümü qamaşdırır. Etiraz etmə, əzizim, icazə ver, səni ötürüm!

– Bu, ürəyimcə oldu, yəqin, bütün günü qərargahda oturmusan, indi bir az gəziş ki, əl-ayağın açılsın. Bircə dərmanı atama vaxtında çatdıra bilsəydim! Səbir elə, əziz Ulrix, gecə uzundur...

– Eh, demək asandır! Belə bir zərb-məsəl var: "Nə əldən qoyur, nə yardan doyur!" Mənimki lap buna bənzəyir. Deyəsən, çox çərənlədim. Yaxşı, gedək, yolçu yolda gərək!

Ulrixin qəribə görkəmi vardı. Qərargah zabitlərinin böyük əksəriyyəti kimi ortaboylu idi, qarnı qabağa çıxıb sallanmış, yoğun boynunu piy basmışdı. Yaşı otuzdan çox olmasa da, daz idi. Eynəyini də asılqana oxşayan burnunun ucunda gəzdirirdi. Marina bu zabiti ona görə seçmişdi ki, boyu Mixaylo ilə bərabər idi. Ulrix və Marina soyuq qış axşamı Triest limanında görüşmüşdü, dənizdən soyuq külək əsirdi. Ulrixə soyuq kar etmirdi, bədənindəki qalın piy qatı onu qoruyurdu, həm də nahardan sonra qərargahda bir-iki qədəh rom içmiş, indi də sifətini, boyun-boğazını tər basmışdı. Beretini səliqə ilə qatlayıb qoltuğuna qoymuş, cib dəsmalı ilə tez-tez üz-gözünün, alnının tərini silirdi. Marina ilə yanaşı gedirdilər, Ulrix gözəl bədən quruluşuna malik, səliqə ilə geyinmiş, qəhvəyi saçlı, valehedici təbəssümü ilə can alan qıza altdan-altdan göz qoyurdu. Ac qurd qoyuna baxan kimi, o da

ehtiraslı baxışlarını gizlədə bilmir, ağzının suyu axırdı. “Bu gözəlçə adamın ağlını başından alır. Ətli-canlı Helqam hara, bu mələk hara? Aralarında yerlə göy qədər fərq var. Yəqin, ehtirasda da Helqadan dala qalmaz. Bir bax, sudan çıxmış balıq kimi çırpınır!” – Ulrix Marina ilə Triestin qaranlıq küçələrində yanaşı gedə-gedə düşünürdü.

Marina onu sahildə yerləşən fəhlə məhəlləsinə gətirdi. Yol boyu oradan-buradan, qohum-əqrəbanın qayğılarından danışırdılar. Kanalın yanındakı çoxmərtəbəli binanın qarşısına çatıb dayandılar. Həyətdəki işıq dirəklərindəki bütün lampalar sındırılmışdı, göz-gözü görmürdü. Marina dedi:

– Hə, gəlib çatdıq. Məni burda gözlə. Atam xəstədir, evə alman zabiti ilə gəldiyimi görsə, zəif ürəyi dözməz. Ulrix, yəqin, başa düşürsünüz də, yerli adamlar almanları o qədər də sevmir.

Marina qarşısındakı bu adama ikrah hissini birtəhər boğub onu qucaqladı. Başa düşürdü ki, bu hərəkət ümumi işin xeyrinədir, sonra da üzünü kanala çevirdi. Bir qədər əvvəl Mixaylonun onlara göz qoyduğunu görmüşdü. Hələ səhər növbəti əməliyyat planını müzakirə etmək üçün görüşəndə Mixaylo gizlənəcəyi yeri Marinaya nişan vermişdi. Ulrixi qucaqlayanda gördü ki, Mixaylo qaranlıqda onlara yaxınlaşır. Hər şey bir saniyənin içində baş verdi: Mixaylo əlindəki dəmir linglə Ulrixin boynunun ardından güclü zərbə endirdi. Yaxşı bilirdi ki, yumruq zərbəsi ilə Ulrix kimi dolubədənli adamı yerə sərmək mümkün deyil, bu səbəbdən özü ilə dəmir ling götürmüşdü. Mixaylo Ulrixi öldürmək istəyirdi, amma bu işi elə görmək lazım idi ki, Marinaya xələl gəlməsin, həm də Ulrixin başındakı pilotka cırılmasın – papaqdan başqa əməliyyatlar zamanı istifadə etmək olardı.

Mixaylonun bir zərbəsi ilə alman zabiti Ulrix yerə sərildi, Mixaylo və Marina onu tələsik soyundurdu, əynində yalnız alt paltarı qaldı, sonra kanalın kənarına sürüyüb suya atdılar. Bütün bu “əməliyyat” cəmi iki dəqiqə çəkdi və həmin anlarda binanın həyətində kimsə onları görmədi. Zabit formasını səliqə ilə büküb Mixaylonun çantasına qoydular və Marinanın anasıgilə yolandılar. Seyidov onları hadisə yerindən bir qədər aralıda, Müqəddəs Fransiska küçəsindəki keçmiş sloven məktəbinin yaxınlığında yerləşən yaşayış binalarının arasında gözləyirdi.

Mixaylo şəhərdə ilk əməliyyata hazırlaşırdı. Türküstan diviziyasının fərqləndirici nişanları olan hərbi formasından, xüsusən də qoluna bağladığı hərbi polis sarğısından üçüncü dəfə istifadə edə bilməzdi – yaxşı başa düşürdü ki, eyni hiylədən dalbadal yararlanmaq təhlükəlidir. Ulrixin SS zabiti forması da növbəti əməliyyat üçün nəzərdə tutulmuşdu. Gecənin qaranlığında Marina ilə həyata keçirdiyi uğurlu əməliyyat

zamanı düşmənin bir zabitini sıradan çıxarmışdı, indi də ilk dəfə Sosiçin evindəki gizli sığınacaqdan istifadə etməyi qərara aldı. Sonradan bu sığınacaq çox xoşuna gəldi və oranı partizanların Triestdəki daimi mənzil-qərargahına çevirdi.

Sosiç işdən evə qayıdanda qızı – qədd-qamətli, yaraşıqlı, qarasaç və qaragöz Miryam dadlı xörək bişirmişdi. Sosiç qonaqları – Mixaylo və Seyidovla birlikdə süfrə başına keçdi. Yeməkdən sonra şərab içib xeyli söhbət etdilər, Mixaylo növbəti əməliyyat barədə danışdı:

– Cibimdə gəzdirdiyim saxta şəxsiyyət vəsiqəsində adım Luici Kavallo kimi yazılıb. Ancaq həqiqi şəxsiyyət vəsiqəmdə qeyd olunub ki, 1918-ci il dekabrın 22-də Bakıda anadan olmuşam. Stalinqrad döyüşlərində dəfələrlə ölümlə üz-üzə gəlmişəm, necə deyərlər, ölübdirilmişəm. Ona görə də Stalinqradı ikinci vətənim hesab edirəm. Doğum tarixim də 1943-cü il kimi göstərilməli idi. Deməli, indi cəmi bir yaşım var.

Seyidov gülüb dedi:

– Hə, çağa ola-ola gör nə qədər faşist qırmısan!

– İyirmi yaşa çatanda isə böyük bir ordu ilə təkbaşına vuruşa bilərsən... – Miryam ucadan deyib uşaq kimi güldü. Mixaylonu cəmi bir-iki dəfə görmüşdü, amma heç özü də bilmədən bu gəncə vurulmuşdu.

– Gəlin arzu edək ki, bu mənfur müharibə 20 ildən sonra yox, məsələn, günü sabah bitsin! – Sosiç də söhbətə qoşulub gülümsündü.

Seyidov əlavə etdi:

– Komandirlər deyir ki, dava yazda qurtaracaq! Hər il vəd verirlər, ancaq axırı görünmür!

– Başqalarının vədinə bel bağlama, amma verdiyin sözə əməl etməyi də unutma! – Sosiç müdrikcəsinə dilləndi.

– Düz sözə nə deyəsən? Hələ Moskvada and içmişdim ki, bu vəhşi nasistləri Berlinə kimi qovacağam! – Mixaylo qətiyyətlə bildirdi.

– Deməli, Berlinə gedirdin, yolu azıb Triestə dönmüsən, hə? – Sosiç zarafatından qalmadı.

– Bəli, amma sevinirəm ki, yol məni bura gətirib! Əks təqdirdə, sizin kimi yaxşı adamlarla tanış olmazdım! – Mixaylo bu sözləri deyəndə Miryama baxdı. – Hamı kimi, mən də bu davadan cana doymuşam. Əslində, ağlım kəsəndən müharibə görmüşəm. Uşaq ikən valideynlərimi itirmişəm, müharibə illərində böyümüşəm. Sovet İttifaqında, Stalin dövründə də hərbi rejim hökm sürürdü, qeyri-rus millətindən olan xalqlar bolşeviklərin zülmü altında inləyirdi. Birinci Dünya müharibəsi başlanan gündən Rusiya sülhün, əmin-amanlığın nə olduğunu bilməyib. Ona görə də biz, Qızıl Ordunun əsgərləri yaxşı döyüşürük. Çünki

hamımızı hərbi ruhda böyüdüb təlqin ediblər ki, yoxsul və dözülməz həyat müharibəyə hazırlıqla bağlıdır. İnsanların bir-birinə sevgisi, inamı itəndə, mərhəmət kimi ülvi hisslər unudulanda müharibə labüddür. Bizim döyüş ruhumuzu yüksəldən nifrət hissidir. Əsgər gərək düşmənə hədsiz nifrət bəsləsin, əslində, düşmən buna layiqdir. Nifrət hissi insanın içindən gəlməlidir. Bu hissin sayəsində çətinliklərə dözür, həyatımızı riskə atır, soyuğa və aclığa sinə gəririk. Heç nədən qorxmadığını söyləyən adam təhlükəlidir: səndən qorxmayan düşməndən həmişə çəkinməlisən!

Sosiç Mixaylo ilə razılaşdı:

– İnsan təbiətinin öz qanunları var. Amma bu qanunlardan baş çıxarmaq hər adamın işi deyil. Bir az da keçsə, amerikalılarla, onların bombaları ilə, necə deyərlər, yaxından tanış olacağıq. Bir neçə gün əvvəl Trbij şəhərinin mərkəzinə güclü aviazərbə endiriblər. Triestə nə vaxt mərmi yağdıracaqlarını da tək Tanrı bilir.

Miryam gözlərini qıyıb maraqla Mixaylodan soruşdu:

– İtalyan dilində danışmağı harda öyrənmisən?

– Gimnaziyada səkkiz il fransız dili keçmişəm, Leninqrad Xarici Dillər İnstitutunda isə fransız dilini tədris edən doqquz müəllim vardı. Stalinqrad cəbhəsinə yollanmazdan əvvəl bir neçə həftə bizi italyan hərbi əsirlərinin keşiyini çəkməyə göndərdilər. Bir italyan zabiti vardı, mən ona rus, o da mənə italyan dilini öyrətdi. Sanki ürəyimə dammışdı, bir ildən sonra bu dil köməyimə çatacaq.

– Ləhcəsiz, özü də çox səlis danışırsan.

– Ona görə də şəxsiyyət vəsiqəmdə italyan adının yazılması xoşuma gəlir, sloven dilində təmiz danışmağı öyrənmək hələ bir müddət çəkər. Açığı, diliniz heç də asan deyil, amma müəyyən məqamlarda rus dilinə bənzəyir. Ləhcələrin çoxluğu işimi çətinləşdirir, mütləq mükəmməl öyrənəcəyəm, sadəcə, vaxt lazımdır.

Miryam sözünə davam etdi:

– Elə indi də sloven dilində pis danışmırsan. İvan deyir ki, alman dilinin üç ləhcəsində dil-dil ötürsən, düzdür? Necə öyrənmisən?

– Klassik alman dilini orta məktəbdə keçmişəm, diviziyada komandirim bavariyalı idi, ondan Bavariya ləhcəsini öyrəndim. Diviziyanın alman hərbi həkimi rəssamlığa böyük maraq göstərirdi. Əməlli-başlı dostlaşmışdıq, əslən Myunstrdan idi, yəni şimali Almaniyadan. Bu həkim mənə “hoxdöyç”ü[1] öyrətdi.

Daha sonra iki ay Qratsdakı hospitalda yatdım, burada bütün tibb heyəti Koroş alman ləhcəsində danışırdı. Palatada məndən başqa

---

[1] Ədəbi alman dili

Almaniyanın müxtəlif bölgələrini təmsil edən yaralılar müalicə olunurdu. Onların söhbətlərini diqqətlə dinləyib bəzi sözlərin tələffüzünü öyrəndim. Məsələn, bavar ləhcəsində danışmaq istəyəndə əvvəlki komandirimi xatırlayıram, frits də olsa, pis adam deyildi, sözləri onun kimi tələffüz etməyə çalışıram. Sadəcə, hafizəm yaxşıdır, insanın nitqi, onun tələffüz tərzi tez yadımda qalır. Hə, bayaqdan elə mən danışıram, indi siz deyin görək, necə oldu ki, mənzilinizdə gizli sığınacaq yaratdınız?

Mixaylonun bu sualı Sosiçi çox sevindirdi, məmnun görkəm alıb dedi:

– Çoxları bilmir ki, dəniz sahilində yaşayan slovenlər 1927-ci ildə "TİQR" adlı müqavimət hərəkatı yaradıb. İtalyan faşistləri artıq o zaman ordu və polisi öz nəzarəti altına almış və Sahilyanı bölgədə yaşayan slovenlərin işğalına başlamışdı. Bu səbəbdən TİQR hərəkatı sahildə yaşayan slovenləri ətrafında birləşdirib terror aktları törədirdi. Əvvəlcə bu aksiyalar qorxu yaratmağa yönəlmişdi, sonra isə TİQR üzvləri xeyli sayda italyan faşisti və onların əlaltılarını məhv etdi. Mussoliniyə[1] qarşı sui-qəsd planı da cidd-cəhdlə hazırlanmışdı, lakin son anda bu plandan imtina olundu. Çünki diktator Kobaridə gələndə yerli uşaqlar onu əhatəyə almışdı. Görünür, təhlükəsizlik xidmətinin rəisi doktor Quelli nədənsə duyuq düşmüşdü. İndi bu mənfur Quelli özünün xüsusi quldur dəstəsi ilə kəndləri gəzib insanlara qan uddurur. İtalyanlar əmim oğlanlarından yaşca kiçiyini və təşkilatın bir neçə fəalını güllələdi. Həmin hadisədən on ildən çox vaxt ötüb. Mixaylo, bura həm də sənin sığınacaq yerindir, onu təxminən iyirmi il əvvəl yaratmışam. TİQR üzvlərindən çoxu ölümdən yaxa qurtarmaq üçün bu sığınacaqdan istifadə edib. Bu müddət ərzində hələ kimsə bu sığınacaqdan həbsə düşməyib. Bilirsən, xoşbəxtlikdən, bizim ev bir neçə küçənin kəsişməsində yerləşir. Küçədən-küçəyə keçib gizlincə bura gəlmək mümkündür. Mixaylo, məlumun olsun ki, Sahilyanı diyarın slovenləri iyirmi ildən artıqdır ki, gizli şəraitdə fəaliyyət göstərir. Bizim üçün döyüş Birinci Dünya müharibəsindən sonra başlayıb. Görünür, Avstriyadakı Koroş vilayəti və Macarıstandakı Prekmurye bölgəsinin sakinləri üçün dünya savaşı hələ bitməyib. Dünyanı dəlilər zəbt edəndə ağıllı adamlar gizli şəraitdə yaşayıb fəaliyyət göstərməyə məcburdur! – Sosiç müdrikcəsinə dillənib köks ötürdü.

Mixaylo düşüncələrini dostları ilə bölüşməyi lazım bildi:

---

[1]**Benito Amilkare Andrea Mussolini** (29.07.1883, Predappio, Forli – 28.04.1945, Metseqra) – İtaliya mənşəli siyasətçi, faşist partiyasının başçısı, diktator (duçe), 1922 – 1943-cü illərdə İtaliya dövlətinin rəhbəri

– Əziz dostlar, müharibə və mübarizə həyatın vacib tərkib hissəsidir. İnsan gərək dəfələrlə ölümlə üzbəüz gəlsin ki, həyatı layiqincə qiymətləndirib onu sevə bilsin. Mənə elə gəlir ki, insan ətrafda baş verən ölümlərdən və dəhşətli əzablardan o qədər yorulur ki, hər gün xəyalən ölüb-dirilir. Yalnız bundan sonra, əziz dostum Sosiç, dərk etməyə başlayırsan ki, müharibədə hər bir həyat sülh dövründə olduğundan da əvəzsizdir. Həyat elə müqəddəsdir ki, bütün canlılar ona sitayiş edir. Müharibədə sağ qalmaq üçün ətrafa ölüm saçmağa məcburuq. Söhbət heç də insanın nə qədər ömür sürməyindən getmir, əsas məsələ Allahın sənə bəxş etdiyi ömrü necə yaşamaqdır. Müharibə qarşına çox mühüm bir sual qoyur: özün həlak olanadək nə qədər düşmən qırmısan?

Mirdaməd və mən Şərq cəbhəsinin dəhşətlərini yaşamışıq. Bəs Allah bizi niyə qoruyub, niyə öldürməyib? Tale bizi niyə Triestə gətirib? Çünki ürəklə döyüşüb düşmənə baş əyməmişik. Özümüzü, ölə biləcəyimizi əsla düşünməmişik, sağ qalmaq naminə saman çöpündən yapışmamışıq. Hər an həlak ola bilərdik, tikəmiz də ələ keçməzdi, heç iz-tozumuz da qalmazdı. Amma bunu düşünməyib döyüşə atılmışıq, canımızı Vətən uğrunda fəda etmişik. İncildə yazılıb ki, yalnız həyatın ətəyindən möhkəm yapışmağa çalışanlar həyatdan məhrum olur.

Təxribat hazırlayıb həyata keçirmək üçün münasib məqam gözləyəndə boş vaxtım çox idi. Bu barədə saatlarla düşünüb götür-qoy etmişəm. Elə indi də qarnım tox, damarlarımda qan qaynayır, özümü gümrah hiss edirəm, ancaq gecələr təmiz, yumşaq yatağa uzananda müharibə dövründə başıma gələn dəhşətləri anbaan xatırlayıb təhlil edirəm. Bu gözəl şəhərdə, əfsanəvi ölkədə, dostların əhatəsində süfrə başına əyləşib dadlı yeməkdən həzz alanda dönə-dönə özümdən soruşuram: bəlkə, yuxu görürəm? Bütün bunlar gerçəkdirmi, yoxsa, hələ də xəyallar aləmində dolaşıram? Dəhşətli zülmlər çəkmişəm, dəfələrlə ölümlə aramda bir qarış məsafə olub, bəlkə də, möcüzə sayəsində sağ qalmışam. Amma bu gün mənə elə gəlir ki, nağıllar aləminə, hətta deyərdim, cənnətə düşmüşəm. Əgər faşistlər bura ayaq basmasaydı, bu məmləkətdə xoşbəxt yaşayıb firavan ömür sürmək olardı. Ancaq cənnətdə də əfi ilanlar var. Faşistlər də bu zəhərli ilanlara bənzəyir. Açığı, bu ilanların başını üzmək, onları bir yerə toplayıb partlatmaq mənə ləzzət verir, sanki ürəyimdən tikan çıxır. İlanı başından əzmək lazımdır. Bu günə qədər cəhənnəmə göndərdiyim faşistlərin sayı qədər ilan öldürsəydim, yəqin, əvvəl-axır bu işdən bezərdim, amma faşistlərin qanını içməkdən bezməyəcəyəm.

Sosiç Mixaylo ilə razılaşdı:

– Faşistlərin axırına çıxmayanadək mən də mübarizədən əl çəkən deyiləm. Onların kökünü kəsmək lazımdır. Bilirsən, Mixaylo, İtaliya mətbuatı faşistlərin Stalinqrad ətrafında məğlubiyyəti barədə bir neçə aydan sonra xəbər vermişdi. Biz gecə-gündüz Tanrıya yalvarıb Stalinqrad müdafiəçiləri üçün dua edəndə sizinkilər Paulusun əsgərlərini artıq çoxdan Serbiyaya qədər qovmuşdu. Paulusun qoşunlarının darmadağın edilməsi xəbərini oxuyanda anladım ki, faşistlər uduzub, müharibənin taleyi Stalinqradda həll olunub və indi almanlar bütün cəbhə boyu geri çəkiləcək. Sanki çiynimdən ağır yük götürüldü, rahat nəfəs aldım. Düşündüm, bundan sonra davanın axırını görməsəm də, eybi yoxdur, onsuz da, əvvəl-axır faşistlər, ya da italyanlar uduzacaq və biz qalib gələcəyik! 1942-ci ilin sentyabrında Mussolini seçkilərdə uduzanda da bənzər hisslər keçirmişdim, ürəyim buz kimi idi. Bu xain rəhbər başımıza olmazın zülmlər gətirdi.

Miryam əlavə etdi:

– Ölmək fikrini yadından çıxart, ata! Müharibənin sonunu hamımız görəcəyik, hələ üstəlik, yeyib-içib bayram da edəcəyik!

Şam yeməyindən sonra davam edən söhbət zamanı Mixaylo tapançasını təmizləməyə başladı. Silahın lüləsini silə-silə dedi:

– Sosiç, səninlə tam razıyam. Stalinqrad faşist ordusunun qələbə zəfərinin qarşısına sədd çəkdi. Halbuki ilk altı ay ərzində elə təəssürat yaranmışdı ki, almanlar hər an qalib gəlib rusları darmadağın edə bilər. Qızıl Ordunun geri çəkilməsinə və almanların hücumuna yalnız Volqa çayı və Stalinin qətiyyəti son qoydu. Sonra Birinci Dünya müharibəsində olduğu kimi, mövqe müharibəsi başlandı. Amma bu müharibə hər iki tərəfə böyük dəhşətlər yaşatdı. Kimsə əminliklə deyə bilməzdi ki, bir saniyədən sonra sağ qalacaq, ya yox!

Saat gecə yarısını göstərəndə hamı yatmağa getdi. Komendant saatı başladığı üçün Seyidov dostu Mixaylonun sığınacağında gecələməli oldu.

Sosiçin birmərtəbəli evi Triestin mərkəzinə yaxın, yük limanının yanındakı fəhlə məhəlləsində yerləşirdi. Buradan şəhərin baş meydanı Oberdana piyada on beş dəqiqəyə çatmaq mümkün idi. Bu yol həmişə qələbəlik olurdu. Mixaylo şəhərdə alman hərbi formasında gəzirdi. Polis və karabinerlər, adətən, hərbi forma geymiş şəxsləri saxlamırdı. Hətta hərbi polis də alman zabitlərindən yan keçir, əsasən, əsgər və feldfebelləri yoxlayırdı. Amma fəhlə məhəlləsində zabit forması geymiş şəxsin peyda olması diqqət çəkə bilərdi. Buralar təhlükəli yer sayıldığı üçün alman zabitləri bu küçələrə ayaq basmırdı. Ona görə də Mixaylo

Sosiçin evinə yalnız günün qaranlıq vaxtlarında, komendant saatından əvvəl gəlirdi.

Sığınacağa günorta gəlmək lazım olanda Mixaylo şəhər kəşfiyyat xidmətinin rəhbəri Darkonu əvvəlcədən xəbərdar edib, fəhlə məhəlləsinin başındakı sloven aşxanasına girib, mətbəxin arxasındakı kiçik otağa keçir, hərbi formanı çıxarıb, mülki paltar geyinirdi. Bura Mixaylo üçün çox rahat idi, çünki gizli çıxış qapısı vardı. Sıx bitmiş ağacların və kolların arxasında yerləşən qapıdan girib-çıxan görünmürdü. Çox vaxt Mixaylonun bura gəlməsindən heç aşxana işçiləri də xəbər tutmurdu. Aşxanadan Sosiçin evi, demək olar, bir addımlıqda idi. Evin zirzəmisində ayaqqabı təmiri emalatxanası yerləşirdi, üst mərtəbədə isə Sosiçin ailəsi yaşayırdı. Mansardda Mixaylonun sığınacaq kimi istifadə etdiyi dar otağın kiçik pəncərəsi vardı. Bu pəncərə küçəyə yox, dənizə açılırdı. Mixaylo çarpayıda uzanıb saatlarla dənizin mavi sularına, bəyaz qağayıların, ala-bəzək göyərçinlərin havada dövrə vurmasına tamaşa edirdi. Bu mənzərə ona Bakını xatırladırdı. Uşaqlıqda tez-tez dama çıxıb, göyərçinlərə dən verirdi, evlərinin pəncərəsindən isə Bakı limanı, dənizin üstündə çığırışan qağayılar görünürdü.

Mixaylonun çardaqdakı kiçik sığınacağına qalxan dar pilləkənin gizli qapısı paltar şkafının arxasında yerləşirdi. Şkafın arxa divarını sökmüşdülər, Mixaylo pilləkənə keçmək üçün asılqandakı paltarların arasından keçməli idi. Miryam ətir şüşələrini burada saxladığı üçün şkafın içindən bihuşedici qadın qoxusu gəlirdi. Mixaylo bu axşam şkafın içindən keçəndə bir anlığa dayanıb Miryamın qoxusunu aldı. Amma çarpayıya uzanan kimi hər şeyi unudub Triestdə sabah planlaşdırdığı təxribat barədə düşünməyə başladı.

## XV

Mixaylo ilə Mirdaməd Triestdəki uğurlu təxribatdan sonra öz aralarında “iqamətgah” adlandırdıqları yerdə – Pliskovitsadakı rabitə postunda gizlənib bir müddət gözə dəymədilər. Postda öyrəndilər ki, Qradnik briqadasında 1 May bayramı qeyd olunacaq və onları da dəvət ediblər.

Triest kazarmalarında yüzlərlə hitlerçini məhv etdikdən sonra təxribatçılar motosikletlə şəhərdən uzaqlaşdılar. Motosikletlərdən birini həmişə olduğu kimi, Pavelin daxmasında gizlətdilər. Kəndlini gecənin bir aləmində şirin yuxudan oyatmışdılar, o da dodağının altında deyinirdi. Amma təxribatçılar elə şən əhval-ruhiyyədə idi ki, tezliklə Pavelin də kefi duruldu və hətta vaxtsız qonaqlara şam yeməyi də hazırladı. Süfrə başında etiraf etdi ki, pis yuxu görürmüş və yaxşı ki,

motosikletlərin səsi onu oyadıb. Pavel bunu deyib, araq gətirmək üçün zirzəmiyə endi. Seyidov araq adını eşidən kimi sevincək əlini-əlinə sürtdü. Hər dəfə süfrəyə araq gələndə deyirdi ki, bu içkini xoşlamır, sadəcə, ev sahibinə hörmət naminə içir.

Mixaylo arağı şərab kimi, qurtum-qurtum içirdi. Spirtli içki əvəzinə bulaq suyunu sevirdi. Əməliyyat vaxtı əməlli-başlı tərləmiş, indi də boğazı qurumuşdu. Üzünü qonaqpərvər ev sahibinə tutdu:

– Bu dəfəki əməliyyat Opçina kəndindəki kinoteatrda törətdiyimiz təxribatdan asan keçdi. Təsəvvür edirsən, kinoteatrda yarım saat faşistlərin zəhlətökən təbliğat filminə baxmağa məcbur olmuşduq. Digər tərəfdən də, zal zabitlə dolu idi, məni tanıya bilərdilər. Bu dəfə isə İvanla restorana gəlib əla nahar etdik. Sərxoş zabitlərin dünya vecinə deyildi. Amma şəraba söz ola bilməzdi, desertin də dadından doymaq olmurdu, başımız yeməyə elə qarışdı ki, içində partlayıcı olan çantanı masanın altında unutduq! Yerdə qalan iki minanı isə zirzəmidə, tualetin qarşısında gizlətdik.

– Partlayışın gurultusundan qulaq tutulurdu. Səsi şəhərin o başında eşidilirdi. Ağlıma gəlməzdi ki, bu işi sən törətmisən, Mixaylo, – qonaqlarına rəğbət bəsləyən Pavel səmimiyyətlə dilləndi.

– Hə, göz dəyməsin, bu dəfə işimiz yağ kimi getdi. Zabitlər evinə maneəsiz daxil olduq, kimsə bizə əhəmiyyət vermədi, heç yoxlamadan da keçmədik. Küncdəki masada əyləşib nahar sifariş verdik, bir az da şərab vurub aradan çıxdıq. Burda nə var ki, İvan, düz demirəm?

– Haqlısan, Mixaylo. Ancaq boynuma alım ki, Zabitlər evinə girəndə ürəyim əsirdi. Həyəcandan heç nə eşitmirdim. Nə yediyim də yadımda deyil, dad, qoxu hiss etmirdim. Konyakla qəhvə içəndən sonra bir az özümə gəldim. Zabitlər evindən çıxanda da ürəyim bərk döyünürdü, sevinirdim ki, əməliyyat uğurla keçdi! – İvan təxribat barədə dostunun sözlərinə əlavə etdi.

– Ürəyin çox yumşaqdır, İvan! Ona görə səni mina qoymağa özümlə aparıram. Mən soyuqqanlı, sən istiqanlı! Biri od olanda biri də su olmalıdır, qardaşım!

– Mixaylo, sən gecə-gündüz faşistləri qırmağı düşünürsən, mən isə həyatımız barədə fikirləşməyə məcburam: necə edək ki, sağ qalaq?

– Bax buna görə də biz əla təxribatçılar komandasıyıq, İvan!

– Mənə elə gəlir, ikiniz də normal adamlarsınız. Dünyanın bu qarışıq vaxtı sizin kimi yaxşı insanlara nadir hallarda rast gəlmək olar. Uğurlu əməliyyat münasibətilə sizi ilk təbrik edən adam olduğum üçün xoşbəxtəm! – Pavel gülümsünüb qonaqlara baxdı.

Mixaylo dedi:

– Zabitlər evində, ən azı, beş yüz adam vardı, məncə, nəticə uğurlu oldu.

– Pavel, eşitmisən də, Mixaylo tez-tez deyir ki, ilanı başından əzmək lazımdır!

– Əlbəttə eşitmisəm! Buralar ilanla doludur. Amma ilanı öldürmürəm, yazıqdır, qoy yaşasın. Qaldı faşist ilanlara, onların başını əzmək müqəddəs işdir. Təəssüf, bu işi görməyə imkanım yoxdur. Ancaq siz bunu hamıdan yaxşı bacarırsınız!

– Qəm yemə, Pavel! Onları sənin əvəzindən də qırarıq! – Mixaylo Pavelə ürək-dirək verdi.

Süfrə başında bayaqdan əsnəyən ev sahibi isti yatağında yatmağa, təxribatçılar isə motosikletə minib Sejan istiqamətinə yollandılar. Hər ikisinin əynində alman forması vardı. Mixaylo hələ də qoluna bağladığı hərbi polis sarğısını açmamışdı, çantasında polis dəyənəyi gəzdirirdi. Xutordan çıxanda Mirdamədə dedi:

– Mənə elə gəlir, 1 May bayramına əliboş getmək yaxşı deyil. Hədiyyəsiz olmaz! Səhərə az qalır. Gəl yol kənarında gözləyək. Səhərlər buradan intendant xidmətinin maşınları keçir, özü də onları keşikçilər müşayiət etmir. Pusqu qurub yükü ələ keçirmək olar.

Seyidov motosikleti asta sürür, aprel gecəsinin ılıq mehi üzünü sığallayırdı. Motosikletin tərkində oturmuş Mixaylo bu yerlərə yaxşı bələd idi. Bir neçə dəqiqədən sonra əyilib Mirdamədin qulağına dedi:

– İrəlidə yol kəsişməsi var, orda saxla! Əsl biz istəyən yerdir! Asfaltdan çıx, sağa döndər!

Seyidov mühərriki söndürdü, ətrafa sükut çökdü, ara-sıra quşların səsi eşidilirdi. Qaranlıq kəhkəşan yavaş-yavaş işıqlaşır, ulduzlar bir-bir yoxa çıxırdı. Dostlar dinməzcə siqaret çəkib meşənin xışıltısına, quşların səsinə qulaq asırdı. Mehdi motosikleti dartıb asfaltın ortasına gətirdi. Seyidov yolun qarşı tərəfindəki kolluqda gizləndi. Dan yeri yenicə sökülürdü.

Mixaylo musiqi həvəskarı idi, meşədə quşların oxuması ruhuna qida verirdi. “Bu quşlara dirijor lazım deyil, notları bir-birinin ardınca elə məharətlə düzürlər ki, adam heyran qalır!”

Quşların səhər xorunu yaxınlaşmaqda olan yük maşınının səsi pozdu. Meşə nəğməsinin yarımçıq kəsilməsi Mixaylonu dilxor etdi. Sivilizasiyanın bu dördtəkərli məhsulunun kobud səsi ilə quşların ecazkar nəğməsini müqayisə etmək mümkün deyildi. Amma yadına düşəndə ki, bir təxribatçı olaraq geniş yolun ortasında niyə dayanıb, quşların nəğmə dərsini dərhal unudub özünə gəldi.

İki gündən bəri gözünü yummamışdı, ona görə də diqqətini cəmləşdirməyə çalışdı. İki-üç dəfə dərindən nəfəs alıb əl-qolunu oynatdı

ki, yuxusu qaçsın. Hava işıqlaşmışdı və Mixaylo uzaqdan sürücünün kabinədə tək olduğunu gördü. Bu, məsələni asanlaşdırırdı.

Mixaylo əlindəki polis dəyənəyi ilə sürücüyə maşını saxlamaq işarəsi verdi. Heç nədən şübhələnməyən sürücü maşını yol kənarına çəkib saxladı və qapının şüşəsini endirdi. Sükan arxasında oturmuş hərbçinin tünd dərisi Mixaylonun diqqətini cəlb etdi. Gözlərinə baxanda başa düşdü ki, bu adam həmyerlisidir. Qurduğu plana dərhal düzəliş etmək məcburiyyətində qaldı. “Frits”i güllə ilə vurmaq əvəzinə, tapançanı onun burnunun ucunda oynadıb Azərbaycan dilində dedi:

– Dostum, Allah üzünə baxdı ki, üzünün dərisi tünddür, yoxsa beyninə bir güllə sıxacaqdım. İndi özün seç: həyat, yoxsa ölüm? De görüm, nə aparırsan?

Mixaylo danışdıqca tapançanı sürücünün alnına yaxınlaşdırırdı. Zavallının qorxudan gözləri çəpləşdi.

– Cənab leytenant, icazənizlə raport verim: çörəkxanadan Sejaneyə ton yarım, Qoritsadakı kazarmaya isə 200 kiloqram çörək aparıram. Hər səhər onlara ərzaq daşıyırıq. Düzü, yarım saat gecikmişəm. Çörəkxanadakı sobalardan biri xarab olmuşdu, məcbur qalıb gözlədim ki, çörək soyusun, isti çörəyi maşına yükləmək olmur, cənab leytenant, – sürücü də azərbaycanca cavab verdi.

– Bəxtin gətirib ki, gecikmisən, yoxsa qaranlıqda güllədən canını qurtara bilməyəcəkdin! Vurub sərəcəkdim səni yolun ortasına! Yaxşı, adın nədir?

– Feldfebel Əli Tağıyev! Altıncı artilleriya alayının intendant bölüyündən. Hərbi hissəmiz Sejanedə və Qoritsada yerləşir. Bir neçə gündən sonra bizi Cənub cəbhəsinə göndərəcəklər.

– Buna baxarıq, – Mixaylo qəzəblə dilləndi, amma barmağını tətikdən çəkmədi.

Seyidov gördü ki, Mixaylo sürücünü hələ öldürməyib, ona görə də gizləndiyi yerdən çıxmadı. Amma söhbətin azərbaycanca getdiyini eşidib dözə bilmədi və maşının arxa tərəfindən keçib kabinəyə yaxınlaşdı. Bu an Mixaylo sürücüyə maşından düşmək əmri verdi. Sürücü, hərbi polis formasında olan həmyerlisinin ondan nə istədiyini anlamayıb gözlərini döydü. Seyidov diqqətlə ona baxıb sevinclə dinləndi:

– Ay Allah! Sən bir işə bax! Kimi görürəm? Əli! Əziz dostum, qardaşım! Gör Allah bizi harda görüşdürdü!

Seyidov yaxınlaşıb Əlini bağrına basdı, üz-gözündən öpdü. Sonra Mixaylo ilə dostunu bir-birinə təqdim etdi:

– Tanış ol: Əli Tağıyev! Əli, bu oğlan isə komandirimdir, partizan ləqəbi Mixaylodur. Yəqin, başa düşürsən ki, biz alman zabiti deyilik.

Partizanıq, təxribatçıyıq, bu təlxək paltarını da ona görə geyinmişik ki, "Hitlerçi siçovulların qırğını" adlı operettada iştirak edirik.

Mixaylo əlavə etdi:

– Partizan azadlıq hərəkatı adından içi ərzaqla dolu bu yük maşınını müsadirə edirik. Sənin də seçim imkanın var: güllə, ya da könüllü surətdə tərəfimizə keçmək! İnan, gəbərmiş fritsdənsə, diri partizan olmaq yaxşıdır! Alman hərbi hissələrindən partizanların tərəfinə o qədər legioner keçib ki, məcbur olub rus bölüyü yaratmışıq. Gəl qoşul bizə! Fikirləşmək üçün sənə iki dəqiqə vaxt verirəm!

Əli ciddi tərzdə cavab verdi:

– Hə, məni əcəb seçim qarşısında qoydunuz, hörmətli Mehdi-Mixaylo! Bəyəm başqa çıxış yolum var? Sizin kimi mənim də faşistləri görən gözüm yoxdur. Bəxtim gətirib ki, mənə intendant dəstəsində təhlükəsiz iş veriblər. Cəbhədə olsaydım, çoxdan qaçıb getmişdim. Özünüz görürsünüz də, başımı aşağı salıb bir parça çörəyimi qazanıram.

– Peyğəmbərimiz necə buyurub: sənə lazım olan qədər götür, qalanını yaxınlarınla paylaş! İndi isə tapançanı mənə ver, keç sükanın arxasına, ardımca sür. Mirdaməd, sən də kabinədə, dostunun yanında əyləş!

Motosiklet və yük maşınından ibarət kiçik karvan Dutovle kəndindən yuxarıdakı yamacların arasında ilan kimi qıvrılan dağ yolları ilə irəliləyəndə günəş artıq qalxmışdı. Mixaylo güman edirdi ki, Qradnik briqadasının ön xətdəki postları haradasa qarşıdakı təpənin arxasında yerləşir.

Motosikleti saxladı, alman formasını soyunub, mülki paltar – idman şalvarı, ağ köynək və sviter geyindi. Ancaq keyfiyyətli dəridən tikilmiş uzunboğaz hərbi çəkmələri çıxartmadı – belə rahat idi. Sonra yenidən motosikletin mühərrikini işə salıb yoluna davam etdi, Mirdamədlə Əli isə kabinədən düşüb siqaret yandırdı. Yol boyu Seyidov qohumuna baş verən hadisələr barədə ətraflı danışdı. Əli böyük məmnuniyyətlə Mixaylonun təxribat qrupuna daxil olmağa razılıq verdi.

Partizan postu, həqiqətən, təpənin arxasında, meşənin kənarında yerləşirdi. Postda dayanmış əsgərlər mülki geyimli motosikletçiyə atəş açmadılar. Onları təxribat qrupunun gəlməsi barədə xəbərdar etmişdilər. Keşikçilərdən biri yük maşınına yaxınlaşdı, Mixaylo isə motosikleti birbaşa briqada qərargahının qarşısına sürdü – yolu cavan rabitəçilərdən biri nişan verdi. Görünür, motosikletdə gəzmək üçün ürəyi gedirdi, ona görə də böyük məmnuniyyətlə arxa oturacağa minib yolu göstərdi. Qərargahda Mixaylonu dostcasına qarşıladılar. Hamı onun qəhrəmanlığından danışır, təbrik edib bağrına basır, əlini sıxırdı. Zarafat

deyil, faşist yuvasının içində almanlara qan uddurmuşdu, bütün qəzetlər bu təxribatdan yazırdı.

Şam yeməyinə gedəndə Tone ilə söhbətləşdi. Köhnə tanışı digər əsgərlərlə birlikdə postda keşik çəkirdi. Mixaylo ərazini gəzib, adəti üzrə, hər ağacı, kolu, cığırı yaddaşına həkk etməyə çalışırdı. Bu vərdiş çoxdan yaranmışdı – fövqəladə vəziyyətdə sığınacaq, yaxud geri çəkilmək üçün yol tapmaq lazım gələndə özünü itirməsin, bilgilər köməyinə çatsın, əraziyə beş barmağı kimi bələd olsun. Bu məqsədlə çıxdığı növbəti gəzintidə Tone ilə qarşılaşdı.

Mixayloya məlum idi ki, Tone də alman hərbi hissəsindən fərarilik edib. Ona görə də bu cavanla almanca, həm də açıq danışırdı. Tone Mixayloya göz vurub dedi:

– Hakimiyyət yeldəyirmanı kimi bir şeydir. Külək güclü əsdikcə sürətlə fırlanır. Həm də deyirlər, hakimiyyət insanı pozur. Bizim taleyimiz oxşardır. Hər ikimiz düşmən ordusunda xidmət etmişik, ha-ha-ha!

– Deyilənə görə, almanlar səni hərbi xidmətə çağırıb, ordan qaçmısan, düzdür? – Mixaylo soruşdu.

– Qoren vilayətində, Bled gölünün kənarında yaşayırdım. Almanlar qocalı-cavanlı, hamını hərbi xidmətə çağırdı. Atıcılıq kursunu uğurla başa vurduqdan sonra qaçdım. Məni tutub Şərq cəbhəsinə yolladılar. Başım müsibətlər çəkdi. Amma cəbhədə əsl həyat məktəbi keçdim! Şərq cəbhəsində sağ qalmağı bacarana ölüm yoxdur!

Mixaylo razılıqla başını tərpətdi:

– Bəli, təcrübə müharibədə önəmli rol oynayır, həyat və ölüm məsələsi də məhz bundan asılıdır. Hərçənd taleyinə nə yazılıbsa, odur, qədərdən qaça bilməzsən, hər şey Allahın əlindədir!

– Bilirsən, Mixaylo, təcrübə ürəyin səsini dinləməyə imkan verir, intuisiyanı inkişaf etdirir. Təcrübə sayəsində ən təhlükəli vəziyyətlərdən sağ çıxa bilmişəm!

– Təkcə müharibədə yox, elə dinc dövrdə, adi həyatda da insan yalnız özünə, öz gücünə güvənməlidir. Daha dəqiq desək, əlindəki silaha, belindən asdığı qumbaraya arxalanmalıdır. Şübhəsiz, ən güclü dayaq ətrafındakı sadiq dostlardır.

– Təəssüf ki, müharibə insanların axırına çıxır, əks təqdirdə, davanı komandalar arasında yarışa bənzətmək olardı. İdmanda da belədir: qələbə qazanmaq üçün komanda üzvləri bütün səylərini birləşdirməlidir!

– Səninlə razıyam, Tone. Tək əldən səs çıxmaz, deyiblər. Ona görə də almanların əlindən qaçıb partizanlara qoşulmuşam. Birlikdə faşistlərə qalib gələcəyik, buna əminəm! Hitlerçilər nə qədər cəhd göstərsələr

də, xalqları, millətləri qırıb qurtara bilməzlər. İnsanlar ölür, ancaq xalqlar əbədi yaşayır. Bu cəhətdən ürəyim sakitdir. İstəsələr də, hamımızın axırına çıxa bilməyəcəklər. Əksinə, bu ilanları öz yuvasında boğacağıq. Müharibədə ən dəyərli şey döyüş dostluğudur! Bu dostluq hər bir döyüş dəstəsində təsadüfən bir yerə düşmüş müxtəlif insanlar arasında yarana bilər. Dostun, yoldaşın olmasa, heç bir döyüşdən salamat çıxa bilməzsən. Arxanda kim duracaq? Səni düşmən gülləsindən kim qoruyacaq? Başqaları öz canının hayına qalanda dost sənə görə canını verməyə hazırdır!

Döyüş dostum İvan olmasaydı, çoxdan ölmüşdüm. O da mənsiz məhv olardı. İndi heç bilmirəm, kim kimə borcludur, təhlükə ilə o qədər üzləşmişik ki, saymaq yadımızdan çıxıb. Qoy bir fikirləşim, hə, əlbəttə, İvan mənə borcludur! Axır vaxtlar mənə elə gəlir ki, yalnız özümü və İvanın həyatını xilas etməklə məşğulam. İşim-peşəm alman tör-töküntülərini təmizləməkdən ibarətdir. Onları bura kim çağırıb? Ümumiyyətlə, faşistlər dəvətsiz qonaq kimi niyə burnunu özgə torpaqlarına soxur? Heç kim faşistləri sevmir, camaatın onları görən gözü yoxdur. Faşistlər sanki başlarını balta altına qoyub yalvarır: "Vurun boynumuzu! Öldürün bizi!" Özünə, mənliyinə, şəxsiyyətinə hörmət edən adama yalvarmaq yaraşmaz! Şəxsən mənə yalvarmaq, xahiş etmək mənasızdır. Mənə qucaq açmış bu qonaqpərvər ölkədə bütün faşistlərin axırına çıxmayınca ürəyim sakitləşməyəcək! Onlara aman verməyəcəyəm! Yoldaş Tone, çiyin-çiyinə mübarizə aparıb bu torpaqları faşistlərdən təmizləyəcəyik!

– Bölükdəki dostlarım məni dəfələrlə ölümdən qurtarıb. Mən də borclu qalmamışam. Eşitdiyimə görə, minaatan bölüyün komandiri olmusan. Deməli, minadan, partlayıcı qurğudan yaxşı başın çıxır, hə?

– Əlbəttə, mina əsgərin ən yaxın köməkçisidir. Müharibənin əvvəlində asan idi – minaatan əlinin altında! Oturursan səngərdə, təhlükəsiz yerdə, döyüş xəttindən xeyli aralı, nişançı səhra telefonu ilə deyir ki, haranı, hansı hədəfi nişan almaq lazımdır, rəqəmləri söyləyir, sən də minanı silaha qoyub düyməni basırsan. Əgər düşmən gözlənilmədən hücuma keçərsə, minaatanı təhlükəsiz yerə – əvvəlcədən hazırlanmış ehtiyat mövqeyə çəkirsən. Bəli, razıyam, çətin işdir, atdığın minaların hara düşdüyünü, düşmənə nə qədər ziyan vurduğunu bilmirsən, axı döyüş xətti uzaqdadır. Burada isə vəziyyət başqadır. Minanı əvvəlcədən müəyyənləşdirdiyim yerə gətirirəm, həmin obyektə sağ-salamat gəlib çıxmaq da asan deyil. Partlayıcı qurğunun saatını quraşdırıb aradan çıxıram. Bir neçə dəqiqədən sonra dəhşətli partlayış baş verir və sən bütün bunları kənardan müşahidə edirsən. Ertəsi gün qəzetlərdən

düşmənin nə qədər canlı qüvvə itirdiyini öyrənirsən. Təxribat nəticəsində konkret olaraq nə qədər faşist qırdığını öyrənmək istəyirsənsə, dərc olunmuş rəqəmləri ikiyə vur! Çünki qəzetlər yalan yazır! Minanın digər partlayıcılar kimi bir məqsədi var: düşmən düşərgəsində elə bir tozanaq qoparsın ki, aləm bir-birinə dəysin, texnikanı, canlı qüvvəni sıradan çıxarsın!

– Haqlısan! Məqsədə nail olanda özünü peşəkar usta kimi hiss edirsən, sanki kimsənin düzəldə bilmədiyi çox mürəkkəb bir detalı dəzgahda yonub hazırlamısan. Dünyanın işinə bax, Mixaylo, biri partladır, digəri isə qurub-yaradır!

– Nahaq deməyiblər ki, yaratmaq üçün əvvəl dağıtmaq lazımdır. Bax biz də şər və haqsızlığın tüğyan etdiyi köhnə dünyanı dağıdıb, yerində yenisini qurmaq istəyirik. Fürsətdən istifadə edib günahsız yerə həlak olmuş dostlarımın, yoldaşlarımın qisasını almağa çalışıram. Faşist cəlladların əli onların qanına bulaşıb. Yəqin, nə demək istədiyimi anlayırsan, Tone?

Şam yeməyindən və 1 May bayramı münasibətilə təşkil olunmuş mitinqdən sonra döyüşçülər tonqal ətrafına toplaşıb siqaret yandırdılar, söhbət edib çay içdilər. Bəziləri qədəhlərinə rom süzmüşdü. Mixaylo da tonqal başına keçdi. Adətən, qaradinməz sayılan bakılı oğlan bu dəfə sanki dil açmışdı, dünyada baş verənlərdən, cəbhə xatirələrindən danışırdı. Sloven dilində sərbəst və aydın tələffüzü hamının xoşuna gəlirdi. Amma hərdən lazımi sözü tapmaqda çətinlik çəkdiyi üçün araya rus, yaxud ingilis sözü qatırdı.

Tonqal başına toplaşmış döyüşçülər onun sözünü kəsmir, dərin hörmət və ehtiram göstərirdi. Arxa cəbhədə törətdiyi çoxsaylı təxribatlara görə Qradnik briqadasının üzvləri ona canlı əfsanəvi partizan kimi baxırdı.

– Döyüşdə zaman dayanır, döyüşdən əvvəl isə saatın əqrəbləri çox asta fırlanır. Amma savaşdan sonra vaxtın necə keçdiyini xatırlaya bilmirsən. Belə bir fikir mövcuddur: əsgər vaxtının çoxunu döyüşü gözləməyə sərf edir. Açığını deyim, gözləməkdən pis şey yoxdur, vaxt bitmək bilmir. Amma döyüşdə müdafiə olunan əsgəri yalnız bir şey düşündürür: düşmən həmləsi nə vaxt səngiyəcək? Şərq cəbhəsində faşistlər vəhşicəsinə savaşırdı. Stalinqrad uğrunda döyüşün son mərhələsində artıq hər küçədə, hər məhəllədə qızğın atışma gedirdi, aləm qarışmışdı. Amma sizə deyim, şəhərdaxili döyüş çöl şəraitindəki döyüşdən çox fərqlənir. Şəhərdə əsl total müharibə, dəhşətli qırğın gedir. Çöl şəraitindəki döyüşdə düşmənin konkret olaraq qarşı tərəfdə, yaxud cinahlarda yerləşdiyini bilirsən və buna uyğun mübarizə taktikası

qurursan. Şəhərdə isə düşmənlə hər an, həm də gözləmədiyin yerdə qarşılaşa bilərsən. Səni zirzəmidən, tindən, binanın çardağından, bir sözlə, hər yerdən qəfil atəşə tutanda gizlənməyə yer tapmırsan. Düşmən siçovul kimi, uçub-dağılmış binanın xarabalıqları altında gizlənir, xəlvətcə, sürünə-sürünə yaxınlaşıb arxadan zərbə endirir. Belə döyüşdə diqqətli olub ehtiyatı əldən vermək olmaz! Həm də gərək bəxtin gətirsin.

Döyüşdə şüur və dərrakə ilə yanaşı, bəxt də lazımdır. Müharibənin məngənəsinə düşən adam sanki uçurumun kənarı ilə addımlayır, hər an ölümlə üz-üzə gəlir, həyatı tükdən asılı olur. Statistikaya görə, Şərq cəbhəsində əsgər ömrünün orta uzunluq həddi bir həftəyə bərabərdir. Sonradan faşist forması geyinməyə məcbur olsaq da, çoxumuz bu dəhşətli qırğından diri çıxmağı bacardıq. Amma əsir düşəndən sonra ağıllı və tədbirli tərpənib şəraitə uyğun düzgün qərar vermək lazımdır. Çünki sənin həyatın düşmənin əlindədir, hər an bitə bilər. Almanlar bizi həbs düşərgəsində bir neçə ay ac-susuz saxlayıb işgəncə verdilər, ancaq legionda xidmət edəndə vəziyyət dəyişdi: normal yemək və paltarla təmin etdilər, həm də hərb sənətinin sirlərini öyrətdilər.

Əlimə almanların içi silah, yaxud ərzaqla dolu yük maşını keçəndə özümü çox rahat hiss edirəm. Dərhal Stalin yadıma düşür. O, inqilabdan əvvəl Tiflisdə, hətta dünyanın ən zəngin şəhərlərindən biri olan doğma Bakıda bankların, zəngin adamların pulunu əlindən alıb inqilabçılara ötürürdü. Stalinqradda da imkan düşən kimi tez-tez reydə çıxıb düşmənin malını, silah-sursatını müsadirə edirdik. Təəssüf ki, Stalinqrad uğrunda döyüşün son fazasında iştirak edə bilmədim. Qızıl Ordunun əsgərləri Paulusun ordusunun başını oraqla üzüb çəkiclə əzdi. O vaxtdan bəri faşistlər, necə deyərlər, idmanın yalnız qaçış növü ilə məşğuldur, Berlinə qayıdıb Hitlerin ətəyi altında gizlənməyi düşünürlər.

Hamı güldü. Mixaylonun yanında oturmuş kəşfiyyat rotasının komandiri Pemts dedi:

– Mixaylo, faşistlərin qaçış ustalığına Triestdə də qiymət verə bilərsən. Səni əsl kişi, ağıllı, dərrakəli adam sayıram, igidliyinə, bacarığına, dəyanətinə söz ola bilməz. Bilik və bacarığını, döyüş təcrübəni cavan əsgərlərə öyrətdiyin üçün ürəkdən sevinirəm. Səndən görüb-götürməli çox şey var. Onların döyüş, hərbi və təxribatçılıq sahəsində təcrübələri çatışmır. Dinc dövrdə əsl insan olmaq çox çətindir, qaldı ki, müharibə dövründə.

Mixaylo cavab verdi:

– Bəli, Pemts, anadan hamı eyni doğulur, insani keyfiyyətlər isə sonradan qazanılır, illərlə cilalanır. Ləyaqətli insanın heç vaxt düşməni

olmur. Ona görə də hitlerçiləri, onların xain əlaltılarının hamısını məhv etməyə çalışıram ki, düşmənsiz yaşayaq. Nifrəti qəlbimizdən, düşüncəmizdən silsək, xoşbəxt ömür sürərik.

Tonqal ətrafına toplaşan cavanların atası yaşında olan təxribatçı partizan Marko söhbətə qoşuldu:

– Gözəl sözlərdir. Ancaq dünyagörmüş, müxtəlif siyasi rejimlərin və hakimiyyətlərin dövründə yaşamış bir ağsaqqal kimi demək istəyirəm: hakimiyyət xarici düşməni məhv edəndən sonra daxildə düşmən ovuna çıxır və bu ovun sonu görünmür.

– Əziz Marko, əgər güman etsək ki, məsələ siz deyən kimidir, onda müharibə zamanı dinc dövr barədə düşünməyin mənası yoxdur. Amansız dava gedir, düşməni məhv etmək lazımdır. Bizim nifrətimizlə onların azğın, vəhşi çılğınlığı arasında böyük fərq var. Bizim nifrətin kökündə insana, xalqlara və bəşəriyyətə məhəbbət dayanıb, hitlerçilərin nifrəti isə yalnız bir şeyə əsaslanır: bir xalqın digər xalqlar üzərində hegemonluğu! Faşistlər buna nail olmaq üçün dünyanı viran qoymağa, günahsız insanların qanını tökməyə hazırdır. Bu, elmi yox, heyvana xas vəhşi məntiqdir. Özünü başqasından üstün hesab edən adam bir gün həmin o alçaltdığı şəxsin əlində ölməyə məhkumdur!

– Hətta İncildə də bu bəd əməlləri lənətləyən patriarxlardan yazılıb. Özünü hamıdan üstün sayan, xəstə təfəkkürlü adam gec-tez sınır, məhv olur. Bütün bunlar haqsızlıq, rəzalət və zülm doğurur! – Marko bu sözləri keşişlərə xas xüsusi avazla deyib toplaşanlara sanki xəbərdarlıq mesajı göndərdi.

Pemts gülüb dedi:

– Marko, deyəsən, sizin və Mixaylonun könlündən komissar olmaq keçir, hə? Adamlar arasında təbliğat aparmaq üçün sözləri muncuq kimi bir-birinin dalına düzürsünüz. Bizi hansı həqiqətə inandırmağa çalışırsınız? Açığı, qabiliyyətinizə heyran qalmışam. İcazənizlə, sizə bir məsləhət verim: komissar olmaqdan vaz keçin! Aramızda sizdən də yaxşı, pafoslu nitq söyləməyi bacaran yoldaşlar çoxdur! Deyərdim, həddindən artıq çoxdur! Boş-boş danışmağa nə var ki! Ancaq qəhrəmanları, igid döyüşçüləri barmaqla saymaq olar. Sözümün canı budur ki, cavanlar sizdən danışmağı yox, döyüşməyi öyrənməlidir. Onlar cəsur təxribatçı Mixaylo və Markodan nümunə götürməlidir. Çünki hər ikinizin təxribat əməliyyatları hərb tarixinə parlaq səhifələr yazır.

– Pemts, əgər hərbi hiyləni müharibənin şahzadəsi adlandırsaq, təxribat onun şəxsi qvardiyasıdır və hər şey bu qvardiyanın fəaliyyətindən asılıdır. Ona görə də biz təxribatçılar döyüş meydanında, ya arxa

cəbhədə hər addımı ölçüb-biçməyə, riskə getməyə, düşmənə gözlənilməz zərbə endirməyə borcluyuq.

– Yoldaş Marko, xahiş edirəm, mənim bölüyümdə krallar və kraliçalar barədə nağıl danışıb şəxsi heyətin tərbiyəsini pozmayasınız! – Batalyon komissarı gülə-gülə ayağa qalxıb uzaqlaşdı. O, gedəndən sonra tonqalın ətrafında qalanlar uzun müddət komissarın dediklərini təkrar edib güldülər.



# MAY 1944-cü il

**XVI**

Lobya və qızardılmış ətdən ibarət olan şam yeməyindən sonra partizan düşərgəsində istirahət saatları başlayırdı. Döyüşçülər isinmək üçün tonqalın başına toplaşıb söhbət edir, şam ağacının odunu yandıqca ətrafa xoş ətir yayılırdı. Asudə vaxtı mahnı oxumaqla keçirənlər də az deyildi. Dəstənin aşpazı Nande bu axşam öz məharətini göstərmişdi: xörəklər dadına görə əvvəlkilərdən xeyli fərqlənirdi. 1 May bayramı münasibətilə süfrəni xüsusi bəzəmişdi. Görünür, Nande qonaqların – təxribatçıların və kəşfiyyatçı Pemtsin yanında üzüqara olmaq istəmirdi. O, müharibənin əvvəlində, bir neçə ay Pemtslə eyni partizan dəstəsində qulluq etmişdi, dostluqları da oradan başlanmışdı. Qoca partizanın – dünyada hər şeydən xəbərdar olan Markonun gətirdiyi şərab şüşələri isə süfrənin bəzəyinə çevrilmişdi. Marko sehrbaz kimi dodağının altında bir neçə sirli kəlam söyləyib çantasını açdı, “Kryuger” markalı əla alman şampan şərablarını masanın üstünə düzdü.

– Səhərki təxribat əməliyyatından sonra mənə qalan yalnız bu şüşələr oldu! Lənətə gəlmiş faşistlərin bunkerini minaladım. Keşikçi ayaq üstə yatırdı, minanı necə qoyduğumdan xəbər tutmadı! Sürünüb bunkerdən çıxanda qapının ağzında bir səbətə rast gəldim. Baxdım ki, içində şampan şərabı var. Şüşələrin təxribata qurban getməsinə yol vermək olmazdı. Onları qəhrəmancasına xilas etmək qərarına gəldim. Nə isə, bir dəqiqə sonra bunker faşistlərlə birlikdə havaya uçdu. Güman edirəm, partlayış həmən o ayaq üstə yatan keşikçinin yuxusuna haram qatıb! – Marko qəhqəhə çəkdi. – Məncə, bunker əhlindən diri qalan yalnız odur. Əslində, buna haqqı var, çünki postda yatmasaydı, işim xeyli çətinə düşəcəkdi, mina qoymaq üçün başqa yer axtarmalı olacaqdım.

Hə, uşaqlar, şüşələri boşaltmaq vaxtı çatıb! Zəhrimar çox ağırdır, özümlə daşımayacağam ki!?

– Marko, heyfin gəlmir? Bəlkə, içməyib saxlayasan, hə?

– Pis olmaz! Suqabına töküb aparmaq olar. Döyüşün ən çətin anında bir-iki qurtum vurub şirə dönürsən! Həmişə deyirəm: suqabını ağzına qədər su ilə doldurmağın nə mənası var? Az olsun, yaxşı olsun! Adi həqiqət var: çalış, həmişə üzün gülsün, onda həyatdan istədiyin kimi kam alıb qayğısız yaşayarsan. Məni narahat edən yalnız bir məsələ var: faşistlərin anasını ağlatmaq üçün kifayət qədər mina qoymuşdum, ya yox? Əgər əlini bulaşdırmısansa, gərək axıra qədər gedəsən! Partlayışın öz gözəlliyi var, dostum. Bu iş təsirli, həm də yaddaqalan olmalıdır. Sizə deyim ki, mina qoyub partlatmaq adi məsələ yox, əsl incəsənətdir. Fərq ondadır ki, sağ qalmağı bacarmalısan!

– Bəli, heç şübhə etmirəm ki, sən və Mixaylo dünya şöhrətli sənətkarsınız, yəni təxribat törətmək üzrə ən böyük rəssamsınız! – Pemts ucadan dillənib özünə həmrəy tapmaq üçün masa arxasına toplaşanlara baxdı.

Bu vaxt postda dayanmış keşikçi xəbər gətirdi ki, qarşıdakı dağın başında böyük tonqallar görünür. Yerli sakinlər sabahkı 1 May bayramını artıq gecədən qeyd etməyə başlamışdı. Növbətçi zabitin əmri ilə hamı yatmağa getdi. Sabah bayram münasibətilə rəsmi tədbir keçiriləcəkdi, ona görə də yuxudan erkən oyanmaq lazım idi. Ertəsi gün briqadanın bütün üzvləri təntənəli yığıncağa toplaşdı. Əvvəlcə əslən Vipavadan olan komissar Loyze çıxış etdi. Rus bölüyü sağ cinahda düzülmüşdü, Mehdi də Loyzenin nitqini rus dilinə tərcümə edirdi.

– Qradnik briqadası cəbhənin ön sıralarında gedir. Bu isə o deməkdir ki, işğalçılara, düşmənə satılmış xainlərə qarşı amansız mübarizə aparmalıyıq! Faşistlər sloven xalqını kölə halına salmaq istəyir, ancaq buna imkan verməyəcəyik! Düşmənə gözlənilməz, ağır zərbə endirib onu məhv edəcək, silah-sursatını ələ keçirəcəyik. Bütün bunlar Vətən uğrunda apardığımız müqəddəs savaş üçün lazımdır!

1943-cü ilin aprelində Sahilyanı bölgənin şimalında fəaliyyət göstərən üç partizan batalyonunu birləşdirib Qradnik briqadası təşkil etdik. Həmin vaxtdan bir il ötüb. İndi isə Mixaylonun köməyiylə sıralarımıza qoşulmuş legionerlərdən ibarət rus bölüyü yaradılıb, digər sloven partizanlar da briqadaya daxil olub. Bölük komandiri Cavad Həkimli və komissar Vinko Tomtsu yaxşı tanıyırsınız. Biz bu igid yoldaşların səylərini yüksək qiymətləndiririk.

Bazovitsk briqadasında da əvvəl rus bölüyü təşkil olunmuşdu, Mixaylo legionerlərə qaçmaq üçün şərait yaratdıqdan sonra indi

bölüyün sayı ikiyə çatıb. Hətta eşitmişəm ki, Bazovitsk briqadasındakı rus bölüyü ilə sloven partizanları arasında, necə deyərlər, qeyri-rəsmi rəqabət mövcuddur. Qızıl Ordunun keçmiş döyüşçüləri bizim partizanlar kimi, özlərinin bacarıqlı, yenilməz əsgər olduqlarını nümayiş etdirir. Bu qeyri-rəsmi rəqabət sayəsində briqadanın bütün döyüşçüləri arasında sıx dostluq və qardaşlıq telləri yaranıb. İnanıram ki, siz də ən yaxşılardan nümunə götürəcəksiniz.

Bu gün aramızda olan qonaqları – qəhrəman təxribatçıları xüsusi salamlamaq istərdim. Onlar 1 May bayramı münasibətilə təşkil etdiyimiz tədbirə təşrif buyurub. Həmçinin partizanlara – Mixaylo və Rus İvana dərin təşəkkürümü bildirmək istəyirəm. Onlar bizə bir yük maşını çörək gətirib. Xalq arasındakı inanca görə, bu çox yaxşı əlamətdir. Çörəklə gələn qonaq ən sadiq dost deməkdir! Açığı, çoxdandır belə dadlı çörək yeməmişdim. Sevindirici haldır ki, düşmənin yük maşınının sürücüsü Əli Tağıyev də bizə qoşulub. Mixaylo və onun dostlarının bu parlaq qəhrəmanlığı partizanlara xas müdrik fikri bir daha təsdiq edir: düşmənin əlində nə varsa, müsadirə edib faydalanmaq lazımdır! Bu, faşistlərə ikiqat zərbə deməkdir! – Komissar Loyze çıxışını bitirdi.

Mixaylo partizan komissarının nitqini həmyerlilərinə böyük həvəslə tərcümə edirdi. Komissar onu və Seyidovu təriflədi, çıxışın bu hissəsini tərcümə edəndə Mixaylonu keçmişdə olduğu kimi ikrah hissi bürümədi, əksinə, qürrələndi, fərəhlə dostlarına baxdı. Çünki çiyin-çiyinə mübarizə apardığı bu adamları özünə dost və qardaş sayır, partizan ocağını isə doğma evi hesab edirdi. Rus bölüyündəki yüksək əhval-ruhiyyəni gördükcə qəlbi iftixarla döyünür, özünü gələcək döyüşlərə hazır hiss edirdi.

Təntənəli yığıncaqdan sonra döyüşçülər çəmənlikdə oturdu, çay içib söhbət etdi. Mixaylonun müharibə ilə bağlı fikirləri hamıda böyük maraq doğurdu. Keçmiş legionerlər onu həvəslə dinləyirdi. Mixaylo bu adamlardan çoxunu faşistlərin çəngindən alıb, sözün əsl mənasında ölümdən qurtarmışdı. Legionerlər arasında eləsi vardı ki, Mixayloya, necə deyərlər, ikiqat borclu idi: igid partizan onları əvvəlcə faşist həbs düşərgəsindən qurtarmış, sonra isə alman hərbi hissəsindən qaçmalarına kömək etmişdi.

– Dünən axşam Markonun söylədiyi kimi, hiylə müharibənin anasıdır! Tarixə nəzər salsaq, görərik ki, müharibə özü də hiylədir. Belə ki, dava heç vaxt rəsmi elan olunmuş səbəbə görə başlamır. Dünyada baş vermiş müharibələrin arxasında həmişə gizli səbəblər dayanır. Ancaq adi əsgər üçün hər şey çox sadədir, yəni bu səbəblərin heç bir əhəmiyyəti yoxdur. Əsgərə əmr verilir, o da əmri yerinə yetirməyə çalışır. Həqiqətən,

əgər hər gün başını güllə qabağına qoyursansa, bu gizli səbəblər barədə düşünmək nəyinə lazım? Lakin bir təxribatçı kimi deməliyəm ki, gördüyüm iş çox mürəkkəbdir.

Əsgər gecə-gündüz döyüşür, mən isə vaxtımın əksər hissəsini düşünməyə, götür-qoy etməyə, plan cızmağa və növbəti əməliyyata hazırlaşmağa sərf edirəm. Əslində, düşünmək əməliyyata hazırlığın tərkib hissəsidir. Əməliyyat zamanı isə bütün düşüncələrdən xilas olmağa çalışıram, onları özümdən uzaqlaşdırıram, axı o vurhavurda düşünməyə imkan qalmır. Başın düşünməyə qarışsa, sağ qalmazsan! Əsl döyüşçü yalnız düşmən barədə fikirləşir və intuisiya ilə hərəkət edir. Amma intuisiyadan doğan hiylə çox səmərəli olur, belə ki, insan onu şəraitə, faktiki vəziyyətə uyğun düşünüb tapır.

– Mixaylo, o dəqiqə bilinir ki, müəllimlik oxumusan. Stalinqradın müdafiəsi ərəfəsində minaatan məktəbini bitirmisən, faşistlərin həbs düşərgəsində sağ qalmaq üzrə həyat universitetindən keçmisən, burda, Sahilyanı diyarda isə təxribat üzrə professor adını qazanmısan. Bunu mən deyirəm, özümün də pedaqoji diplomum var, amma səninlə müqayisədə, hərb sənətində adi şagirdəm! – Seyidov fəxrlə bildirdi.

– Yox, Mirdaməd, Sevastopolda yüz gün mühasirədə qalan adam hərb sənətinin şagirdi sayıla bilməz. Bu sənə aiddir. Belə ağır döyüşlərdən sağ çıxmaq yalnız peşəkarların işidir. Döyüşdə başını düşüncələrlə qatan adam sağ qalmaz! Axı nəsə fikirləşməyə vaxt qalmır! İnsan ani qərar qəbul edib hərəkətlərini şəraitə uyğunlaşdırmalıdır, bir saniyə geciksən, məhv olarsan! İtirdiyin hər saniyə düşmənə şans verir, əgər rəqib bu şansı görməsə, diri qalmaq imkanın var. Şansı əlindən buraxsan, özünü ölmüş bil! Allahdan kömək um! – Mixaylo müdrikcəsinə bildirdi.

– Ancaq sən bu məsələləri hamıdan yaxşı bilirsən, axı uşaqlıqdan güləşlə məşğul olmusan, hələ onda bığ yerin tərləməmişdi, – Cavad əlavə etdi. Seyidov kimi o da Mixaylonu çoxdan tanıyırdı, Qızıl Orduda birlikdə hərbi xidmətdə olmuşdular. – Cəbhədə də hamıdan fərqlənirdin. Yoldaşlar, sizə bir sirr açım. Deməli belə! Əhvalat Stalinqrad cəbhəsində baş verib. Döyüşçülərdən biri bazar günü kəşfiyyata yollanır, gələndə özü ilə nə gətirsə yaxşıdır? Hisə verilmiş donuz əti!

– Burda qəribə nə var ki?! – Mixaylo hərəkətinə haqq qazandırmağa çalışdı. – Almanlar hisə verilmiş donuz budunu barakın qarşısından asmışdı. Mən də kolluqda gizlənib faşistlərin neçə nəfər olduğunu sayırdım. Ət adama uzaqdan gəl-gəl deyirdi, ağzım sulandı, qarnım da acından quruldayırdı. Başladım fikirləşməyə ki, əti necə çırpışdırım. Plan öz-özünə yarandı. Baraka bir yedəkli motosiklet yaxınlaşırdı. Qumbaranı atdım yedəyin içinə, motosiklet barakın qarşısına çatanda

partlayış baş verdi. Mən də qarışıqlıqdan istifadə edib cumdum barakın qarşısına, əti götürüb aradan çıxdım!

– Ay Mehdi, vallah, səndən yoxdur! Anadangəlmə partizansan, amma minaatanlar bölüyünün komandiri kimi məharətini göstərə bilmirdin. Yoldaşlar, bu adamın bir xüsusiyyəti də var. Şaxtalı havada postda dayanmağı kimsə xoşlamır, amma Mixaylonun belə havada keşik çəkmək üçün ürəyi gedir. Bilirsiniz niyə? Bu yaxınlarda mənə dedi ki, şaxtalı havada nəfəsini məşq etdirir, xüsusi idman hərəkətləri edib əzələlərini möhkəmləndirir.

– Sağlamlığa səmərə gətirən idman hərəkətlərini yalnız postda keşik çəkərkən yerinə yetirmək düzgün deyil. İdmanla, bədən tərbiyəsi ilə mütəmadi məşğul olmaq lazımdır. Postda dayananda idman edirəm ki, bədənim və ruhum sağlam olsun, yuxum qaçsın, həm də fikrimi cəmləşdirim. Diqqətli və sayıq olmaq almanlarla apardığımız ümumxalq müharibəsində çox vacib keyfiyyətdir. Bəlkə də, bəşəriyyətə müharibələr ona görə lazımdır ki, adamlar diqqətli və ayıq-sayıq olsun. Şübhəsiz, bu işdə təcrübə köməyimə gəlir. Ancaq sənə heç vaxt deməmişəm ki, atamla yanaşı, əcdadlarımdan çoxu sərkərdə olub. Deməli, döyüşmək eşqi qanımdadır. Amma kimisə həyatdan məhrum etməyi sevmirəm. Ona görə də minaatanlar məktəbinə yazılmışdım, çünki minanı silaha qoyub uzaqdan atırsan, döyüş meydanında ölənləri görmürsən. Əgər atdığın minanın uçuş xəttini düzgün hesablamısansa, düşməni bir göz qırpımında məhv edə bilərsən! Nə isə. Ancaq dünənki naharın yerini heç nə verməz, düz demirəm? Bir az pəhriz saxlamaq heç də pis olmazdı, İvan! Güman edirəm, lazımi qədər qumbara gətirəcəklər, onlarsız əl-qolumuz bağlıdır. – Mixaylo yoldaşları ilə xudahafizləşib növbəti toplantıda iştirak etmək üçün briqada qərargahına yollandı.

## XVII

Qradnik briqadasına mövqeləri tərk edib Qoren vilayətinə getmək əmri verildiyi üçün Mixaylonu digər partizan birləşməsində – Cənubi-Sahil dəstəsində kəşfiyyat-təxribat qrupunun müvəqqəti komandiri təyin etdilər. Mixaylo, Seyidov və "Tole" partizan ləqəbi almış Əli daxil olmaqla qrupun on nəfər üzvü vardı. İkisi legionerlərin hərbi hissəsindən qaçıb gəlmişdi, biri Mixaylo və Mirdamədin həmyerlisi – Qızıl Ordunun keçmiş kapitanı Saşa İsgəndərov, digəri isə alman sualtı donanmasının kiçik leytenantı, əslən Seleziyadan olan antifaşist Frits idi. Qrupun iki bazası vardı: biri Vitovlyedə, digəri isə Rençedə. Kəşfiyyat-təxribat qrupuna cavan zabit başçılıq edirdi, partizan ləqəbi "Tsar" idi. Mixaylo tapşırıq almışdı ki, zabitə təlim keçib təxribat işini öyrətsin. Onların

operativ fəaliyyət ərazisi geniş idi – Qoritsadan Trjiçə qədər uzanırdı. Lakin əmrə görə, qrup ilk növbədə Divaça – Sejana – Triest dəmiryol xətti ilə məşğul olmalı idi. Bir həftədən sonra təxribatçılar dəmir yolunu, ən azı, on nöqtədə partlatdı. Cəsur təxribatçılar almanlardan müsadirə olunmuş yük maşını və iki motosikletdən istifadə edib rahat gəzirdi. Qrup təpədən-dırnağadək yaxşı silahlanmışdı. Öndə gedən motosikleti alman zabiti forması geymiş Mixaylo idarə edir, bir az arxada isə alman hərbi geyimində olan Tolenin sürdüyü yük maşını gəlirdi. Seyidov ikinci motosikleti idarə edir, Tsar isə yedəkdə oturub barmağını avtomatın tətiyindən çəkmirdi. Hər ikisi alman forması geymişdi. Digər döyüşçülər isə maşının yük yerində əyləşib brezentin kiçik dəliklərindən ətrafı müşahidə edirdi.

Ərzaq, silah-sursat və partlayıcı qurğuları özləri ilə daşıdıqları üçün əməliyyatlar arasındakı fasilələr zamanı meşələrdəki xüsusi yerlərdə gizlənirdilər. Burada vəhşi qaban və marallardan başqa heç nə gözə dəymirdi. Hərdən ov edib yemək bişirirdilər.

Frits baş aşpaz sayılırdı. Planlaşdırılmış bir neçə əməliyyat silah tətbiq olunmadan, itkisiz başa çatdı, düşmənə ağır zərbə endirildi. Qrup dəmir yolu ilə yanaşı, əsgər və hərbi texnika daşıyan beş qatarı da partlatdı...

Vitovlyedəki bazada təşkil olunmuş təntənəli mitinqə yerli fəallar dəvət olunmuşdu. Səhərə qədər çalıb-oxudular. Təxribat qrupunun üzvləri şən və gümrah görünürdü – bayram şənliyində iştirak edən qızlarla rəqs edib əyləndilər.

Müharibədə bir çox əməllərə görə cəzasız qalırsan! Dava həm də insana qadağa qoyulmuş hər şeyi və mənəvi xurafatı bir kənara atır! Müharibə Tanrının “Öldürmə!” əmrini pozur, bundan başqa, “Zina etmə!” kimi digər buyruqlar da əhəmiyyətini itirir. Dünya fanidir, yaşadığı gün hər bir insan üçün sonuncu ola bilər. Dinc dövrdə adamlar həyatın bu amansız qanununu vecinə almır, lakin müharibə dövründə bu məsələ özünü qabarıq büruzə verir. Ona görə də insanların davranışı dəyişir və gerçəkliyin bütün ağrı-acısını dərk etməyə başlayırsan. Ölüm-dirim, yaşam savaşı bütün hissləri yerindən oynadır. İnsan daha yaxşı eşitməyə, iti görməyə başlayır, qoxuları yaxşı hiss edir, intuisiyası güclənir. Allahın ona ayırdığı vaxtın hər saniyəsindən faydalanmağa çalışır, axı savaş insanı bir çox şeylərdən məhrum edir. Gələcək isə böyük sual altındadır.

Müharibənin insanlara gətirdiyi bəlalara baxmayaraq, partizan bayramları adamlara, bir gecəliyinə də olsa, məşəqqətləri unutdururdu. Onlar hisslərə sərbəstlik verir, sevib-sevilmək istəyir, ətrafı xoşbəxtlik

ab-havası bürüyürdü. Partizan qızlar bu bayramlarda xüsusilə gözəl görünürdü. Onları başa düşmək çətin deyildi: lənətə gəlmiş müharibə bu zərif məxluqların gəncliyini oğurlamışdı! İtirilmiş həyatı geri qaytarmaq isə əsla mümkün deyil!

Müharibə dövründə əhalinin qadınlardan ibarət hissəsi həmişə kişi azlığından şikayətlənir. Sahilyanı ərazidə yaşayan qadınlar, elə Mixaylonun yaxından tanıdığı qızlar da partizan kişilərə böyük qayğı ilə yanaşır, onlara hədsiz sevgi bəsləyirdi. Xörək bişirir, paltar yuyur, yun sviter və əlcək toxuyur, tibb bacısı kimi xəstələrə qulluq edirdilər. Kişilər də bu qayğıdan ruhlanır, onlara xoş münasibət bəsləyir, mehribanlıq göstərirdi.

Son əməliyyatlar zamanı vaxtında aradan çıxıb düşmən əlinə keçməsə də, Mixaylo belə qərara gəldi ki, bir müddət rahat nəqliyyat növündən – motosiklet və yük maşınından imtina etsin. Kimsə onları görüb tanısa, gələcək əməliyyatların taleyi şübhə altına düşə bilərdi. Satqına, xainə hər yerdə rast gəlmək mümkündür. İnsan çiy süd əmib, ətrafda o qədər niyyəti bəlli olmayan adam dolaşır ki! Kim zəmanət verə bilər ki, Mixaylo və silahdaşları barədə alman polisinə məlumat ötürülməyib? Buna görə də yük maşınını gözdən uzaq yerə – düşmən nəzarətindən çıxmış Belıy Kraina kəndinə apardılar, motosikletləri isə həmişəki kimi Pavelin həyətindəki daxmada gizlətdilər. İndi Opçina kəndini hədəfə almışdılar. Mixaylo dərin hörmət bəslədiyi Olqanı görəcəyinə sevinirdi. Gülə-gülə özündən beş yaş kiçik Tsara dedi:

– Dəmir yolunda, bir dənə də olsun, sağ yer qoymamışıq, indi faşistlərə imkan vermək lazımdır ki, bir az tər töküb xətti əsaslı təmir etsinlər. Biz də təzədən partladaq! Çinlilər bunu “düşmənin boğazına çökmək” adlandırır. İndi kifayət qədər güc toplamışıq, gecə-gündüz ciddi mühafizə olunan obyektlərə girişib təxribatları davam etdirməliyik. Başlanğıc üçün çox maraqlı, eyni zamanda çətin obyekt seçmişəm. Həmin yerlərə yaxşı bələdəm və nəyi necə etmək lazım olduğunu dəqiq bilirəm. Hə, bu gün Opçinaya gedib vəziyyətlə yerində tanış olmalıyam. Sabah saat 23.00-da görüşərik. Görüş yerini İvan və Tole yaxşı bilir.

Sabahkı əməliyyatla bağlı Tsara ətraflı təlimat verdi: hara nə qədər mina yerləşdirmək lazım olduğunu başa saldı. Sonra daha bir neçə göstəriş verib dostları ilə vidalaşdı və Opçina kəndinə yollandı. Mixaylo mülki geyimdə idi, bu paltarı təhlükəsizlik məqsədilə geyinmişdi ki, kimsə onu tanımasın. Səfalı may günü idi, yaz isti nəfəsini bu yerlərdən əsirgəməmişdi, günəş hər tərəfi nura boyamış, ağaclar yaşıl örpəyə bürünmüş, rəngli xalını xatırladan çəmənliklər göz oxşayırdı. Dağların

köksünə sığınmış ecazkar meşələrin sükutunu yarpaqların xışıltısı, bir də bülbüllərin nəğməsi pozurdu. Dağların başını seyrək duman alsa da, səma aydın və mavi idi.

Deyirlər, mayda insanın qanı qaynayır – Mixaylo bunu varlığı ilə hiss edirdi. Tələsmirdi, onsuz da, Opçinaya hava qaralanda çatacaqdı. Saçı, bığı uzanmış, görkəmi tamamilə dəyişmişdi – əsl italyan kavalerlərinə bənzəyirdi. Düşündü ki, belə yaxşıdır, yolda Türküstan diviziyasının alman zabitlərindən biri ilə qarşılaşsa, onu kimsə tanımayacaq. Həm də bilirdi ki, Olqa hara getsə də, axşam mütləq evdə olacaq. Olqa Mixaylonun gəlişindən xəbərsiz idi, bu, qadın üçün xoş sürpriz olacaqdı. Olqagilə getməzdən əvvəl tapşırığı yerinə yetirdi, əslində, Opçinaya məhz buna görə gəlmişdi. Transformator stansiyasının yanındakı xiyabana çatdı. Şübhə doğurmamaq üçün özünü gəzintiyə çıxmış adam kimi göstərib xiyabanı xeyli dolaşdı, stansiyanı xəlvətcə nəzərdən keçirdi. Obyekti hər iki tərəfdən iri bunkerlər əhatə edirdi. Bunkerlər Mixayloya qədim qəsrlərin önündə qoyulmuş aslan heykəllərini xatırlatdı. Onlar çoxmərtəbəli, dördkünc transformator binasını qoruyurdu. Bura Mixaylonun növbəti təxribat əməliyyatı üçün seçdiyi obyekt idi! Triestə elektrik enerjisi məhz buradan verilirdi. Partizanların yerli təhlükəsizlik və kəşfiyyat xidmətinə rəhbərlik edən cavan Darko göstəriş vermişdi ki, Mixaylo təxribat törədib Triestin yuxarı məhəllələrinə verilən elektrik enerjisini gecəyarı kəsməlidir. Şübhəsiz, Mixaylo komandir Darkonun əmrini yerinə yetirməli idi.

## XVIII

*Əsincə sabahın sərin yelləri,*
*Baxıb uzaqlara – yar gəlir, dedim...*
*Töküb gərdəninə qara telləri,*
*Bəlkə, bir məqsədi var, gəlir, dedim!..*

*Bəyaz üfüq al qana bulananda,*
*Pərvanələr başıma dolananda,*
*Könül həyəcandan coşub yananda,*
*Yaxın-uzaqlardan yar gəlir, dedim!...*

*Nə edim, aldanıb oldum naşı mən,*
*Fərhadtək qopardım hər bir daşı mən.*
*Nə olar, görəydim qara daşı mən,*
*Mənə mehman olub, yar gəlir, dedim...*

*Neylərəm nəşəni o nazlı yarsız,*
*Sevginiz olarsa, bunu duyarsız.*
*Baxıb qəhqəhəmə söyləmə: "arsız!"*
*Bəlkə, uzaqlardan yar gəlir, dedim...*
***M.Hüseynzadə***

Triestin mərkəzi bazarı Oberdanın cənub tərəfində, şəhər SS qərargahının bir addımlığında çoxmərtəbəli qadın geyimləri mağazası yerləşirdi. Mixaylonun Triestdəki ilk rabitəçisi Marina burada mühasib işləyirdi. Mixaylo onun kabinetindən Miryama zəng vurdu. Sosiç ailəsinin ev telefonu yox idi, onlar qonşu binada yerləşən mətbəx mebeli mağazasındakı telefondan istifadə edirdi. Dükanda alıcı olduğu üçün ustanın qonşu qızını telefona çağırması xeyli çəkdi. Miryam dəstəyi götürənə qədər Mixaylo çox həyəcan keçirdi, sanki düşmən obyektinə mina qoymağa hazırlaşırdı. Düşündü: "Mənə elə gəlir, bu qarasaç dəcəl mənim üçün müqavimət hərəkatı silahdaşından da qiymətlidir!"

Nəhayət, Miryam dəstəyi götürəndə Mixaylonun ürəyi yerinə gəldi. Qızın səsini eşidəndə vücudunu qəribə hisslər bürüdü. Hospitalda yatanda da bir gecə belə hisslər yaşamışdı. Nazlı mələk Betka onu Milad bayramı münasibətilə öpüşlərə qərq edəndə bədənindən gizilti keçmişdi. Mixaylo son vaxtlar Sosiçin evindəki sığınacaqda gecələyirdi. Miryam hər axşam tərsanədə çalışan və işdən gec qayıdan atası üçün şam yeməyi hazırlayırdı. Sonra da yeməklərdən bir qismini siniyə düzüb Mixaylonun otağına aparır, onun şam etməsinə baxanda gözləri dişi aslan kimi parıldayır, qonağın hər sözündən, hərəkətindən zövq alırdı. Mixaylo şam yeməyini bitirəndən sonra onlar xeyli söhbət edirdi. Məlum olurdu ki, bu iki insanın ortaq maraqları, sevdikləri eyni yazıçılar, bəstəkarlar var.

Mixaylo telefonda Miryamı səmimi salamlayıb dedi:

– Sizi "Alfieri" qadın geyimləri mağazasından Mikelancelo narahat edir. Sifariş etdiyiniz modelləri sabah səhər gətirə bilərəmmi?

Əvvəlcədən şərtləşmişdilər ki, əgər vəziyyət təhlükəli olmasa, Miryam belə cavab verəcək: "Sifariş etdiyim paltarları artıq dünən axşam gətiriblər, zənginizə görə təşəkkür edirəm!" Mixaylo dəstəkdə məhz bu parolu eşitdi. Hər hansı başqa cavab səslənsəydi, bu o demək idi ki, "təhlükə var, bizim evin həndəvərində dolaşma!"

– Hörmətli xanım, müştəri siyahısında yol verdiyimiz səhv ucbatından Sizi narahat etdim. Belə anlaşılmazlıq yarandığına görə çox təəssüf

edirəm. Ümidvaram, bundan sonra da bizim şirkətin xidmətindən istifadə edəcəksiniz. Qulluğunuzda həmişə hazıram! – Mixaylo rolunu axıra qədər oynayıb Miryamla sağollaşdı. Miryam da öz növbəsində nəzakətlə bildirdi ki, narahatlığa heç bir əsas yoxdur, zəngə görə çox məmnundur və şirkətə uğurlar arzulayır.

Gözəl Miryamdan eşitdikləri Mixaylonu ürəkdən sevindirdi. Deməli, vurğunu olduğu qızla xoş bir axşam keçirmək imkanı yaranmışdı, buna görə də qəlbi sürətlə çırpınmağa başladı. Bütün mühasiblər kimi eynək taxmış yaraşıqlı Marina otağa daxil oldu, marağını gizlədə bilməyib soruşdu:

– Hə, Mikelancelo, üzün niyə gülür, deyəsən, işin düzəlib axı? Bu ağır zəmanədə xoşbəxt təbəssümü nadir hallarda görmək mümkündür! Yoxsa, vurulmusan? Maraqlıdır, yenə kimi gözaltı eləmisən?

Marina məxfiliyi qorumaq üçün adam yanında Mixaylonu "Mikelancelo" deyə çağırırdı.

– Əziz Marina, indicə öyrəndim ki, mənim sığınacağımı heç bir təhlükə gözləmir və deməli, bu gün axşam getməyə yerim var. Əməliyyatlar məni çox yorub, üç gecədir yuxu üzünə həsrətəm. Sığınacaqdakı balaca çarpayı, yumşaq yataq üçün burnumun ucu göynəyir, doyunca yatmaq istəyirəm. Yaxşı döyüşçü gərək vaxtında yatıb dincini alsın!

– Bilirəm. Düşmənin arxa cəbhəsində gizli mübarizə aparan sənin kimi cavanların qayğısına qalmaq borcumuzdur. Çox şadam ki, sənin sığınacağının ünvanını bilmirəm. Deməli, məlumatım olmayan şey barədə kimsəyə nəsə söyləməyim mümkün deyil! Mikelancelo, açığı, sənin kimi oğlanı faşistlərə satmaq ən böyük alçaqlıq olardı! – Marina gözlərini qıyıb Mixaylonun üzünə baxdı. Partizanın çöhrəsinə təbəssüm qondu. Bu inadkar qızı müqavimət hərəkatında yaşca kiçik silahdaş və bacı hesab edirdi. İndi isə Marinaya ilk dəfə kişi gözü ilə nəzər salıb gözəlliyinə heyran qaldı. Ancaq bu an başqa planlar barədə düşünür və qarşısına müəyyən məqsədlər qoymuşdu. Özünü Miryam barədə fikirləşməyə məcbur etmirdi, onsuz da, bu qızın varlığı Mixaylonun qəlbini riqqətə gətirirdi.

– Haqlısan, Marina. Şəhər şəraitində gizli işin özünəməxsus cəhətləri var. Məxfilik birinci yerdədir, əks-təqdirdə, hər şey məhv olar. Hə, vaxtdır, getməliyəm, yəqin, qonşu küçədə rabitəçi məni gözləyir. Bizim müqavimət hərəkatında onun kimi dəqiq, vədinə əməl edən ikinci adam tapmazsan. Hətta dəqiqliyə alışmış almanlar da bu cəhətdən ona çata bilməz. Mənə elə gəlir, faşistlərin bir gerçəkliyi dərk edib razılaşmaqdan başqa çarəsi yoxdur. Gerçəklik isə belədir: faşistləri

qarışqa kimi əzib məhv etməliyik! Hər şeyə görə təşəkkür edirəm, Marina. Anana salam söylə və ehtiyatlı ol! Tezliklə görüşərik!

Mixaylo mülki geyimdə idi, cibində saxta şəxsiyyət vəsiqəsi gəzdirirdi. Amma şəxsiyyət vəsiqəsindən çox cibindəki tapançaya və iti ülgüclü bıçağa arxalanırdı. Bıçağı bahalı, qəhvəyi drapdan tikilmiş paltosunun yaxalığında gizlətmişdi, bu paltoda varlı italyan zadəganına bənzəyirdi. Başına qoyduğu dəbli, yaraşıqlı şlyapa alnının bir hissəsini örtürdü. Boğazına doladığı açıq-boz rəngli kaşemir parçadan olan uzun şərfin ucları paltonun üstündən sallanırdı. Miryamla əvvəlcədən razılaşmışdı ki, telefon zəngindən sonra təhlükəsizliyi təmin etmək üçün qız onu həyətdə qarşılayıb evə ötürəcək. Məxfi iş apardıqları üçün Marina ilə Miryamı tanış etməmişdi, Miryam hətta bilmirdi ki, Mixaylo təxribat əməliyyatlarına dostu və silahdaşı Seyidovla birlikdə gedir. Qızların ikisi də yalnız Darkonu tanıyırdı. Mixaylonu Marina və anası, həm də Sosiç ailəsi ilə məhz Darko tanış etmişdi. Mixaylo da öz növbəsində Seyidovun harada gizləndiyini bilmirdi. Mirdaməd onun yanına yalnız əməliyyata hazırlıq ərəfəsində və bilavasitə təxribata yollanan gün gəlirdi. Şəhərdə onların fəaliyyəti üçün təhlükə yarananda dostlar Pliskovitsedəki posta çəkilib gizlənirdi. Buradan bütün yollara çıxış vardı, motosiklet və yanacaq dolu çəllək yaxınlıqdakı saxlanc yerində gizlədilmişdi.

Slovenlərlə çiyin-çiyinə apardığı mübarizədə Mehdi yorulmaq bilmir, darıxmır, özünü Vətəndəki kimi hiss edirdi. İndi sloven dilində nəinki sərbəst danışır, həm də müxtəlif ləhcələri bir-birindən ayırd etməyi bacarırdı. Amma mürəkkəb sloven sözlərinin hallanmasına heç cürə alışa bilmirdi. Bununla belə, yeri gələndə bəzi adamları sloven olduğuna inandırmağı bacarırdı. Fevralın əvvəlində partizanların onun üçün hazırladığı saxta şəxsiyyət vəsiqəsində isə italyan soyadı yazılmışdı. Çünki bu sənəd hazırlananda Mixaylo hələ sloven dilində təmiz danışmırdı, yalnız italyan dilini bilirdi.

Onlara partizan ləqəbi veriləndən sonra Mehdi və Seyidov yalnız təklikdə olanda bir-birilərini öz adları ilə çağırırdı. Kənar şəxslərin yanında isə ləqəblərdən istifadə edirdilər. Marina və anası onu Mikelancelo kimi tanıyırdı. Seyidov legiondan ayrılıb Qradnik briqadasına daxil olandan sonra onu digər bölükdə xidmət edən və əslən Medandan olan İvanla səhv salmamaq üçün "Rus İvan" çağırırdılar.

– Mirdaməd, demək istəyirəm ki, – Mixaylo dostu Seyidovla mansarddakı kiçik pəncərənin önündə dayanmışdı, limana yan almış gəmilərə baxırdı, dəniz yaşıl-mavi rəngə çalır, qağayılar da şıltaqcasına ora-bura vurnuxurdu, – sloven dili, görünür, bildiyim dillər arasında

ən çətinidir. Amma rus dilinə çox yaxındır, yəqin, sən də bunu hiss etmisən. Xoşbəxtlikdən, burada hər addımbaşı rus dilini bilən adama rast gəlmək olar. Onların böyük əksəriyyəti Birinci Dünya müharibəsi zamanı əsir düşüb burada kök salmış şəxslərdir. Slovenlərin dili mürəkkəb olsa da, onlarla ünsiyyət qurmaq çox asandır, həm də bu ünsiyyətdən zövq alırsan. Qaldı ki, sloven qızları, onların gözəlliyini təsvir etmək üçün söz tapa bilmirəm. Məni məftun ediblər!

– Hə, Mehdi, adətən, dəniz sahilində yaşayan insanların qəlbi geniş olur, hamıya dostcasına qucaq açırlar. Amma dağ adamları bir qədər sərt və təmkinlidir. Müharibə insanları bir çox incə hisslərdən məhrum edib. Ölüm qorxusu adamların mənəviyyatına sağalmaz yaralar vurub.

– Cəbhənin keşməkeşlərindən keçib sağ qalanlar, ölümün gözünün içinə dik baxmağı bacaranlar, məncə, dünyanın ən xoşbəxt adamlarıdır. Onlar həyatın şirin anlarının da, qəmin, kədərin də qiymətini yaxşı bilir, Allahın bəxş etdiyi ömrü şərəflə yaşamağa can atır, düz demirəm, Mirdaməd?

– Açığı, hər əməliyyatdan sonra əsəblərim sim kimi gərilir, hisslərimi cilovlaya bilmirəm. Əsəblərim səninki kimi, dəmirdən deyil axı! Üstəlik, heç vaxt ağciyər olmamışam.

– Düz sözə nə deyəsən. Əgər qorxaq adam olsaydın, səninlə bir addım da atmazdım, döyüşün ən çətin məqamlarında sənə arxalanmazdım. Hansı vəziyyətə düşsək də, ehtiyatı əldən vermirsən, bunun sayəsində dəfələrlə ölümdən qurtulmuşuq. Səni özümə qardaş bilirəm, hər addımını ölçüb-biçən, çılğınlığın həddini bilən bir peşəkar kimi dəyərləndirirəm. Həyat təcrübən məndən qat-qat çoxdur, deməli, müdrikliyin sirlərini səndən öyrənməliyəm! Müdrik adam isə heç vaxt ehtiyatı əldən verməz!

– Ehtiyatlı və müdrik olmağa borcluyuq. Sənin kimi ehtiyatı əldən verməyən, düşmənə qarşı hiylə işlətməyi bacaran adam olmağıma çox var, çünki müdrikliyim hələ istənilən səviyyədə deyil.

– Əslində, müdrik adamın hiyləgər olmasına gərək yoxdur. Hiylə yalnız döyüş zamanı köməyə gələ bilər, müharibədə bir çox şeylər hiylənin üstündə qurulur. Gərək rəqibi aldadıb başını qatasan, fikrini çaşdırıb diqqətini yayındırasan, gözünü oğurlayıb minanı elə qoyasan ki, ruhu da inciməsin!

– Mehdi, sən həmişə necə deyirsən: "Qumbara əsgərin ən yaxın dostudur!"

– Qumbarasız işimiz çox cansıxıcı və mənasız görünərdi. İndiki müharibəni, ümumiyyətlə, qumbarasız təsəvvür edə bilmirəm. Moskva ətrafındakı döyüşlər yadındadır? Qumbaramız qurtaran kimi işimiz

çətinə düşdü. Tank əleyhinə gülləmiz də qurtarmışdı. Yaxşı ki, döyüş meydanında əlimə alman silahı keçdi, patronqabısı da dolu idi. Faşistləri elə özlərinə məxsus "MG 42" ilə qırmağa başladım. Eh, tezliklə onun da gülləsi tükəndi, faşist tankları bizi mühasirəyə aldı. Ürəyimdən qara qanlar axırdı! Təsəvvür elə, gözünün qarşısında faşistlər vurnuxur, sənin isə bir dənə də patronun qalmayıb ki, bu əclafları qırasan! Arxa cəbhədən vaxtında kömək yetişməsəydi, Allah bilir, axırımız necə olacaqdı? Amma qumbaralarla fritslərin anasını ağlatdıq, birini də sağ buraxmadıq!

– Bir dəfə mənim də başıma belə iş gəlmişdi. Üç həftə mühasirədə qalandan sonra tibb ləvazimatı tükəndi. Amma ondan da dəhşətlisi iki ay həbs düşərgəsində qalmaq idi! Getsin o günlər, bir də qayıtmasın!

– Haqlısan, Mirdaməd. Əsirlik günlərinin ağrı-acısı hələ də canımdan çıxmayıb. İnana bilmirəm ki, o cəhənnəmdə necə sağ qalmışam. Həmin dəhşətli günləri xatırlayanda əzabla qıvrılıram, unutmağa çalışsam da, alınmır. Amma insan ağır günlərin xatirəsi ilə yaşaya bilməz, pisin üstündən xətt çəkmək, buraxdığın səhvləri bir daha təkrar etməmək üçün nəticə çıxarmaq lazımdır. Həm də bu nəticəni sırğa edib qulağından asmalısan! Nə isə, indi bizim yalnız bir şeyə ehtiyacımız var: partlayıcıya! Onu da, Allah qoysa, tezliklə şəhərə gətirəcəklər. Sonra təxribatları davam etdirə bilərik. Əlim gicişir, işsiz dura bilmirəm. Düşünəndə ki, bir-iki gündən sonra harasa mina qoyub faşistlərin canına vəlvələ salacağıq, kefim durulur. Onlara elə bir dərs verməliyik ki, heç vaxt unuda bilməsinlər. Növbəti təxribat əvvəlkindən daha güclü olacaq, planımız baş tutsa, yüzlərlə faşisti cəhənnəmə göndərəcəyik, yaralıların sayından isə danışmağa dəyməz! Bir sözlə, vicdansızlara toy tutacağıq!

## XIX

Kapitan İoahim Virtsbuxtel alçaqboy, daz, girdəsifət, eynəkli adam idi, vaxtilə Bremen şəhər polis idarəsində qətl hadisələrinin təhqiqatı şöbəsində çalışmışdı. Gestaponun Triest bölməsinin rəisi mayor Karl fon Nimetsin ondan xoşu gəlmir, zahiri görünüşünü həzm edə bilmirdi. Amma tezliklə başa düşdü ki, kapitan xəfiyyələrə xas bilik və bacarıq baxımından onu geridə qoyur. Yalnız bundan sonra Virtsbuxtelə rəğbət bəsləməyə və hətta ondan bir az da qorxmağa başladı. Ancaq hər ikisi bir-birinə qarşılıqlı nifrət bəsləyirdi. Kapitanın da rəisini görən gözü yox idi. Onun yanına yalnız icazə almağa ehtiyac yarananda gəlirdi.

Mayor fon Nimets kapitanın fikirləri ilə dərhal razılaşır, söhbət zamanı axmaq vəziyyətə düşməmək üçün mübahisəyə girişmirdi. Ümumiyyətlə, tabeliyindəki hərbçilərdən heç kim gestaponun başında

dayanmış bu təcrübəli partiya üzvünün heç bir sözünə irad tutmur və mayor bunu məqbul sayırdı. Günlərin birində kapitan Virtsbuxtel peyda oldu. Mayor fon Nimets bir neçə aydan sonra etiraf etmək məcburiyyətində qaldı ki, bəyənmədiyi bu cılız görkəmli, yumrusifət kapitan tapşırılan işin öhdəsindən bacarıqla gəlir, ən çətin düyünləri açır. Bu keyfiyyətlər mayorun işinə yarayırdı və kapitanın təcrübəsindən istifadə etməyə başladı. Fon Nimetsin kapitana böyük ehtiyacı vardı, çünki tabeliyində olan gestapo əməkdaşlarından heç biri peşəkar polis deyildi və bu sistemin incəliklərindən baş çıxara bilmirdi. Təhqiqatın metod və üsulları, faktları qarşılaşdırıb analiz aparmaq yolları bu adamlar üçün qaranlıq idi. Çünki bir çoxu əvvəllər qəssab, satıcı, yaxud zavod-fabrikdə fəhlə işləmişdi. Bu səbəbdən, mayor təzə gəlmiş Virtsbuxtelə ən qəliz cinayət işlərinin öhdəsindən gələ bilən lazımlı adam kimi baxırdı.

Bu səhər Virtsbuxtel dəfələrlə olduğu kimi, yenə də rəisin qəbul otağında gözləyirdi. Mayor fon Nimets isə köhnə şakərinə sadiq qalıb kapitanı yarım saat qapıda gözlətdi. Halbuki masanın üstündə imzalanmalı beş-altı kağızdan savayı, elə bir təcili işi yox idi. *"Deutsche Adriatisch-Zeitung"* jurnalını vərəqləyirdi, sevimli *"Cointreau"* fransız konyakından da bir qədəh süzmüşdü. Kefikök idi, dindirən olmasaydı, bütün günü jurnal oxuyub konyak vurardı.

"Bu meymun oğlu Virtsbuxtel də gəlməyə vaxt tapdı! Zalım oğlu, rahat nəfəs almağa imkan vermir! İndi zəhləmi aparacaq! Girdə, yağlı fətirə oxşasa da, başı yaxşı işləyir! – mayor düşünüb gülümsündü. – İlahi, bu qaniçənin əlindən hara qaçım?! Köpək kimi iy bilir. Yəqin, burnu yenə iy alıb! Ya da hardansa sümük tapıb!" – Fon Nimets hiddətləndi, hətta qədəhə konyak süzəndə əli əsdi. Ancaq bir-iki qurtum içəndən sonra sakitləşdi. Katibəsi Qretxen yerində idi. Bu sarısaç alman gözəli yeriyəndə yançaqlarını yüngülcə burcudub kişilərin ağlını başından çıxarırdı. Nəhayət, fon Nimets katibəsinə göstəriş verdi ki, kapitanı kabinetə dəvət etsin.

Kapitan fon Virtsbuxtel rəisin kabinetinə daxil olmazdan əvvəl düymələrinin bağlı olub-olmadığını bir daha yoxladı. Mayordan tənə eşitmək istəmirdi, mühüm xəbərlə gəlmişdi. Şəhərdə at oynadan terrorçulara növbəti təxribatı törətmək imkanı verməyib, dərhal həbs etmək lazım idi!

Kapitan gestapo sıralarına müharibənin əvvəlində qəbul olunmuşdu və bu təşkilatda hegemonluq edən partiya funksionerlərinə yaxşı bələd idi. Bilirdi ki, bu adamlarla ehtiyatlı davranmaq lazımdır, sanki əlində əfi ilanın başını tutmusan, hər an sanca bilər. Partiya üzvü olmasa da,

gestapoya operativ hissə rəisi Müllerin zəmanəti ilə daxil olmuşdu. Müharibədən əvvəl onunla Bremendə əməkdaşlıq etmişdi, bir-birinə yaxşı bələd idilər. Onun zəmanətiylə Virtsbuxteli gestapoya dərhal qəbul etmişdilər.

– Hörmətli cənab mayor, icazənizlə, məruzə edim ki, ən azı, üç terror aktı törətmiş cinayətkarın izinə düşməyə müvəffəq olmuşuq. Hətta kimliyini də müəyyən etmək mümkün olub. Aprelin əvvəlində Opçinadakı kinoteatrda, üç həftə sonra isə Zabitlər evində baş vermiş partlayış yadınızdadır?

– Əla yadımdadır, kapitan Virtsbuxtel. Elə dünən general Qloboçnik irad bildirdi ki, niyə təxribatçılar həbs olunmayıb? Qəti bildirdi ki, caniləri tutub dar ağacından asmaq lazımdır! Bu gündən terrorla bağlı cinayət işini ciddi nəzarət altında saxlamalıyıq, kapitan Virtsbuxtel!

– İlk iki partlayışdan sonra terrorçuların izinə düşə bilmirdik. Bu vaxt silah anbarındakı hadisəni xatırladım. Partlayış Opçinadakı kinoteatr hadisəsindən on dörd gün əvvəl, daha doğrusu, fevralın 16-da Devin kəndi yaxınlığında baş vermişdi. O zaman alman zabiti forması geymiş quldur “BMW” markalı motosikletlə gəlib gözətçini içirtmişdi. Kinoteatra və Zabitlər evinə uniformasız daxil olmaq mümkün deyil. Bilirsiniz ki, axşam seansına mülki şəxslər buraxılmır. Ona görə də bu gün əlimizdə üç versiya var: terrorçuların sayı iki, üç, ya da beş nəfərdir, onlar təmiz alman dilində danışır, alman zabiti formasında, “BMW” markalı motosikletlə gəzir. Sərxoş keşikçi ayılandan sonra deyib ki, onu içirdən alman zabitinin dərisi tünd rəngdə idi.

Bu il törədilmiş digər təxribatlar barədə yazılmış hesabatlara nəzər salanda quldurların pusqu qurub Türküstan diviziyasının dörd legionerini qətlə yetirməsi faktı diqqətimi cəlb etdi. Bizim əsgərlər ölmüş legionerlərin cəsədini götürmək istəyəndə mina-tələ partlamış və nəticədə, daha beş əsgər həlak olmuşdu. Bu hadisə yadınızdadırmı, cənab mayor?

– Şübhəsiz, o vaxt sürprizlə qarşılaşmışdıq – düşmən ilk dəfə mina-tələdən istifadə etmişdi. Bu fakt məni çox təəccübləndirdi, axı o vaxta qədər yerli quldurlar bu cür mina-tələnin mövcudluğundan xəbərsiz idilər, heç vaxt bu minadan istifadə etməmişdilər. – Mayor qəmli-qəmli bildirdi. Mina-tələni hələ Şərq cəbhəsində, xüsusi tapşırığı yerinə yetirəndə görmüşdü, partizanlar bu tip minaları mütəmadi tətbiq edirdilər.

– Diqqətinizi məhz bu fakta yönəltmək istəyirəm, cənab mayor. Həmin gün bizim daha dörd əsgərimiz izsiz-soraqsız itib – ikisi yük maşınında, ikisi isə motosikletdə olub. Gördüyünüz kimi, mən “həlak

olub" ifadəsi əvəzinə, "izsiz-soraqsız itib" ifadəsini işlədirəm, çünki bu hərbçilərin cəsədi tapılmayıb, sanki buxarlanıblar! Bu faktları tutuşduranda xatırladım ki, silah anbarının qarşısına gəlmiş motosikletçi alman zabiti formasında olub və quldurun dərisi tünd imiş. Bunu pusqu zamanı dörd legionerin qətli ilə əlaqələndirirəm, çünki legiondakı əsgərlərin çoxunun dərisi tünddür. Türküstan legionu isə Opçina kəndində yerləşir.

Mayor fon Nimets xatırladı:

– Hörmətli həmkar, kimin ağlına gələrdi ki, bizim şanlı ordumuza Asiya səhralarında yaşayan bu yarımadamları, ikinci dərəcəli xalqların nümayəndələrini qəbul edəcəklər, hə? İlahi, görün nə günə qalmışıq?!

– Bu ilin müxtəlif quldur basqınları arasında bağlılıqdan şübhələnib Opçina kəndindəki Türküstan legionuna baş çəkdim. Əsgərlərin hamısı qıyıqgözdür, onlar mənə hunları xatırlatdı. Pulemyotçular və köməkçiləri rus kazakları kimi, patrondaş taxmışdı. – Virtsbuxtel cavab verdi və ürəyində fikirləşdi: "Əgər uğur üzlərinə gülsəydi, Stalinin bu vəhşi ordusu indi bütün Avropanı basıb Qərb sivilizasiyasını məhv etmişdi".

Mayor fon Nimets kapitanın narazı baxışlarını görüb sözünə davam etdi:

– Bəsit adam olsalar da, partizanlarla müharibədə bizə yaxından kömək edirlər. Oğurluq onların qanındadır, əllərinə keçəni çırpışdırır, qadın üçün də ürəkləri gedir! Hansısa əməliyyatda onlarla əməkdaşlıq etmək sizə qismət olub?

– Xeyr, qismət olmayıb, açığı, heç bunun arzusunda da deyiləm. Bilirsiniz, asiyalılara biganə yanaşıram, – keçmiş xəfiyyə cavab verdi.

– Elə mən də, əziz dost, – fon Nimets bunu deyib güldü. Ancaq müharibədən əvvəl Tailand və Siama mütəmadi səfərlər zamanı yerli gözəlçələrə heç də biganə qalmadığını xatırladı.

– Cənab mayor, silah anbarının keşikçisi, feldfebel Trosta fotolar göstərdim, pusquda həlak olmuş dörd legionerdən heç birini tanımadı. Bu legionerlərdən üçü azərbaycanlı, biri isə rus idi.

– Sizdən rica edirəm, cənab mayor, bir qədər düşünün. Biz dörd cəsəd tapıb səkkiz əsgər itirmişik. Mina-tələyə düşüb həlak olmuş beş əsgəri nəzərə almıram. Təəssüf, bizim əməkdaşlardan heç kim pusqu yerinə baxış keçirməyib, ona görə də əlimizdə məlumat yoxdur. Yalnız bölmə komandirinin qısa raportu var. Dörd cəsədin tapıldığını yazıb, sonra da beş əsgər mina-tələyə düşüb. Daha dəqiq desəm, meyitlərin altına üç belə mina qoyulub, hamısı da eyni vaxtda partlayıb. Bu işlə əlaqədar həmin VII atıcı alayının 2-ci batalyonunun bölük komandiri ilə görüşdüm. Bildirdi ki, meyitlərin sifəti hələ partlayışdan əvvəl

tanınmaz hala salınmışdı. Mühüm hesab etdiyim daha bir fakt! Zabit deyir ki, partlayış nəticəsində motosiklet parça-parça olub, ətrafa səpələnib. O, qalıqlar arasında "NSU" markalı motosikletin emblemini görüb. Həmin gün yoxa çıxmış bütün motosikletləri yoxlamışam. Müəyyən etmişəm ki, legionun patrulları həmin axşam hərbi hissədən "BMW" markalı motosikletlə çıxıb, "NSU" markalı yedəkli motosikleti isə itkin düşmüş dörd legionerdən biri idarə edib. Özü də onun meyiti hələ tapılmayıb. Çox maraqlıdır, düz demirəm, cənab mayor? Siz bu barədə nə düşünürsünüz?

– Bəli, kapitan Virtsbuxtel, sizi diqqətlə dinlədim, ancaq məsələnin mahiyyəti hələ mənə aydın deyil. Çoxlu fakt sadaladınız, amma onları bir ipə düzmədiniz. Deməli, əminsiniz ki, Türküstan legionundan olan patrullar, əslində, fərari kimi qaçıb quldurlara qoşulub və təxribatlar törədirlər? Yoxsa başqa fikirdəsiniz?

– Tamamilə haqlısınız, cənab mayor. Ancaq bu, hələ hamısı deyil. Türküstan diviziyasından aldığım raportu diqqətlə oxuyanda məlum oldu ki, həmin o dörd patrul yoxa çıxandan sonra hərbi hissədə fərarilərin sayı artıb. Əgər məlumat doğrudursa, bu günə qədər legiondan 200-dən çox əsgər, yəni təxminən üç bölük fərarilik edib. Təsəvvürünüzə gətirirsinizmi, cənab mayor? Şübhəsiz, bu, adi təsadüf sayıla bilməz. Bir xəfiyyə kimi belə təsadüflərə inanmıram.

– Bəli, kapitan Virtsbuxtel, bu məlumat mənə də çatıb. Düşünürəm, bu faktlar bir-biri ilə əlaqəlidir. Əmr edirəm, araşdırmanı davam etdirib hər şey barədə mənə operativ məlumat verin. Təsəvvür edin, faciə ilə bitmiş bu təxribatlarla əlaqədar mənə iki dəfə Berlindən zəng vurublar.

– Cənab mayor, bu da hələ hamısı deyil. Fevralın 6-da patrula hücumu gözdən pərdə asmaq kimi qiymətləndirirəm. Həmin gün Triest və ətraf ərazilərdə baş verən hadisələri daha dərindən araşdırmağa başladım. Məlum oldu ki, həmin gün Seyidov soyadlı bir azərbaycanlı da fərarilik edib. O, Devində yerləşən fəhlə batalyonunda xidmət edirmiş. Fotosunu silah anbarının keşikçisinə göstərdim. Yeri gəlmişkən, həmin keşikçi feldfebelin işini hələ hərbi tribunala göndərməmişəm, düşündüm ki, bəzi istintaq hərəkətləri üçün bizə lazım ola bilər. Deməli, feldfebel, Seyidovu tanıdı. Uniforma ilə motosikletdə gəlib keşikçiyə araq içirən məhz bu şəxsdir. Beləliklə, cənab mayor, həmin gecə beş alman zabiti və əsgəri fərarilik edib. Onlar pusquda dayanıb dörd hərbçimizi öldürüb, meyitləri də yolun ortasına atıb, bizi çaşdırmaq üçün onların üz-gözünü tanınmaz hala salıblar – guya həlak olan legionerlərdir. Başqa sözlərlə desək, məzhəkəli tamaşa qurublar!

– Bu köpəklər bizim əsgərlərin meyiti altına mina-tələ yerləşdirməkdən çəkinməyib. Sizi əmin edirəm, kapitan Virtsbuxtel, bu vəhşiliyə görə layiqli cəza alacaqlar! – Mayorun gözlərində qəzəb qığılcımı parladı.

– Hadisədən sonra yenidən Türküstan diviziyasında oldum, fərarilər haqqında ətraflı məlumat toplayıb fotoşəkillərini aldım. Dəqiq bilirəm, cənab mayor, fərarilərə keçmiş leytenant Mehdi Hüseynzadə başçılıq edir. O, eyni zamanda yaxşı təlim keçmiş kəşfiyyatçıdır. C-1 kəşfiyyat şöbəsinin əməkdaşı olub, partlayıcı maddələr üzrə ekspertdir. Əminəm, yaz təxribatları zamanı beş yüzdən çox əsgər və zabitimizi həyatdan məhrum etmiş terrorçu qrupun rəhbəri həmin bu Mehdidir! Digər legionerlərə də fərarilikdə kömək edib, himayə göstərib.

– Düşünürəm, qənaətləriniz doğrudur, cənab kapitan. Tərif söyləməkdə xəsis olsam da, bu gün sizi tərifləyib təşəkkür elan etməyə borcluyam!

– Minnətdaram, cənab mayor. Sözləriniz mənim üçün çox qiymətlidir. Çünki ilk dəfədir sizdən tərif eşidirəm. Faktiki olaraq terrorçunun adını bilirik, həm də əlimizdə fotosu var. Təklif edirəm: onu ölü, ya da diri tutub gətirənə böyük pul mükafatı təyin edilsin! Mehdi barədə axtarış elan edib fotosunu bütün yerli qəzetlərdə dərc etməliyik!

– Təkliflə tam razıyam, kapitan Virtsbuxtel! Göstəriş verərəm ki, bunun üçün böyük məbləğdə maliyyə vəsaiti ayrılsın. Bu canini həbs etmək üçün əlimizdən gələni etməliyik!

– Bəli, cənab mayor. Yaxşı bilirik ki, partizanlar gizli iş şəraiti üçün müxtəlif ləqəblər seçir. Mehdinin partizan ləqəbi haqqında əlimizdə heç bir məlumat yoxdur. Təklif edirəm ki, sabah Triest cinayət axtarışı polisinə yollanıb bu xain Mehdi barədə ətraflı məlumat alaq. Polis idarəsinin əməkdaşları ərazini yaxşı tanıyır, orda nə baş verirsə, dərhal xəbər tuturlar. Məncə, pis işləmirlər, xüsusən də komandirləri doktor Kolotti və doktor Quellinin gözündən heç nə yayınmır.

– Bəli, razıyam, bütün imkanlardan istifadə olunmalıdır, axı söhbət təkcə şəhər və ətraf kəndlərin təhlükəsizliyindən getmir. Mənə böyük bir ərazini qorumaq tapşırılıb. Burda Cənub cəbhəsinə göndərilmək üçün çox sayda diviziya yerləşdirilib. Deməli, bu hərbi hissələr, onların şəxsi heyəti də böyük risk altındadır...

Həqiqətən, ertəsi gün bütün qəzetlərdə Mehdinin fotosu dərc edildi, faşistlər onu tutub gətirən adama böyük miqdarda pul vəd edirdi. Bir il əvvəl Yuqoslaviya partizanlarının baş komandanı İosif Broz Titonun tutulması üçün də belə böyük məbləğ təyin edilmişdi.

**DİQQƏT! DİQQƏT!**

*Terrorçu Mehdi Hüseynzadənin tutulması üçün 400.000 reyxsmark həcmində mükafat təyin olunub.*

*Almaniya hökuməti zəmanət verir ki, cinayətkarın yerini söyləyən, yaxud onun həbsinə kömək edən şəxsə bu məbləğ qeyd-şərtsiz ödəniləcək!*

Alman Ali Komandanlığı:
SS generalı Qloboçnik

Kapitan Virtsbuxtelin xarakterində xəfiyyəyə xas bir çox cəhətlər vardı: köpək kimi iy bilir, ağzındakı sümüyü kimsəyə vermirdi. Kapitan tapşırılan işə xüsusi canfəşanlıqla girişir, gözündən heç nə yayınmır, ən əhəmiyyətsiz faktlardan da istifadə etməyi bacarırdı.

Həmkarları arasında hobbisi olmayan yeganə əməkdaş idi: poçt markası toplamır, siqaret çəkmir, içki içmir, cıdır yarışlarına həvəs göstərmir, ziyafətlərə getmir, səhərdən gecəyə qədər yazı masasının arxasında oturub işləyir, bütün vaxtını istintaqa həsr edirdi. Tapşırılan işi yarımçıq qoymağı sevmir, istintaqı qısa vaxt ərzində uğurla başa çatdırır, cinayətkarı müttəhimlər kürsüsünə göndərməyənədək sakitləşmir, sənəd və arayışları alman dəqiqliyi ilə tərtib edirdi.

Bremen polis idarəsində onunla çiyin-çiyinə çalışan həmkarları yaxşı bilirdi ki, açılmayan cinayət işlərini kapitana ötürmək lazımdır. Hətta söhbət zamanı “xüsusi ağırlaşdırıcı hal”, yaxud “anlaşılmaz səbəb” ifadəsi əvəzinə belə bir cümlə işlədirdilər: “Bu düyünü heç kapitan Virtsbuxtel də aça bilməz!” Kapitan şan-şöhrəti, tərifi sevməyən adam idi. İndi bu zəhmətkeş, işinə vicdanla yanaşan, iti düşüncəli xəfiyyə gestapo üçün külüng döyürdü. Yaxşı başa düşürdü ki, gestapoçular ən təhlükəli, dəhşət saçan qatı cinayətkarlardan əsla geri qalmır, hətta çirkin əməl törətməkdə onları ötüb keçir. Amma buna görə narahat deyildi, çünki gestapo alman qanunları çərçivəsində fəaliyyət göstərirdi. Əsl polis əməkdaşı üçün qanunlar toplusu bir növ İncil kimidir. Əgər rəhbərlikdən gestapo cinayətlərini araşdırmaq əmri alsaydı, bu işi də canla-başla yerinə yetirərdi. Gestaponun işgəncə metodlarına rəğbət bəsləmirdi. Müttəhimlərə işgəncə vermir, istintaqı məharətlə qururdu,

söhbəti lazımi istiqamətə elə yönəldirdi ki, qarşısındakı şəxs özü də bilmədən hər şeyi açıb danışırdı.

Kapitan Virtsbuxtel kiminlə üz-üzə gəldiyini yaxşı başa düşmüşdü: Mehdinin şəxsi işini dəfələrlə oxumuş, lazımi qeydlər götürmüş, son vaxtlar törətdiyi təxribatlar barədə hazırlanmış hesabatları araşdırmışdı. Bu təhlükəli və ağıllı terrorçu iri təxribat qrupunun köməyi ilə fəaliyyət göstərirdi. Bu qrup Sahilyanı ərazilərin təhlükəsizliyi üçün cavabdeh olan alman zabit və əsgərlərinə böyük problemlər yaradırdı. Kapitan Virtsbuxtel bunu dərindən anlayan yeganə alman idi. Onsuz da, Sahilyanı ərazidə partizanlarla bağlı problemlər az deyildi. Kiçik təxribat qrupları ara-sıra partlayışlar törədib almanları göz açmağa qoymurdu, indi isə Mehdinin rəhbərlik etdiyi iri təxribat qrupu gözlənilmədən peyda olub şəhərdə xaos yaratmışdı.

Mayor və kapitan bilirdi ki, terrorçunun başı üçün təyin edilmiş mükafatdan sonra onu dərhal həbs etmək mümkün olmayacaq. Ancaq ümid edirdilər ki, bu yolla təxribatçı və onun dəstəsi barədə məlumat əldə olunacaq. Hələlik onlara terrorçunun yalnız adı və fotosu məlum idi. Kapitan Virtsbuxtel köhnə və təcrübəli xəfiyyə kimi yaxşı başa düşürdü ki, bu işdə tələsmək olmaz, hövsələ ilə gözləmək lazımdır. Anlayırdı ki, Mehdinin dəstəsi onun əlinə heç də asanlıqla keçməyəcək. Belələri çox nadir hallarda əlini qaldırıb təslim olur. Kapitan gözləməyi bacarırdı, hər yeni terror aktından sonra cib dəftərinə mühüm qeydlər edir, baş vermiş təxribatlarda yalnız Mehdidən şübhələnirdi. Virtsbuxtel bir şeyə də nail olmuşdu: polislər, hərbçilər, donosçular ciblərində Mehdinin və digər dörd fərari patrulun fotosunu gəzdirirdi. Kapitan eyni zamanda Mehdinin cinayət işini əks etdirən bütün sənədlərin surətini gestaponun Lüblyan filialına, şəxsən mayor Razoumekaya göndərmişdi. Mayor müharibədən əvvəl polis olmuşdu və Virtsbuxtel onun peşəkarlığını yüksək qiymətləndirirdi.

Mayor Razoumek Triest filialında keçirilən operativ yığıncaqlarda mütəmadi iştirak edir, kapitanla cari məsələlər barədə ətraflı söhbət aparırdı. Amma bu günə qədər Mehdinin işi ilə əlaqədar nə Triest polis idarəsindən, nə də Lüblyandan bir xəbər çıxmamışdı. Lakin kapitan Virtsbuxtel ruhdan düşmürdü, geri çəkilmək fikri də yox idi. Nəhayət, kömək üçün İtaliyanın xüsusi təyinatlı ictimai təhlükəsizlik müfəttişliyinə müraciət etmək qərarına gəldi.

### XX

Faşist İtaliyasının süqutundan sonra SS qoşunlarının ali baş komandanı və gestaponun şefi Henrix Himmler general-leytenant

Odilo Qloboçniki Triestə göndərmişdi. O, yəhudilərin kökündən məhv edilməsini nəzərdə tutan “Gecə və Duman” əməliyyatında Eyxmanla əməkdaşlıq edirdi. General Qloboçnik yəhudi əsilli italyan vətəndaşlarına divan tutub Dahau və Mauthauzen ölüm düşərgələrinə göndərirdi. Yəhudilərin çoxu Triest yaxınlığındakı düyü fabriki xarabalıqlarının yerində yaradılmış SS həbsxanasında öldürüldü. General həm də milli azadlıq hərəkatının məhv edilməsi üçün ciddi səy göstərirdi. Müqavimət hərəkatına qarşı mübarizədə SS bölmələri, alman polisi, faşist milisi və sloven antikommunistləri ilə yanaşı, xüsusi ictimai təhlükəsizlik müfəttişliyindən də istifadə edirdi. Bu qurumu yaratmaqda faşistlərin bir məqsədi vardı: Sahilyanı əraziləri və İstriyanı kommunist quldurlardan təmizləmək! İtalyan dilində qısaca olaraq *“squadra speciale”*[1] adlandırılan bu cinayətkar faşist dəstəsinə ordu müfəttişi doktor Cüzeppe Quelli və köməkçisi doktor Qaetano Kollotti başçılıq edirdi. Onların sərəncamında təxminən iki yüz döyüşçü vardı. Dəstə Triestdə, Belloskuadro küçəsi 8 ünvanındakı birmərtəbəli binada yerləşirdi. Əvvəllər bu evdə yaşamış yəhudi ailəsi deportasiya olunmuşdu. Az keçmiş xalq arasında buranı “Qara villa” adlandırmağa başladılar. Qonşular görürdü ki, bura gətirilən adamların çoxu binanı tərk etmir. Gecələr villanın həyətindən çıxan yük maşınlarının səsi eşidilirdi, şübhəsiz, amansız işgəncələrə dözməyib ölənlərin meyitlərini maşınlara yükləyib aparırdılar.

İtaliyada faşizmin süqutundan sonra almanlar yalnız Triest və ətraf əraziləri işğal etmiş, Krasın daxili vilayətlərinin bir çox iri yaşayış məntəqələrində gücləndirilmiş postlar qurmuşdu. Triestin arxa cəbhəsindəki kəndlərin böyük hissəsi işğaldan kənarda qalmışdı. Almanlar bura nadir hallarda soxulur, hərdən silahlı qruplar göndərirdi. İki aydan sonra almanlar İstriyanın daxili ərazilərinin nəzarətsiz qaldığını eşidəndə sevindi. Çünki əraziləri qoruya biləcək bir dənə də olsun partizan dəstəsi yox idi. İstriyanın baş partizan dəstəsi öz qərargahını amansız döyüşlər gedən Kvarner və Dalmatsiyaya köçürmüşdü. Bundan istifadə edən almanlar təpədən-dırnağadək silahlanmış patrul dəstələrini mütəmadi olaraq kəndlərə göndərib əhaliyə divan tuturdu. Bu işdə *“squadra speciale”* xüsusi canfəşanlıq göstərirdi. Kollotti və Quelli casus şəbəkəsi yaratmağa cəhd göstərsə də, slovenlərdən və yerli fəallardan kimsə bu işə qol qoymurdu. Məsələni belə görəndə onlar başqa taktika seçib kəndlərə casus göndərməyə başladılar. Belə satqınlar sloven gənclərindən seçilirdi. Onlar əvvəlcə Müqəddəs İvan adına Mərkəzdə xüsusi hərbi təlim keçir,

[1] Xüsusi təyinatlı dəstə (ital.)

sonra isə könüllü partizan kimi kəndlərə göndərilirdi. Partizanlar yeni gəlmiş hər adamı dəstəyə qəbul etmir, onları ciddi yoxlamadan keçirirdi. Casus gənclərdən çoxu bu yoxlamalardan keçə bilmir və onları dərhal güllələyirdilər. Lakin son bir ildə partizan sıralarına xeyli casus qoşula bilmişdi.

Bu gün doktor Kollotti və doktor Quellinin birgə əyləşdiyi böyük kabinetdə Qabrovitsadakı uğurlu əməliyyatın şərəfinə ziyafət təşkil olunmuşdu. Orada son yarım ildə hakimiyyətsizlik hökm sürürdü, necə deyərlər, partizan paytaxtına çevrilmişdi. “Qara villa” sahiblərinin əhval-ruhiyyəsi yüksək idi: dünən öz adamlarını partizan sıralarında yerləşdirə bilmişdilər. Kollotti ağsaç, arıq və uzun adam idi, sol gözünə monokl taxırdı. Etiketinə “Kryuger” yazılmış şüşədən həmkarı Quellinin əlindəki stəkana şampan şərabı süzdü. Quelli potaboy, dolu bədənli, daz idi. Kollotti kimi, yaşı altmışı haqlamışdı. İyirmi ildən çox dostluq edirdilər, müharibə onları daha da yaxınlaşdırmışdı. Mussolini rejiminin süqutuna qədər Quelli diktatorun 43 əsgərdən ibarət şəxsi mühafizə xidmətinin rəisi və komendant vəzifəsində çalışmışdı.

– Əziz Cüzeppe, bayaq göstəriş verdim ki, soyuq şampan şərabı gətirsinlər. Qabrovetsdəki uğurumuz yerinə düşdü. Bunun şərəfinə mütləq içmək lazımdır, düz demirəm, əziz həmkar?

– Əlbəttə, dostum Qaetano! Sizinlə razıyam! Dünənki günə gün çatmaz! Ora casus göndərmək məhz sizin ağlınıza gəldi, bu münasibətlə təbriklərimi qəbul edin! – Cüzeppe Quelli gülümsündü.

– Hörmətli Cüzeppe, açığı, casus göndərmək ideyasının mənə məxsus olub-olmadığı yadımda deyil, ancaq bunun əhəmiyyəti yoxdur. Biz bir komandayıq, kollektivin hər bir üzvünün uğuru, ümumi qələbə deməkdir. Bir nəfər hamı üçün, hamı bir nəfər üçün! Sizinlə neçə illərdir uğurla əməkdaşlıq edirik, artıq bir-birimizin ürəyindən keçəni oxuyuruq, düz demirəm, Cüzeppe?

– Elə ona görə də bilirəm ki, şəhərdə və ətraf kəndlərdə baş verən terror aktları sizə dinclik vermir. Təxribatlar əhali arasında qorxu yaradır, mən hələ ölənləri demirəm...

– Düz tapmısınız, Cüzeppe! Təxribatlar məni elə narahat edir ki, yuxum ərşə çəkilib. Ona görə də əsəblərimizi sakitləşdirmək üçün gəlin hərəyə bir “Espanyol” siqarı yandıraq.

– Hörmətli Qaetano, bu siqarı çox sevirəm, ondan yaxşısı yoxdur! Qəzetdə oxumuşam ki, o yekəqarın qurbağa Uinston Çörçill də bu siqardan çəkir. Düşünürəm, qələbəmiz şərəfinə bu siqardan mütləq dadmalıyıq. Etiraf edim ki, nahar da ləzzətli idi, yalnız Vittoriya sousun xardalını yaman çox eləmişdi.

– Ləzzət demişkən, yadıma düşdü ki, hərəyə bir fincan qəhvədən sonra bizi desert gözləyir – sevimli işimizlə məşğul olmalıyıq! Yəni iki gözəl xanımı dindirməliyik. Onları bu gün səhər Qabrovetsdə həbs ediblər. Məlum məsələdir, bu qızlar da başqaları kimi heç nə görüb-eşitmədiklərini deyəcək. Ancaq onların sözünə inanan kimdir? Əlimizə yaxşı girəvə düşüb: bir az incidək, əzab verək. Bəlkə, dilləri açıldı, hə? Gərək gördüyün işdən zövq alasan. Ən vacib olan istəkdir. Necə deyərlər, istəmək işin yarısıdır! İndi elə yaşımızdır ki, belə gözəlçələri yalnız fahişəxanadan, həm də yaxşı pul müqabilində əldə edə bilərik. Fərq bundan ibarətdir ki, orda hər şey üçün gərək əlini cibinə salasan. Burda isə, əksinə, bizə pul verirlər ki, bu gözəlçələrlə, necə deyərlər, əylənək. Siz necə bilirsiniz, mənim əziz Cüzeppem, kainatda harmoniya mövcuddurmu?

– Hörmətli həmkarım Qaetano, qadınlara işgəncə vermək sizin əlinizdən gəlir, bu iş mənlik deyil. Belə ürəkbulandıran oyunlardan zəhləm gedir.

– Hə, bilirəm, cənab cəngavər doktor Cüzeppe əlini batırmaqdansa, bütün bunları kənardan müşahidə etməyi xoşlayır.

– Dəfələrlə təklif etmişəm ki, istintaqa başlamazdan əvvəl cərrah xalatı geyinəsiniz, məncə, qəssab önlüyü də taxsanız, əla olar, ha-ha!

– Eh, mənim əzizim, sabah da deyəcəksiniz ki, cərrah əlcəyi tax, ya da belə qəşəng qızları dindirəndə onlara təcavüz etmə, hər dəfə əllərini spirtlə təmizlə, daha nə bilim nə! Hər şeyin bir həddi var, ya yox?

– Əzizim, şərabdan bir az vurun, qanınızı qaraltmayın. Əsəblər istintaq vaxtı sizə lazım olacaq.

– Bəli, haqlısınız, – Qaetano qədəhi başına çəkdi. Dodaqlarını marçıldadıb sözünə davam etdi:

– Dünən partizanların xaraba qalmış paytaxtında, həmin o Qabrovitsada həbs etdiklərimiz arasında bu iki gözəlçədən başqa dişə vurulası kimsə yoxdur. Əlimizə göydən düşüblər. Biri ortaboylu, qarabəniz, gözəgəlimlidir, ceyran baxışları var, gözünü ağardırsan, yarpaq kimi əsməyə başlayır. Əvvəlcə bu quzu balasını dindirək. Mərc gəlirəm ki, hələ bakirədir! Beş litr “Malvazi” şərabı məndən! Nə deyirsiniz?

– Mən razı. Onsuz da, sabah müqəddəslərin bayramıdır, vurmaq lazımdır, ya yox?

– İkinci qızı görəndə məəttəl qalacaqsınız. Onda quzuluqdan əsər-əlamət yoxdur, sanki qartal balasıdır – yerişi, duruşu göz oxşayır, hündür, boy-buxunlu, sıx qara saçları var, sinəsi adama gəl-gəl deyir, mələkdir elə bil, zalım qızı manekenə bənzəyir!

– Mənim əziz dostum, arzu edirəm, bu müharibə heç vaxt bitməsin. Çünki müharibə olmasaydı, bizim kimilər normal həyat sürə bilməzdi. Anlaya bilmirəm, niyə insanlar müharibədən gileylənir?

– Bəli, müharibə, həqiqətən, əla şeydir. Ancaq biz davadan əvvəl də pis yaşamırdıq. Qadın məhbuslarla bol-bol əylənirdik, düz demirəm?

– Elədir ki, var. Gözəlçələrdə ağıl nə gəzir? Bu kütbeyinlər kommunistlərlə oturub-durmaqdan başqa heç nə bilmir. Yadınızdadır, bizim gənclik çağlarımız necə şən keçirdi?

Söhbət elə şirin idi ki, iki şüşə şərab içib hərəyə iki siqar çəkdiklərindən xəbər tutmadılar. Rəisin köməkçisi Emilio kiçik sinidə iki fincan qəhvə gətirdi – müharibədən əvvəl kafedə işləmişdi, qarsonluq da qanına hopmuşdu.

Kollotti əmr verdi:

– O iki məhbus qızı cəld yanıma gətir! Hələlik qonşu otağa salıb qapını qıfılla! Özün də itil, gözümə görünmə! İşimiz çoxdur, istəmirəm kimsə zəhləmizi töksün! Bizi xəbər alan olsa, adını, telefon nömrəsini yaz. De ki, sonra zəng vurarıq. İndi isə əmri yerinə yetir! Cəld ol! Yanıma heç kimi buraxma! Məşğulam, vəssalam! Özün də səs eşitsən, kabinetə girmə! Bilirsən də, bu quzular hərdən mələməyi sevir! Elə səs çıxarırlar ki, adamın zəhləsini tökürlər, düz demirəm?

– Hörmətli doktor Kollotti, etiraf edim ki, musiqidən başım çıxmır. Amma bu qızların bağırtısı mənim üçün ən şirin melodiyadan və məlahətli ariyadan da gözəldir! – Emilio əmrə müntəzir dayandı.

– Ehtiyatlı ol, dostum. Başını lazım olmayan deşiyə soxsan, başsız, həm də burunsuz qala bilərsən! İndi isə itil! Axşam gestapodan bir başıboş gələcək, yalnız onu kabinetə buraxarsan. Çünki almanlardan başqa kimsənin bizə canı yanmır. Yeganə müttəfiqimiz onlardır, küsdürmək olmaz! Hə, hörmətli həmkar, deməyi unutmuşdum, gestapodan kapitan Virtsbuxtel zəng vurmuşdu. Dedi son vaxtlar şəhərdə və ətraf kəndlərdə baş vermiş terror aktlarını törədənlərin izinə düşüb. Yadınızdadırsa, qəzetlərdə terrorçulardan birinin şəkli dərc edilmişdi. Nə isə, kapitan axşam hamısını yerli-yerində danışar. Hə, keçək iş başına, boş söhbətdən kar aşmaz! İndi o quzulara bir toy tutum ki, partizanlıqlarını da unutsunlar! Bu işə necə baxırsınız?

– Əziz dostum, heç cürə anlaya bilmirəm ki, adamlar niyə polis olmaq istəmir? Başqalarının üstündə ağalıq etməkdən gözəl nə ola bilər? Məsələn, kefimiz istəsə, bu məhbus qızlar ya sağ qalar, ya da ölər! Bunu düşünəndə adamın qəlbi fərəhlə döyünür!

– Məni isə indi ən çox narahat edən budur: mərci udacağam, ya yox? Bax əvvəlcə bunu müəyyən etmək lazımdır, qalan şeylərin əhəmiyyəti yoxdur! O pişik balaları sağ qalacaq, ya cəhənnəmə vasil

olacaq, bunu Tanrıdan başqa kimsə bilmir! Hər şey Yaradanın əlindədir! Hörmətli həmkar, xahiş edirəm, birinci məhbusu gətirin. Ümidvaram, onu zirzəmidə xurd-xəşil etməyiblər. Səhər onları görəndə sağ-salamat idilər, heç burunları da qanamamışdı, ancaq bizim uşaqları bilirsən də, əlləri dinc durmur! Xoşbəxtlikdən, işə can yandırıb Vətənə elə sədaqətlə xidmət edirlər ki, tənbehdən vaz keçməli olursan. Məhbusların yanından yel ötən kimi canlarını tapşırır, bizim əməkdaşların günahı nədir? Qayda-qanun yaratmaq, məhbuslara nəzarət etmək onların ümdə vəzifəsidir! İşgəncə verməyi də bacarmırlar! Görünür, fantaziyaları çatmır. Əziz dostum, açığı, onlara dərs verməkdən vaz keçmişəm. Çünki nə qədər əlləşdimsə, işgəncə metodlarını öyrədə bilmədim. Bu metodlara yalnız qəddar və amansız adamlar yiyələnir. İşgəncə sadəlövhün yemi deyil. Tanrı həyatdan zövq almaq bacarığını hamıya bəxş etməyib. Ona görə də məhbusları biz dindirməli oluruq. Ancaq indi hüzurumuza gətiriləcək pişik balaları həmişə rastımıza çıxmır. Çalışıb bu imkandan maksimum istifadə etməliyik. İnanın, hətta pərəstiş etdiyimiz Markiz de Sad[1] da belə məhbus qızları görüb sevinərdi.

– Hörmətli həmkarım, düşünürəm, işə başlamazdan əvvəl bir şüşə də şampan əla olar! Məhbus qızlarla birlikdə sevimli markiz de Sadın şərəfinə badə qaldırardıq! Boşalmış şüşə də lazım olacaq: məhbusu onun üstündə oturmağa məcbur edəndə rəngi qaçır, bunu seyr etməkdən ləzzətli heç nə yoxdur! Necə təklifdir, hörmətli həmkar?

* * *

Kapitan Virtsbuxtel axşam gəldi. Köməkçi məruzə edəndə işgəncə üzrə polis ekspertləri böyük qonaq otağında dostcasına söhbətləşirdi. Onlar kapitana yaltaqlanıb bildirdilər ki, gestapoya can-başla kömək etməyə hazırdırlar və bu gündən əməkdaşlara müvafiq əmr veriləcək: təxribatçılar barədə əhalinin danışıqlarını xəlvətcə dinləyib, terrorçuların yeri barədə ətraflı məlumat toplamağa çalışsınlar. Əldə olunan bütün məlumatlar dərhal kapitana ötürüləcək. Alman zabiti ilə şərab və çiyələkli likör içib ayrıldılar. Polis rəislərinin gərgin iş günü belə başa çatdı və hər ikisi evə – repressiya olunmuş yəhudilərə məxsus villalara yollandı. Kapitan Virtsbuxtel isə iş otağına qayıdıb terrorçular barədə topladığı sənədlər qovluğunu açdı və bəzi kağızları gözdən keçirdi. Hələ də bağlı qalmış cinayət işi kapitan Virtsbuxtelin canını sıxırdı...

---

[1]**Donasyen Alfons Fransua de Sad** (fr. *Donatien Alphonse François de Sade*; 1740–1814), tarixdə Markiz de Sad (fr. *marquis de Sade*) kimi qalıb – fransız zadəganı, yazıçı və filosof. Dünya ədəbiyyatında qalmaqallı romanlar müəllifi və sadizmin banisi kimi tanınır.

# İYUN 1944-cü il



**XXI**

Mixaylo yanvarda Pliskovitsadan gəlmiş rabitəçilərlə görüşəndə öyrəndi ki, Sahilyanı ərazilərdə döyüşən partizanlar Soş briqadasının tərkibində rus batalyonu yaradıb. Bura İtaliya faşist rejiminin süqutundan sonra başsız qalmış legionerlər daxil edilib. Batalyon Anatoli İqnatyeviç Dyaçenkonun başçılığı altında fəaliyyət göstərir. Slovenlər burada bələdçi, rabitəçi və sanitar qismində xidmət edir, Stanko Soçan da komissar təyin olunub.

1944-cü ilin əvvəllərində batalyonda 250-dən artıq sovet vətəndaşı döyüşürdü, əksəriyyəti də ruslar idi. Hərbi hissə Tolmin vilayətində yerləşir, hərdən Haribaldinin dəstəsi ilə birlikdə qonşu Furlaniyaya yürüş edirdi. Batalyonun fəaliyyəti Mixaylonu maraqlandırmışdı, ona görə də həmkarlarına baş çəkmək istəyirdi.

İdrindəki silah anbarını partladandan sonra belə fürsət yarandı. Yeri gəlmişkən, təxribat düşmən cəbhəsində böyük əks-səda doğurmuş, partizanlar partlayışdan əvvəl anbarı "silib-süpürmüşdü". Rabitəçi tapşırığa əsasən Mixaylonu Sivki yamacı ilə buzlu zirvələrin əhatəsində olan yaylaya gətirdi – rus batalyonunun düşərgəsi burada yerləşirdi.

Sahilyanı ərazilərdə adı dillər əzbəri olan təxribatçını rus batalyonunda hədsiz sevinclə qarşıladılar. İgidin üzünü görməsələr də, şan-şöhrəti barədə eşitmişdilər – Mixaylo bu diyarda əfsanəvi qəhrəmana çevrilmişdi. Onu təcrübəli və qorxmaz döyüşçü, bacarıqlı təxribatçı kimi tanıyırdılar. Üstəlik, Mehdi Hüseynzadə Soş briqadasının rus batalyonunda xidmət edən digər döyüşçülər kimi sovet vətəndaşı idi.

Mixaylonun gəlişi şərəfinə batalyonda ziyafət təşkil olundu. Döyüşçülər süfrə arxasına keçəndən sonra komandir Anatoli İqnatyeviç ayağa qalxıb Mixaylodan özü haqqında danışmağı xahiş etdi. Cəsur partizanın dodağı qaçdı, gözləri güldü. Hiss olunurdu ki, dostların əhatəsində özünü xoşbəxt hiss edir.

– Mən Bakıda doğulmuşam, – Mixaylo sözə başladı. – Valideynlərimi erkən itirmişəm, nənəmin və böyük bacımın himayəsində böyümüşəm. İbtidai sinifdə oxuyanda məktəbimizin direktoru Süleyman Sani Axundov idi. Tanınmış yazıçı idi. Əla qiymətlərlə oxuyurdum, rəsm çəkməyi xoşlayırdım. Səkkizinci sinfi bitirəndən sonra Əzim Əzimzadə adına təsviri sənət məktəbinə girdim. Sonra oxumaq üçün Leninqrada getdim, məni komsomol sıralarına qəbul etdilər. Arzum Leninqrad Rəssamlıq Akademiyasına daxil olmaq idi, amma qəbul imtahanından keçə bilmədim. Xarici Dillər İnstitutuna girdim, fransız, alman dilini öyrəndim.

Məktəb illərindən ədəbiyyatla maraqlanırdım. Nizaminin, Cəfər Cabbarlının əsərlərini, aşıq şeirlərini sevə-sevə mütaliə edirdim. Özüm də şeir yazmağa həvəs göstərirdim. Məhz ədəbiyyata dərin maraq məni Bakıdakı Azərbaycan Pedaqoji İnstitutuna gətirdi. Leninqradda təhsil alanda hər ay evdən yüz əlli-iki yüz rubl pul göndərirdilər. Bilirdim ki, özləri də ehtiyac içində yaşayır, güc-bəla ilə dolanırlar, ona görə də ailəyə yük olmaq istəmirdim. Qərara aldım ki, Bakıya qayıdıb təhsilimi orada davam etdirim. Məni orduya çağırıb minaatanlar məktəbinə göndərdilər. Oranı bitirib leytenant rütbəsi aldım, minaatanlar bölüyünün komandiri təyin edildim. Moskva və Stalinqrad döyüşlərində iştirak etmişəm, yaralanıb əsir düşmüşəm.

Faşistlər məni ram edib qula çevirmək istəsə də, bacarmadı. Ancaq mənəviyyatını itirmiş şəxslər sovet adamının satqın olduğuna inana bilər. Faşistlərin həbs düşərgəsində keçirdiyim dəhşətli günlər barədə danışmaq istəmirəm, hamınız bunu yaxşı bilirsiniz. Türküstan diviziyasında xidmət edəndə gecə-gündüz fikirləşirdim: bu vəziyyətdə xalqıma xeyir vermək üçün nə etməliyəm? Seçdiyim yol hamınıza bəllidir. Təhlükəli və çətin olsa da, ən düzgün yol seçdiyimi düşünürəm və kimsə məni bu məsləkdən döndərə bilməz. Vətənimdə gözəl bir zərb-məsəl var: “Ölmək ölməkdir, xırıldamaq nə deməkdir!” Əvvəllər ölüm vecimə deyildi, ona etinasız yanaşırdım, indi isə ölüm barədə düşüncələr ruhuma rahatlıq gətirir. Əslində, çoxdan qəbirdə yatmalı, məzarımı da kol-kos basmalı idi, amma gördüyünüz kimi, hələ sağam, Allahdan bir ömür də borc almışam.

Legiona gələndən sonra almanların etibarını qazanıb diviziya qərargahında tərcüməçi qismində çalışırdım. Həmin vaxtdan əsir

düşmüş sovet vətəndaşları arasında geniş təbliğat işinə başladım. Məqsədim onları əsirlikdən qurtarmaq idi. Lakin Almaniyada bu planım ciddi maneələrlə üzləşdi.

Ötən ilin payızına qədər böyük səbirsizliklə gözləyirdik ki, bu gün-sabah bizi cəbhəyə göndərəcəklər. İtaliyaya gələn gündən legiondakı gizli təşkilatımız üçün ağır günlər başladı. Yoldaşlarımızdan bir qrupu qaçıb partizanlara qoşulandan sonra almanlar legiona nəzarəti gücləndirdi. Artıq legionerlərə döyüş tapşırığı vermirdilər, iki ay əvvəl isə 314-cü alayı partizanların nəzarəti altında olan ərazidən çıxarıb Cənub cəbhəsinə göndərdilər. Ancaq əminəm, bu yerdəyişmə faşistlərə səmərə verməyəcək, çünki legion üzvlərinin böyük əksəriyyəti şüurlu sovet adamlarıdır, fürsət düşən kimi qaçıb müttəfiqlərin ordusuna qoşulacaqlar.

Nasistlərdən çox şey öyrəndim, xüsusən də Berlindəki üçaylıq kəşfiyyat kursunda təlim keçəndə – Cavadı və məni ora göndərmişdilər. Dostum Cavadı, yəqin, tanıyırsınız – Qradnik briqadasının tərkibindəki rus bölüyünün komandiridir. Təlim kursunda öyrəndiklərimi faşistlərə qarşı tətbiq etməyə başladım. Daim sovet xalqına xidmət etmişəm və həmişə xalqın keşiyində sayıq dayanacağam! – Mehdi söhbətini bitirdi.

Gurultulu alqışlar qopdu, Mixaylo da səhnədə dayanmış aktyor kimi təzim etdi.

– Qonaq olun, əziz dost, – Anatoli İqnatyeviç süfrəni göstərib səmimiyyətlə bildirdi. – Son vaxtlar bəzi çətinliklərlə üzləşmişik, ərzaq təchizatı ilə bağlı problemlər yaranıb. Amma uşaqlar ruhdan düşmür. Ümidvaram, yaxın vaxtlarda hər şey qaydasına düşəcək.

– Bəli, partizan briqadaları üçün ağır günlər başlayıb, – Mixaylo fikirli-fikirli dedi. – Müttəfiqlər ikinci cəbhəni açmağa tələsmir. Məncə, ingilislər və amerikalılar yalnız müharibənin sonunda hücuma keçəcək. Gözləyirlər ki, Sovet İttifaqı və Avropanın üsyana qalxmış xalqları alman-faşist hərbi maşınını dağıdıb bəşəriyyəti bu bəladan qurtarsın. Hələlik müttəfiqlər vəd verməkdən başqa bir iş görmür. Ərzaq barədə sizə necə yardım etməyi düşünürəm, bəzi planlarım var, ancaq qoy hələlik sirr olaraq qalsın.

1944-cü il baharın sonunda bütün dünya səbirsizliklə müttəfiqlərin nə vaxt desant çıxarıb Avropanı bürümüş faşizm kabusu ilə mübarizəyə başlayacağını gözləyirdi. Partizanlar arasında da söz-söhbət gəzirdi: ikinci cəbhə nə vaxt açılacaq? Yoxsa, müttəfiqlər Sovet İttifaqının təkbaşına döyüşüb zəifləməsini gözləyəcək?

Axşam saat 6-da Mehdi hamı ilə görüşüb düşərgədən ayrıldı, korpus qərargahında komandir Pemts onu gözləyirdi. Getməzdən əvvəl döyüşçülərə qoşulub hamının sevdiyi məşhur mahnını oxudu:

*Bir tərəfdən Rusiya,*
*Bir tərəfdən Serbiya,*
*Bir də Çernoqoriya,*
*Hitler uduzmalıdır!*

Briqada komandiri Mixaylonu yola salanda dedi:

– Mişa, bir xahişim var. Bizə tanınma nişanları hazırlamaq üçün ipək parça lazımdır, bilmirəm hardan tapaq. Kömək etsəydin, minnətdar olardıq!

– Yaxşı, Anatoli İvanoviç, çalışaram. Hələlik! – Mixaylo xudahafizləşib getdi.

## XXII

*Qərib bir ölkədə təkcə qalanda,*
*Baxıb üfüqlərə ilham alanda,*
*Acıqlanma məni yada salanda,*
*Vətəndə qoyduğum nazlı dilbərim!*

*Bir ördək yerişli, bir incə belli,*
*Tumarlar başını sabahın yeli,*
*Hərdən ağ sinəyə düşəndə teli,*
*Bir görən olsaydı nazlı dilbəri!*

*Gözləri can alan, sözü məzəli,*
*Sanki bir lalədir, görməz xəzəli,*
*Nə deyim, bəlkə də, dünya gözəli,*
*Bir görən olsaydı nazlı dilbəri!*

*Arabir gözləri gəl-gəl deyərkən,*
*Yar coşub özündən dilin yeyərkən,*
*Bir gedib, bir baxıb gülümsəyərkən,*
*Bir görən olsaydı nazlı dilbəri!*

*Onunla olsaydım, olmazdım xəstə,*
*Dili badam içi, dodağı püstə,*
*Barı heç olmazsa, qəbrimin üstə,*
*Bir görən olsaydı nazlı dilbəri!*

***M.Hüseynzadə***

– Əziz dostum, yaz başlayandan sənə göz qoyuram. Bu qənaətə gəlmişəm ki, qızıl dövrün yetişib. İndi bütün dünya sənin ayaqların altındadır, Mixaylo. Xüsusən də, qızları nəzərdə tuturam. Nə deyim, doğrudan da, yaraşıqlı, gözəgəlimli cavansan, kim istəməz ki, belə kürəkəni olsun?! Sənə vurulmuş yerli qızları saysam, əlimdəki barmaqlar kifayət etməz. Xatırlayıram, Bakıda tamam başqa idin: gözün Əzizədən başqa kimsəni görmürdü, hər ikinizin baxışlarından sevgi yağırdı. Əl-ələ tutub gəzməyi sevirdiniz. Düz demirəm, Mehdi?

– Əziz İvan, daha doğrusu, Mirdaməd. Görürsən də, sənin partizan ləqəbinə artıq alışmışam. Az aşın duzu deyilsən, təklikdə qalanda da mənə “Mixaylo” deyirsən. Sənə bir sirr açım: gündən-günə Mixaylonun cildinə girib Əzrayıla – ölüm və qisas mələyinə çevrilirəm! Məndə artıq Mehdidən əsər-əlamət qalmayıb. Bəşəriyyəti, mədəniyyət və incəsənəti sevən adam yavaş-yavaş əriyib gedir. İnsan qəlbinə məlhəm sayılan mədəniyyəti müharibə dövrünün işgəncə və təcavüz mədəniyyəti üstələyir. Bəşəriyyətin bir qismi İblisə satılıb vəhşiyə çevrilir, bir-birinin ətini didir.

Amma qayıdaq məni narahat edən fikirlərə. İnsan şəxsiyyətini şərait formalaşdırır, çoxarvadlılıq isə bir qadınla kifayətlənməyən kişinin xislətindən doğur. Qadının bu sahədə inhisarçı olması kişini dərhal psixoloji asılılıq vəziyyətinə salır. Çünki qadın istəsə, kişinin qarşısında cənnət qapılarını açar da, bağlayar da. Bilirsən bu, nəyə bənzəyir? Məsələn, sərxoş adamın gözü həmişə içki şüşəsindədir. Gözləyir ki, nə vaxt qədəhini dolduracaqlar, ya da bu axşam badəsi boş qalacaq! Məhz bu səbəbdən kişi bir neçə arvad alıb evə gətirir, sonra da qadınlar həmin kişinin məhəbbətini qazanmaq üçün bəhsə girir. Kişi onları hərəmxanada saxladığı üçün qadınlar cənnət qapısını inhisarda saxlayır.

Bir arvad almaq, yaxud çoxarvadlı olmaq tam fərqli şeydir. Məsələn, bir arvadın olanda gəlin çoxlu cehiz gətirir, ikinci halda isə, bir neçə arvad almaq üçün gərək çoxlu pul xərcləyəsən. Beləcə, sanki kolleksiya toplayan adama çevrilirsən. Məsələn, at həvəskarı arzu edir ki, tövlədə cins atların sayı çox olsun, gözü daim axtarır, harda qaçağan at görsə, alır. Çoxarvadlı kişi də belədir, bir qadının sevgi və nəvazişi həmişə ona azlıq edir. Bu gerçəklik biz müsəlmanlara yaxşı tanışdır. Quranda

deyilir ki, qadın kişilərin əkib-biçdiyi zəmidir. Peyğəmbər də kişilərə ixtiyar verib ki, bir neçə zəmini əkib-becərsin. Hər kəsin imkanına və arzusuna görə! Amma elə adam tanıyıram ki, hətta bir arvad da ona çoxluq eləyir! Ha-ha-ha!

Əgər kişi bir arvadla yaşamağa məhkumdursa, gəlinin gətirdiyi cehiz kişinin həyatı boyu qarşılaşacağı məhrumiyyətlərin əvəzi üçün, necə deyərlər, bir ödənişdir! Bunu məntiqli, düzgün və ədalətli sayıram. Həqiqətən, bir arvadla yaşasan, istər-istəməz məhrumiyyətlərlə üzləşəcəksən. Məncə, köhnə adətlər çox ədalətlidir.

– Yadımdadır, institut illərində səni də, Əzizəni də etnologiya[1] dərindən maraqlandırırdı.

– Düz tapmısan. Günümüzə qədər gəlib çatmış adət-ənənələr mənim üçün xalqın tarixini əks etdirən kitab rolunu oynayır. Bu kitabdan çox şey öyrənmək olar. Amma əsgər forması geyinəndən sonra bu barədə düşünməyə vaxtım olmayıb.

– Bəli, müharibə hamımızı dəyişib. Çox istərdim ki, bu dəyişikliklər yaxşı tərəfə meyil etsin. Təəssüf ki, bunu insanların hamısına şamil etmək mümkün deyil. Bir məsələ var, neçə gündür sənə demək istəyirəm, amma alınmır. Əziz dostum, bu yaxınlarda komandir Dule təklif etdi ki, baş qərargahda tərcüməçi işləyim, mən də razılaşdım. Bilirsən ki, baş qərargah faşistlərdən azad olunmuş ərazidə yerləşir, istəyimi boğa bilmədim, çünki azad bir yerdə yaşayıb işləmək çoxdankı arzum idi. Digər tərəfdən, səni tək qoymaq istəmirəm. Ancaq hiss edirəm ki, çoxsaylı təxribat aksiyalarından sonra əsəblərim pozulub, yuxum ərşə çəkilib, rahatlıq tapa bilmirəm. Səninlə çiyin-çiyinə döyüşmək, təhlükəli əməliyyatlara getmək heç də asan məsələ deyil, Mehdi. Sənə ruh verən qisas hissidir, dediyin kimi, qisas və ölüm mələyi Əzrayılsan! Mən isə adi adamam, bütün bu məşəqqətlər canımı sıxır. Təhlükəli işlərdən bir az aralanmaq istəyirəm. Həm də arxayınam ki, sənə bir bölük döyüşçü veriblər, təxribat işində kifayət qədər köməkçin olacaq.

– Əziz dostum Mirdaməd, düzgün qərar vermisən. Şərlə mübarizənin çox üsulları var, yalnız təxribatla iş bitmir ki! Bu günə qədər təxribat törətməklə məşğul olmuşuq. Bilirəm, yorulmusan, dincəlməyə ehtiyacın var. Bir şeyə əminəm: bu müharibədə səndən yaxşı, etibarlı döyüş yoldaşı tapa bilməyəcəyəm! Bəlkə, gələn dəfə... Allah qoysa, davadan sonra qayıdarıq Bakıya, həmişə getdiyimiz kafedə oturarıq tut ağacının altında, çay içib ötən günləri xatırlayarıq... Eh, qaldı ki, qızlara... Nə deyim? Bakıya qayıdıb hər dəfə davanı xatırlayanda bu qızlar yadıma

---

[1]**Etnologiya** (yunanca: təlim, elm) – etnik prosesləri öyrənən elm

düşəcək. Onları unutmaq mümkün deyil. Hər kənddə neçə-neçə gözəl, mehriban, istiqanlı qız görmüşəm. Boylu-buxunlu, hərəsi bir sərv ağacı! Mətanətlərinə də də söz ola bilməz! Bilirsən, yaraşıqlı, gözoxşayan qızları çox bəyənirəm. Qəmzəli baxışları adamın canını alır. Şaqraq gülüşlərinə valeh olursan. Hamısı da vətənpərvər, torpaq uğrunda candan keçməyə hazırdır. Mənə elə gəlir, Sahilyanı ərazilərin partizan qızları düşmənlə mübarizədə kişilərdən heç də geri qalmır.

– Yəqin ona görə ki, sloven gənclərin çoxunu italyan ordusuna çağırıblar, digərləri də partizan kimi dağlara çəkilib. Kəndlərdə kişi qalmayıb, deməli, əsas yük qadınların və qızların çiyninə düşür. Yerli qocalar deyir ki, azadlıq slovenlərə çox baha başa gələcək.

– Mən də bu fikirdəyəm. Necə deyərlər, Allah heç bir ailəni başsız qoymasın. Kəndlərdə kişilərin yoxluğu qadınları pis duruma salıb. Bizim ümdə vəzifəmiz bu zərif məxluqları qorumaqdır. Amma əvvəlcə düşmənin axırına çıxmalıyıq. Meşədə, yol kənarında pusqu qurub faşistlərə gözlənilməz həmlə endirməli, partlayışlar törətməli, düşmənin texnika və canlı qüvvəsini məhv etməliyik. Yalnız bundan sonra o gözəl qızların isti nəfəsini duymağa layiqik!

– Mehdi, mənə elə gəlir, bu ağır zamanda çox tez-tez romantik hisslərə qapılırsan. Sevgi macəraları üçün heç də münasib vaxt deyil...

– Mirdaməd, romantik hisslər müharibəyə baxmır. Gəncliyin öz qanunları var. İnsan istənilən şəraitdə ülvi hisslərini itirməməlidir.

– Sənin hisslərini yaxşı başa düşürəm. Amma müharibə biz gəncləri mənəvi cəhətdən qocaldıb. Sanki uzun və məşəqqətli həyat yaşamışam. Sevgiyə, məhəbbətə həvəs qalmayıb. Bilmirəm, nədənsə, dinclik, sakitlik axtarıram... Amma, Mehdi, bir neçə ildən sonra sənin halını görmək istərdim. Görüm bu romantik hisslərdən əsər-əlamət qalacaq, ya yox?

– Qardaş, çalışıb sağ qalmalıyıq, ölməyə haqqımız yoxdur! Qalibləri Allah da sevir, onları hifz edir!

– Bəlkə də, belədir, deyə bilmərəm. Ancaq Stalin adlı allah bizi hifz edəcəkmi? Kim bilir, müharibədən sonra başımıza nə oyun açacaqlar?

– Əşi, o sərsəm Stalini başından çıxart. Yadındadır, Rusiyada bolşeviklərin bir mahnısı vardı:

*Çar Nikolay fərman verdi:*
*Ölülərə – azadlıq, dirilərə – qazamat!*

– Mirdaməd, belə düşünürəm ki, bu dəhşətli davada hansımız sağ qalıb Sovet İttifaqına qayıtsaq, bizi sorğu-sualsız güllələyəcəklər. Stalin üçün nə fərqi, müharibədə ölməmisən, burda nəfəsini kəsərik! Yüz

minlərlə adamı öldürmək onların əlində su içmək kimi bir şeydir. Kimliyindən, millətindən, məfkurəsindən asılı olmayaraq, hamıya düşmən gözü ilə baxır. Bizə belə xain ölüm yaraşmır, ona görə də Sovet İttifaqına qayıtmağın mənası yoxdur. Bilirsən ki, müharibədən sonrakı dövr haqqında danışmağı, yalançı mülahizələr yürütməyi sevmirəm. Dava bitəndən sonra nə baş verəcəyi məni əsla maraqlandırmır. Əsas diqqəti bu günün, yaşadığımız və fəaliyyət göstərdiyimiz məkanın və yaxın məqsədin üzərində cəmləşdirməliyəm. Yaxın məqsəd isə yer üzünü bu mənfur faşistlərdən təmizləyib rahat nəfəs almaqdır. Müharibədə salamat qalmağın yolu belədir! Təbii ki, əgər cəhənnəmə, yaxud cənnətə tələsmirsənsə!

Davanın necə qurtaracağından asılı olmayaraq, Mirdaməd, sənə bir arzum var: bu vurhavurda, çalış, sağ qal! Sonra ailə qur, çoxlu övlad dünyaya gətir. Qızlarla gəzib-əylənmək – bunlar ötəri şeylərdir, keçib-gedər. Əsas məsələ insanın doğma, isti ocağıdır. Yoldaşlığa, dostluğa, qardaşlığa, sadiqliyə, ümumiyyətlə, hər şeyə görə çox sağ ol, Mirdaməd! Gələcəkdə bir-birimizə rast gəlməsək də, mütləq Bakıda görüşərik!

– Harda deyirsən, bircə cəhənnəmdən başqa, əziz Mixaylo!

– Biz öləndən sonra cəhənnəmə yox, cənnətə düşəcəyik. Huri-mələklər bizi qoynuna alıb aparacaq, orda günlərimiz bir-birindən gözəl keçəcək. Hərçənd elə burda da pis deyil, hə? Narahat olma, bu gündən faşistləri həm özümün, həm də sənin əvəzinə qıracağam. Hamısının nəfəsini kəsəcəyəm! Buna əmin ola bilərsən, Mirdaməd!

## XXIII

Mayın sonunda rus batalyonu Qoritsadan cənub-şərqdə, Potok kəndində yerləşmişdi. Mixaylo hərbi hissəyə çoxdan baş çəkmək istəyirdi. Batalyona səhər Sejanedə kirayə götürdüyü "Fiat" markalı pikapla gəldi. Günlər uzanmışdı, gecədən başlayan yağış hələ də kəsmək bilmirdi. Son günlər faşistlər rus batalyonunu mühasirəyə almış, dağlıq ərazilərə gedən bütün yolları bağlamışdı. Bir həftə davam edən ağır döyüşlərdən sonra batalyonda silah və ərzaq ehtiyatı tükənmişdi. Gündə hərəyə bir tikə qatır əti verilirdi. Dağ şəraitində yükdaşıyan qatırlara böyük ehtiyac olsa da, qıtlıq artıq bu heyvanların da axırına çıxmışdı. Yaralıları özləri ilə daşıyırdılar, bəzisinin vəziyyəti ağır idi, eləsi vardı ki, çoxlu qan itirmişdi, bir tərəfdən də aclıq hamını əldən salmışdı. Əsgərlər dağ otları ilə qidalanırdı. Duz və vitamin çatışmazlığı özünü göstərirdi: adamların dişi tökülür, damağından qan axırdı. Necə deyərlər, bir dəri, bir sümük qalmışdılar. Almanlar batalyonu gecə-gündüz təqib edirdi. Məqsəd "Moskvanın kommunist bandası"nı məhv

etmək idi. Ərzaq tam tükənəndə batalyonun tibb bacısı, mavi gözlü, incə bədənli sloven qızı Peptsa dedi: "Vətənimiz çox gözəldir, amma nə çörək var, nə şərab!" Çətinliklə üz-üzə qalan təkcə partizanlar deyildi, əhali də aclıq və səfalət içində yaşayırdı. Faşistlər tez-tez kəndlərdə reydlər keçirir, əhalinin mal-mülkünü talan edirdi. Bu ağır vəziyyətdə rus batalyonuna gözlənilmədən kömək gəldi: Mixaylo bir yük maşını ərzaq gətirdi. Aşpaz qollarını çırmalayıb işə girişdi, nahara dadlı yeməklər hazırladı.

Döyüşçülər qoca palıd ağacının altında əllərinə keçən taxta parçalarından düzəltdikləri masanın ətrafına toplaşdı. Mixaylo söhbətə başladı:

– Katolik kommersiya bankının nəhəng binası Triestin Via Qrassini küçəsində yerləşir. Mənim yerli adamlarımdan biri bu binaya göz qoyub. Onun məlumatları həmişə dəqiq olur. Bankı iki karabiner qoruyur. Qarətdən bir gün əvvəl, nahardan sonra üzbəüz səkidə yerləşən restoranda əyləşib bankı izlədim. Qısa palto geyib tüfəngini çiynindən asmış aşağı rütbəli karabiner bütün günü bankın qarşısında sahibini gözləyən avtomobillərin arasında var-gəl edirdi. Hərdən bir-iki dəqiqə dincini almaq üçün bankın foyesinə girib stulda əyləşirdi. Baş karabiner isə masanın arxasında mürgü vururdu. İçəridə də sakitlik hökm sürürdü, adətən, nahardan sonra müştəri az olur.

İş günü başa çatırdı, bankın əməkdaşları da həmişəki işləri ilə məşğul idi. Karabiner növbəti dəfə foyeyə dincəlməyə gedəndə məni görmədi – qapının dalında gizlənmişdim. Əynimdə alman feldfebeli forması vardı. Bıçaqla karabinerin boynunun ardından vurdum, inildəyib yerə sərildi. Bunu görən əməkdaşlar dəhşətə gəldi. Baş karabiner oyanmağa macal tapmadı, onu da bir zərbə ilə aradan götürdüm.

Tapançanı havada oynadıb dedim: "Senyorlar, əllər yuxarı! Səsiniz çıxmasın!" Sonra da telefon naqilini kəsdim.

"Beş milyon italyan lirəsi! Cəld ol!" – əlimdəki sukeçirməyən çantanı küncdə əyləşmiş yaşlı əməkdaşın üstünə atıb bağırdım, qarşısında xeyli pul vardı, hamısı da səliqə ilə dəstələnmişdi. Qoca əlləri əsə-əsə kağız əsginasları çantaya doldurdu.

Təşəkkür edirəm! Xanımlar və cənablar, salamat qalın! – xudahafizləşib bankı tərk etdim.

Bir az aralıda Seyidov gözləyirdi. Küçənin tininə çatıb çantanı ona verdim, ikimiz də şəhərin dar küçələrində gözdən itdik. Ertəsi gün "İl Piccolo" qəzetində böyük başlıq verdilər: "Banka quldur basqını". Yazmışdılar ki, təpədən-dırnağadək silahlanmış böyük quldur dəstəsi banka hücum edib və seyfdə saxlanılan bütün pulları oğurlayıb!

Pulların bir hissəsini ərzağa xərclədim, qalan hissəsinə isə xəstəxana üçün cərrahi alətlər və dərman aldım. Mənə ərzaq satan adamla sövdələşib bu pikapı bir günlük kirayə götürmüşəm, axşam mütləq qaytarmalıyam.

Mixaylo sözünü bitirib əsgərlərlə birlikdə nahar etdi. Arada qalxıb maşına yaxınlaşdı, yük yerindən bir şüşə şərab götürüb masaya qoydu. Bir az əvvəl partizanlar üzgün və zəif görünürdü, indi isə dadlı nahar və hərəyə bir qurtum şərab onları cana gətirdi. İnsanın qarnı tox olanda nəğmə oxumaq həvəsi yaranır! Həmin axşam qoca palıdın dövrəsi əsl konsert səhnəsini xatırladırdı – əsgərlər gecədən xeyli keçənədək çalıb-oxudu...

## XXIV

Mixaylo Triestdə Seyidovla görüşməli idi, ona görə də Sosiçgilə gəldi. Ev sahibi zirzəmidə idi. Miryam qonağı qarşılayıb sığınacağa ötürdü.

– Bu kimsəsiz, sakit çardaqda özümü cənnətdəki kimi hiss edirəm. Sən dadlı yemək və ləzzətli şərab gətirəndə isə ruhum göyün yeddinci qatına qalxır! – Mixaylo bunu deyib Miryamın gözlərinin içinə baxdı.

Miryam güldü:

– Əgər cənnətə düşürsənsə, belə çıxır ki, biz Adəm və Həvvayıq? Bəs ilan kimdir? Atam?

– Yox, İvan! Həmişə söhbətin şirin yerində gəlib çıxır.

– Bəs indi hardadır?

– Bunu bilməsən yaxşıdır, başın ağrımaz! Amma harda olsa, indi gələcək. Saat səkkizə qədər, komendant saatı ərəfəsində buranı tərk etməlidir.

– Yaxşı, mən zirzəmiyə enməliyəm, atam orda çəlləkdən qablara şərab süzür, gərək ona kömək edim. Mixaylo, səni görəndə hər şeyi unuduram, vaxt da elə ötür ki...

– Miryam, sən yanımda olanda özümü itirirəm, sanki zaman dayanır. Heç səndən ayrılmaq istəmirəm.

– Mən də. Ancaq getməliyəm...

Qız Mixaylonun yanağından öpüb getdi. Otaqda tək qalan Mixaylonun başı hərləndi, nəbzi sürətlə döyünməyə başladı. “Miryam, Miryam!” Pıçıltı ilə dediyi bu sözlər sanki otaqda əks-səda verib qəlbini coşdurdu. “Bəlkə, mən, doğrudan da, vurulmuşam? Əsl sevgi necə olur, görəsən?” – öz-özünə verdiyi bu suallara tutarlı cavab axtarsa da, tapa bilmədi.

Seyidov şad xəbərlə gəlmişdi. Dostuna bildirdi ki, İtaliyanın cənubunda qızğın döyüşlər gedir. Bu da Britaniya ordusuna Monte-

Kassini şəhərini ələ keçirməyə imkan verib. Qısa məşvərətdən sonra, komendant saatının başlanmasına az qalmış Seyidov getdi. Miryam zirzəmidə atasına kömək edəndən sonra yatmaq bəhanəsi ilə otağına qalxdı. Paltarını dəyişib gecə köynəyi geydi və pişik kimi asta-asta dar pillələri qalxıb Mixaylonun otağına girdi. Ürəyi bərk döyünürdü, bu günə qədər özünü tənha, kimsəsiz hesab edirdi. Düşünürdü: "Əziz saydığım adam kaş daim yanımda olaydı, məni oxşayıb saçlarıma sığal çəkəydi, dünyanın ən zərif çiçəklərini ayağımın altına səpəydi". Miryam gecə-gündüz bu xəyallarla yatıb-dururdu. Pillələri qalxanda ürəyindən keçdi ki, indi yenidən Mixaylonu görüb şirin söhbətlərini dinləməyə, nəvazişini və isti nəfəsini duymağa böyük ehtiyacı var. Bütün bunlar təsəvvüründə canlandıqca sevincdən qanad çalıb uçmaq istəyirdi. Qarasaç, yaraşıqlı bu oğlan Miryamın qəlbini ovsunlamışdı. Amma bir gerçəklik də vardı. Miryam yaxşı başa düşürdü ki, sevdiyi bu oğlan təhlükəli adamdır, terror fəaliyyəti ilə məşğuldur, ancaq böyük hünər sahibi, əsl qəhrəmandır! Eyni zamanda, Mixaylo çox qapalı adamdır, sirrini heç kimə vermir. Miryam bilirdi ki, bu, Mixaylonun şəhərdə apardığı gizli işlə bağlıdır. Hər dəfə ondan nəsə soruşanda "sən bunu bilməsən yaxşıdır, başın ağrımaz, salamat qalarsan" cavabını eşidirdi. Deməli, Mixaylo yaxın çevrəsini, dostlarını təhlükədən qorumağa çalışırdı. Bunu düşünəndə Miryamın bu oğlana məhəbbəti daha da artır, onu uca, möhtəşəm qayaya bənzədirdi.

Çardaqda yanaşı oturub dar pəncərədən qaranlıq səmanı seyr edirdilər. Külək qara buludları qovub harasa aparır, ara-sıra kəhkəşanda sayrışan ulduzlar görünürdü. Mixaylo qızın qulağına pıçıltı ilə nağıl danışmağa başladı. Çünki ağlına nağıldan başqa bir şey gəlmirdi. Aramla danışır, sloven dilindəki bəzi sözlərin sonluğunu səhv tələffüz edəndə Miryam düzəliş verirdi. Mixaylo da yaxşı şagird kimi tənqiddən dərhal nəticə çıxarıb səhvi təkrar etmirdi. Mixaylonun yaddaşı və xarici dili qavramaq qabiliyyəti Miryamı heyran qoymuşdu. Bu günə qədər sloven dilini belə asanlıqla öyrənən ikinci adama rast gəlməmişdi.

– Azərbaycanlılar çox məğrur xalqdır. Çox danışmağı xoşlamasalar da, dağı dağ üstünə qoyan adamlardır. Qorxu hissi onlara yaddır, düşmən qarşısında heç vaxt baş əyməzlər. Yəqin, Topal Teymur[1] barədə

---

[1]**Topal Teymur** (09.04.1336, Xoca-İlqar kəndi, müasir Şəhrisəbz, Özbəkistan – 18.02.1405, Otrar, müasir Qazaxıstan) – görkəmli sərkərdə, Mərkəzi, Qərbi və Şərqi Asiyanın, habelə Qafqaz, Rusiya və Volqaətrafı bölgələrin tarixində böyük rol oynamış şəxsiyyət, Teymurilər dövlətinin banisi. 1370-ci ildə "Əmir" titulu almış Teymurun adı Azərbaycan dilində olan tarixi ədəbiyyatlarda daha çox "Əmir Teymur" kimi qeyd olunur.

eşitməmisən. Bu hökmdar Azərbaycan xalqının qanını içib, kəndləri, şəhərləri viran qoyub, insanlara zülm və işgəncə verib. Qərb tarixində və ədəbiyyatında onun adı “Tamerlan” kimi göstərilir. XV əsrin əvvəllərində öz dövlətini Çingiz xanın keçmiş imperiyası üzərində qurmuşdu. Paytaxtı Səmərqənd şəhəri idi. İran, Azərbaycan, Kiçik Asiya, Mesopotamiya[1] və digər ölkələri zəbt etmiş əzazil hökmdar kimi ad çıxarmışdı.

Topal Teymur dövlətin sərhədlərini genişləndirmək qərarına gələndə ilk növbədə zəngin Azərbaycan şəhərlərini hədəf seçmişdi. İsfahanda 70 000 min insanın kəlləsindən minarə ucaltdırmış, İsfizarda isə diri insanlardan qala divarları hördürmüşdü. Yəni adamlardan kərpic əvəzinə istifadə edib arasına da tezquruyan əhəng doldururdular. Teymurun mollaları insan kəlləsindən ucaldılmış minarənin minbərinə çıxıb azan verir, xalqı ibadətə səsləyirdi. Topal Teymuru Mussolini və Hitlerlə müqayisə etmək olar. Bu gün sizin partizanlar dağlara çəkilib, o dövrdə də xalqımın igidləri meşələrdə gizlənib, indi olduğu kimi partizan müharibəsi aparırdı.

Azərbaycanlıların yenilməz döyüş ruhu bizim dastanlarda, nağıl və əfsanələrdə geniş təsvirini tapıb. Nənəm həmişə igidlərdən, onların şücaətlərindən bəhs edən şirin nağıllar danışardı. Sənə nə vaxtsa Azərbaycana gəlmək qismət olsa, qədim qayaüstü rəsmləri, daş heykəlləri görəcəksən. Bu rəsmlərdə, heykəllərdə xalqın milli adət-ənənələri, el bayramları və döyüş səhnələri təsvir edilib. İgidlər at minib yağılarla döyüşür, qılınclar, nizələr havada oynayır, düşmən məğlub olur. Qayaüstü rəsmlərin birində quzu otaran çobanı görmək mümkündür. O, sürünü yalquzaqların hücumundan qorumağa çalışır. Daşlaşmış bu xatirə rəmzi məna daşıyır. Yəni çoban sürünü qoruduğu kimi, xalq da torpaq uğrunda canından keçməyə hazırdır, onun bir qarışını da yalquzaq kimi dişini qıcıyan yağıya verməz.

Deyilənə görə, bir gün sərkərdə Teymur öz dəstəsi ilə Azərbaycana yürüşə çıxır, gəzib-dolaşır, xərac toplayır. Günəş göydən od ələyirmiş, ucsuz-bucaqsız çöllərdə xeyli yol qət etmiş qoşunun su ehtiyatı və ərzağı tükənir. Teymurun əsgərləri axşamçağı çöldə quzuları otaran cavan çobana rast gəlir. Soruşurlar ki, harda su içib sərinləmək olar.

---

[1]**Mesopotamiya** (yunanca “İki çayın arası”) – Yaxın Şərqdə dünyanın ən qədim və ən böyük sivilizasiyalarından biri. Çağdaş zamanda bu mədəniyyətin yerləşdiyi ərazi Mesopotamiya adlanır. Qədim şərq ölkələri Afrikanın şimal-şərqindən Asiyanın böyük bir hissəsinə qədər uzanan geniş coğrafi ərazini əhatə edirdi. Ən qədim şərq dövlətləri Misirdə, Aralıq dənizinin şərqində, Kiçik Asiya, İkiçayarası (Mesopotamiya), İran, Hindistan, Çin və digər ölkələrin ərazisində meydana gəlmişdi.

Çoban bildirir ki, yaxınlıqda bulaq yoxdur. Bunu Teymura bildirəndə qəzəblənib əmr verir:

– Bu məlunu şallaqlayın! Bəlkə, ağlı başına gəldi! Beş-altı şallaq yeyəndən sonra bulağın yeri yadına düşər!

Bir neçə yekəpər əsgər çobanı çubuqla döyməyə başlayır. Oğlanın bədəni qançır-qançır olur, qana bulaşsa da, inildəmir, yerə yıxılıb yalvarmır. Çobanı şallaqladıqca cınqırı da çıxmır. Nəhayət, əsgərlər yorulur. Bunu görən Teymur göstəriş verir ki, əl saxlasınlar.

– Elə bir qoz yoxdur ki, sındıra bilməyim, indi onu danışmağa məcbur edərəm! – Teymur bunu deyib lovğalıqla çobana yaxınlaşır. Topal Teymuru qarşısında görən zavallı oğlanın nitqi tutulur, özü də, otardığı quzular da daşa çevrilir. Salnaməçi yazır ki, çobanın bu igidliyinə baxmayaraq, Teymurun adamları bulağın yerini tapır, sərkərdə isə hələ otuz il də taxt-tacda oturur.

Atam da milli qəhrəman olub. Bolşeviklərin ordusunda məşhur komandir idi. Ağ qvardiyaçılarla döyüşdə həlak olanda beş yaşım vardı. Yadımdadır, qılıncı ilə oynamağı çox sevirdim. Anam bu dərdə dözmədi, xəstələnib yatağa düşdü, dünyasını dəyişdi. Valideynlərimi dumanlı xatırlayıram.

– Bilirsən, Mixaylo, hər gün Tanrıya dua edirəm ki, belə sağlam və güclü atanın övladıyam. Anam öləndə on bir yaşım vardı.

– Atan, həqiqətən, gözəl insandır, mehriban və qayğıkeşdir. Burda özümü evdəki kimi hiss edirəm. Bu, mənim üçün çox önəmlidir. Çünki davanın acısını görmüşəm, başım zillət çəkib. Əgər müharibə olmasaydı...

– Hə, əgər müharibə olmasaydı, biz indi əl-ələ verib Barselyerlər bulvarında, ya da Napoleon küçəsində gəzirdik, ürkmüş maral kimi, kimsədən gizlənməyə, qorxub-çəkinməyə ehtiyac yox idi...

– Bilsən, səninlə olanda özümü necə rahat və təhlükəsiz hiss edirəm! Məndən on-on beş addım qabaqda gedib ətrafa göz gəzdirirsən, sanki Tanrı kimi məni hifz edirsən! – Mixaylonun çöhrəsinə təbəssüm qondu.

– Əl-ələ tutub dünyanı gəzə bilsəydik, gözəl olardı...

– Bilirsən ki, gizli şəraitdə işləyirəm, ona görə də boş-boşuna küçədə gəzməyim mümkün deyil. Bu etibarlı sığınacağa görə sənə və atana dərin təşəkkürümü bildirirəm. Təsəvvürümə gətirə bilmirəm ki, sizin dostluğunuz, qayğıkeş münasibətiniz olmasaydı, nə edərdim? Təxribatlara hazırlıq məni çox üzür, yalnız sizinlə ünsiyyətdən təsəlli tapıram.

– Səni ailəmizin bir üzvü hesab edirik, Mixaylo. Tanrı mənə qardaş qismət etməyib, sən qardaş əvəzisən...

– Qardaş məsələsini, yəqin, zarafatla deyirsən, yaxşı olardı, məni adaxlı ilə müqayisə edəydin...

– Məzən olsun, Mixaylo! Səndən adaxlı çıxar? Adaxlıya bir bax! Faşistlər səni çıraqla axtarır, başına 400 000 reyxsmark pul qoyublar, şəhərin ən təhlükəli terrorçusu ilə adaxlanmaq, səncə, kənardan necə görünür? Yox, əziz dostum Mixaylo, icazənizlə, nişanlanmaq təklifindən vaz keçim!

Miryam ucadan güldü, gözlərini qıymış, yanaqlarında çuxur əmələ gəlmişdi. Qızın təbəssüm dolu çöhrəsi sanki nur saçıb Mixaylonun qəlbini isidirdi. Amma Miryamın bu ikibaşlı zarafatına necə münasibət bildirsin? Axı hər zarafatda zərrə qədər də olsa həqiqət var. Mixaylonun Miryamdan inciməyə haqqı yox idi – söylədikləri əsl gerçəkliyi əks etdirirdi. Miryam da özünü itirmişdi, çaşqınlığını büruzə verməmək üçün masanın üstündəki qəzeti götürüb vərəqləməyə başladı. Üçüncü səhifəyə çatanda dedi:

– *"Deutsche Adria-Zeitung"*dakı məqaləni *"İl Piccolo"* da dərc edib. Burda sənin bütün təxribat əməliyyatların geniş təsvir olunub. Məqalədə əhaliyə müraciət də ünvanlanıb: səni həbs etmək üçün hamını səfərbər olmağa səsləyirlər. Sonda müəllif gör nə yazır: "Elə bir an yetişib ki, hər bir vətəndaş qərar verməlidir: kimin tərəfindədir? Bizim, yoxsa düşmənin?" Əcəb sualdır! Eh, mən qərarımı çoxdan vermişəm. Faşistlərlə ölənə qədər mübarizə aparacağam! – Miryam ciddi tərzdə bildirdi.

– Bəli, Miryam, dinc dövrdə hər şey sevginin başında fırlanır, müharibə isə nifrətdən qaynaqlanır. Sloven dilində belə söz var: "sovrajnik" – yəni nifrətə layiq adam! Görünür, qədim "sovraq" sözündən əmələ gəlib, mənası da "iblis", yaxud "iblisin qardaşı" deməkdir. Sloven dilini öyrənməyə başlayanda gördüm ki, rus dilinə çox bənzəyir, sözlər verdiyi mənanı əks etdirir. Rus dilində olduğu kimi, sizin dildə də belə sözlər çoxdur.

– Haqlısan. Sloven və rus dili çox yaxındır, hətta deyərdim, qohum dillərdir.

– Əcnəbi dil bilməyim bir neçə dəfə məni ölümdən qurtarıb. Məsələn, vaxtilə alman dilini öyrənməsəydim, bu davada, çətin ki, sağ qalardım. Əcdadlarımızdan bizə miras qalan doğma dilimiz keçmişi, tarixi əks etdirir. Dil ünsiyyət vasitəsi kimi biliyimizi artırır, dünyagörüşünü genişləndirir, düşüncə tərzini cilalayır, keçmişi və gələcəyi dilin vasitəsi ilə dərk edirik. Sözlər hissləri, incə duyğuları tərənnüm edir, sevgi və qəzəb bildirir. Biz söz kəşf etmirik, onları lazımi anda bir-birinin yanına düzməyi öyrənirik. Söz kimi insan da müəyyən hadisələr

zəncirində öz yerini tutur. Həyatda hər şey dövr edib əvvəl-axır öz yerinə qayıdır. İnsan qəbirə gedənə qədər bütün əməllərinə görə cavab verib əvəz ödəməlidir. Başqa yol yoxdur!

– Xahiş edirəm, ölümdən danışma, – Miryam onun əlini ovcuna aldı.

– Bilirsən, Miryam, ölümü dəhşətli bir şey saymıram, əksinə, qəbir mənim üçün rahatlıq tapacağım çarpayı, yataq deməkdir. Ölümdən qorxan, həyatdan da qorxur. Qəlbində əsl həyat sevgisi gəzdirən adam ölümə də məhəbbətlə yanaşıb onu həyatın tacı kimi dəyərləndirir. Ömrümün sonuna qədər sağlam bədən və sağlam ruhumun olmasına çalışacağam. Çünki həyat hər birimiz üçün müqəddəs nemətdir. İnsan öz şəxsi həyatına görə məsuliyyət daşıyır, üstəlik, komandir funksiyasını yerinə yetirirsə, deməli, tabeliyində olan adamların həyatına görə də cavabdehdir. Ancaq, gəl davanı bir kənara qoyaq. Sadəcə, səninlə söhbət edəndə nəinki müharibəni, ümumiyyətlə, hər şeyi unudub xoşbəxt oluram.

– Mən də eyni hissləri yaşayıram, Mixaylo. Yaxşısı budur, söylə, müharibədən əvvəl səni daha çox nə maraqlandırırdı?

Miryam onun əlini buraxsa da, hər sözünü, hərəkətini diqqətlə izləyirdi. Mixaylonun səsi ona xoş təsir bağışlayırdı, sanki tilsimlənmişdi, sehrdən oyana bilmirdi, bəlkə də, istəmirdi.

– İnsanın qədim dövrlər haqqında məlumatı çox azdır, ancaq qədim tarix həmişə məni özünə cəlb edib. Tarix elmini nəzərdə tutmuram. Bu sahə uydurmalarla doludur, hər dövrün siyasi reallıqları ilə bilərəkdən uyğunlaşdırılıb. Ona görə də milli adət-ənənələr, mifologiya, nağıl və əfsanələr, din tarixi və digər sahələri dərindən öyrənməyə çalışıram. İslam dinini qəbul etməzdən əvvəl Azərbaycan xalqı oda sitayiş edib. Yəqin, bizim eradan əvvəl altıncı əsrdə yaşamış Zərdüşt peyğəmbər haqqında eşitmisən. Bu səbəbdən Azərbaycan "Odlar yurdu" adlanır.

– Bəli, məktəbdə Zərdüşt barədə eşitmişəm, ancaq sənə rast gələnə qədər Azərbaycan adlı dövlətin harda yerləşdiyindən xəbərsiz idim. Etiraf et ki, sənin də əvvəllər Sloveniya barədə məlumatın yox idi. Bildiyim yeganə bu idi ki, Bakıda zəngin neft yataqları var. Səninlə tanış olandan sonra xəritəyə baxdım, indi Azərbaycan və Bakının harda yerləşdiyini yaxşı bilirəm. Qismət olsa, bir gün Bakıya gedərəm...

– Əla olardı. Bakı çox xoşuna gələcək.

– Mixaylo, tanışlığımızdan sonra belə qənaətə gəlmişəm ki, azərbaycanlı oğlanlar çox yaraşıqlı və istiqanlıdır. Fəxrlə deyə bilərəm ki, artıq iki azərbaycanlı dostum var. İkiniz də səmimi, mehribansınız. Bəlkə, adaxlanmaq üçün ikinizdən birini seçim, hə?

– Miryam, adaxlını uzaqda axtarmaq lazım deyil, səhv etmirəmsə, onu artıq tapmısan, əlini uzatsan, çatar...

– Bilmək istərdim, o adaxlı kimdir?

– Kim olacaq, əlbəttə, mən!

– Söz danışdın da! Oğlan evində toydur, qızın xəbəri yox! Əvvəl deyirdin, mənimlə nişanlanmaq istəyirsən, indi isə özünü adaxlı kimi aparırsan! Sənə elə gəlmirmi ki, hadisələri qabaqlayırsan? Tələsən təndirə düşər, cavan oğlan! Deyəsən, finişə çatmısan, hə? Ha-ha-ha! Biz ki bir-birimizi heç əməlli-başlı tanımırıq! Düzdür, şirin söhbət edirik, dərdləşirik ki, davanın ağrı-acısını unudaq, könlümüz şad olsun. Mixaylo, qarşılıqlı ülvi hisslərin yaranması üçün vaxt lazımdır. Amma düzünü desəm, səndən xoşum gəlir...

– Miryam, nə qədər desən, gözləyə bilərəm, vaxtım çoxdur. Üzərimə düşən qisas missiyasını nəzərə almasaq, heç yerə tələsmirəm. Narahat olma, Miryam, bir-birimizi yaxından tanımağa imkan tapacağıq.

Mixaylonun bu etirafından sonra Miryamı gülmək tutdu, ancaq dərhal ciddi görkəm aldı. Mixaylonun akvarellə çəkdiyi rəsmi götürüb diqqətlə baxdı. Əsərdə körpüyə yan almış qayıqlar təsvir olunmuşdu. Mehdi açıq rənglərin incə çalarlarından məharətlə istifadə etmiş, rəsm də dolğun alınmışdı.

– Mixaylo, çəkdiklərin Qvido Kadorinin[1] akvarellərindən qat-qat gözəldir. Kadorin məşhur rəssamdır, hazırda Triest rəsm qalereyasında əsərləri nümayiş olunur. Bir tanınmış rəssam da var: venesiyalı Maryan Muşiç, milliyyətcə slovendir, ötən həftə həmin qalereyada onun əsərləri sərgilənmişdi. Mixaylo, sən istedadlı rəssamsan. Kimin ağlına gələrdi ki, belə qarasaç, qaragöz oğlanın daxilində böyük istedad qaynayır. Bir dəfə İvan dedi ki, yaxşı səsin var, həm də məharətlə rəqs edirsən, dodaq qarmonikasında, gitarada əla çalırsan. Danışanda səsin çox məlahətlidir, adamı valeh edir. İstərdim, mənim üçün mahnı oxuyasan, həvəslə dinləyərdim. Bir neçə dildə danışırsan, təcrübəli, cəsur təxribatçısan, deməli, əmin-amanlıq dövrü olsaydı, hər qadın səndən uşaq doğmaq istərdi. Amma indi davanın qızğın çağıdır, hər tərəfdən ölüm və dəhşət qoxusu gəlir, belə ağır vaxtda hansı qadın dünyaya övlad gətirmək fikrinə düşər?

– Miryam, şadam ki, çəkdiyim rəsmlər xoşuna gəlir. Eh, davadan əvvəl hər gün musiqi ilə məşğul olur, çalıb-oxuyurdum. İndi isə nə vaxt, nə də həvəs var. Yalnız partizan bayramlarında bir-iki dəfə çıxış etmişəm. Nədənsə, son vaxtlar mahnıdan, musiqidən uzaq durmağa çalışıram. Çünki ürəyim dözmür, kövrəlirəm.

– Mixaylo, mənim üçün musiqi bəşəriyyətin yaratdığı ən gözəl nemətdir!

---

[1]**Qvido Kadorin** (ital. *Guido Cadorin*, 1892–1976) – italyan rəssam, simvolizm cərəyanının nümayəndəsi

– Səhvin var, insanın yaratdığı ən gözəl nemət sevgidir. İnsan məhəbbətdən yaranıb. Allah öz bəndələrini sevir. Miryam, yəqin, sənə bəslədiyim hissləri yaxşı başa düşürsən, amma ürəyimi açmağa cürət etmirəm. Səninlə razıyam, müharibə ciddi münasibətlər üçün uyğun vaxt deyil, ancaq neyləyim, ürəyimlə bacara bilmirəm.

Bu etiraf Miryamı mum kimi əritdi. Çöhrəsinə təbəssüm qondu, Mixayloya qısılıb pıçıldadı:

– Müharibə sevginin qarşısına sədd çəkə bilməz. İndi nişanlanmağın heç bir əhəmiyyəti yoxdur, əsas məsələ odur ki, biz birlikdə xoşbəxtik. Müharibə insan ömrünü qısaldır, ona görə də hər xoşbəxt dəqiqənin qədrini bilmək lazımdır...

Mixaylonun gözü yol çəkirdi, köks ötürüb dedi:

– Tale yazısından qaçmaq mümkün deyil, Miryam. Əgər qismətində ölmək varsa, onu mərd-mərdanə qəbul etməlisən. Dünya amansızdır, həyat da həmçinin! Adama elə gələ bilər ki, ətrafda baş verən dəhşətlərin içində nəsə bir sakitlik və xoşbəxtlik hökm sürür. Dünyanın bu qarışıq vaxtında mənim üçün doğma ocağa çevrilmiş dar otaqda, üstəlik, sən də yanımda olanda, buna bənzər hisslər keçirirəm. Hisslərimi coşduran sənsən, Miryam!

Mixaylo qızı bağrına basıb saçlarının təravətindən məst oldu, sözünə davam etdi:

– Dava hər şeyi, insan həyatını da alt-üst edir. Dünya yolundan azıb, amma əsl insan bütün bunlara rəğmən, çaşmamalı, kələfin ucunu itirməməli, nəyə qadir olduğunu ortaya qoymalıdır. Sənin yanında olanda ikiqat ruhlanıram. Məni qəlbsiz adam hesab etməyini istəməzdim. Bil ki, ruhum daim səni gəzir. Atan ilk dəfə məni bu evə gətirib sığınacağı göstərəndə qarşıma çıxdın. Gözlərində həyat sevgisi, məhəbbət işartısı vardı. Bu gözlərin istisinə qızındım, qəlbim riqqətə gəldi, arzularım pərvazlandı. İçimdə nəsə oynadı, ancaq nə olduğunu anlaya bilmədim. Ruhum havalandı, həmin anlarda mənə elə gəldi ki, dəhşət bataqlığına yuvarlanmış bu dünyada səndən və məndən başqa kimsə yoxdur. Sən və mən! Hər şeyi unutdum. Qəlbindən saçılan qığılcımlar məni ram etdi. Sanki dünyada nə müharibə, nə həlak olmuş yoldaşlarım, nə qisas hissi, nə də vaxtsız ölüm vardı.

Mixaylo susub Miryamla ilk görüşünü xatırladı. Əslində, bu xoş duyğular ilk gündən ruhuna qida verirdi. Miryam başını onun sinəsinə qoyub xəyala dalmışdı. Gözlərini qırpmağa da qorxurdu, bu şirin nağılın bitməsini istəmirdi. Mixaylonun ürək döyüntüsünü aydın eşidirdi. Vücudundan bir gizilti keçdi, sakitcə köks ötürdü. Doluxsunmuşdu, qınayan olmasaydı, uşaq kimi ağlayardı. Mixayloya bir az da qısıldı, burda, sevdiyi adamın qolları arasında özünü təhlükəsiz və xoşbəxt hiss edirdi.

– Mixaylo, mən də ilk görüşümüzü unuda bilmirəm. Atam dəhlizlə gülə-gülə gəlirdi, yanında da faşist zabiti vardı. Əvvəlcə atamın bu hərəkətinə məəttəl qaldım, düzü, bir az qorxdum da! Amma səninlə şirin söhbət etdiyini görəndə ürəyim sakitləşdi. Yadımdadır, hətta nəzakətlə salam verdim, ürəyim əsdi, maraq məni bürüdü, daxilimdə təlatüm yarandı. Ömrümdə belə yaraşıqlı alman zabitinə rast gəlməmişdim. Atamla alman dilində danışırdınız, bax bundan, həqiqətən, qorxuya düşdüm. Fikirləşdim ki, yəni bu adam, doğrudan da, faşistdir? Heç oxşamır! Adını eşidəndə sanki çiynimdən ağır yük götürüldü.

– İlk dəfə atanı görəndə rahat nəfəs alıb düşündüm ki, beləsi adamı heç vaxt darda qoymaz, satmaz. Hiss etdim ki, ciddi, işin çəmini bilən, sözübütöv adamdır. Sən dəhlizdə qarşıma çıxanda ağlımdan keçdi ki, Allah bu qızı mənə sevgi payı göndərib. Ancaq aramızda yaxın münasibətin yaranacağını əsla düşünmürdüm. Səmimiyyətimə inan, Kazanova[1], yaxud Don Juan[2] deyiləm!

– İnanıram, amma sənin kimi yaraşıqlı oğlan Kazanova da ola bilər, Don Juan da! Bax hər şey uyğun gəlir: hündürboy, gözəl-göyçək, güclü, zirək, aslan kimi təhlükəli, mərhəmətli və istiqanlı! Mixaylo, sənin barəndə düşünməkdən hədsiz zövq alıram. Həyatıma gəldiyin gündən qəlbim dəniz kimi coşur, hisslərim şahə qalxan dalğalara bənzəyir. Anlaya bilmirəm, əvvəllər sənsiz necə yaşamışam? – Miryam susdu, gözləri yol çəkdi. Sonra sözünə davam etdi. – İndi şəhərdə, kənddə dəb düşüb: qızlar eyni vaxtda bir neçə oğlanla görüşür. Amma mən bunu xoşlamıram, xasiyyətimə ziddir. Həmişə həyatıma gələcək ağ atlı şahzadənı gözləmişəm! Eh, gözümün kökü saralıb. Çevrəmdəki insanlara qarşı çox tələbkaram, ancaq tanış olduğum cavanlardan heç biri ürəyimə yatmayıb. Sonra dava başladı, sevgi-məhəbbət unuduldu. İndi yalnız sağ qalmaq barədə düşünürsən. Ölüm kabusu hər an başının üstünü kəsdirə bilər. Etiraf edim ki, həyatdan doyunca zövq ala bilmirəm. Özümü bu dünyada yad kimi hiss edirəm. Daha doğrusu, anamın ölümündən sonra bu qənaətə gəlmişəm. Həmişə isti nəfəs axtarmışam, ancaq kimsəyə məxsus olmamışam. Mixaylo, məncə, bunun müharibə ilə heç bir əlaqəsi yoxdur.

– Sevimli Miryam, həyat uğrunda mübarizə müəyyən mənada özünə, ən yaxın adamına, xalqına məhəbbət deməkdir. Dünya sevginin

---

[1]**Cakomo Cirolamo Kazanova –** (ital. *Giacomo Girolamo Casanova*) əsl adı Şevalye de Senqaltdır (02.04.1725, Venesiya – 04.06.1798 Çexiya). Məşhur italyan macəraçı səyyah və yazıçı

[2]Bəzi mənbələrə görə, Don Juan obrazı ilk dəfə Tirso de Molinanın 1630-cu ildə qələmə aldığı “Sevilyalı fırıldaqçı və daş qonaq” pyesində təsvir olunub. Don Juan qadınları aldadıb özünə aşiq edir, yalançı vədlər verirdi. Məcazi mənada, qarşısına çıxan hər qadına eşq elan edən adamı “Don Juan” adlandırırlar.

üstündə qurulub və insan məhəbbətsiz yaşaya bilməz. Şər qüvvələr qalib gələndə insana güc verən, onu həyat uğrunda mübarizəyə səsləyən də sevgidir! Amma bu mübarizədə tale də önəmli rol oynayır – bəziləri məqsədə çatır, digərləri zamanın burulğanında məhv olur. Bir gerçəklik də var: dava olmasaydı, dünya qarışmasaydı, bir-birimizə rast gəlməzdik, ruhumuz qovuşmazdı, nəfəs-nəfəsə durub ürəyimizin çırpıntısını dinləməzdik! Bu, kiçik bir möcüzədir! İndi bildim ki, möcüzə yalnız nağıllarda yox, müharibədə də baş verir!

Mixaylo onun saçlarını tumarladı, düşündü ki, bu kiçik sığınacaq həm də onun Miryama olan hədsiz sevgisini hifz edir, onları bəladan, qara qüvvələrdən qoruyur. Miryam bu gözəl sözlərin sehrinə dalmışdı, yavaş səslə dedi:

– Hə, Mixaylo, görüşümüz əsl möcüzə, həm də Tanrı tərəfindən göndərilmiş bir qismət payı, xoşbəxtlik işarəsi idi. Bu gözlənilməz xoşbəxtlik ağlımı başımdan çıxarıb, nitqim quruyub, nə deyəcəyimi bilmirəm... Bax, ayağım da uyuşub, yerimdən qalxa bilmirəm!

– Getmə, Miryam, bir az da qal. Qoy şamı söndürüm. Ay işığında necə də gözəl görünürsən!

Miryam getmədi, Mixayloya daha bərk qısılıb qoxusunu aldı. Atası eşitməsin deyə pıçıltı ilə danışırdılar. Sosiçin yataq otağı sığınacağın alt qatında yerləşirdi. Burada, sığınacaqda eyni hava ilə nəfəs almaq onlara zövq verirdi. Aralarında elə bir cazibə qüvvəsi yaranmışdı ki, ayrıla bilmirdilər. Mixaylo pıçıltı ilə Miryamın qulağına nəsə deyir, qız da ay işığı hopmuş nazlı gözlərini qırpıb təsdiqləyirdi. Mixaylonun hər sözü Miryamın canına yayılırdı, beləcə onu bütün ömrü boyu, nəfəs çəkmədən, göz qırpmadan dinləyə bilərdi.

– Bilirsən, uşaqlıqda Amerikanın komediya filmlərinə baxmağı sevirdim. Sovet İttifaqında belə filmlər göstərmirdilər. Təbrizdə qohumlarımız yaşayırdı, tez-tez onlara qonaq gedirdik. Orda bacımla kinoteatrda Amerika filmlərinə tamaşa edirdik. Üstəlik, qohumumuz kinoteatrın sahiblərindən biri idi. Ona görə də mənə filmləri kinomexanikin otağındakı kiçik pəncərədən izləməyə icazə verirdilər. Baster Kiton[1], Çarli Çaplin[2], Sten Li[3] və Marks qardaşları[4] sevimli

---

[1]**Cozef Frenk Kiton**, səhnə adı Baster Kiton (ing. *Buster Keaton*; 04.10.1895 – 01.02.1966) – Amerikalı komediya aktyoru və rejissor, səssiz kinonun ən tanınmış komiki, əfsanəvi “Şerlok-kiçik”, “Naviqator” və “General” filmlərinin yaradıcısı

[2]**Çarli Çaplin –** Çarlz Spenser “Çarli” Çaplin (ing. *Sir Charles Spencer “Charlie” Chaplin*; 16.04.1889 London – 25.12.1977 İsveçrə) – Məşhur ABŞ və İngiltərə rejissoru, komediya aktyoru, ssenari müəllifi və bəstəkar

[3]**Sten Li –** əsl adı Stenli Martin Liber (ing. *Stanley Martin Lieber*) – ABŞ komiks yazıçısı, məşhur Hörümçək-adam personajının yaradıcısı, naşir və aktyor

[4]**Marks qardaşları** (ing. *Marx Brothers*) – ABŞ-ın məşhur komediya kvinteti

aktyorlarım idi. Kinoya böyük həvəs göstərirdim, Bakıdakı dram dərnəyinə üzv yazıldım. Dörd il müxtəlif teatr tamaşalarında həvəskar aktyor kimi çıxış etdim. Marks qardaşlarının çəkildiyi filmləri hələ də unuda bilmirəm. Adını xatırlamadığım bir film vardı. Orda Marks qardaşları parovoza minib ya hinduların, ya da quldurların təqibindən yaxa qurtarmağa çalışırdı. Finalda parovozun kömürü qurtarır, qardaşlar taxta vaqonu söküb kömür əvəzinə yandırır. Məncə, faşistlər də indi bu vəziyyətdədir. Vaqonları yandıra-yandıra gedirlər, fikirləşmirlər ki, taxta qurtarandan sonra nə edəcəklər? Başlarını itiriblər, çünki müharibəni uduzurlar.

– Bir arzum var: kaş faşistləri qovub qələbəni bayram edəndə yanımda olasan! Ancaq slovenlər ikinci düşmənin də məngənəsindən qurtarmalıdır – iyirmi ildən çoxdur ki, qanımızı içən italyanları nəzərdə tuturam!

– Hə, Miryam, bax onda əl-ələ verib doyunca gəzərik, kimsə bizə gözün üstə qaşın var, deyə bilməz!

– Həmin gün özümü necə də xoşbəxt hiss edərəm, Mixaylo. Gəl davanın sonunu birlikdə gözləyək, mənə bir dünya sevinc bəxş et! Hələlik sənə rast gətirdiyinə görə bu dəhşətli müharibəyə minnətdar olmalıyam. Yəqin, əmin-amanlıq dövründə heç vaxt rastlaşmazdıq.

– Miryam, əgər sağ qalsam, səni mütləq axtarıb tapacağam. Qələbə bayramını birlikdə qeyd edərik. O gün uzaqda deyil, faşistlərin axırı çatıb. Müttəfiqlərin ordusu Normandiyaya desant çıxarıb, Cənub cəbhəsində amansız döyüşlər gedir, Roma mühasirəyə alınıb. Əlbəttə, bütün bunları rusların Şərq cəbhəsindəki uğurları ilə müqayisə etmək olmaz. Müharibədə vaxt tez keçir, sanki kimsə saatın əqrəblərini irəli çəkir. Amma hərbi əsirlər üçün elə bil zaman donub, əvvəlcə vaxt dayanır, sonra da adamın ürəyi! Əsir düşərgəsində keçirdiyim dəhşətli günlər yadıma düşəndə bu faşist donuzlarına nifrətim artır. Bizi günlərlə ac-susuz saxlayan alçaqları bağışlamaq günahdır, onlar yalnız ölümə layiqdir. Hə, deyəsən, acından qarnım quruldayır, Miryam, xahiş edirəm, yeməyə bir şey gətir. Səhərdən dilimə heç nə dəyməyib...

Miryam mətbəxə keçib vetçina və çörək doğradı, boşqaba bir neçə zeytun da qoyub stəkana şərab süzdü. Mixaylo süfrə arxasına keçib iştahayla yeməyə başlayanda Miryam yanında əyləşib ovsunlanmış kimi onun hər hərəkətini diqqətlə izləyir, ağzından süfrəyə düşən çörək qırıntılarını görəndə gülməkdən özünü güclə saxlayırdı. Mixaylo stəkanı boşaldan kimi Miryam yenə süzdü. Bilirdi ki, Mixaylo daha şəraba toxunmayacaq və axırda məcbur olub özü içəcək. Əvvəllər heç vaxt şərabın dadına baxmamışdı, ancaq bu qarabuğdayı leytenantla tanış olandan sonra onunla hərdən içirdi. Atasının və yad adamların yanında utanıb sıxılsa da, Mixaylo ilk kişi idi ki, Miryam onun yanında

özünü sərbəst aparırdı. Mixaylonun müsbət aurasını daim hiss edirdi, bu mehriban insan onun üçün enerji mənbəyi idi. Mixaylonun söz-söhbəti, baxışları, duruşu, ümumiyyətlə, hər cəhəti Miryamın ürəyinə yağ kimi yayılırdı. Yaşamağı, düşünməyi, həyata nikbin baxmağı ondan öyrənirdi. Əvvəllər rəfiqələri deyəndə ki, "məhəbbət atəşi qəlbimi yandırıb-yaxır, sevginin hərarətindən damarlarımda qan qaynayır", Miryam istehza ilə gülür, bütün bunları bayağı bənzətmə, kitab cümlələri sayırdı. İndi isə özü də bu vəziyyətə düşmüşdü. Qəlbini bürümüş sevgi, şəhvət və ehtiras hissini boğmağa, ona əhəmiyyət verməməyə çalışsa da, heç nə alınmırdı, daim Mixaylo barədə düşünür, cürbəcür xəyallar qururdu.

Miryam tez-tez özünə sual verirdi: "Vurulmusan? Uzaq ölkədən gəlmiş bu yaraşıqlı oğlanı sevirsən? Niyə hisslərini cilovlaya bilmirsən? Bəyəm başqa oğlan yoxdur?" Suallar bitib-tükənmir, Miryam da onlara cavab tapa bilmirdi. Tərəddüd yaranan kimi hansısa bir qüvvə beynindəki bütün mənfi cavabları silir, onu "sevirəm" kəlməsini deməyə məcbur edirdi. Bəlkə də, bunu "məhəbbət" adlandırmaq düzgün deyildi. Mixayloya, sadəcə, isinişmişdi, amma fərqinə varmırdı, çünki bu oğlan həyatına gələn gündən hər şey dəyişmiş, dünya əlvan rəngə boyanmışdı. Miryam əvvəllər belə deyildi, indi isə yuxudan oyanan kimi çöhrəsinə təbəssüm qonur, özünü elə xoşbəxt hiss edirdi ki, qanad çalıb pərvazlanmaq istəyirdi. Mixaylo yanında olmayanda ürəyində onunla danışıb-gülür, əllərinin hərarətini duyurdu. Bəzən Mixaylo günlərlə gözə dəymirdi, Miryam narahat olub həyəcan keçirsə də, hisslərini büruzə vermir, təxribat qrupunun əməliyyatları barədə qəzetlərdən xəbər tuturdu.

Dua edirdi ki, Mixaylonun işi düz gətirsin, xəsarət almasın. Təxribatlar barədə xəbərləri oxuyanda düşünürdü ki, Mixaylo xoşbəxt ulduz altında doğulub, çünki bu cür təhlükəli əməliyyatlardan sağ çıxmaq hər oğulun işi deyil. Miryam onun cəsurluğu və fədakarlığı ilə fəxr edir, insani keyfiyyətlərinə heyran qalırdı. Mixaylo həmişə sakit, gülərüz, diqqətli və qayğıkeş idi. Heç kimin üstünə səsini qaldırmır, qışqırıb-bağırmır, təhqir etmirdi. Qarşısındakı adama hər şeyi hövsələ ilə, sakit tərzdə başa salıb ortaq məxrəc tapmağa çalışırdı. Zarafatından qalmırdı, faşistləri də xüsusi məharətlə lağa qoyub ürəkdən gülürdü.

Miryam onun baxışlarından təsirlənirdi. Bu baxışlar igid partizanın qəlbinin aynası idi. Mixaylo hər dəfə ona baxanda Miryamın canından bir gizilti keçirdi. Bu baxışlarda nələr yox idi? Sevgi və mərhəmət, çılğınlıq və ehtiras! Miryam dərhal əriyib muma dönür, dünyada hər şeyi unudurdu. Gözünü yumub Mixaylonun ağuşuna atılmaqdan özünü

güclə saxlayır, hisslərini cilovlayır, bəzən də istəyini büruzə verməmək üçün üzünü yana çevirirdi...

Kilsə zəngi ikinci dəfə səslənəndə Miryam sığınacağı tərk edib yataq otağına gəldi. Mixaylodan ayrılmaq istəmirdi, ancaq qala da bilməzdi. Gözünü yumsa da, yuxuya gedə bilmədi, uzun müddət yerində qurdalandı. Mixaylo isə çox yorğun olduğu üçün dərhal yuxuya getdi, çöhrəsində hələ də xoş təbəssüm donub qalmışdı...

## XXV

İsti iyun səhəri günəş göydən od ələməyə başlayanda müttəfiqlərin hərbi təyyarələri Triestə mərmi yağdırdı, aviazərbələrin əsas hissəsi slovenlərin yaşadığı fəhlə məhəlləsinin payına düşdü. Sahilyanı ərazidəki slovenlərin qaçmağa yeri yox idi, bir-birinə təskinlik verirdilər ki, pilotlar koordinatları səhv salıb, gələn dəfə faşistlərin hərbi obyektlərini atəşə tutacaqlar. Şəhərdə kifayət qədər alman kazarması, qərargah, silah anbarı və digər hərbi obyektlərin olmasına baxmayaraq, müttəfiqlər növbəti dəfə Triestdən cənub-qərbdə yerləşən üç sloven kəndinə mərmi yağdırdı. Müttəfiqlərin təyyarələri Triestin üzərində bir-iki dəfə dövrə vurub hərbi obyektlərə mərmi atsa da, yenə də əsas zərbə sloven məhəllələrinə dəydi, bir neçə sakin həlak oldu. Slovenlər çaş-baş qalmışdı: müttəfiqlər kimə qarşı döyüşür? Niyə faşistləri yox, onları qırır? Yerli sakinlərdən fərqli olaraq, Mixaylo müttəfiqlərin kimə qarşı mübarizə apardığını dəqiq bilirdi. Faşistlər Triestin mərkəzində axtarış zamanı onu həbs etmişdi. Mixaylo Triestdəki partizan komandiri ilə görüşdən qayıdırdı. Səliqəli geyinmişdi, ona görə də üst-başını çox axtarmadılar. Yük maşınına mindirib həbsxanaya apardılar. Yolda tapançanı xəlvətcə brezentin altında gizlətdi. Dindirmə zamanı da özünü “səyyar şərab alverçisi” kimi təqdim etdi.

Sahilyanı diyardakı partizan fəaliyyəti, qisas missiyasını nəyin bahasına olursa-olsun, həyata keçirmək əzmi ona növbəti həbsin də ağrı-acısını unutdurdu. Bir həftə Triest məhkəməsinin binası arxasında yerləşən Koroneo həbsxanasının zirzəmisində qaldı. Haldan düşmüşdü, faşistlərin əsir düşərgəsində aclıq keçirdiyi dəhşətli günləri xatırladı. Qaranlıq və rütubətli zirzəmi ilə əsir düşərgəsindəki barakın fərqi yox idi, orda da üzgün idi, ürəyindən qara qanlar axırdı, amma təslim olmadı, ümidlə yaşayıb dözdü və nəhayət, azadlığa çıxdı.

Almanların heç ağlına gəlmirdi ki, zirzəmiyə saldıqları bu “səyyar şərab alverçisi” təhlükəli terrorçudur. Gecə iki çürük taxta parçasından düzəltdiyi skamyada uzanmış Mixaylo düşünürdü: “Alman dilini bilməyim sayəsində, yəqin, sağ qalacağam. İstintaqı aparan leytenant Şenberqlə

xalis alman dilində danışanda mənə münasibəti dərhal dəyişdi. Əlində konkret heç bir dəlil-sübut yoxdur, saxta şəxsiyyət vəsiqəm də şübhə doğurmadı. Xoşbəxtlikdən, həbs əmri yazılmış sənəddəki foto özümə oxşamır. Yaxşı ki, bığı, saqqalı qırxmamışam, saçlarımı şabalıd rənginə boyamağım da dadıma çatdı".

Mixaylo həbsxanada olarkən xoş xəbər eşitdi: müttəfiqlər, nəhayət, Normandiyaya desant çıxarıb! Bununla da aydın oldu ki, müharibə sona yaxınlaşır.

Bir müddət sonra möcüzə sayəsində azadlığa çıxdı. İstintaqda ona bir dəfə də olsun əl qaldırmadılar, işgəncə vermədilər. Bir həftədən sonra Abverin partizanlarla mübarizə üzrə mütəxəssisi, xüsusi şöbənin rəisi leytenant Kettner yanına gəldi. Kettner bir neçə ay idi ki, Kras ərazilərində partizanlara qarşı amansız mübarizə aparırdı. Leytenant ilk görüşdə Mixayloya dedi ki, yerli bələdçi axtarır və təklif etdi ki, bu işə könüllü razılıq versin, imtina etsə, onu güllələnmə gözləyir. Kettlerin göstərişi ilə Mixaylonu qarnizona aparıb, bir neçə gün ciddi nəzarət altında saxladılar. Sonra faşistlərlə birlikdə ilk dəfə gecə əməliyyatına çıxdı. Almanlar dincəlmək üçün meşədə düşərgə qurmuşdu. Mehdi fürsətdən istifadə edib keşikçini öldürdü, faşistlərin yatdığı çadıra bir-iki qumbara atıb aradan çıxdı. Yaxınlıqdakı ərazidə gizli fəaliyyət göstərən partizanları xəbərdar edib bildirdi ki, faşistlər burada müqavimət hərəkatı üzvlərinin iştirakı ilə toplantı keçiriləcəyi barədə məlumat alıb, ona görə də sübh çağı kəndə soxulacaqlar...

Növbəti təxribat əməliyyatına hazırlığın başa çatmasına bir neçə gün qalmışdı. Sosiçin evində nahar etdikdən sonra Mixaylo və Seyidov bir müddət masanın arxasından qalxmadılar. Mixaylo bu günlərdə Triest həbsxanasında başına gələnləri nəql etməyə başladı:

– Zirzəmi soyuq, həm də rütubətli idi, çirkab iyindən ürək bulanırdı. Düşündüm ki, ömürlük burda qala bilərəm, ya da başıma bir güllə çaxarlar. Hər halda, belə dəhşətli həbsxanadan sağ çıxmaq əsl möcüzədir. Yalnız bir çıxış yolum vardı: özümü ələ alıb sakitləşmək və Kettlerin təklifi ilə razılaşmaq! Xoşbəxtlikdən, faşistlər kim olduğumu öyrənə bilməmişdi. Ağıllarına gəlmirdi ki, sənədlərim saxtadır və kəlməbaşı yalan danışıram. Alman dilini bilməyim əlimdən tutdu. Hə, əgər məni bir-iki həftə də gec həbs etsəydilər, partizan olduğumdan duyuq düşərdilər. Çünki şəklim bütün hərbi və yerli polis idarələrinə göndərilmişdi.

Şər deməsən, xeyir gəlməz, yaxşı qurtardım, amma canıma qorxu düşmüşdü. And içmişdim ki, ölərəm, ancaq bir daha həbsə girmərəm. Hər şeyin həddi var, ona görə də yanımda qumbara gəzdirirəm. İndi elə bir zəmanədir ki, qumbara həmişə lazım ola bilər.

Qızıl Orduda komandir olmuşam, başım çəkib. Bir dəfə Moskva ətrafında, ikinci dəfə isə Stalinqradda. Səngərdə bölükdən sağ qalan təkcə mən idim. O zaman bütün bölüyün əvəzinə döyüşməli oldum, hətta düşmən həmləsinin qarşısını ala bildim. İndi təxribatçı kimi özümü çox güclü hiss edirəm, bir batalyonun normal şəraitdə görə bilmədiyi işi təkbaşına yerinə yetirməyə qadirəm. Süngü döyüşünü nəzərə almasaq, müharibəni ayrı-ayrı adamların əlbəyaxa savaşı kimi başa düşmək olmaz. Bu, böyük dəstələrin, hərbi hissələrin, orduların, insan kütləsinin üz-üzə dayandığı savaş meydanıdır. İvanla birlikdə gördüyümüz təxribat işinin effekti batalyonun döyüş imkanlarından qat-qat güclüdür. Axı hər əməliyyatı elə incəliklə, ciddi-cəhdlə planlaşdırırıq ki, sanki batalyonu hücuma hazırlayırıq. Başlıcası döyüş hiyləsindən vaxtında və yerində istifadə etməkdir. Müasir müharibə döyüş hiyləsi olmadan keçinə bilməz!

Xeyli düşmən məhv edirsən, dəfələrlə ölümlə üz-üzə gəlirsən, döyüş yoldaşlarını, dostlarını itirirsən, onlar sanki yaz günəşinin isitdiyi qar kimi əriyib yox olur, bütün bunları görə-görə gəlirsən və artıq ölümə tamamilə başqa cür münasibət bəsləməyə başlayırsan. Ölüm haqdır, gec-tez hamımız bu dünyanı tərk edəcəyik, amma bir məsələ var ki, ölüm bizimlə daim yanaşı addımlayır.

Düşməni qırdıqca antifaşist koalisiyası da güclənir. Siz bu almanlara fikir verin: Stalinqradı işğal etmək üçün total müharibə elan etmişdilər, sonda isə total məğlubiyyətə uğradılar. Məlum oldu ki, alman hərbi maşınını mühərrik kimi gərək daim yağlayasan, əks təqdirdə, xarab olub sıradan çıxacaq. Silah-sursat və ərzaq ehtiyatı qurtaranda isə ordu çat verib darmadağın olur. Partizanlara gəldikdə, vəziyyət başqa cürdür. Onlar sıfırdan başlamışdı, indi isə almanlardan qat-qat yaxşı təchiz olunublar. Halbuki burada, Reyxin cənubunda silah da, yemək-içmək də boldur. Bu bölgəyə göndərilmiş bütün faşistlər qısa vaxt ərzində yeməkdən şişib dama dönüb, ancaq gözləri doymur, üstəlik, kəndlərə girib oğurluq edirlər. Kef məclislərindən başları açılmır, əyyaşa dönüblər, bu da bizim xeyrimizədir.

Amma Şərq cəbhəsində bizimlə almanların arasındakı fərq böyük idi. Biz, Qızıl Ordunun döyüşçüləri, çörəyi qardaş malı kimi bölürdük, faşistlər isə son tikəni də bir-birinin ağzından qapırdı. Ərzaq qurtaranda vəhşiyə dönürdülər. Ac heyvan çox təhlükəlidir. Hitlerçilərin böyük əksəriyyəti aclıqdan dəli olmaq dərəcəsinə çatırdı. Onlar acqarına döyüşməyə alışmayıblar. Dəhşətli şaxta və yuxusuzluq faşistlərin axırına çıxdı.

Sosiç Mixaylo ilə razılaşdı:

– Hə, partizanlar arasında həmrəylik hissi çox güclüdür. Bu cəhətdən

düşməndən fərqlənirik. Hamıya məlumdur ki, əgər partizan kiminsə çörəyini oğurlasa, onu dar ağacı gözləyir. Slovenlər ta qədimdən qəbilə halında yaşayıb, ona görə xalqımız birliyə, həmrəyliyə böyük önəm verir. Təəssüf ki, indi slovenlərin yarısı bir-birinə düşmən kəsilib, buna səbəb şəxsi münasibətlər və siyasi baxışlardır.

– Azərbaycanda da partiyanın rəhbər xadimləri və sıravi məmurlar arasında fikir ayrılığı vardı, gərginlik hökm sürürdü, yaşamaq gündən-günə çətinləşirdi. İdarəetmə prinsipi bir devizə əsaslanırdı: parçala, hökm sür! Çünki alçaldılmış, tayfalara bölünmüş, bir-birinə düşmən kəsilmiş xalqı idarə etmək asandır. Həm də xalq arasına düşmənçilik, etiraz toxumu süni surətdə səpilir, mütərəqqi adamlar məqsədyönlü şəkildə məhv edilirdi. Keçmişdə Azərbaycanı işğal edib ikiyə bölsələr də, xalqı yaşadan onun birliyidir. Biz həmişə vətənpərvər olmuşuq. Azərbaycanda hələ qədim dövrlərdən müxtəlif millətlərin nümayəndələri yaşayıb. Onlara həmişə dost münasibət göstərmişik, qardaş bilmişik, ocağımızın yuxarı başında əyləşdirmişik. Azərbaycan xalqı öz adət-ənənələri, sənətkarları, milli qəhrəmanları ilə fəxr edib. Birlik, həmrəylik qanımıza hopub. Bildiyimə görə, Sloveniyanın da başı müsibətlər çəkib – bu ölkə də parçalanıb, slovenlərin böyük əksəriyyəti müxtəlif ölkələrdə məskunlaşıb. Bakı və Triest bir-birinə çox bənzəyir. Hər iki şəhərin memarlıq üslubu, dənizi, limanı, qağayıları, iqlimi, xeyirxah insanları, demək olar ki, eynidir. Dünyanın heç bir yerində belə gözəl şəhərlərə rast gəlməzsən!

Sosiç Mixaylonun dediklərinə şərh verdi:

– Triest slovenlər üçün həmişə dünyaya pəncərə rolunu oynayıb, ancaq italyanlar ildən-ilə bu rolu əlimizdən almağa çalışır. 1923-cü ildə italyan faşistlər buranı işğal edəndən sonra Triesti, demək olar ki, İtaliyanın əyalətinə çeviriblər. Son iyirmi ildə Cənubi İtaliyanın əhalisini planlı şəkildə Triestə və ətraf ərazilərə köçürürlər. Halbuki bu adamlar əvvəllər heç vaxt Triest və slovenlər barədə heç nə eşitməyib. Hətta indi də slovenləri saya salmır, bizi adam yerinə qoymurlar. Əvəzində uzun illərdir, bizi sistemli şəkildə Triestdən sıxışdırıb çıxarır, soyqırıma məruz qoyurlar.

Miryam söhbətə qoşuldu:

– Yaxşı ki, İtaliya təslim oldu, ancaq hələ də almanların işğalı altındadır, bundan ağır heç nə ola bilməz. İndi burda italyanların əvəzinə almanlar at oynadır, özlərini ağa kimi aparır.

Mixaylo sözünə davam etdi:

– 1922-ci ildə dörd yaşım vardı, Azərbaycan bolşeviklərin işğalı altında idi. Həmin vaxtdan Sovet İttifaqının tərkibindəyik, ancaq bizim üçün dava çoxdan başlayıb. Əgər xarici düşmənlə mübarizə yoxdursa, düşməni daxildə tapıb onunla amansız müharibə aparırlar. Neft –

Azərbaycanın neməti, həm də başının bəlasıdır. Ona görə bəla deyirəm ki, neft nəhəng dövlətləri maqnit kimi özünə cəlb edir, onları bizim neftimiz maraqlandırır. Neftdən gələn gəlirin cüzi bir hissəsi xalqa qalır. XIX əsrdə Parisdən sonra, kinoteatrı olan ikinci şəhər Bakı idi. 1848-ci ildə dünyada ilk neft buruğu burada qazılıb. 1879-cu ildə Nobel qardaşları Bakıda şirkət açıb, bundan sonra Avropanın bir sıra nəhəng dövlətləri Azərbaycana sərmayə yatırmağa başlayıb. İlk neft tankeri Bakı limanından çıxıb, 1924-cü ildə isə dənizdə ilk neft quyusu qazılıb. Bakı qiymətli neft yataqlarına görə dünyada şöhrət tapıb. Triestdə olduğu kimi, Bakı limanında da yük gəmiləri dolub-boşalır. Azərbaycan və sloven xalqlarının taleyi oxşardır. Sizin kimi bizim xalqımızı da iki hissəyə bölüblər. Azərbaycan xalqının yarısı Rusiya-İran sərhədinin o tayında yaşayır, şah rejimi onları sıxışdırır. İndi Sloveniyanı ikinci vətənim hesab edirəm, özümü yarısloven, yarıazərbaycanlı sayıram. Sabah nə baş verəcəyini deyə bilmərəm, ancaq bir şeyə əminəm: evlənməli olsam, mütləq sloven qızı alacağam və bu gözəl şəhərdə yaşayacağam.

Bu sözləri eşidəndə Miryamın yanaqları qızardı. Komendant saatı olduğu üçün otaq qaranlıq idi, ona görə də Miryamın atası bunu görmədi. Mixaylo və Miryam münasibətlərini Sosiçdən gizlədirdi, hiss olunurdu ki, ailə başçısının yanında hər ikisi sıxılır. Amma Miryamın atası dünyagörmüş, arif adam idi. Hər şeyi anlamışdı, ancaq özünü o yerə qoymurdu. Başa düşürdü ki, yeganə qızı Miryam ömrü boyu tək qala bilməz, həm də Mixayloya biganə deyil, bütün bunlar Sosiçin nəzərindən qaçmamışdı. Ürəyində sevinirdi: "Övladı, nəhayət, kiməsə vurulub!" Düşünürdü ki, burada qəribə heç nə yoxdur, qızın sevib-sevilən vaxtıdır, uşaq deyil ki, ağlı kəsir. Miryamın bir nömrəli terrorçunu sevməsinə də normal yanaşırdı, çünki Mixaylo elə ilk görüşdən xoşuna gəlmişdi. Əvvəl inanmırdı ki, bu arıq, qarasaç partizanın əlindən bir iş gəlsin, amma onun Triest və ətraf kəndlərdə törətdiyi təxribatları, təşkilatçılıq bacarığını görəndən sonra fikri tamam dəyişmiş, Mixayloya rəğbəti artmışdı. Heyif ki, aşxanada, dostlarının yanında faşistləri vəlvələyə salan partizanla tanışlığı barədə danışıb qürrələnə bilmirdi. Hər bazar günü kilsədə ibadətdən sonra dostları ilə aşxanaya yığışırdılar. Onlara Mixaylodan danışmağa haqqı yox idi, bilirdi ki, gizli fəaliyyət bunu tələb edir, həm də susmaq qızıldır!

Sosiç Mixaylonun Triestdə yaşayıb, sloven qızı ilə evlənmək arzusunu alqışladı:

– Dostum, mən də bunu məsləhət görəcəkdim. Bizim qızlar elə gözəl və cazibədardır ki, bu axmaq italyanlar da yan keçə bilmir, şirin

dilə basıb qızların ağlını başından çıxarırlar. Bir də ki, qızlarda ağıl nə gəzir, hər sözü ciddi qəbul edib inanırlar. Ancaq düşünürəm ki, bu çətin zamanda sloven gəncləri gərək italyanlarla dostluq etməsin. Hər iki tərəfin bir-birinə bəslədiyi nifrət çox güclüdür. Bu torpaqlar Avstriya-Macarıstanın tərkibində olanda vəziyyət başqa idi: sloven və italyan eyni tutulurdu. Ancaq onların ikisini bir yerdə götürsən, bir avstriyalıya, ya bir macara da dəymirdi. O vaxt italyanların cınqırı çıxmırdı, yalnız Birinci Dünya müharibəsindən sonra baş qaldırdılar. Faşistlər hakimiyyətə gələn gündən əndazədən çıxıblar. Mixaylo, bu alçaq italyanlar sənin o faşistlərindən heç də dala qalmır!

Hamı güldü.

Gözəl sloven qızlarından danışıb sonra söhbətin məcrasını dəyişən, bir neçə stəkan şərabdan keflənən Sosiç ucadan, həm də hamıdan çox gülürdü. Miryam bu anadək kişilərin söhbətinə maraqla qulaq asırdı. Mixaylonun Triestdə qalıb sloven qızı ilə evlənmək barədə dediyi sözlər ona yaman təsir etmişdi, hələ də özünə gələ bilmirdi. Sakitcə dilləndi:

– Axı italyanların və almanların da arasında mərhəmətli, xeyirxah, ağıllı adamlar var. Düzdür, təcavüzkar kimi iç üzlərini açıb göstərdilər. Məlum oldu ki, almanlar yolunu azıb, italyanlar da onlardan geri qalmır, üstəlik, qorxaqdırlar. Bunu slovenlərdən yaxşı bilən yoxdur! Gör neçə illərdir, onların əsarəti altında yaşayırıq!

Sosiç qızının sözünə əlavə etdi:

– Hə, Miryam düz deyir. İtalyanlar bir yerə toplaşanda ürəkli olur, xoruzlanmağa başlayır. Təkliyə düşəndə quzuya dönürlər. Amma kimsə qoltuqlarına qarpız verəndə başlayırlar aləmə car çəkib "mənəm, mənəm" deməyə. Birinci Dünya müharibəsində İtaliya bütün mühüm döyüşlərdə məğlub oldu, bir neçə il əvvəl Abissinidəki savaşı da uduzdu. Tarixə nəzər salsaq, görərik ki, son yüz ildə italyanlar irili-xırdalı döyüşlərin heç birində qələbə qazanmayıb. Elə dövlətlər var ki, qələbədən yararlanır, ancaq italyanlar hər məğlubiyyətdən öz xeyirləri üçün istifadə etməyi yaxşı bacarır. Bu müharibədən sonra Sahilyanı ərazilərdə yaşayan slovenlərin başına nələr gələcəyini Tanrıdan başqa kimsə bilmir!

– Davadan sonra nə olacaq? Çalışıram bu sualın cavabı barədə düşünməyim. Yalnız onu deyə bilərəm ki, faşistlərlə apardığımız qanlı müharibə tezliklə başa çatacaq. Ancaq bu, yer üzündə sonuncu savaş olmayacaq. Bəşəriyyət və cəmiyyət müharibələrlə təşəkkül tapıb, savaş dünyanın tərkib hissəsidir. Dünya quruluşu müharibəsiz bir göz qırpımında darmadağın olardı. Çünki bəzi xalqlar və siniflər başqalarının

hesabına yaşayıb varlanmaq istəyir. Faşistlər də buna can atırdı, ancaq nəticə göz qabağındadır. Düşünürdülər ki, əllərinə yağlı tikə keçib, boğazlarında qaldı! İndi boğulurlar, nəfəsləri kəsilir! Biz də böyük məmnuniyyətlə bu əclafların kökünü kəsəcəyik! – Mixaylo sözünə ara verdi, gözləri parıldayırdı. Köks ötürüb sözünə davam etdi: – Şərlə mübarizədə bütün insanlar eyni cəbhədə dayanmalıdır, yalnız gücümüzü birləşdirməklə ona qalib gələ bilərik. Sizin, daha doğrusu, bizim gizli müqavimət hərəkatının sıralarında qocalar və qadınlar, hətta uşaqlar da var. Bu, əsl xalq cəbhəsidir və kimsə onu məğlub edə bilməz.

Miryam söhbətə qoşuldu:

– Belə olmaz, gecə-gündüz bu lənətə gəlmiş davadan danışırıq, adam dəli olur. Bir az da başqa şeylərdən, ürəkaçan mövzulardan bəhs edək. Savaşın nəyi yaxşıdır ki, elə hey onu müzakirə edirsiniz? Mixaylo, yaxşısı budur, vətənindən, milli mətbəxinizdən danış. Deyirlər ki, xalqı tanımaq istəyirsənsə, yeməklərinin dadına bax!

Mixaylo gülümsündü, təklif ürəyincə idi, dostlarına doğma vətəni barədə danışmağa başladı:

– Deyilənə görə, dünyada on bir müxtəlif iqlim qurşağı var. Azərbaycanda doqquzuna rast gəlmək mümkündür. Bu da torpağın münbitliyinə, bitki örtüyünə təsir göstərir. Milli mətbəximiz zəngin və rəngarəngdir. Xəzərin qara kürüsü dünyada məşhurdur, ümumiyyətlə, dəniz və çaylarda nadir balıq növləri çoxdur. Mətbəximizdə müxtəlif çeşidli şorbalar əhəmiyyətli yer tutur. Onların sayı otuzu ötüb. Siyahının başında kabab durur, yəni əti şişə taxıb, kömürün üstündə bişirirlər. Bu, bosniyalıların “rajniçi”sini xatırladır. Azərbaycanda bitən tərəvəz növlərinin sayı-hesabı yoxdur, ona görə də mətbəximiz tərəvəzdən hazırlanmış yeməklərlə zəngindir. Bura ətirli quru və ya təzə ədviyyələr də əlavə olunduqda dadından doymaq olmur. Dostlar, ancaq etiraf edim ki, sloven mətbəxinə alışmışam, xörəklər çox xoşuma gəlir, şirniyyata, şəraba isə söz ola bilməz... Xüsusən də əgər bu nemətləri sənin qarşına alagöz, incə baxışlı, zərif bədənli sloven qızı qoyursa! Vallah, belə aşpazın əlindən zəhər də içərəm!

Zarafat hamının ürəyincə oldu, oradan-buradan danışıb güldülər. Mixaylo sözünə davam etdi:

– Bütün İslam ölkələrində qəbilə formasında yaşayan köçəri tayfalar var, onların da mətbəxi çox zəngin və dadlıdır. Belə tayfalar əsasən səhrada yaşayır və köçəri həyat sürür. Bu adamlar bayramlarda, el şənliklərində, ümumiyyətlə, mərasimlərdə böyük süfrə açır, bir-birinə qonaq gedir, birlikdə yemək yeyir. Elə xörəklər var ki, hazırlanması bir gün vaxt tələb edir. Məsələn, ərəblər mərasim üçün belə bir yemək

hazırlayırlar: balığın içinə suda bişmiş yumurta doldurub bişmiş toyuğun içinə qoyurlar. Daha sonra toyuğu quzunun qarnına qoyub tikir və sonda quzunu dəvənin qarnına qoyub tonqalda bişirirlər.

– Sən bir işə bax! Adamın heç inanmağı gəlmir! Nə dadına baxardım?! – Miryam dodağını yaladı.

– Sizdən bəzi şeyləri soruşmaq istəyirəm. Bir dəfə şəhərdə bank və idarə binalarının arasında bir kilsə gördüm. Öyrəndim ki, lüteran yevangelistlərinin məbədidir. Su kanalının kənarında ucaldılmış pravoslav kilsəsi də mənə qəribə göründü. Axı Triest İtaliyada, katolik ölkədə yerləşir, düz demirəm? – Mixaylo xəbər aldı.

– Bilirsən, Mixaylo, – Sosiç cavab verdi, – bizim şəhər indi İtaliyanın tərkibindədir, ancaq Triest əsrlər boyu Avstriyaya məxsus olub və kosmopolit şəhər sayılıb. Burda beş müxtəlif dini cərəyan fəaliyyət göstərib. Triestdə hər dinin öz məbədi, yəhudilərin isə iki sinaqoqu var. Faşistlər din ocaqlarının fəaliyyətinə qadağa qoydu, əvvəl məbədləri bağladılar, sonra da soyub-taladılar. Bu işlərin başında satqın SS donuzu Qloboçnik durur. Deyirlər, bu SS genaralı sloven mənşəli olması ilə fəxr edir, amma biz onun yerinə xəcalət çəkirik. Çox dəhşətli, mənfur tipdir! Yaxşı, bu donuzdan danışıb iştahamızı küsdürməyək. Qloboçnikin anası zadəgan nəslindəndir. Eşidəndə ki, anası öz general oğlundan imtina edib, çox sevindim! Əclafa bu da azdır! Oğlunun Şərq cəbhəsində törətdiyi vəhşiliklər barədə eşidən zavallı qadın fəryad edib deyir ki, “mən dünyaya belə vəhşi övlad gətirə bilməzdim!” Sözün düzü, bu qondarma general qəssaba oxşayır!

## XXVI

Mixaylonun Soş briqadasının rus batalyonuna hər gəlişi əlamətdar hadisəyə çevrilirdi. Ənənəyə sadiq qalan Mixaylo heç yerə əliboş getmirdi – müxtəlif hədiyyələr, döyüşçülər üçün italyan siqareti gətirirdi. Bu dəfə batalyon aşpazı üçün bir kisə duz, komandirə isə söz verdiyi kimi, qırmızı ipək parça gətirmişdi. Bu parçadan fərqləndirici nişanlar hazırlayıb furajkalara tikəcəkdilər. Döyüşçülər Mixaylonu əhatəyə aldı. İnanmaq olmurdu ki, yüngül idman geyimində olan bu qarasaç, gülərüz oğlan düşmənin gözünün odunu alıb, faşistlərə qan uddurur. Mixaylo özünü sadə aparır, hamının sualına cavab verməyə çalışırdı.

– Mixaylo, bu ipəyi hardan tapmısan? – komandir Anatoli İqnatyeviç xəbər aldı.

– Eh, soruşmayın, uzun əhvalatdır...

Toplaşanların xahişi ilə Mixaylo əhvalatı danışmağa başladı:

– Bu qırmızı ipək topu Qoritsadakı hərbi anbarda idi. İtaliya cəbhə-

sinə yola düşməyə hazırlaşan bir alman hərbi hissəsinə geyim və camaşır lazım idi. Saxta sənəd düzəldib Fritslə həmin anbara getdik. Anbar işçiləri malları maşına yükləməkdən boyun qaçırdı, bu iş Fritsin öhdəsinə düşdü. Anbarın küncündə atılıb qalmış ipək topu gözümə sataşdı. Düşündüm: çıxışdakı növbətçi zabiti necə aldadım ki, parçanı apardığımızı görməsin? Fritsin qucağına bir dəstə pal-paltar verdim, növbətçi zabitin qarşısından keçəndə guya ayağı büdrəyib yıxıldı. Qarışıqlıqdan istifadə edib ipəyi paltarların arasında gizlətdim. Malları yükləyəndən sonra maşını Solkana sürdük. Vəssalam! Frits elə məharətlə yıxıldı ki, iki həftə ayağı ağrıdı. Ancaq Anatoli İqnatyeviçə ipəyi gətirəcəyimə söz vermişdim, əməl etməyə borclu idim! – Mixaylo söhbətə yekun vurdu.

Batalyon divar qəzeti Mixaylonun düşərgəyə hər gəlişini geniş işıqlandırırdı. Bakılı hərbçinin qəzet üçün çəkdiyi müxtəlif karikaturaları, şarjları hamı bəyənirdi. Hərbi ansambl da vaxtı hədər yerə itirmirdi. Qarmon, gitara, mandolina və balalayka ifaçıları birləşib əla musiqi kollektivi yaratmışdı. Mixaylonu yola salanda komandir göstəriş verdi ki, əsgərlər batalyonun himnini ifa etsin.

**Soş briqadası rus batalyonunun himni**

*Biz Yuqoslaviyanın dağlarıyla gedirik,*
*Arxamızca səslənir qalib yürüş nəğməsi –*
*Əsgər papaqlarının qızıl ulduzlarında*
*İşıq saçır, parlayır mərdlik, cəsarət rəmzi.*

*Şiddətli döyüşlərdə qazanılan bu şöhrət*
*Qazanılıb tökülən qızıl qan bahasına.*
*Sloven torpağını qoruyurduq yağıdan –*
*Doğma rus torpağının uğrunda vuruşantək.*

*Primoryedə tanındı bizim batalyonumuz,*
*Orda biz dəfələrlə zəfər çaldıq düşmənə.*
*Döyüş meydanlarından qəhrəmantək qayıdır*
*Qalib əsgərlərimiz indi öz evlərinə.*

*Bizim batalyonumuz o torpaqda qazandı*
*Çoxdan layiq olduğu şan-şöhrəti, ad-sanı.*
*O kəndin hər sakini öz gözüylə gördü ki,*
*Məhv edilmiş düşmənin yoxdur sayı-hesabı.*

*Döyüşlərdə – şücaət, savaşlarda – rəşadət,*
*O mənfur faşistləri heç də az qovmamışıq,*
*Onlar üçün buz kimi soyuq məzara dönən*
*Sloven torpağının dağından, dərəsindən.*

*Cəsur əsgərləriyik Rusiya torpağının,*
*Qalibiyyət dalınca gedirik yorulmadan.*
*Və yürüşə yollanan bütün briqadamız*
*Bu nəğməni dostlara göndərir öz adından.*

## XXVII

Şəhərdə gizli təxribatçılıq fəaliyyəti ilə məşğul olan Mixaylo kəşfiyyat işinin qayda-qanunlarına ciddi əməl edirdi. Bunu Berlində keçdiyi xüsusi təlim kurslarında öyrənmişdi. Birinci kurs üç ay, ikinci kurs iki ay davam etmişdi. Diqqət çəkməmək üçün öz adamları ilə qələbəlik yerlərdə görüşürdü. Yəni küçədə iki nəfərin təsadüfən görüşməsi heç bir şübhə doğurmamalı idi. Amma bunun təhlükəli tərəfi də vardı – partizanları güdən xəfiyyələr adamların arasında gizlənə bilərdi. Ona görə də məxfi görüşlər üçün Triestin iri mağaza və ticarət mərkəzlərini seçirdi. Mixaylo görüş yerinə yollananda yarana biləcək təhlükəli vəziyyətlərdən çıxış yolları barədə düşünür, özünü necə aparacağını götür-qoy edirdi: "Məni tanısalar, nə etməliyəm? Məsələn, küçənin tinindən görsələr, hara qaçmalıyam? Tutaq ki, xəfiyyələr qarşı səkidəki kiçik restorandan çıxıb üstümə cumsalar, harda gizlənməliyəm?"

Mixaylo bu hesablamaları "beyin üçün çalışma" adlandıb təhlükəyə necə reaksiya verəcəyini məşq etdirirdi. Hər görüşdən əvvəl Darko və Marina ilə müəyyən məsələləri müzakirə edirdi: məsələn, küçədə şəxsiyyəti təsdiq edən sənədi yoxlasalar, vəziyyətdən çıxmaq üçün patrula nə demək lazımdır? Əgər görüş kafedə təyin olunubsa, Mixaylo digər müştərilərin diqqətini cəlb etməmək üçün burada qırx beş dəqiqədən artıq qalmırdı. Bilirdi ki, masa arxasında çox otursa, kimsə onu tanıya bilər. Görüş üçün bilərəkdən elə yerlər seçirdi ki, təhlükə yarandıqda adamlara qarışıb aradan çıxa bilsin. Görüş yerinə yaxın olan küçələri əvvəlcədən diqqətlə öyrənir, ehtiyat yolların sayını müəyyənləşdirirdi. Mixaylo əsl kəşfiyyatçı kimi, bir yoldan iki dəfə keçmir, tapançanı belində, patronları isə plaşının cibində gizlədirdi. Ehtiyac yarandıqda tapançanı çıxarmadan plaşın cibindən atəş aça bilərdi. Gestapoçular və Kollottinin xəfiyyələri xeyli müddət idi ki,

Mixaylo, Darko və partizan dəstəsinin üzvlərini tutmağa çalışsalar da, səyləri boşa çıxırdı...

Darko başına gələnlər barədə Mixayloya danışdı:

– Axırıncı dəfə partizan Slavko adlı biri görüş barədə xəbər göndərdi. İndi bilmişəm ki, bu adam Kollotti bandasının casusudur. Hə, onu deyirəm axı, razılaşdıq ki, kafelərdən birində görüşək. Onunla birlikdə mülki geyimdə iki nəfər də gəlmişdi, ağzımı açmağa macal vermədilər, dərhal tapançanı üstümə tuşladılar. Döyüş fəndi işlədib birinin silahını aldım, ancaq digər casus atəş açıb ayağımdan yaraladı. Güllə dizimdən yuxarı dəymişdi. Xoşbəxtlikdən, yara ağır deyildi, qaçıb aradan çıxdım. Bax belə, əziz Mixaylo, həyatımız bir tükdən asılıdır, hər an qırıla bilər... Ancaq həmin casusdan qisasımı aldım. Belə ki, ertəsi gün Müqəddəs İvan küçəsindən Lornyerə gedən yolda pusqu qurduq. Kollottinin azğın köpəklərindən ibarət casus dəstəsi ordan keçəndə atəş açıb çoxunu öldürdük, satqın Slavkonun meyiti də yolun ortasında qaldı. Digər casuslar kolluğa çəkilib atışmağa başladı. Döyüş bir-iki saat çəkdi, sonra faşistlər bu köpəklərin köməyinə gəldi, biz də itki vermədən geri çəkildik. Hə, necədir? Düzdür, satqınlara bu da azdır! Ancaq nə etməli? İnsanları tanımaq olmur! – Darko təəssüflə başını buladı. – Bir dəfə partizan həmkarım Albina ilə limandakı tankerə mina qoyduq. Detonatoru quraşdırıb aradan çıxdıq, ancaq mina partlamadı, dilxor olduq, heyif, zəhmətimiz hədər getdi...

– Darko, unutma, təxribatçının avadanlığı həmişə saz olmalıdır. Stalinqradı qoruyanda 62-ci ordunun tərkibində döyüşürdüm, devizimiz belə idi: “Silahını göz bəbəyi kimi qoru!” Səndən çox razıyam, Darko, lazım olan hər şeyi dönə-dönə yoxlayıb saz vəziyyətdə mənə ötürürsən.

– Mixaylo, ağlamayan uşağa süd verməzlər, bundan sonra da nə lazım olsa, qulluğunda hazıram. İstədiyin şeyi yerin deşiyindən də olsa, taparam. Bu yaxında Baş Qərargahdan xəbər göndərmişdilər ki, özümüzə radioqurğu əldə edək. Limanda “Reks” adlı gəmi dayanmışdı, yoldaşlarla birlikdə xəlvətcə girib radioqurğunu oğurladıq. İndi radiorabitə vasitəsilə qərargahla operativ əlaqə saxlayıb müvafiq göstərişlər alırıq. Amma radiostansiyanın yerini daim dəyişmək lazım gəlir. Çünki almanların xüsusi avadanlıq quraşdırılmış maşınları gecə-gündüz şəhəri dolaşıb radiosiqnalları tutmağa çalışır.

Mixaylo bu söhbətdən sonra Qradnik briqadasının rus batalyonuna, komandir Pemtslə görüşə getdi.

Partizanlar şam yeməyindən sonra tonqalın ətrafına toplaşdı. Əhval-ruhiyyə yüksək idi, çünki faşistlərin növbəti həmləsi itkisiz dəf olunmuşdu. Mixaylo istehkamçı Markonun ötürdüyü konyak şüşəsini alıb bir qurtum içdi və gənc döyüşçülərə dedi:

– Hər bir həyat qayıdışı olmayan birtərəfli yoldur. İnsan daim bu gedər-gəlməzlə addımlayır. Yol bitmək bilmir, ancaq son mənzilə nə vaxt çatacağının fərqi yoxdur. Əsas məsələ odur ki, bu dünyadan köçəndə özünlə çoxlu düşmən aparasan. Belə ölümün misli-bərabəri yoxdur. Tarix yalnız dünyasını dəyişmiş adamlardan bəhs edir, dirilərin tarixdə qalmaq imkanı çox azdır.

– Mixaylo, məncə, bu sözlərin sənə aidiyyəti yoxdur, axı canlı tarix yazırsan! Törətdiyin partlayışlar hətta poladı da əridir, düşmən obyektlərində daşı-daş üstündə qoymur. Deməli, elə bir qüdrətə maliksən ki, tarixin məcrasını istənilən tərəfə yönəldə bilirsən! Sağlığında canlı əfsanəyə, xalq qəhrəmanına çevrilmisən. Xüsusən indi, bütün partizan qəzetləri, faşist mətbuatı səndən yazır. Partizan Marko və sən ad çıxarmısınız. Fotolarınız əldən-ələ gəzir! – Cavad bunu deyib konyak şüşəsini Mixaylodan aldı, bir qurtum içdi.

– Cavad, mənə qəhrəman deyəndə heç xoşuma gəlmir. Əgər öz içindəki qorxu hissinə qalib gələ bilirsənsə, deməli, qəhrəmansan. Xahiş edirəm, mənə dahi qəhrəman adı qoyma. Faşizm dünyanı bürümüş bəladır, xəstəlikdir. Əslində, bu bəlanın qarşısını almaq üçün canından keçməyə hazır olan adamı axmaq adlandırmaq düzgün olmaz. Elə bilmə ki, şəklimi qəzetdə görmək mənə xoşdur. Xoşbəxtlikdən, foto pis alınıb, qəzetin kağızı, mətbəə rəngi də keyfiyyətsizdir.

– Məhz buna görə Marko saçını dibindən qırxıb, bütün komanda heyətini xoşbəxt edib. Əvvəlki görkəmində serb bölük komandirinə bənzəyirdi, – kəşfiyyatçı Pemts zarafatından qalmadı.

– Siz bu özündənrazı çex oğlana baxın! Ağzına çuval yerləşmir. İndi sənə serb bölük kamandirinin kim olduğunu göstərərəm! Oturduğun kətilin altına bir qumbara ataram, işin bitər! – Marko qəzəbləndi.

Konyak şüşəsini əlinə alan Pemts onu sakitləşdirdi:

– Yoldaş Marko! Qumbaranı faşistlər üçün saxla, Mixaylodan nümunə götür! Görürsən, hər minanın qədrini necə bilir? Əgər Mixaylo mina qoyubsa, faşistin işi bitdi, gərək cəhənnəmə gedən qatara bilet almaq üçün növbəyə dayansın!

Kapitan Cavad – rus bölüyünün komandiri, əvvəllər Qızıl Orduda minaatanlar batareyasının komandiri, almanların Stalinqrad ətrafında məğlubiyyətindən az öncə əsir düşmüş azərbaycanlı zabit dedi:

– Pemts haqlıdır. Hər minanın qədrini bilmək lazımdır. Stalinqrad cəbhəsində başıma bir iş gəlmişdi: faşistlər gözümün qabağında vurnuxur, mənim isə bir dənə də olsun mərmim qalmayıb. Bu dərdə dözmək olar? Ürəyimdən qara qanlar axırdı. Bu vəziyyət iki həftə davam etdi. Volqa çayı donmuşdu, gəmilər sursat daşıya bilmirdi.

Vəziyyət ağır idi. Almanlarda olduğu kimi, bizim də ərzaq, silah-sursat ehtiyatımız tükənmişdi. İki həftə şokoladla başımızı girlədik. Başqa əlac yox idi! Almanların arxa cəbhəsinə soxulub ərzaq anbarından oğurluq etməyi qərara aldıq. Amma onların da anbarında siçanlar oynayırdı. Halbuki Stalinqrad döyüşləri başlayanda ərzaq sarıdan korluq çəkmirdilər, anbarlar dolu idi – Sovet İttifaqının valyuta mağazalarında olduğu kimi, ürəyin nə istəsə, tapmaq olardı.

Pemts konyak şüşəsini aldı, bir qurtum içib dedi:

– Bəli! İndi düşmənin ərzağını bizə Tsar və Mixaylo daşıyır. Ağıllı döyüşçü öz ərzağını yox, düşmənin malını yeməlidir. Əgər bu iş xoşuna gəlmirsə, özü bilər, nə tapsa, yesin!

Mixaylo əlavə etdi:

– Düşmənin bir məqsədi var: bizi məhv etmək! Amma özü də istəmədən bizi silah və ərzaqla təmin edir.

Cavad üzünü Mixayloya tutdu:

– Əgər sənin əsil-nəcabətini bilməsəydim, hörmətli əcdadlarını tanımasaydım, düşünərdim ki, damarlarında quldur qanı axır. Bir neçə ay ərzində səninlə faşistlərdən gör nə qədər maşın, motosiklet oğurlamışıq?! Elə sən özün ağzınacan dolu neçə yük maşını ələ keçirmisən? Hələ yanacaq çənlərini demirəm! Dostum, bu sahədə əsl mütəxəssis olmusan!

Mixaylo tələsmədən cavab verdi:

– Cavad, bilirsən ki, İkinci Dünya müharibəsi adlandırılan bu lənətə gəlmiş savaşı mən başlamamışam. Ancaq antifaşistlərin qələbəsi bu müharibənin başa çatmasına əvəzsiz töhfə verə bilər. Nasistlər üçün insanı necə öldürməyin fərqi yoxdur, biz də seçim etməməliyik: düşmənin məhvinə hesablanmış bütün üsullar yaxşıdır! Təkrar edirəm: total müharibəni mən yox, faşistlər başlayıb! Qazdıqları quyuya özləri düşəcək!

Cavad yarımçıq konyak şüşəsini Markoya ötürdü.

– Bizdə yaxşı bir məsəl var, – Marko dedi, – özgəyə quyu qazan özü düşər!

Mixaylo əlavə etdi:

– Bu məsəl biz təxribatçılara aid deyil. Çünki həmişə özgəyə quyu qazırıq, amma özümüz düşmürük.

Pemts razılaşdı:

– Hə də, sizin təxribatdan sonra torpaqda həmişə iri çala, quyu və toz-duman əmələ gəlir.

Pemtsin tərifi Markonun xoşuna gəldi, bığlarını eşib fəxrlə dedi:

– Mina qoymaq işinin əlifbasını o qədər adama öyrətmişəm ki!

Saymaqla bitməz! Frents Preşernin briqadasında məşhur adamlar vardı, böyük idman korifeyləri: tramplindən xizəklə tullanmaq üzrə dünya rekordçusu Rudi Finjqar, ona "Çəyirtkə" ləqəbi vermişdim, xizəkçilik idmanı üzrə ikiqat dünya çempionu Knifits, ləqəbi də "Qaçan". Ağırçəkili boksçular arasında Yuqoslaviya çempionu Baloxun partizan ləqəbi "Boksçu" idi. Bu adamları hərbi tapşırığa göndərməzdən əvvəl onlara yemək verib deyirdim: "Doyunca yeyin, uşaqlar, sağlam bədəndə sağlam ruh olar! Qaçan, Çəyirtkə və Boksçu, gecə dəmir yoluna gedin, düşmənin, heç olmasa, bir qatarını partlatmayınca geri dönməyin!"

– Dəvə oynayanda qar yağar! – Pemts dedi. – Amma yaxşı partlayış həmişə tozanaq qoparır. Toz-duman çəkiləndən sonra işin nəticəsini görə bilirsən!

Marko bir qurtum da içib, şüşəni Mixayloya ötürdü. Pemts sözünə davam etdi:

– Heykəltəraş öz əsərinə kənardan heyranlıqla necə baxırsa, siz də Mixaylo ilə təxribatdan sonra baş verənlərə elə tamaşa edirsiniz.

Mixaylo dibində bir az konyak qalmış şüşəni Cavada verib dedi:

– Təxribat – əsl incəsənətdir. Az məsrəflə düşmənə böyük zərbə vurub, vaxtında aradan çıxmaq lazımdır. Yalnız ölümün gözünün içinə baxmağı bacaran adam sağ qalır. Əks təqdirdə, ölümün pəncəsindən yaxa qurtara bilməyəcəksən!

Komandir Cavad əlavə etdi:

– İnsan ağır döyüşdə anlayır ki, taledən qaçmaq mümkün deyil. Mahir döyüşçü də olsan, əgər taleyinə ölüm yazılıbsa, ondan yan keçə bilməyəcəksən. Stalinqrad döyüşlərində sağ qalmaq imkanı sıfra bərabər idi. "İndicə ayağımın altında mərmi partlayacaq, ya da düşmən gülləsinə tuş gələcəyəm!" – əgər bu fikirlə barışırsansa, ömründə ilk dəfə həyatın qiymətini anlamağa başlayırsan!

Mixaylo dostu ilə razılaşdı:

– Haqlısan, Cavad, döyüş zamanı xəyala dalıb gerçək vəziyyəti düzgün qiymətləndirə bilməyən əsgər tez məhv olur. Bütün diqqəti cəmləşdirmək – əsgəri döyüşdə yalnız bu xilas edə bilər. Nəhayət, taleyinə nə yazılıbsa, o da olacaq, çapalamaq mənasızdır! Təəssüf ki, indi əlimizdə dəqiq məlumat yoxdur: Stalinqrad döyüşlərində kim çox qırılıb: ruslar, yoxsa almanlar?

Cavad konyak şüşəsini boşaldıb dedi:

– Yadımdadır, bir neçə saatlıq döyüşdən sonra bütün batalyon qırıldı, yalnız arxa cəbhədəki intendant dəstəsi sağ qaldı. Yaxşı ki, kömək vaxtında yetişdi. Alman batalyonları da bir-bir qırılırdı, səngərlərində komandir və zabitlərdən başqa bir dənə də əsgər

qalmamışdı. Sonra da Paulusun ordusu təslim oldu.

Tonqalın ətrafında yaxın xutordan gəlmiş Radovan adlı gənc də əyləşmişdi, ona içki təklif etmədilər, amma cavan adamın söhbəti maraqlı idi:

– Bu Marko elə adamdır ki, onu yeməyə səsləmək lazım gəlmir. Harda, nə vaxt süfrə açıldığını dəqiq bilir. Qradnik briqadasında istehkamçıdır, ancaq bunu məharətlə gizlədir. Briqada bura gələndə Marko ilim-ilim itir, döyüşçülər gedən kimi peyda olur ki, mən də varam!

Komandir Tixi söhbətə qoşuldu:

– Markodan söz düşmüşkən, onu heç vaxt suqabısız görməmişəm. Bəli, silahı yanında olmaya bilər, ancaq suqabı, əsla! İçində heç vaxt su olmur, araq doldurur. İçkini hardan tapdığını bilmirəm.

Marko yaşca hamıdan böyük idi, zahiri görkəmcə də başqalarından fərqlənirdi – geniş yaxalıqlı pencək, İngiltərədə tikilmiş köynək geyinib papaq qoyurdu. Marko narazılığını bildirdi:

– Məsələmi partiya iclasının gündəliyinə qoymusunuz? Ey, ağzından süd iyi gələn körpə, sənin hələ ətək altında gizlənən vaxtındır, burada nə işin var?! Ağzına gələni danışsan, başın bəla çəkər. Əziz yoldaşlar, sizcə, briqada bura gələndə mən niyə gözdən itirəm, hə? Cavab tapa bilmirsiniz? İcazənizlə, özüm deyim. Oradan-buradan araq tapıram, onu da briqadada əlimdən alıb içirlər, qalıram baxa-baxa! Ertəsi gün də qarın ağrısına tutulurlar, tualetin qabağında böyük növbə yaranır. Ona görə də briqadada tez-tez görünməyim məsləhət deyil. Mən istehkamçıyam. Belə çıxır ki, araq gətirməklə doğma briqadanın altına mina qoymuş olaram! Yox, qardaş, minanı düşmənin başında partlatmaq lazımdır!

– Hə, sən kənddə peyda olan kimi hamı bilir ki, bu gün-sabah hardasa partlayış olacaq, almanlar da quduz köpəyə dönəcək. Bilirsiniz, Markonun Yesenitse ilə Medvode şəhərləri arasındakı dəmiryol xəttini partlatmaqdan xoşu gəlir, özü mənə danışıb, – Radovan fəxrlə bildirdi. Dostu haqqında bayaq tənqidi fikir söylədiyi üçün xəcalət çəkirdi. Çünki bu yaxında Markoya maşın dinamosu və faranı əlverişli şərtlərlə dəyiş-düyüş etməyə şərait yaratmışdı. Müharibə dövründə akkumulyator qıtlığı yaranmışdı, ona görə də akkumulyatoru on ədəd ingilis minası, iyirmi metr naqil və bir neçə detonatorla dəyişmişdilər.

Mixaylo dedi:

– Əvvəl elə düşünürdüm ki, Marko ilə peşə yoldaşı, yəni istehkamçı olduğum üçün xətrini çox istəyirəm. Əslində, bu belədir, amma papağını ürəkdən bəyənirəm. Mənim vətənimdə papaqsız adamı kişi hesab etmir, hətta onu azərbaycanlı saymırlar.

– Yaxşı ki, bunu dedin, yoxsa elə bilirdim qarşımdakı bölük komandirimdir. Bundan sonra hesab edəcəyəm ki, Marko azərbaycanlıdır, – Tixi dedi.

– Yoldaş Tixi, əgər fikrin məni lağa qoymaq idisə, heç nə alınmadı. Mixaylo əsl kişidir, dağ boyda adamdır, əgər bütün azərbaycanlılar belədirsə, mən də bu xalqın oğlu olmaq istərdim. Sənin batalyonunda onun həmyerliləri xidmət edir. Cüssəli, qətiyyətli, qorxmaz oğlanlardır. Qulaqlarını aç, yaxşı eşit, bir də məni serb bölük komandirinə bənzətsən, yastığının altına mina qoyub detonatoru da ağzına basacağam! – Marko onu hədələdi.

Tixi özünü itirdi, vəziyyətdən çıxmağa çalışdı:

– Avstriyanın kayzeri kimi nə dəymədüşərsən? Bəyəm zarafat etmək olmaz? Xətrinə niyə dəyir?

Marko sakitləşmədi:

– Zarafatdan inciyən deyiləm, amma məni yox, özünü lağa qoy! Yaşım ötüb, zarafat edən vaxtım deyil!

Mixaylo tərəfləri sakitləşdirməyə çalışdı:

– Kimsənin zarafatdan inciməyə haqqı yoxdur. Dostun şirin sözünü də, tənəsini də udmağı bacarmalısan. Zarafat olmasa, həyat mənasını itirər!

Komissar Pemts əlavə etdi:

– Yoldaşlar, bir-birimizə hörmət qoymalıyıq. Vətən uğrunda canından keçməyə hazır olan hər kəs bizim dərin rəğbət və sevgimizə layiqdir. Briqadada hamı qanıqara, qaşqabaqlı gəzsə, hansı döyüş ruhundan danışmaq olar? Ona görə də imkan düşəndə zarafat etmək, deyib-gülmək lazımdır. Bunun heç bir ziyanı yoxdur. Amma komandirlər tabeliyində olan döyüşçüləri yaxşı tanımalıdır, bilməlidir ki, kiminlə zarafat etmək olar, kiminlə yox! Marko haqlıdır. Başqasını lağa qoymazdan əvvəl gərək özünə gülməyi bacarasan. Marko ilə zarafat etməyi kimsəyə məsləhət görmürəm. Yaşlı yoldaş, təcrübəli döyüşçü kimi ona hörmət bəsləyirik. Marko düşmənə qan uddurur, hər gün ölümlə üz-üzə gəlir. Sözümün canı odur ki, başda Mixaylo olmaqla, bütün təxribatçılara hörmət etməliyik.

– Haqlısan, Pemts, qızıl kimi sözlərdir, məncə, Tixi Orlov deyilənlərdən nəticə çıxaracaq, – qəzəbi soyumuş Marko bildirdi. Komandir Tixi isə xəcalətdən özünə yer tapa bilmirdi...

## XXVIII

*Sən məni salmısan böyləcə dərdə,*
*Mən dura bilmərəm böylə kədərdə,*
*Könlüm nə istəsə, incitmə, ver də,*
*Düşməyim çöllərə, dəli ceyranım!*

*İndi anladım ki, nə çəkdi Fərhad!*
*Bu dərdə düşəni eyləyərəm yad,*
*Onlar yalan olmuş, mən almışam ad,*
*Düşmüşəm dillərə, dəli ceyranım!*

*Sənsiz bu dərd mənə olacaq ağır,*
*Odur gözlərimdən bədbinlik yağır,*
*Baxıb bu dərdimə, aç qolun, çağır,*
*Qaçaq o çöllərə, dəli ceyranım!*

*Bülbüləm indi mən gülsüz, çəmənsiz,*
*Qərarım gəlməyir inan ki, sənsiz,*
*Çıxma o yerlərdə seyrana mənsiz,*
*Gəlləm o ellərə, dəli ceyranım!*

***M.Hüseynzadə***

– Mixaylo, əgər istəyirsənsə, saqqalın, bığın ucunu bir az kəsim, yaman tez uzanır. İnan, görkəmin dəyişəcək. Amma belə daha çox xoşuma gəlirsən. Saqqallı kişiləri bəyənirəm, – Marina gülümsünüb işə başladı.

Təbəssüm ona yaraşırdı, işvəli baxışları can alırdı. Bu qızın qarşısında hər kişi tab gətirə bilməzdi: incə, yaraşıqlı dodaqları, sədəf kimi ağ dişləri, qaşları, kirpikləri sanki rəssam əlindən çıxmışdı. Mixaylo bilmirdi ki, Marina saatlarla güzgü qarşısında təbəssümünü məşq etdirir. Güləndə yumru çənəsi xüsusən gözəl görünürdü. Dodağının dərisi azca qırışsa da, Mixaylo onu öpəndə bir şirinlik duyurdu. Hamam otağının qarşısında dayanmışdılar, evdə kimsə yox idi. Marinanın anası Françişka işdən qayıtmamışdı. Mixaylo bir neçə ay əvvəl Marina ilə tanış olanda bu qızın məktəbli olduğunu düşünmüş, onunla uşaq kimi rəftar etməyə başlamışdı. Partizanların Triest qruplaşmasının rəisi Darko ilə əlaqəni yalnız Marina vasitəsilə həyata keçirirdi. Mixaylo bir müddətdən sonra əmin oldu ki, bu işgüzar, ağıllı qız çoxdan yetkinlik yaşına çatıb və onların dostluğu daha da möhkəmləndi.

Marina Mixaylonun saçlarının ucunu kəsib, saqqalını qaydaya salmaq istəsə də, etirazla qarşılaşdı:

– Məncə, saqqala, bığa əl gəzdirməyə ehtiyac yoxdur, çox da uzun deyil, təşəkkür edirəm, Marina, narahat olma!

– Heç bir narahatlığı yoxdur, Mixaylo! Qoy işimi görüm! – Marina pıçıldadı, Mixaylo onun isti nəfəsini duyanda canından gizilti keçdi, özünü saxlaya bilməyib qızın boynunu qucaqladı, onu ehtiraslı öpüşlərə qərq etdi...

Marina dram dərnəyində məşqə tələsirdi. Mixayloya dedi ki, gecikə bilməz, pyesdə baş rolun ifasını ona tapşırıblar. Küçə qapısı açıldı, gələn Marinanın anası idi. O, şəhərin ən məşhur hoteli “Korsa”da çalışırdı. Cavan olsa da, direktor müavini təyin etmişdilər. Mərhum əri hotelin baş sərmayəçisi idi və indi qadın yeganə varis kimi orada çalışırdı. Ana və qız kandarda görüşəndə Mixaylo gülə-gülə dedi:

– Sizi yanaşı görən heç vaxt inanmaz ki, bu qadın Marinanın anasıdır. Düşünər ki, iki bacısınız!

– Çünki Marina doğulanda çox gənc idim, məktəbi bitirməmişdim. Atası varlı birja brokeri idi, Afrika səhralarına səyahətə çıxmağı, cəngəllik macəralarını sevirdi. Mən hamilə qalan kimi evləndik. Bir neçə aydan sonra Keniya cəngəlliklərində cipdən yıxıldı, şir ovuna çıxmışdı, heyvanlar onu parçaladı. Nə deyim, əsl italyan ruhlu adam idi! Bir neçə ildən sonra italyanlar Abissiniyaya hücum edib layiqli cavab aldılar! Amma Marinanın atası Sercio istedadlı, bacarıqlı, bir sözlə, yaxşı adam idi. Marinaya aktyorluq istedadı da məndən yox, atasından keçib. Ömrümdə səhnəyə çıxmamışam. Ömür çox qısadır, gərək öz həyatını yaşayasan, səhnədə kiminsə həyatını təcəssüm etdirmək üçün vaxt xərcləməyə dəyməz. Hə, əziz qızım, tələs, gecikmək yaxşı xasiyyət deyil, illah ki, sənin kimi gözələ! Bu bəyaz paltar sənə çox yaraşır. Ah, mənim əziz balam, bu gün necə də yaraşıqlı görünürsən! Mixaylo, düz demirəm? Yaman dəyişib. Qızım artıq böyüyüb...

– Françişka, hansınızın daha gözəl olduğunu deməyə çətinlik çəkirəm!

– Söyləməsən yaxşıdır! Gəl birlikdə nahar edək, təzə, dadlı vetçinamız, əla şərabımız var. Bilirəm, Marina sənə yemək verməyib, gözlərindən görürəm ki, acsan! Sonra yataq otağını hazırlayaram. Bilmirdim ki, gələcəksən, yoxsa xidmətçi Leonaya tapşırardım. Məndən icazə alıb, bu gün nişanlısı ilə kinoya gedəcək. Mixaylo, bir saniyə gözlə, indi qayıdıram.

Marina məşqə gedəndən sonra Françişka yataq otağından kənarları krujeva ilə bəzədilmiş tünd-mavi xalatda çıxdı, əvvəlkindən də gözəl görünürdü. Mixaylo düşündü: “Allahın qüdrətinə bax! Hətta dahi rəssam da belə füsunkar qadın obrazı yarada bilməzdi!”

– Bilirsən, Françişka, insan nə qədər istedadlı olursa-olsun, təbii gözəlliyi dolğun əks etdirə bilməz! Sənə baxıram və ürəyimdən bir arzu keçir: icazə ver, portretini çəkim!

– Mixaylo, qədim tablolardakı kimi, məni çılpaq çəkmək istəyirsən? – Françişka gözlərini qıyıb, maraqla soruşdu. Mixaylonun duruxduğunu görüb səsinin tonunu dəyişdi: – Yox, yox, ürəyinə başqa şey gəlməsin! Sadəcə, yarı yanpörtü portret demək istəyirdim! – Sonra ani fikrə gedib əlavə etdi: – Amma çılpaq portretimi də çəkə bilərsən. Bilirsən, bədənimdə heç bir qüsur yoxdur, nədən utanmalıyam ki!

– Françişka, buna yüz faiz əminəm. Allah səni qüsursuz yaradıb, gözəlliyin də bir rəssam kimi məni heyran qoyur.

– Fikrin mənim üçün çox qiymətlidir, Mixaylo! De görüm, bir qadın kimi kənardan necə görünürəm?

– Sənin kimi bənzərsiz gözləri olan qadının içi də gözəl olmalıdır. Qədd-qamətin, bədən quruluşun, zərifliyin göz qamaşdırır. Əgər çılpaq rəsmini çəkməyə razısansa, bu, mənim üçün həyatım boyu unuda bilməyəcəyim böyük xoşbəxtlik olacaq. Düşündüyüm yalnız bir şey var: görən, bu gözəlliyi kətan üzərində canlı əks etdirə bilərəmmi?

– Ərim çılpaq bədənimə baxmaqdan, məni oxşamaqdan zövq alırdı. Tanrının bəxş etdiyi bu gözəlliyi paltar altında gizlədib ört-basdır etmək istəmirəm! Əgər bir rəssam kimi bu gözəllikdən ilham alacaqsansa, özümü xoşbəxt hesab edərəm!

– Gözəlliyin, həqiqətən, mənə zövq verir. Düzü, sənə valeh olmuşam! Yalnız hissiyyatsız adam bu gözəlliyi duymaya bilər. Məncə, qadın kişinin ehtiraslı baxışları altında daha da gözəlləşir, mum kimi əriyir, şirinləşir. Bilirsən, dünyada çirkin qadın yoxdur, sadəcə, gözəlliyi görüb qiymətləndirməyi bacarmayan kişilər var!

– Bəli, əziz Mixaylo, ehtiras məhəbbətin təməlidir! Eh, nə isə, bu şirin söhbətlər adamın başını elə qatır ki, hər şeyi unudursan. Sənə nahar söz vermişdim, ağzım söhbətə qızışıb, qarnı ac kişini hələ də süfrə başına dəvət etməmişəm! Qaldı tabloya, bu barədə sonra düşünərik...

Françişka dadlı xörəklər hazırlamışdı. Nahardan sonra Mixaylo süfrəni yığışdırıb qabları yumaqda Françişkaya kömək etdi. Tezliklə Marina da məşqdən qayıtdı. Sevinclə bildirdi ki, çıxışını hamı bəyənib, birnəfəsə tamaşanın qısa məzmununu danışdı, rolundan fraqmentlər səsləndirdi. Şam yeməyindən sonra Françişka hamını qonaq otağına səslədi. Masanın üstündə şampan şərabı və qara kürü vardı. Mixaylo kürünü görən kimi sevinclə soruşdu:

– Qara kürü hardan? Sən bilirsən ki, ən qiymətli qara kürü Azərbaycanda olur?

– Hə, Mixaylo, elə dadından bilinir ki, kürü sənin vətənindən gəlib. Həm də qutunun üstündə yazılıb!

Mixaylo kürünü çörəyin üstünə yaxıb dadına baxdı:

– Aman Allah, gözlərimə işıq gəldi! Bakımın, Xəzərimin qoxusunu aldım...

Gözü yol çəkdi. Xatirələr onu ağuşuna alıb apardı.

## XXIX

Mixaylo yaxınlıqdakı kilsədən ucalan zəng səslərinə oyandı. Alt qatdakı yemək otağına enəndə xidmətçi Leona ilə qarşılaşdı. Qarasaç və yumrusifət bu qız səhər yeməyi üçün süfrə açırdı.

– Marina xanım məktəbdə, Françişka xanım isə işdədir. Tapşırdılar ki, sizə salamlarını yetirim! – xidmətçi italyan dilində deyib qonağın üzünə gülümsündü.

– Leona, dünən kinoya getmişdin, hə? – Mixaylo da italyan dilində nəzakətlə soruşdu. Leona başı ilə təsdiqləyib Mixaylonun fincanına qəhvə süzdü. Qarabuğdayı qonaq xoşuna gəlmişdi. Fikri onda qalmışdı, qəhvənin fincandan daşıb töküldüyünün son anda fərqinə vardı. Bir-iki damcı Mixaylonun şalvarına sıçradı. Xidmətçi əl-ayağa düşdü, üzr istəyib salfetlə şalvarın dizini silməyə başladı. Amma Mixaylo imkan verməyib salfeti onun əlindən aldı və gülümsündü. Həyəcandan Leonanın səsi titrəyirdi:

– Ah, üzr istəyirəm, cənab Mikelancelo, amma mənə elə gəlir ki, şalvarı yumaq lazımdır, yoxsa ləkə qalacaq. Yaxşısı budur, çıxarın, yuyum. Xahiş edirəm, bağışlayın, təsadüfən oldu. Mümkünsə, bunu Françişka xanıma deməyin! Qəzəblənib maaşımı kəsər. Bu pulla üç nəfər güc-bəla ilə dolanırıq. Qoca atam var, anam da xəstədir...

– Əziz Leona, narahat olma, Françişka xanıma heç nə bildirmərəm. Qoy bu, ikimizin arasında qalsın. Səhər yeməyindən sonra şalvarımı dəyişərəm, sən də yuyub, ütü çəkərsən, razılaşdıq?

– Təşəkkür edirəm, cənab Mikelancelo! Siz necə də lütfkarsınız!

Mixaylo qəhvə içə-içə iki gün əvvəl baş vermiş hadisələri xatırladı. Marina hündürboy, cüssəli italyan zabitini gəzə-gəzə sahilin kimsəsiz yerinə gətirmişdi. Bu zabit sualtı donanmada xidmət edirdi. Marina və Mixaylo əməliyyata ciddi hazırlıq görmüş, zabitlə görüş yeri əvvəlcədən seçilmişdi. Zabitin qara, uzun saqqalı vardı – İtaliya donanmasında yalnız sualtı dənizçilərə saqqal saxlamağa icazə verilirdi. Marina ruhən yaradıcı qəlbli insan idi, ona görə də zabitə – Covanniyə guya xəstə ata barədə nağıl danışmadı, əvəzində başqa cəfəngiyyat uydurdu. Dedi ki,

evdə balaca pişik balası var, onu yedirdəndən sonra zabitlə birlikdə gecə klubuna gedib əylənə bilər. Fəhlə məhəlləsindəki kimsəsiz yerə gəldilər. Marina mənzillərdən birini göstərib guya burada yaşadığını söylədi və Covannini qucaqladı. Dənizçi elə məst olmuşdu ki, Marinadan başqa heç nə görmürdü. Mixaylo da fürsətdən istifadə edib xəlvətcə arxadan yaxınlaşdı və ağır linglə zabiti başından vurdu. Zərbəni elə məharətlə endirdi ki, açıq yara əmələ gəlməsin, dənizçi forması qana bulaşmasın. Bu geyim Mixayloya növbəti əməliyyat üçün lazım idi. Zabiti soyundurandan sonra Marina ilə köməkləşib cəsədi dənizə atdılar. Dalğalar şahə qalxıb sahilə çırpılırdı, dəniz səhərdən təlatümlü idi. Görünür, dəniz də davanın ağrı-acısından, sahilində baş verən qanlı hadisələrdən, sulara gömülən insan cəsədlərindən bezmişdi...

“Deyəsən, gecə güclü qasırğa olacaq”, – Mixaylo düşündü. Şimal küləyi güclənmişdi, şəhərin dar küçələrindən fərqli olaraq, sahildə yerimək çətin idi. Mixaylo Triestdə keçirdiyi yarım il ərzində hava proqnozunu əvvəlcədən dəqiq müəyyən etməyi öyrənmişdi. Bu, təxribat əməliyyatı planlaşdıranda köməyinə gəlirdi. Hərdən düşünürdü ki, havanı idarə etməyi öyrənən adam döyüş meydanını tam nəzarət altında saxlaya bilər. Şübhəsiz, Mixaylo havanı idarə edə bilmirdi, ancaq daim müşahidə aparır, təbiətin qanunauyğunluqlarını öyrənir, əməliyyatı planlaşdıranda bu təcrübədən istifadə edirdi.

– Məncə, atmosfer təzyiqi düşüb, evdə barometrlə yoxlayarıq. Bizə gedirik, ya yox? – Marina soruşdu.

– Növbəti əməliyyata üç gün var. Bu vaxta qədər hardasa qalmalıyam. Sizə də gedə bilərəm.

– Əlbəttə, bizə gedək. Anam çox sevinəcək. Sənə böyük hörməti var. Deyir, alicənab adamdır. Bilirsən, belə sözləri onun dilindən həmişə eşitmək olmur. On ildə bir dəfə kimisə tərifləyə bilər. Deməli, həqiqətən, xoşuna gəlmisən. Məni hesaba alma, səni görən gündən vurulmuşam. Bu cəhətdən, yəqin, anama oxşamışam.

...Mixaylo fincandakı qəhvəni dibinə kimi içib düşündü ki, əməliyyata hazırlıq üçün ayırdığı üç gün başa çatdı. Düz üç gün idi ki, Marinagildə qalırdı.

“Bəlkə, Olqa məni Kazanova adlandıranda yanılmamışdı”, – Mixaylo qonaq otağında oturub düşünürdü. Qulluqçu Leona mətbəxdə nahar hazırlamaqla məşğul idi. Mixaylo gülümsündü. “Yuxudan gec oyanmaq da bir şey deyil. Səhər yeməyini qaçırdım, nahara da xeyli qalıb, deyəsən, əməlli-başlı acmışam!”

Düşüncələr onu rahat buraxmırdı: “Bakıda sevgi macəralarından uzaq dururdum. Bura isə bir başqa aləmdir. Oturub-durduğum bu

qızlar barədə Bakıdakı dostlarıma danışsam, deyəcəklər ki, Mehdi özündən uydurur. Hələ üstəlik, məsləhət də verəcəklər: sevgi macəralarını qələmə al! Amma bizim istəyimizdən asılı olmayaraq, həyat belə macəralarla zəngindir. Hamısı da fərqli, bir-birinə bənzəmir. İnsan təxəyyülü onun əqli və mənəvi bacarığı hüdudlarında dövr edir. Gerçək həyat səni elə sürprizlərlə üz-üzə qoya bilər ki, uzun müddət nə baş verdiyini anlamaqda çətinlik çəkərsən. Yer üzündəki həyat insan üçün bir sınaqdır; həyat öz qapılarını hamının üzünə açır, amma hər adam cürət edib bu qapılardan keçə bilmir. Həmçinin ömrün bəxş etdiyi nemətlərdən dadmaq da hər insana nəsib olmur. Yerli müqavimət hərəkatının sıralarında ürəyi geniş, açıq qəlbli, yenilməz ruhlu mərd adamlara rast gəldim. Sloveniyada yaşayan bu insanlar mənə qardaş münasibəti göstərdi, onları bacarıqlı və mərd döyüşçü, düşmənə baş əyməyən vətənpərvər insan kimi tanıdım. Əmin oldum ki, torpaq və dost uğrunda canlarından keçməyə hazırdırlar. Bir azərbaycanlı kimi mən də borclu qalmaram. Bir gün, yəqin, bu şanlı xalqın azadlığı və xoşbəxt gələcəyi uğrunda tərəddüd etmədən canımı qurban verəcəyəm. Ey qadir Allah, sənə yalvarıram, almanlara əsir düşməyimə imkan vermə, qoy döyüşdə şərəflə, kişi kimi ölüm! Az da olsa möhlət ver, qoy həlak olmuş yoldaşlarımın qisasını alım! Haqq dünyasına gedəndə ürəyim rahat olsun!" Mehdi qəlbində nəsə bir yüngüllük duydu, sanki göylərdə səsini eşidib ona xeyir-dua göndərmişdilər...

Mixaylo qərara aldı ki, bugünkü əməliyyatdan sonra Sosiçin evində gecələsin, həm də Miryam üçün darıxmışdı. Ertəsi gün dağlara, partizan bazasına qayıdıb təxribatçı qrupla birlikdə bir neçə əməliyyat planı hazırlamalı idi.

Uzun fasilədən sonra düşmən Sahilyanı diyarın bütün ərazilərində reydlər aparmağa başladı. Məqsəd iri partizan birləşmələrini aşkara çıxarıb məhv etmək idi. Faşistlər kəndlərə od vurur, adamları güllələyir, talançılıqla məşğul olurdu. Düşməni geri oturtmaq üçün partizanlar bütün qüvvələri səfərbər etmişdi. Komandanlıq təxribat əməliyyatlarına böyük ümid bəsləyirdi. Reydə çıxmış alman dəstələrini nəyin bahasına olursa-olsun, geri, öz qarnizonlarına çəkilməyə məcbur etmək lazım idi. Düşmənin Triest və ətraf ərazilərə genişmiqyaslı hücumunu nəzərə alan Mixaylo rəhbərlikdən kömək məqsədilə əlavə canlı qüvvə istədi. Onun xahişinə əsasən, dəstəyə on iki bacarıqlı döyüşçü göndərdilər. İndi Mixaylo tabeliyində olanları altı çevik qrupa bölə bilərdi, bununla da hər təxribatçıya iki köməkçi düşürdü. Beləliklə, dəstə eyni zamanda altı nöqtədə mina yerləşdirə bilərdi. Təxribatçılar İngiltərə istehsalı olan minalarla təchiz olunmuş, dəstəyə iki yük maşını təhkim edilmişdi.

Mixaylo əməliyyatları Tsar ilə birlikdə hazırlamışdı. Düşmənə beş gün ərzində bir-birindən aralı on nöqtədə altmışdan çox zərbə endirilməli idi.

**XXX**

Mixaylo almanlara yaxşı bələd idi və başa düşürdü ki, alman hərbi formasında fotoşəkli onların əlində olduğu üçün görkəmini dəyişmədən şəhərdə gəzə bilməz. Bu səbəbdən İtaliya sualtı donanmasının zabiti formasını geyib saqqal və bığını uzatmaq qərarına gəldi. Marina onun bığ-saqqalını tünd-qəhvəyi rəngə boyayandan sonra Mixaylo tanınmaz hala düşdü. Sonra saçlarını dibindən qırxdırıb başını daz elədi, Françişka isə müvəqqəti taxmaq üçün ərindən qalmış eynəyi verdi. İndi daz və eynəkli gənci heç anası da tanımazdı. Seyidovla Triestin baş meydanında – Oberdanda görüşəndə də dostu çaşbaş qalıb onu çətinliklə tanıdı. Seyidov alman zabiti formasında idi, əlində də böyük qəhvəyi çanta vardı. Bu təxribat onların son müştərək işi idi və Seyidov bir qədər pərt görünürdü. Ona elə gəlirdi ki, qərargahda tərcüməçi olmağa razılıq verməklə dostuna xəyanət edib. Fikirləşirdi ki, Mehdi özünü daim təhlükəyə atacaq, o isə qərargahda, təhlükəsiz yerdə oturub kağızların arasında eşələnəcək, hadisələri kənardan müşahidə edəcək. Digər tərəfdən, bilirdi ki, Mixaylo onun bu qərarından inciməyib, qərargahda çalışmağına razıdır. Seyidov bunu düşünəndə ürəyi sakitləşdi, özünü danlamaqdan vaz keçdi. Amma qət elədi ki, yenə də ən çətin anda Mixaylonun yanında olacaq!

– Hörmətli “kapitano”, indi mən olmayanda səni kim qoruyacaq? – Seyidov dostundan zarafatyana soruşub farağat dayandı və hərbi salam verdi.

– Onsuz da, davanın bitməyinə az qalıb, o vaxta qədər Allah kərimdir, Yaradan səni də, məni də hifz edər, cənab leytenant Şröder, – Mixaylo almanca cavab verdi.

Adam yanında onlar bir-birinə saxta şəxsiyyət vəsiqələrində yazılmış adla müraciət edirdi. Küçədə, xüsusən də qələbəlikdə ehtiyatı əldən verməK olmazdı. Kim bilir, yanından ötən, yaxud bir kənarda dayanıb siqaret çəkən adam hansı yuvanın quşudur? Mixaylo Kruşinoda, kəşfiyyatçılar üçün təlim mərkəzində divardan asılmış plakatı xatırladı: “Yerin də, göyün də qulağı var. Düşmən sayıqdır, hər an səni dinləməyə çalışır. Bunu unutma!” Mixaylo dram aktyoru kimi çoxdan anlamışdı ki, bütün varlığınla rola girib bilik və bacarığını ortaya qoymalı, sonadək oynamalısan! Marina ilə məhv etdikləri sualtı donanma zabiti bəstəboy olduğu üçün onun hərbi forması Mixayloya dar idi. Marina şalvarın

tikişlərini söküb bir-iki santimetr genişləndirmişdi. Mixaylo sualtı qayığın zabitləri kimi boynunu qabağa uzadıb gəzirdi, adətən, qayığın dəhlizləri hündür olmadığı üçün dənizçilərdə belə vərdiş yaranır. Mixaylo sualtı dənizçilərin bir vərdişinə də əməl etmişdi: evdən çıxanda üst-başına Françişkanın mərhum ərinin tünd odekolonundan səpmişdi. Dənizçilərdə belə bir inanc var ki, tünd qoxu şər qüvvələrdən qoruyur! Seyidov odekolonun qoxusunu burnuna çəkib soruşdu:

– Əziz dost, deyəsən, odekolonun təzədir axı? Nəsə qeyri-adi şeydir, bu qoxu insanı tank kimi əzib keçər!

– Hörmətli Şröder, biz italyan zadəganları yaxşı bilirik ki, qadın burnu ilə sevir, yəni əvvəl qoxulayır, sonra vurulur! Hiss üzvləri bilavasitə cinsiyyət orqanları ilə bağlıdır. Bunu hərbi əsirlər üzərində təcrübə aparan bizim şanlı həkimlərimiz kəşf edib!

– Hə də, siz italyanlar üçün hər şeyin sonu cinsiyyət orqanlarının məmnunluğu ilə bitir, düz demirəm?

– Baxır harda, nə vaxt! Ancaq cənnət ləzzətini duymaq üçün heç də italyan olmağa gərək yoxdur...

Onlar şübhə doğurmamaq üçün zarafat edə-edə gedirdilər. Seyidov çantanı sol, Mixaylo isə sağ əlində tutmuşdu. Xiyabanı keçib gur lampalarla işıqlandırılmış küçəyə çatdılar və dəbdəbəli pilləkənin qarşısında ayaq saxladılar. Bura Triestin ən məşhur kazinosu idi və həmişə müştəri ilə dolu olurdu. Girəcəkdəki pilləkənin önündə dayanmış lakeylər zabit formasında gəlmiş müştəriləri görən kimi təzim edib Roma kənizlərinin rəqsini təsvir edən qızıl oymalarla bəzədilmiş ağır qapıları açdılar.

Mixaylo dedi:

– Bu qızıl oymaların gözəlliyinə bax, adamın partlatmağa heyfi gəlir!

Kassaya yaxınlaşdılar, Mixaylo döş cibindən bir dəstə pul çıxarıb jetona dəyişdi. Seyidov da oynamaq üçün xeyli jeton aldı.

Mixaylo əvvəllər bu kazinoda olmamışdı, binanın daxili quruluşunu, istinad divarlarının yerini, giriş-çıxışları çertyojdan öyrənmişdi. Kazinonun çertyojlarını Darko gətirmişdi, Mixaylo da düşünmüşdü ki, zalım oğlunun əli hər yerə girir! Mixaylo otaqları diqqətlə nəzərdən keçirib mina dolu çantalar üçün müvafiq yer tapmalı idi. Bir gün əvvəl təxribatçıların köməkçiləri kazinodakı yanğınsöndürən balonları dəyişmiş, yeni balonlara partlayıcı maddə doldurmuşdular. Bu işi Bukovitsada yaşayan Mleçnikin ərik bağında görmüşdülər. Rabitəçi və kəşfiyyatçılar fəhlə kombinezonu geyinib, balonları Triestə gətirib xəlvətcə əvəzləmişdilər. Kazino binası böyük idi, partlayışın effektli

alınması üçün xeyli mina tələb olunurdu, ona görə də dostlar özləri ilə üç zabit çantasında əlavə mina və detonator gətirmişdi.

Təxribat əməliyyatının son mərhələsində Frits də iştirak edirdi. Tanınmamaq üçün alman pilotu formasını geyinib, içi partlayıcı ilə dolu üçüncü çanta ilə kazinoya gəlmişdi. Üç çantadakı minalar partlayanda zərbənin təsirindən balonların içində gizlədilmiş detonatorlar da işə düşəcəkdi.

Mixaylo əməliyyatdan əvvəl Seyidov və Fritsə hər şeyi ətraflı izah etmişdi. Seyidov ruletka fırlanan masaya yaxınlaşıb oyuna qoşuldu, Mixaylo isə bir qədəh şampan şərabı götürüb yavaş-yavaş kazinonu gəzməyə, ətrafa diqqətlə nəzər salmağa başladı. Çantasını Seyidovun oynadığı masanın yanına qoymuşdu. Kazinoda doqquz oyun zalı vardı, xidmət personalına da bir neçə yardımçı otaq ayrılmışdı. Mixaylo çertyojlara baxanda istinad divarlarının yerini müəyyən etmişdi, ona görə də çantaları hara yerləşdirməyi bilirdi. Detonatorların üçü də eyni vaxtda – gecəyarısı, müştərilərin ən sıx olduğu saatda işə düşməli idi.

Partlayışa xeyli vaxt qaldığı üçün Mixaylo çanta yerləşdirdiyi hər zalda bir az qumar oynadı. Pul qoysa da, diqqətini oyun üzərində tam cəmləşdirə bilmirdi, fikri çantaların yanında qalmışdı: onları necə yerləşdirsin ki, təsadüfən müştərinin, yaxud qarsonun ayağına ilişməsin?

* * *

– Pullar qoyuldu, cənablar! Oyun başladı! – qara smokinq geymiş krupye ucadan deyib, gümüş kürəciyi ruletə atdı, o da fırlana-fırlana xanalardan birinin üstündə dayandı.

– Qara xana, 33 nömrə uddu! Təbrik edirəm, cənab kapitan! – krupye xanaların üstündəki jetonları sıyırıb saqqalı zabitin – sualtı donanma kapitanının qarşısına qoydu. Zabit dalğın idi, jetonlara əhəmiyyət vermədi. Krupyenin baxışlarından isə qəribə sual oxunurdu: xeyli pul udmuş bu zabit niyə sevinmir? Kapitan krupyeyə çaypulu kimi bir neçə jeton verdi. Həqiqətən, rulet fırlananda Mixaylonun fikri başqa yerdə idi, bir anlığa unutmuşdu ki, bura oynamağa yox, təxribat törətməyə gəlib.

“Tale çaparaq at kimidir, gözləmir. Həyatımı borc almışam, mənə ayrılmış vaxt getdikcə daralır. Həyat qumara, xalis oyuna bənzəyir, biz, Allahın verdiyi ən qiymətli neməti – həyatımızı qumara qoyuruq. Deməli, həyat ölüm-dirim oyunudur. Davada əsgərin həyatı sanki qumara çevrilir. Burada bir göz qırpımında ya böyük uduş sahibi ola bilərsən, ya da hər şeyi, hətta öz həyatını da itirərsən!”

Mixaylo qumarı sevmirdi. Ona aludə olanlara yazığı gəlir, əyyaşa bənzədir, xəstə hesab edirdi. Bakıda belə adamlara çox rast gəlmişdi. Oyun masalarının ətrafında fırlanıb qızğın qumara girişmiş nasistlər isə Mixayloda ikiqat ikrah doğururdu. Kazinoya yalnız yüksək rütbəli zabitləri buraxırdılar. Himmlerə sui-qəsdin baş tutmadığı həmin o qara günü unuda bilmirdi. Bu hadisədən sonra and içmişdi ki, ilk növbədə, əsgərləri yox, alman zabitlərini qıracaq və bu addım faşistlərlə apardığı mübarizəyə böyük töhfə olacaq. Qumardan zəhləsi gedirdi, tanış-bilişin qumar oynayıb necə var-yoxdan çıxdığını, müflisləşib məhv olduğunu görmüşdü. Düzdür, partizanlar asudə vaxtlarında Mixaylonun yanında hərdən kart oynayırdı, amma qumardan, puldan söhbət gedə bilməzdi.

Mixaylonun cibində çoxlu pul vardı – Darko vermişdi. Triest yaxınlığında keçirdikləri əməliyyat zamanı içi silah, ərzaq və pulla dolu yük maşınını ələ keçirmişdilər. Ertəsi gün pulların bir hissəsini Mixayloya verəndə Darko demişdi:

– Bu pullar xərclikdir. Ömrüm boyu sənin kimi igid adama rast gəlməmişəm, həmişə qulluğunda hazıram. Bizim üçün çox dəyərlisən, almanlar başına böyük pul qoyub, amma hesab edirəm ki, qiymətin yoxdur! Triestdə sənin kimi bir-iki nəfər olsaydı, briqadanın gəlişini gözləmədən şəhəri faşistlərdən özümüz xilas edərdik. Amma inanmıram ki, briqada vaxtında yetişsin. Gələn yaz dava qurtaracaq, bu sözlərimi yadında saxla. İndi bu puldan nə qədər lazımdırsa, xərclə, qalanı müharibədən sonra gərəyin olar.

Mixaylo əvvəlcə pulları götürmək istəmirdi, amma düşünəndə ki, Darko onun komandiridir, hədiyyəni qəbul etdi. Onsuz da, Mixaylo pulları bu gün də olmasa, sabah ehtiyacı olanlara paylayacaqdı. Vaxtilə Bakıda qaraçı qadın falına baxanda demişdi ki, şöhrət tapıb varlanandan sonra öləcəksən. Bu sözlər yadından çıxmırdı, ona görə də pulu görən gözü yox idi. Amma taledən qaça bilməzsən, şöhrət özü gəlib onu tapmış və Mixaylo da bu şöhrəti məmnunluqla qəbul etmişdi. Hədiyyə və qayğıya görə Darkoya minnətdar idi. Birlikdə gizli iş aparırdılar, onu kiçik qardaşı kimi sevmişdi və hər işdə komandirə bel bağlayır, yaxın dostu və müttəfiqi hesab edirdi. Marina və Miryamla tanışlıq da Darkonun vasitəsi ilə baş tutmuşdu və Mixaylo buna görə komandirinə minnətdar idi. Hər ikisi qarşılıqlı səmimi münasibətlərdən faydalanırdı.

Mixaylonun aləmə səs salmış təxribatları Darkonun komandiri olduğu Triest partizan qruplaşmasının şöhrətini ikiqat artırmışdı. Darko qərargaha Mixaylonun qüsursuz xidmətə görə təltif olunması barədə təklif göndərmiş və indi də səbirsizliklə cavab gözləyirdi.

...Krupye onun qarşısına çoxlu jeton qoyanda anladı ki, xeyli pul udub. Bu, sualtı donanma zabitinin bir ildə qazandığından da çox idi. Şübhə yaratmamaq üçün krupyeyə xeyli çaypulu verib, qalan jetonları cibinə basdı, qalxıb digər oyun zalına keçdi. Fritsin başı “Bakkara” adlı oyuna qarışmışdı, kartları hərisliklə təzələyirdi, qarşısında xeyli jeton vardı.

Mixaylo da oyuna qoşuldu, amma altdan-altdan zalı gözdən keçirirdi. Oyun masalarının arxası alman zabitləri ilə dolu idi. Düşünəndə ki, bir saat keçəcək və partlayışdan sonra bu faşistlərin izi-tozu da qalmayacaq, hədsiz dərəcədə sevindi, ancaq hisslərini büruzə vermədi. Fritsə xəlvəti işarə ilə çantanı hara qoymağı göstərib pıçıldadı:

– Onları qarışqa kimi əzəcəyik!

Seyidov kartda udduğu jetonları götürüb rulet oynanılan zala keçdi. Burada beş oyun masası vardı, siqaret tüstüsündən göz-gözü görmürdü. İtalyan və alman zabitləri şampan içə-içə ucadan danışır, qəhqəhə çəkirdi. Bəzisi oyuna elə həvəslə girişmişdi ki, hətta hərbi təlimatı unudub qalstukunu boşaltmış, formanın düymələrini açmışdı. Qadınlar gözə dəymirdi, bu, Seyidovun xoşuna gəldi, qadın öldürməyi kişi işi saymırdı. Ömründə ilk dəfə idi ruletka oynayırdı. Qaydaları bir neçə gün əvvəl Mixaylo başa salmışdı. Seyidovun bəxti gətirirdi, xeyli pul udmuşdu. Qəribə oyun tərzi seçmişdi: jetonları yalnız 19-cu xananın – Bakıda qoyub gəldiyi sevgilisi Emmanın ad gününü bildirən rəqəmin üstünə qoyurdu. Mixaylo da masa arxasına keçib yanında oturdu, qara jetonları dörd müxtəlif xanaya yerləşdirib dərhal uduzdu. Yenə oynadı, bayaqdan udduğu və girişdə kassadan aldığı jetonların hamısı əlindən çıxdı. Əslində, jetonları kassada yenidən pula dəyişmək üçün vaxt itirmək istəmirdi, həm də kimsə onu görüb tanıya bilərdi. Uduzduqca gözlərini qıyıb uğunurdu. Ortalıqda gəzən gülərüz qadın qarsonların əlində kiçik sini vardı – pulsuz siqar və içki təklif edirdilər. Mixaylo da siqar çəkib şampan içdi. Sonra baş barmağını Seyidova göstərdi. Bu, iki nömrəli plana başlamaq üçün işarə idi. Seyidov yerdəki çantanı ayağının ucu ilə masanın altına itələdi. Burada çanta kimsənin diqqətini cəlb edə bilməzdi. Sonra qalxıb zalı sakitcə tərk etdi.

Mixaylo əvvəlcədən müəyyən etdiyi istinad divarının qarşısına gəlib çantanı dekorativ çiçək basdırılmış dibçəyin arxasına qoydu və ikinci zala qayıtdı – buradakı dibçəyin daha böyük olduğu diqqətindən yayınmadı. Mixaylo gözlədi ki, hamının başı qumara qarışsın, ona fikir verən olmasın, çünki masadakı xanaların üstünə çoxlu jeton qoyulmuş və qızğın oyun başlanmışdı. Fritsin gətirdiyi çantanı sakitcə dibçəyin arxasına qoyub heç nə olmamış kimi pulsuz siqarlardan birini yandırdı

və kazinonun çıxış qapısına yollandı. Gecəyarısına on dəqiqə qalmışdı, minalar tezliklə partlayacaqdı. Çıxışda azacıq ləngidi, çünki kənara çəkilib kazinoya girən bir qrup yüksək rütbəli alman zabitinə yol verməyə məcbur oldu. Üstəlik, ölümə tələsən bu adamları böyük məmnuniyyətlə, hərbi təlimata uyğun salamladı.

Binadan çıxandan sonra addımlarını yeyinlətdi. Əldə ağır çanta olmayanda yürümək asandır! Əməliyyatı uğurla başa vurduğu üçün sevinirdi. Seyidov və Fritslə şərtləşmişdi ki, kazinonu ayrı-ayrılıqda tərk etsinlər. Partlayışa beş dəqiqə qalmış Mixaylo tələsik Oberdan meydanından, ciddi mühafizə olunan SS qərargahının yanından ötüb slovenlərin yaşadığı məhəlləyə yollandı. Aşxanada paltarını dəyişib qaranlıq küçələrlə Sosiçgilə getməyi düşünürdü. Aşxananın qapısına çatanda güclü partlayış səsindən yer-göy titrədi, ətraf binaların pəncərə şüşələri çilik-çilik oldu. Dönüb kazinoya tərəf baxdı, alov şahə qalxırdı...

* * *

Qapını Sosiç açdı, Mixaylonu görəndə gülümsündü, qolundan tutub içəri dartdı və tez qapını örtüb qıfılladı.

– Şəhərdə partlayış baş verirsə, deməli, Mixaylo hardasa yaxınlıqdadır! Dostum, yenə faşistlərə qan uddurdun? Bunu mütləq qeyd etmək lazımdır! Əməliyyatın şərəfinə vurmalıyıq! Arvadımın ölən günüdür, içək ki, ruhu şad olsun! Bu gecə cəhənnəmə gedən faşistlərə uğurlu yol diləmək lazımdır, ya yox? Yoxsa küsərlər! Gedək, boğazımızı yaşlayaq! Tonino əla balıq gətirib, diri idi, tavada qızardanda atılıb-düşürdü. Deyir, iki saat əvvəl tutmuşam. Barmaqlarını yalayacaqsan! – Sosiç qonağın qoluna girib otağa dartdı. Mixaylo da dostunu səmimi qucaqladı.

Miryam gəlib Mixaylo ilə görüşdü. Bir neçə dəqiqə əvvəl partlayış səsini eşidəndə Mixaylonu düşünmüşdü. Əslində, sevdiyi bu gənc səhərdən bəri gözünün önündən çəkilmirdi. Budur, canlı Mixaylo, gözlənilmədən peyda olub. Onu sağ-salamat görəndə ürəyində Tanrıya şükür edib düşündü ki, Yaradan dualarını eşidib. Hər axşam iki şam yandırırdı – biri anasının ruhuna, digəri isə qəhrəman Mixayloya – qəlbini fəth etmiş ən əziz adama görə!

İçindən bir istək keçdi: Mixaylonu bağrına basıb öpmək! Ancaq atasının yanında buna cürət edə bilməzdi. Sosiç bu iki sevgili göyərçinə kənardan baxanda qəlbi fərəh hissiylə doldu.

– Ah, Mixaylo, axır ki, gəldin! – Miryam cingiltili səslə dillənib gülümsündü.

– Hə, Miryam, gördüyün kimi, yenə sizə qonağam, – Mixaylonun baxışlarından məhəbbət süzülürdü, gülüb Sosiçə baxdı. Ev yiyəsi dedi:

– Gəlin, əvvəlcə əziz qonağımızın uğurları şərəfinə badə qaldıraq! Hə, Mixaylo, iç! Amma qurtum-qurtum yox, birnəfəsə, dibinə kimi!

Sosiç bir əlində şərab şüşəsi, digərində stəkan tutmuşdu.

Tünd şərabdan dalbadal iki stəkan vurdular. Mixaylo şərabın təsirini dərhal hiss etdi. Hələ də uğurla başa çatmış əməliyyatın təəssüratı altında idi. Stəkanı qaldırıb dedi:

– Yaxşı adamların beynəlmiləl qardaşlığı şərəfinə! Sloven partizanları və fəallarının sağlığına! Faşizmə ölüm!

Ata və qız kilsədəki kimi, bir ağızdan “amin” deyib stəkanı qaldırdı:

– Xalqın azadlığı naminə!

Sosiç stəkanları doldurdu və hər üçü qızardılmış balığa girişdi. Mixaylonun iştahası açılmışdı, həm də balıq çox dadlı idi. Adətən, təxribat əməliyyatından dərhal sonra çox yemirdi. Miryamı öskürək tutdu, deyəsən, boğazında balıq tıxı qalmışdı. Mixaylo onun kürəyinin ortasını döyəclədi, qızın öskürəyi dərhal kəsildi.

– Təşəkkür edirəm, Mixaylo! Məni ölümdən qurtardın! Bilirəm, düşmənin nəfəsini kəsməkdə mahirsən, amma həyat bəxş etmək bacarığından xəbərim yox idi!

– Bəzən həyatı xilas etmək üçün öldürmək lazım gəlir. Bu, ziddiyyətli səslənsə də, müharibə özlüyündə böyük ziddiyyətdir! Düşünün, davada döyüşən tərəflər haqq işi uğrunda mübarizə apardığına əmindir, bu məqsədlə ölümə getməyə, başqalarını məhv etməyə hazırdır. Əslində, hər iki tərəf yanılır, gerçəkliyi anlamır, ya da başa düşmək istəmir! – Mixaylo filosof kimi danışdı.

– Dediklərində bir həqiqət var. Məlum məsələdir ki, haqq-ədalət nə bizim, nə də nasistlərin tərəfindədir. İyirmi ildən çoxdur, bu gerçəkliyi dərk etmişəm. “İl Piccolo” qəzetinin sabahkı nömrəsini böyük səbirsizliklə gözləyirəm. Amma inanmıram ki, bu təxribatdan tutarlı bir şey yazsınlar. Qəzet əvvəllər böyük formatda çıxırdı, dava başlayandan cəmi dörd səhifə olub. Həm də alman Baş Qərargahının rəsmi məlumatlarını, Gebbelsin yalan-palanını, Hitlerin nitqlərindən fraqmentləri o qədər geniş verirlər ki, xəbərlərə yer qalmır, ancaq elanlar dərc edilir. Qəzet altmış ildən çoxdur çıxır, həmişə slovenləri təhqir edib, italyan şovinizmini isə göylərə qaldırıb.

Mussolini hakimiyyəti ələ keçirən gündən “İl Piccolo” faşist nəşrinə çevrilib. Elə bu gün də məramını dəyişməyib. Sadəcə, indi Qloboçnik və Raynerin ruporu olub. Nəşrin Via de Sante Maggiore de la Croce küçəsində yerləşən redaksiya binası partladılmışdı, məncə, qəzet heç bu barədə də yazmadı, – Sosiç başını buladı.

– Bu sərsəm qəzetçiləri qınama, yeni redaksiya binası və mətbəə tapana kimi xəbər köhnəlib, ona görə də dərc etməyiblər, – Mixaylo

istehza ilə güldü. Bilirdi ki, söhbət yavaş-yavaş gəlib Triestdəki son təxribat əməliyyatının üstünə çıxacaq. Ancaq qərara gəlmişdi ki, bundan sonra şəhərdə təxribat törətməsin, çünki Mixaylonu burada artıq tanıyırdılar və həbs edə bilərdilər. Pemts xəbərdarlıq etmişdi ki, hər dəfə eyni taktikadan yararlanmaq təhlükəlidir, ona görə də kazino əməliyyatından sonra şəhərdən uzaqlaşmaq lazımdır. Pemts demişdi:

– Yarım ildir Triestdə faşistlərin yuxusuna haram qatmısan, onlara verdiyin ziyandan danışmıram. Amma hər şeyin həddi var, Mixaylo, bizim üçün çox qiymətlisən, səni qorumaq borcumuzdur. Triesti bir neçə aylığına tərk edib gizli fəaliyyətə keçməyini məsləhət görürəm. Dəfələrlə müşahidə etmişəm, sən olmayanda iş getmir. Demirəm ki, uşaqlar tənbəldir, əllərindən heç nə gəlmir, ancaq Tsar cavandır, təcrübəsizdir. Müharibəni hərtərəfli dərk etmir, təxribatçıların ilk növbədə hərbi obyektlərə hücum etməli olduğunu anlamır. Bütün diqqətini, səyini düşmənin ərzaq və silahını ələ keçirməyə yönəldib. Hərçənd bunu Tsara mən öyrətmişəm, o vaxtlar ərzaq sarıdan korluq çəkirdik, əsgərlər acından ölürdü. İndi təchizat yüksək səviyyədədir, müharibə də son fazasına qədəm qoyub. Deməli, əsas vəzifə hərbi obyektlərin dağıdılması olmalıdır. Tsardan fərqli olaraq, sən bunları yaxşı başa düşüb dəstənin işini lazımınca tənzimləməyi bacarırsan. Açığı, dəstə Tsarın rəhbərliyi altında təxribat qrupunu yox, intendant bölüyünü xatırladır. Tsarın tabeliyində olan əsgərlər şücaət göstərir, bunu danmaq günah olardı. Ancaq düşmənin ərzaq və silahını ələ keçirdikləri üçün onlarda, necə deyərlər, müvəffəqiyyətdən başgicəllənmə yaranıb. Unudublar ki, əsas məqsəd faşistlərin məhv edilməsidir. Rəhbər gərək zəiflik göstərməsin, xahiş edirəm, dəstəyə diqqəti artır, təcrübəni öyrət! Təxribat üçün obyekt seçməkdə uşaqlara kömək et. İndi Sahilyanı ərazilərdə hara baxsan, faşist dəstələrini görmək mümkündür. Düşmənin aramsız hücuma keçdiyi bir vaxtda hərbi obyektlərin mühafizəsi zəifləyib. Bu fürsətdən istifadə etmək lazımdır.

...Sosiçlə söhbətdən sonra Mixaylo komandir Darko ilə məsləhətləşməyi qərara aldı. Məqsəd Seyidovun iştirakı olmadan, qəzet redaksiyasında təxribat törətmək idi, bu işdə Sosiç yardım edə bilərdi, hətta yemək zamanı onun razılığını da aldı.

Miryam atasına görə narahat olub dərhal öz köməyini təklif etdi:

– Atamın dava-dava oynamaq vaxtı çoxdan ötüb. Mixaylo, icazə ver, mən kömək edim. Bilirsən ki, qadın qol qoyan işə zaval yoxdur! Sən qadınları zəif bilmə, daxilimizdə aslan gücü var! Sənin anan zəif qadın olsaydı, dünyaya Mixaylo kimi igid övlad gətirə bilərdimi? Qadının zəifliyindən yalnız ağılsızlar dəm vurur!

– Miryam, səninlə tam razıyam. Qadınların gücünə və mətanətinə həmişə inanmışam. Ancaq yaxşı olardı, təxribata hazırlıq işində mənə atan kömək etsin. Söz verirəm, onu təhlükə altında qoymaram. Hər şey gecə baş verəcək, sənin kimi sözəbaxan, ağıllı qızlar bu zaman mışıl-mışıl yatıb yuxuda ağ atlı şahzadə görür. Sonra da şahzadə onu tərkinə alıb qədim qəsrə aparır. Cəsarətinə və kömək təklifinə görə dərin təşəkkürümü bildirirəm. Ancaq bu təklifdən boyun qaçırmağa məcburam. Unutma, komandir olduğum üçün qərarı mən verirəm. Amma sənin də toxunulmaz hüququn var: əgər hesab edirsən ki, atan qocalıb, ona icazə verməyə bilərsən!

– Xahiş edirəm, söz güləşdirməyin, bəyəm ölmüşəm ki, mənim əvəzimə danışırsınız? Başımın dazlığına baxmayın, ağıl dişim çoxdan çıxıb. Tanrıdan başqa, kimsə mənim əvəzimə qərar verə bilməz! Hər şey Yaradanın əlindədir! Əgər şəxsən qəhrəman Mixaylo, daha doğrusu, sənin Mixaylon... – Miryam qulaqlarına qədər qızardı, amma Sosiç gülümsünüb özünü görməməzliyə vurdu, – məni səsləyirsə, etiraz etməyə haqqım yoxdur!

– Hə, deməli, razılaşdıq! Təxribat planını birlikdə hazırlayarıq, Darko isə təchizatla məşğul olar: məsələn, kəşfiyyat məlumatları, mina və sair.

Sosiçin təxribat əməliyyatında iştirakı Miryamın könlünü açmadı, atasına görə bərk narahat idi. Necə olursa-olsun, özü də bu işə qoşulmaq, Mixayloya daha yaxın olub onun fəaliyyətini bilavasitə izləmək istəyirdi. Mixaylonun onlara yalnız əməliyyat hazırlayarkən gəlməsi, təxribatlar barədə kəlmə də kəsməməsi ürəyindən deyildi. Ancaq əməliyyat planının hazırlanması prosesi Miryama çox maraqlı görünürdü. Bilirdi ki, bunun üçün Mixayloya cəmi bir neçə gün kifayət edər. Deməli, həmin müddət ərzində sevdiyi adamın yanında olub səsini eşidəcəkdi...

## XXXI

Mayor Razoumek Sloveniya sahillərinə səfər zamanı kapitan Virtsbuxtelin yanına yollandı. Onun kabineti Triest şəhər gestapo şöbəsində yerləşirdi.

– Hörmətli həmkar, may ayında göndərdiyiniz məktubun içindəki terrorçu və quldurların fotoşəkillərinə diqqətlə baxdım. Mənə elə gəlir ki, Türküstan diviziyasından qaçmış o zabiti – Mehdini tanıyıram. Düzdür, fotoda aydın görünmür, ancaq zənnim məni aldatmır. Harda gördüyümü xatırlaya bilmirəm. Əziz həmkar, məlumdur ki, biz polislər gördüyümüz şəxsin surətini yadda saxlayırıq. Ancaq hər gün o qədər adamla rastlaşırsan ki, istər-istəməz çaşbaş qalırsan. Hə, onu deyirəm axı, əziz Virtsbuxtel,

əgər söhbət qızdan getsəydi, dərhal xatırlayardım, amma xoşbəxtlikdən, bəzi dostlarımızdan fərqli olaraq, cavan oğlanlar məni əsla maraqlandırmır, ha-ha-ha! Bu oğlanı xatırlaya bilmədiyim üçün pərişan idim. Fotoya dönə-dönə baxıb, nəhayət, xatırladım. Öz-özümə dedim: "Ay səfeh, sən ki bu oğlanla Yeni il bayramından sonra bir kupedə yol getmisən!" Postoynada təcili işim vardı, maşınla gedə bilmədim, çünki yolları qar basmışdı, məcbur olub qatara mindim! – Razoumek sözünə ara verdi.

– Hörmətli mayor Razoumek, – kapitan Virtsbuxtel razılıqla qonağın üzünə baxdı, – həmişəki kimi bu dəfə də yaddaşınıza söz ola bilməz! Dediklərinizi yüz faiz təsdiq edə bilərəm, üstəlik, əlavə edim ki, bu hadisə yanvarın altısı, bazar günü baş verib! Həmin gün quldur Mehdi Qratsdakı xəstəxanadan çıxıb. Başından zədə alıbmış, həm də sarılığın ağır forması diaqnozu ilə iki ay hospitalda yatıb. Yanvarın altısında səhər xəstəxanadan çıxıb, axşam da Opçinaya, xidmət etdiyi hərbi hissəyə gəlib.

– Açığı, yolda özü də bu barədə nəsə danışmışdı. Xatırladım ki, bu cavan zabit çox maraqlı yol yoldaşı və həmsöhbət kimi diqqətimi cəlb etmişdi. Qatar tunelə girəndə nədənsə ağlımdan belə bir fikir keçdi ki, bu yaraşıqlı oğlan çox təhlükəli adama oxşayır, ürəyimdə dedim: "Yaxşı ki, bu zabit bizim tərəfimizdədir, belə düşmənlə üz-üzə gəlmək istəməzdim!"

– İntuisiyanız sizi aldatmayıb, cənab mayor.

– Mehdi ilə söhbətimiz təsadüfən alındı, elə bir fakt xatırlaya bilmirəm ki, bu terrorçunu həbs etməkdə sizə gərək olsun. Ona görə də yazılı raport göndərmədim, çünki yazmağa maraqlı bir şey yox idi. İndi onun kimliyi bəllidir, əgər bir də təsadüfən rastıma çıxsa, həbs edərəm. Bu da alınmasa, güllənin canı sağ olsun, aradan çıxmağa qoymaram! Onsuz da, belə adamlardan hansısa bir məlumatı dartıb çıxarmaq mümkün deyil, heç kimi satmayacaq!

– Hörmətli həmkar, bilin ki, bu adamın fotosunu bütün casuslara, polis və karabinerlərə paylamışıq. Bütün vağzallarda şəkli asılıb, yəqin, gördünüz. Onu tutub gətirəni böyük pul mükafatı gözləyir, amma iki ay keçsə də, heç bir məlumat əldə edə bilməmişik. Alman hərbi formasında Triestin küçələrində sərbəst dolaşır, obyektlərə mina qoyur. Buna əsla yol verməmək olmaz! Bizim xəfiyyələr şəxsən tanımadıqları bütün zabitlərə ciddi göz qoyur.

– Məlum məsələdir ki, bu gün xəfiyyələrin yalnız silahı yox, həm də dəmir hövsələsi olmalıdır, əziz Virtsbuxtel.

– Sizə deyim ki, bu qorxulu terrorçunun ucbatından Triestdə gözümüzə yuxu getmir. General Qloboçnik dəfələrlə rəisim fon Nimetsi

tənbeh edib, terrorçu isə öz işindədir, dalbadal təxribat törədir, zabitlər arasına qorxu toxumu səpir. Son məlumatlara görə, indi bu quldurun əlinin altında böyük təxribat qrupu, istehkamçılar dəstəsi var, əvvəllər isə bir köməkçi ilə işləyirmiş. Sözün qısası, əziz mayor, məlumata görə çox minnətdaram.

– Bu məsələ ilə əlaqədar Lüblyanda sizə böyük köməyim dəyə bilməz, xəfiyyələrimə göstəriş verərəm ki, gözdə-qulaqda olub ətraflı məlumat toplasın. Ancaq onlara da ümid bəsləmək olmaz: bizim yalnız Qoren vilayətindəki xəfiyyə şəbəkəmiz güclüdür, Mehdi isə, məlumatıma görə, hələ oralarda peyda olmayıb. Polislərimiz üçün bu iş samanlıqda iynə axtarmağa bənzəyir.

– Tamamilə haqlısınız, cənab mayor, başqa çarə yoxdur. Örkən nə qədər uzun olsa, gəlib doğanaqdan keçər! Nə qədər ki bu iş açılmayıb və terrorçu həbs edilməyib, həyatımız cəhənnəmə dönəcək!

– Bunu yerində söylədiniz: cəhənnəm! Amma o Mehdi dünyanın ən hiyləgər terrorçusu olsa belə, əvvəl-axır ələ keçib layiqli cəzasını alacaq, cənab kapitan! Buna tam əminəm və yüz faiz zəmanət verirəm! Hələ elə bir cinayət işi olmayıb ki, onun qarşısında aciz qalasınız! Buna zərrə qədər də şübhəm yoxdur! Uzun sözün qısası, şöhrətiniz Lüblyana da gəlib çatıb. Təəssüf ki, sıx əməkdaşlıq edə bilmirik. Bilirsiniz, təsadüfən general Qloboçniklə yollarınız ayrılsa, gestaponun şefi Müllerdən xahiş edəcəyəm ki, sizi Lüblyan şöbəsinə göndərsin. Hörmətli həmkar, təsəvvür edə bilməzsiniz ki, bu gözəl ölkənin əyalətlərində müqavimət hərəkatı ilə mübarizədə nə qədər böyük problemlər var. Həm də bu adamlar ali alman qanunlarına tabe olmaqdan boyun qaçırır. Deyirlər ki, ölərik, amma alman sivilizasiyasının bayrağı altında yaşamarıq. Bizi boğaza yığıblar! Başqa vaxt olsaydı, bəlkə də, inad və mərdliyə görə bu insanlara rəğbət bəsləmək mümkün idi. Amma yerlilərin ipə-sapa yatmaması bizim üçün böyük təhlükə doğurduğundan onlarla daimi mübarizə aparıb cəzalandırmağa məcburuq.

– Bəli, cənab mayor, heç cür anlaya bilmirəm ki, bu xalq belə genişmiqyaslı müqavimət hərəkatı üçün gücü hardan alır? Əgər Sloveniya əhalisi və partizanların sayını götürsək, bizim əsgərlərimizin sayı qat-qat çoxdur.

– Haqlısınız. İtalyanlar bu lənətə gəlmiş partizanları bir ucdan qırsa da, onlar gündən-günə artır, son aylarda isə daha da əl-qol açıblar. Bizi lap bezdiriblər, hər kolun dalından dəstə-dəstə partizan çıxır. Məndə olan məlumatlara görə, təkcə bu baharda IX korpus bir neçə min adamı səfərbər edib və İtaliyanın məğlubiyyətindən sonra qənimət

kimi ələ keçirilmiş silahları onlara paylayıb. Minaları isə ingilis hərbi təyyarələrinin Çepovan yaxınlığında atdığı xüsusi konteynerlərdən götürürlər.

– Bəli, cənab mayor, İtaliyanın məğlubiyyətindən sonra Sahilyanı regionun bəzi ərazilərinə, bir neçə qarnizonu nəzərə almasaq, bizim əsgər ayaq basmayıb. Ona görə də yay aylarında başlanacaq hücum kampaniyası strateji cəhətdən çox mühüm sayıla bilər.

– Əvvəllər Qoren və Dolen vilayətlərində aləm qarışmışdı, indi isə cəbhənin mərkəzi buradır, məncə, həsəd aparmalı bir şey yoxdur. Dediyim kimi, əziz kapitan Virtsbuxtel, əlimdən gələn köməyi göstərməyə hazıram, Lüblyandan sizə nəsə lazım olsa, çəkinməyin, dərhal xəbər verin!

Onlar dost kimi ayrıldılar. Mayor Razoumek birlikdə nahar edə bilmədikləri üçün dönə-dönə üzr istədi və söz verdi ki, gələn dəfə Triestə gələndə mütləq ona baş çəkəcək. Məlum məsələdir ki, mayor öz məşuqəsi və eyni zamanda xəfiyyəsi – italyan qrafinyası ilə nahara gedəcəyini açıb söyləmədi.

Bir həftədən sonra "Alfa" ləqəbli xəfiyyənin partizanlar barədə göndərdiyi məlumat mayor Razoumeki ürəkdən sevindirdi. Xəbər Pemtsin təxribatçıları ilə bağlı idi. Məlumatda Mixaylo və onun terrorçu qrupunun yeni üzvlərindən bəhs olunurdu. Bildirilirdi ki, qrup tez-tez Sahilyanı vilayətin şəhər və kəndlərində peyda olub. Ertəsi gün mayor Razoumek qərargaha gedib xəbəri rəhbərliyə çatdırdı. Şəhərin giriş-çıxışına, yollara nəzarət gücləndirildi, polislərə terrorçuların fotoları paylandı, onların görünüşü, zahiri əlamətləri barədə məlumat verildi. Triest və ətraf ərazilərdə fəaliyyət göstərən təxribatçıları yaxalamaq üçün genişmiqyaslı əməliyyat başlandı.

## XXXII

"Həyat komediyanı, məzhəkəni xatırladır. Burda əsərin qəhrəmanı yoxdur, hər birimiz aktyor kimi müxtəlif rolları ifa edirik. İnsan həyatı səhnələşdirilmiş teatr tamaşasıdır, burda hər şey öz əksini tapıb. Suflyorlar bizi bir aktdan digərinə aparır, dialoqları isə özümüz fikirləşib tapırıq. Beş dəqiqə ərzində insanın çevrəsindəki dünya dəyişib cəhənnəmə, yaxud cənnətə çevrilə bilər. Beynimizə istirahət verib güc toplamaq üçün gecə yatırıq, bu, teatrdakı antraktı xatırladır. İnsan əzəl gündən belə yaranıb – əbədiyyətə qovuşanadək antrakta ehtiyacı var. Tamaşa bitəndə pərdəni başqa adamlar bağlayır, – Mixaylo düşüncələrdən ayrıla bilmirdi. – Tədbirli adam həmişə başına gələcək hadisələrə hazır olmalıdır. Bu hadisələri əvvəlcədən necə biləsən? Öncəgörən,

hadisələrin bütün variantlarını nəzərə alan adamı isə heç nə ilə təəccübləndirmək mümkün deyil. Əgər öncədən gördükləri çin olubsa, deməli, alın yazısı belə imiş. Bir həqiqət də var: düşündüklərini cəsarətlə dilə gətirən, sözlərinə məsuliyyətlə yanaşan şəxsin çevrəsi tezliklə boşalır, onu dinləyən olmur, həmfikirlərini itirir. Başqalarına necə yaşamağı öyrətməyə çalışma, tezliklə özün də kobud səhv buraxıb yolunu azacaqsan. “Ağıllı başda müdriklik olmaz” deyiblər. Ancaq həyatın mənasını anlamaq üçün gərək keşməkeşlərdən keçəsən”.

Mixaylo cavan olmasına baxmayaraq, həyatın incəliklərini yaxşı dərk edirdi. Müharibə onu ruhən qocaltsa da, gördüyü dəhşətlər, keçirdiyi iztirablar müdriklik bəxş etmişdi. Amma bu günə qədər sağ qalması təkcə müdrikliklə bağlı deyildi, buna səbəb hər şəraitdə düzgün çıxış yolu tapmaq bacarığı, güclü intuisiya idi. İnsanların böyük əksəriyyəti intuisiyanın mahiyyətini anlamayıb onu “bəxt” adlandırır. Mixaylo çoxdan başa düşmüşdü ki, bəxtə ümid bəsləmək olmaz. Özü belə yaşayırdı və hər dəfə əməliyyat planını hazırlayanda ən xırda detalları, təsadüfləri və bütün incəlikləri nəzərə alırdı. Bu yanaşma indiyədək onu bir dəfə də olsun çıxılmaz vəziyyətdə qoymamışdı.

İnsanlar üçün naməlum qalan sirlərdən biri də vaxt və zamanla bağlıdır. Vaxtı sənə işləməyə məcbur etməli, zamanla müttəfiq olmağa çalışmalısan. Mixaylo yaxşı başa düşürdü ki, keçmiş və gələcəklə yox, məhz bu günlə yaşamaq lazımdır. Çünki bu günlə yaşayanlar özünü dərk edir, çevrəsindəkilərlə təmas qura bilir, qüvvə və bacarığını hədər yerə sərf etmir, deməli, qarşıya qoyduğu məqsədə çatır. Bu günlə yaşayırsansa, ötən gün üçün təəssüflənməyə dəyməz!

Gələcək barədə düşüncələr də bu günü dərk etməyə mane olur. Bu günlə yaşayan insan vahid varlığa çevrilir, hər bir işi cidd-cəhdlə görür. Mixaylo söhbət zamanı tez-tez Siserondan[1] sitatlar gətirməyi sevirdi:

“Həyatın məğzi, yaşamağı bacarmaq sənəti uzaq gələcəyi düşünüb qanını qaraltmaq yox, bu gün qarşıya çıxan maneələri dəf etməkdən ibarətdir”.

Təxribat qrupuna dostluq və yoldaşlığın qədrini bilən, saf mənəviyyatlı cavan partizanlar daxil idi. Onlar düşmənin silah və ərzağını ələ keçirməklə yanaşı, işğalçılara əlaltılıq edən yerli xainləri aşkar edirdi. Yazın sonunda vilayətdə “Xalq azadlıq hərəkatı” adlanan dəstələr qiyam qaldırdı. Kommunistlərə qarşı çıxan bu yerli dəstələr almanların himayəsi və yardımı ilə yaradılsa da, artıq faşistlərə tabe olmaqdan da

---

[1]**Markus Tullius Siseron** (lat. Marcus Tullius Cicero, e.ə.106 – e.ə.43) – Qədim Roma natiqi, filosof və siyasi xadim, hüquqşünas və siyasi nəzəriyyəçi

boyun qaçırırdı. Alman forması geymiş təxribatçılar pusqu qurub Qoritsada keçirilən konqresə domobranların Lüblyandan gəlmiş bir neçə nümayəndəsini güllələdi. Bu səbəbdən domobranlar Qoritsadan olan bu satqınlara "ölüm patrulu" adı vermişdi. "Xalq azadlıq hərəkatı" dəstələri indi həm yerli kommunist partizanlar, həm də almanlarla mübarizə aparırdı. Onlar Barkovlyadakı tuneldən keçən dəmir yolunu minalayıb faşistlərin canlı qüvvə və hərbi texnikasını daşıyan qatarı partlatmışdı. Bütün bu satqın qruplar yerli partizanların işini çətinləşdirirdi. Eyni vaxtda iki cəbhədə – faşistlərə və "Xalq azadlıq hərəkatı" dəstələrinə qarşı döyüşmək yerli partizanlar üçün heç də asan deyildi.

Partizan kəşfiyyatçılarına məlum oldu ki, almanların Sejana yaxınlığındakı anbarı silah-sursat və yanacaqla doludur. Mixaylonun təxribat qrupuna bu anbarı partlatmaq əmri verildi. O, əvvəlcə anbara aparan yolların təhlükəsiz olub-olmadığını araşdırdı. Bu, xeyli vaxt apardı. İyunun 26-da Mixaylo alman forması geymiş təxribat qrupu ilə anbara gedib oranı partlatdı. İki yüz tondan çox benzin və dizel yanacağı məhv oldu. Bu təxribatdan sonra almanlar bütün anbarların mühafizəsini gücləndirdi. Buna baxmayaraq, Mixaylo Sejana yaxınlığında ciddi mühafizə olunan daha bir anbarı da partlatdı.

Yayın əvvəlində qrup bir neçə əməliyyat keçirib almanların Trjiç və Furlaniyadakı silah-sursat, ərzaq ehtiyatlarını müsadirə etdi. Burada partizanlara məlumat ötürən geniş şəbəkə mövcud idi. Bir dəfə limanda dayanmış gəmidən altı milyon lirə pul apardılar, növbəti əməliyyat zamanı isə iyirmi dörd minik və on altı yük maşını, ehtiyat hissələri, avadanlıqlar, silah təmiri üçün alətlər və xeyli ərzaq ələ keçirdilər.

Qənimətlər vilayət təsərrüfat komissiyasının gizli anbarına daşınırdı. Qənimət kimi ələ keçirilmiş maşınları da ora gətirəndən sonra ortaya belə bir problem çıxdı: bu qədər maşın üçün yanacağı haradan tapmalı? Mixaylonun güclü mühafizə olunan yanacaq çənlərindən benzin oğurlamaqda yaxşı təcrübəsi vardı. Onun məsləhəti ilə təxribatçı qrup Qoritsa yanğınsöndürmə bölməsinin həyətindəki bir neçə yanacaq çənini ələ keçirdi, meşəyə aparıb xəlvətcə basdırdı.

Qızmar iyul günlərinin birində partizan qrupu pusqu qurub faşist partiyasının Qoreş regionu üzrə katibi De Anjelikonu öldürdü. Bir neçə gündən sonra isə faşist milisinin 62-ci legion komandiri Tominінin evinə basqın edib onu və əlaltılarını qətlə yetirdilər. Müqavimət hərəkatının fəal üzvü, mavi gözlü Cina şəxsiyyət vəsiqəsi və buraxılış vərəqəsi verən şöbədə işləyirdi. Partizanlar alman forması geyib əməliyyata gedəndə bu fədakar qız onlara lazım olan bütün sənədləri

düzəldirdi. Mixaylo da saxta şəxsiyyət vəsiqəsi aldı, sənəd çox məharətlə hazırlanmışdı. İndi o, sənədə əsasən Mixael Matoşiç idi, sloven dilində səlis danışırdı. Bəzi sözlər yadından çıxanda almanca deyirdi.

...Partizanlar Vitovlye qəsəbəsindəki üç nömrəli barakı təmir edib sinif otağına çevirmişdi. Mixaylo səhər adəti üzrə təxribat qrupuna təlim keçirdi. Pedaqoji təhsil bu işdə köməyinə gəlir, gənc əsgərlərə dəyərli məsləhətlər verirdi:

– "İnsanların hamısını ağıllı hesab etmək olar, bununla belə, hər bir adam səhvə yol verir". Bu, almanların deyimidir və düşünürəm ki, yanlış fikirdir. Almanların bir sevimli ifadəsi də var: "Sənə dəxli olmayan şeyə burnunu soxma!" Azərbaycanlılar isə belə düşünür: "Ehtiyat igidin yaraşığıdır!" Ona görə də Pemtslə razılığa gəlmişik ki, təxribat əməliyyatına yollanmazdan əvvəl sizinlə hazırlıq keçim. Çünki təxribatçı hər bir şəraitdə təhlükəyə hazır olmalıdır. İnanın, digər qoşun növləri ilə müqayisədə təxribatçıların işi asan, həm də çətindir. Onların həyatı daim risk altındadır, bu səbəbdən təxribatçı yaxşı dincəlməli, gördüyü işin müqabilində pul mükafatı, orden və medal almalıdır. Axı hər adam uzun müddət bu cür gündəlik psixoloji gərginliyə tab gətirə bilməz. Yoldaşlar, bizim işimizdə cüzi səhv sənin və döyüşçü dostlarının həyatına son qoya bilər. Bunu yadda saxlayın! Təxribatçı sağlam bədənə və mükəmməl avadanlıqlara malik olmalı, əməliyyatdan əvvəl dincəlib yaxşı yeməlidir. Maskalanmağı, qalstuk bağlamağı, son dəblə geyinməyi, bir sözlə, görkəmini dəyişməyi bacarmalıdır. Gəlin tələsməyək, qaydaları bir-bir araşdıraq.

Məktəb illərində dram dərnəyinin üzvü idim. Bir dəfə mənə müdrik yəhudi qoca rolunu tapşırmışdılar. Mətndə belə bir hissə vardı: "Kim müdrikdir? Başqasından müdriklik öyrənən! Kim qəhrəmandır? Öz hisslərini cilovlamağı bacaran! Səbirli adam qəhrəmandan, fatehlərdən qat-qat üstündür, çünki özünü tam idarə edə bilir. Kim varlıdır? Payına düşəni razılıqla qəbul edən! Müqəddəs kitabda deyilir: zəhmətin bəhrəsi sevinc və xoşbəxtlik bəxş edəcək. Bu dünyada rahatlıq və əmin-amanlıq tapacaqsan. Kim alqışa layiqdir? Allahın yaratdığına əhsən deyən! Müqəddəs kitabda deyilir: Mənə alqış deyənləri sev, Məni inkar edənlərsə, xar olacaq".

Bu müdrik kəlamlara bəzi əlavələr etmək istərdim: biz partizanıq, alman və italyan alçaqları alqışlaya bilmərik, onları görən gözümüz yoxdur və bu əclafları vəba yayan siçovullar kimi qırmalıyıq. Kiməsə mərhəmət göstəririksə, bu düzgündür, düşməni məhv etmək isə nəcib işdir. Bax bu məqamda biz təxribatçılar əsl aktyor kimi davranmalıyıq. Yəni səhnəyə atılıb bir göz qırpımında az məsrəf və itki ilə düşmənin

nəfəsini kəsməli, ona sağalmaz yara vurmalıyıq. Bilirsiniz, istehkamçı Marko ilə belə nəticəyə gəlmişik: təxribat – müharibənin canıdır, təxribatçı isə bu canı daşıyan, həyatını daim təhlükəyə atan döyüşçüdür.

Təxribatçıları xüsusi təlim kurslarında hazırlamaq, onlara illərlə toplanmış zəngin təcrübəni öyrətmək, sağ qalmağın yollarını başa salmaq lazımdır. Mən təxribatçıları çiçəyə bənzədirəm. Əgər çiçəyə düzgün qulluq göstərməsən, solacaq. Təxribatçı da lazımi biliklərə yiyələnməsə, elə ilk əməliyyatda məhv olacaq, həm də öz günahı ucbatından. Təxribatçının ən güclü silahı mina yox, düzgün hazırlanmış əməliyyat planıdır. Bu gün məhz əməliyyat planının hazırlanmasından söhbət açacağıq. Əvvəlcə sizə "təxribatçının üç müqəddəs qaydası"ndan bəhs edəcəyəm.

– Birinci qayda: Əgər nəyisə dəyişə bilmirsinizsə, buna görə narahat olmayın! Düşünürəm, geniş şərhə ehtiyac yoxdur. Əgər özünüzü olduğu kimi, çatışmayan bütün cəhətlərinizlə birlikdə qəbul etməyi bacarmasanız, heç nə öyrənə bilməyəcəksiniz. Bəzi şeyləri yaxşı bacarırsınız, amma müəyyən məsələlərdə axsayırsınız, bununla barışıb qüsurları aradan qaldırmağa çalışın. Çünki bu qüsurlar əməliyyat zamanı sizi məhv edə bilər. Şübhə etmirəm ki, bura toplaşanlar təcrübəli və bacarıqlı döyüşçülərdir, davanın hər üzünü görüblər, ona görə də təxribat işinin əlifbasını yox, daha mürəkkəb məqamları araşdıracağıq.

– İkinci qayda: Sağ qalmağımıza səbəb qorxu hissidir. Biz döyüşçüyük və ətrafa səpdiyimiz ölüm toxumu ən güclü silahdır. Ona görə də ölüm bizi qorxutmamalıdır. Təbii ki, normal insanlar kimi, həyatımızı itirmək istəmirik. Üçüncü qaydanı öyrənəndə qorxu hissi itib gedəcək, əzminiz artacaq.

– Üçüncü qayda: Taleyim öz əlimdədir! Allah heç birinizə əsirlikdə çəkdiyim zilləti göstərməsin. Bir məsələni vurğulamaq istərdim: əsirlikdə yalnız inam hissi güclü olanlar sağ qaldı. Qaranlıq tunelin sonundakı işığı görənlər vardı, əmin idilər ki, pis günün ömrü az olar, bu səbəbdən ölüm bu insanları çənginə ala bilmədi. Çoxları ruhdan düşüb məhv oldu. Əsir düşərgəsi zəifləri sevmir, gərək bütün acılara mərdliklə sinə gərəsən. Ölüm hər an başının üstünü kəsdirir, amma inam hissi güclü olanlara toxuna bilmir. Bu hiss döyüş şəraiti və ya təxribata da aiddir. Əslində, burda da ölüm bizimlə qoşa addımlayır, hər anımız təhlükə ilə doludur. İlk baxışdan sənə elə gəlir ki, çıxış yolu yoxdur, ancaq özünü ələ alıb soyuqqanlı olsan, çıxış yolunu mütləq tapacaqsan. Təki istək və həvəs olsun, qalan şeylər düzələcək! Təcrübəli döyüşçü təhlükəli anlarda ona xilas yolunu göstərən daxili səsini dinləməlidir. Həmçinin, deyirlər, ümid sonda ölür. Təkcə ümid və istək

sağ qalmaq üçün kifayət deyil. Düzgün qərar verdiyinə qəti inanmalı və bu qərar ürəyində heç bir şübhə doğurmamalıdır. Müharibədə insan taleyi çox dəyişkəndir, ancaq bu dəyişkənlik ya səni xilas edəcək, ya da axırına çıxacaq. Biz qətiyyət bildirməklə tale yazısını dəyişməliyik. Təcrübəli təxribatçı hər şeyi taleyin ümidinə buraxa bilməz, əməliyyata ciddi hazırlaşmaq, plan hazırlamaq üçün kifayət qədər məlumat toplamaq lazımdır.

Qaydalar çoxdur, amma bu üçünü ana qayda hesab etmək olar, digərləri barədə növbəti məşğələlərdə söhbət açacağıq. Hələlik əməliyyat planının necə hazırlanması barədə danışaq. Bu plan əməliyyatı uğurla başa vurub sağ qalmağın ən ümdə şərtidir.

Əziz yoldaşlar, əsgər hədəfi vura bilər, yaxud güllə hədəfdən yan keçər. Burda qorxulu heç nə yoxdur: silaha düzəliş verib hədəfi vuracaqsan. Bunu heç vaxt unutmayın! Bu baxımdan, təxribat işi fərqlidir. Əgər mina qoyub detonatoru düzgün qurmusansa, hədəfi yüz faiz vuracaqsan! Məsələ yalnız partlayış vaxtının düzgün seçilməsi ilə bağlıdır. Əgər hər şeyi əvvəlcədən planlaşdırıb, hadisə yerindən vaxtında uzaqlaşa bilmişiksə, deməli, tapşırıq yerinə yetirilib.

Bilirsiniz ki, mən tankçı deyiləm, amma bir dostum var, Qızıl Orduda tank birləşməsinin komandiridir. O deyir ki, tank birləşməsi naməlum əraziyə gələndə xüsusilə diqqətli olmaq lazımdır, çünki düşmən pusqusu ilə qarşılaşa bilərik. Ona görə də kəşfiyyat məqsədilə həmişə bir yüngül, yəni sürətlə hərəkət edən tankı irəli göndərir, düşmən atəş açan kimi onun yerini müəyyən edirik. Birləşmədəki ağır tankları qorumaq üçün bəzən bir yüngül tankı qurban verməyə məcburuq. Bu, şahmatdakı qambitə bənzəyir. Aranızda şahmat oynayan var? Təxribatçılara həmişə tövsiyə edirəm ki, strateji bacarığı formalaşdıran bu oyunu öyrənsin. Əziz dostlar, zirehli tank qoşunlarının taktikasından niyə söhbət saldıq? Deyə bilərsiniz ki, biz tankçı yox, təxribatçıyıq və bunun məsələyə heç bir dəxli yoxdur. Kimsə düşünə bilər: Mixaylo Triestdəki yeməkxananı necə partladıb? Yəqin, yol ilə gedirmiş, qarşısına bu yeməkxana çıxıb, Mixaylo da mina qoyub, vəssalam! Yox, dostlar, sözdə demək asandır, amma əməliyyata iki həftə qalmış yerli fəalların köməyi ilə lazımi məlumatlar topladım. Yadda saxlayın ki, hər bir əməliyyatın həyata keçirilməsində ilk addım kəşfiyyat aparmaqdır, yəni təxribat baş verəcək obyekt barədə mövcud məlumatı dönə-dönə yoxlamaq, yenisini əldə etmək! Sonra planlaşdırma mərhələsi başlayır. Burda əyləşənlərin çoxu bilmir ki, atam bolşeviklərin vaxtında tanınmış komandir olub. Təəssüf ki, körpə ikən atamı itirmişəm. Amma nənəm onun barəsində çox şeylər danışıb. Atam deyərmiş: “Kəşfiyyata sərf

olunan vaxtı hədər yerə itirilmiş vaxt hesab etmək düzgün deyil!" Yalnız ətraflı məlumata malik tərəf uğurla hücuma keçə bilər. "Güc bilikdədir!" Üç yüz il bundan əvvəl yaşamış ingilis filosofu və dövlət xadimi Frensis Bekon belə deyib. Oxu dartıb, yayı buraxmazdan əvvəl küləyin hansı istiqamətdən əsdiyini müəyyən etməlisən. Xoşbəxtlikdən, təxribatçıların həmişə məlumat ötürən etibarlı şəbəkəsi var.

Müdafiə olunan ordu üçün kəşfiyyat məlumatları toplamaq asandır, çünki bu ordu xalqın dəstəyini hiss edir. Təcavüzkar ordu isə belə məlumatları toplamaqda çətinlik çəkir, çünki xalq bu orduya nifrət bəsləyir. Hər güllə hədəfə dəymir, amma təxribatçı hər minanı seçdiyi yerdə, müəyyən etdiyi vaxtda partlatmalıdır. Amma kəşfiyyat məlumatları olmadan nə partlayış yerini, nə də vaxtı düzgün seçə bilmərik. Əməliyyatın iki fazasında kəşfiyyat çox önəmlidir: planlaşdırmadan öncə və bilavasitə əməliyyatdan əvvəl. Gerçək kəşfiyyat məlumatları əsasında düzgün hədəf seçmək mümkündür, sonra obyekt barədə ətraflı məlumat toplayıb təxribat əməliyyatını panlaşdırmağa başlamaq olar. Plan tərtib edilərkən dəstənin hər üzvü qarşısında konkret vəzifə qoyulur. Nəhayət, baş verəcək təxribatı göz önündə canlandırıb bunun üçün lazım olan hər şeyi müəyyənləşdirmək lazımdır. Təxribatçının işi kəşfiyyat məlumatlarına əsaslansa da, imkan daxilində obyektə baxış keçirmək, giriş-çıxışlarını diqqətlə öyrənmək pis olmaz. Üstəlik, bu obyekti yaxşı tanıyan adamla təmas qurmaq işin xeyrinədir. İvanla Triestdəki yeməkxanada təxribat törədəndə böyük üstünlüyümüz vardı. Alman zabiti formasında dəfələrlə orda nahar etmişdim, hər dəfə gedəndə yaxşı tanıdığınız həmyerlim və dostum İvanı da özümlə aparırdım. Yeməkxanaya beş barmağımız kimi bələd idik. Gördük ki, çantalarımız kimsəni maraqlandırmır, çünki yeməkxanaya gələn alman zabitlərinin böyük əksəriyyəti belə çanta gəzdirir. Bu fakt işimizi bir qədər asanlaşdırdı. Əgər müştərilərin çantası ciddi yoxlamadan keçsəydi, deməli, çantanı gizli yolla içəri apara biləcək köməkçiyə ehtiyac yaranardı. Əlbəttə, bu mümkündür, amma hərbi işi bilməyən, təxribat məsələlərində naşı adamı əməliyyata cəlb etmək böyük riskdir. Binaya mina qoymaq işində tikinti çertyojları köməyə gələ bilər. Bu yolla istinad və köməkçi divarların yerini müəyyən etmək mümkündür. Hər bir insanda olduğu kimi, hər bir binanın da zəif, müdafiə olunmayan nöqtələri var. Təxribatçı bunu mütləq nəzərə almalıdır.

Obyekt, yaxud ərazi ilə tanışlıq kəşfiyyat işinin yalnız bir hissəsidir. İkinci hissə isə düşməni tanımaq, onun məqsəd və hazırkı durumunu öyrənməkdən ibarətdir. Həmçinin özümüzü, birlikdə əməliyyata gedəcəyimiz şəxsləri yaxşı tanımalıyıq. Çalışmalıyıq ki, dəstənin bütün

üzvləri mina, detonator və digər partlayıcı qurğuları gözüyumulu idarə edə bilsin.

Düşmənin binanı necə qoruduğunu, mühafizəçilərin harada yerləşdiyini, hərbi obyektə aparan yollardakı postların sayını və döyüş qabiliyyətini dəqiq müəyyən etməliyik.

Deyilənə görə, siz düşmənin ərzaq və silah ehtiyatını məharətlə ələ keçirməyi bacarırsınız. Bu, düşərgənizin gündəlik həyatından aydın görünür. Mətbəxdə hər şey boldur: Azərbaycan kürüsündən tutmuş, fransız konyakına qədər hər şey var. Hətta Amerikada istehsal edilmiş ət konservlərinə də rast gəldim. Bunu nəzərə alıb indi əsas diqqəti hərbi obyektlərdə təxribat törədilməsinə yönəltməliyik. Partizanlar üçün məntiqi nəticə belədir: hərbi birləşmə düşməni məhv etməlidir. İtalyanlarda və almanlarda isə bu məntiq fərqlidir. Onlar dinc və silahsız əhaliyə divan tutmağı qarşılarına məqsəd qoyub!

Uzun əsrlər bundan öncə xəlifə Əli müdrikcəsinə deyib ki, dünyada üç şeyi düzəliş edib dəyişmək mümkün deyil: yayı çəkib atdığın oxu, ağzından çıxmış sözü və əldən buraxdığın fürsəti! Təxribatçı heç vaxt fürsəti əldən verməməlidir! Fürsət elə bir qiymətli şeydir ki, gərək bütün diqqətini ona yönəldəsən! Əgər bunu anlayırsansa, deməli, uğur qazanacaqsan!

Bütün tapşırıqların öhdəsindən bacarıqla gələn, fürsəti qaçırmayan mahir təxribatçı! Sizin məhz belə döyüşçü kimi yetişməyiniz üçün əlimdən gələni edəcəyəm, əziz yoldaşlar!

İrəli baxmağı bacarmayan adam heç vaxt qalib gələ bilməz! Qələbə əvvəl başda, sonra da döyüş meydanında yaranır! Əgər əvvəlcədən düşünülmüş plan varsa, işiniz yüngülləşəcək. Yaxşı plan qurmuş adam nikbindir, gələcəyə ümidlə baxır, özünü inamlı hiss edir. Kifayət qədər toplanmış kəşfiyyat məlumatları əsasında düzgün hədəf müəyyənləşdirmək mümkündür, bundan sonra əməliyyatın keçirilməsi üçün daha dəqiq məlumatlar və taktiki plan lazımdır. Vaxtı itirmək olmaz, dərhal əməliyyat planı hazırlanmalıdır. Yaxşı strategiya tapmaq heç də asan iş deyil! Çünki yaxşı strategiya gözübağlıcaya bənzəyir. Sol əlinlə düşmənin başını qat, özün isə sağ əllə zərbə endir! Hər bir strategiya bir və ya bir neçə hiyləyə əsaslanır, ümumiyyətlə, hiylə işlətməsən, qələbə qazana bilməzsən. Ən yaxşı sərkərdələr tabeliyində olan əsgərlərin təkcə bilik və bacarığına, döyüş ruhuna arxalanmayıb, onlar şəraitə uyğun düzgün strategiya seçməyi bacarıb. Strateji fəaliyyət planının hazırlanmasından sonra təxribatın taktiki planına ehtiyac yaranır. Hər dəfə döyüşə getməzdən əvvəl bəzi suallara cavab tapmaq lazımdır: düşmənin məqsədi nədir? Ümumiyyətlə, ona nə lazımdır?

Əgər cavab tapılmayıbsa, növbəti mərhələyə keçmək olmaz. Bu mərhələdə də cavabını gözləyən suallar var: düşmən məqsədə hansı yolla çatmağı planlaşdırır? Bu sualın cavabı təxribatçı üçün çox vacibdir. Niyə? Düşmənin istəyi sənin strategiyan üçün əhəmiyyət kəsb etmir, bu, sadəcə, onun məqsədidir. Məsələn, yaxşı müdafiə olunan qalanı tutmaq. Düşmən məqsədinə hansı yolla çatacaq, yəni bu işi necə görəcək? Bax bunu bilmək vacibdir.

Məqsədin həyata keçirilməsi müəyyən tədbirlərin görülməsini tələb edir. Deməli, əks-tədbirlər görüb düşmənin səyini heçə endirmək mümkündür.

İkinci suala cavab tapdıq, indi üçüncü suala keçə bilərik: düşmənin səyini sıfıra endirmək üçün hansı əks-tədbirlər görülməlidir?

Bu məqamda yaxşı komandir bizi, yəni təxribatçıları yadına salır. Çünki əsas vəzifəmiz düşmən düşərgəsində xof yaradıb ölüm toxumu səpməkdir. Bütün bunlar düşmən ordusunun döyüş ruhunu zəiflədir. Biz təxribat törədirik, ardınca partizanlar pərən-pərən düşüb qorxu içində çapalayan düşmənə ağır zərbə endirir. Üstəlik, əgər düşmənin gözünün odunu almısansa, deməli, ikiqat gücə maliksən. Məsələn, Çingiz xan düşməni ox atəşinə tutmazdan əvvəl bəd xəbərlərlə rəqibin döyüş ruhunu sarsıdırdı.

Uğurla həyata keçirilmiş təxribat düşmən üçün ən bəd xəbər ola bilər.

Təxribatın psixoloji effekti istənilən strateji mübarizə üçün qiymətlidir, çünki bu effekt narahatlıq və xaos yaradır, düşmənin gözünə yuxu getmir. Təkrar edirəm: yaxşı əsgər qarnı tox, istirahət etmiş və yuxusunu almış vəziyyətdə olmalıdır. Bu, təxribatçılara da aiddir. Ona görə də yarım saatlıq fasilə verib nahara getməyi təklif edirəm. İntendant Yoje də bura gəlir, məncə, əlindəki qazan boş deyil. İçində nəsə dadlı yemək var, çünki ətrindən adamın ağzı sulanır.

Gənc təxribatçılar Mixayloya diqqətlə qulaq asırdı. Üç əsgərin əlində qələm vardı, Mixaylo danışdıqca qeyd edirdilər. Dinləyicilər, əsasən, boy-buxunlu, cüssəli cavanlar idi. Sahilyanı bölgənin cənub dəstəsindən gəlmiş on iki zabit isə arıq və çəlimsiz görünürdü. Bundan başqa, Qoren vilayətində fəaliyyət göstərən Preşernova briqadasının dörd üzvü də dinləyici qismində hazırlıq kursuna qatılmışdı. Mixaylonun törətdiyi təxribatlar Qoren vilayəti sakinlərini də həvəsə salmışdı. Onlar Triest və ətraf ərazilərdə olduğu kimi, düşmənə qarşı təxribat törətmək arzusu ilə yaşayırdı. Mixaylodan başqa, bu işdə təcrübəsi olan yalnız Saşa, Tole və Frits idi. Hər üçü bayaqdan mühazirəni böyük maraqla dinləyirdi. Bu adamlara bir neçə dəfə Mixaylo ilə əməliyyata

getmək nəsib olmuşdu – onun bilik və təcrübəsini yüksək qiymətləndirirdilər. Hansısa əməliyyatdan söz düşəndə öz aralarında Mixaylonun dəyərli fikirlərini nümunə gətirir, hər dəfə onunla məsləhətləşirdilər. Mixaylo döyüşçülər arasında təcrübəli komandir kimi şöhrət tapmışdı. Tabeliyində olan döyüşçülərlə əmr formasında danışmır, göstərişlərini nəzakətli formada təklif kimi dilə gətirir, səsini qaldırmırdı. Dediklərini xüsusi vurğulamağa ehtiyac duyduqda diqqətlə qarşısındakı adamın üzünə baxırdı. Xarizmatik lider kimi, əmrlərin çoxunu “bədənin dili” ilə çatdırırdı. Belə hesab edirdi ki, bütün insanlar, xüsusən də təxribatçılar, bu dildə danışmağı öyrənməlidir. Çünki, bəzən əməliyyat zamanı tam sakitliyi qorumalı və eyni zamanda döyüş yoldaşına nəsə deməlisən! Mixaylo mahir pantomim ustası idi, sadəcə, üzünün ifadəsini dəyişməklə uzun bir əhvalat danışa bilərdi. Bununla yanaşı, müşahidə əsasında düşmənin psixoloji vəziyyətini, mənəvi sarsıntılarını qiymətləndirmək üçün “bədənin dili”nə mükəmməl yiyələnməyi tövsiyə edirdi.

Mühazirənin sonunda Mixaylo əlavə etdi:

– Ən yaxşı saatsaz sakitlikdə işləməyi sevir, çünki müxanizmdə nasazlığın doğurduğu yad səsləri eşidir. Dənizçilər yaxşı bilir: başının salamat olmağını istəyirsənsə, gözünü dənizdən ayırma! Təxribatçının beş ayrılmaz dostu var: sayıqlıq, diqqət, qulağı səsdə olmaq, diqqəti cəmləşdirmək və cəsarət. Əgər bu dostlardan biri çatmırsa, təxribatçı məhv olar. Bu, oyun deyil, çox ciddi məsələdir! Əgər alnına Vətən yolunda ölmək yazılıbsa, bunu şərəflə, qəhrəmancasına etmək lazımdır!

* * *

– Hə, naharı da belə başa vurduq, dostlar, indi isə növbəti tapşırığa nəzər salaq. Hamınıza yaxşı məlumdur ki, düşmən son zamanlar Sahilyanı diyarın hər tərəfində geniş hücuma keçib. Ona görə də korpus qərargahından əmr gəlib: düşmən yuvasına çevrilmiş Triestdə qorxu və xaos yaratmaq lazımdır! Almanların altı kazarmasını partlatmalıyıq. Düşmənin canlı və hərbi qüvvəsi reydə çıxdığı üçün hazırda bu obyektlər boşdur. Elə etmək lazımdır ki, onlar uğursuz əməliyyatdan qayıdandan sonra yatmağa yer tapmasın. Bu, psixoloji müharibə adlanır – döyüşün çox mühüm və effektli hissəsidir. Moskva və Stalinqrad döyüşlərində sibirli əsgərlərdən ibarət bölük hər gecə ağır artilleriyanın köməyi ilə düşmənə hücuma keçirdi. Bu səbəbdən, fritslər yuxu üzünə həsrət qalmışdı. Yuxulu əsgərin döyüş qabiliyyəti isə qat-qat aşağı olur.

Bundan başqa, qərargahdan körpünü partlatmaq əmri verilib. Bu təxribat faşistləri daşıyan qatar körpüdən keçərkən törədilməlidir. Adi tapşırıqdır, yerinə yetirmək çox da çətin olmayacaq.

Beləliklə, gecə təxribatı bir göz qırpımında baş verəcək və effektli təsir doğuracaq. Yalnız qurduğum planı yerinə yetirməyən döyüşçü üçün bu təxribat təhlükə doğura bilər. İndi vəziyyətimiz yaxşıdır, bölük gücləndirilib və döyüşçülərin sayı iyirmi iki nəfərə çatıb. Ona görə də hərəsi yeddi nəfərdən ibarət üç qrupa bölünməliyik. Qruplara Frits, Saşa və Tsar başçılıq edəcək. Əməliyyata qaş qaralanda çıxacağıq, hələlik azadsınız. Yaxşıca yatıb dincəlməyi tövsiyə edirəm. Əməliyyat gecə boyunca sürəcək, hər qrupun öhdəsinə iki kazarma düşür. Təxribat planını indi qrup komandirləri ilə müzakirə edəcəyik. Əməliyyat sizin üçün "Gecə şəraitində taktiki döyüş" fənnindən imtahan rolunu oynayacaq.

Dinləyicilər öz aralarında pıçıldaşmağa başladılar. Bu günə qədər heç biri təxribat əməliyyatında iştirak etməmişdi. Bu adamlar öz müəllimi, həm də komandir sayılan Mixayloya hədsiz inanır və qarşıdakı əməliyyat onları qorxutmurdu. Yaxşı bilirdilər ki, Mixaylo heç vaxt səhvə yol vermir, əməliyyatı necə deyərlər, birnəfəsə, gözüyumulu həyata keçirir. Ona görə də müdrik komandirin təcrübəsindən yararlanmağı vacib sayırdılar.

Əməliyyat Mixaylonun planlaşdırdığı kimi, çox dəqiq və uğurlu keçdi.

Axşam iki yüz kiloqramdan çox partlayıcı maddə götürüb yük maşınına mindilər. Mixaylo və Qədir motosikletlə onları müşayiət edirdi, yedəkləri çıxarıb anbarda qoymuşdular. Hər ikisi alman polisi forması geyinmişdi, yük maşınının sürücüsü Tole və yanında əyləşmiş Frits feldfebel formasında idi. Hər ehtimala qarşı dəstə üzvlərinə alman zabiti və əsgərinin saxta şəxsiyyət vəsiqələri paylanmışdı. Alman hərbi geyimində olan təxribatçıları aparan yük maşını üçün yalnız başqa partizan dəstəsinin pusqusu təhlükə törədə bilərdi – yəni onları faşist bilib atəş aça bilərdilər. Mixaylo əmin idi ki, Triestə qədər yolda heç bir partizan qruplaşmasının postu yoxdur. Almanların son hücumundan sonra partizanlar canlı qüvvə və texnikanı qorumaq üçün əvvəl Vipava vadisinə, sonra isə Trnovo yaylasına çəkilmişdi. Bununla belə, Mixaylo ikinci dərəcəli daş-kəsəkli dar yollar seçmişdi ki, partizan pusqusu ilə üzləşməsin. Triestin şəhərətrafı evlərinə çatıb müqavimət hərəkatı üzvlərindən birinin həyətinə döndülər – ev üç metr hündürlüyündə çəpərlə əhatə olunmuşdu. Minaları adamların sayına görə böldülər, hərə öz payına düşəni çantasına qoydu. Bu, xüsusi önəm daşıyırdı: təhlükə yarandıqda minaların, heç olmasa, bir qismini qoruyub saxlamaq

mümkün olacaqdı! Başqa sözlə desək, çantasında mina olan təxribatçılardan kimsə əvvəl-axır obyektə yaxınlaşıb oranı partlada bilərdi! Dəstə üç qrupa bölündü, qrupların tərkibi əvvəlcədən müəyyən olunmuşdu. Tezliklə hər qrup gecənin qaranlığında gözdən itdi. Evlərin pəncərəsindən işıq gəlmirdi, hava hücumundan müdafiə səbəbindən küçə fənərləri söndürülmüşdü, şəhər sanki ölüm yuxusuna dalmışdı. Fritsin qrupunu Mixaylo müşayiət edirdi, çünki qarşılarına mühüm vəzifə qoyulmuşdu: dəmir yolunu partlatmaq! Kazarmaların partladılması üçün hazırlanmış plan eyni idi – işin ağırlığı alman hərbi formasında olan təxribatçıların öhdəsinə düşürdü.

* * *

Birinci kazarmanın girişinə yüz metr qalmış Fritsin qrupu yol kənarındakı kolluqda gizləndi. Mixaylo isə damağındakı siqareti tüstülədərək saymazyana addımlarla keşikçiyə yaxınlaşdı. Alman əsgəri hərbi salam verib farağat dayandı. Mixaylo əlindəki kağızı ona uzatdı. Keşikçi postunu güc-bəla ilə işıqlandıran yeganə küçə fənəri bir-iki addım aralı idi. Keşikçi elə bildi ki, bu, buraxılış vərəqidir, kağızı işığa tutdu. Orada cəmi iki kəlmə yazılmışdı və əsgər həmin sözləri oxuyanda gözləri kəlləsinə çıxdı: “*Hende hox!*”[1] Əvvəl elə bildi ki, bu zarafatdır, dönüb zabitə baxdı. Küçə fənəri girdəsifət, qorxudan rəngi qaçmış keşikçinin sifətinə işıq salanda Mixaylo onun ağzından süd iyi gələn yeniyetmə olduğunu gördü. Keşikçi dönüb zabitdən bu zarafatın nə demək olduğunu soruşmağa macal tapmadı, çünki Mixaylo tapançanın soyuq lüləsini onun alnına dayamışdı. Keşikçi özündən asılı olmayaraq əllərini yuxarı qaldırdı.

Mixaylo gülümsünüb almanca çox sakit tərzdə dedi:

– Afərin, əsgər! İndi gəl sənin çiynini bu zəhlətökən silahdan azad edək! Yəqin, doludur, bir də gördün, güllə öz-özünə açıldı. Hə, bir xahişim də var, dostum, dəbilqəni, gimnastyorkanı çıxart, havalar qızıb, o qədər də soyuq deyil!

Mixaylo sanki dilə tuturmuş kimi əsgərin silah və dəbilqəsini əlindən aldı, gimnastyorkanı soyunmaqda ona kömək etdi. Yeniyetmə keşikçi ilə elə şirin danışırdı ki, sanki uzun illər onu tanıyırdı. Oğlan da qəfil peyda olmuş zabitin dediklərinə sakitcə əməl edirdi. Bayaqdan bu mənzərəni kolların arxasından izləyən Frits hər ehtimala qarşı avtomatı hazır tutub Mixaylonu qoruyurdu. Gərginlik səngiyəndə gizləndiyi yerdən çıxdı, keşikçi onu görəndə şoka düşdü. Amma tezliklə

[1]Əllər yuxarı! (alm.)

sakitləşdi, çünki "alman əsgəri" onun əl-qolunu bağladı, düyünü də bərk sıxmadı ki, gəncin biləyini ağrıtmasın. Sonra Mixaylonun qulağına almanca pıçıldadı:

– Hə, dostum, əgər faşistlər kazarmanı uşağa tapşırıb gediblərsə, deməli, vəziyyət çox pisdir!

Frits ilə Mixaylonun oxşar cəhətləri çox idi: Mixaylo kimi o da faşistlərə nifrət bəsləyir, onları məhv etmək üçün əlindən gələni əsirgəmirdi. Alman əsilli olması da qisas hissini soyutmurdu. Bəzən nifrət hissi elə alovlanırdı ki, hətta Mixaylo da məəttəl qalırdı. Ancaq Frits uşaqları çox sevirdi, ona görə də keşikçi oğlanın əllərini bərk bağlamadı, gəncə yazığı gəldi. Düşündü ki, düyünü sıxsa, damarlarda qan işləməyib dəhşətli ağrı doğuracaq. Frits keşikçinin gimnastyorkasını geyinib dəbilqəsini taxdı və Mixayloya dedi:

– Paltar əynimə dardır, başımı da dəbilqəyə güclə soxmuşam, eybi yox, uzaqdan bilinmir!

Keşikçinin silahını çiynindən aşırıb postda dayandı.

Mixaylo əli kəndirlə bağlanmış keşikçini sakitləşdirməyə çalışdı:

– Çox gözləməli olmayacaqsan, dostum. On beş dəqiqədən sonra burda iz-tozumuz da qalmayacaq.

Keşikçi oğlan dedi ki, on beş yaşı var, əslən Bavariyadandır. Hazırda kazarmada heç kim yoxdur, çünki komendant bölüyü tam heyətlə şəhərə yollanıb, əsgərləri isə əməliyyata aparıblar. Mixaylo keşikçini odun parçası kimi çiyninə qoyub kolluğa apardı və döyüşçü Milana təhvil verdi. O da öz növbəsində bavariyalı oğlanı ağaca bağladı, ağzına əsgi parçası dürtüb dedi:

– Burada gözləməyin məsləhətdir, dostum, cınqırın çıxmasın. Kazarma uzaqdadır, partlasa, sənə ziyan gəlməz! Sizinkilər harda olsa, özünü çatdıracaq! Dözməli olacaqsan, dostum!

Kazarmanın girişində təxribatçılar üç qrupa bölünüb müxtəlif istiqamətə yollandı. Kəşfiyyatçılar və rabitəçilər Mixaylo üçün kazarmaların dəqiq çertyojunu hazırlamışdı, ona görə də təxribatçılar hara getməyi, nə qədər mina qoymağı əvvəlcədən bilirdi. Altı müxtəlif nöqtəyə partlayıcı yerləşdirildi, detonatorlar elə quraşdırıldı ki, mexanizm gecəyarı, keşikçilər dəyişəndə işə düşsün. Sonra təxribatçılar təxminən üç yüz addım aralıda yerləşən digər kazarmaya yollanıb oranı da minaladı. İçəridə əsgərlər vardı, hamısı yatmışdı, xorultudan qulaq tutulurdu. Kimsə təxribatçıların gəlişindən duyuq düşmədi.

Əməliyyatı başa vuran partizanlar müqavimət hərəkatı fəalının evinə qayıtdı. Sevinclərinin həddi-hüdudu yox idi – ilk döyüş tapşırığı uğurla yerinə yetirilmişdi! İndi onları əsl təxribatçı adlandırmaq olardı. Təkcə minaların partlamasını gözləmək qalırdı.

Gənc döyüşçülər sübut etdi ki, təxribatçı kimi çətin və şərəfli adı daşımağa layiqdirlər. Mühazirədə öyrəndikləri nəzəri bilikləri təcrübədə uğurla tətbiq etmişdilər. Zarafatla bir-birinə deyirdilər: "Axır ki, şeytanın qıçını sındırdıq!"

Lakin Mixaylo və Frits tapşırığın yalnız birinci hissəsini yerinə yetirmişdi. Onlar motosikletə minib bir neçə kilometr şimal-qərb tərəfə sürdülər. Sejana-Triest dəmir yolu xəttini birləşdirən körpü burada yerləşirdi. Bir neçə gün əvvəl Mixaylo körpünü diqqətlə müşahidə etmişdi və bilirdi ki, əməliyyat zamanı problem yaranmamalıdır: körpünün giriş-çıxışını iki keşikçi qoruyurdu.

Körpüyə çatanda Frits motosikleti saxlayıb mühərriki söndürdü – səs salmaq olmazdı, qəfil hücum planın mühüm hissəsi idi! Motosikleti yol kənarındakı kolluqda gizlətdi. Mixaylo motosikletlə körpüdən sakitcə keçdi, alman keşikçiləri hətta ona əl elədi. İki döngədən sonra motosikleti elə yerdə saxladı ki, ora yoldan görünməsin. Ovçu şikarını güddüyü kimi oğrun-oğrun körpüyə yaxınlaşdı. Saatına baxdı, iki dəqiqədən sonra əqrəblər gecəyarısını göstərəcəkdi. Mixaylo Triest istiqamətindən partlayış səsi eşidilənədək gözlədi. Gözləri gülürdü, səsdən anladı ki, ən azı, otuz mina partlayıb. Amma sevinməyə vaxt yox idi, tapşırığın ikinci hissəsini yerinə yetirmək vaxtı çatmışdı.

Qaçıb keşikçiyə yaxınlaşdı və almanca ucadan dedi:

– Partlayışı eşitdiniz? Sizcə, orda ildırım çaxır? Amma səma aydındır, bir dənə də bulud gözə dəymir!

Keşikçi gözlərini döyüb bu qəribə zabitə baxırdı. Anlaya bilmirdi ki, indicə motosikletlə onun yanından ötmüş alman zabit qaranlıqda yenidən necə peyda oldu? Bəs motosikleti hanı? Keşikçi Triestdən eşidilən gurultu barədə də heç nə deyə bilmədi. Bəlkə, doğrudan da, ildırım çaxır? Zabitin dediyi kimi, başını qaldırıb qaranlıq səmaya baxdı – kəhkəşana səpələnmiş ulduzlar sayrışırdı. Keşikçi bütün bu suallara tutarlı cavab axtardığı üçün zabitin əlindəki tapançanı görmədi. Onsuz da, əl-qol ata bilməyəcəkdi, çünki alnının ortasından aldığı güllədən dərhal yerə yıxıldı. Bir neçə saniyədən sonra körpünün digər girişindən də atəş səsi eşidildi və ikinci keşikçi zərərsizləşdirildi.

Frits qaça-qaça gəldi, dostlar körpünün düz ortasında kazarmadakı əməliyyatın uğurla başa çatması münasibətilə bir-birini təbrik etdi. Mixaylo kəndir nərdivanı körpüdən salladı, Frits də dələ kimi tullanıb nərdivanla istinad dayağının üstünə endi, xüsusi hazırlanmış ingilis minasını ora yerləşdirib detonatorun məftilini darta-darta yuxarı qalxdı. Bütün bu proses cəmi üç dəqiqə çəkdi. Hər ehtimala qarşı,

Mixaylo avtomatı hazır tutmuşdu. Növbəti istinad dayağına Mixaylo endi və beləliklə, dostlar bir-birini əvəz edə-edə körpünün bütün dayaqlarına mina yerləşdirdi. Qatarın körpüdən keçməyinə hələ altı dəqiqə vardı. Mixaylo bütün detonatorların naqillərini partladıcı qurğuya qoşub gözləməyə başladı. Çayın sağ sahilində, kolların arxasında gizlənmişdi. Havalar quraqlıq keçdiyindən çayda suyun səviyyəsi azalmışdı. Mixaylo işləri yekunlaşdırana qədər Frits keşikçilərin meyitini kənara çəkib ciblərini yoxladı, silah, patron, sənəd, təzə xrom uzunboğaz çəkmələri götürdü. Yoldaşlarının çoxu yırtıq çəkmədə gəzirdi, düşündü ki, meyitlərə bu çəkmələr artıq lazım olmayacaq.

Qatar, həmişəki kimi bu dəfə də gecikmədi. Ümumiyyətlə, Mixaylo sloven qatarlarının hərəkət cədvəlindən şikayətlənə bilməzdi – gecikmə nadir hallarda baş verirdi. Amma bu qatarın sərnişinləri, bəlkə də, gecikmək üçün hər şeydən keçməyə hazır olardılar – körpüdə onları Mixaylonun ölüm saçan minalarının gözlədiyini bilmirdilər! Halbuki qatar geciksəydi, yaxud körpüdən keçməsəydi, hamısı sağ qalardı! Təkərlərin taqqıltısından əvvəl sərxoş sərnişinlərin almanca oxuduğu mahnı sədalarını eşitdi – bu, ölümə tələsən əsgərlərin son nəğməsi idi:

***Die blauen Dragoner sie reiten***
***mit klingenden Spiel durch das Tor ...***

***(Mavi geyimli cəngavərlər***
***Şən mahnı oxuya-oxuya darvazadan keçdilər...)***

Mixaylo gizləndiyi yerdən boylanıb diqqətlə vaqonlara baxdı, əmin oldu ki, qatar alman əsgərləri ilə doludur.

“Pemtsin kəşfiyyat məlumatları həmişə olduğu kimi düzgündür!” – düşündü və çöhrəsinə xoş təbəssüm qondu.

Lokomotiv və vaqonlardan ikisi körpünün qarşı tərəfinə çatanda partlayıcı qurğunun düyməsini basdı. Dörd minanın partlayışı ona məşhur bir simfoniyanın uvertürasını xatırlatdı, digər detonatorlar da işə düşəndə isə zülmətdən əsər-əlamət qalmadı, sanki günəş ətrafa şölə saçdı. Vaqonlar körpüdən çaya yuvarlanır, adamlar havada uçurdu. Bir-birinə sürtünən metalın tükürpədici səsindən, insan bağırtısından qulaq tutulurdu. Sonuncu vaqon körpüdən gurultu ilə çaya düşəndən sonra ani sükut yarandı. Vaqonları bürümüş alov ərşə qalxır, tüstüdən göz-gözü görmürdü. Güclü şimal-qərb küləyi yanğını daha da qızışdırır, dumanı ətrafa yayırdı.

Mixaylo və Frits motosikletə minib gözdən itdilər. Triestə doğru gedirdilər, yamaclardan birinə çatanda dayanıb yanan kazarmalara baxdılar. Frits sevinclə bildirdi ki, kazarmaların altısı da partlayıb, xarabalığa dönüb.

Mixaylo dedi:

– İndi əsas vəzifə sağ-salamat düşərgəyə qayıtmaqdır. Məncə, bunun da öhdəsindən gələcəyik. Plana əsasən, Qədirin qrupu on dəqiqədən sonra qayıtmalıdır.

Mixaylo tapşırıqdan qayıtmış qrupları sağ-salamat görəndə döyüşçüləri bir-bir bağrına basıb öpdü, sanki dünyanı ona bağışlamışdılar...

## XXXIII

*Ömrüm kam almayıb çatmadı başa,*
*Könlümün şüşəsi dəyibdir daşa.*
*Bir namə yazmadım yara, yoldaşa,*
*Xəzan yarpağıtək solğunam, a dost.*

*Gecə ay üzünə salırkən işıq,*
*Verir camalına hərdən yaraşıq.*
*Adria! Bil, sənə olmaram aşıq,*
*Mən öz Xəzərimə vurğunam, a dost.*

***M.Hüseynzadə***

Onlar Rençeyə qayıdandan sonra Saşa və Qədir də tapşırığın dəqiq yerinə yetirilməsi barədə raport verdi. Saşa dedi ki, kazarmalardan birində kart oynayan iki zabitə atəş açmağa məcbur olub. Həmin zabitlərdən biri səs eşidib və qaranlıq dəhlizə çıxıb. Alman formasında olan partizanı öz əsgəri bilib və bağırmağa başlayıb. Saşa da onun səsini kəsmək üçün alnından bir güllə vurub. İkinci zabit atəş səsi eşidən kimi pişik kimi şkafın arxasına girib. Amma bu da dadına çatmayıb, Saşanın gülləsinə tuş gəlib.

Mixaylo əməliyyatdan razı qalmışdı:

– Hə, dostlar, hər şey çox asan və rahat keçdi, düz demirəm? Allah bizi qorudu, nəzərlərini üstümüzdən əskik etmədi!

Mixaylo bir neçə gündən sonra qərargaha gəlib son əməliyyat barədə Pemtsə məlumat verdi. Komandirin gözləri sevincdən gülürdü, əlini Mixaylonun çiyninə qoyub xeyli təriflədi:

– Əziz Mixaylo, son təxribat əməliyyatı məktəb dərslikləri üçün əla nümunədir: düzgün seçilmiş hədəf, düşünülmüş plan, qüvvələrin səmərəli və bərabər bölüşdürülməsi, partlayıcı miqdarının düzgün müəyyən edilməsi, effektiv taktiki fəndlər, vaxtın düzgün seçilməsi, düşmənə maksimum zərbə, əməliyyatı itkisiz başa vurmaq, plana uyğun geri çəkilməyiniz, bir sözlə, Mixaylonun yaratdığı növbəti incilərdən biri! Yeganə itkimiz 200 kiloqram partlayıcıdır. Vəssalam! Ona da heiyfsilənməyə dəyməz! Çünki bu partlayıcıdan hələ yarım ton varımızdır, ingilislər nə qədər lazımdırsa, göndərir! Təbrik edirəm, əziz dost və korpus qərargahı adından minnətdarlığımı bildirirəm! Ordeni sonra alarsan! Ha-ha-ha!

– Pemts, əziz dostum, tərifi sevməsəm də, xoş sözlərə görə təşəkkür edirəm. Müdrik komandir kimi sənə yüksək dəyər verirəm, amma təkcə məni tərifləmək düzgün deyil, çünki işin əsas hissəsini yoldaşlar görüb, tapşırığın öhdəsindən layiqincə gəliblər. Cavanlara söz ola bilməz, Pemts, hamısı igid və bacarıqlı uşaqlardır!

– Başqa cür ola da bilməz, Mixaylo! Təxribat dəstəsinə yalnız bacarıqlı zabitləri cəlb etmişik. Onlar tapşırılan hər işi dəqiq yerinə yetirməyə qadirdir, təxribatçı kimi düşmənə böyük zərbə vurmağı bacarırlar. Belə cavanları barmaqla saymaq olar. Sənin kimi usta təxribatçıya, indi təcrübəni öyrətdiyin bu qəhrəman gənclərə həmişə rast gəlmək mümkün deyil. Düşündüm ki, belə gənclərdən ibarət bir qrup yaradaq, sən də təxribat sənətinin sirlərini onlara öyrədəsən. Məncə, pis alınmadı, hə?

– Bəli, həyat paylaşdıqca gözəldir. Bilik və bacarığını başqasına öyrətməkdən savab iş yoxdur. Bilik elə bir sərvətdir ki, onu paylaşdıqca azalmır, əksinə, artır, özün də müdrikləşirsən!

– Uşaqlardan razılıq etməyin məni sevindirir, əminəm ki, onlardan əsl döyüşçü alınacaq. Xahiş edirəm: təlimləri bir ay da davam etdir, həm də qayğını onlardan əsirgəmə! Məncə, bir müddət Triestdə, Opçina kəndində görünməsən yaxşıdır. Deyirlər, almanlar orda, az qala, hər evin qapısında fotoşəklini asıb. Həyatını riskə atma!

– Faşistlər başıma çox az pul qoyub. Bax bu məni məyus edir, tapşırmaq lazımdır ki, məbləği artırsınlar, ha-ha-ha!

– Xoşbəxtlikdən, plakatlarda fotoşəklin keyfiyyətsiz alınıb, yağışdan mətbəə rəngi solub. İndi bu plakatlarda yerli qızların ağlını başından alan oğlanı görmək mümkün deyil!

– Pemts, həmişəki kimi haqlısan. Bir məsələ də var: foto insan gözəlliyini heç vaxt dolğun əks etdirə bilməz. Bu, xüsusən də qadınlara aiddir. Kağız üzərində onların gözəlliyi həmişə bəsit alınır.

– Sənin də fikrin-zikrin qızların yanındadır. Məncə, təkcə əməliyyat zamanı bu barədə düşünmürsən. Sağlam, cüssəli cavanla göz qamaşdıran xanımın dostluğundan gözəl nə ola bilər? Ha-ha-ha!

Pemts xeyli güldü. Dostunu şən əhval-ruhiyyədə görmək Mixayloya ləzzət verirdi. Çünki Pemtsi gülməyə məcbur etmək hər adama nəsib olmurdu. Təklikdə yüz ilin dostları kimi söhbət edirdilər. Pemts ona göz vurub əlavə etdi:

– Məncə, Sahilyanı diyarda qızların sənin kimi oğlana böyük ehtiyacı var! Onsuz da, burda, Krasda kişi qıtlığıdır...

– Baş üstə, yoldaş komandir, əmrinizi canla-başla yerinə yetirməyə hazıram!

– Əlbəttə hazırsan! Belə əmrdən kim boyun qaçırar? Təsəvvür elə ki, quzunun ayaqlarını kəndirlə bağlayıb pələngin qəfəsinə atırsan! Mixaylo, amma bir məsələni də diqqətinə çatdırmaq istəyirəm ki, qərargahın ali rütbəli zabitləri sənin məhəbbət macəralarınla maraqlanır.

– Pemts, bizim zəmanədə aydan arı, sudan duru olsan da, şər-böhtandan yaxanı qurtara bilməzsən. At çapanda tozanaq qoparar. Amma bu tozanaq atın belində oturmuş çaparın vecinə deyil: çünki irəli baxır, yeni zirvələrə doğru çapır!

– Mixaylo, narahat olma, Dule ilə mən həmişə səni müdafiə edirik. Yaxşı, mətləbdən uzaqlaşmayaq. Əziz dostum, yaxşı dincəlmək üçün kifayət qədər vaxt lazımdır. Uğurlu əməliyyat münasibətilə sən başda olmaqla, təxribat qrupunun bütün üzvlərinə mükafat kimi ongünlük məzuniyyət verirəm. Ancaq təkrar edirəm: ayağın Triestə dəyməsin, indi ora çox təhlükəlidir, it yiyəsin tanımır! Gülləni alnından vurarlar, heç adını da soruşmazlar! Başının salamat qalmasını istəyirsənsə, düşərgədən kənara bir addım da atma! Fərqi yoxdur hansı düşərgədən, təki Triestdən uzaq dur! Yerli polis şöbələrinin hamısında əvvəllər Mussolininin rəsmi portreti asılan yerləri indi sənin fotoşəklin “bəzəyir”. Bunu əmr kimi qəbul etmə, Mixaylo, sadəcə, bir dost məsləhətidir! Bilirsən ki, səni qardaşım kimi sevirəm, qayğına qalıb qorumalıyam...

– Yaxşı ki, məni yox, portretimi asıblar! Ha-ha-ha! Yaxşı, Pemts, təsadüfən lazım olsam, ya da məni görmək istəsən, ongünlük məzuniyyətin ilk beş gününü Vitovlye kəndində, sonrakı beş günü isə Rençe kəndində keçirəcəyəm. Uşaqlarla birlikdə dincələcəyik. Məzuniyyət dövründə dəstə üzvləri ilə təxribatçılıq üzrə təlim kursunu davam etdirəcəyik. İndi uşaqlar az-çox təcrübə əldə edib, həm də həvəsə gəlib. İstədiyin vaxt məni görə bilərsən. Etibarına və dəstəyə görə təşəkkür edirəm, Pemts! Məzuniyyət barədə eşidəndə uşaqlar yaman sevinəcək. Bir söz də deyim: xahiş edirəm, məzuniyyətdən sonra məni

Saşa və Qədirlə Riekaya göndər. Düşünürəm, Birinci Türküstan diviziyasından olan dostlarım artıq bizim tərəfimizə keçməyə hazırdır. Nə vaxtdır onlardan biri ilə yazışıram – leytenant Sabir Aslanovla. Çox xeyirxah adamdır, əla şahmat oynayır, özün görəcəksən. İndi təbliğat vərəqələrini legionerlər arasında yaymaq qalıb! Pemts, hər şeyə başımla cavabdehəm, tezliklə bizim rus dəstəsi batalyona çevriləcək!

– Mixaylo, bilirsən ki, fərarilik məsələsində yalnız sənə bel bağlayıram. IX korpusun ən yaxşı təxribatçısı yox, həm də əla təşviqatçı və yaxşı təşkilatçısan. Balkanlarda, elə başqa yerlərdə də əsgərlər bizə qoşulmaq üçün almanların yanından fərarilik edir! Hamısı da sənin sayəndə və bilavasitə köməyinlə! Hələ ki bu işi səndən yaxşı bacarana rast gəlməmişəm. Ona görə də mütləq Riekaya baş çək, bax gör nə etmək mümkündür. Fərarilərin qəbul edilməsi ilə bağlı bütün məsələləri Maksimlə razılaşdır, yaxşı?

– Bir faktı da nəzərinə çatdırmaq istəyirəm. Bir-iki həftə əvvəl Triestin sahilyanı ərazisindən keçəndə burnuma ürəkbulandıran şirintəhər bir qoxu gəldi. Bu qoxu mənə Moskva döyüşlərini xatırlatdı. Yanıb külə dönmüş insan cəsədlərinin üfunətini ilk dəfə Moskva cəbhəsində hiss etmişdim. Hə, bələdçi danışdı ki, sahildən bir az aralıda düyü zavodunun xarabalıqları yerləşir. Almanlar burda sloven, italyan, xorvat və yəhudi millətindən olan insanlar üçün kütləvi qırğın, işgəncə kameraları düzəldiblər. Bələdçi söylədi ki, faşistlər buranı krematoriyə çevirib, hər gecə insanları diri-diri yandırır. Qərara gəldim ki, növbəti əməliyyat bu zavodda keçirilməlidir, bəlkə, əsirləri ölümün pəncəsindən xilas edə bildik. Partizanlardan çoxunu bu dəhşətli krematorida yandırıblar. Pemts, ümid edirəm, sən bu təkliflə razılaşıb əməliyyatın keçirilməsinə razılıq verərsən!

– Mixaylo, bu dəhşətli həbsxananın adı gələndə qəlbimdən qara qanlar axır, günahsız insanların ağrı-acısını, onlara verilən işgəncələr barədə xəbərləri eşidəndə ürəyim dözmür. Ona görə də bu əməliyyatı hazırlamaq üçün sənə əlimizdən gələn köməyi əsirgəmərik. Diviziya qərargahında həbsxananın dağıdılması ilə bağlı dəfələrlə məsələ qaldırılıb. “Aynzatskommando Raynxard” barədə eşitmisən? Şərq cəbhəsində sürətli hərbi əməliyyatlar idarəsi belə adlanırdı. Burada xüsusi hazırlıq keçmiş hərbçilər xidmət edirdi. Onların əsas vəzifəsi aşağı irqlərə mənsub xalqları məhv etmək idi.

İtaliya təslim olandan sonra onları slovenlərə qan uddurmaq üçün Sahilyanı diyara göndərdilər. Məqsəd bu idi ki, qələbə təqdirində bu ərazilərin Reyxə birləşdirilməsini təmin etsinlər. Bu xüsusi dəstələr Triestin Müqəddəs Subbota qəsəbəsində yerləşən keçmiş düyü

zavodunun xarabalıqlarını özləri üçün məskən seçib orada hərbi baza yaratdılar. Bu qüvvələrə rəhbərlik əla təşkilatçılıq qabiliyyətinə malik, "Vəhşi xristian" ləqəbli komissar-kriminalist Xristian Virtuya həvalə olundu. Mixaylo, bu həbsxanada təxribat törətməklə bağlı qərar tezliklə əlində olacaq! "İşgəncə bazası" barədə məsələni yenidən gündəmə gətirdiyin üçün sənə minnətdaram! Bu həbsxana Sahilyanı diyarın bütün partizanları üçün utanc yeridir. Oranı çoxdan məhv etmək lazım idi! Bizim uşaqlar komendant Virtunu aradan götürdü. Hələ may ayında pusqu qurub kazinodan çıxan Virtu və onun əlaltılarını öldürdülər. Amma yeni komendant heç də ondan geri qalmır, bəlkə, Virtudan da qəddardır. General Qloboçnik Şərq cəbhəsində xüsusi təyinatlı qoşunlara rəhbərlik edib. Almanlar bu qoşunlara insanlara işgəncə verməkdən həzz alan, yeni işgəncə üsulları tapmaqda mahir olan caniləri toplayıb. Məsələ burasındadır ki, faşistlər həmin o düyü zavodunu alınmaz qalaya çevirib. Bu ilin yazından isə hərbi baza həbs düşərgəsi və insanları diri-diri yandırmaq üçün krematori kimi fəaliyyət göstərir. Obyekt güclü mühafizə olunur, bütün giriş-çıxışlar nəzarətə götürülüb, hücum etmək mümkün deyil. Geri çəkilmək üçün yalnız bir yol var: təxminən iki yüz metr aralıdakı İstrisk küçəsi. Ora da çox dardır, general Günterin rəhbərlik etdiyi SD bölməsinin kazarması da yaxınlıqda yerləşir, silahlı əsgərlər dərhal küçəni bağlayır. Həbs düşərgəsində isə almanların təlim keçdiyi bir neçə italyan SS dəstəsi gecə-gündüz növbə çəkir.

– Əgər belədirsə, həbs düşərgəsinə girmək üçün hiylə işlətmək lazımdır. Alman forması geyinib saxta sənədlər düzəltməli, özümüzü Berlindən gələn SS inspektorları kimi təqdim etməliyik. Bu, inandırıcı görünər. Bizdə olan SS forması iki bölüyə kifayət edər, işi elə quraraq ki, guya bu iki bölük komissiyanı müşayiət edir. Əsirləri ölümdən xilas edib daşımaq üçün əlavə bir neçə yük maşını tapmaq lazımdır. Plan belədir: əvvəlcə komendant məni düşərgə ilə tanış etməlidir, sonra əmr verərəm ki, bütün əsgərləri meydançaya toplasınlar. Hamısını bir yerə yığıb qırmaq asandır. Bu əməliyyatla eyni vaxtda Triestin müxtəlif rayonlarında təxribat törədib almanların diqqətini yayındırarıq, geri çəkiləndə də kimsə bizə mane olmaz. Əgər razısansa, dərhal işə başlayıb əməliyyat üçün alman yük maşınları tapım. Buna oxşar əməliyyatı apreldə, Rus İvan və rus bölüyünün bir neçə üzvü ilə birlikdə həyata keçirmişdik. O vaxt Qara Qala yaxınlığındakı elektrik xəttini sıradan çıxarmışdıq. Bilirdik ki, xətdə nasazlıq yaranan kimi Triestdən növbətçi briqada gələcək. Pusqu qurub yük maşınını ələ keçirdik. Sonra digər briqadanı gözləyib onların da yük maşınını əllərindən aldıq. Əməliyyatı

uğurla başa vurub elektrikləri azad etdik, hamısı Triestə qayıtdı. Şərq cəbhəsində də bu taktikanı dəfələrlə sınaqdan çıxarmışıq.

– Hə, Mixaylo, düyü zavoduna hücum planını əla fikirləşmisən. Sənə yaxından bələd olduğum üçün əminəm ki, hər şey qaydasında olacaq. Ancaq qərargahla məsləhətləşməliyəm, çünki almanların diqqətini yayındırmaq üçün bütün briqada ayağa qalxmalıdır, – Pemts razılıqla dilləndi. Bu məsələ ürəyincə idi, çoxdandır həbs düşərgəsinə hücum əməliyyatı barədə düşünürdü. – Bir az səbir elə, Dule ilə məsləhətləşim. Bilirsən, Mixaylo, qırx birdə almanlar bütün ailəmi Bronadan sürgün edib Mauthauzendəki həbs düşərgəsinə saldı. Təsadüfən evdə yox idim, dostumgilə şahmat oynamağa getmişdim, yoxsa mən də canımı qurtara bilməyəcəkdim. Axşam evə qayıdanda gördüm ki, hər şeyi dağıdıb ailə üzvlərimi də həbs edib aparıblar. Hadisəni qonşulardan öyrəndim. O vaxtdan, Mixaylo, faşistləri görməyə gözüm yoxdur, onların qanını içməyə hazıram. Böyük, mehriban ailəmiz vardı, xoşbəxt yaşayırdıq...

– Hə, əziz dostum, yəqin, buna görə bir-birimizi yaxşı başa düşürük. Çünki faşist əclaflarına nifrətimizin kökündə eyni səbəb dayanır!

Bu iki həqiqi dost gecədən xeyli keçənədək çay içib dərdləşdi, siqareti bir-birinə caladı. Mixaylo qaranlıqda gözdən itəndən sonra Pemts nazik bığlarına sığal çəkib siqaret yandırdı və düşündü: “Səbəbini özüm də bilmirəm, ancaq bu oğlana dərin rəğbət bəsləyirəm. Son vaxtlar ona görə çox narahatam, iki dəfə xahiş etmişəm ki, Triestə getməsin. Amma Mixaylonu fikrindən daşındırmaq çətindir, gözü həmişə ordadır!”

Pemts mahir strateq, təcrübəli əks-kəşfiyyatçı və bacarıqlı müstəntiq olsa da, ağlına belə gətirmirdi ki, Mixaylo bu günlə yaşayan adamdır və gözəl qızlar həmişə onu cəlb edir. Mixaylonun qadınlara münasibəti dəyişməz qalırdı: hamısını dərin məhəbbətlə sevir, qayğı və ehtiram göstərirdi. Qərb sivilizasiyasının tipik nümayəndəsi kimi Pemts çoxarvadlılığın, eyni vaxtda bir neçə qadına sevgi bəsləməyin nə demək olduğunu başa düşmürdü. Həmişə düşünürdü ki, məhəbbət sevən adamın əlində sehrli çubuğa bənzəyir. Özü qadınlara etinasız münasibət bəsləyir və intim hisslərini soyuqqanlıqla gizlətməyi bacarırdı. Amma Mixaylonun qadınlarla xoş rəftarının haradan qaynaqlandığını dəqiq müəyyənləşdirə bilmirdi. Məlum olan təkcə bu idi ki, Mixaylo kimi adam qadını bəzən bir sözlə, adi baxışla ram edir, sonra da məhəbbətə “əsir” düşürdü.

“İnsan sevdiyi qadına görə ölümə də gedə bilər, burda heç bir qəbahət yoxdur! Dünya durduqca belə olub və cəngavərlik, qəhrəmanlıq

heç nə ilə əvəzlənə bilməz!” – Mixaylo Pemtslə görüşüb ayrılandan sonra bu barədə düşünürdü. Məzuniyyət barədə şad xəbəri dostlarına çatdırmağa tələsirdi. Əsgərlər onu fermada gözləyirdi, piyada beş dəqiqəyə çatacaqdı. Yenə də Pemtslə söhbəti xatırladı, yadına düşdü ki, komandiri ona Triestə getməmək barədə iki dəfə xəbərdarlıq etdi. Məəttəl qalıb düşündü: “Pemts nə vaxtdan mənə görə qorxmağa başlayıb? Bu da təzə çıxdı?” – Mixaylonu gülmək tutdu, dostunun qayğısı ürəyinə yağ kimi yayıldı. Aralarında yaş fərqi az olsa da, Pemtsin ona ata gözü ilə baxmağından qürur hissi duyurdu. Pemts bu cənublu oğlanı həmişə başa düşür, xırda günahlarını bağışlayır, ata kimi dəyərli məsləhətlər verirdi. Mixaylo da bu etibardan heç vaxt sui-istifadə etmir, onun hörmətini saxlayırdı. Pemts Mixayloya sərbəstlik vermişdi, qərarlarını da daim dəstəkləyir, rəhbərliklə mübahisəli məsələ yarananda dostunun tərəfini tuturdu. Pemts yaxşı bilirdi: Mixaylo ilə əmr formasında danışmaq mənasızdır, əgər qarşısına məqsəd qoyubsa, onu yolundan döndərmək, dilə tutub çəkindirmək mümkün deyil!

“Onsuz da, sözlərim təsir etməyəcək. Mixaylo yalnız tabe olmaq istədiyi əmrləri yerinə yetirir!” – Pemts düşünüb gülümsündü.

Pemts döyüşçülər qarşısında nitq söyləyəndə həmişə Mixaylonu nümunə göstərir, igid əsgər olmağını, ümumi işə qəlbən və ruhən bağlılığını müsal çəkirdi. Pemtsin rütbəsi başqa komandirlər kimi, Mixaylonun şöhrəti sayəsində artmamışdı. Halbuki bu şöhrətə çoxları həsəd apara bilərdi. Mixaylonun şöhrəti Belqrad, Moskva, London, hətta Nyu-Yorka yayılmışdı. Pemts elə komandirlərdən idi ki, Mixaylonun bütün əməliyyatları barədə geniş məlumatı vardı. Bu oğlanın qısa müddət ərzində Sloveniyanın şəhər və kəndlərində, əhali arasında əfsanəvi partizana çevrilməsi onu əsla təəccübləndirmirdi. Qədimdə insanlar dara düşəndə həmişə müqəddəsləri köməyə çağırırdı, indi isə Mixaylonun adı Kras əhalisinin dilindən düşmürdü:

– Ah, bircə bizim Mixaylo gəlib hər şeyi partlatsaydı, nə yaxşı olardı!

Cavan oğlanlar tərs qızları ram edə bilməyəndə deyirdi:

– Təxribatçı Mixaylo gəlib ipinin üstünə odun yığar!

Yerli sakinlərdən bəziləri pıçıldaşırdı ki, Mixaylo ölüm və qisas mələyi Əzrayıldır, partizan cildinə girmiş Müqəddəs Mixaildir, xüsusi missiya ilə göndərilib: alman-italyan laməzhəblərini bu dünyadan qovsun! Onu güllə götürmür, guya dəfələrlə ölüb-dirilib... Adamların ağzını necə yummaq olar? Yerli qızlar bu yaraşıqlı oğlanın diqqətini cəlb etmək üçün dəridən-qabıqdan çıxır, bəzən bəhsə girir, hətta dalaşırdı.

Pemts vəzifəpərəst olmasa da, cəmiyyətdə tutduğu mövqeyi yüksək qiymətləndirirdi. Maddi cəhətdən korluq çəkmirdi, əksinə, korpusda onu əhatə edən insanlara da yardım əli uzadırdı. Bununla yanaşı, mənəviyyatı çürük adamları, satqın və xainləri üzə çıxarıb qarışqa kimi əzirdi. Növbəti səfərbərlikdən sonra briqada üzvlərinin sayı ikiqat artmışdı, bu da Pemtsi narahat edir, qayğılarını artırırdı. Çünki say çoxaldıqca, düşmən qüvvələrin partizan sıralarına soxulmaq ehtimalı da artırdı.

Mixaylo kimi Pemtsin də faşistləri görən gözü yox idi və bu nifrət onları birləşdirirdi. Məhz bu nifrət hər iki partizan arasında dostluq münasibətlərinin əsasını təşkil edirdi. Mixaylo ilə söhbətə başlayanda tezliklə məlum olurdu ki, onlar eyni tərzdə düşünür, sanki bir-birinin ürəyini oxuyur. Bəli, bu adamları etibarlı dost adlandırmaq olardı. Pemts rəsmi surətdə Mixaylonun komandiri sayılırdı, ancaq Triestdə bilavasitə komandiri Darko idi. O da Pemts kimi, Mixaylonu bir sözdən, işarədən anlayırdı. Müxtəlif əməliyyatlara hazırlıq zamanı günlərlə Triestdə birlikdə olmuşdular, həm də Darko təcrübəli təxribatçını qiymətli kəşfiyyat məlumatları ilə təchiz edirdi. Bu məlumatlar olmadan Mixaylo Triestdə əl-qol ata bilməzdi.

Darko xidmətə Qradnik briqadasında istehkam bölüyünün komandiri kimi başlamış, tezliklə istedadlı və savadlı kəşfiyyatçı, mahir istehkamçı kimi Sahilyanı ərazilərdə fəaliyyət göstərən təxribat qruplarının ümumi komandiri təyin edilmişdi. Yaratdığı kəşfiyyat şəbəkəsi üzvlərinin çoxunu düşmən təşkilatlarında, təcavüzkarın hərbi aparatında və əks-inqilabçı satqınların arasında yerləşdirmişdi. Triestdə onu “Voyko” adı ilə tanıyırdılar, Mixaylo isə bu adamı “Darko” deyə çağırırdı. Gülərüz, itibaxışlı cavan idi, Tolmində böyümüşdü və oranın tarixini gözəl bilirdi. Darko bir dəfə söhbət zamanı demişdi:

– Bilirsən, Mixaylo, ötən həftə Brkinoya tələsəndə sənin metodunu xatırlayıb almanların əlindən hərbi yük maşınını aldım. Sejanadan Kozinaya ərzaq aparırdılar. Oturdum sürücünün yanında. Lovkaya çatanda məcbur etdim ki, maşını Brkinoya döndərsin. Yolda alman sürücü mənə bir neçə dəfə pivə uzatdı, imtina etdim. Maşının kabinəsi isti idi, mən də gecə yatmamışdım, qorxdum ki, yuxu tutar. Gördüm, sürücü əl çəkmir, hiss etdim ki, pivə şüşəsi ilə başımı əzmək istəyir. Cəld tərpənib avtomatdan atəş açıb nəfəsini kəsdim. Maşın yoldan çıxıb dərəyə yuvarlandı. Yolun qalan hissəsini piyada getməyə məcbur oldum, Brkinoya az qalmışdı...

Almanlar 1944-cü ilin yayından Darkonu izləməyə başlamışdı. Triest faşistlərə çuğulluq edənlərlə dolu idi, bu da gizli fəaliyyəti xeyli

çətinləşdirirdi. Çetniklər, dombrantetslər Qloboçnikin polis və SS xəfiyyələri ilə sıx əməkdaşlıq edirdi.

Mixaylo Qoriş vilayətində fəaliyyət göstərəndə daim Tsarın istehkamçı-təxribat qrupu ilə əlaqə saxlayırdı. Qrupa Zlatko adlı zabit rəhbərlik edirdi. Bu adam yerli kommunist partiyası təşkilatının təmsilçisi idi və Mixaylo ilə aralarında soyuqluq yaranmışdı. Ona görə də Zlatko ilə Tsar vasitəsilə əlaqə saxlayırdı. Zlatko ilə bir-iki dəfə görüşmüş, söhbət Mixayloda xoşagəlməz təəssürat doğurmuşdu. Bununla belə, Zlatkonun satqın ola biləcəyini ağlına gətirmirdi. Amma daxilindən gələn bir hiss ona bu şəxsə etibar etməməyi söyləyirdi, Mixaylo daxili səsə, intuisiyaya inanmağa adət etsə də, bu fikri hər dəfə özündən uzaqlaşdırırdı.

Mixaylo uşaqlıqda İqor Stravinskinin[1] kitabını oxumuş və oradakı bir fikir yaddaşına həkk olunmuşdu: “İntuisiya heç vaxt səhvə yol vermir, əgər səhv edirsə, deməli, intuisiya deyil”.

Mixaylo ürəyində sevinirdi ki, bundan sonra Zlatko ilə görüşməyə ehtiyac qalmayacaq. Amma son vaxtlar Zlatkonun adı gələndə Tsar özünü saxlaya bilməyib bu adamın ünvanına söyüş yağdırırdı. Bu ona görə idi ki, Zlatko Tsarın keçmiş sevgilisinə nişanlanmışdı, Tsar isə bu qızı hələ də sevirdi.

Mixaylo deyəndə ki, Zlatkonun satqın ola biləcəyindən şübhələnir, Tsar bu sözləri ciddi qəbul etmədi. Məhz bu fakt bir neçə aydan sonra onun və döyüşçü dostlarının taleyini həmişəlik dəyişdi.

## XXXIV

Krasda kəndlərin çoxu dağ yamaclarında, qayalıq ərazilərdə yerləşir. Təbiət sanki bu yaşayış məskənlərinə daşdan çəpər çəkib. Əsrlər boyu bu qayalar kəndləri düşmən basqınlarından qoruyub. Kirəmit örtüklü evlər çay daşından, qaya parçalarından bir-birinə sıx tikilib. Daşlar insanları qışda küləkdən, qasırğadan, yayda isə qızmar günəş şüalarından qoruyub. Adamlar daş-kəsəyi təmizləyib meyvə bağları, əkin sahələri salıb. Tanrı bu yerlərə bənzərsiz gözəllik bəxş edib...

Mixaylo Krasa səfər zamanı tez-tez Soş briqadasındakı rus batalyonuna baş çəkirdi. Burada onu cəsur təxribatçı və bacarıqlı təşkilatçı kimi tanıyırdılar. Hətta ucqar kəndlərin sakinləri də dəstə-dəstə gəlib Mixaylo ilə tanış olur, yerlərdəki vəziyyət barədə ona

[1] **İqor Fyodoroviç Stravinski** (17.06.1882 – 06.04.1971) – məşhur rus bəstəkarı, mahir pianoçu və dirijor

məlumat verirdilər. Mixaylo korpusun təxribat qrupuna rəhbərlik edir, qardaş xalqın azadlığı və xoşbəxt gələcəyi uğrunda mübarizə aparırdı.

Qızmar iyul günlərinin birində Trnovo vadisində yerləşən Soş briqadasının rus batalyonuna hərbi nümayəndə heyəti gəldi. Qonaqlara – Sovet hərbi missiyasına polkovnik Rıbaçenko başçılıq edirdi. Təntənəli tədbirə Mixaylonu da dəvət etmişdilər. Sarısaç rus polkovnikinin uzunboğaz çəkmələri par-par yanırdı, hiss olunurdu ki, dünyanın ən güclü ordusunun təmsilçisi kimi zahiri görkəminə ciddi fikir verir – üzü təmiz qırxılmış, şalvarına səliqə ilə ütü çəkilmişdi. Geyiminə uyğun olaraq özünü təkəbbürlü aparırdı. Polkovnik Rıbaçenko sıraya düzülmüş batalyonun qarşısında nitq söylədi:

– Yoldaşlar! İcazənizlə, Sovet ordusu adından doğma Vətənin salamlarını sizə yetirim! Sloven milli azadlıq ordusunun Baş Qərargahında mənə rus batalyonunda xidmət edən partizanların döyüş şücaətləri barədə geniş məlumat verdilər. Fəxr edirik ki, Sloveniya milli azadlıq ordusunun sıralarında cəsur sovet əsgərləri döyüşür. Onlar Yuqoslaviya xalqına faşizmlə mübarizədə yaxından kömək edir. IX korpusun komandanlığı hesab edir ki, sizin uğurlarınız vətənpərvərliyin bariz nümunəsidir. Bu, sovet adamlarının yüksək mənəvi keyfiyyətlərinə əyani sübutdur.

Biz həmçinin IX korpusun təxribat qrupunda xidmət edən cəsur təxribatçı, yoldaş Mixaylonun da şücaətlərindən xəbərdarıq! – polkovnik bu sözləri deyəndə sağ tərəfində dayanmış Mixayloya baxıb razılıqla başını tərpətdi. – Bilirəm, Şərq cəbhəsində döyüşən sovet əsgərlərindən fərqli olaraq, sizin üçün çox çətindir. Çünki burada arxa cəbhə, silah istehsal edən fabrik və zavod, əkin-biçin üçün geniş şərait yoxdur. Avropanın mərkəzində, yad torpaqlarda, yerli dili bilmədən aşkar və gizli düşmənlə döyüşmək asan deyil. Amma inadkarlığınız adamı heyran qoyur, çünki davanın od-alovundan keçməklə bərkimisiniz. Əminəm ki, bundan sonra da bütün çətinliklərə bacarıqla sinə gərəcəksiniz. Sizə əlimizdən gələn köməyi göstərməyə hazırıq. Sovet hərbi missiyası IX korpusun partizanları ilə görüşə məhz bu məqsədlə gəlib.

Sovet Ordusunun şanlı qələbələri barədə, yəqin, məlumatınız var. İndi faşist yuvasını darmadağın edib bu cəlladların nəfəsini kəsmək lazımdır. Əziz dostlar, kimsənin şübhəsi olmasın: sovet əsgəri müharibəni uğurla başa vurub doğma Vətənə qalib kimi qayıdacaq!

Sonra polkovnik Rıbaçenko döyüşçüləri maraqlandıran suallara cavab verdi. Hamını cəbhədəki son vəziyyət, Qızıl Ordunun Qərbə hücumu maraqlandırırdı. Sovet hərbi missiyasının ilk səfərindən sonra

rus təyyarələri partizanlara silah-sursat, ərzaq bağlamaları atmağa başladı – əvvəllər bu işi müttəfiq qoşunları yerinə yetirirdi.

### XXXV

Türküstan diviziyasını ötən payız Şimali İtaliyaya köçürüb Birinci diviziyanı Riekada yerləşdirdilər. Mixaylonun vaxtilə xidmət etdiyi İkinci diviziya isə 1944-cü ilin yanvarında Triest yaxınlığındakı Opçina kəndinə gəldi. Legion bir neçə ay Polşada təlim keçərkən Mixaylo Birinci diviziyanın bütün alman zabitləri ilə tanış olmuş, hətta bəziləri ilə dostlaşmışdı. Sloveniyaya gələndən sonra İkinci Türküstan diviziyasının legionerləri dəstə-dəstə fərarilik edib, partizanların tərəfinə keçdiyi üçün fəaliyyətinə xitam verilmişdi. Mixaylo düşünürdü ki, indi növbə Birinci Türküstan diviziyasınındır, yəni bu qurum da tam heyətlə fərarilik etməlidir. Yayın əvvəlində Mixaylo motosikletlə dəfələrlə Riekaya gəlib həmyerlilərinə xəlvətcə baş çəkmişdi. Səfər zamanı onu Saşa və Qədir müşayiət edirdi. Onların da Birinci diviziyada çoxlu tanış-bilişi vardı. Mixaylo çantasında xeyli təşviqat vərəqəsi gətirmişdi, bunları Opçina kəndindən götürmüşdü.

Müharibədə almanların bəxti gətirmirdi, qələbə onlardan üz çevirmişdi. Faşistlər bütün cəbhə boyu geri çəkilirdi. Alman qəzetləri və radiosu bunu belə adlandırırdı: “Qoşunlarımız arxa cəbhədə, əvvəlcədən hazırlanmış mövqelərdə yerləşdirilir!” Müttəfiqlər artıq İtaliyanın şimal hissəsinə daxil olmuşdu. Ruslar bir aydan çox idi ki, Varşavanın girəcəyində mövqe tutub, məqam gözləyirdi.

Almanlar istər-istəməz bütün cəbhə boyu, həmçinin Fransada sahil müdafiə xəttindən geri çəkilirdi. Mixaylonun keçmiş legioner yoldaşları bir neçə ay idi ki, Qorski-Kotar[1] ərazisindəki partizan dəstəsində döyüşürdü. Tezliklə Türküstan legionunda hamıya aydın oldu ki, Mixaylo addım-addım iflasa yaxınlaşan alman ordusundan şərəflə fərarilik etmək üçün onlara son şans təklif edir. Legionerlər bu çağırışa biganə qalmadı: üç bölük və digər hərbi hissələrdən olan xeyli legioner partizanların tərəfinə keçməyə qərar verdi. Keçid planını Mixaylo hazırladı. Yay axşamlarının birində, diviziya əsgərləri Labində səhra təlimlərində olanda beş alman zabitini öldürüb qaçdılar. Sonra Mixaylo onlara saxta sənədlər paylayıb tam heyətlə Krasa apardı və Qradnik briqadasının partizan postuna təhvil verdi. Mixaylonun səmərəli fəaliyyəti sayəsində keçmiş legionerlər Sahilyanı diyarın cənub ərazisində fəaliyyət göstərən partizan birləşməsinə qoşuldu. Tezliklə, Bazoviş

---

[1]**Qorski-Kotar** – Xorvatiyanın şimalında yerləşən tarixi ərazi

briqadasının ikinci batalyonunda da fərarilərdən ibarət üçüncü rus bölüyü yaradıldı. İyuna qədər burada fərarilərdən ibarət iki bölük vardı. IX korpusun komandiri məcbur qalıb Bazoviş briqadasının üç rus bölüyünü Qradnik briqadasının rus bölüyünə birləşdirib vahid rus batalyonu yaratdı. Onun tərkibinə üç atıcı, minaatan, təsərrüfat bölükləri və sanitar qrupu daxil edildi.

Qradnik briqadasının komandiri, cüssəli, iti baxışlı, ziyalı təsiri bağışlayan Dule döyüşçüləri toplayıb dedi:

– Fevralın əvvəllərində Mixaylo beş yoldaşı ilə birlikdə Türküstan legionundan fərarilik edəndə biz rus dəstəsi yaratdıq. İki aydan sonra legiondan o qədər adam gətirdi ki, 32 fəraridən ibarət rus bölüyü təşkil etdik. Apreldə bölükdə səksən döyüşçü vardı. Tezliklə Bazoviş briqadasında bir rus bölüyü də yaratdıq. İndi Mixaylo Riekadan o qədər legioner gətirib ki, mən təntənəli surətdə rus batalyonunun yaradılmasını elan edirəm. Baş Qərargaha Mixaylonun ali partizan mükafatı ilə təltif olunması barədə iki dəfə təqdimat göndərmişəm. Ancaq belə hesab edirəm ki, əsl qəhrəmanın ordenə ehtiyacı yoxdur!

Komandirin sözlərini rus batalyonunun əsgərlərinə tərcümə edəndə Mixaylonun qəlbi iftixar hissi ilə döyünürdü. Özünə görə yox, legioner dostlarına görə fərəh hissi keçirirdi, çünki onlar faşistlərlə döyüşlərdə əsl şücaət və mərdlik nümayiş etdirirdi. Keçmiş legionerləri ən çətin və təhlükəli döyüş nöqtələrinə göndərirdilər. Rus batalyonu hər döyüşdə böyük itki verir, xeyli əsgər yaralanırdı. Amma sağ qalanlar növbəti döyüşdə həm özünün, həm də yoldaşının əvəzinə vuruşurdu. Bu adamlar əlbəyaxa döyüşün qaydalarını yaxşı bilirdi. Keçmiş legionerlərin hamısı ali hərbi akademiya sayılan Şərq cəbhəsində döyüş məktəbi keçmişdi. Çünki Şərq cəbhəsində sağ qalmağı bacaran əsgər o dünyanı görüb qayıtmış adam sayılırdı. Mixaylonun yoldaşlarını əsl döyüşçü adlandırmaq olardı, onlar ən çıxılmaz vəziyyətdə belə ruhdan düşmür, son damla qanlarınadək mübarizə aparırdı. Bu adamların igidliyi onlarla çiyin-çiyinə döyüşən yerli partizanlara da sirayət etmişdi.

Ümumi düşmənə qarşı savaş bu adamlar arasında səmimi dostluq telləri yaratmışdı. Qəhrəmanlıq bu igid əsgərləri məslək baxımından birləşdirmişdi. Digər dəstələrin komissarları həmişə rus batalyonunu nümunə göstərirdi. Alman ordusundan fərarilik etmiş keçmiş legionerlər Mixaylo ilə fəxr edir, hər işdə ona bənzəməyə çalışırdılar. Legionerlərdən çoxunun bu gün sağ qalmağında Mixaylonun böyük əməyi olmuşdu. Fərarilik əməliyyatlarının hazırlanması, legionerlərin partizan sıralarına qəbul olunması Mixaylonun adı ilə bağlı idi. Ona görə də keçmiş legionerlər özlərini Mixayloya borclu sayırdı.

...Mixaylo komandirin yanında dayanıb nitqini tərcümə edirdi. Diviziya orkestri “Beynəlmiləl” çalanda Mixaylo farağat dayanmış əsgərləri seyr edib düşündü: “Dava bitənə qədər, yəqin, bu cavanlardan çoxu həlak olacaq, amma insan düşmənin tərəfində yox, dostun yanında, haqq işi uğrunda ölməlidir. Altı yüzdən çox legionerin partizanlara qoşulmağına şərait yaratmışam, Allah qorusun...”

Vücudunu məmnunluq hissi bürüdü, adətən, uğurlu təxribat əməliyyatından sonra belə hisslər keçirirdi.

Döyüşçülər dağılışanda Mixaylo dostu Fritsə yaxınlaşdı, siqaret yandırdılar. Frits dostunun yanında özünü çox rahat hiss edirdi, çünki Mixaylo ilə alman dilində danışırdı. Təxribatçılar qrupuna daxil olmazdan əvvəl Fritsin əlindən kitab düşmürdü, indi isə qadın gözəlliyinin vurğunu olmuşdu. Son vaxtlar qadınlar barədə çox düşünürdü, elə indi də Mixaylodan soruşdu:

– Hərb işində, həm də məhəbbət macəralarında həmişə bəxtin gətirir. Bu, necə olur? Axı hərb və sevgi bir-birinə tərs mütənasibdir!

Mixaylo gülüb cavab verdi:

– Deyirlər, sevgi hüdudsuzdur. Məncə, öldürməyi insandan yaxşı bacaran yoxdur. Amma bir məsələ də var: əgər düşmən səndən qorxursa, deməli, ikiqat güclüsən! Qadınla münasibət isə başqa müstəvidə qurulur: əgər qadın səni bəyənirsə, bu çox yaxşıdır! Çünki çətinlik çəkmədən könlünü alıb ram edə bilərsən! – Mixaylonun gözü yol çəkdi. Söhbət tədricən məcrasını dəyişirdi. – İnsanın çözüm tapa bilmədiyi məsələni onun əvəzinə həyat həll edir. Həyat ədalətli və mürəkkəbdir, əziz dostum, insan da əzabla birgə yaranıb. Bu əzablar bizi içimizdən yeyir. Əzrayıl gəlib cismimizi aparır, ruhumuz isə ölmür, əbədiyyətə qovuşur. Allahın əmri belədir!

– Amma müdrik adam ölüm yox, həyat barədə düşünməlidir, Mixaylo...

– Frits, sən ki yaxşı bilirsən, davada hər şey əksinə olur. Məsələn, Robespyer[1] deyib ki, ölüm əbədiyyətin başlanğıcıdır! Bunu anlamaq üçün əvvəlcə gərək çox sayda adamın başını üzəsən, sonra isə, ədalət naminə sənin də boynun vurulmalıdır. Hər bir cəllad ölüm cəzasına layiqdir. Ən amansız cəllad isə Hitlerdir! Bilirsən, əziz dostum, həyatımda heç nə üçün heyifsilənmirəm. Amma hər bir qanunda istisna var, yalnız bir şeyə təəssüflənirəm ki, bu davada Hitleri məhv etmək mənə nəsib olmadı. Alman ordusu xırda “hitlerlər”lə doludur və çoxlarını cəhənnəmə göndərmişəm.

---

[1]**Maksimilian Robespyer** (06.05.1758 – 28.07.1794) – fransız inqilabının liderlərindən biri, İrlandiya əsilli vəkil

Bunu deyəndə Mixaylonun içindən bir gizilti keçdi. Təxribat işini yüksək incəsənətə çevirmiş məşhur terrorçu üçün bu yalnız bir şeyə işarə idi: yeni əməliyyatın vaxtı çatıb! Mixaylo əməliyyatlararası müddətdə sözün əsl mənasında əzab çəkirdi, çünki vaxt keçmək bilmirdi. Yeni əməliyyat planı hazırlamaqla, təxribat törədəcəyi obyekt barədə kəşfiyyat məlumatları toplamaqla başını qatırdı. Əməliyyatlararası müddətdə harada gizlənməsi də mühüm rol oynayırdı. Məsələn, Triestə, Sosiçgilə gələndə özünü doğma divarlar arasında hiss edir, Miryamdan ayrılmaq istəmirdi. Bəzən növbəti əməliyyata qədər olan vaxtı Vitovlyedə, sarısaç Zinkanın yanında keçirir, hərdən isə Vipovsk vadisindəki kəndlərdə gecələyirdi. Amma əməliyyatdan sonra hansısa ucqar kəndin kənarındakı gözdən-könüldən uzaq bir daxmada gizlənəndə həyat bütün rənglərini itirib yalnız boz çalara bürünürdü. Mixaylo işsiz dayanmağa adət etməmişdi, hər an döyüşə can atırdı. Belə cansıxıcı günlərdə yalnız dostlarla şirin söhbət ona həyatın ağrı-acısını unutdurur, vaxtın necə keçdiyini hiss etmirdi.

– Mixaylo, məncə, terrorçuluğu ona görə seçmisən ki, səndən tenor səsli müğənni alınmayıb. Özün deyirdin, uşaqlıqda müğənni olmağı arzulayırdın. Səsin xalis baritondur, aşağı oktavada oxuyursan, səndən tenor çıxmaz! – Frits zarafatından qalmadı. Sözlərin ardıcıllığını qəribə tərzdə dəyişməyi sevirdi, onun üçün sözlər sanki kəpənək idi, entomoloq hər kəpənəyi diqqətlə nəzərdən keçirdiyi kimi, yaxud filatelist albomu vərəqləyib topladığı poçt markalarına baxdığı kimi, Frits də sözlərin düzülüşünə həssas yanaşırdı.

– Hə, Frits, haqlısan. Mənim üçün partlayış səsi istənilən opera ariyasından məlahətlidir.

Mixaylonun həmyerliləri, dostları, döyüşçülər və təxribatçılar yaxınlaşıb iri palıdın kölgəsində oturdular, su içib siqaret çəkir, şirin söhbət edirdilər. Mixaylo bu yaxında keçirilmiş əməliyyat barədə danışmağa başladı:

– Şənbə günü Darko təxribat qruplarının müştərək əməliyyatına rəhbərlik edirdi. Biz Qoritsada “Kasa Balilla” faşist gənclər təşkilatına məxsus tibb ləvazimatı və ərzaq ehtiyatını ələ keçirməyi planlaşdırmışdıq. İstirahət günü olduğu üçün binada heç kim yox idi. Stomatoloji və terapevtik kabinetlərdə tibb avadanlığı, sanitar materialları saxlanılırdı. Cərrahiyyə şöbəsində çoxlu kağız və otuz ədəd yazı makinası, anbarda isə xizək dəstləri, qış geyimləri, uzunboğaz çəkmələr vardı. Keşikçinin əl-qolunu bağlayıb, əşyaları binadan daşımağa başladıq. Yük maşınını doldurub düşərgəyə göndərdik. Əməliyyatın çox sakit keçməsinə baxmayaraq, saat on bir radələrində almanlar binanı və ətrafındakı

parkı mühasirəyə aldı. Görünür, kimsə əvvəlcədən xəbərdar etmişdi. Döyüşə-döyüşə mühasirədən çıxdıq, Allaha çox şükür, itkimiz olmadı, amma xeyli faşist qırdıq. Əməliyyatın uğursuz alındığını söyləmək düzgün olmazdı. Sayıqlığı itirmədik, nəticədə sağ qaldıq, əksinə, təşəbbüsü ələ alıb düşməni yaman qorxutduq, gülləbarana tutub göz açmağa qoymadıq. Əgər düşmən sayca üstündürsə, özünü elə aparmalısan ki, sanki meşədə ac yalquzaq sürüsü ilə qarşılaşmısan. Yalquzaqlar görəndə ki, şikar qorxub geri çəkilmir, üstəlik, onlarla amansızcasına vuruşur, quyruqlarını qısıb aradan çıxırlar. Köpəklər də belədir. Əsas məsələ odur ki, gərək qorxmayasan, düşmənin qarşısından bir addım da geri çəkilməyəsən! Təbii ki, insan meşədə yalquzaq sürüsü ilə üz-üzə gələndə qorxur, amma bu qorxunu büruzə vermək olmaz! Qorxduğunu duysalar, tikən də ələ gəlməz! Ona görə də bütün cəsarətini toplayıb hücum etməlisən! Bu halda, yalquzaq başa düşür ki, ondan güclüsən! Dönüb qaçmaq olmaz, gərək hücuma keçəsən! Bir dəfə çöldə vəhşi atı belə ram etmişəm! Qoritsada, sayca bizdən on dəfə çox olan düşmənin mühasirəsinə düşəndə də bu taktika köməyimizə gəldi, faşistləri məğlub etdik.

– Hə, ordunun panikaya düşüb qaçması sonun başlanğıcı deməkdir. Amma yaxşı əsgər həmişə sağ qalmaq üçün bir çarə tapar! – Saşa bunu deyib Stalinqrad ətrafındakı ağır döyüşləri xatırladı. Sərq cəbhəsində Mixaylodan bir neçə ay çox döyüşmüşdü. – Şərq cəbhəsində almanların ən qorxduğu sibirlilər idi. Onların Batyuka diviziyasında Bezdyuko adlı döyüşçü minaatanlar arasında ad çıxarmışdı. Birinci mina yerə düşüb partlayana qədər altısını da atmağa macal tapırdı. Sibirli snayperlər isə almanların gününü qara eləmişdi. Qara qarğalar kimi ağacların başında, budaqların arasında gizlənib atır, hədəfi dəqiq vururdular. Fritslərdən kimsə başını səngərdən qaldıran kimi snayper gülləsinə tuş gəlirdi. Bu sibirlilər insan cildinə girmiş şeytana bənzəyirdi. Hətta ruslar da onlardan qorxurdu. Snayperlər faşistləri məharətlə qırır, öldürdükləri əsgərlərin sayını dəqiq bilir, sanki meyitlərdən kolleksiya toplayıb bununla fəxr edirdilər. Almanların da snayper qrupu vardı, tirolluları[1] deyirəm, peşəkarlıqlarına söz ola bilməzdi. Amma onları sibirlilərlə müqayisə etmək düzgün deyil.

Stalinqradda alman səngərlərində cərimə batalyonundan gəlmiş xeyli əsgər vardı, hərbi formalarının sağ qoluna qırmızı rəngli iri “WU” hərfləri tikilmişdi. Heç bir işə yaramır, qarışqa kimi qırılırdılar. Onlara

---

[1]**Tirol** – Avstriyanın qərbində federal ərazi, Şimali və Cənubi Tiroldan ibarətdir. Paytaxtı İnsburq şəhəridir.

boyun olmuşdular ki, döyüşlərdə fərqlənənlər əfv olunacaq. Ancaq hamı bilirdi ki, bu, gəlişigözəl sözlərdir. Əslində, bu adamlar ölümə məhkum olunmuşdu. Çünki onları cəbhəyə yalnız şəxsi heyətin sayını artırmaq məqsədilə, aşkar ölümə göndərmişdilər. Zavallılar səngərdə kiçik qruplar halında toplaşıb əmr gözləyirdi: onları sürünə-sürünə minalanmış sahədən keçib rus səngərlərinə girməyə məcbur edirdilər. Şübhəsiz, rus mərmilərinin od saçdığı bir yerdə kimsə sağ qala bilməzdi!

– Yaxşı ki, Stalinqrad ətrafında cərimə batalyonundan olan almanlarla yanaşı, digər faşistlər də gəbərdi! – Mixaylo hiddətlə bildirdi.

– Hə, əgər onlardan kimsə sağ qalıbsa, indi uzaq Sibirdə rus ruletinin sirlərinə yiyələnir! – Saşa zarafatla əlavə etdi.

Mixaylo dedi:

– Yəqin, rus ruleti barədə eşitmisiniz. Stalinqradda Yeremenko soyadlı komandirimiz vardı. Danışırdı ki, rus ruleti Birinci Dünya müharibəsi zamanı Rumıniyada da işlədilib. Yemək az, adam çox! Hamıya çatmırdı! Bir qrup rus zabiti də vaxt öldürmək üçün bu oyunu kəşf edib. Onlar revolverdən bir dəfə atəş açıb barabanı fırladır, sonra isə silahın lüləsini gicgahlarına dirəyib tətiyi basırdı. Atəş ehtimalı altının birə nisbətində idi. Əgər zabit ölürsə, onun yeməyi başqalarına qismət olurdu. Kimsəni güllələməyə ehtiyac qalmırdı, bu işi zabitin özü görürdü. Məncə, ruslar həddindən artıq praqmatik və işgüzar olmağı bacarır. Nə isə, inqilabdan əvvəl vəziyyət belə idi.

– Mənə elə gəlir ki, çar dövrü ilə müqayisədə Sovet İttifaqında xalqları daha çox sıxışdırırlar. Ruslar insanları kütləvi surətdə həbs düşərgələrinə göndərmir, bu düşərgələri cəbhə əvəz edir. Eşitdiyimə görə, hətta məhbuslar arasında da səfərbərlik elan olunub: söz veriblər ki, kim döyüşdə fərqlənsə, sağ qalmağı bacarsa, ona azadlıq bəxş olunacaq! Moskvada yaşayan bir tanışımı dava başlamazdan əvvəl həbs düşərgəsindən azad etmişdilər. Zavallıya yeddi il iş vermişdilər. Günahı nə idi? Qəzetdə korrektor işləyirdi, baş məqalədə “Stalin” sözündə hərf səhvi buraxmışdı. Həbs düşərgəsindən iki gün idi qayıtmışdı, cəbhəyə göndərdilər! Amma burada qəribə heç nə yoxdur, axı tanışım, həqiqətən də, işdə səhvə yol vermişdi. Moskva uğrunda döyüşlər gedəndə bir qrup memarı həbs edib güllələdilər: guya bu adamlar Moskvanın ən iri prospektlərini yenidən qurmağı təklif edirmiş ki, düşmən təyyarələri həmin küçələrə enə bilsin!

– Düşünürəm, bu, hərbi savadsızlıqdan, bir də sərsəmlikdən irəli gəlir! – Mixaylo bildirdi.

– Belə bir ifadə var: “Dəyirman öz işindədir, çax-çax baş ağrıdır!” Səbəbsiz yerə kimsəni həbsxanaya göndərmirlər. Günahkarsansa, sadəcə güllələyirlər, ha-ha-ha! – Saşa rusları kor qoyan bəsitliyə və cəhalətə gülürdü.



***Soldan: Cavad Həkimli, Mehdi Hüseynzadə-Mixaylo və Anjelikanın qardaşı Aleksandr, 1943-cü il, İtaliya***

– Əgər ruslar, həqiqətən, günahkarı güllələsəydilər, etiraz etməzdim. Ancaq məhbuslardan çoxunun heç bir günahı yoxdur, onları nahaqdan həbs ediblər! – Mixaylo dilləndi.

Sovet İttifaqındakı həyata artıq başqa gözlə baxırdı. Əvvəllər cavan idi, sovet təbliğatına kor-koranə inanır, buranı dünyanın ən xoşbəxt ölkəsi hesab edirdi. O vaxt düşünürdü ki, həbs olunanların hamısı xalq düşməni, yaxud xarici kəşfiyyat orqanlarının agentləridir. Sovet təbliğatı da ölkəni fəhlə və kəndlilər üçün cənnət kimi qələmə verirdi. Lev Tolstoy demişdi ki, dünyada günahkar adam yoxdur, çekistlər isə yeni tezis irəli sürmüşdü: dünyada günahsız adam yoxdur, təki adam olsun, günah tapmağa nə var ki! Sovet İttifaqında istənilən vətəndaş hər an həbs oluna bilərdi, Dzerjinski[1] kimi üzdəniraq xadimlər isə həbs orderinə vicdan əzabı çəkmədən, soyuqqanlılıqla imza atırdı.

Cavad söhbətə qoşuldu:

---

[1]**Feliks Edmundoviç Dzerjinski** (11.09.1877 – 20.07.1926) – SSRİ dövlət xadimi, Rusiya və Polşa inqilab hərəkatının üzvü. "Dəmir Feliks" ləqəbi ilə tanınıb. SSRİ kəşfiyyat idarəsinin qurucusu

– Deyilənlərin hamısı ilə razıyam, yoldaşlar, amma Mixaylo kimi bələdçimiz olmasaydı, heç bir işin qulpundan yapışa bilməzdik. Zalım oğlu, hər təxribatdan sənət əsəri yaradır! Keçən dəfə Soş çayının üzərindəki körpüyə cəmi bir mina qoymaqla italyan əsgər və zabitlərindən ibarət eşalonu havaya uçurdu. Bir-iki gündən sonra alman hərbi aerodromunda peyda oldu. Dedi ki, texnikəm, təyyarələri təmir etməyə gəlmişəm. Onun "təmir"indən sonra iki təyyarə havaya qalxan kimi təcili yerə enməyə məcbur oldu. Təzə gəlmiş texniki nə qədər axtarsalar da, tapa bilmədilər. Sonra onu Volçaya Draqa kəndində gördülər. Amma qiyafəsini dəyişib italyan polisi forması geyinmişdi. Bəli, bizim partizan ordusunun ələkeçməz, cəsur kəşfiyyatçısı Mixaylo belə oğlandır!

– Ay Cavad, xahiş edirəm, məni qəhrəmanlar siyahısına yazma, gördüyüm adi işdir, şücaətdən danışmağa dəyməz! – Mixaylo ciddi tərzdə etirazını bildirdi. – Amma bütün bu işlər döyüş sənəti qaydalarına tam uyğun şəkildə görülüb. Əgər düşmən əsgəri sayca çoxdursa, biz zərbəni mərkəzdə yox, ətraf ərazilərdə endirməliyik. Çünki mərkəzdə, düşmənin sıx yerində faşistlərin döyüş ruhu güclüdür, məğlub ola bilərik. Rəqibə gözləmədiyi yerdə, qəfil hücum etmək lazımdır. Düşmən pərən-pərən düşəcək, döyüş ruhu zəifləyəcək, onda yalquzaq yuvasına güclü zərbə endirmək mümkündür. Bilirsiniz, heç kim qocalmaq istəmir, hamı uzun ömür sürüb cənnətə düşməyi arzulayır. Ölümdən qurtulmaq, ondan yan keçmək – bu, savaş sənətinin və diplomatiyasının başlanğıcıdır. Davada məntiqi səbəblər heç bir rol oynamır, burada əsas yeri hisslər tutur. Yalnız yaramazlar müharibədə məna axtarır, yerdə qalanlar isə əziyyət çəkir. Buna baxmayaraq, təslim olmuruq, mübarizəni dayandırmırıq, əksinə, düşmənin zəif nöqtəsini tapıb dişimizi onun ətinə daha möhkəm batırırıq. Hazırda faşistlərin zəif nöqtələri göz qabağındadır, zəfər hücumu düşmənin məhvi ilə bitəcək!



# İYUL 1944-cü il

**XXXVI**

*Gecə ay üzünə salarkən işıq,*
*Dalğalı suyuna verir yaraşıq.*
*Burax o qəmzəni, olmaram aşiq,*
*Çünki o Xəzərin vurğunuyam mən.*

*Bütün varlığımla onun varıyam,*
*Müqəddəs eşqinin səcdəkarıyam,*
*Yazıq ki, halım yox, gəzəm, arayam,*
*Keçdiyim yolların yorğunuyam mən.*

*Nədir bu dalğalar, nədir bu qəmlər?*
*Mənimtək ürəyin, inan, vərəmlər,*
*Qoy sənə desinlər ordan gələnlər*
*O coşqun çayların durğunuyam mən.*

*Mən artıq heyranam ağ üzdə xala,*
*Az qalır ağlımı başımdan ala,*
*İstərəm afət ol, özün yırğala,*
*Vəfalı eşqimin dolğunuyam mən.*

*Desəm gözəllərdən geri qalırsan,*
*Sən də bir pərisən, canlar alırsan,*
*Bu qərib könlümü yada salırsan,*
*Açılmış güllərin solğunuyam mən.*

*Onun sahilində bir diyarım var,*
*Hicrana can verən nazlı yarım var,*
*Ondan dodağımda yadigarım var,*
*İtmiş bir sevgimin sorğunuyam mən.*

*Gənclik həyatıma qədəm qoyunca,*
*Gəzmədim suyunda mən də doyunca,*
*Qurbanı olaydım sahil boyunca,*
*Çünki o Xəzərin vurğunuyam mən.*
***M.Hüseynzadə***

Triestin 1881-ci ildə təsis olunmuş "İl Piccolo" şəhər qəzeti slovenlərə nifrət rəmzinə çevrilmişdi. Qəzet redaksiyası şəhərin baş Oberdan meydanının yaxınlığında, üçmərtəbəli binada yerləşirdi. Zirzəmi və birinci mərtəbə mətbəə üçün ayrılmışdı, digər mərtəbələr isə administrasiya və redaksiyaların ixtiyarına verilmişdi. Nasist hakimiyyətinin ruporuna çevrilmiş qəzetin redaksiyasında təxribat törətmək ideyası Mixayloda Sosiçlə söhbət zamanı yaranmışdı. Sosiç iyirminci illərin əvvəlində italyan faşistlərinin sloven Milli Evini yandırmasından danışırdı. O zaman Sosiçin on altı yaşı vardı, dostları ilə birlikdə etiraz bildirmək üçün yanan binanın qarşısına toplaşmış adamlara qoşulmuşdu. Əli silahlı italyan faşistləri yanan binanı söndürmək üçün gəlmiş yanğınsöndürən maşınların yaxınlaşmasına imkan vermirdi. Birdən üçüncü, ya da dördüncü mərtəbənin eyvanında bir kişi ilə qadın göründü. Onlar qışqırıb kömək diləyir, yanğından xilas olmaq üçün özlərini aşağı atmaq istəyirdilər. Ancaq kimsə onları ölümün çəngindən ala bilməyəcəkdi...

Yeniyetmə Sosiç bu faciənin canlı şahidi idi. İlk dəfə qəlbində italyan faşistlərinə qarşı nifrət baş qaldırdı. Bu hadisədən bir neçə il sonra atası ilə birlikdə "TİQR" təşkilatına daxil oldu. Sonra partizanlar üçün öz çardaqlarında gizli sığınacaq düzəltdilər. Mixaylo bu sığınacağı çox bəyənir və tez-tez burada gizlənirdi. Qəzet redaksiyasında təxribat törətmək üçün partizanların Triest təşkilatının rəhbəri Darko ilə plan hazırlamağa başladı. Seyidov qərargahda tərcüməçi kimi çalışdığı üçün indi Mixayloya yeni köməkçi lazım idi. Darkoya dedi:

– Əgər yaxşı detonatorlar tapıb məni kəşfiyyat məlumatları ilə təchiz etsən, əməliyyatı həyata keçirmək üçün Sosiçi özümə köməkçi götürərəm. Kifayət qədər partlayıcı var. Binanın çertyojlarını əldə

etsən, əməliyyatı iyirmi dəqiqəyə başa çatdıraram. Üç yerə mina qoysam, kifayətdir!

Mixaylo əməliyyatdan əvvəl motosikletlə Vitovlye kəndinə gəldi. Sərin yay axşamı idi, ulduzlar kəhkəşanda bərq vurur, dənizdən yüngül meh əsir, təzə otun, tər çiçəklərin qoxusu havaya yayılırdı. Mixaylo motosikleti şəhərin girişində, Darko ilə əməkdaşlıq edən partizanlardan birinin qarajında gizlətdi. Paltarını dəyişib mavi ipək kostyum, alabəzək köynək geyindi, boynuna qırmızı şərf bağladı – Triestin son dəblə geyinmiş ədabaz gənclərinə bənzəyirdi. Bir əlində əsa, digərində həsir şlyapa tutmuşdu. Kimsənin diqqətini cəlb etməyib şəhər mərkəzinə gedən üç nömrəli avtobusa mindi. Bu avtobus Sosiçin evinin yanından keçirdi. Bazar günü olduğundan sərnişin az idi, yol boyu heç bir patrula, polis postuna, yoxlamaya rast gəlmədi. Miryamla dostlaşandan sonra Sosiçin evini doğma ocaq sayırdı, sanki illərlə çardaqdakı sığınacaqda yaşamışdı. Bircə dava qurtarsaydı...

Qapını şərtləşdikləri kimi tıqqıldatdı: əvvəl üç dəfə, sonra fasilə verib iki dəfə! Sosiç qapını açıb başı ilə işarə etdi ki, içəri keçsin. Mixaylonun qəfildən gəlib-getməsinə adət etmişdi. Mixaylo iki həftə idi ki, gözə dəymirdi. Dostunun gəlişi Sosiçi sevindirdi, son təxribatlar barədə eşitmişdi, ona görə də təfərrüatları Mixaylonun dilindən eşitməyə tələsirdi.

– Xoş gördük, Mixaylo! Miryam əla şam yeməyi hazırlayıb, elə bil ürəyinə dammışdı ki, bu gün gələcəksən! – Sosiç bunu deyib qapını bağladı.

Mixaylonun gəldiyini görən Miryam mətbəxdən səsləndi:

– Nə gözəl sürpriz! Qəhrəman Mixaylo bizə təşrif buyurub! Təzə balıq qızartmışam, hamımıza çatar!

Şam yeməyindən sonra ağ şərab içib söhbət etdilər. Mixaylo dedi:

– Əziz Sosiç, indi başa düşmüşəm ki, qətlin qarşısını qətllə almaq olmaz! Bir qətl digərini doğurur. Qabil və Habilin[1] vaxtında da belə

olub, indi də heç nə dəyişməyib. Bu gün həyatın devizi belədir: ya öldürməli, ya da ölməlisən!

Öldürməyi Stalinqrad cəbhəsində öyrəndim, sadəcə, öldürmürdüm, bu işi elə ustalıqla görürdüm ki, özüm sağ qalım. Düşmənin axırına çıxmaq üçün gərək diri qalmağı bacarasan. Amma öz həyatını xilas

---

[1]**Qabil və Habil –** Qabilin Habili öldürməsi səhnəsi İncilin 4-cü bölməsində təsvir olunub. Rəvayətə görə, Adəm və Həvvanın birinci oğlu Qabil qardaşı Habili öldürüb. Qabil əkinçi, Habil isə çoban olub. Qətlin səbəbi belə göstərilir: Allah Qabilin gətirdiyi meyvələri yox, Habilin gətirdiyi qurbanlıq quzunu qəbul edib. Qabil də bundan qəzəblənərək qardaşını öldürüb. Xristianlıqda Habilin adı ilk əzabkeş kimi göstərilir.

etmək üçün başqalarını öldürənlərin ömrü uzun olmur. Əsl döyüşçü düşməni qırmaq naminə öldürür, hətta öz həyatını da qurban verir ki, təki rəqibin axırına çıxsın. Axırda mühüm bir sual qalır: səni öldürənə qədər nə qədər düşmən əsgəri məhv edə bilərsən? Başımdakı tüklərin sayı qədər düşmən öldürmüşəm, yəqin, o dünyaya getmək vaxtım çatıb. Öldürmək planını Stalinqrad cəbhəsində doldurmuşam. Görünür, ölümün məndən acığı gəlir, yanımdan ötüb-keçir, ona görə də faşist əclafları qırmaqda davam edirəm. Açığı, hərdən özümü qaniçən sayıram, vəhşi heyvan kimi şikarın üstünə atılıb parçalamağa hazıram! Ancaq həyata keçirdiyim hər əməliyyatdan sonra dünya daha da paklaşır. Bu faşist siçovulların axırına çıxmayınca missiyam başa çatmayacaq. Hətta öz həyatım bahasına olsa belə, bu işi bitirəcəyəm! – Mixaylo qürurla bildirdi.

Sosiç dedi:

– Əziz Mixaylo, səni yaxşı başa düşürəm və dediklərinlə tam razıyam. Biz, “TİQR” təşkilatının üzvləri artıq iyirminci illərdə italyan faşistlərinə qarşı üsyan qaldırmışdıq. Faşistlər hakimiyyəti ələ alan kimi iç üzünü, çirkin niyyətini göstərdi. İndi Mussolini və əlaltıları məhv edilsə də, mübarizə bitməyib. İyirmi ildən çox keçib, ancaq hələ ayaqdayam. Bilirsən, Mixaylo, səhvən düşünürlər ki, Sloveniyada italyan təcavüzkarlarına qarşı ilk mübarizəyə başlayan partizanlar olub. Yox, bu işi mənim dostum başlayıb, “TİQR” təşkilatının rəhbəri Danilo Zelen! Qəbri nurla dolsun! 1941-ci il mayın 13-də, almanların Sovet İttifaqına hücumundan əvvəl Danilo iki silahdaşı ilə birlikdə Dolinsk vilayətində italyanların silahlı karvanına hücum etmişdi. Lakin karvan çox güclü mühafizə olunurdu, ona görə də Danilo və dostları geri çəkilməyə məcbur oldu. Onlar meşədə bir daxmaya girib gizlənmişdi. İtalyanlar təsadüfən, ya da satqınların köməyi ilə onların yerini öyrənib mühasirəyə aldı. Bir neçə min italyan əsgəri təpədən-dırnağa qədər silahlı olsa da, daxmaya yaxınlaşmağa cürət etmirdi. Daxmanı bir saat minaatanlardan atəşə tutandan sonra içəri soxuldular. Danilo həlak olmuşdu, Tone Maynik isə sağ idi, qoluna qandal vurdular, amma sonradan əsirlikdən qaçıb xilas oldu. Danilonun üçüncü silahdaşı Karavanya isə huşsuz vəziyyətdə idi, güllələr ciyərini deşik-deşik etmişdi. Amma sağ qaldı, əsirlikdən necə qurtulmağından xəbərim yoxdur. Ferdo Karavanya “TİQR” təşkilatı rəhbərlərindən biri, həm də partizan müharibəsinin mahir mütəxəssisi oldu. Cüssəli, mərhəmətli, ayı kimi inadkar idi. Özünü Çezsoçidən olan xırda tacir kimi qələmə verirdi. Danilo və Fredo Sahilyanı diyarın qəhrəman övladları idi, amma faşist qəzetləri bizi həmişə terrorçu adlandırırdı. Əgər terrorçu xalqının azadlığı uğrunda döyüşürsə, bu söz mənfi mənasını itirir!

– Bilirsən, Sosiç, mənimçün də maraqlıdır, necə olur ki, yeri gələndə sözlər öz əvvəlki mənasını itirib başqa məna kəsb etməyə başlayır?

– Hə, yadımdadır, əvvəllər "şvab"[1] sözü təhqir sayılmırdı, amma "makaronnik"[2] heç vaxt yaxşı məna kəsb etməyib.

– Sənə deməyə çəkinirəm, əziz dostum, mənə elə gəlir ki, "bolşevik" sözü də əvvəl-axır söyüş sayılacaq, "kommunizm" isə yalançı şüara çevriləcək. Bəlkə də, kommunizm nə vaxtsa qurulacaq, ancaq insanlar bu cəmiyyət üçün hələ yetişməyib. Siz slovenlər öz vətəninizdə kommunizmlə üzləşməmisiniz, onun nasizm və faşizmə bənzədiyini bilmirsiniz. Amma gec-tez bunu başa düşəcəksiniz!

Ümumiyyətlə, Mixaylo bu mövzudan nadir hallarda söhbət salırdı. Sosiç Sovet İttifaqına dərin rəğbətlə yanaşırdı, ona görə də bu ölkə barədə mənfi rəy eşitməyi xoşlamırdı. Mixaylo Vətəni qoruyan Qızıl Ordu əsgərlərinin, Sovet xalqının qəhrəmanlıqlarından danışanda Sosiçin gözləri parıldayırdı. Sosiç bu dəfə tənqidə qarşılıq vermədi, dostunun fikirlərinə hörmətlə yanaşırdı. Düşünürdü ki, Mixaylonun Sovet İttifaqı barədə söylədikləri səhv ola bilməz, ümumiyyətlə, bu igid adam heç vaxt yalan söyləmir. Sosiç də, qızı da Mixaylonun ələkeçməz qisasçı və ölümsüz qəhrəman olduğuna inanırdı. Müharibənin ən ağır dövründə insanların həmişə şanlı qəhrəmanlara ehtiyacı olub, bu igidlərdən güc və mənəvi qida alıb, adamların gələcəyə inam hissi artıb, davanın dəhşətlərini, ağrı-acısını bir anlığa unudublar. Qəhrəman hər bir davaya hava-su kimi lazımdır, onlarsız müharibənin nə qiyməti? İgidlər olmasaydı, müharibə adi savaşa, sadəcə, insanların bir-birini qırmasına, güclülərin zəifləri məhv etməsinə bənzəyərdi.

Savaşın taleyini məhz qəhrəmanlar həll edir, bir igid döyüşçü yüz qorxaq əsgərə dəyər! Əsl qəhrəmanlar həmişə haqq-ədalətin tərəfində döyüşür, Vətənin azadlığı, xoşbəxt gələcək uğrunda canlarını qurban verir. Bu qəhrəmanları isə xalq yaradır, ona qol-qanad, güc verir. Əgər Sloveniyanı qorxu içində saxlayan güclü alman hərbi maşını ilə partizan qüvvələrini müqayisə etsək, təcavüzkarın üstünlüyü aşkar görünür, ancaq partizanların arxasında xalq dayanır, bu da igidlərə ölümsüzlük bəxş edir.

Mixaylo dedi:

– Bu yaxında "İl Piccolo" qəzetində oxudum ki, indi almanlar "Pantera" adlı yeni tank icad edib. Ötən il güclü topu olan uzun lüləli "Tiqr" tankları buraxırdılar. Almaniyada bu tankları görmüşdüm. Jurnalist yazır ki, "Pantera" və "Tiqr" tankları Amerikanın "Şerman", İngiltərənin

---

[1]**Şvab** – donuz *(alm.)*

[2]**Makaronnik** – italyan faşistlərinə xalq arasında belə deyirdilər.

“Çörçil”indən güclüdür. Hətta ruslar da “Pantera”nı dünyada ən yaxşı tank hesab edir. Ancaq almanlar bu tankın istehsalında, demək olar, iki il ləngiyib. Məqalədə yazılmayıb ki, rusların da “İS” modelli yeni tankı var, “Tiqr” və “Pantera”dan qat-qat üstündür.

Sosiç əlavə etdi:

– İndi heç Tanrı da faşistlərin dadına çata bilməz! İnanmıram ki, Yaradan nə vaxtsa bu alçaqları hifz etmək fikrinə düşsün. Limanda bir neçə dəfə “Tiqr” görmüşəm, açığı, ömrümdə belə xof yaradan tanka rast gəlməmişəm. Deyirsən ki, çox güclü tankdır, ancaq onları ağır topların köməyi olmadan da vurmaq mümkündür. Yaxşı ki, bizim Sahilyanı diyar bu ağır maşınların gen-bol qol-qanad açması üçün əlverişli yer deyil. Hər tərəf dərə-təpə, sıldırım qaya. Belə ərazidə tankı uzağa sürə bilməzsən. Rus silahı isə hər işə yarayır, məsələn, avtomatları döyüş üçün çox rahatdır, dünyada ən yaxşı sayılır. Bu gün eşitmişəm ki, Cənub cəbhəsində döyüşlər Livornada[1] cənub-şərqdə, Volyerdən şimal-qərbdə, Arezzonun[2] bilavasitə yaxınlığında gedir. Bəlkə də, elə bir gün gəlib çatacaq ki, müttəfiq qoşunlarının artilleriya atəşləri burada, Triestdə də eşidiləcək!

– Bildiyimə görə, partizanlar Triesti müttəfiqlərin gəlişinə qədər tutmaq istəyir. Bu, müttəfiq qoşunları ilə ruslar arasında yarışa bənzəyəcək: kim Berlini birinci tutacaq? Slovenlərin yerinə olsaydım, bu cənnət bölgəni – Triesti əldən buraxmazdım! Çünki Triest və bölgələri sanki ipə düzülmüş mirvaridir!

– Mixaylo, hər parıltılı metala qızıl demək olmaz! Sahilyanı şəhər kimi Triestin iqlimi çox əlverişsizdir. Özün də görürsən: yayda burada nadir hallarda hava sərin olur, şəhərin üzərini tez-tez bulud alır, qışda isə qasırğalar elə tüğyan edir ki, hətta vaqonları relsdən çıxarır. Bəzi küçələrdə piyadalar üçün xüsusi tutacaqlar quraşdırılıb ki, qasırğa zamanı yapışsınlar. Güclü külək aləmi bir-birinə qatır, tozdan göz-gözü görmür, çətiri adamın əlindən qapıb aparır. Triestdə külək ki əsməyə başladı, gərək evdən çıxmayasan!

– Eh, sən Sibir küləyini görməmisən, Triest qasırğası onun yanında toya getməlidir!

– Hə, Mixaylo. Triest də bəzən cansıxıcı şəhərə çevrilir. Heç təəccüblü deyil ki, Ceyms Coys[3] ən yaxşı əsərlərini burada yaşayanda yazıb.

---

[1]**Livorna** – İtaliyada, Liquriya dənizinin şərq sahilində, Toskana bölgəsində yerləşən iri liman şəhəri

[2]**Arezzo** – İtaliyanın Toskana bölgəsində, eyniadlı vilayətin mərkəzi şəhəri

[3]**Ceyms Avqustin Aloizius Coys** (02.02.1882 – 13.01.1941) (ing. *James Augustine Aloysius Joyce*) – məşhur irland yazıçısı

Yazıçı Triesti "kiçik Avropa" adlandırırdı. Coys Triestdə yaşayıb-yaratmış yeganə yazıçı deyil, bu şəhər bir çox məşhur sənət adamlarına qucaq açıb. Ser Börton[1] uzun müddət Triestdə İngiltərənin konsulu işləyib. Buranın təbiəti onu elə ilhama gətirib ki, "Min bir gecə" nağılını tərcümə edib. Stendal[2] "Qırmızı və qara" romanını Triestdə Fransanın konsulu işləyərkən yazıb. Rus yazıçısı İvan Bunin[3] və ingilis ədibi Çarlz Lever[4] bir neçə il burada yaşayıb.

Rayner Mariya Rilke[5] 1912-ci ildə Triestdə olarkən məşhur "Dvin elegiyası" əsərini yazıb. Bəstəkar Qustav Maler[6] və avstriyalı rəssam Eqon Şile[7] də həmin dövrdə bu şəhərdə yaşayıb-yaradıb.

İngilis kralı Şirürəkli Riçard[8] ömrünün bir neçə ilini Triest həbsxanasında keçirib. Kazanova da burada iki il sürgündə olub.

Əsrin əvvəllərində gənc Freyd[9] şəhər zooloji stansiyasında çalışarkən yüzlərlə ilan üzərində elmi təcrübə aparıb. Bütün bunlar barədə gimnaziyada bizə tarix müəllimi danışıb.

---

[1]**Ser Börton –** kapitan ser Riçard Frensis Börton (ing. *Richard Francis Burton)* *(*19.03.1821 Torki – 20.10.1890 Triest) – ingilis səyahətçisi, yazıçı, şair, tərcüməçi, etnoqraf, linqvist, hipnozçu və diplomat. Bəzi mənbələrə görə, iyirmi doqquz dildə mükəmməl danışmağı bacarıb. Məkkədə olub, "Min bir gecə", "Kamasutra" və digər əsərləri ingilis dilinə tərcümə edib.

[2]**Stendal** (fr. *Stendhal*; 23.01.1783 – 23.03.1842) – məşhur fransız yazıçısı, "Qırmızı və qara" (1830) və "Parmanın kartezian kilsəsi"(1839) kimi məşhur romanların müəllifi

[3]**İvan Alekseyeviç Bunin** (rus. *Иван Алексеевич Бунин*; 22.10.1870, Voronej, Rusiya İmperiyası – 08.11.1953, Paris, Fransa) – tanınmış rus yazıçısı, şair, tərcüməçi, Peterburq Elmlər Akademiyasının fəxri akademiki (1909), Ədəbiyyat üzrə Nobel mükafatı alan ilk rus yazıçısı (1933)

[4]**Çarlz Lever** (ing. *Charles James Lever)*; (31.08.1806, Dublin – 01.06.1872 Triest) – irlandiyalı yazıçı və həkim

[5]**Rayner Mariya Rilke** (1875 – 1926) **–** məşhur Avstriya şairi

[6]**Qustav Maler** (alm. *Gustav Mahler*; 07.07.1860 – 18. 05.1911) – məşhur Avstriya bəstəkarı və dirijoru

[7]**Eqon Şile** (alm. *Egon Schiele*; 12.06.1890 – 31.10.1918) – məşhur Avstriya rəssamı

[8]**Şirürəkli Riçard** (ing. *Richard the Lion Heart*, fr. *Richard Cœur de Lion*; 08.09. 1157 – 06.04.1199) – Plantagenetlər sülaləsindən olan ingilis kralı

[9]**Ziqmund Freyd** (06.05.1856 – 23.09.1939) – psixoanaliz elminin banisi

# AVQUST 1944-cü il

## XXXVII

İyulun sonunda partizanlarla almanlar arasında atəşkəsin müddəti bitdi və faşistlər Soş vadisində, Qoritsa ətrafında, həmçinin Vipovsk vadisində geniş hücuma keçdi. Məqsəd partizan qüvvələrini parçalayıb mühasirəyə almaq, sonra da məhv etmək idi. Hücumda almanların yeddi döyüş qruplaşması iştirak edirdi, onlar müxtəlif istiqamətlərdən irəliləyib Çepovan kəndində birləşməli idi. Almanlar Trnovo yaylasında partizan briqadaları ilə döyüşdə məğlubiyyətə uğrayıb geri çəkildi. Partizanlar döyüşə əlavə qüvvələr cəlb etmişdi, ona görə də düşmənə Çepovan kəndini tutmağa imkan vermədilər.

Əlavə qüvvələrin tərkibində Mixaylonun başçılıq etdiyi istehkamçı-təxribat dəstəsi də vardı. Bu dəstə rus batalyonu nəzdində fəaliyyət göstərirdi. Mixaylonun batalyon əsgərləri ilə çiyin-çiyinə döyüşmək çox xoşuna gəlirdi. Çepovan kəndi ətrafındakı meşələrdə xeyli gizli partizan anbarları, emalatxana və bunker vardı. Burada silah-sursat və ehtiyat hissələri saxlanılırdı. Məlum məsələdir ki, anbarların düşmən əlinə keçməsinə yol vermək olmazdı. Qradnik briqadası Predme yaxınlığında Aydovşina kəndindən çıxan faşist dəstəsini məhv etdi. Bu döyüşdə düşmənin yeddi yük maşınını, qırx səkkiz əsgərini məhv edən rus bölüyü xüsusilə fərqləndi. Onlar üç almanı əsir aldı, iyirmi millimetrlik zenit top, yüngül minaatan, avtomat, altı tapança, on beş tüfəng, xeyli sayda partlayıcı və digər hərbi qənimətlər ələ keçirdi.

Hücumun birinci günü belə başa çatdı. Ertəsi gün almanlar hücuma keçmədi, geri çəkilib qüvvələri yenidən qruplaşdırmağa başladılar. Qarşıdurmanın üçüncü günü isə faşistlər Çepovan kəndini aldı və dərhal axtarış başlandı – sanki silah anbarı, emalatxana və bunkerlərin mövcudluğundan xəbərdar idilər. Partizanlar ertəsi gün səhər yenidən hücuma başladı.

Qradnik və Kosebelov briqadaları Lokve kəndində yerləşən düşmən qarnizonunu mühasirəyə aldı. Burada faşistlərin 136-cı süvari alayının üç yüzdən çox əsgəri mehmanxana, kilsə və keşişlər üçün nəzərdə tutulmuş binada yerləşdirilmişdi. Faşistlər zəng qülləsində minaatan qoymuş, kilsənin qarşısında isə bir neçə istehkam ucaltmışdı. İki gün davam edən ağır döyüşlər zamanı partizanlar artilleriyadan istifadə etmədi. Kəndi tutsalar da, alman qarnizonu hələ döyüşürdü. Almanlar kömək məqsədilə qarnizona bir neçə dəstə göndərdi, lakin axşama qədər bu dəstələrdən heç biri döyüş yerinə yaxınlaşa bilmədi. Çünki Qradnik briqadası bütün yollarda keşik çəkirdi. Daim ön cinahda vuruşan Mixaylo və həmyerliləri fərqləndi. Yalnız gecə saatlarında İndriyadan gəlmiş "Heyne" xüsusi batalyonu qarnizon ərazisinə daxil ola bildi. Partizanlar isə şəraiti düzgün qiymətləndirib meşəyə çəkildi.

Alman hərbi hissələri zəbt etdikləri ərazilərdə avqustun ortalarınadək at oynatdı, nəhayət, kazarmalara geri döndü. Bir ay davam edən hərbi əməliyyat nəticəsiz qaldı, faşistlər Polşadan çağırılmış xüsusi təyinatlı dəstələrini döyüşə atsalar da, bir dənə də olsun partizan birləşməsini məhv edə bilmədilər.

Bir neçə gün sonra, avqustun axırında sovet hərbi missiyasının rəhbəri Predmedəki IX korpusun qərargahına qonaq gəldi. Son vaxtlar rus bölüyü genişlənib batalyona çevrilmişdi, çünki Mixaylonun sayəsində Riekadakı alman hərbi hissəsindən üç yüzdən çox legioner fərarilik edib partizanların tərəfinə keçmişdi. Onlar sovet missiyasının rəhbəri polkovnik Rıbaçenkonu böyük səbirsizliklə gözləyirdi. Hələ yazda bütün fərari legionerlərə demişdilər ki, düşmənlə əməkdaşlığa görə onların hamısını Kommunist Partiyası sıralarından xaric edəcəklər. Yuqoslaviya Kommunistlər İttifaqı Mərkəzi Komitəsi belə qərar çıxarmışdı. Amma bildirmişdilər ki, əgər legionerlər bundan sonra vicdanla döyüşüb şücaət göstərsə, qərar dəyişdirilə bilər. Mixaylo bunu eşidəndə əlini saymazyana yelləmişdi, çünki bilirdi ki, Sovet İttifaqına geri dönməyəcək.

İndi rus batalyonunun döyüşçüləri gələcək taleləri barədə qərarı Rıbaçenkonun dilindən eşitmək istəyirdi. Hərbi formalarını səliqəyə salıb sıraya düzüldülər, silah və uzunboğaz çəkmələrini silib parıldatdılar. Sovet missiyasının rəhbəri 30-cu diviziyanın komandiri Vasinin müşayiəti ilə gəldi. Rus batalyonunun komandiri hərbi addımlarla irəli çıxıb polkovnik Rıbaçenkoya raport verdi. Fəxri qonaq toplaşanları salamlayıb sıraların arasından keçdi. Hər döyüşçüyə diqqətlə nəzər salıb sanki kimliyini, partizanların arasına necə düşdüyünü öyrənmək istəyirdi. Polkovnik nitqinin əvvəlində Qızıl Ordunun və müttəfiq qoşunlarının,

Yuqoslaviya partizanlarının şanlı zəfər yürüşü barədə geniş məlumat verib dedi:

– Sovet İttifaqının vətəndaşı kimi şərəfli adı yenidən daşımaq üçün sizin yalnız bir yolunuz var: günahınızı qanla yumalısınız! Şücaət göstərib sloven döyüşçülərə nümunə olmalısınız. Döyüşün ən ağır nöqtələrindən sizin sorağınız gəlməlidir. İgidliyiniz və cəsurluğunuz sayəsində Qızıl Ordu əsgərinin uca adını özünüzə qaytara bilərsiniz!

Polkovnikin nitqi nikbin ruhda olan legionerlərdən əksəriyyətini ruhlandırdı. Deməli, sağ qalsalar, sloven partizan dəstələrində döyüşdüklərini nəzərə alıb, müharibədən sonra Vətənə qayıtmaq üçün onlara zəmanət verilir. Görüşün rəsmi hissəsindən sonra missiya nümayəndələri, qərargah rəhbərləri və keçmiş legionerlər nahar süfrəsinin arxasına keçdi. Döyüşçülər polkovnik Rıbaçenkoya çoxlu sual verdi. Hamının ürəyi dolu idi, hər biri də sualına cavab almağa çalışırdı: Vətənə, doğmalarının yanına qayıda biləcəklərmi?

Polkovnikin gəlişi 2-ci batalyonun şəxsi heyətinə müsbət təsir göstərib əsgərlərin döyüş ruhunu yüksəltdi.

## XXXVIII

*Nə müddətdir ayrı düşdüm Vətəndən,*
*Dözmək olmur bu hicrana, tərlanım.*
*Nə gedən var, nə gətirən bir xəbər –*
*Əlim çatmır heç bir yana, tərlanım.*

*Dan sökülüb, səhər şehlər düşəndə,*
*Şeyda bülbül fəğan eylər gülşəndə.*
*Qəlbim sızlar el yadıma düşəndə*
*Qanad çalıb get Vətənə, tərlanım.*

*Saralıbdır novbaharı Gülgəzin,*
*Adətimdir bülbül kimi gül gəzim.*
*Söylə gəlsin mənim nazlı Gülgəzim,*
*Mən düşmüşəm bu tufana, tərlanım.*

*İndi şığı, qalx havaya, yar yeri,*
*Çal qanadın buludlara, yar yeri!*
*Düşərgədir mən Mehdinin dar yeri*
*Söylə bunu Mehribana, tərlanım.*

***M.Hüseynzadə***

İnsan üçün müharibənin dəhşətlərindən acı heç nə yoxdur. Dava ən qiymətli sayılan hər şeyi ucuzlaşdırır, hətta ölümü də! Məsələn, səhər evdən çörək, yaxud siqaret almağa çıxırsan, amma iş elə gətirə bilər ki, bir daha geri dönməzsən! Əmin-amanlıq dövründə adi saydığın bir çox şeylər müharibə vaxtı tamamilə başqa məna kəsb etməyə başlayır. Əmin-amanlıq dövründə insanlar belə düşünür ki, ölüm haqdır! Ancaq dava ölümün çalarlarını daha da tündləşdirir, ölüm çörək və su kimi adamların şüuruna, məişətinə daxil olur. Bu şüurla çox uzağa gedə bilməzsən, çünki həyat davam edir, çarəni özün axtarıb tapmalı və sonra yoluna davam etməlisən!

Kənd məktəbində müəllim işləyən Zinkanın yaşı iyirmidən çox olmazdı. Sarısaç, mavigözlü bu qızla fəlsəfi mövzularda söhbət etmək Mixaylonun çox xoşuna gəlirdi. Zinka mütaliəni sevirdi, dünya klassiklərinin əsərləri ilə yaxından tanış idi. Sloven dili müəllimi olmaqdan fərəh duyurdu. Bu qızın kiçik qəlbində aşıb-daşan Vətən sevgisi isə Mixaylonu heyran qoymuşdu.

– Bilirsən, Mixaylo, sloven dilini tədris etmək üçün bizə iyirmi ildən çox vaxt lazım oldu, təsəvvür edirsən?

Əvvəllər məktəbdə, yaxud ictimai yerlərdə sloven dilində danışanı böyük cəza və cərimə gözləyirdi. İndi isə ana dilində istənilən yerdə danışmaq, fənləri bu dildə tədris etmək ziyalı gənclərdə xoşbəxt gələcəyə böyük inam doğururdu. Zinka saatlarla slovencə şeirlər söyləyib, bu dilin gözəlliyindən danışa bilərdi.

– Bəli, Zinka, azadlıq adamı məst edir! Tutaq ki, bir qurtum su içmisən, amma özünü sərxoş hiss edirsən! Həyat da belədir, gözəllikləri adamı bihuş edir! Amma təəssüf, adamlar çox vaxt bu gözəlliyi duymur, bəlkə də, görmək istəmir...

– Ah, əziz Mixaylo, qəhrəman olmaqla yanaşı, həm də müdrik filosofsan! İstərdim ki, şagirdlərim böyüyəndə sənə oxşasın, igid, sağlam, polad kimi möhkəm olsun, heç nədən qorxub-çəkinməsin!

– Həm də sənin kimi gözəl olub oğlanların yuxusuna haram qatsın...

– Deməli, sən nəinki filosof, həm də poetik qəlbli adamsan. Heç ağlıma gəlməzdi! Adaxlım mənə eşq elan edəndən iki saat sonra italyanlar onu güllələdi. O da sənintək şair təbiətli oğlan idi, heyif, məhv oldu!

Zinkanın gözləri doldu. Bu barədə danışmaq ona ağır idi. Mixaylo bu rabitəçi qızın xətrini çox istəyirdi. Partizan dəstəsi Vitovlye kəndinə gələndə həmişə Zinkaya baş çəkir, qayğıları ilə maraqlanırdı.

– Mixaylo, yadımda ikən soruşmaq istəyirəm: düzdür ki, yazda Çepovanda Skokların evində tez-tez qonaq olmusan?

– Bəli. Bir neçə dəfə onlarda gecələmişəm. Blajetu kəndində yaşayan Kofolgildə də qalmışam. Fevralın 28-də almanlar onların evini darmadağın etdi.

– Heç bilirsən, Skokun beş yaşlı oğlu Lütsian anasından nə soruşub? – Zinka gülməkdən özünü güclə saxlayırdı. – Anası ən yaxın rəfiqəmdir, özü danışıb.

– Nə deyib? – Mixaylonu maraq götürdü.

– Uşaq soruşub ki, niyə bizə gələn əminin hər dəfə saçları bir rəngdə olur? Anası da barmağını dodağına dayayıb "sus, bu, yoldaş Mixaylodur!" deyib. Ha-ha-ha! Ən gülməlisi odur ki, almanlar kəndə gələndə uşaqlar səs-səsə verib bir ağızdan "Partizanlar gəldi!" deyə bağırıb. Onlar sizi, partizanları həmişə alman formasında gördükləri üçün yanılıblar. Almanlar da məəttəl qalıb çiyinlərini çəkiblər!

– Yaxşı ki, uşaqlara toxunmayıblar. Onlardan nə desən gözləmək olar!

– Hə, Mixaylo, çox təhlükəli zəmanədə yaşayırıq. Səhər yuxudan duranda bilmirsən ki, başına nə gələcək...

– Zinka, su qabı suda sınar, deyiblər. Hər şeyin əvvəl-axır məntiqi sonu var. Məsələn, dünən törətdiyin təxribat barədə səhər qəzetlərdə oxuyursan. Yazırlar ki, filan obyekt havaya sovrulub, filan qədər faşist köpəyi qırılıb! Təsəvvür edə bilməzsən ki, belə yazını oxuyanda adam hansı hisslər keçirir. Ümumiyyətlə, təxribatçı olmayan bunu anlamaz. Bu, idman rekordu qazanmağa bənzəyir. Amma mənim işimdə yalnız özümlə yarışa bilərəm.

– Mixaylo, məncə, rəqib tanımırsan, qarşına çıxmağa kim cürət edə bilər?

– Təxribat işində, bəlkə də, rəqibim yoxdur, ancaq qəlb məsələlərində həmişə rəqiblə üz-üzə gəlmişəm. Sevgi rekordlarını təzələmək heç də asan məsələ deyil! – Mixaylo gülümsündü.

– Mənə baş çəkdiyin üçün çox sağ ol. Gətirdiyin ərzaqlara görə də minnətdaram. Riki ilə düz iki həftə yemək dərdi çəkməyəcəyik.

– Tezliklə qayıdacağam, Zinka! İmkan verməməm ki, ərzaq sarıdan korluq çəkəsiniz. Rikiyə də salam söylə...

Mixaylo təkcə partizanlara yox, kənd camaatına da müntəzəm ərzaq gətirirdi. Ona görə də əhali məşhur partizanı duz-çörəklə qarşılayır, qonaqpərvərlik göstərirdi. Mixaylo həmişə aclıq çəkən ailələrin yanında idi. Adamlar da bu yaxşılığa qarşılıq verməyə çalışır, partizanlara əllərindən gələn köməyi əsirgəmirdilər.



# SENTYABR 1944-cü il

## XXXIX

Xeyirlə şər qoşa addımlayır. Xeyirin hər məğlubiyyəti şərin qələbəsi deməkdir. Amma şər daim qalib gələ bilməz, əvvəl-axır özünü məhv edəcək. Xeyir və şər insan düşüncəsinin məhsuludur, real həyatda isə onları bir-birindən ayırmaq çətindir – şərin harada bitdiyini, xeyirin harada başladığını müəyyən etmək mümkün deyil. Yaxşı adam həmişə xeyir axtarır, pis adam isə şərdən ikiəlli yapışır, hamıya qara yaxır. Zaman keçdikcə, şər ayaq tutub yeriyir, xoşbəxtlikdən, xeyir də kölgədə qalmır. Biz xeyirlə şərin yarışını "həyat" adlandırırıq. Həyat təzadların mübarizəsidir. İnsan anbaan dəyişir, ötən zamanı qaytarmaq isə mümkün deyil. Əmin-amanlıq dövründə xeyirlə şəri bir-birindən fərqləndirmək çox çətindir. Müharibədə bunu anlamaq bir qədər asandır: bizim tərəfimizdə olmayan düşmən sayılır, bizim üçün pis hesab edilən şey "şər", düşmən üçün pis sayılan şey isə "xeyir" adlanır.

Beləliklə, əgər düşmənə ziyan vurmusansa, deməli, xeyir iş görmüsən. Ən çox düşmən məhv edən adam qəhrəman sayılır. Mixaylo öldürdüyü faşistlərin sayını xatırlamırdı. İnamla demək olar ki, o, İkinci Dünya müharibəsinin ən yaxşı təxribatçısı idi. Bu qəhrəmanı IX korpusun, Qoren və Sahilyanı diyarın ən təcrübəli terrorçusu hesab etmək olardı.

"Ay Allah, sən özün kömək ol, sentyabrın ortasında belə güclü yağış olar? Azərbaycanda belə yağış yağanda deyirlər: tut ucundan çıx göyə!" – Mixaylo yağışa baxıb başını buladı. Leysan kəsmirdi, Mixaylo da təpədən-dırnağa qədər islanmışdı. Nəhayət, külək buludları qovdu, səma açıldı, Günəşin qızılı şəfəqləri ətrafa şölə saçdı. Diviziya kəşfiyyat xidmətinin rəisi Pemts ocağın başında paltarlarını qurudan təxribatçılara cəbhədəki vəziyyət barədə danışırdı:

– Aydovşina kəndində SS qoşunlarının 10-cu polis alayından iki yüz nəfər, Vipavedə 350 – onlardan 200 nəfəri həmin alaydandır, Dornberkedə 120 italyan faşisti, Qoritsada əsas hissəsi almanlardan ibarət üç minədək əsgər. Son zamanlar bu dəstələr tez-tez qarnizonları tərk edib kəndlərə soxulur, əhaliyə divan tutur, talançılıqla məşğul olur, günahsız adamları öldürür. Biz Qoritsa ətrafında pusqular quracaq, şəhərdən addımını kənara qoyan düşmən əsgərlərindən qisas alacağıq. Mixaylo, sənin başçılıq etdiyin təxribat qrupunun köməyinə ehtiyac var. Uşaqlar, bu alçaqların dərsini verməliyik!

Mixaylonun təxribat dəstəsi iki qrupa ayrılıb postlarda keşik çəkməyə başladı. Dostu Fritslə birlikdə Şempas və Çrniçi arasında pusqu qurmuş, körpülərdən birində tank əleyhinə mina basdırmışdı. Düşmən karvanının önündə gedən maşın minaya düşüb partlayandan sonra digər maşınlar da dayanmağa məcbur olacaqdı, bundan istifadə edən partizanlar karvanı atəşə tutacaqdı.

Partizanlar pusqu yerlərini elə məharətlə seçmişdilər ki, düşmən duyuq düşməsin. Səhər saat on radələrində Qoritsa istiqamətindən gələn hərbi maşın karvanının səsi eşidildi. Yeddi yük maşını və dörd motosikletçidən ibarət karvan mina basdırılan yerə yaxınlaşırdı. Öndəki yük maşını minanın üstündən keçəndə partlayış baş verdi. Zərbənin təsirindən maşın və yük yerində oturmuş əsgərlər havaya uçdu. Partizanlar faşistlərə göz açmağa macal verməyib güclü atəş açdılar. Düşmən əsgərlərindən çoxunun cəsədi elə maşınlarda qaldı. Digər əsgərlər isə yerə uzanıb kor-koranə atəş açmağa başladılar, çünki partizanların gizləndiyi yeri müəyyən edə bilmirdilər.

Partizanlar "Ura! İrəli!" komandası ilə döyüşə atıldı. Bir göz qırpımında dörd yük maşını və iki motosikletə od vuruldu. Partizanlar xeyli qənimət ələ keçirdi: üç minaatan və bir neçə yeşik patron! Düşmənin kiçik bir dəstəsi yaxınlıqdakı təpənin arxasında gizlənib müdafiə olunurdu. Ümid edirdilər ki, tezliklə qarnizondan kömək göndəriləcək. Həqiqətən, axşamdan xeyli keçmiş qarnizondan içi əsgərlə dolu dörd yük maşını, iki zirehli maşın və altı motosikletçi çıxıb hadisə yerinə yollandı. Amma onlar da pusquda dayanmış partizanların müqavimətinə rast gəldi. Mixaylo və Frits öndə gedən yük maşınını tank əleyhinə mina ilə partlatdı. Partizanlar hücuma keçib düşməni mühasirəyə aldı. Faşistlərin dörd yük maşını, bir minik avtomobili və iki motosikleti məhv edildi.

Maşınları bürümüş alov ətrafa işıq saçırdı, düşmən əsgərləri də pərən-pərən düşmüşdü. Partizanlar hərbi qənimətləri toplayıb döyüş meydanından çəkildi. Sübh çağı Mixaylo və Frits yaxınlıqdakı Ştaniel

ilə Qoritsanı birləşdirən dəmir yolu xəttində təxribat törətdi – düşmənin canlı qüvvə və hərbi texnikası yüklənmiş qatar keçəndə körpünü partlatdılar.

Növbəti əməliyyat Vremya Britofe vadisində, Divaça–Rıbnitsa yolu üzərində baş tutdu. Bu, Cənubi və Şərqi Sloveniyanı birləşdirən mühüm nəqliyyat dəhlizi idi. Partizan rabitəçiləri Dolinsk vilayətinə və Koçevsk Roqda yerləşən qərargaha gəlmək üçün məhz bu yoldan istifadə edirdi. Mixaylo da motosikletlə gedəndə bu yola paralel olan ikinci dərəcəli daş-kəsəkli yolu seçirdi. Ümumiyyətlə, Krasda bütün ana magistrallarla paralel torpaq yollar mövcud idi, bu da partizanların işini asanlaşdırırdı. Mixaylo Sahilyanı diyarın şəhər və kəndlərini gəzdikcə bir daha əmin olurdu ki, əvvəllər bu ərazilərdə əhali sıx yaşayıb, iki-üç mərtəbəli fərdi evlər ucaldılıb, abadlıq işləri aparılıb. İndi isə müharibə hər tərəfi xarabalığa çevirib, adamlar doğma yurd-yuvasını tərk etmək məcburiyyətində qalıb. Ancaq davanın vurduğu yaralara baxmayaraq, təbiət öz gözəlliyini qoruyub. Mehdi düşündü: “Buralar necə də Azərbaycana bənzəyir, torpağın hər qarışı əcdadların qanı ilə yoğrulub. Roma ordusunun cəngavərləri bu yerlərdən keçib, indi isə alman qəsbkarları ilə döyüşməyə məcburuq!”

Bu uğurlu əməliyyatdan sonra komendant Novlyenkonun göstərişi ilə mitinq keçirildi, əməliyyatda fərqlənmiş partizanlara mükafatlar təqdim olundu. Orkestr “Şanlı bayraqlar, irəli!” sloven himnini çaldı və ulduzlu üçrəngli bayraq qaldırıldı.

Qərargah rəisi korpus komendantı Novlyenkoya mükafat təqdim edəndə orkestr “Briqada, irəli!” marşını çaldı və Pemts qalibləri təbrik etdi. Təntənəli mükafatlandırma mərasimindən sonra komendant toplaşanlara dedi:

– Dolen vilayətinin nümayəndəsi, Qradnik briqadası ikinci batalyonun üçüncü bölüyünün nümayəndəsi Miran Beretiç “Hitlerin yanında müşavirə” adlı təzə yazdığı həcvi oxuyacaq.

Partizan Miran Beretiç kürsüyə çıxıb həcvi oxumağa başladı:

*Almanlar günbəgün geri çəkilir,*
*qorxudan Hitlerin saçları biz-biz,*
*Biz batmış öküztək sıçrayır qəfil,*
*zaldan zirzəmiyə hoppanıb düşür.*

*Çağırır yanına generalları,*
*kim varsa, hamını yığır başına.*
*Hətta Rupnik belə yollanıb ora –*

*gedib ki, Hitlerin qəziyyəsini*
*onun öz dilindən eşidib bilsin.*

*Hitler yubatmadan başlayır sözə:*
*"Hamını köləyə çevirmək üçün*
*bizim təmiz qanlı ali irqimiz*
*bütün yer üzünü fəth etsin gərək.*

*Bu işi çox asan görə bilərdik*
*əngəl olmasaydı Sovetlər bizə.*
*Əgər biz hamını qul eləməsək,*
*dünyanı fəth etmək çətin olacaq".*

*Rupniki çağırır sonra yanına –*
*sloveniyalı cinayətkarı,*
*Gözünü zilləyib baxır alnına,*
*qəfildən bağırır axmaqcasına:*

*"Sizin zəhlətökən o partizanlar*
*canımı boğaza yığıblar mənim.*
*Əgər sən onları rədd eləməsən,*
*özünü məzara göməcəm sənin".*

*Rupnik cavabında deyir ki, ona:*
*"Əgər sən bu qədər ağıllısansa,*
*onda özün də qov partizanları!*
*Əlimdən gələni əsirgəmədim,*
*az qala, göbəyim yırtıldı mənim!"*

*Coşub var gücüylə bağırdı Hitler,*
*səsindən Reyxstaq lərzəyə gəldi.*
*O, yenə meymuntək atılıb-düşür,*
*o, yenə ulayır quduz it kimi.*

Toplaşanlar qəhqəhə çəkib Miranı elə çox alqışladılar ki, məcbur qalıb həcvi yenidən oxudu.

Adətən, mitinqlərdə şüarlar səsləndirilir. Bu dəfə də belə oldu. Qısa ətək, ağ corab geymiş balaca Mirinda Yuqoslaviya Komsomol Gənclər İttifaqı tərəfindən əvvəlcədən hazırlanmış şüarı ucadan

səsləndirdi: “Yaşasın Xalq azadlıq ordusu və onun komandanı marşal Tito!”

Toplaşanlar əl çalıb bir ağızdan təkrar etdilər:

– Tito! Tito! Tito!

Kəndlilər xalq ordusunun döyüşçülərinə hədiyyə olaraq bir neçə çəllək meyvə şnapsı göndərmişdi. Partizanlar bu xəbəri alqışla qarşıladı. Döyüşçülərin, qəhrəmanların və qələbənin şərəfinə badə qaldırdılar. Komandirin razılığı ilə qərargahın yerləşdiyi fermanın qarşısında rəqs gecəsi təşkil olundu.

Qərargah rabitəçisi Slavko qarmonu dilləndirdi və əsgərlər vals oynamağa başladı. Qələbəlik olsa da, rəqs üçün yer kifayət qədər idi,

Qısa fasilədən sonra leytenant Tixi komandir üçün solo rəqsi elan etdi. Şərti də belə oldu ki, qızlar yalnız komandirlə rəqs edəcək. Komandir Novlyenko bu təklifdən çox razı qaldı və növbə ilə qızlarla rəqs etdi. Sevincdən gözləri parlayır, özünü əsl kavaler kimi aparırdı. Slavko qarmonda ritmik melodiyalar çalmağa başladı. Bu ritmlər altında Qradnik briqadasının döyüşçüsü Yereb hamıdan yaxşı oynayırdı. Az sonra komandir yoruldu, kürəyinin ortasından tər axır, ayaqları sözünə baxmırdı – elə bil bir vaqon un boşaltmışdı. Qızlar isə onu rahat buraxmır, elə hey rəqsə dəvət edirdi.

Digər komandirləri narazı salmamaq üçün leytenant bu dəfə siyasi komissarlar üçün solo rəqsi elan etdi. Qızlar da komissarları dövrəyə alıb oynadılar. Leytenant Tixi başa düşdü ki, siyasi komissarları, necə deyərlər, “xilas” etmək vaxtı çatıb. Slavkoya işarə etdi ki, əl saxlasın və ucadan dedi:

– Hamı üçün solo rəqs, xanımlar bəyləri rəqsə dəvət edir!

Rəqs meydançasında iynə atsaydın, yerə düşməzdi. Hər tərəfdən gülüş səsləri ucalırdı. Cavanlar yorulmaq bilmədən səhərə qədər oynadı...

## XL

Mixaylonun növbəti hədəfi alman zabitlərinin yeməkxanası idi. Burada zabitlər üçün nəzərdə tutulmuş xüsusi zal vardı. Yeməkxana Paris Bastiliyasını xatırladan köhnə liman anbarı ilə üzbəüzdə idi. Sentyabrın ortalarında bu dəbdəbəli sarayın qarşısında son model “Opel” markalı avtomobil dayandı. Burada iyirmidən çox müxtəlif markalı maşın vardı. “Opel”dən solğun bənizli SS kapitanı düşdü və sürücüyə gözləməyi tapşırdı. Kapitan onun sənədlərini yoxlayan gözətçinin salamını ötəri aldı. Gözətçi yoxlamanı bitirib zabitə yol verdi. Xüsusi zal dördüncü mərtəbədə yerləşirdi. Şüşə qapıya elan

yapışdırılmışdı: “Yalnız zabitlər üçün!” Kapitan içəri daxil olub birinci masanın arxasında əyləşmiş hərbçilərlə salamlaşdı və zalın yuxarı başına keçdi. Masanın arxasında əyləşmiş dolubədənli, qırmızıyanaq zabit ayağa qalxdı, deyəsən, getməyə hazırlaşırdı. Kapitan onun salamına əlini yuxarı qaldırmaqla cavab verdi, sonra yerini rahatlayıb əlindəki kiçik çamadanı masanın altına qoydu. Bu vaxt qarson özünü yetirdi, kapitan vermut, şnitsel və qəhvə sifariş verdi. Bər-bəzəkli, dəbdəbəli zalı siqaret tüstüsü basmışdı. Demək olar ki, hamı söhbət edib siqaret çəkirdi. Hiss olunurdu ki, bu adamlar restoranın daimi müştəriləridir. Hərbçilər, əsasən, Şərq cəbhəsindəki vəziyyət və müttəfiq qoşunlarının hücumundan danışırdı. Bir mayor həmsöhbətini inandırmağa çalışırdı ki, müttəfiqlər çox ləng irəliləyir, ona görə də narahat olmağa dəyməz, Şərq cəbhəsində və Yuqoslaviyada isə vəziyyət başqadır.

Zala beli bükülmüş, yaşlı polkovnik daxil oldu.

– Hayl Hitler! – zabitlər dərhal ayağa qalxdı, farağat dayanıb qonağı salamladılar. Polkovnik əlini saymazyana yellədib arakəsmənin arxasına keçdi – qərargah zabitlərinin masaları burada yerləşirdi. SS kapitanı şnitseli yeyib, qəhvəni içmişdi. Siqar yandırıb ayağa qalxdı və qapıya yönəldi. Çıxışda sürücü gözləyirdi, mühərriki söndürməmişdi. Kapitan arxa oturacağa əyləşən kimi “Opel” yerindən tərpəndi. Maşın Triestdən Sejanaya gedən yola çıxıb patrul postunun yanından keçdi. Uzaqdan partlayış səsini eşidən sürücü maşını saxladı, Mixaylo isə zabit formasını çıxarıb gülə-gülə əlini sürücünün – dostu Fritsin çiyninə qoydu.

– Dostum, – Frits qəhqəhə çəkdi, – deyəsən, partizan hədiyyəsi zabitlərin ürəyincə oldu!

Sonradan Darko bildirdi ki, təxribat nəticəsində iyirmi üç alman zabiti ölüb, xeyli yaralı var, səkkiz yüksək rütbəli zabiti isə Almaniya xəstəxanalarına aparıblar.

Mixaylo təxribat barədə əmri Pemts və Darkodan almışdı, amma obyekti özü seçmişdi. Ağlına gəlməzdi ki, təxribat ideyasını bu dəfə Miryam verəcək. Mixaylo bir neçə gündən sonra yeni tapşırıqla Triestə qayıtdı.Təxribat üçün seçilmiş obyekti müşahidə edəndə məlum oldu ki, almanlar limandakı partlayıcı maddələr anbarının mühafizəsini ikiqat gücləndirib və əlavə post qoyublar. Axşam Sosiçgilə gəldi, şam yeməyindən sonra dostuna təxribat üçün yeni obyekt axtardığını söyləmək istəyirdi. Miryam da həyəcanlı idi, səbəbini belə izah etdi: almanlar onun on beş yaşlı rəfiqəsinin valideynlərini və qardaşını güllələyib, qızı da zorla fahişəxanaya aparıblar. Miryam fikirli-fikirli soruşdu:

– Zavallı Mariyaya kömək edə bilərik?

Miryam belə hesab edirdi ki, Mixaylonun bacarmadığı iş yoxdur!

– Mariyanın yerini bilirsən? – Mixaylo soruşdu, gözlərindən qəzəb yağırdı.

– Hə, sinyora Qloriyanın evindədir, göstərə bilərəm... – Miryam susdu və sonra əlavə etdi: – Buradan on dəqiqəlik yoldur.

Mixaylo xatırladı ki, bir dəfə Mirdamədlə Triestin qırmızı fənərlər məhəlləsinin küçələrində gəzəndə dostu demişdi:

– Alman zabitlərinə intim xidmət göstərən fahişəxananı partlatmaq yaxşı olardı!

Təxribatçılar bilirdi ki, belə yerlərdə təhlükəsizlik qaydalarına əməl olunmur, yəni hərbi patrul bu binaları qorumur. Kettnerin xəfiyyələri tez-tez Triest fahişələrindən söhbət salırdı və Mixaylo düşündü ki, çox güman, Kettnerin adamları buraların daimi müştəriləridir – boş-bekar adamlardır, pul xərcləməyə yer axtarırlar!

Hava qaralanda evdən çıxdılar, ilk dəfə idi ki, yanaşı gedirdilər, Mixaylo Miryamın əlindən bərk-bərk tutmuşdu, qız da sevincindən qanad çalıb uçurdu. Korza küçəsindən qaranlıq, çirkli dalana döndülər, fahişəxanalar burada yerləşirdi. Korza küçəsinin arxasında, Kavana meydanının ətrafındakı küçə və evlər Triestdə ad çıxarmışdı. Köhnə şəhərin aşağı hissəsini əhatə edən ərazi yüngül həyat tərzi keçirən əxlaqsız qadınların, sərxoş dənizçilərin, əyyaşların məskəni idi. Liman yaxın olduğu üçün bura daha çox dənizçilər gəlir, qızlarla əylənir, içib dava salırdılar. Solitario küçəsindəki hər binanın qarşısında qırmızı fənər asılmışdı. “Qızıl açar”, “Metro” adlı gecə klubları qadın düşkünlərinin sevimli yeri idi, küçənin sonunda yerləşən sinyora Qloriyanın fahişəxanası isə alman zabitlərinin əyləncə məskəninə çevrilmişdi.

Hava yenicə qaralsa da, “qırmızı fənərlər” rayonu hərbçilərlə dolu idi. Miryam sinyora Qloriyanın evini Mixayloya göstərəndə təxribatçının ağlına bir fikir gəldi. Üstəlik, evə qayıdandan sonra Sosiç yaxın ətrafından aldığı xəbəri Mixayloya çatdırdı: sinyora Qloriya gestapoya işləyir və evinə gələnlərin böyük əksəriyyəti alman zabitləridir. Zavallı Mariyanı da fahişəxanaya gətirən kimi adını dəyişib “Heli” qoyublar.

Ertəsi gün Miryam əməliyyata hazırlıqda Mixayloya yaxından kömək etdi: onun şalvarına ütü çəkib uzunboğaz çəkmələrini təmizlədi. Axşam Mixaylo sinyoranın evinə alman kapitanı formasında gəldi. Cibindən ağzına qədər dolu pul kisəsini çıxarıb sinyora Qloriya ilə razılaşdı: Helini özü ilə aparıb yalnız səhər geri gətirəcək! Sinyora razılaşdı, amma dedi ki, bir az gözləmək lazımdır və kapitana içki təklif etdi.

Qonaq otağı sərxoş zabitlər və yarıçılpaq qızlarla dolu idi. Mixaylo küncdəki yeganə boş masanın arxasında əyləşdi. Qızlardan üçü onun

masası ətrafında dolaşmağa başladı. Mixaylo nəzakətlə bildirdi ki, narahat olmağa dəyməz, qonaq gözləyir. Dördüncü qızın isə qədd-qaməti xoşuna gəldi: iri qara gözləri və tünd-qara saçları vardı. Mixaylo onu masa arxasına dəvət edib içki sifariş verdi, başa saldı ki, Helini gözləyir. Qarasaç gözəlçə isə fransız qızı idi, Mixaylo bunu öyrənən kimi onunla fransız dilində danışmağa başladı. Qarson qəhvəni gətirəndə fransız qızı təklif etdi:

– Cənab kapitan, icazə verin, qəhvə ilə falınıza baxım!

Mixaylo razılaşdı. Qız qara gözlərini qəhvəyə zilləyib xeyli baxdı, fincanı əlində xeyli çalxaladı və cingiltili səslə dedi:

– Ölüm görürəm, o qədər pulunuz olacaq ki, qoymağa yer tapmayacaqsınız... çoxlu düşməniniz var, onlar sizi axtarır. Cənab kapitan, üzr istəyirəm, ancaq mən gördüyümü deyirəm. Gözləriniz ölüm saçır.

– Pul barədə, bəlkə də, haqlısan, amma ölümdən danışmaq sənə yaraşmır. Məncə, çox yorulmusan. Al, bu pulları götür, get evə, bu günlük kifayətdir, dincəl! – Mixaylo ona xeyli pul uzatdı. Qız pulu götürmək istəmirdi, amma Mixaylonun israrından sonra razılaşdı. Bu məqamda sinyora Qloriya Mixaylonu Helinin otağına göndərdi. Mixaylo otağa girib qıza dedi ki, rəfiqəsi Miryamın xahişi ilə gəlib. Mariya ağladı, sonra sakitcə geyinib yığışmağa başladı. Mixaylo detonatoru qurub minanı paltar şkafında gizlətdi, qapısını bağlayıb açarı cibinə qoydu. Beş dəqiqədən sonra artıq yaxınlıqdakı kafedə idilər. Miryam burada oturub onları gözləyirdi. Tezliklə üçü də evə qayıtdı. Mariya Sosiçin boynuna sarılıb hönkürdü. Mixaylo və Miryam isə pəncərənin önünə keçdi. Partlayışı çox gözləmək lazım gəlmədi. Dəhşətli gurultudan evin pəncərələri titrədi, sinyora Qloriyanın fahişəxanası darmadağın olmuş, binanı alov bürümüşdü. Küçə ilə şütüyən polis və yanğınsöndürən maşınların sirenası eşidildi. Miryam və Mixaylo razılıqla bir-birinə baxıb gülümsündü...

## XLI

Sentyabrın ortalarında Mixaylo uzun fasilədən sonra yenidən Soş briqadasının rus batalyonuna qonaq gəldi. Komandir Anatoli İqnatyeviç soruşdu:

– Eşitdiyimə görə, bir-iki həftə əvvəl faşistlərin "İl Piccolo" qəzetinin redaksiyası partladılıb. Mixaylo, səhv etmirəmsə, bu sənin işindir, hə?

– Yox, hörmətli Anatoli İqnatyeviç. Mario adlı bir köməkçim vardı. Onunla binanın zirzəmisindəki mətbəəyə gəldik. Fəhlələr nahar fasiləsinə getmişdi. Redaksiya isə birinci mərtəbədə yerləşir, faşistlərə satılmış jurnalistlər və reportyorlar cızmaqaralarını orda yazırlar. Bir

masanın üstündə fotoşəkillər vardı. İşgəncələrlə öldürülmüş slovenlərin cəsədləri çəkilmişdi. Fotoları görüb çox təsirləndim. Nə isə, kirli kombinezon geyinib əl fənəri götürmüşdük ki, görənlər bizi fəhlə zənn etsin. İçində mina olan kiçik çantaları tualetə qoyub zirzəmiyə endik. Mario qapıdakı növbətçiyə bildirdi ki, çap maşınlarını təmir etməyə gəlmişik, sonra da dedi:

– İşə başlamazdan əvvəl nahar etsək yaxşı olar, qoy alətlərimiz burda qalsın.

Nahar adı ilə aradan çıxdıq, hər şey planlaşdırdığımız kimi oldu. Təxribatdan sonra iki həftə qəzeti çap edə bilmədilər.

Mixaylo susdu, gözü yol çəkdi. Uşaqlardan kimsə gitarada "Ay qız" Azərbaycan mahnısını çalırdı. Mehdi bu mahnını zümzümə etməyi çox sevirdi. Oxuyanda da doğma yurdu yadına düşürdü.

Batalyonun intendant xidmətinin komandiri, leninqradlı Viktor Andreyeviç süfrəyə şərab və meyvə qoydu. Sonra əsgərlərdən biri Mixaylonun dostu Mikayıl Qulubəyova həsr etdiyi "Dostum" şeirini oxudu:

*Getdikcə vətənçün lap darıxıram,*
*xoş keçən günlərim ordadı, dostum.*
*Bütün doğmalarım vətəndə qalıb,*
*onlarsız ürəyim qubardı, dostum.*

*Günlər ötüb keçir yanımdan mənim,*
*həyatım qəlbimtək qəlpələnibdir.*
*Onları yurduma qaytarmaq çətin,*
*payız yarpağıtək soluram, dostum.*

*Ay buludlar üstdən işıq saçanda,*
*yarpaqlar bürünür alova, oda –*
*Yadran cənnət kimi gözəl olsa da,*
*yuxuda gördüyüm Xəzərdi, dostum.*

...Hava qaralmışdı, qaranlıq kəhkəşanda ulduzlar bərq vururdu. Mixaylo Soş briqadasının üzvləri ilə səmimi görüşüb ayrıldı və dağ cığırında gözdən itdi.

## XLII

...Kəndin kənarında, sıx ağacların arasında yerləşən evin qarşısında iki cavan dayanmışdı. İndicə evdən çıxmışdılar, partizanların şərəfinə təşkil olunmuş ziyafətdə xeyli şərab içib rəqs etmişdilər. Bəlkə də, qonaqların hay-küyündən bezib həyətə qaçmışdılar.

Qamətli, sarışın, qıvrımsaç qız ziyafətdə tanış olub rəqs etdiyi qaragöz oğlanın köksünə sığınmış, baxışları da harasa uzaqlara dikilmişdi. Oğlanın ürək döyüntüsünü dinləyə-dinləyə düşünürdü ki, indi dünyada onun üçün buradan isti və güvənli yer yoxdur. Başını qaldırıb oğlanın dodaqlarından yüngülcə öpdü, cavan da ona qarşılıq verdi. Hər ikisi susdu – hiss olunurdu ki, bir-birinin hərarətindən isinirlər. Nəhayət, oğlan dilləndi:

– Bəlkə də, xəbərin yoxdur, bizim dahi Stalin qız dostlarından birinə demişdi ki, yüngül öpüş hesaba alınmır. İnsanın sevgi hisslərini ancaq ehtiraslı öpüş büruzə verir – bu Stalinin sözləridir. Yüngül öpüşlə ehtiraslı öpüşün fərqini sənə necə izah edim? Məsələn, düşməni nişan alıb atmalısan, sən isə nişan alırsan, amma tətiyi çəkmirsən! Fərqi görürsən də! Əzizim, Stalinin sözü bizim üçün qanundur! Ona görə də sənə son şans verirəm: səhvini düzəlt və məni ehtirasla öp! Yoxsa yoldaş Stalin qəzəblənə bilər, İrençe! – Mixaylo güldü.

– Eh, Mixaylo, yoldaş Stalini deyə bilmərəm, amma sən, deyəsən, bəzi şeyləri, doğrudan da, səhv salmısan. Düzdür, sloven dilində əla danışırsan. Amma biz indi Rençe kəndindəyik, mənim adım da İrenadır. Yəqin, ziyafətdəki başqa qızla səhv salmısan. Ancaq qəm yemə, Mixaylo, bu iş hamının başına gələ bilər.

– İrena, əzizim, səni çox istədiyimdən İrençe deyirəm, yəni əzizləyici mənada...

– Adım serbcə belə səslənir, slovencə yox!

– Əzizim, xahiş edirəm, mövzunu dəyişmə. Səhv etmirəmsə, Stalinin müdrik kəlamlarından danışırdıq...

– Bilirəm, bilirəm, Mixaylo. Yoldaş Stalin deyib ki, öpüş yalnız ehtiraslı olmalıdır. Stalinin belə bir söz dediyinə heç inanmağım gəlmir. Qoca kişidir, hay-hayı gedib, vay-vayı qalıb, öpüşməyin nə olduğunu hardan bilir?

– Sovet İttifaqında Stalin barədə danışmaq olmaz, ancaq burda, Sahilyanı diyarda ürəyindən nə keçirsə, deyə bilərsən. Bu gün gənclər unudur ki, indiki qocalar nə vaxtsa cavan olub, sevib-sevilib. Busə barədə danışanda Stalin də cavan oğlan idi, hələ hakimiyyətə gəlməmişdi. Sonradan Kremldə taxt-taca sahib oldu. Bəyəm Stalin kimisə öpmək üçün xahiş etməlidir? Bir zəhmli baxışı yetər! Ona busə vermək üçün

qadınlar növbəyə dayanıb! Mərkəzi Komitənin üzvlərini səhərədək rəqs etməyə, köpək kimi yerdə sürünməyə məcbur edirdisə, bunun yanında öpüş nədir ki?

– Mixaylo, bu barədə heç bir məlumatım yoxdur. Ancaq sən Stalin deyilsən, xalq qəhrəmanı olsan da, mənə əmr verə bilməzsən. Nə olsun ki, almanlar başına çoxlu pul qoyub?!

– Mənə elə gəlir bir-birimizi başa düşmədik. Çünki yarım ildir ki, sloven dilini öyrənmişəm, bəzən fikrimi düzgün ifadə edə bilmirəm. Ona görə də üzr istəyirəm! İrena, sənə əmr etmək heç ağlımdan da keçmir. Belə işdə zor olmaz. İnsan gərək qəlbinin səsini dinləsin. Mənim ürəyim isə deyir ki, səni ehtiraslı öpüşlərə qərq edim!

– Oğlanların qəribə xasiyyəti var. İlk dəfə tanış olduğu qızı dərhal öpməyə çalışır. Həm də bunu elə ehtirasla edirlər ki, sanki son öpüşdür. Atalar yaxşı deyib: tələsən təndirə düşər! Bilmirəm niyə, amma rast gəldiyim rusların hamısı mənə Stalini xatırladır. Sən də onlardan dala qalmazsan, Mixaylo. Şəvə bığların olsaydı, səni Stalinlə səhv salardılar! – İrena zarafatından qalmadı.

Qızın incə gülüşü Mixaylonu ürəkləndirmişdi. Ona elə gəlirdi ki, İrenanı uzun illərdir tanıyır. Söhbətləri çox maraqlı alınırdı.

– Bəli, əzizim, hər bir rus, az da olsa, Stalinə bənzəyir. İnsanlar bu adama sevgini ürəklərində daşıyır. Amma çoxları onun adını eşidəndə girməyə deşik axtarır. Qulaq as, məgər bilmirsən ki, mən rus deyiləm? Düzdür, ruslara qarşı heç bir kin-küdurətim yoxdur, orduda ən yaxın dostum Mixaylo adlı rus idi.

– Rus deyilsənsə, bəs hansı millətdənsən? Axı ruslardan çox fərqlənirsən: qaragöz, qarasaç.

– Valideynlərim azərbaycanlı olub, mən də orda doğulmuşam. Sonra da Sloveniyaya gəlmişəm ki, bəxt ulduzumu tapandan sonra rahat şəkildə bu dünyadan köçüm.

– Bir məşhur kəlamda deyildiyi kimi: “Parisi görüm və sonra ölüm!” – hə? Mixaylo, mənə kələk gələ bilməzsən, Paris deyiləm ki, məni görəndən sonra öləsən?!

– Amma şəhər olsaydın, bəlkə də, dünyanın ən gözəl, füsunkar məkanı kimi tanınardın. Qəsrlərin, küçələrin, xiyabanların göz oxşayardı. Mən də mer olub, ilk növbədə şəhərin baş meydanında sənin kimi Veneranın ağ mərmərdən heykəlini qoyardım.

– Bənzətmələrin heç də orijinal deyil. Əgər desəydin ki, Venera, ya da Afrodita kimi gözələm, hə... onda inanardım. Amma məni şəhərə bənzətməyin heç də romantik deyil. Alınmadı, yoldaş baş terrorçu!

– Sən belə danışanda gözlərinin rəngi dəyişir, İrena. Amma bil ki, qorxub geri çəkilən təxribatçılardan deyiləm. Qarşıma məqsəd qoydumsa...

– Bilirəm, adi adam deyilsən! – İrena onun sözünü kəsdi. – Sağlığında ölümsüzlük qazanmısan! Bu hər insana qismət olmur. Belə deyirlər ki, ölümsüz olmaq üçün əvvəlcə ölmək lazımdır. Vaxt gələcək sənin şücaətlərin barədə qalaq-qalaq kitablar yazılacaq, filmlər çəkiləcək, doğma şəhərində xatirə muzeyi açılacaq. Həmçinin Krasda da səni unutmayacaqlar, burada möhtəşəm heykəlin ucalacaq! – İrena sözünə ara verdi, amma gözlərindən görünürdü ki, ürəyi doludur, Mixayloya layiq sözlər axtarır. – Bizim viran qalmış, zülmətə bürünmüş Sahilyanı diyarın səmasında parlayan yeganə ulduzsan! İgidlərimiz hamısı döyüşlərdə canından keçib, sən onları tanımırdın. Deyirlər, müharibənin qanunu belədir: ən yaxşılar həlak olur! Buna sözün nədir, Mixaylo? Adamlar səni nur saçan günəş hesab edir. Elə şölə saçırsan ki, gecənin zülmətini gündüzə çevirirsən!

İrenanın pafoslu nitqi Mixaylonun xoşuna gəlməsə də, güldü. İrena sanki səhnədən monoloq söyləyirdi. Ancaq bu monoloq Mixaylonun ehtiraslı öpüşləri ilə yarımçıq qaldı...

İrena pıçıldadı:

– İndi inandım ki, Stalin haqlı imiş. Xəfif busə ilə ehtiraslı öpüş arasında fərq böyük imiş, Mixaylo...

Onların evə nə vaxt gəldiyini kimsə görmədi. Rəqs edən cütlüklərə qoşuldular. Qarmonda vals çalınırdı. İrena Mixaylonun əlindən yapışıb fırlanırdı, arada başı da gicəlləndi. Amma Mixaylo onu qucaqlayıb yıxılmağa qoymadı.

Səhərə qədər rəqs edib əyləndilər. Mixaylo qonaqpərvər ev sahibi, partizan fəalları və gözəl İrenayla görüşüb ayrıldı.

## XLIII

Faşistlər gestaponu nasist rejiminin düşmənlərini təqib etmək üçün yaratmışdılar, kimsənin ağlına gəlmirdi ki, bu cinayətkar fəaliyyətin kökündə digər qorxunc mətləblər gizlənir. Zahiri görünüş bəzən aldadıcı olur. Bir qrup adamı çıxmaq şərtilə, insanlar inanırdı ki, nasistlərin məqsədi minillik tarixi olan alman Reyxini dirçəltməkdir. Qəzetlər gecə-gündüz bu barədə yazırdı. Əlbəttə, nasistlər fanatik idi, amma onları ağılsız hesab etmək düzgün deyil. Xudbinliyə, tamahkarlığa və xəsisliyə baxmayaraq, nasistlər strateji cəhətdən çox ağıllı və üstün idi. Bütün dünya hesab edirdi ki, alman ordusunun yad torpaqları işğal etməkdə məqsədi öz ərazilərini genişləndirməkdir və təcavüzə

məruz qalmış dövlətlər minillik Reyxin tərkibinə qatılacaq. Həmişə olduğu kimi dünya bu dəfə də yanılmışdı. Yalnız yüksək rütbəli nasistlərə məlum olan həqiqət isə tam əksini göstərirdi. Polşaya hücum edəndə alman ordusunun yüksək rütbəli zabitləri başa düşürdü ki, bu davanı əvvəl-axır uduzacaqlar. Yox, nasistlər ölkələri ona görə işğala məruz qoymurdu ki, min il oranı idarə etsinlər. Almanlar çirkin niyyətlərini həyata keçirib həmin ölkələrin milli sərvətlərini sistemli şəkildə talayırdı. Nasistlərin irqlər və yəhudi məsələsi barədə dediklərinin də səbəbi vardı: həmin dövrdə zəngin almanların böyük əksəriyyəti yəhudi əsilli idi. Yəhudilərin soyqırımı nasistlər üçün çox vacib deyildi, sadəcə, bu adamların sərvətini ələ keçirmək istəyirdilər. Yəhudilərin soyqırımı belə bir prinsip əsasında həyata keçirilirdi: quldur əvvəlcə öz qurbanını soyub var-yoxunu əlindən alır, sonra isə hər ehtimala qarşı onu öldürür. Nasistlər bu yolla qurbanlardan və törətdikləri vəhşiliklərin şahidlərindən yaxa qurtarırdı.

1933-cü ildə Hitler alman xalqının iradəsi ilə qanuni yolla hakimiyyətə gələndə həqiqətən, minillik alman Reyxindən dəm vurmağa başlamış, amma bu mövzu əvvəlcədən bağlı qapılar arxasında hazırlanmışdı. Nasistlər bununla nəinki yəhudilərə, həm də öz vətəndaşlarına qarşı törətdikləri talançılıq siyasətini ört-basdır etməyə çalışırdı. Almanların bu dəhşətli müharibədə digər nailiyyətləri isə yalnız talançılıq üçün bir vasitə idi. Əslində, bunu nasistlərin yeganə çirkin məqsədi kimi qiymətləndirmək mümkündür. Tarix boyu həmişə belə olub: işğalçılar özgə torpaqları zəbt edərək xalqı soyub-talayır və bunu hər vasitə ilə ört-basdır etməyə çalışır.

Bu səbəbdən gestaponun qarşısına məxfi vəzifə qoyulmuşdu: əhalinin sərvətini ələ keçirmək! Gestaponun nəhəng idarəetmə aparatı vardı, onlar SS xüsusi birləşmələri ilə sıx əməkdaşlıq edir, taladıqları sərvəti ölkədən çıxarırdılar.

Gestaponun rəisi Müller özünə yer tapa bilmirdi: xəfiyyə Virtsbuxtel qızılla bağlı məxfi işlərdən xəbər tuta bilər! Canını qurtarmaq üçün onu gestaponun Triest şöbəsinə göndərmişdi. Bu hadisədən bir qədər əvvəl Odilo Qloboçnik Adriatik cəbhəsinin komandanı təyin olunmuşdu. O, Şərq cəbhəsindən yenicə qayıtmışdı. Müller və general Hayder yəhudi məsələsinin "həllində" Eyxmanın[1] sağ əli idi. Doğma diyara qayıdan Qloboçnik ac yalquzaq kimi italyan yəhudilərinin canına daraşıb var-yoxlarını əlindən alır, sonra da ölüm düşərgəsinə göndərirdi.

---

[1] **Otto Adolf Eyxman** (alm. Otto Adolf Eichmann, 1906–1962) – SS zabiti, gestaponun IVB 4 şöbəsinin rəisi, "yəhudi məsələsi"nin həllinə məsul şəxs. Müharibədən sonra Cənubi Amerikada gizlənib. İsrailin "Mossad" kəşfiyyat idarəsi tərəfindən oğurlanıb və ölüm cəzasına məhkum edilib.

İtalyan yəhudilərindən zorla toplanmış qızıl, daş-qaş və digər zinət əşyaları gestaponun Triest şəhər şöbəsindəki seyfdə saxlanılırdı. Gestapoçular şəhərdə yaşayan beş yüzdən çox varlı yəhudi ailəsindən o qədər qızıl və daş-qaş toplamışdı ki, artıq şöbədə qoymağa yer tapılmırdı. Qənimətlər yeni ildən başlayaraq Trjiçdəki (Mon Falkone) Xalq bankı və əmanət kassasının anbarlarına daşınırdı. Yaya qədər burada 60 kiloqramdan çox qızıl külçə toplanmışdı. Gestaponun Triest şöbəsinin rəisi mayor fon Nimits Berlindən əmr almışdı: noyabrın 2-də anbarlardakı qızıl və zinət əşyalarını qatara yükləyib güclü mühafizə altında Romaya gətirmək və Vatikan bankında yerləşdirmək lazımdır! Fon Nimetsə yaxşı məlum idi ki, Vatikan bankı, daha doğrusu, onun Buenos-Ayresdəki filialı nasistlərin ciddi nəzarəti altındadır. Bu bank belə bir öhdəlik götürmüşdü: davada məğlub olacaqları təqdirdə nasistlərə komissiya xərclərini çıxmaq şərti ilə qızılın dəyəri nağd pulla ödəniləcək! Mütəxəssislər proqnozlaşdırmışdı ki, Almaniya müharibəni uduzandan sonra virtual dünya dövrü yetişəcək, millətlərin savaşı iqtisadi müstəvidə davam edəcək. Bu səbəbdən müharibədən sonra ən güclü silah maliyyə kapitalı sayılacaq. Bu silah bəşəriyyəti yenə soyub-talamağa, nəinki nasistlərin, hətta onların gələcək nəsilləri üçün qayğısız həyatın təmin edilməsinə imkan verəcək.

Qoriş partizanlarının komandiri Zlatkonun nişanlısı Melaniya Trjiçdəki bankda çalışırdı. Melaniya orta məktəbdə Tsarla bir sinifdə oxumuşdu və bu oğlan onun ilk məhəbbəti idi. Melaniyagilin ailəsi Trjiçə köçəndən sonra onların əlaqələri kəsilmişdi. Melaniya yazda nişanlısı Zlatko ilə Qoritsanın mərkəzində gəzərkən təsadüfən Tsara rast gəlmişdi. Qız onda bilmişdi ki, vaxtilə sevdiyi oğlan – "İvan" ləqəbli partizan Tsar müqavimət hərəkatı komandirlərindən biridir. Onlar kafenin artırmasında oturmuşdu. Zlatko bir anlığa masadan uzaqlaşdı. Tsar sarısaç, qədd-qamətli Melaniyaya göz vurub gülümsündü və dedi:

– Bu Zlatko səni bezdirməyib?

– Xasiyyəti pis deyil, İvan, hərdən xoşuma gəlir. Məsələn, Boksçu adlı köpəyini, tutuquşu Katini çox sevir. Adamlarla bir o qədər arası yoxdur, ancaq dəqiq bilirəm ki, hərdən gizli iş adı ilə aradan çıxıb başqa qızlarla görüşür. Qadın onu yalnız dünyaya uşaq gətirən məxluq kimi maraqlandırır. Yəni qadınla ancaq yataqda sevişə bilər, vəssalam! İvan, açığını deyim, məni boğaza yığıb, hərdən düşünürəm ki, nikahı pozum. Əgər müharibə olmasaydı, çoxdan qərar vermişdim. Bilmirəm, bu dərdə necə dözüm? Sözü də, gülüşü də saxtadır. Valideynlərimlə Trjiçə köçməyimə çox peşmanam. Bankdakı işə şirnikdim. Köçməsəydik, bir-birimizdən ayrılmazdıq, hər şey başqa cür ola bilərdi. Bəlkə də, çoxdan evlənmişdik, ya da nişanlı idik.

– Hə, davada hər şey bir göz qırpımında dəyişə bilər. Zlatko indi qayıdacaq, ünvanını ver, gələn həftə sizə qonaq gəlim. Açığı, səni unuda bilmirəm, qoxun burnumdan getmir, ehtiraslı öpüşlərin...

– İvan, dəli olmusan, eşidərlər... – Melaniya onun sözünü ağzında qoydu. Masanın üstündən salfet götürüb ünvanını yazdı.

– Zlatko gəlir, yaxşısı budur, valideynlərindən danış, atan necədir, ağrıları azalıb?..

Ertəsi gün Tsar dostu Mixaylodan xahiş etdi ki, onu motosikletlə Trjiçin kənarına, müqavimət hərəkatının üzvü Vinkogilə aparsın. Mixaylo motosikleti Vinkonun həyətinə sürüb taxta parçalarının altında gizlətdi. Tsar ilk məhəbbəti Melaniyagilə tələsirdi, Mixaylo isə Vinkonun qonağı oldu, keçi pendiri, hisə verilmiş ətlə qırmızı tünd şərab içdi. Krasda məşhur olan bu “müqəddəs üçlük” – pendir, ət və şərab elə ləzzətli idi ki, hətta Mixayloya sevdiyi kababı da unutdurdu. Vinko ilə xeyli söhbət etdi, Tsarı gözləmədən yatmağa getdi. Tsar səhərə yaxın gəldi və dostlar Rençedəki düşərgəyə yollandı. Mənzilbaşına yarım saata çatdılar, günəş çoxdan qalxmışdı. Düşərgənin şəxsi heyəti səhər gimnastikası ilə məşğul olduğu üçün yeməkxanada kimsə yox idi.

Tsar dedi:

– Adamlar haqlıdır, ilk məhəbbət heç vaxt unudulmur. Ancaq məsələ bunda deyil. Melaniya çox maraqlı şeylər danışdı. Üç il Trjiçdəki bankda işləyib. Deyir, bankın zirzəmisində gestapo sərvətinin saxlandığı iki-üç otaq var, ağzına qədər qızıl, daş-qaş, zinət əşyaları ilə doludur. Təkcə qızıl külçələrinin çəkisi altmış kilodan çoxdur. Sən ki bilirsən, bir ay əvvəl bu bankı soyub dörd milyon lirə aparmışdım. Bilsəydim ki, orda qızıl var, hamısını silib-süpürərdim. Yaxşı ki, o vaxt mənə bu ideyanı verdin. Yadımdadır, Stalinin Batumi, Tbilisi və Bakıda bankları necə yardığından danışmışdın. Melaniya gestaponun sərvətlərindən söz salanda yenə də sənin istehza ilə “ellər atası” dediyin Stalin yadıma düşdü. Melaniya dedi ki, nasistlər noyabrın 2-də bu sərvəti naməlum istiqamətə aparacaq, məncə, tələsmək lazımdır.

– Əmim nəvəsi Stalinin silahdaşlarından idi, qocalanda xatirələrini danışırdı. Bolşevik yoldaşları ilə bankları necə soyduğunu xatırlayırdı. Bakıda varlılar çox idi, Stalin də öz dəstəsi ilə hücum edib var-yoxlarını əllərindən alırdı. Bəzən milyonçuları girov götürüb əvəzində çoxlu pul tələb edirdi. Stalin ağıllı və tədbirli adam idi, belə işlərdən yaxşı baş çıxarırdı. Məncə, Kremldə taxt-taca yiyələndikdən sonra da özünü quldur dəstəsinin başçısı kimi aparır. Yox, Tsar, Stalin mənim üçün keçmişin əyri güzgüsüdür. Bunu öz aramızda deyirəm, başqa yerdə söyləmə, yoxsa başın ağrıyar.

Məsələn, 1937-ci ildə hidrologiya sahəsini işıqlandıran jurnalın mürəttibinə on il iş verdilər. O, desalinizasiya, yəni suyun təmizlənməsi haqqında məqalədə səhvə yol verib “destalinizasiya” yığmışdı. Tutaq ki, bu zavallı səhlənkarlıq edib, hərflərin yerini səhv salıb, halbuki mən bunu cinayət hesab etmirəm. Ancaq barəsində güllələnmə hökmü çıxarılmış, yaxud Sibirə sürgün edilmiş milyonlarla insanın nə günahı var? Onlar sübutsuz-filansız həbs edilib, düşərgələrdə çürüyüb, güllələnib, minlərlə günahsız insanın taleyi alt-üst olub. Stalinin məhkəmə sistemi orta əsrlər inkvizisiyasını xatırladır, adamlara işgəncə verib günahı boynuna qoyurlar. Başa düşmürəm, niyə rus batalyonundan olan yoldaşlarım Sovet İttifaqına qayıtmağa can atır? Mən isə Stalinin ölməyini, Rusiyada hakimiyyətin dəyişməyini gözləyəcəyəm. Həmin vaxta qədər evə dönməyəcəyəm. Acı həqiqət ağ yalandan yaxşıdır. İvan, ona görə də bütün bunları sənə danışıram.

– Anladım, Mixaylo, əgər burada günümüz xoş keçirsə, qayıtmağın mənası var? Qəhrəman adamsan, burada özünə asanlıqla yer tapa bilərsən, qapılar həmişə üzünə açıq olacaq, hər yerdə sevgi və hörmət görəcəksən. Şəxsən mən burda özümü əcnəbi hesab etmirəm, sanki doğma evimdəyəm!

– Haqlısan, Tsar. Baxmayaraq ki, qəlbim həmişə Azərbaycanla qoşa döyünür, indi özümü sloven sayıram. Buranın daşı, torpağı, suyu, havası, hamısı mənə xoşdur. Sloven qızlarına isə söz ola bilməz! Bank barədə ideyanı bəyəndim, bu pul partizanlara hava-su kimi lazımdır. Əgər düşmənin yük maşınlarını, avtomobillərini, silah və ərzağını, dərmanlarını müsadirə ediriksə, puluna, qızılına niyə əl qoymayaq? Gestaponun planlarını pozmaq lazımdır. Ancaq biz bankı qarət etməyəcəyik.

– Niyə, Mixaylo?

– Stalin quldurluq törətdiyini etiraf edirdi, ancaq necə quldurluq? O, xalqı soyub-talayan ağaların var-yoxunu əlindən almağı düzgün sayırdı və bu quldurluq bolşeviklərə inqilab üçün lazım idi. Yəni Stalin və yoldaşları quldurluq yolu ilə əldə olunmuş pullardan şəxsi məqsədləri üçün bir qəpik də xərcləmirdi. Müharibə bir çox qanunların üstündən xətt çəkir, İncildəki “Öldürmə!” ehkamı da əhəmiyyətini itirir. Davada ruhanilər, siyasətçilər və komissarlar əsgərlərə tamam başqa nağıl danışır. Əmin-amanlıq dövründə mövcud olan bir ehkamın əvəzinə müharibədə ikisi yaranır: “Müttəfiqləri öldürmə!” və “Düşməni öldür!” Hə, Tsar, mütləq Pemts və Maksla danışmalıyam, görüm gestaponun xəzinəsi barədə nə düşünürlər? Yaxşı ki, Melaniya bu məlumatı bizə ötürdü, afərin!

Tsar dostuna çox sadiq idi, hər sözünə diqqətlə qulaq asır, tapşırıqlarına dəqiq əməl etməyə çalışırdı. Hesab edirdi ki, Mixaylodan yaxşı müəllim, müdrik yoldaş tapmaq mümkün deyil. Bu səbəbdən əməliyyatlararası dövrdə ondan xahiş edirdi ki, taqımın gənc döyüşçülərinə təxribatlarla bağlı hazırlıq kursu keçsin. Hərbi təlimi də Mixayloya etibar edirdilər. Özü də məşğələlərdə əsl döyüş patronlarından istifadə olunurdu. Bu, effekti artırır, əsgərlərin döyüş təcrübəsini yüksəldirdi. Mixaylo gənclərə müdriklik dərsi keçməklə yanaşı, partizana vacib olan texniki ləvazimatlar barədə qiymətli təlimatlar verirdi. Döyüş şəraitində mina, detonator, saat mexanizmi ilə necə rəftar etməli, partlayıcı qurğunu necə yerləşdirməli? Yaxud maqnit-minaların üstünlüyü nədən ibarətdir, iş prinsipi necə qurulub? Mixaylo mühazirələrdə bu məsələləri ətraflı araşdırır, gənclərə təcrübi biliklər aşılayırdı.

Məşğələlər, adətən, günün birinci yarısı keçirilirdi. Bu gün isə söhbət partizanın gizli şəraitdə iş taktikasından gedirdi. Mixaylo plaşın yaxasını açdı ki, əlini belindəki qobura rahat atıb tapançanı çıxara bilsin. Patron dolu darağı plaşın sağ cibində saxlayırdı. Mixaylo bir göz qırpımında tapançanı çıxarıb məşğələ iştirakçılarına tuşladı.

– Heç vaxt qapının önündə dayanmayın, belə olsa, yüngül hədəfə çevrilərsiniz. Əgər qapının arxasında əlində silah tutmuş düşmən dayanıbsa, o, qapını açmadan sizi öldürər. Qapıya həmişə yan tərəfdən yaxınlaşın, əvvəlcə qapının hansı tərəfə açıldığını müəyyən edin. Otağa göz gəzdirəndə silahı qarşınızda tutun, düşməni gördükdə hər an atəş açmağa hazır olun. Əlinizdəki silah daim sizin baxdığınız səmtə yönəlməlidir. Otaqdakı mebellərdən daldalanmaq üçün istifadə edin. Əvvəlcə dəstəyi burub qapını aralayın, bir addım geri çəkilin. Sonra qapını bir az da aralayıb otağı gözdən keçirin. Əgər şübhəli bir şey yoxdursa, qapını tam açın. Çərçivədən və divardan qorunmaq üçün istifadə etmək olar. Belinizi azacıq əyib asta addımlarla otağa daxil olun, bu, hədəfə çevrilməyinizin qarşısını qismən alar. Bütün bunları təcrübədə sınaqdan çıxaracağıq.

Pilləkənlə qalxıb-düşmək çox təhlükəlidir, çünki gizlənməyə yer tapmırsan. Həmişə pillənin qırağı ilə yavaş-yavaş enin, ehtiyatı əldən verməyin. Hər üç pillədən bir ayaq saxlayıb ətrafı dinləyin. Divara qısılıb hərəkət edin, tez-tez irəli və geri baxın. Düşmən gözlənilmədən peyda olsa, nə etməlisiniz? Bu barədə düşünün.

Bir qərarla arxayınlaşmayın, çünki hər dəqiqənin hökmü var. Bu səbəbdən şəraitə uyğun olaraq, qərar da tez-tez dəyişməlidir. Qapını açıq saxlayın ki, istənilən an aradan çıxa biləsiniz. Ancaq təcrübəsiz döyüşçü qorxunun nə olduğunu bilmir. “Mən qorxmuram!” deyib

qürrələnmək qəhrəmanlıq deyil, əsas məsələ qorxuya qalib gəlməkdir. Peşəkarlığın, döyüş təcrübəsinin bura dəxli yoxdur, qorxu hissi həmişə səninlə yanaşı addımlayır. İnsan qorxduqca bilir ki, hələ sağdır. Döyüş meydanında qorxu hissi keçirməyənlər çoxdan həlak olub. Sağ qalmaq qorxunu özündən uzaqlaşdırmaq yox, əksinə, onu dərk etməkdir. Qorxu insan orqanizmində adrenalinin miqdarını artırır. Əsl döyüşçü bu adrenalindən səmərəli istifadə etməyi bacarmalıdır. Bəzən gərginlik, həyatda üzləşdiyin mənfi hallar da adrenalin yaradır və adamlar səhvən hər şeyi qorxunun adına yazır. Qorxu səni bütün diqqəti cəmləşdirməyə məcbur edir, gərək fikrin yayınmasın, başqa heç nə barədə düşünməyəsən. Yalnız bu təqdirdə qarşıya qoyulmuş tapşırığın öhdəsindən gələ bilərsən.

Ürək sürətlə döyünəndə qanı əzələlərə ötürüb onları ekstremal gərginliklərə hazır vəziyyətdə saxlayır. Tez-tez nəfəs alanda əzələlər oksigenlə qidalanır. Qaraciyər qlükoza ifraz edib qanda şəkərin miqdarını artırır, qan dövriyyəsi sisteminə çoxsaylı yağlı turşular göndərir. Şəkər və bu turşular orqanizmə enerji istehsalı və dözümlülük üçün lazımdır. Ona görə də həmişə deyirəm ki, döyüşçü əməliyyatdan əvvəl yaxşı yeməli, yatıb dincəlməlidir. İmkan varsa, döyüş əməliyyatına yalnız belə gedirəm. Həyat və ölüm arasındakı fərq diqqətsizliyin bir anıdır. Döyüşdən əvvəl və savaş vaxtı ani qərar verməli, nə edəcəyini bilməlisən. Düzgün qərar çıxarmaq üçün gərək əla formada olasan. Səthi və yoxlanılmamış məlumatlara əsasən düzgün qərar çıxarmaq mümkün deyil. Bəzən belə olur: vaxtında məlumat ala bilmirsən, amma səthi məlumatlar əsasında qərar verməlisən – bu, çox təhlükəli tendensiyadır. Hər şeyi əvvəlcədən nəzərə almaq mümkün deyil, bu səbəbdən, təsadüflərə hazır olmaq lazımdır. Düşmən barədə geniş məlumat alandan sonra hücuma keçməlisən. Çox bilən güclü olar! Vaxt tapıb insanları dərindən öyrənmək, dostu, düşməni tanıyıb xarakterini anlamaq vacib şərtdir. Öz gücümüzü və düşmənin imkanlarını nəzərə almalıyıq. Belədə əsgərləri vaxtında döyüşə qaldırmaq, mübarizəni idarə etmək mümkündür. Eyni zamanda düşmən barədə geniş məlumat onun zəif nöqtələrini müəyyən etməyə imkan verir. Əvvəlki məşğələlərdə dediyimiz kimi, bu halda, kəşfiyyat məlumatları toplamaq böyük əhəmiyyət kəsb edir.

Yadda saxlayın ki, ciddi təhlükə yarananda insanlar qorxub pilləkənlə binanın yuxarı mərtəbələrinə, qayanın başına, yaxud təpənin üstünə dırmaşır. Amma bu, çıxış yolu sayıla bilməz. Ona görə də bundan nadir hallarda istifadə olunmalıdır. Məlumdur ki, fövqəladə vəziyyət yarandıqda insan qeyri-ixtiyari sola dönür, buna görə də maşını yolun sol tərəfi ilə sürmək təhlükəsizdir – ingilislər bunu çoxdan sınaqdan çıxarıb. Düz xətt boyunca qaçmayın. Tutaq ki, düşmən sizi təqib edir. Təcrübəsiz

adam düz xətt boyunca sürətlə qaçıb təqibdən uzaqlaşmağa çalışır, şəhərin dar küçəsi ilə kənd yerindəki açıqlığın fərqini nəzərə almır. Unutmayın, şəhərdə qaçış zamanı döngələrdən keçib izi itirmək mümkündür. Sizi təqib edən şəxş çaşbaş qalır, hansı döngədən keçdiyinizi müəyyən edənə qədər vaxt itirir. Əgər fikir vermisinizsə, dovşan çöldə düz xətt boyunca yox, ziqzaqvarı şəkildə tullana-tullana qaçıb tez-tez istiqamətini dəyişir. Onu təqib edən ovçu da dovşana uyğun olaraq istiqamətini dəyişməlidir. Belədə ovçunun qaçış sürəti azalır və dovşan da bundan istifadə edib uzaqlaşır, necə deyərlər, canını qurtarır.

Şəhərdə qaçıb küçənin başına çatanda sağa, yaxud sola dönə bilərsiniz. Məsləhətim budur: qaçış üçün elə marşrut seçilməlidir ki, orda döngələrin sayı çox olsun. Digər vəziyyəti araşdıraq: qaçarkən sizə uzaqdakı hündür təpənin başından atəş açırlar, deməli, yuxarıya doğru istiqamət götürmək lazımdır, hündürə qalxdıqca güllələr də başınızın üstündən xeyli aralı keçəcək.

Əgər kimdənsə qaçıb gizlənmisinizsə, heç vaxt sizi axtaran adama doğru baxmayın – o, baxışlarınızı hiss edə, yaxud gözlərinizin parıltısını duya bilər. Bu hissiyyatın nəticəsində düşmən əvvəl-axır sizi tapacaq. Deməli, qaçarkən çalışın ki, təqib edən şəxslə baxışlarınız toqquşmasın. Düşmənin hərəkətlərinə gizlincə göz qoyun.

Qapını döyməzdən əvvəl bir neçə saniyə gözlərinizi yumun. Açanda bəbəkləriniz kiçiləcək və düşmən sizin qorxduğunuzu, həyəcan içində olduğunuzu hiss etməyəcək.

Əgər sizə nəqliyyat lazımdırsa, bir məsələni yadda saxlayın: çirkli avtomaşın diqqəti o qədər də cəlb etmir. Yolda təhlükəli vəziyyət yaranırsa, sizi qorxudan obyektə baxmayın, nəzərləriniz getmək istədiyiniz istiqamətə yönəlməlidir. Patrul sizi saxlayıb sənəd tələb edirsə, suallara qısa cavab verin, ətraflı şərh verməyə, lazımsız şeylər danışmağa çalışmayın. Bu, köhnə fənddir: şübhəli adamı nə qədər çox danışdırsan, o, boşboğazlıq edib əvvəl-axır özünü ələ verəcək!

Təxribatçı öz gücünü qoruyub saxlamağı bacarmalıdır. Gücü boş-boşuna xərcləməkdən təhlükəli şey yoxdur. Təcrübəli əsgər hətta ən amansız, mürəkkəb döyüşdə belə bütün qüvvəsini sərf etməyib hər ehtimala qarşı, ehtiyat güc saxlayır. Əgər qısa fasilədən sonra yenidən döyüşə başlasa, yaxud düşmən əlavə canlı qüvvə cəlb etsə, bu, onun həyatını xilas edə bilər.

Ekstremal vəziyyətdə hər şeydən silah kimi istifadə etmək mümkündür. Silah önəmli deyil, əsas sursatdır. Tutaq ki, düşmənin bir neçə atəş nöqtəsi var. İlk növbədə, elə nöqtəni məhv etmək lazımdır ki, sizə üstünlük qazandırsın, yaxud qısa müddətə də olsa, təhlükəni sovuşdursun. Yadda saxlayın, zərbə endirmək üçün əlinizi qaldıranda

bədəni müdafiəsiz qoyursunuz. Gücünüzü və səyinizi bir hədəfə yönəldəndə düşmənin digər qüvvələri təhlükədən xilas olur.

Deyirlər, müdrik adamın məsləhətə ehtiyacı yoxdur, ağılsız isə, onsuz da, bu məsləhəti dinləməyəcək. Çoxdan başa düşmüşəm ki, məsləhət ağıllı olduqca, ona qulaq asanların sayı azalır. Əziz yoldaşlar, siz öz dəstələrinizdə fərqlənən əsgərlərsiniz, sizi ağıllı hesab edirəm. Düşünürəm, məsləhətlərimi qəbul edəcəksiniz. Zəif adam güclünün yerişini yeriyə bilməz! Sizi güclü hesab edirəm. Hər birinizi yenilməz döyüşçü kimi görməyi arzulayıram. Bu isə qoldakı gücdən yox, döyüş ruhundan asılıdır. Cüzi bir səhv əsgərin ölümü ilə nəticələnə bilər.

Əməliyyat elə keçə bilər ki, düşünməyə, hərəkətləri götür-qoy etməyə vaxt qalmaz. Hər bir hərəkət döyüşçünün daxilindən gəlməli və o, hisslərini idarə etməyi bacarmalıdır. Ölüm-dirim mübarizəsində, fəal konsentrasiya anlarında vaxt mühüm rol oynayır. Vaxta qənaət etməyi öyrənmək lazımdır. Bütün böyük işlər çətin başa gəlir, yoxsa ona böyük iş deməzdilər ki! Kim öz gücünə şübhə etmirsə, bu, çox yaxşıdır! Gücünə şübhə ilə yanaşırsansa, deməli, bunun üçün əsas var. Təxribatçı özünə, qurduğu plana, silahına inanmalıdır. Çətin vəziyyətdən çıxmaq istəyirsənsə, gərək qorxduğunu büruzə verməyəsən. Zahirən özünü ələ aldığını göstərə bilsən, deməli, özünənəzarətə aparan yolun yarısını qət etmisən. Qətiyyətli adamın qarşısında heç bir düşmən tab gətirə bilməz, dabanına tüpürüb aradan çıxacaq. Riski qiymətləndirməyən əsgər onu ikiqat artırır. Heç vaxt unutmayın ki, biz düşmənlə bir vəhdət təşkil edirik. Aramızda qarşılıqlı asılılıq var, bir-birimizin əlavəsinə çevrilirik. Yalnız bu təqdirdə hücumun qarşısını alıb düşmənin gücündən ona qalib gəlmək üçün istifadə etmək olar.

Komandirlərə yaxşı məlumdur ki, əgər düşmən güclüdürsə, tərəddüd etmək olmaz və vaxtdan səmərəli faydalanmaq lazımdır. Sürət gücü artırır. Döyüş meydanı qətiyyətsiz adamların yeri deyil.

“Tələsən təndirə düşər” deyiblər. Hiylə də güc rolunu oynaya bilər. Davada hiylə işlətməyən tərəf tezliklə məğlub olacaq. Müharibə şahmat oyunudur, fiqurları ovcunun içində gizlədə bilərsən. Ona görə də şimal xalqları hiyləgərliyi çox yüksək qiymətləndirir.

Döyüş zamanı iti düşüncə gücdən irəlidir. Müdrik o adamdır ki, düşmənin sözünə axıra qədər inanmır. Döyüşçü yalnız özünə və silah yoldaşlarına güvənə bilər, çünki ilk baxışdan hər şey olduğu kimi görünmür. Ən təhlükəli düşmən isə bizim qorxmadığımız düşməndir!



# OKTYABR 1944-cü il

**XLIV**

1944-cü ilin oktyabrında “Partizanlara qarşı mübarizə həftəsi” çərçivəsində İtaliyadakı alman qoşunlarının baş komandanı, feldmarşal Albert Kesselrinqin əmri ilə faşistlər Banşko yaylası və Trnovo meşəsi istiqamətində hücuma keçdi. Lakin IX korpus bu hücumu itkisiz dəf etdi. Buna baxmayaraq, kəndlərdə əhali arasında qırılanlar çox idi – alman və italyan faşistləri kəndləri talayır, adamları öldürür, evlərə od vururdu. Dol, Otlisa, Çepovan və Lokve kəndlərində vəziyyət acınacaqlı idi. Faşistlər buranı “quldur yuvası” adlandırır, yerli əhalini partizan əlaltıları hesab edirdi.

“Yazdan bəri Kras çox dəyişib, artıq şəhərin küçələrində, parklarda sərbəst gəzmək mümkün deyil. Hər an alman patrulu ilə qarşılaşa bilərsən!” – Mixaylo ot basmış cığırla gedəndə həyəcanla bu barədə düşünürdü. Hərdən ayaq saxlayıb meşədən gələn səslərə qulaq asırdı. İrəlilədikcə dərindən nəfəs alıb, tələsmədən buraxırdı. Bu vərdiş çoxdan yaranmışdı – Bakıda, “zorxana” adlandırdıqları güləş klubunda ona düzgün nəfəs almağı, dözümlü və əzmkar olmağı öyrədirdilər. İradəli, əzmkar insan güclü olur. İradəsiz adam isə daxilən zəifləyir, ətraf mühitlə harmoniya yarada bilmir. Bu səbəbdən Mixaylo hər gün nəfəsini məşq etdirirdi. Bilirdi ki, güc toplamaq üçün əvvəlcə bədən və əsəb gərginliyindən xilas olmalı, sonra bütün qüvvəsini səfərbər edib bir nöqtədə cəmləşdirməli və hədəfə yönəltməlidir. Nəfəs almağı məşq etdirməsə, rəqibə uduzacaq! Bu, Mixaylonun sirri idi və bunu heç kimə söyləmirdi. Amma xəbəri yox idi ki, mənfur Himmler özünün SS qaniçənləri yuvasını xatırladan qəsrində hər gün yüksək rütbəli alman zabitlərini başına toplayıb nəfəsi məşq etdirmək üzrə təlim keçir.

Bu arada Darkonu, Mixaylonun müharibədən sonrakı taleyi barədə onun keçirdiyi narahatlığı xatırladı. Düşündü ki, davada başına bir iş gəlsə, bu, Darkonun vecinə olacaq, ya yox? Yəqin, Darko elə fikirləşir ki, Mixaylo üçün sülh müharibədən təhlükəlidir! Düşüncələri qarışdı, sonra Tsarın Trjiç bankında saxlanılan gestapo qızıllarını soymaq təklifi yadına düşdü. Bəlkə, bu planı həyata keçirəndən sonra qızıldan bir az özlərinə saxlasınlar? Gələcəkdə lazım ola bilər! Fikirləşdi ki, imkan düşən kimi, gərək bu məsələni Tsara danışıb fikrini öyrənsin. Axı bankı soymaq Tsarın ideyasıdır, əziyyət çəkib, kəşfiyyat aparıb, məsələni yerli-yerində öyrənib. Onun rəyi ilə hesablaşmamaq haqsızlıq olardı.

Mixaylo üçün həmin axşam bu məsələni müzakirə etmək imkanı yarandı. Vitovlye kəndində Tsarla görüşüb yaxınlıqdakı talaya gəzməyə çıxanda sevimli tələbəsinə dedi:

– Zlatko xəbər verdi ki, Triestdə böyük satqınlıq olub. Komandirlərdən biri öz rabitəçisi ilə gizli məşuqluq həyatı yaşayırmış, sən demə, qız gestaponun donosçusu imiş, Triestdəki fəalların çoxunu satıb. Yaxşı ki, Triest kommunistləri ilə heç bir əlaqəm olmayıb.

Tsar dedi:

– Məndə də xəbər var. Dünən Lokve kəndindən olan rabitəçi Tine ilə görüşdüm. Dedi ki, oktyabrın 14-də Şkofey Loki yaxınlığındakı körpünü partladarkən polyak Tomo həlak olub. Həmişəki kimi əmr gözləmədən təkbaşına düşmən bunkerinə hücum edib!

– Heyif Tomodan! Həmişə öz bildiyini edirdi. Davada ən ağır şey dostları itirməkdir. Tomo əla döyüşçü, əsl qəhrəman idi. Döyüşdə ölmək belə qəhrəman üçün şərəfdir!

– Yeri görünəcək, yaxşı oğlan, maraqlı həmsöhbət idi. Hər şey bir yana, bacarıqlı təxribatçını itirdik. Öldün, həyatın bitdi, biz isə sağıq, ona görə öz qayğımıza qalmalıyıq. Bilirsən, Mixaylo, Trjiç əməliyyatı barədə xeyli düşündüm. Bu qərara gəldim ki, dava sona yaxınlaşır, indi yalnız müqavimət hərəkatından olan yoldaşlarımız barədə yox, həm də gələcək taleyimiz barədə fikirləşməliyik. Melaniya deyirdi ki, bankın zirzəmisində o qədər qızıl, daş-qaş var ki, çanta ilə daşımaq mümkün olmayacaq. Uzun sözün qısası, məncə, xəzinənin bir hissəsini haradasa gizlədib, qalanını təsərrüfat komissiyasına təhvil vermək lazımdır.

– Tsar, açığı, mən də bu məsələ barədə düşünmüşəm, qızılın bir hissəsini özümüzə götürməyi təklif edəcəkdim. Müharibə başa çatır, kimin qalib gələcəyi də artıq məlumdur. Ancaq davadan sonra nə baş verəcək? Bunu kimsə bilmir! Vaxt azdır, noyabrın ikisinə qədər bank məsələsini çözmək lazımdır. Deməli, bir həftədən də az qalıb.

Əməliyyatdan əvvəl Pemtslə bu məsələni müzakirə etmək imkanı olmayacaq!

– Bu barədə Zlatkoya da heç nə demək lazım deyil. Trjiç onun fəaliyyət zonasında yerləşsə də, bilməyinə gərək yoxdur. Ondan heç gözüm su içmir.

– Onu cəmi üç dəfə görmüşəm. Məndə qəribə təəssürat oyatdı. Xırıltılı, kobud səsi xoşuma gəlmədi. Amma ağıllı adama oxşayır, sözün yerini bilir.

– Məncə, bankı soymağa bütün dəstə ilə getməliyik, hərə iki çanta daşıya bilər.

– Hə, haqlısan, altı nəfərlə getsək, xeyli qızıl aparmaq olar. Amma nəzərə al ki, qızılın çəkisi ağırdır, daşımaq heç də asan deyil!

– Bir çantaya nə qədər qızıl yığmaq olar?

– Gərək möhkəm çanta tapaq. İndiki çantalar qızıl daşımaq üçün nəzərdə tutulmayıb. Cırıla bilər! Qulpu qırılsa, aparmaq mümkün olmayacaq!

– Gərək o qədər yığasan ki, cırılmasın. Qalır əsəs məsələ: çantaları haradan tapaq?

– Uşaqlara demək lazımdır, qoy axtarsınlar. Yaxşı ki, yadıma saldın. Hərəsinə bir çanta qızıl verərik, harada istəyirlər, gizlətsinlər. Ancaq əməliyyatdan əvvəl onlara heç nə danışma, sevincdən ağılları çaşar!

– Haqlısan, Tsar. Bu, adi əməliyyat olacaq. Hər ikinci çantanı təsərrüfat komissiyasına təhvil verərik. Hamının işi düzələr. Hə, az qala, unutmuşdum, orada qızıldan başqa, çoxlu pul da var.

– Kağız əsginasların işi asandır. Qızılla, daş-qaşla müqayisədə çəkisi ağır deyil, həm də az yer tutur. Müharibə dövründə pul tez dəyərdən düşür, ona görə də təklif edirəm ki, pulu qızılın böyür-başına yığaq. Cibimizə də doldura bilərik. Əsas qızıldır, çünki dəyəri həmişə üstündədir. Pulu əleyhqaz çantasında da daşımaq mümkündür. Hərəyə bir çanta pul kifayət edər.

– Ağıllı təklifdir. Əgər Melaniyanın dedikləri həqiqətdirsə, bu əməliyyatın birinci hissəsi ikincidən asan olacaq: bankı yarmaq çətin deyil, gecə oranı yalnız bir keşikçi qoruyur. Amma unutma ki, iki yüz metr aralıda, qonşu küçədə polis karabinerlərinin məntəqəsi yerləşir. Təhlükə siqnalı çalınsa, onlar üç dəqiqədən sonra bankın qarşısında olacaq. Xoşbəxtlikdən, bankın iki əlavə çıxışı var: biri arxadan, digəri yan tərəfdən. Seyf ikinci zirzəmi qatında yerləşdiyi üçün, çox güman, partlayış səsini kimsə eşitməyəcək. Əməliyyatı Müqəddəslər gecəsi keçirərik. Həmin gecə bütün kilsə zəngləri çalınacaq. Bu kiçik şəhərdə isə xeyli kilsə var. Məhz həmin an seyfi partladarıq. Məncə, hər şey

plan üzrə olacaq, buna şübhə etmirəm. Ancaq bankı soyandan sonra gizlincə aradan çıxmaq çətin olacaq, çünki əlimizdəki ağır çantalarla qaça bilməyəcəyik.

– Tsar, hər şeyi gözəl hesablamısan, görürəm, dərslərim hədər getməyib. Əgər vəziyyət ağırdırsa, onu yüngülləşdirməyə çalışmalısan. Biz hiylə işlədib təxribat içində təxribat törətməliyik. Ümumiyyətlə, gözətçinin və polis patrulunun diqqətini yayındırıb onları çaşdırmaq və şəhərin başqa istiqamətinə yönəltmək üçün əlavə iki təxribata ehtiyac var!

– Əgər hiylə müharibənin kraliçası sayılırsa, niyə ondan yararlanmayaq? Təklif etdiyin təxribatlar nədən ibarətdir?

– Əməliyyatda bütün dəstə iştirak edirsə, birinci təxribat Trjiçin kənarında, strateji nöqtədə baş verməlidir. Birinci partlayışı saat on birdə törədərik, ikinci mina isə bankdan xeyli uzaqda, şəhərin mərkəzində partlamalıdır. Dəqiq yeri sonra müəyyən edərik. Beləliklə, bankı sakitcə tərk edərik. Sejanda bir yedəkli motosiklet ələ keçirmişəm. Ancaq motosiklet çantaların ağırlığına tab gətirməyə bilər.

– İki motosiklet və Senojeç əməliyyatından qalmış "Fiat" markalı kiçik hərbi yük maşınından istifadə etmək olar. Yadındadır, onda "Fiat" ağzınadək camaşırlarla dolu idi, yeşikləri açıb camaşırları görəndə dilxor olmuşduq...

– Elə demə, camaşırlar da köməyə gəldi. Yaxşı, Tsar, bu gün Trjiçə gedib orada gecələməliyik. Səhər şəhərə çıxıb bankın binasını yaxşı-yaxşı gözdən keçirməliyəm. Həm də dediyim əlavə təxribatlar üçün yer seçməliyik.

– Bunu əla düşünmüsən, Mixaylo. Melaniya, yəqin ki, bankda baş verənlər barədə ətraflı xəbər çatdıracaq. Ona tapşırmışam ki, otaqların və siqnalizasiyanın sxemini çəkib mənə versin.

– Yekun planını sabah, düşərgəyə qayıdandan sonra tərtib edərik. Bu işləri görmək üçün cəmi üç gün vaxtımız var, məncə, öhdəsindən gələrik!

## XLV

Qoritsa partizanlarının komandiri Zlatkonun əlində bir neçə ikili casus vardı. Komandir onlara bilərəkdən yalan məlumatlar ötürürdü. Faşistlər casuslara inansın deyə, ara-sıra düzgün məlumat verməyə məcbur qalırdı. Avqustda almanların növbəti hücumundan iki həftə sonra Sloveniya Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərlərindən biri Zlatkonun yanına gəlib təşkilatın şifahi qərarını ona çatdırdı. Partiya məmuru və partizan komandiri avtobus dayanacağında görüşdü.

Hər ikisinin cibində daşdan keçən saxta şəxsiyyət vəsiqəsi vardı. Bundan başqa, küçənin tinində hər ehtimala qarşı bir neçə partizan var-gəl edib ətrafa göz qoyurdu. Mərkəzi Komitənin nümayəndəsi Tomaj cüssəli, saqqallı, güclü adam idi, görüşə də keşiş paltarında gəlmişdi, gur səslə danışırdı:

– Zlatko, başa düşürsən ki, müharibə bitmək üzrədir. Başımıza gələn müsibətlərdən sonra Sloveniyanın azad olunmuş ərazilərində xalq hakimiyyətini bərqərar etməliyik. Bilirsən ki, bütün fəaliyyətimiz təcavüzkarın hərbi gücünün məhvinə yönəlmişdi, əslində isə, məqsədimiz Sovet İttifaqında olduğu kimi, proletariatın diktaturasını qurmaq idi. Bunu həyata keçirmək üçün dava qurtarmamış müəyyən tədbirlər görmək lazımdır ki, kimsə duyuq düşməsin. Sözümün canı budur ki, əmin-amanlıq dövründə partiyanın tələblərinə cavab verməyən şəxslərdən canımızı birdəfəlik qurtarmalıyıq. Partiyaya üzüyola, itaətkar, sadiq adamlar lazımdır. Yerdə qalanları əgər indi sağ saxlasaq, biz hakimiyyətə gələndən sonra əl-ayağımıza dolaşacaqlar.

İndi sənə söyləyəcəklərim partiyanın şifahi əmridir. Əvvəla, "TİQR" dəstəsinin bütün üzvlərindən xilas olmalıyıq. Hazırda onlardan kimsə partizan dəstələrində döyüşürsə, qoy sənin adamların bu şəxsləri məhv etsin. Amma işi elə qələmə vermək lazımdır ki, guya bu adamları düşmən öldürüb. "TİQR"-in döyüşməyib evdə oturan üzvlərini isə sənin ikili casuslarının əli ilə almanlara satmaq lazımdır. Desinlər ki, bu şəxslər gizli fəaliyyət aparıb Reyx üçün böyük təhlükə yaradır. Bir sözlə, Triesti azad etməzdən əvvəl sıralarımız yavaş-yavaş "TİQR" üzvlərindən təmizlənməlidir. Bu, şifahi əmrin birinci hissəsidir. İkinci hissə isə döyüşlərdə məşhurlaşıb əhali arasında böyük hörmət qazanmış adamları aradan götürməklə bağlıdır. Bütün partizan komandirləri məhv edilməlidir, bu iş üçün xüsusi casuslar seçilib. Sənə bir sirr açım: yaxınlarda Sloveniya partizan ordusunun baş komandanı Stane ya döyüşdə, ya da avtomobil qəzasında həlak olacaq. Bilirəm, Mixaylonun təxribat qrupu sənin nəzarətin altında fəaliyyət göstərir. Orada Tsar adlı döyüşçü var, son zamanlar bir təxribatçı kimi xalq arasında şöhrət tapıb, kəndlərdə onun hər gəlişini bayram edirlər. Şübhəsiz, ona dəstək verən, adını ucaldan Mixaylodur. İlk növbədə, bu qafqazlı şeytan balası aradan götürülməlidir. Adamlar ona Tanrı kimi sitayiş edir. Buna əsla yol vermək olmaz!

Dava başa çatmaq üzrədir, əslində, qalib də məlumdur. Tanınmış döyüşçülərdən bəzisini qurban versək, qələbəni bir neçə həftə geri atmış oluruq. Ancaq bu, tarix baxımından heç bir rol oynamır. Elə bir məqam yetişəcək ki, Zevs öz uşaqlarını məhv etdiyi kimi, "inqilab da öz övladlarını yeyəcək".

Müharibədən əvvəl Tomaj yunan mifologiyası üzrə professor idi və bu sahədə görkəmli mütəxəssis sayılırdı.

– Zlatko, indi, yadelli düşmənin diz çökdüyü vaxtda profilaktika məqsədilə xalq hakimiyyətinə əngəl törədə biləcək adamlar məhv edilməlidir.

– Bəli, bu Tsar məni də boğaza yığıb, onu əllərimlə boğardım. Açığı, mən də bu barədə düşünürdüm. Xalq arasında canlı əfsanəyə çevrilmiş Mixaylodan qurtulmalıyıq. Bütün qəzetlərdə şəkli dərc olunub, faşistlər bizim marşal Titonun başına nə qədər pul qoyublarsa, Mixayloya görə də o qədər pul verir. Sahilyanı diyarda qəhrəman hesab olunur, şan-şöhrəti adamın ürəyini bulandırır. Yoldaş Tomaj, Tsarla Mixaylonu aradan götürmək mənim boynuma. "TİQR" üzvləri barədə də narahat olmayın. Siyahını hələ davadan əvvəl tərtib etmişik, İtaliya təslim olandan sonra Qoritsa şəhər polisinin bütün arxivi əlimizə keçib, orda "TİQR" üzvlərinin şəxsi işləri də var. Köməkçim Mariyaya göstəriş vermişəm ki, arxivi diqqətlə araşdırıb təşkilatın bütün üzvlərinin siyahısını hazırlasın. Elə hesab edin ki, işin yarısı görülüb. Xahiş edirəm, yoldaşlara çatdırın ki, əmr canla-başla yerinə yetiriləcək.

– Hə, axır ki, köməkçin də vacib bir işlə məşğul olmağa başladı, yoxsa hamamda sənin kürəyinə kisə çəkməkdən əlləri qabar olub. Zlatko, bizim hər şeydən xəbərimiz var. Xoşbəxtlikdən, məşuqən deyiləm, bütün bunlar məni o qədər də maraqlandırmır. Məlum məsələdir ki, bu əmrin yerinə yetirilməsini yazılı hesabatlara daxil etmək olmaz. Yalnız mənə, bir də Mərkəzi Komitədən göndərilmiş rabitəçiyə şifahi bildirməyə ixtiyarın var! – Tomaj ciddi xəbərdarlıq etdi. Bu mövzu ilə bağlı bir neçə partizan komandirinə müraciət etmişdi. Ancaq onlar igid döyüşçüləri məhv etmək təklifi ilə razılaşmamışdı. Komandirlərdən ikisi elə əsəbiləşmişdi ki, Tomaj əmrin ikinci hissəsi barədə susub heç nə deməmişdi. Bundan sonra ipə-sapa yatmayan komandirlərin də adları məhv edilməli fəalların siyahısına düşmüşdü.

## XLVI

Qorxu hissi insanda gərginlik yaradır, damarlarında qan coşur, orqanizm qorxunu dəf etməyə çalışır. Yaxşı döyüşçü nifrət və qəzəbin köməyi ilə düşmənin başını əzir. Bu vaxt bədənin gücü və şüur yalnız bir hədəfə tuşlanır. Belə gərgin anlarda fikri yayındıra biləcək hər şeydən azad olmaq lazımdır. Yaxşı döyüşçü bütün fikrini yalnız düşmənin məhvi üzərində cəmləşdirir. Bununla da bir tapşırığın öhdəsindən

gəlib asanlıqla digərinə keçir. Zen-buddaçılar[1] kimi, belə adamlar keçmiş və gələcəklə bağlı narahatlıq keçirmir, bütün diqqəti real zamanda baş verən hadisənin üzərində cəmləşdirir. Əgər döyüşçünün şüuru itidirsə, güc və sakitliyini qoruyub saxlayacaq. Başqa sözlə desək, şüur bütün bədənə güc verir, döyüşçünü məğlubedilməz əsgərə çevirir. Şüuru dağınıq əsgər isə, əksinə, döyüşün ilk anlarında ciddi səhvə yol verib məhv olur.

Mixaylo gəncliyindən əlbəyaxa döyüş növləri ilə məşğul olmuşdu. Ona təlqin etmişdilər ki, insan belini büküb gəzməməlidir. At belində oturmuş sərkərdə kimi həmişə qamətini şax tuturdu, hücuma atılmağa hazırlaşan pələngə bənzəyirdi. Bu, onun komandir aurasının mühüm tərkib hissəsi idi və ətrafdakılara xoş təsir bağışlayırdı.

Mixaylo bilirdi ki, düzgün duruş insanın əsəb sisteminə və beyin nahiyəsinə təsir göstərib onu sakitləşdirir. İntuisiya güclənir, hadisələri düzgün qiymətləndirməyi bacarırsan.

– Sənin döyüş effektliliyin bir batalyona dəyər. Bu səbəbdən tayın-bərabərin yoxdur, Mixaylo!

Darkonun bu sözləri indi ona peyğəmbərcəsinə söylənilmiş fikir kimi görünürdü. Bankın nəhəng anbarında çantalara qızıl külçələri doldurmaqla məşğul idi. Qızılın yan-yörəsinə əsginas, əsgiyə bükülmüş daş-qaş yığdı. Çantanın ön cibini açıb ora xeyli üzük, sırğa, qızıl saat, portsiqar və digər zinət əşyaları qoydu.

Seyf ağzına qədər dolu idi, onsuz da, bu sərvətin heç yarısını da aparmaq mümkün deyildi. Mixaylo hərəyə on qızıl külçə verdi, sonra isə təxribatçılar çantaları zinət əşyaları ilə doldurdu. Anbar sərin olsa da, qarətçiləri tər basmışdı. Yeşiklərdən birinin ağzına qədər qızıl nişan üzüyü ilə dolu olduğunu görən Saşa ucadan dedi:

– Hə, uşaqlar, üzükdən boluq, qaldı nişanlanmaq üçün qız tapmaq!

Tole gülümsünüb cavab verdi:

– Əşi, axtarmağa nə ehtiyac var? Cibimizdə siçan oynayanda hərəmizin iki, Mixaylonun isə beş adaxlısı vardı.

Tsarın həyəcandan yanaqları qızarmışdı. O da gülüb dedi:

– İndi cehizə görə adaxlı qız seçməyə ehtiyac olmayacaq. Şükür, hər şeyimiz var! Mixaylo, vay halına, gərək beş qızdan birini seçəsən! Ha-ha-ha!

---

[1]**Zen-buddizm** – buddizm cərəyanlarından biri. VI əsrdə Çində meydana gəlib, Yaponiyada geniş yayılıb. Zen-buddizmin əsasını Budda ilə bütün varlıqların vəhdəti haqqında təsəvvür təşkil edir. Digər məktəblərdən fərqli olaraq, Zen-buddizm “ani şüalanma” ideyasını, həqiqətin – satorinin əldə edilməsini təbliğ edir.

Mixaylo halını pozmayıb sakitcə cavab verdi:

– Həyat belədir də! Kimsə qız bolluğuna düşür, kimsə də başqasının nişanlısını götürüb qaçır! Tsar, bu, sənə aid deyil. Zlatko sevgilini əlindən almışdı, bəs sən neylədin? Özünə məxsus olanı geri qaytardın! Oğrudan oğruya halaldır, qatili gərək öldürəsən, onda dünyanın nizamı pozulmaz.

– Günəş şüası rəngində olan bu metal insanın həyatını dəyişir. Məlumdur ki, qızıl olan yerdə qadın məkri də var, düz demirəm, Mixaylo?

– Adamın pulu çoxalanda qayğısı da artır. Böyük pullar hələ heç kimə xoşbəxtlik gətirməyib. Əlimdə yaxşı silah, patron, mərmi olsun, dünyanın altını üstünə çevirib lazım olan hər şeyə sahib olaram! – Mixaylo əsginasları çantaya doldura-doldura cavab verdi.

Onlar ömrü boyu bu qədər sərvət görməmişdi, qızılın, daş-qaşın parıltısı gözlərini qamaşdırmışdı. Bir göz qırpımında dəyişmişdilər, həyəcandan əlləri və ayaqları titrəyirdi. Adətən, pullu adam var-dövlətini itirmək təhlükəsi ilə üzləşəndə canına bu cür əsməcə düşür.

Melaniya tapşırılan işin öhdəsindən əla gəlmiş, zirzəmiyə enən yolların və siqnalizasiya pultunun sxemini dəqiq çəkmişdi. Mixaylo gözətçini tərksilah edib anbarın açarını ondan almışdı. Tsar gözətçinin əl-qolunu bağlayıb ağzına dəsmal soxanda zavallı heç cınqırını da çıxarmadı. Təxribatçılar burma pilləkənlə tələsmədən iki mərtəbə aşağı – zirzəmiyə endi. Melaniyanın dediyinə görə, lift çox ləng işləyirdi, qarətçilər isə tələsirdi, çünki seyfin qapısını düz saat on birdə partlatmaq lazım idi. Vaxta beş dəqiqə qalmışdı. Gözətçidən götürdükləri açar dəsti arasında, şübhəsiz, seyfin açarı yox idi. Qapıları açmaq üzrə mütəxəssis sayılan Frits ötən əsrdən qalmış qədim seyfin qapısına ingilis partlayıcısı – plastit yapışdırdı. Partlayış düz saat on birdə baş verdi və qapı yerindən qopdu. Tole və Frits içəri keçmək üçün linglə qapını araladı. Nəhəng seyf adam boyundan da hündür idi, içində bir neçə nəfər rahat gəzə bilərdi. Birinci Mixaylo içəri girib işığı yandırdı. Saşa geri qayıdıb birinci mərtəbəyə qalxdı, ətrafa göz gəzdirdi. Təxribatçılar bankın girişində gözətçi qoymamışdı, bu səbəbdən Saşa vəziyyəti yoxlamaq qərarına gəlmişdi. Əmin oldu ki, hər şey qaydasındadır, partlayışı kimsə eşitməyib. Bir dəqiqədən sonra geri qayıdanda yoldaşlarının yerlərində donub qızıllara baxdığını gördü. Seyfdəki sərvət partizanları məəttəl qoymuşdu. Hətta Saşa bir anlığa harada olduğunu unutdu. Ona elə gəldi ki, nağıldakı Əlibabanın mağarasına düşüb. Yerə səpələnmiş zinət əşyalarından bir neçəsini götürüb diqqətlə baxdı – sanki muzey eksponatlarını gözdən keçirirdi. Tsarın isə yaqutla bəzədilmiş qızıl xaç xoşuna gəldi, əlinə alıb çəkisini yoxladı və dedi:

– Patron bitsə, bununla faşistlərin başını əzmək olar!

– Xaç özlüyündə təhlükəli silahdır, onunla kiminsə başını əzməyə gərək yoxdur! – Frits cavab verdi. Keşişləri görən gözü yox idi, onları fırıldaqçı və qaniçən adlandırırdı. Dəstə üzvləri də zinət əşyalarını bir-bir götürüb baxırdı. Tole yaqutla bəzədilmiş iri xəncərin qəbzəsindən yapışıb havada oynatmağa başladı. Uşaqlıqda buna bənzər oyuncaq xəncəri vardı, əlindən düşmürdü. Saşa qaz yumurtası boyda yaqut daşı olan tacı başına qoydu. Qədirin qədim çini güldan xoşuna gəldi, qab qızıldan olmasa da, içi üzük və sırğa ilə dolu idi.

Mixaylo dərhal seyfin içindəki qızıl külçələrini axtarmağa başladı. Metal parçaları xüsusi yeşiklərə yığılmışdı. Mixaylo yoldaşlarını tələsdirdi:

– Bura nə sərgi salonu, nə də qızıl dükanıdır. Hər şey pulsuzdur, doldurun cibinizi. Əvvəlcə hərəyə on külçə götürüb çantaya qoyun, yan-yörəsinə də pul, daş-qaş doldurun. Hamısını aparmaq mümkün olmayacaq. Gedəndə seyfə mina qoyacağam. Partlayışdan sonra heç nə ələ gəlməyəcək.

Saşa lifti çağırdı, hamı çantaları götürüb kabinəyə mindi. Bankın yan qapısından çıxıb şəhər parkına doğru qaranlıq dar küçə ilə getdilər. Tsar dəstəni şəhər kənarında yaşayan partizanın evinə gətirdi. Yük maşını və Mixaylonun motosikleti burada idi. Təxribatçıların əynində alman forması vardı, ağır çantaları çətinliklə daşıyırdılar. Uzaqdan gurultu səsi və yanğınsöndürən maşınların sirenası eşidildi, düşməni çaşdırmaq üçün ikinci obyektdə quraşdırılmış mina partlamışdı.

Çantanın ağırlığından beli bükülmüş Tsar tövşüyə-tövşüyə dedi:

– İndi bildim ki, orta əsrlərdə xəzinə soyan cəngavərlər nə çəkirmiş! – Yoldaşlarını tələsdirdi: – Min il də işləsəniz, bu qədər var-dövlət yığa bilməzsiniz. Cəld olun, vaxtında aradan çıxmaq lazımdır!



# NOYABR 1944-cü il

## XLVII

Təxribatçılar dəfələrlə uğurlu əməliyyatdan yüksək əhval-ruhiyyə ilə qayıtmışdı, bu dəfə isə sevincin həddi-hüdudu yox idi. Tsar və Mixaylodan başqa, qızılın gələcək taleyi ilə bağlı planı kimsə bilmirdi. Mixaylo yenə heç nə söyləməyib “Maşına!” əmri verdi, özü isə motosikletə minib getdi. Təxribatçılar çantaları maşına yükləyəndən sonra rahat nəfəs aldı – adətən, insan ağır yükdən azad olanda dərindən nəfəs alır, əzələləri boşalır.

Mixaylo hər ehtimala qarşı dolanbac və dar küçələr seçmişdi. Maşınla kimsəyə rast gəlmədən bir saat yol getdilər. Rençe partizan düşərgəsinə çatanda səhər açılırdı. Çantaları üç saylı barakdakı sinif otağına yığdılar. Mixaylo bu əmri verəndə qanları qaraldı. Cibləri daş-qaşla dolu olsa da, gözləri doymurdu, ürəklərindən keçirdi ki, qənimətin hamısı özlərinə qalsın.

Silah, partlayıcı ləvazimat və ərzağı nəzərə almasaq, indiyə qədər qənimətlərin birinə də gözucu baxmamışdılar. Bu gün isə qızıl gözlərini elə qamaşdırmışdı ki, çantaları təhvil vermək onlara ağır gəlirdi. Mixaylo yoldaşlarının qəmli çöhrəsindən hər şeyi anladı. Həyəcandan yanaqları pörtmüş Tsar Mixaylonun yanında dayanmışdı. Komandiri ona göz vurub ucadan dedi:

– Uşaqlar, qulaq asın, belə bir təklifim var: hərə özünə bir çanta götürsə, necə olar? Davadan sonra dolanışığı bilmək olmaz, alın təri ilə çörək pulu qazanacağıq. Əziz yoldaşlarım, çiyin-çiyinə döyüşüb haqq-ədaləti qorumuşuq, həyatımızı daim təhlükəyə atmışıq. Tsarla düşünüb-daşındıq, qərara gəldik ki, sizi igidlik, mərdlik və fədakarlığa

görə mükafatlandıraq. Hərənizə beş kilo qızıl veririk. Cibinizdəki daş-qaş da sizə qalsın. Təklif edirəm, hər biriniz ayrı-ayrılıqda meşəyə yollanıb payınıza düşən qızılları gizlədəsiniz. Altı çantanı və pulları isə təsərrüfat komissiyasına təhvil verməliyik. Yadda saxlayın: bu əməliyyat barədə kimsəyə danışmağa ixtiyarımız yoxdur. Hesab edin ki, hərbi sirdir! Bildiyiniz kimi, bir kömbə çörək, yaxud bir kilo alma oğurlayan partizanı güllələnmə gözləyir. Qızıl oğurlamaq da cinayət sayılır. Nə isə, qanınızı qaraltmayın. Beləliklə, hörmətli yoldaşlar! Trjiç şəhərinin xalq bankı və əmanət kassası onları bu mənfur gestapo xəzinəsindən azad etdiyiniz üçün dərin təşəkkürünü bildirir və mükafat kimi sizə qızıl-zinət əşyaları təqdim edir!

Təxribatçılar Mixaylonu heyrətlə dinləsə də, söhbətin nədən getdiyini dərhal anlaya bilmədi. Mixaylo bunu başa düşüb fikrini başqa sözlərlə izah etdi:

– Əziz dostlar, hərənizin payına bir dolu çanta düşür, qalanını isə təsərrüfat komissiyasına təhvil verəcəyik. İndi bir az yatıb dincəlməyi təklif edirəm. Sonra meşəyə gedib qızılı gizlətmək üçün yer tapın. Vaxtınız azdır. Kimin yuxusu gəlmirsə, elə indicə yollana bilər. Qalan çantaları maşına yükləyin, mən Tsarla birlikdə onları lazım olan yerə çatdıracağam. Günorta hamı burda olsun, otaqda bir dənə də qızıl külçəsi və ya başqa zinət əşyası gözümə dəyməsin!

Bu sözlərdən sonra kimin gözünə yuxu gedər? Bu qədər qızılı, pulu qoyub yatmaq olar? Təxribatçılar dərhal xəzinəni harada gizlətmək barədə düşünməyə başladı. Dağlıq ərazidə gizli saxlanc yeri tapmaq o qədər də çətin deyil: ətraf sıldırım qaya və yeraltı mağaralarla zəngindir. İndi bank əməliyyatında iştirak etmiş hər təxribatçı özü üçün gizli saxlanc yeri tapmalı idi. Yaxşı, tutaq ki, xəzinəni gizlətdin, bəs sonra ondan necə istifadə edəsən? Pulları hara və necə xərcləyəsən? Bu sualların cavabı müşkül məsələyə çevrildi. Çünki heç birinin ağlına gəlmirdi ki, nə vaxtsa varlana bilər! Elə bilirsiniz, zəngin olmaq, pul içində üzmək asandır? Cavan təxribatçıların bu sahədə təcrübəsi yox idi. Sahibkarlıqdan xəbərsiz, var-dövlət hərisi olmayan bu cavanlar ömründə bu qədər pul, qızıl görməmişdi. Onları başqasının malına sahib çıxan, pulu sağa-sola xərcləyən Ostap Benderə[1] də bənzətmək olmazdı. Amma göydən düşmüş bu sərvət adamların düşüncə tərzini dəyişmişdi. Yəni bu gündən varlı adam kimi oturub-durmalı, hər qəpiyin qədrini bilməlidirlər. Mixaylo ucadan dedi:

[1]**Ostap Bender** – rus yazıçıları İlya İlf və Yevgeni Petrovun "On iki stul" romanının qəhrəmanı

– Kimin pula ehtiyacı yoxdursa, imkansızlarla paylaşsın!

Tole razılaşıb əlavə etdi:

– Əlində artıq pul varsa, başqalarına da verməlisən, özün yaxşı yaşa, amma dostunu da yaddan çıxarma, ona əl tut!

Tsar fikirli-fikirli dilləndi:

– Ağzınıza gələni danışmayın, görün sizə nə deyirəm, yoldaş milyardçılar! Hansımız davadan sağ çıxsaq, bu pullarla gələcəkdə əlimizi ağdan qaraya vurmayıb xoşbəxt ömür sürə bilərik! Əlbəttə, işləyib zəhmət çəkmək istəyən üçün bütün qapılar açıqdır. İnsanın arzuları, xəyalları hüdudsuzdur! Bu yaxında italyan jurnalında bir milyardçı haqqında oxudum. Hər gün əməkdaşlarından əvvəl işə gəlir, axşam da hamıdan sonra gedir. Deyə bilərsiniz ki, axı o, zəngin adamdır, evdə oturub dincələ bilər! Hə, indi özünüz düşünün!

Saşa bolşeviklər partiyasının fəal üzvü kimi tənqid və özünütənqidi sevirdi. Yenə deyinməyə başladı:

– Eh, Tsar, söz danışdın da! Həmişə milçəkdən fil düzəldirsən! Biz hardan milyardçı olduq? Adi milyonçuyuq, vəssalam! Xahiş edirəm, bizi “milyardçı” adlandırma, düz demirəm, yoldaşlar?

Dolubədənli Qədir dostu ilə razılaşdı:

– Açığı, milyonçu olmaq heç də pis deyil, pulun, hörmətin, sayılıb-seçilən adama çevrilirsən! Amma böyük məmnuniyyətlə milyardçı olardım! Ha-ha-ha!

Frits dünyanın maliyyə aləmində baş verənlərdən yaxşı xəbərdar idi. Karl Marksın “Kapital” əsərini orijinalda oxumuşdu. Ciddi görkəm alıb dedi:

– Bu məsələdə hər ikiniz haqlısınız. Tsar düz deyir, milyardçısınız! Amma Saşa da sizi yoxsul milyonçu adlandırmaqda haqlıdır! Niyə belə deyirəm? Əgər bank və maliyyə tarixini öyrənsəydiniz, bilərdiniz ki, hər bir müharibədən sonra dərin inflyasiya baş verir. Birinci Dünya müharibəsindən sonra Almaniyadakı hadisələr yadınızdadır? Kiflənmiş çörək kömbəsi üçün bir qucaq pul ödəmək lazım gəlirdi! Sobada odun əvəzinə əsginas yandırmaq daha sərfəli idi. İnflyasiya özü ilə yoxsulluq gətirir, milyonçular isə öz sərvətini qoruyur, var-dövlətini artırıb milyardçı olurlar. Davanın bitməyinə az qalıb, əziz yoldaşlar, ciddi xəbərdarlıq edirəm: qızılı, zinət əşyalarını pula çevirməyə tələsməyin! İtalyan lirəsinin taleyi yadınızdadır? Mussolinini hakimiyyətdən endirəndən sonra lirənin kursu düşdü. İndi qızılı, daş-qaşı alman markına dəyişmək çox təhlükəlidir. Almaniya məğlub olandan sonra mark yalnız sobanı qızdırmağa yarayacaq. Ona görə də əgər qızılı satmaq fikriniz varsa, əvəzində İçveçrə frankı, ingilis funtu, ya da

Amerika dolları alın. Amma ehtiyatlı olun. Son vaxtlar bazarda saxta valyuta satanların sayı artıb. Almanlar öz donosçularına zəhmət haqqı kimi saxta valyuta ödəyir. Donosçuya bu da azdır! Qoy başına döyə-döyə qalsın! Əslində, satqına pul vermək yox, başına bir güllə sıxmaq lazımdır.

Zənginlik dünyasına yenicə qədəm basmış təxribatçılar Fritsin maliyyə mövzusunda nitqini diqqətlə dinləyirdi. Gözəgəlimli, qarasaç, nazlı-qəmzəli növbətçi Mira otağa daxil oldu. Mixaylo ona göz vurub işarə ilə başa saldı ki, Fritsin nitqinə diqqətlə qulaq assın. Adətən, Mira gələndə hamı onunla salamlaşır, kompliment deyirdi. Bu dəfə isə qızı saya salan olmadı – hamının başı Fritsə qarışmışdı. Mira da diqqətlə dinləməyə başladı. Amma söhbətin təxribatdan, yoxsa puldan getdiyini anlamayıb soruşdu:

– Deyəsən, qapını səhv salmışam axı? Burda qara birjanın iclası gedir? Eh, çox sadəlövh qızam, elə bilirdim, partizanlar kapitalistlərlə döyüşür, siz isə özünüz kapitalist olmaq istəyirsiniz!

Mixaylonu gülmək tutdu, özünü birtəhər ələ alıb cavab verdi:

– Yoldaş Mira, təxribatçı olmadığın üçün heç nədən xəbərin yoxdur. Dünyanın ən böyük araqarışdıranları və terrorçuları bankirlərdir. Biz onların iş metodlarına dərindən bələd olmalıyıq ki, minanı bankın hansı nöqtəsində yerləşdirməyi əvvəlcədən müəyyən edə bilək. Başını belə boş-boş şeylərlə doldurma, yaxşısı budur, bizə səhər yeməyi hazırla! Bu gün mətbəxdə növbətçisən?

Qızlar partizan düşərgəsində təsərrüfat işləri ilə məşğul olur, paltar yuyub, xörək bişirirdi. İndi də Mira səhər yeməyi hazırlamaq üçün mətbəxə qaçdı.

Bir azdan Mixaylo və Tsar qızıl dolu çantaları meşəyə aparıb, mağaralarda gizlətdilər. Təsərrüfat komissiyasına təqdim olunacaq xəzinəni isə başqa mağaraya qoydular. Düşərgəyə qayıdıb yoldaşlarına bildirdilər ki, xəzinə etibarlı yerdədir. Nahardan sonra hamı dincəlməyə getdi.

## XLVIII

*Xəbər alma bu dərdimi özümdən,*
*Qəmli yaşlar ayrılmayır gözümdən.*
*Nə fikrim var aydın olur sözümdən,*
*Aşıqvarı öz sazımı çalıram.*

*Tərlan könlüm uçub qondu budağa,*
*Dolğun gözlə göz gəzdirir bu dağa,*
*Qərib yerdə tab etmirəm bu dağa,*
*Düşər xəyalıma o diyar mənim.*

*O həsrətdən ömrüm indi yarıdır,*
*Yardan xəbər alsam, məni yarıdır,*
*Çünki hər qız bir oğlanın yarıdır,*
*Oxlamış qəlbimi nazlı yar mənim.*

*Gülə aşiq bülbül rəngi sarıdır,*
*Onun məhəbbəti gülə sarıdır,*
*Hər görüşdə yaraların sarıdır,*
*Olubdur sirdaşım ahu-zar mənim.*

*O vəfalı yarım qarabağlıdır,*
*Onun yeri çiçəklidir-bağlıdır,*
*Ömrü boyu sevgisinə bağlıdır,*
*Vəfasına çox ümidim var mənim.*

*Yardan ayrı qalsam, ömrüm qaralar,*
*Küskün xəyalımı dağtək qar alar,*
*Bəxtimin vərəqin fələk qaralar,*
*Çürüdər ömrümü intizar mənim.*
***M.Hüseynzadə***

Mixaylo axşamçağı yeni "milyonçular"la – təxribatçı dostları ilə görüşüb düşərgədən ayrıldı. Hərbi hissədə rəqs gecəsinə ciddi hazırlıq gedirdi. Dostları çox xahiş etdi ki, Mixaylo da qalıb əylənsin, ancaq o, getməyi qərara almışdı. Yolu uzaq deyildi, İrenanın əczaçı atasının evi Rençenin mərkəzində yerləşirdi. Kol-kos basmış dar cığırla gedəndə tələbəlik illərini xatırladı. Kurs işi üzərində gecədən xeyli keçənə qədər çalışır, müxtəlif xalqların etnoqrafiyası, adət-ənənələri barədə kitablar, elmi məqalələr oxuyurdu. Sloveniyada döyüşdüyü bir il ərzində yerli xalqın ayinləri, adət-ənənələri ilə yaxından tanış olmuşdu. Azərbaycanda keçirilən mərasimlərlə bu adətlər arasında sıx bağlılıq vardı. Fikirləşdi ki, deməli, sloven xalqının da qədim tarixi var və onlar öz köklərinə bağlıdır. Bakı, doğma Novxanı kəndi üçün burnunun ucu göynədi, Novruz bayramından əvvəl çərşənbə axşamlarında tonqalın üstündən tullanmağını xatırladı. Ah, necə də xoşbəxt günlər idi...

İrenagildə paltarını dəyişib alman zabiti formasını geyindi və motosikletini gizlətdiyi daxmaya gəldi. Pemtsin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, bəzi işləri qaydasına qoymaq üçün Triestə getməyi qərara almışdı. Varlığını qəribə hiss bürümüşdü: "Mehdi, bir də belə imkan ələ düşməyəcək!" Triestə çatanda qaş qaralmışdı. Kimsəsiz küçələr canını sıxdı. On beş dəqiqədən sonra şəhərin mərkəzindəki fəhlə məhəlləsinə çatdı. Motosikletini iki evin arasındakı dar dalana qoydu. Ətrafda kimsə yox idi, pəncərələrdən işıq gəlmirdi, küçə fənərləri də söndürülmüşdü. Son zamanlar müttəfiqlər havadan Triest və ətraf qəsəbələrə hər gün mərmi yağdırırdı. Hətta Mixaylo düşündü ki, faşistləri qırmaq üçün artıq təxribatlara ehtiyac yoxdur, bu işi müttəfiq təyyarələri layiqincə görür. İngilis və Amerika hərbi təyyarələrinin pilotları səhvən slovenlərin yaşadığı mülki obyektlərə mərmi yağdırırdı. İtalyanların yaşadığı kəndlər də payını alırdı, çünki sloven yaşayış məntəqələri ilə qonşu idi. Bir neçə gün əvvəl müttəfiq təyyarələri Triestin sloven məhəlləsinə xeyli mərmi atmış, dörd sloven kəndini yerlə yeksan etmişdi. Mixaylo Sosiçin evinə yaxınlaşdı, binaya xələl gəlmədiyini görəndə ürəyi sakitləşdi. Sonuncu görüşdə Sosiç qapının açarını ona verib demişdi:

– Mixaylo, həmişə deyirsən ki, burda özünü evdəki kimi hiss edirsən, al, qoy açar səndə qalsın. Nə vaxt gəlsən, özün aç, bizi yuxudan oyatmağa ehtiyac qalmasın...

Mixaylo, həqiqətən, Sosiçi yataqdan qaldırmaq istəmirdi. Qapını açıb pəncəsi üstündə içəri keçdi. Amma Miryam qıfılın səsini və sevdiyi gəncin hənirtisini duymuşdu. Yataq otağından çıxıb sakitcə Mixayloya sarıldı. Dəhlizdə bir xeyli belə dayanıb qonaq otağına keçdilər. Mixaylo barmağını dodaqlarının üstünə qoyub Miryama işarə verdi ki, Sosiçi şirin yuxudan oyatmağa ehtiyac yoxdur. Sonra saatını göstərdi, yəni "çox qala bilməyəcəyəm, tələsirəm!" Mixaylo əlindəki çantanı açıb bir qızıl külçəsi, xeyli zinət əşyası və daş-qaş, bir topa pulu masanın üstünə qoydu. Miryam məəttəl-məəttəl baxırdı, arif qız idi, heç nə soruşmadı. Qapıya doğru yönələn Mixaylonu bağrına basıb öpüşlərə qərq etdi...

Mixaylo bankı qarət edəndən sonra əlinə keçmiş xəzinəyə baxıb Bakıdakı qaraçının sözlərini xatırlamışdı. Qadın demişdi ki, "zəngin və məşhur olandan sonra öləcəksən!" Hələ nəfəs alırdı, deməli, ölümdən söhbət gedə bilməzdi! "Bəlkə, bu mənfur xəzinəni rabitəçi qızlara paylayım? Birdən qaraçının dedikləri çin oldu, onda necə?" – Mixaylo bunu düşünəndə ürəyi sakitləşdi.

Böyük sərvət canını sıxırdı, çantanı daşımaq asan idi, amma içindəki xəzinə ağır yük kimi boynundan asılmışdı. Son zamanlar dəhşətli

yuxular görürdü. Yuxusunu xatırlamırdı, təkcə onu bilirdi ki, qışqırıb qan-tər içində oyanır, sonra da bütün gecəni gözünü qırpmırdı. Hiss edirdi ki, dəyişib, polad kimi möhkəm ölüm və qisas mələyindən tədricən adi məşuqa çevrilib. Bəyəndiyi, oturub-durduğu qızları düşündükcə, onların nəvazişini, gülüşünü xatırladıqca, qarşısına qoyduğu müqəddəs məqsədi, təxribatçı olduğunu unudurdu. Hiss edirdi ki, onu daim qələbəyə səsləyən soyuqqanlılığını və iti düşüncəsini, hər şeyi dəqiq ölçüb-biçmək bacarığını tədricən itirir. Əvəzində, qadınlar barədə fikirləşib qisas missiyasını unudur.

Müharibədə qazandığı acı təcrübədən yaxşı bilirdi: döyüşdə diqqətsizlik əsgəri ölümlə üz-üzə qoya bilər. Mixayloya məlum idi ki, təxribatın ən təhlükəsiz hissəsi əvvəlcədən ətraflı düşünülmüş və yaxşı hazırlanmış planın həyata keçirilməsi ilə bağlıdır. Təxribatdan əvvəl və sonrakı mərhələ isə döyüşçü üçün böyük risk doğurur. Mixaylo hiss edirdi ki, onu addımbaaddım izləyən təhlükə növbəti təxribata hazırlıq zamanı real ola bilər. Belə ki, faşistlərin Triestdəki düyü zavodunda fəaliyyət göstərən ölüm düşərgəsinə hücumla bağlı plan hazırlamalı idi. Ona görə də qızıllardan canını qurtarmağa tələsirdi. Günəşin ilk şəfəqləri görünəndə Mixaylo motosikletlə şəhərdən çıxıb dağ yollarını qalxırdı. Çox sürətlə gedirdi, sanki ölümə tələsirdi. Amma ikitəkərli maşını məharətlə idarə edirdi. Opçina kəndinə, dərzi Olqanın yanına tələsirdi. Qadın səhər doqquzda evdən çıxırdı. Olqagilə yaxınlaşanda gözü küçədəki transformatorun üstündəki plakata sataşdı. Motosikleti saxlayıb faraları üstünə saldı – öz fotosu yapışdırılmışdı. Motosikleti Olqanın həyətinə sürdü, çantanı yedəkdən götürəndə düşündü: “Hə, Mehdi, indi varlı, həm də məşhursan. Ehtiyatlı ol!”

Şərtləşdikləri kimi, Olqanın qapısını əvvəlcə üç qısa, sonra isə bir uzun tıqqıltı ilə döydü. Qadın onu gülərüz qarşıladı. Qonaq otağına keçdilər. Olqa səhər yeməyi gətirmək üçün mətbəxə getmək istəyəndə Mixaylo qoymadı, tələsdiyini bildirdi. Çantadan çıxartdığı qızıl külçəsini, bir ovuc daş-qaşı və pulları masanın üstünə qoydu. Getməzdən əvvəl Olqadan xahiş etdi ki, böyük karton qutu və kağız gətirsin. Qızıl külçələrdən birini qutuya qoyub ətrafına pul düzdü. Olqa da qutunun ağzını səliqə ilə bağlayıb Mixayloya verdi. Görüşüb ayrıldı, nədənsə ürəyinə dammışdı ki, Olqanı sonuncu dəfə görür...

Bu gecə Mixaylo bütün prinsiplərinə xilaf çıxıb təhlükəsizlik qaydalarını unutmuşdu. Təpədən-dırnağa qədər silahlanmış iki karabinerin yanından ötdü – onlar kənddəki poçt şöbəsinin qarşısında söhbət edir, gəlib-gedənə göz qoyurdu. Mixaylo qoltuğunda böyük bağlama ilə onların yanından keçib poçt şöbəsinə girdi. Bağlamanın

üstünə Pliskovitsada yaşayan Ninanın ünvanını yazdı. Bilirdi ki, Nina Pliskovitsanın poçt şöbəsində işləyir və bağlamanı mütləq alacaq. Əvvəlcədən qızıl külçəsinin üstünə qısa məktub da yazıb qoymuşdu: "Əzizim Ninaya! Dərin sevgi və hörmət əlaməti olaraq!"

İndi çanta bir az yüngülləşmişdi. İçində bir külçə və az miqdarda zinət əşyaları qalmışdı. Motosikletə minib Triesti tərk edəndə düşündü ki, ömründə ilk dəfə böyük sərvət sahibi olmuş, amma düzgün qərar vermişdi. Dostlarına xoşbəxtlik bəxş edəcək bu sərvət Mixaylo üçün təhlükə mənbəyi idi. Bankı qarət edəndən sonra ona elə gəlirdi ki, cibinə doldurduğu daş-qaş yox, əfi ilandır, indicə onu çalıb zəhərləyəcək. Mixaylo bilirdi ki, qazandığı şöhrəti itirə bilməyəcək, daha doğrusu, itirmək istəməyəcək, amma qızıla, daş-qaşa ehtiyacı yoxdur. Ona görə də qan qoxusu verən, günahsız insanların göz yaşına bulaşmış bu qızılı özünə saxlamaq istəmirdi. Təxribatçıya keyfiyyətli və etibarlı partlayıcı lazımdır, Mixaylo üçün bu partlayıcı qızıldan da irəlidir!

Opçina kəndindən çıxıb, Vitovlyedə yerləşən bir saylı partizan bazasına gəldi. Günortaya az qalsa da, dostları hələ də şirin yuxuda idi. Mixaylo düşündü ki, milyonçudan əsgər çıxmaz! Sevindi ki, özündə olan sonuncu qızıl külçəsindən və daş-qaşdan tezliklə xilas olacaq.

"Mixaylonun mələkləri" adlandırılan təxribatçılar gecə əməliyyatından sonra elə bərk yatmışdı ki, xüsusi təyinatlı dəstə üzvlərinə yox, əldən düşmüş qocaya bənzəyirdilər. Nəhayət, yuxudan oyanıb, sinif otağına toplaşdılar, qəhvə içib siqaret çəkdilər. Tezliklə masaya ən yaxşı alman şampanı, ağ və qırmızı şərab şüşələri düzüldü – döyüşçülər gecə əməliyyatı şərəfinə ziyafət təşkil etmişdi. İçkiləri yerli sakinlər hədiyyə vermişdi.

Sinif otağında təxribatçılardan başqa kimsə olmadığına görə, Mixaylo üzünü döyüşçülərə tutub dedi:

– Hər gecənin işıqlı bir səhəri var! İnsanların rifahı naminə xərclənməyən pul Allahın gözündə heç nədir! Allah haqq-ədalət tərəfdarıdır. Əziz dostlarım! Məlumunuz olsun ki, kapitalizm adamlara xas bütün insani keyfiyyətləri öldürür, deməli, sivilizasiyanı məhv edir. Əgər milyonçular, daha doğrusu milyarderlər məkrli planlar qurursa, dünya hara yuvarlanır?

– Mixaylo, mus-mus deyincə, Mustafa de! Keç əsas məsələyə! – Mixaylonun məşhur nitqlərinə yaxşı bələd olan Qədir onun sözünü kəsdi.

– Demək belə. Əjdahanın canı şüşədə olduğu kimi, balığın da canı sudadır! Təklif edirəm, nahardan sonra bazanı tərk edib yardımçı düşərgəyə yollanaq. Ancaq rabitəçini gözləmək lazımdır. Ötən gecə

çətin əməliyyatda iştirak etmişik. Trjiçdə bankı qarət edib ora mina qoymuşuq. İndi xəzinənin axtarışına çıxan gestapo vəhşi köpəyə dönüb. Bilin ki, əsgər həlak olanda alman komandanlığı kədərlənir, amma sərvətlərini əlindən alanda vəhşiyə dönür. Elə bil pələngin ağzından tikəsini qapmısan. Qəzəblənmiş pələng isə hətta təlimçini də parçalaya bilər.

İndi hamı azaddır, nahardan sonra içməyi qadağan edirəm. Üç saatlıq yolumuz var, sərxoşları özümüzlə daşımaq fikrimiz yoxdur! Hər şeyə hazır olmalıyıq. Əgər müdrik adamın başına hər gün xoşbəxtlik quşu qonursa, əvvəl-axır ağlı çaşacaq! Qədərini bilən adam həmişə bolluq içində yaşayacaq! Hörmətli yoldaşlar, indi sərvətiniz lazım olduğundan qat-qat çoxdur. Bəlkə, Tsarla mən səxavətin həddini aşmışıq? Bilmirəm, ancaq bu barədə düşünmək artıq gecdir. Sınmış qabı yapışdırsan da, əvvəlki görkəmini bərpa etmək olmayacaq! Bunu unutmayın!

## XLIX

Səhər general Qloboçnik Triestdə bankın qarət edilməsi xəbərini eşidəndə telefona sarılıb mayor fon Nimetsə zəng vurdu. Mayor da dərhal kapitan Virtsbuxteli yanına çağırtdırıb nəzakətlə soruşdu:

– Möhtərəm Virtsbuxtel, zəhmət olmasa, deyin, Monfalkondakı bankdakı son qarətlə bağlı nə düşünürsünüz? Quldur Mehdi-Mixaylo yenə fəallaşıb, onun əlindən zara gəlmişik!

– Qoriş vilayətindəki quldur dəstələri son vaxtlar həddini aşıb, ancaq əminəm ki, bankın soyulmasında Mixaylonun terror qrupunun əli var. Başqası bu işi bacarmazdı. Cənab mayor, hadisə yerində onun barmaq izlərinə rast gəlinməsə də, düşünürəm, banka bu quldur basqın edib. İndicə kapitan Ştraussla danışdım, hadisə yerinə hamıdan əvvəl o gəlibmiş. Kapitan da mənimlə razıdır. Banka qoyulmuş mina da Mixaylonun dəst-xətinə bənzəyir. Ancaq sizə şad xəbər də gətirmişəm. Banka basqından sonra doktor Quelli zəng vurmuşdu, üstüörtülü dedi ki, etibarlı mənbədən məlumat alıb: quldurları Rençe, ya da Vitovlyedə axtarmaq lazımdır! Şübhəsiz, Mehdinin terror qrupunun hazırda orda olduğunu təsdiq edə bilmərəm. Amma müəyyən etmişik ki, quldurların bazası həmin ərazidə yerləşir.

– Təşəkkür edirəm, möhtərəm kapitan Virtsbuxtel! Məni, az da olsa, sevindirdiniz. Doktor Quelli də işə yaradı. Düşünürəm, sizə xatırlatmağa gərək yoxdur ki, düşmən yuvasında əməliyyat üçün bütün SS qüvvələri səfərbər olunmalıdır.

– Bizə yalnız yazılı əmriniz lazımdır, əməliyyata dərhal başlaya bilərik. Bu işə kapitan Klaus rəhbərlik edəcək.

– Çox yaxşı, Virtsbuxtel, yazılı əmr alacaqsınız. Quldurlar, axır ki, əlimizə keçəcək, onları qarışqa kimi əzəcəyik. Yarım ildir yuxuma haram qatıblar, hamısının başını üzmək lazımdır. Təəssüf, Qloboçnikin qərargahına getməliyəm, komendant zəng vurmuşdu. Yoxsa hökmən sizinlə əməliyyatda iştirak edərdim. İtalyanlardan ibarət xüsusi təyinatlı dəstəni də özünüzlə aparın. Bu uşaqlar oralara yaxşı bələddir, slovencə də dil-dil ötürlər.

– Mütləq. Onların geniş casus şəbəkəsi var, terrorçular Rençe, ya da Vitovlyeyə gələn kimi casuslar məlumat ötürəcək. Doktor Quelli rabitəçilik edəcək, biz isə qonşu kənddə... e... adı nə idi o xarabanın... yadımda deyil, nə isə, orda gizlənib gözləyəcəyik. Cənab mayor, əməliyyat sabaha qədər çəkər, vaxtınız olsa, gəlin. Trjiçdən Vitovlyeyə xeyli məsafə var, inanmıram ki, quldurlar maşınla getsin. Amma avtomobillə Rençedəki bazaya bir günə çatmaq mümkündür. Terrorçuları orda yaxalayarıq. General Qloboçnikə deyəndə ki, quldurlar nəinki seyfdəki bütün qızılı, daş-qaşı soyub, hətta altı milyon lirəni də aparıb, yaralı şirə döndü. Razılaşın ki, heç də az məbləğ deyil. Soyğunçuları vaxtında yaxalasaq, qızılı, pulu geri qaytara bilərik. Bu, partizanları məhv etməkdən də vacibdir. Amma qızılları qaytarmaq üçün öncə bu yaramaz quldurları tapmaq lazımdır! – mayor qayğılı-qayğılı bildirdi.

– Nə qızıl, nə daş-qaş, siz nədən bəhs edirsiniz, cənab mayor?

– Əzizim Virtsbuxtel, yəhudilər deportasiya olunanda onların bütün əmlakı qanuni yolla müsadirə edilmişdi. Sizə deyim ki, yəhudilərin arasında zəngin ailələr çox idi. Onların əlindən alınmış sərvət bankın seyfində saxlanılırdı. Ən çox sevinən Triestin yerli tacirləri idi. Çünki bundan sonra kimsə onlarla rəqabət apara bilməyəcəkdi. Bizə xeyli rüşvət vermişdilər ki, varlı yəhudiləri deportasiya edək. İndi bu tacirlər həmin yəhudilərin evlərini, villalarını ələ keçirib. Bütün sərvət bankda qorunurdu, seyf ağzına qədər dolu idi. Təsəvvür edin, bütün bu sərvət quldurların əlinə keçib! Adam xəcalətdən yerə girmək istəyir! Təcili tədbir görmək lazımdır, Virtsbuxtel! Gedin, Tanrı sizə yar olsun! Çalışacağam ki, sabah özümü çatdırım, bu əclafların axırına çıxmalıyıq!

**L**

General Qloboçnikin maral dərisindən yumşaq əlcəkləri, furajkası və uzunboğaz çəkmələri – qarderobundakı bu üç əşya alman ordusunun dəbdəbə və təntənəsinin rəmzi idi. Qloboçnik geyimi ilə özünü SS reyxsfüreri Himmlerə bənzətməyə çalışırdı. Bu üç atributu Berlindəki mağazada sifariş vermişdi. Himmler də həmin mağazanın xidmətindən istifadə edirdi. General yalnız bir şeyə təəssüflənirdi ki, gözləri yaxşı gördüyü üçün eynək taxmır. Çünki əziz rəhbəri Himmler kimi sümük sağanaqlı girdə eynək taxmağı arzulayırdı.

General Qloboçnik və kapitan Avqust Ditrix Allers qara "Mercedes"in arxa oturacağına əyləşdi. Maşın düyü zavodunun darvazasından çıxdı. Onlar Devin qəsrində general tərəfindən təşkil olunmuş təntənəli ziyafətə gedirdi. Nahar xüsusi təyinatlı dəstə üzvlərinin şərəfinə verilirdi. Bu döyüşçülər generala sözün əsl mənasında sitayiş edirdi. Çünki onları Şərq cəbhəsindən çıxarmaqla həyatlarını xilas etmiş, sonra da Aralıq dənizi sahilində yerləşən bu cənnət guşəyə gətirmişdi. İndi döyüşçülər normal həyat şəraitinə görə generala borclu idi. Ona görə də tapşırılan hər işin öhdəsindən canla-başla gəlirdilər: ölüm düşərgəsində yerli müqavimət hərəkatı fəallarına, qaraçı və yəhudilərə dəhşətli işgəncələr verib qətlə yetirirdilər. Xüsusi təyinatlı dəstənin üzvləri Polşa və Ukraynada təcrübə qazanmışdı – hər gün minlərlə adamı qırmaq konveyer sisteminə salınmışdı.

Həmkarları SS generalı Odilo Qloboçniki "Qlobus" adlandırırdı. Girdə bədəni vardı, hərbi forma geymiş öküzə bənzəyirdi. Yaxalığı boynunu sıxırdı, qolları qısa idi, həmişə də yumruğunu büküb gəzir, barmaqları ətli sosisi xatırladırdı. Sol yanağında bənövşəyi çapıq vardı. Zahiri görünüşü ölüm saçırdı. Əsgərlər onu "Sualtı qayıq" adlandırırdı. Polşa kampaniyası dövründə evinin zirzəmisinə sualtı qayıqda istifadə olunan dizel mühərriki quraşdırmışdı. Zirzəmiyə salınmış əsirləri mühərrikdən çıxan zəhərli qazla boğurdu. General bu işdən xüsusi zövq alırdı.

Maşında generalla yanaşı oturmuş Allersin də yanağında əcaib çapıq vardı. O, yol yoldaşının isti nəfəsində sarımsaqlı kolbasanın turş iyini duydu. General "Mercedes" markalı limuzini müşayiət edən motosikletçilərə saymazyana baxıb siqarı ləzzətlə sümürdü. İlk dəfə düyü zavoduna gəldiyi günü xatırladı. Qış ayları idi, obyektin ideya müəllifi və komandiri kapitan Virtlə xeyli söhbət etmişdi. İndi onu Allers əvəz edirdi.

Kapitan Virt hündürboylu, mavigözlü alman idi. General özünə xas olmayan nəvazişlə kapitanı süzüb demişdi:

– Hörmətli kapitan, etiraf edim ki, obyekti gəzib çox məmnun qaldım. Əziz həmkar, inanın, gördüklərimdən fərəh duydum, könlüm açıldı. Ölüm maşınına çevirdiyimiz bu obyektin əhəmiyyəti hər ikimizə yaxşı məlumdur. Şərq cəbhəsində də sizinlə birlikdə belə obyektlər yaradırdıq. Səmərəsi də göz qabağında idi. Amma burada vəziyyət başqadır. Nahar süfrəsi arxasında bu barədə ətraflı danışarıq, qoy həmkarlarımız da eşitsin. İnanın, çox şadam ki, Şərq cəbhəsində başladığımız işi burada, Adriatik dənizi sahillərində də uğurla davam etdiririk.

– Hörmətli cənab general, öz adımdan və tabeliyimdə olanların adından bəyan edirəm: bundan sonra da sizin rəhbərliyiniz altında çalışmaq imkanı qazandığımız üçün ürəkdən sevinirik. Hörmətli cənab Eyxmanı nəzərə almasaq, sizi Şərqdə irqin təmizlənməsi işinin banisi saymaq olar. Biz yalnız sizin dahi plan və ideyalarınızı həyata keçiririk, cənab general, – Virt yaltaqcasına cavab vermişdi.

Virt əmin-amanlıq dövründə peşəkar mühəndis kimi bir tikinti şirkətinə rəhbərlik edirdi. Amma çoxdan idi ki, bilik və bacarığını nasist partiyasının siyasətinə uyğun olan dəhşətli bir işə – insanlara işgəncə verib öldürməyə yönəltmişdi. Həbsxanaların və işgəncə kameralarının layihəsini böyük həvəslə hazırlayır, bu mənfur iş üçün qüvvə və bacarığını əsirgəmir, özü kimi mütəxəssis sayılan faşizm fanatiklərini də ətrafına toplayırdı. Virt qatil və işgəncə verməyi sevən canilərdən ibarət böyük komanda yaratmışdı. Onlar alman qanunvericiliyinin bütün tələblərinə əməl etməklə əmrləri dəqiq yerinə yetirirdi. Amma nasistlərin hakimiyyəti dövründə qanun və qanunvericilik mahiyyətini itirmiş, haqq-ədalət unudulmuşdu.

Kapitan Virt çox maraqlı həmsöhbət idi, amma general Qloboçnik barədə bunu demək olmazdı – gözü qızanda anasını da tanımırdı.

– Hörmətli kapitan, təvazökarlıq etməyin, köhnə düyü zavodunu yenidən qurub ölüm konveyerinə çevirdiyiniz üçün sizə təşəkkürümü bildirməliyəm. Mənə elə gəlir, bu sahədə böyük təcrübə qazanmısınız və ən əsası, bu həbsxananın üstündən bir quş da uça bilməz! Buradan qaçmaq istəyən gərək ölümünü göz qabağına alsın. Mərc gələrəm ki, divarlar qala kimi möhkəmdir. Çox bəyəndim, cənab kapitan! Necə deyərlər, xariqələr yaradıb bu işi mükəmməl səviyyəyə qaldırmısınız. Berlindəki rəhbərliyə bildirəcəyəm ki, ölüm konveyerində tətbiq etdiyiniz yeni səmərələşdirici təklifləri nəzərə alıb sizə xüsusi mükafat versinlər. Bəlkə də, xəbəriniz yoxdur, biz hər il Hitlerin ad günündə ən yaxşı həbsxana və işgəncə kamerası layihəsini hazırlayan mütəxəssisə mükafat təqdim edirik. Əlbəttə, bu məsələ geniş reklam olunmur, bağlı

qapılar arxasında baş verir. Mükafat mərhum professor, memar Qrabbenin adını daşıyır. O, Dahau ölüm düşərgəsinin memarıdır, ideyaları əsasında Avropada yüzlərlə ölüm düşərgəsi yaradılıb. Təəssüf ki, professor Qrabben bu günləri görmədi. Ölümü də qəribə oldu. Berlindəki malikanəsində tək yaşayırdı, köpəkləri çox sevirdi. Evinin ətrafına qala divarları kimi hündür çəpər çəkmişdi, həyətini bulmastif cinsindən olan altı köpək qoruyurdu. Professor layihə bürosunda çalışırdı. Günlərin birində işə çıxmır, əməkdaşlar nigaran qalır, çünki qoca professor həm də ürək xəstəliyindən əziyyət çəkirdi. Cavanlardan birini onun evinə göndərirlər ki, vəziyyəti yerindəcə yoxlasın. Amma qapının zənginə cavab verən olmur, köpəklər həyətdə hürür. Polis gəlib qapını sındırır. Köpəklər polislərin üstünə cumur. Məcbur qalıb heyvanları güllə ilə vururlar. Polislər evə girəndə dəhşətli mənzərə ilə qarşılaşırlar: ölü professor qan içində yerdə uzanmışdı. Onu sevimli köpəkləri parçalamışdı! Qəribə ölümdür, deyilmi?

– Biz də hərdən köpəkləri əsirlərin üstünə qısqırdırıq, xüsusən də iş çox olanda, yorulanda bu üsula əl atırıq. Amma iti qısqırdanda gərək dəqiq biləsən: fikrin əsiri öldürməkdir, yoxsa itə qapdırıb əzab vermək?

– Xüsusi təyinatlı dəstənin iş üslubu, döyüşçülərin fantaziyası və daim yeniliyə can atması həmişə xoşuma gəlib. Amma düyü zavodunda qurduğunuz ölüm düşərgəsinin tayı-bərabəri yoxdur. Layihəni və fotoşəkilləri Berlində görəndə, əminəm ki, sizi çağırıb yeni tapşırıq verəcəklər. Əlbəttə, sizin kimi əməkdaşı itirmək istəməzdim, ancaq əlac nədir?

...General Qloboçnik hələ də düşüncələrdən ayrıla bilmirdi: "Təəssüf, qiymətli əməkdaş əlimdən çıxdı, amma onu Berlinə yox, o dünyaya çağırdılar. Zavallı Virt partizanların həbsxana yaxınlığında qurduğu pusqunun qurbanı oldu. İndi aramızda olmasa da, yaratdığı həbs düşərgəsi Sahilyanı ərazinin incilərindən biridir, rəhbəri dəyişsə də, ölüm konveyeri saat mexanizmi kimi dəqiq çalışır".

General Qloboçnik ölüm düşərgəsində vaxt keçirməyi sevir, dostlarının əhatəsində dincəlir, həm də işgəncə proseslərində iştirak edirdi. Gözü məhkum qızlardan kimisə tutanda əsirin əl-ayağını qandallayıb general üçün ayrılmış otağa gətirirdilər. Bu otağı Qloboçnik üçün mərhum Virt xüsusi zövqlə düzəltdirmişdi. Divarları boz-yaşıl rəngə boyanmış böyük otağın kiçik pəncərələrindən üzərini qızılı rəngdə faşist xaçı bəzəyən tünd-qəhvəyi pərdələr asılmış, ortalığa da baş tərəfində dəmir çıxıntıları olan iri çarpayı qoyulmuşdu. Mühəndis Virt generalın hobbisinə yaxşı bələd idi: otağına gətirilən əsir qızların əllərini kəndirlə bu dəmir çıxıntılara bağlayıb təcavüz edirdi.

Kapitan Virt hər işdə Qloboçnikin qulluğunda dururdu. Məsələn, əsirlər arasında qarasaç, hündürboy qız görən kimi şirin dilini işə salıb onu dilə tutmağa çalışırdı. Qızı bir neçə gün yaxşı yedirdib, təmiz geyindirir və generalla görüşə hazırlayırdı. Sonra Qloboçniki nahara, yaxud şam yeməyinə dəvət edirdi. General heç vaxt dəvətdən imtina etmirdi, bilirdi ki, Virt desertə əla sürpriz hazırlayıb. Göstərdiyi qulluğun əvəzində Virtə məzuniyyət verirdi.

İndi isə obyektə yeni komandir başçılıq edir, general üçün qızları isə düşərgə rəisinin müavini seçirdi. Ancaq müavin generalın zövqünə bələd deyildi: Qloboçnik bəzən qızı bəyənməyib geri qaytarır, əmrinə əsasən həmin əsirə işgəncə verib öldürürdülər. Hərdən işgəncə prosesində şəxsən iştirak etməsə də, əsiri dar ağacından asanda mütləq gəlib baxırdı. Generalın işgəncədən çox, əsirin dar ağacından asılması prosesi xoşuna gəlirdi.

Uşaq ikən soxulcanları və ilbizləri ayağı ilə əzir, milçək və arıların qanadını qoparırdı. Bir dəfə eşşəkarısını tutub öldürmək istəmişdi, ancaq arı onu sancmışdı. Həmin gündən arılardan qorxurdu. Məktəbdə oxuyanda quşatan düzəldib budağa qonmuş sərçələri vurmaqdan həzz alırdı. Hətta general olandan sonra da bu şakərindən əl çəkməmişdi: quşları cəlb etmək üçün boşqaba dən tökür, sonra da tapança ilə vururdu. Yeniyetmə çağında sahibsiz it-pişiyə əzab vermək xoşuna gəlirdi. Bir dəfə pişiklər onu elə cırmaqlamışdı ki, anası təcili yardım maşını çağırmağa məcbur olmuşdu. Dostları ilə birlikdə sahibsiz köpəklərə işgəncə verir, heyvan zingildəyəndə qəhqəhə çəkirdilər.

Sonra Qloboçniklər ailəsi Vyanaya köçdü və heyvanlara qənim kəsilmiş balaca Odilo Triestdən uzaq düşdü. O, işğalçı nasistlərə qoşulub doğma şəhərə qayıdanda adamlar başa düşdü ki, Odilo əsla dəyişməyib – indi heyvanların əvəzinə günahsız insanlara işgəncə verməkdən böyük həzz alır!

Vyanada gimnaziyaya gedəndən iki gün sonra xuliqanlara qoşulub yəhudi uşaqları əzişdirməyə başladı. Odilo tezliklə anladı ki, adamlara işgəncə vermək heyvanları incitməkdən qat-qat maraqlıdır. Nasizm tərəfdarlarının qeyri-leqal dəstəsinə də bu məqsədlə qoşuldu. Partiyanın sadistlərə geniş qucaq açması onu ürəkdən sevindirirdi. Bu işdə elə canfəşanlıq göstərirdi ki, tezliklə karyera pillələrində yüksəlməyə başladı. Gənc Odilonun ambisiyaları böyük idi, nasist partiyasının qurucuları ilə yaxın münasibət qurmağa müvəffəq olmuşdu.

General bəzən özünü İtaliyanın alman protektoratının rəhbəri vəzifəsində görürdü. Bu vəzifəni isə iyirmi il idi ki, Mussolini tuturdu...

## LI

Mixaylonun korpusun kəşfiyyat mərkəzinə getməkdə məqsədi təxribat qrupu ilə Tsarın rəhbərlik etdiyi istehkam-təxribat taqımının birləşdirilməsi məsələsini razılaşdırmaq idi. Mixaylo təklif etdi ki, birləşmiş qrup ilk əməliyyatı düyü zavodunda keçirsin. Sovet hərbi missiyasının rəhbəri Rıbaçenkonun da qərargahda olduğundan xəbər tutdu. Qərargah Çepovanda yerləşirdi, ora getmək üçün Şempas və Vitovlyedən keçmək lazım idi. Yolda Sahilyanı ərazinin cənub hissəsində fəaliyyət göstərən partizan dəstəsinin istehkam-təxribat qrupu da onlara qoşuldu.

"Mixaylonun mələkləri" Vitovlyedəki böyük anbarda bayram təşkil etmişdi. Ətraf kəndlərdə yaşayan partizan gənclər, müqavimət hərəkatının fəalları gecəyə dəvət olunmuşdu. Səhərə qədər əyləndilər, çalıb-oxudular. Mixaylonun böyük hörmət bəslədiyi, silahdaşı sayılan Zinka da burada idi. Bir neçə saat əvvəl Zinkanın evində nahar edəndə xəlvətcə yataq otağına keçib qızıl külçəsindən birini yastığın altına qoymuşdu. Amma nə onda, nə də şənlikdə Zinkaya bu barədə heç nə demədi.

Mixaylonun ağlına gəlməzdi ki, almanlar kəndi gizlincə mühasirəyə alıb pusqu qursun. Hətta köpəklərin hürməsindən də şübhələnmədi. Vitovlyeyə indiyə qədər alman əsgərinin ayağı dəyməmişdi, sakinlər partizanların tərəfində idi, satqınlıqdan söhbət gedə bilməzdi. Bayram Mixaylonun çox xoşuna gəlsə də, yorğun görünürdü – iki gecə idi ki, gözünü yummamışdı. Bununla belə, döyüş yoldaşlarının əhatəsində, xüsusən də Zinkanın yanında özünü xoşbəxt sayırdı. Nəhayət, səhərə yaxın elə oturduğu yerdə mürgülədi. Köpək Rikinin mırıltısı onu yuxudan oyatdı. Şənlik başa çatmış, partizanlar anbarın küncünə çəkilib yatmışdı. Mixela adlı partizan qızı növbətçi təyin etmişdilər. O, qəhvə dəmləyib səhər yeməyi hazırlasa da, yatmış partizanları oyatmağa cürət etmirdi. Bu iş Mixaylonun öhdəsinə düşdü. Komandir ucadan "Qalx!" əmri verən kimi partizanlar bir nəfər kimi yerdən qalxdı. Təzə salat və qayğanağın ətri anbarı bürümüşdü. Əslində, heç biri ac deyildi, axşam doyunca yeyib-içmişdilər. Amma səhər yeməyindən kimsə imtina etmədi. Komandir Tsar iki fincan qəhvə içsə də, özünə gələ bilmirdi. Axşam sərxoş idi, təkbaşına bir-iki şüşə şampan içmiş, bütün gecəni qızlarla rəqs etmişdi. Başı elə qarışmışdı ki, gecəyarı postda dayanmış gözətçiləri dəyişməyi unutmuşdu. Onlar da nəzarətin zəifliyindən istifadə edib postda yatmışdı. Bu səbəbdən nə Tsar, nə də gözətçilər gecənin qaranlığında meşə tərəfdən oğrun-oğrun yaxınlaşıb kəndi mühasirəyə alan faşistləri görməmişdi.

## LII

Mayor fon Nimets qəhvədən qurtum-qurtum içirdi. Qəhvə qaynar idi, fincandan buğ qalxırdı. Xəfiyyə Virtsbuxtel mayorla üzbəüz əyləşmişdi. Bu adamlar artıq bir-birinə isinişib dostlaşmışdı. Xəfiyyənin iti zehni mayorun xoşuna gəlirdi, çünki Virtsbuxtel ən qəliz cinayət işlərini məharətlə açırdı. Xəfiyyə də rəisindən razı idi. Düşünürdü ki, mayor səfehin biridir, beləsini günün günorta çağı çıraqla da axtarsan, tapa bilməzsən. Şempasın traktirinə səhər yeməyinə getmişdilər, omlet yeyib qəhvə içir, siqaret çəkib pıçıltı ilə söhbət edirdilər.

– Hörmətli kapitan, indi o quşcuğaz əlimizdən qurtula bilməz. Qəti əmin olmalıyıq ki, Mixaylonun quldur dəstəsi kənddə gizlənib. Yalnız bundan sonra hücuma keçmək lazımdır. Onların ağlına gəlmir ki, partizan düşərgəsinin yerini bilirik!

– Cənab mayor, hər şeyin məntiqi sonluqla bitməsi məni ürəkdən sevindirir. Ancaq bir məsələdən nigaranam: görəsən, gestaponun qızılı, daş-qaşı hələ onlardadır? Bax buna zəmanət verə bilmirəm! Quldurların yerinə olsaydım, xəzinəni meşəyə aparıb basdırardım. Vaxt kifayət qədər idi, yəqin, mən deyən kimi eləyiblər. Bankın qarətindən üç gün keçib. İnanmağım gəlmir, Rençedə necə də əlimizdən çıxdılar?! Yaxşı ki, onları güdməyimizdən duyuq düşmədilər. Əgər Rençedə tutsaydıq, məsələ çoxdan bitmişdi.

– Bilirsiniz, cənab kapitan, qızıl mənim üçün əhəmiyyətli deyil, əsas məsələ Mixaylonun quldur dəstəsini ələ keçirib məhv etməkdir. Bəlkə, ondan sonra gözümə yuxu getdi. İnanmazsınız, bu quldurlar hər gecə yuxuma girir, dik atılıram, sanki yataq otağıma soxulub məni boğmaq istəyirlər! – mayor təəssüflə başını buladı. – Yuxum ərşə çəkilib. Payızda Triestə gələndə düşünürdüm ki, elə bil məzuniyyətə çıxıb cənnətə düşmüşəm. Əmin idim ki, almanların minillik arzusu həyata keçib: Adriatik dənizi sahillərini işğal etmək, Aralıq dənizi ətrafındakı torpaqları imperiyaya qatmaq! Etiraf edim ki, burda yaşamaq çox xoşdur. Yadınızdadır, Triestdə Yeni il bayramını necə böyük təntənə ilə qeyd etdik? Budur, yaz gəlib, Triestdə hər şey alt-üst olub! Alman əsgər və zabitlərinin ayağı altındakı torpaq od tutub yanır! Vəziyyət Şərq cəbhəsində olduğundan da ağırdır. Hamısı da bu lənətə gəlmiş terrorçu Mehdi-Mixaylonun ucbatından! Mərc gələrəm ki, qəzet redaksiyasını və mətbəəni də o partladıb. Görürsünüz də, iki həftədir qəzet çıxmır.

Şübhəsiz, indi qızıl o qədər də önəmli deyil. Bu əfi ilanı tutub boğmaq lazımdır. Rençedə baş verənlərlə bağlı dediklərinizlə də tam razıyam. O vaxt aradan çıxdılar, amma indi əməliyyata şəxsən özüm

rəhbərlik edirəm. Əminəm ki, quldurlar yaxalanacaq. Mehdinin başına qoyulan mükafatı yerli italyan polisi ilə bölə bilərik, axı müttəfiqlə ədalətli davranmalıyıq, düz demirəm, əziz həmkar?

– Cənab mayor, sizə böyük hörmətim var! Ancaq xəbərdarlıq etmək istəyirəm ki, doktor Quelli və donosçularının məlumatı təsdiqlənsə də, çayı tullanmamış "hop" demək olmaz! Casus Selişkar olmasaydı, partizan düşərgələrinin yerini öyrənə bilməzdik. Mayor Razoumek bu işdə mühüm rol oynadı. Onun casusu bilavasitə partizan qərargahında fəaliyyət göstərir. Mehdinin partizan ləqəbini də ondan öyrənmişik. Selişkar üçün quldurbaşını tapmaq o qədər də çətin olmadı. Mixaylonu Sahilyanı diyarda yaxşı tanıyırlar. Yeri gəlmişkən, Selişkar xüsusi canfəşanlıq göstərir, deportasiya edilməli yəhudilərin siyahısını da o hazırlamışdı, ümumiyyətlə, çox lazımlı adamdır! Milliyyətcə slovendir, bu səbəbdən, həmvətənləri arasında şübhə doğurmadan casusluq edir. Məncə, hər şeyi doktor Quellinin öhdəsinə buraxmaq lazımdır. Qoy quldurun başı üçün təyin olunmuş mükafatın onlara çatacaq hissəsini istədiyi kimi bölüşdürsün.

– İkimizə də yaxşı məlumdur ki, doktor Kollotti və doktor Quelli yəhudilərin var-yoxunu ələ keçirəndən sonra böyük sərvət sahibi olub. Amma bunu qəbahət saymıram, çünki süquta uğramış dövlətin məmuru olmaq heç də asan deyil, düz demirəm, kapitan? Sizi də mükafata təqdim edəcəyəm, axı bu əməliyyatda həlledici rol oynayıb təhqiqata rəhbərlik etmisiniz. Sizə hökmən mükafat düşür! Bankdan oğurlanmış xəzinənin, heç olmasa, bir hissəsini geri qaytara bilsək, əla olar. Berlindəkilər bizdən də çox dilxordur. Sizə qeyri-rəsmi bir şey də demək istəyirəm, ancaq aramızda qalsın, hətta məni gülmək tutub: il boyu qəpik-qəpik yığdığımız xəzinə bir gecədə qeyb olub! Bu xəzinəni toplamaq üçün nə qədər sənəd hazırlamışıq, əziyyətə qatlaşıb tər tökmüşük, qızılları daşıyıb seyfə yığmışıq, indi isə yağlı tikəni quldur yeyir!

– Cənab mayor, bir şeyi nəzərə alın ki, quldurlar xəzinənin hamısını apara bilməyib, yəqin, adamları az olub, ya da gücləri çatmayıb. Çünki seyfdə xeyli zinət əşyası, daş-qaş qalmışdı. Xoşbəxtlikdən, bankın direktoru əl-qolu bağlanmış gözətçini görəndən sonra seyfə girməyib. Yadınızdadırsa, bir ay əvvəl təxribatçılar bankı soyub bütün nağd pulu oğurlamışdı. Bu dəfə istehkamçılarımız quldurların quraşdırdığı minanı zərərsizləşdirməyi bacarıb, yoxsa seyfdə qalan xəzinə də göyə sovrulacaqdı. Mina sübut edir ki, qarətə görə məsuliyyəti məhz Mixaylo daşıyır, bu, onun dəst-xətidir.

– Bəs qızıl külçələr hardadır?

– Cənab mayor, təcrübəmdən bilirəm ki, qızıl öz sahibinə həmişə bədbəxtlik gətirir. Başa düşmürəm, niyə hamı qızıla can atır? Niyə insanlar bu sarı metala görə bir-birinin boğazını gəmirməyə hazırdır?

– Bu, dövlətin ali maraqlarına daxildir, kapitan! Bu barədə düşünmək, hətta danışmaq belə məsləhət deyil. Biz yalnız əmri yerinə yetirməliyik. İnsan isə belə yaranıb – o, həmişə qızıl hərisi olub, hətta ölüm təhlükəsi ilə üzləşsə də, niyyətindən əl çəkməyib! Əziz dostum, qızıl gözəl qadın kimidir – görəndə ehtirasını cilovlaya bilmirsən!

– Sizinlə razıyam, cənab mayor. Mən də bu qənaətə gəlmişəm və ona görə də subay qalmağı üstün tuturam.

– Eh, dostum, subaylıq sultanlıqdır. Ancaq hesab edirəm ki, zabit mütləq evlənməli, ev-eşik sahibi olmalıdır. Yalnız bundan sonra hər şəhərdə özünə məşuqə axtara bilərsən. Məşuqəsi olmayan kişi səhrada bitən tənha quru kola bənzəyir.

– Bu işdə müsəlmanlara həsəd aparmaq olar. Onsuz da, səhrada yaşayırlar, amma cəmi bir arvad alsaydılar, səhra küləyi bu qurumuş kolu kökündən qoparıb aparardı. Ona görə də imkan daxilində, bir neçə qadınla evlənib şad-xürrəm həyat sürürlər.

– Deyəsən, bu gün torumuza düşəcək şikar da müsəlmandır, hə?

– Cənab mayor, icazənizlə bildirim: Azərbaycanın bütün əhalisi, əsasən müsəlmanlardan ibarətdir. Amma bu ölkədə oda sitayiş, yəni Zərdüşt dövründə yaranmış adətlər də qalıb.

– Deməli, cənab Mehdi-Mixaylonu minaatanların alovuna qərq edə bilərik! Amma casus Selişkar hələ xəbər verməyib: sərçə tələnin ağzına qonub, ya yox? Deyilənə görə, bu terrorçu əsl Kazanovadır, müqavimət hərəkatının gənclər təşkilatındakı qızlarla oturub-durur. Qızları italyan polisindən olan dostlarımız – doktor Quelli və doktor Kollotti yüksək qiymətləndirir. Bu iki polis rəisinin gözəllik vurğunu olduğundan, yəqin, xəbəriniz var.

– Cənab mayor, dostumuz olsa da, onların doktor adını daşımağa haqqı çatmır. Bu adamları "veterinar" adlandırmaq düzgün olardı. İstintaq zamanı bu iki italyanın əlindən keçmiş neçə-neçə zavallını dindirmişəm, onların işgəncə metodlarından adamın ürəyi bulanır.

– Yerli polisin işi qan tökməkdən ibarətdir, buna alışmaq lazımdır, kapitan. Hər bir almana məlumdur ki, məqsədə çatmaq üçün bütün üsullar yaxşıdır. İndi zaman bizim əleyhimizə işləyir. Hələ ordudakı hərc-mərclikdən danışmıram. Acınacaqlıdır ki, alman əsgəri şücaət göstərmək bacarığını itirib. Sizə mükafat verilməsi barədə qərargaha təqdimat göndərməliyəm. Amma bunun əvəzinə başqa təqdimat göndərib yazsam ki, başınızda Almaniyanın məğlubiyyəti ilə bağlı

cəfəngiyyat dolaşır, vay halınıza! Yaxşısı budur, bizə köpək kimi xidmət edən o iki doktoru yanıma gətirin. Bilirəm, bayaqdan qapının arxasında boyun büküblər. Qoy hadisələrin gedişatı barədə məlumat versinlər.

Doktor Quelli sevincdən işıq saçırdı, sol əli ilə şəvə bığlarına sığal verib dedi:

– Hörmətli həmkarım mayor fon Nimets, Doktor Kollotti ilə birlikdə yarım il idi tor qururduq. Axır ki, şikarı ovlaya bildik. Doxsan doqquz faiz əminəm ki, Mixaylonun təxribatçı qrupu böyük anbarda gizlənir. Gecə kəndin ətrafında mövqe tutduq, ordan sərxoş partizanların səsi gəlirdi. Bizim casus Selişkarın məlumatına görə, təxribatçılar ordadır. Məlumdur ki, bu quldurlar terror əməliyyatları arasındakı fasilə zamanı qızlarla əylənib kef etməyi xoşlayır. Rençedə ötən gecə də ziyafət qurulub. Selişkar partizan qismində onlara yaxınlaşıb və qərargahdan gəldiyini bildirib. Quldurlar ona yemək-içmək veriblər. Selişkar gecə yarısına qədər quldurların yanında olub, ancaq Mixaylonu görməyib. Ona görə də səhər hücumu təxirə saldıq, çünki necə deyərlər, "baş qəhrəman" barədə dəqiq məlumat əldə edə bilməmişdik. Ancaq əlimizin içindədir, hörmətli cənab kapitan, qaça bilməz! Hamısını bircə-bircə dənləmək çətin olmayacaq!

– Hörmətli doktor Quelli, icazənizlə, sizə dərin minnətdarlığımı bildirim. Qərara gəlmişəm ki, Mehdi-Mixaylo ələ keçəndən sonra başına qoyulmuş mükafatı alıb sizinlə bölək. Selişkarın pulunu isə özünüz verərsiniz.

– Hörmətli cənab mayor, hesab edirəm ki, təxribatçı Mixaylonun həbsi, ya da məhvi üçün mükafatın müəyyən qismi bizə düşür. Bu məsələdə sizinlə tam razıyam. Üstəlik, Selişkar da payına düşəni almalıdır. Çünki həyatını dəfələrlə təhlükəyə atıb, kəndbəkənd gəzərək o quldurun izinə düşüb, – doktor Quelli yaltaqcasına cavab verdi. Doktor Kollotti əlavə etdi:

– Cənab mayor, Selişkar düz beş ay yollardan, kəndlərdən çəkilməyib, köpək kimi quldurların izini axtarıb, terrorçuların qaldığı düşərgələrin yerini, Mehdinin partizan ləqəbini öyrənib. Qoritsada yaşayan çuğul ona Mehdi-Mixaylonun gizləndiyi yeri xəbər verib. Bu məlumat Selişkarın dediyi ilə üst-üstə düşür.

Quldurların həbsi ilə bağlı əməliyyatda bizim döyüşçülərin də iştirak etməsinə icazə verdiyiniz üçün minnətdarıq. Şübhəm yoxdur ki, igidlərim işin öhdəsindən təkbaşına da gələ bilərdi. Araşdırmalara görə, anbarda quldurların sayı çox deyil, yüngül atıcı silahlarla təchiz olunublar. Gecə əyləndikləri qızlar artıq dağılışıb. Quldurlar səhərə qədər yeyib-içib, sərxoşluq ediblər. Ona görə də ciddi müqavimət

göstərməyə halları olmayacaq. Anbarın qarşısında gözətçilər gözə dəymədi, düşündük ki, quldurlar oranı tərk edib. Amma partizanların oxuduğu nəğmələri eşidəndə ürəyimiz sakitləşdi. Əminəm ki, sərçə balalarının hamısı yuvadadır. Amma ola bilər ki, Rençedəki kimi, Mixaylo yenə aradan çıxıb. Bəlkə də, gecəni yerli gözəlçələrdən birinin yanında keçirib. Ona görə də Selişkarın qayıtmasını gözləməliyik. Quldurları yaxşı tanıyır, durbinlə baxıb kimin harda olduğunu deyə bilər. Şübhəsiz, əsas hədəf Mixaylodur. Cənab mayor, məlumata əsasən, Selişkar bir saata gələcək. Yalnız bundan sonra terrorçuları məhv etmək üçün əməliyyata başlaya bilərik.

– Hə, əziz Kollotti, bu əclaf Mixaylonu əldən buraxmaq olmaz. Siçan-pişik oyununa son qoymaq lazımdır. Məncə, adamlarınız Mehdinin aradan çıxmasına imkan verməyəcək. Geriyə yol yoxdur, bu, ölümdən betər olar! – mayor nəzakətlə cavab verdi. Hiss edirdi ki, hər iki doktor pul mükafatına görə canlarını verməyə hazırdır.

Mükafatın yarısından asanlıqla imtina etmələri bu adamların böyük var-dövlət sahibi olduqlarını göstərirdi. Amma pula həris italyanların iştahası böyük idi. Bu adamlar mayora öküzü diri-diri udmağa hazırlaşan nəhəng timsahı xatırladırdı. Düşündü ki, hələlik onlara toxunmaq olmaz, qoy işlərini görüb sərvətlərini artırsınlar, sonra baxarıq! Uzaqbaşı, korrupsiyada ittiham edib həbsxanaya atarıq. Bu fikirdən fon Nemetsin kefi kökəldi.

Doktorlar isə mayorun bu təbəssümünü nəzakət əlaməti kimi qəbul etdi. Mayordan ayrılanda doktor Quelli həmkarını sakitləşdirməyə çalışdı:

– Heç nədənsə, mükafatın yarısı yaxşıdır! Amma ola bilsin ki, Selişkara mükafat almaq qismət olmadı. Həyatda hər şey ola bilər, düz demirəm, əziz dost? – Quelli həmkarına baxıb mənalı-mənalı göz vurdu.

## LIII

Döyüşçülər səhər yeməyindən sonra Mixaylonun əmri ilə silahlarını təmizləməyə başladı. Üç gün idi yeyib-içməyə başları elə qarışmışdı ki, silaha qulluq yaddan çıxmışdı. Tsar nəsə xatırlayıb ucadan dedi:

– Yaddaşım korlanıb! Bu gecə gözətçiləri dəyişməyi unutmuşam!

Döyüşçülərdən birini dərhal posta göndərdilər. O, on saatdan çox postda dayanmış gözətçini əvəz etməli idi. Döyüşçü gələndə gözətçi şam ağacının altında xorultu ilə yatmışdı. Onu oyadıb anbara göndərdilər, söz verdilər ki, postda yatdığı üçün cəza almayacaq. Başqa vaxt olsaydı, buna görə partizanı güllələnmə gözləyirdi. Postu təhvil alan gözətçi

meşəni diqqətlə nəzərdən keçirsə də, şübhəli heç nə görmədi. Faşistlər isə məhz orada – postla kənd arasındakı meşə zolağında gizlənmişdi. Mehdi anbarın ətrafındakı ağacların budağına qonmuş qarğaların qarıltısını eşidib düşündü: "Yaxşı ki, meşədən bülbüllərin xoş avazı da gəlir, yoxsa adam qarğaların səsindən bezərdi..."

Mixela düşərgə üzrə növbətçi idi. O, Mixaylonun dodaq qarmonikasında çalıb-oxuduğunu, çılğın rəqs etdiyini eşitsə də, heç vaxt şahidi olmamışdı. Səhər yeməyindən sonra süfrəni yığışdırıb əfsanəvi partizandan dodaq qarmonikasında bir şey çalıb-oxumağı xahiş etdi. Mixaylonun kefi kök idi, bir gün əvvəl axırıncı qızıl külçəni və qalan pulların hamısını Zinkaya verib bu iyrənc xəzinədən canını qurtarmışdı. Düşündü ki, indi adi adamlar kimi yoxsuldur, nə qızılı var, nə də pulu.

"Mehdi, nə vaxt adam olub adamlara qoşulacaqsan, hə? Camaat qızıla, pula görə canını qurban verməyə hazırdır, sən isə bu xəzinədən xilas olmaq üçün dəridən-qabıqdan çıxırsan!"

Mixaylo özünə yalnız bir ovuc üzük-sırğa saxlamışdı. Onları da partizan qızlara bağışlamağı düşünürdü: "İndi var-dövlətim yoxdur, əvəzində, məşhur adamam! Bu bir ovuc daş-qaş sərvət sayıla bilməz. Hər sözə inanan deyiləm, amma falıma baxıb var-dövlət içində üzüb öləcəyimi iki qadından eşitmişəm. İkisi də eyni sözü deyib. Qızıldan qurtuldum, sanki çiynimdən ağır yük götürüldü".

– Belə gözəlin xahişini yerə salmaq insafdan deyil. Sizə məşhur rus xalq mahnısını hədiyyə etmək istəyirəm, – ucadan dedi və dodaq qarmonikasında çalıb-oxumağa, arada da rəqs etməyə başladı. Onun ifası hamını heyran qoymuşdu. Düşündü ki, heyif, Miryam burda yoxdur, repertuarımdan ən gözəl nəğməni eşidib həzz alardı!

Avtomat atəşi ifanı yarımçıq qoydu. Ardınca tüfəngdən atılan güllə döyüşçülərdən birini yerə sərdi. Mehdinin beyni ildırım sürətiylə işləməyə başladı. Başa düşdü ki, dəstə mühasirəyə düşüb və indi bir çıxış yolu var: düşmən onları üzük qaşı kimi dövrəyə alana qədər mühasirədən çıxmaq lazımdır!

Dodaq qarmonikasını cibinə soxub anbarın küncünə atıldı. Dəstənin bütün silahları burada idi. Anbardakılar donub qalmışdı, almanların qəfil hücumu kimsənin ağlına gəlmirdi. Mixaylo avtomatın qundağını köksünə sıxıb, silahı hazır vəziyyətə gətirdi. Tsar pulemyotu götürdü, pul dolu bel çantasını isə Mixaylonun qucağına atdı:

– Sən bunu götür, o biri çanta məndə qalsın!

Qərargaha aparmaq üçün pulla dolu iki bel çantası hazırlamışdılar. Mixaylo çantanı belinə taxıb, Tsara dedi:

– Arxa qapıdan çıxmağa hazır olun, mən sizi qoruyaram, özüm sonra gələrəm!

Tsar döyüşçüləri arxa qapıya göndərdi, sonra Mixaylo ilə anbarın hər pəncərəsindən həyətə tüstü qumbarası atdılar. Bu, döyüşçülərə mühasirədən itkisiz çıxıb meşəyə qaçmağa imkan verdi. Hamının arxa qapıdan çıxdığına tam əmin olandan sonra Mixaylo düşmənə güllə yağdırdı. Tüstü çəkiləndə məlum oldu ki, atəş altına düşməmək üçün almanlar pərakəndə şəkildə gizlənib anbarı güdür. Atəşə baxmayaraq, birinci SS bölüyü cənub tərəfdən anbara yaxınlaşırdı. Mixaylo onların hamısını güllə ilə vurub yerə sərdi.

Tsar anbara iki tərəfdən yaxınlaşmağa çalışan almanlara güllə yağdırıb arxa qapıdan çıxdı və yaxınlıqdakı kolluqda gizləndi. Mixaylo dostunun anbardan uzaqlaşmasına şərait yaradıb düşmənin diqqətini yayındırdı. Tsarın gizləndiyinə əmin olandan sonra Mixaylo da anbarı tərk etməyə hazırlaşdı. Ancaq bilmirdi ki, kolluqda gizlənmiş dörd alman əsgəri Tsarla əlbəyaxa olub.

Anbarın günbatana baxan pəncərəsinin şüşələri çilik-çilik olmuşdu. Mehdi başını qaldırıb çölə baxdı, bir neçə faşist əsgəri anbarın qarşısındakı çəmənliklə oğrun-oğrun yaxınlaşırdı. Belindən əl qumbarasını çıxarıb atdı. Güclü partlayış faşistləri yerə sərdi. Amma arxadan gələn almanlar bir az gözləyib yerdən qalxdı. Mixaylo qısa fasilə ilə daha iki qumbara atdı. Anbardan çıxmağa hazırlaşanda pulləkənin başında Dreyçeki gördü. Gənc partizan heç nə olmamış kimi sakitcə oturmuşdu, gözlərini qırpmırdı, sanki kinoya baxırdı. Mixaylo başa düşdü ki, o, şok vəziyyətindədir. Belə hallarla dəfələrlə üzləşmişdi. Şərq cəbhəsində döyüşün qızğın çağında şoka düşüb heç nəyin fərqinə varmayan, sanki xəyala dalmış yarıyuxulu təsiri bağışlayan əsgərlərə çox rast gəlmişdi. Dərhal Dreyçekin əlindən tutub, onu taxta pilləkənlə aşağı sürüdü. Düşmən anbarın arxa qapısını güclü atəşə tutmuşdu. Mixaylo anladı ki, bu vəziyyətdə mühasirədən sağ çıxa bilməz. Pillələrlə yuxarı sıçradı. Bir neçə addım atmışdı ki, hər iki partizan SS əsgərinin gülləsinə tuş gəldi. Alman mayoru anbara daxil olacaq ilk əsgər üçün pul mükafatı təyin etmişdi, faşistlər də bu səbəbdən canfəşanlıq edirdi.

SS əsgərinin gülləsindən Dreyçek həlak oldu, Mixaylonu isə belindəki pul çantası qorudu, güllə əsginasların arasında ilişib qalmışdı. Güllənin zərbəsindən Mixaylo üzü üstə yerə yıxıldı. Cəld ayağa qalxdı, güllənin ona dəymədiyinə əmin idi. Xoşbəxtlikdən, tapança-avtomat yerə düşməmişdi. Bir sıçrayışla Dreyçekin cəsədinin üstündən tullanıb yenidən anbara girdi və yaxınlaşmaqda olan faşistlərə üç əl qumbarası

atdı. Döşəmədən pulemyotu və güllə darağını götürdü, qarışıqlıqda partizanlardan kimsə silahını unudub qaçmışdı. Mixaylo patrona qənaət etmədən düşmənə güllə yağdırmağa başladı. Patronu qurtarandan sonra avtomatdan atəş aça-aça anbarın əsas qapısından çıxdı. Xeyli faşist qırmışdı, düşmən isə hər tərəfdən onu üzük qaşı kimi mühasirəyə almağa çalışırdı.

Mixaylo pələngə dönmüş, bu goreşənlər sürüsünü görməkdən bezmişdi, düşündü ki, indi qisas almağın əsl vaxtıdır. Lakin hadisələr elə sürətlə cərəyan edirdi ki, Mixaylo hamısına qarşılıq verə bilmirdi. Şəraiti qiymətləndirməyə macal yox idi, çünki düşmən anbarı dövrəyə almışdı. Faşistləri qırmaqla iş bitmirdi, ölənlərin yerinə başqaları peyda olur, halqa getdikcə daralırdı.

Darvazadan çıxanda, az qaldı müvazinətini itirsin. Almanlar darvazanın ağzını güclü atəşə tutmuşdu – təxminən əllidən çox avtomatdan, elə bir o qədər də pulemyotdan atəş açırdılar. Mixaylo güllə yağışının altında yerə uzanıb ziqzaqvarı sürünməyə başladı və tezliklə meşənin kənarına çatdı. Amma düşmən onu təqib edirdi. Faşistlərə iki əl qumbarası atdı, özü isə sınmış ağacın gövdəsi arxasında gizləndi. Partlayış anında gizləndiyi yerdən çıxıb sürətlə meşənin içinə qaçdı. Bura yaxşı bələd idi, indi düşmənin ikinci mühasirə halqasını yarmaq qalırdı. Təcrübədən bilirdi ki, ikinci halqa birinciyə nisbətən zəif olur.

"Artıq ikinci dəfədir ki, çantadakı pullar həyatımı xilas edir!" – Mixaylo düşündü.

Mühasirədən sağ çıxacağına ümidi artmışdı. Yoldaşlarının taleyindən xəbərsiz idi. Mixaylo üçün ən uyğun variant Ninanın evinə çatıb sobanın arxasındakı sığınacaqda gizlənmək idi. Ancaq qızı təhlükə altında qoymaq istəmədi. Ona görə günbatana tərəf yollandı, alman patrulları və postlarının yanından sakitcə ötdü. Görünür, patrullar qaranlıq meşədə qaçaq partizan axtarmağa böyük həvəs göstərmirdi, ona görə də tonqal qalayıb qızınırdılar.

* * *

Mixaylonun yarım saat əvvəl yanından ötdüyü postda indi mayor fon Nimets və kapitan Virtsbuxtelin gəlişi səbəbindən aləm bir-birinə dəymişdi. Qaşqabaqlı mayor postun komandirinə acıqlandı:

– Feldfebel Şmidt, bu nə deməkdir? Havalar hələ soyumayıb, siz isə özünüzü tonqalın böyrünə vermisiniz! Deyəsən, Şərq cəbhəsi üçün darıxmısınız, hə?

– Cənab mayor, icazənizlə bildirim ki, zabit Bryuk dovşan ovlayıb, biz də nahar etmək istəyirdik.

Mayor qəhqəhə çəkdi:

– Görürsünüz də, Virtsbuxtel, bizimkilər, axır ki, dovşanı tutub! Bu axmaqlara gülməyib neyləyəsən?!

– Cənab mayor, əgər söhbət dovşandan düşübsə, mühasirəyə alınmış anbarı tərk edən sonuncu quldur da dovşan kimi aradan çıxdı. Ziqzaqvarı hərəkətlərlə bir ağacın arxasından qaçıb digərində gizlənirdi, üstəlik, qumbara ilə beş əsgərimizi öldürüb, üçünü də yaraladı, sonra qeyb oldu. Ancaq öz gözlərimlə gördüm ki, əsgərlərdən biri avtomatla onu vurdu. Yəni bu quldur belə müqəddəsdir ki, güllə onu götürmür?

– Boş-boş danışmayın, Virtsbuxtel, müqəddəs adam yoxdur, güllə hamıya tuş gəlir, hətta bizim Fürerə də! Sadəcə, bu quldurun əvvəldən bəxti gətirib. Bunu başqa cür yozmaq olmaz!

– Düz buyurursunuz, cənab mayor! Onun bəxti gətirir, yaxşı təlim görüb, sağ qalmağın yollarını əla bilir! Ancaq ov hələ bitməyib! Doktor Quelli söz verib ki, Qoritsada fəaliyyət göstərən casus şəbəkəsi vasitəsilə bəzi mətləbləri öyrənsin. Məsələn, bu Mixaylo harada sığınacaq tapa bilər, kimlərlə oturub-durur? Əvvəl-axır ələ keçəcək!

– Anbardan qaçan quldurlardan birini əsir götürmüşdük, o da köstəbək kimi aradan çıxdı. Başından yaralanmışdı, əsgərlər elə yerindəcə canını almaq istəyirdi. Təsəvvür edin, başından yara almış quldur ayağa qalxır, beş nəfəri bir-birinə qatıb aradan çıxır. Kolluqda köstəbək axtarmaq isə samanlıqda iynə axtarmaqdan betərdir. Düzü, təxribatçılara mat qalmışam, bacarıqlı uşaqlardır!

– Ov başa çatmayıb, təklif edirəm, kazarmaya qayıdıb səhərə qədər gözləyək. Əminəm, səhər xeyli qiymətli məlumat alacağıq. Bir də, general Qloboçnikdən xahiş edin ki, bizim axtarış dəstəsini izaxtaran köpəklərlə təmin etsin!

## LIV

*Yuxuda görmüşəm nazlı sonamı,*
*Mən heç unutmaram doğma anamı!*
*İtirdim Vətəni, candan yananı,*
*Qürbətdə yadıma salıb, ağlaram.*

*“Mixaylo”yam dedim sözü düzünə,*
*Süngümü batırram düşmən gözünə!*
*Dörd ildir həsrətəm Vətən üzünə –*
*Qəmlər yuvasına qonub, ağlaram.*

*Düşmənin başını bürümüş duman,*
*Vətəndən əlimi üzərəm bir an!*
*Gələcək bizimdir, yaxın bir zaman –*
*Sevincdən, fərəhdən, gülüb-ağlaram.*
***M.Hüseynzadə***

Yamacla üzüyuxarı qaçan Mixaylo təngnəfəs olmuşdu, ona elə gəlirdi ki, indicə ürəyi ağzından çıxacaq. Cığırdan çıxıb kolların arxasında, nəm torpağın üstündə uzandı – dincəlmək lazım idi. Mühasirədən salamat çıxmışdı, bədənində güllə yarası yox idi. Təkcə şalvarının sol dizi cırılmışdı. Düşündü ki, qorxusu yoxdur, onsuz da, paltarını dəyişməlidir. Çünki döyüş zamanı düşmən əsgəri onu alman formasında görmüşdü. Qərara gəldi ki, əvvəlcə meşədəki gizli saxlanc yerinə getməlidir. Motosikleti və paltarları orada gizlətmişdi. Sabah Solkandakı silah anbarına mina qoymalı idi, ona görə də Qoritsadan bir neçə kilometr şərqdə yerləşən Bilye kəndinə çatmağa tələsirdi. Yadına düşəndə ki, faşistlərə necə bir sürpriz hazırlayıb, üzü güldü. Solkan əməliyyatını Zlatkonun tapşırığı ilə Tsarla birlikdə hazırlamışdı. Tsarın başına gələnlərdən xəbərsiz idi, deməli, əməliyyatı təkbaşına həyata keçirib ertəsi gün Vitovlyeyə qayıtmalıdır. O vaxta qədər, yəqin ki, faşistlər kəndi tərk edəcək, partizanlar da, əgər sağ qalan varsa, doğma yurda – düşərgəyə qayıdacaq.

“Burada nəsə xain barmağı var!” – Mixaylo dar cığırla irəlilədikcə düşünürdü. Yolu düz seçmişdi, bu yerlərə yaxşı bələd idi. Partizanlığa başlayanda təxribatçı yoldaşları başa salmışdı ki, kollaborasionistlər[1] və xainlər yaşayan kəndlərdən uzaq durmaq lazımdır. Yamacdakı sıx kolların arasındakı gizli saxlanc yerinə çatanda hava qaralmışdı. Plaşına bürünüb dincəlmək üçün kolluqda uzandı və yuxuladı. Bilye kəndinə axşam çatmağı planlaşdırsa da, dörd gecə idi gözlərini yummamışdı, indi yuxu ona hava-su kimi lazım idi.

Ertəsi gün səhər yuxudan oyananda özünü gümrah hiss etdi. Amma bərk acmışdı. Motosikleti dağ yolları ilə sürüb, təpənin başına gəldi. Buradan Bilye kəndi ovucun içi kimi görünürdü. Motosikletlə kəndə girmək qorxulu idi, mühərrikin səsi adamları duyuq sala bilərdi. Kəndə piyada yollandı. Cığır onu pas basmış dəmir darvazanın qarşısına gətirdi. Mixaylo qıfılı açıb darvazanı araladı. Günəş havanı isitmişdi,

---

[1]**Kollaborasionist** (fransızca *collaboration* “işbirliyi”, “əməkdaşlıq” deməkdir) – Bu adamlar öz dövlətinin əleyhinə bilərəkdən təcavüzkarla işbirliyi qurub satqınlıq edirdi.

quşlar cəh-cəh vururdu. Mixaylo ətirli səhər havasını ciyərinə çəkib dərindən nəfəs aldı, sağ qaldığını düşünəndə qəlbini sevinc bürüdü.

Ev sahibləri – Anna və kiçik bacısı Hanna partizan dəstəsinin üzvləri idi, kəşfiyyatçı və rabitəçi funksiyasını yerinə yetirirdilər. Mixaylo cibindəki daş-qaşı masanın üstünə qoyanda hər ikisi təəccübdən donub qaldı.

Bacılar yaraşıqlı villada yaşayırdı. Hələ uşaq ikən yetim qalmışdılar. Valideynləri Qəraib adalarına səyahət zamanı dənizdə batmışdı. Qızların atası Triestdəki tərsanənin səhmdarlarından biri idi, övladlarına da böyük miras qoyub getmişdi.

Bacılar əsl kəşfiyyatçı kimi istənilən məlumatı əldə edib partizanlara ötürür və Mixaylo ilə dostluq edirdilər. İlk dəfə qızların evinə Tsarla gəlmiş və bu igid qızlarla tanışlığa çox sevinmişdi. Məsələ burasındadır ki, Bilye kəndi Qoritsadan bir neçə kilometr aralı idi. Tezliklə Mixaylo buranı kiçik partizan bazasına çevirdi. Hərdən yaxınlıqdakı Şempas kəndində də gecələyirdi, burada onun etibarlı dostları vardı.

Bacılar daş-qaşın haradan əldə olunduğu barədə heç nə soruşmadı. Səhər yeməyindən sonra divar sobasının qarşısında əyləşib xeyli söhbət etdilər. Nahardan əvvəl Mixaylo üzr istəyib dedi ki, bir neçə saatlığa getməlidir, özünü şam yeməyinə mütləq çatdıracaq. Kəndin kənarındakı təpədə gizlətdiyi motosikletə minib, Solkana yollandı. Tezliklə mənzil başına çatdı. Meşə kənarında yerləşən bu obyekt almanların silah-sursat anbarı idi.

* * *

Motosikleti yol kənarında saxlayıb anbarın gözətçisinə yaxınlaşdı, sənədlərini təqdim etdi. Orada yazılmışdı ki, bu şəxs SS təsərrüfat müfəttişliyinin səlahiyyətli nümayəndəsidir və ona Sahilyanı diyarın bütün anbarlarında sursat ehtiyatını yoxlamaq tapşırılıb. Mixaylonun sol əlindəki çantada partlayıcı və detonator vardı. Anbarda silahla yanaşı partlayıcı maddələr də saxlanılırdı. Bilirdi ki, təxribat üçün ona bir partlayıcı da kifayət edər. Detonator anbardakı digər partlayıcıları da işə salacaqdı.

Səkkiz barakı olan sursat anbarı kiçik ərazidə yerləşmişdi. Baraklardan biri partlayan kimi digərləri də zərbənin təsirindən havaya sovrulacaqdı. Anbarı yoxlamağa gəlmiş yüksək rütbəli məmuru hörmətlə içəri dəvət etdilər. Kapral Şnitsler qonağa bir-bir barakları göstərdi. Mixaylo yoxlamanı başdansovdu aparır, heç nəyə irad tutmur, bu da kapralın xoşuna gəlirdi. Əslində, anbarda heç bir qayda pozuntusu yox idi. Səkkiz nömrəli barakda artilleriya mərmiləri saxlanılırdı. Mixaylo minanı burada yerləşdirməyi qərara aldı. O, baraka ötəri göz gəzdirəndən

sonra çantasından bəzi sənədləri çıxarıb masanın üstünə qoydu və kaprala dedi:

– Kapral Şnitsler, çoxdan idi belə nümunəvi anbara rast gəlməmişdim. Görürəm, hər şey qaydasındadır, gəlin yoxlamanı bitirək. Məncə, səkkizinci barakı yoxlamağa ehtiyac yoxdur. Ancaq bir xahişim var, sənədləri doldurana kimi, mümkünsə, bir fincan tünd qəhvə və bir stəkan soyuq su gətirin. Bura çox istidir.

Tərif kapralın ürəyinə yağ kimi yayıldığı üçün sevincək mətbəxə qaçdı. Mixaylo partlayıcını çantadan çıxartdı, detonatorun saat mexanizmini qurub silah yeşiklərinin arasında gizlətdi. Sonra masaya qayıdıb sənədləri doldurmağa başladı. Kapral əla qəhvə dəmləmişdi. Mixaylo qəhvədən bir neçə qurtum içib kapralla sağollaşdı.

Bacılar şam yeməyi hazırlayıb əla süfrə açmışdı. Mixaylo ev sahibələrinin sağlığına badə qaldırdı. Elə bu vaxt uzaqdan dəhşətli partlayış səsi eşidildi. Zərbənin təsirindən pəncərə şüşələri, ev əşyaları titrədi, sanki zəlzələ baş vermişdi. Hər üçü badələri toqquşdurub güldü. Mixaylo partlayışın səsindən anladı ki, planlaşdırdığı kimi, barakların hamısı havaya uçub. Bu, iştahasını daha da artırdı – süfrəyə düzülmüş nemətlərdən doyunca yedi.

Şam yeməyindən sonra şampan içdilər. Anna fortepianoda, Hanna isə əvvəl fleytada, sonra isə gitarada həzin melodiyalar çaldı. Mixaylo onların ifasını çox bəyənib, xeyli tərifədi. Qızlar qonağı evdəki gizli saxlanc yerinə ötürdü. Seyfi xatırladan bu otağın qapısı mərhum ev sahibinin kabinetindəki şkafın arxa divarında yerləşir və xüsusi düyməyə basmaqla açılırdı. Sığınacaq Mixaylonun çox xoşuna gəldi, burada özünü təhlükəsiz hiss edirdi. Gözünü yuman kimi yuxuya getdi.

## LVI

*Nə olar, bir sarı yarpaq olaydım,*
*Sabahın yelləri alaydı məni.*
*Aşıb bəyaz qarlı uca dağları,*
*Vətən torpağına salaydı məni, –*
*Sabahın yelləri alaydı məni…*

*Əzizim ellər ayrısı,*
*Bülbüləm güllər ayrısı,*
*Bir gününə dözmədim yar,*
*Olmuşam illər ayrısı.*

***M.Hüseynzadə***

Bəd xəbər tez yayılır. Noyabrın 6-da rus batalyonunda hamı Mixaylonun döyüşdə həlak olması barədə danışırdı. Xəbəri Vitovlyedə yaşayan iki rabitəçi qız çatdırmışdı. Onlar göz yaşı içində bildirmişdi ki, dünən almanlar kəndə soxulub, axşam saat on birdə isə atışma başlayıb. Faşistlər bağıra-bağıra kəndi bir-birinə qatıb, atışma təxminən üç saat davam edib, sonra səs-səmir kəsilib. Kəndlilər səhərə qədər evdən çıxmağa cəsarət etməyib. Almanlar gedəndə ölənləri və yaralı əsgərləri də özləri ilə aparıblar.

Faşistlər gedəndən sonra qızlardan biri qardaşı ilə fermaya süd sağmağa gedib. Xutorun yaxınlığında qətlə yetirilmiş partizan cəsədinə rast gəliblər. Üz-gözü tanınmaz halda olub, bədəni güllələrdən deşik-deşik imiş. Meyitin yan-yörəsində xeyli giliz varmış. Amma qız da, qardaşı da partizanı tanıyıb: hamının sevimlisi, əfsanəvi Mixaylo imiş! İndi hamı başa düşürdü ki, deməli, Mixaylo bir neçə gün əvvəl anbardakı atışma zamanı həlak olmayıb və Solkan silah anbarında baş vermiş partlayışı da o törədib.

Əslində, hadisə belə olmuşdu: Mixaylo Vitovlyeyə gedəndə yaralı yoldaşı Komeloya rast gəldi. Onlar kəndin kimsəsiz daxmalarından birində gizləndi. Mixaylonun ağlına gəlməzdi ki, faşistlər yenidən kəndə qayıdacaq. Tək olsaydı, sakitcə aradan çıxa bilərdi. Ancaq yaralı dostu darda qoyanlardan deyildi. Almanlar daxmanın həndəvərində peyda olanda Mixaylo onları atəşlə qarşıladı. Qeyri-bərabər, amansız döyüş başlandı. Mixaylo qəfildən bədəninə dəyən bir neçə küt zərbə hiss etdi, ancaq ağrı yox idi. Dostlar düşmənin sayca üstün olduğunu görəndə qərara gəldi ki, hərəsi müxtəlif istiqamətə getsin. Lakin almanların mühasirəsi güclü idi. Daxmadan bir neçə addım uzaqlaşmışdılar ki, atəş onları yerə sərdi. Komelo dərhal həlak oldu, Mixaylo isə özündə güc tapıb sürünə-sürünə daxmanın yaxınlığındakı çəlləyin içinə girdi və huşunu itirdi.

Həyat kitabının son səhifəsi ölüm kitabının başlanğıcıdır. Sağ adam ümidlə yaşayır, ölünün ümid nəyinə lazımdır? İnsan düşünür ki, hər şey arzuladığı kimi olacaq, amma özünü aldatdığından xəbəri yoxdur! Mixaylonun qəlbində ümid yaranmışdı ki, bu dəfə də vəziyyətdən birtəhər çıxacaq. Döyüş yoldaşlarının surəti kino lenti kimi gözləri önündə canlandı. Kadrlar bir-birini əvəz etdikcə ana-atasını gördü. Xəyalı göylərdə uçurdu, varlığını xoşbəxtlik hissi bürümüşdü, sanki cənnətə düşmüşdü. SS əsgərlərinin başı üzərində dövrə vuran qarğaların qarıltısı Mixaylonu xəyaldan ayırdı. Düşmən ətrafı qarış-qarış gəzib onu axtarırdı. Feldfebel Şnitsler quldurları güllə ilə vurmuş və bunu hamı görmüşdü. Bundan əvvəl isə Mixaylo iyirmidən çox SS əsgərini

cəhənnəmə göndərməyə macal tapmış, özü də yaralanıb yol kənarındakı kolluqda gizlənmişdi. Lakin düşmən hər ağacın, kolun dibini axtarırdı. Yerdə qan izindən başqa heç nə gözə dəymirdi. Mixaylonun hələ huşu başında idi. Gücünü toplayıb əlini cibindəki qumbaranın çivinə atdı, düşmənin yaxınlaşmasını gözlədi. Özü ilə bir neçə faşisti də o dünyaya aparmaq istəyirdi. Nəhayət, SS dəstəsi axtarışı dayandırıb kəndi tərk etdi. Komelonun meyiti yolun ortasında qaldı. Mixaylo yenidən huşunu itirdi.

"Köpək sürüsü gələndə yalquzağın işi bitir! – Mixaylo özünə gələndə ağlından keçən ilk fikir bu oldu və acı həqiqəti yalnız indi anladı. Çəlləyin dibinə qısılmışdı, tərpənə bilmir, yaralarından qan axırdı. Ölümdən qorxmurdu, son zamanlar ürəyinə dammışdı ki, tezliklə bu dünyanı tərk edəcək. Peyğəmbərin bir kəlamını hələ uşaqlıqda eşitmişdi: "İnsanlar bu dünyada yatmış, o dünyada isə oyaq olur!" Bu fikir ona toxtaqlıq gətirdi, düşündü ki, nəhayət, oyanacaq! Mərhum dostu, Qızıl Ordunun mayoru Mixaylonun sözləri qulağında səsləndi:

"Həyat bizə hər an ağır yara vurur, ancaq sonuncu ölümcül olur! Ölüm sənin doğma bacındır, ondan qorxmaq lazım deyil!" Mərhum dostu son nəfəsində sanki onu sakitləşdirməyə çalışırdı.

– Fritslər izimi köpəklə axtarsa, işim çətin olacaq! – Mixaylo öz-özünə dedi. Yaraları ölümcül idi, qan kəsilmək bilmirdi. Əl-ayağı keyiyəndə başa düşdü ki, dünya ilə vidalaşmaq vaxtı çatıb. Ölüm onu ağuşuna almazdan əvvəl əsl müsəlman kimi kəlmeyi-şəhadətini söyləməyə macal tapdı:

– Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur! Şəhadət verirəm ki, Məhəmməd Allahın qulu və elçisidir!

## LVIII

Hadisəni araşdırmaq üçün Çepovandan xüsusi qrup gəldi. Vitovlyedə, partizanın faşistlərlə son döyüşünün baş verdiyi yerdə onun qanlı meyiti aşkar olunmuşdu. Yanında pulla dolu çanta vardı. Pullar Çepovandakı partizan dəstəsinin təsərrüfat komissiyasına təhvil verildi. Həmçinin rus batalyonuna Mixaylonun həlak olması barədə məlumat verildi.

Ertəsi gün hava soyuq və küləkli idi. Gülllədən bədəni deşik-deşik olmuş qəhrəmanın meyitini Çepovana gətirdilər. Döyüşçü yoldaşları, kənd sakinləri səhərə qədər onun tabutu yanında keşik çəkdi. Günorta igid partizanı kənd məzarlığında dəfn etdilər. Qradnik briqadasının komandiri Dule vida nitqi söylədi. Rus batalyonunun bütün şəxsi heyəti

qəhrəmanla vidalaşmağa gəlmişdi. IX korpusun və rus batalyonunun əsgərləri Mixaylonun tabutunu qəbiristanlığa qədər çiyinlərində apardı.

Komendant Dulenin həyəcandan səsi titrəyirdi:

– Dərdimiz böyükdür, yoldaşlar! Bu gün qəhrəman dostumuz Mehdi Hüseynzadə ilə vidalaşırıq! Onu partizan Mixaylo kimi tanıyıb dərin hörmət bəsləyirdik. Geniş qəlbi vardı, xalqını ürəkdən sevirdi, onun azadlığı yolunda canından keçdi! Mixaylo qürbətdə döyüşdü və Sovet vətənpərvərliyinin rəmzinə çevrildi. İgid partizan diz çökmədi, ölümü ilə adını əbədiləşdirdi. Şanlı qəhrəmanın əziz xatirəsi Sahilyanı diyarın bütün sakinlərinin qəlbində əbədi yaşayacaq! Mixaylo Adriatik dənizinin sahillərini sözün əsl mənasında fəth etdi! Onun mərdlik və qəhrəmanlıq obrazı heç vaxt unudulmayacaq!

Müharibə onu bizə ərməğan göndərmişdi. İgid partizan təcavüzkara qarşı bizimlə çiyin-çiyinə mübarizə aparırdı. Mixaylo düşmənə ağır zərbə endirməyin və xalqı bəladan qurtarmağın yollarını bizə göstərdi. İgidliyi, şücaəti, qəhrəmanlığı, sadiqliyi, iti düşüncəsi və bir çox dəyərli keyfiyyətləri sayəsində canlı əfsanəyə çevrildi. Dəstəmizin əvəzsiz üzvü idi, hamımızı doğma qardaş kimi sevir, təhlükədən qoruyur, qayğı və səmimiyyət göstərirdi. Ümumi iş naminə həyatını daim riskə atır, hər bir əməliyyatın ciddi planını hazırlayır, ən kiçik detalları belə nəzərdən qaçırmırdı. Bu səbəbdən, həyata keçirdiyi bütün təxribatlar uğurlu alınır, düşmənə sağalmaz yara vururdu. Erkən və faciəli ölüm onu əlimizdən aldı, cismən aramızdan getsə də, ruhən yanımızda olacaq, əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Rus batalyonu döyüşçüləri də onu son mənzilə yola salmağa gəlib. Bu, təqdirəlayiqdir! Şübhə etmirik ki, bu əsgərlər əfsanəvi partizanın döyüş yolunu layiqincə davam etdirəcək. Mixaylonun həyat yolu təkcə onlara yox, bütün Sloveniya xalqı üçün əsl örnək, qəhrəmanlıq və şücaət məktəbidir! Mixaylo slovenlərin xoşbəxtliyi və səadəti uğrunda canından keçdi. Onun ölümü beynəlmiləl qardaşlığın parlaq rəmzidir. Bu qardaşlıq bizi təcavüzkara qarşı sayıq olmağa, bütün qüvvələri birləşdirməyə sövq edir!

Mixaylo heç nəyin və heç kimin qarşısında qorxub geri çəkilmirdi. Onun hərbi əməliyyatlarının miqyası çox genişdir, hamısını sadalamaq mümkün deyil. Xoşsifət, gülərüz oğlan idi. Hərdən zarafatyana deyirdik ki, sən təkbaşına bir batalyonun işini görürsən. Əslində, bu, zarafat yox, gerçəklik idi. Mixaylonun və dostlarının düşmənə endirdiyi ağır zərbələr buna sübutdur. Onun təxribat əməliyyatları olmasaydı, Sahilyanı diyarda özünü ağa kimi aparan təcavüzkar daha da azğınlaşardı. Mixaylonun adı düşməni lərzəyə salırdı. Triestdəki alman zabitlərini

göz açmağa qoymur, onları daim qorxu içində saxlayırdı. Mixaylonun təxribatları sayəsində düşmənin yalnız canlı qüvvəsi və texnikası məhv edilmir, həm də onun döyüş əzminə güclü zərbə endirilirdi. Bu isə psixoloji müharibənin ayrılmaz tərkib hissəsidir və silah götürüb döyüşməkdən heç də az əhəmiyyət kəsb etmir. Müharibə mürəkkəb prosesdir, hər mərhələsi döyüşçülərdən xüsusi təcrübə və bacarıq tələb edir. Mixaylo döyüş sənətinin incəliklərinə dərindən bələd idi və təcrübəsini gənc əsgərlərə həvəslə öyrədirdi.

Mixaylo dörd yoldaşı ilə birlikdə on ay əvvəl partizanlara qoşulmuşdu. Amma sonrakı aylarda bilavasitə onun iştirakı ilə Türküstan diviziyasının yüzlərlə legioneri alman hərbi hissələrindən fərarilik etdi. Payıza qədər əfsanəvi qəhrəman altı yüzdən çox həmvətəninə qaçmaqda köməklik göstərdi və nəticədə, partizan sıraları təcrübəli döyüşçülərlə genişləndi. Sloveniya torpaqlarında şücaətlər göstərən qəhrəman rus batalyonu da onun təklifi ilə yaradıldı.

Əziz dostlar, yolunda həyatından, canından və qanından keçdiyi torpaq Mixaylonu heç vaxt unutmayacaq! Təcrübəli partizan komandirini və ən yaxın dostumu itirdiyim üçün dərin hüznlə kədərlənirəm. Cavan olmasına baxmayaraq, təcrübəli və müdrik adam idi. Düşmənə aman vermir, kazarmaları, silah anbarlarını, körpüləri partladır, faşistlərin mənfur planlarını alt-üst edirdi. Ancaq Mixaylo çox mərhəmətli adam idi, qarışqanı da incitməyə ürəyi gəlmirdi, hamıya yardım əlini uzadırdı. Bununla belə, düşmənə qarşı çox soyuqqanlı və barışmaz mövqe tuturdu. Faşistlərdən törətdikləri cinayətlərə, xalqları və millətləri fəlakətə sürüklədiklərinə görə qisas alırdı. Özünü ölüm mələyi – Əzrayıl adlandırırdı. Amma bizim üçün bu şən və istiqanlı oğlan dostluq, yoldaşlıq, qardaşlıq və sevgi mələyi idi. Qısa müddət ərzində Sahilyanı diyarda hamı onu sevmişdi, dostları, yaxından tanıyanlar Mixaylo ilə fəxr edirdi.

O, mehriban dost, səmimi yoldaş, qısa ömrünü təcavüzkarlarla mübarizəyə həsr etmiş əsl xalq qəhrəmanı idi. Bir ay öncə Mixayloya yüksək partizan mükafatı verilməsi barədə rəhbərliyə təqdimat yazmışdıq. Bu mükafat ona ölümündən sonra verildi.

Qəhrəman partizanlara eşq olsun!

İgid Mixayloya eşq olsun!

Məzarında rahat yat, əziz dost! Mütərəqqi bəşəriyyət əfsanəvi qəhrəmanlığına, insanlara olan sevginə görə sənə daim minnətdar olacaq! Qisasını düşməndən mütləq alacağıq, Mixaylo!

Faşizmə ölüm!

Xalqlara azadlıq!

Komandirin təsirli nitqindən sonra rus batalyonunun əsgərləri havaya on iki dəfə yaylım atəşi açdı. Vida mərasiminə toplaşanlar göz yaşlarını boğa bilmirdi. Mixaylo qısa vaxt ərzində hər bir slovenin qəlbində özünə yer tutmağı bacarmışdı.

*Əgər, həqiqətən də,*
*hamı bir nəfər üçün*
*və bir nəfər hamı üçün olsaydı,*
*onda bizim bu qəribə dünyamız*
*xalis cənnətə dönərdi.*

*Amma indi yaşamaq lazımdır,*
*hətta mən başqa cür deyərdim:*
*indi biz, diversantlar*
*öz qəddar düşmənlərimizin dünyasını dəyişib,*
*cənnətlərini cəhənnəmə çeviririk.*

*Tarix yaxşı bilir ki,*
*Şər həmişə özünü məhv edir,*
*Və yalnız bütün varlığıyla*
*həqiqətə doğru can atan*
*qalib gələcək!*

# EPİLOQ

Əfsanə reallıqdan qat-qat güclü və rəngarəng olur. Əfsanələrdə faktların şərhi real həyatdan fərqlənir. Mixaylo əfsanəsi də müəmmalarla doludur. Qəhrəmanın son günləri və ölümü ilə əlaqədar müxtəlif versiyalar mövcuddur. Rəsmi mənbələrə (məsələn, əfsanəvi partizanla son döyüşdə iştirak etmiş Adam Zorna Kovaçın hesabatı və xatirə lövhəsi) görə, Mixaylo 1944-cü il noyabrın 2-də həlak olub. Amma mən bu kitabda rejissor Tahir Əliyevin Mixaylo haqqında çəkdiyi sənədli filmdə istifadə olunmuş faktlara istinad etmişəm. Bu kino lentində bir qadın müsahibəsində deyir ki, 1944-cü il noyabrın 6-da, yeniyetmə yaşında kənddə Mixaylonun meyitini ilk tapan o olub. Qriqori Şilyayevin "Bizi birləşdirən nə idi?" adlı xatirələr kitabında da həmin tarix göstərilib. Bu tarix mənə Tsiril Zupantsın "Mixaylo, IX korpusun kəşfiyyatçısı və təxribatçısı" adlı kitabındakı fakt qədər maraqlı göründü. Mixaylonun təxribatları siyahısına 1944-cü il noyabrın 4-də Solkandakı silah anbarında törətdiyi partlayışı da əlavə etmək olar.

Mixaylonun dəfn tarixi barədə də müxtəlif versiyalar var. Bəzi müstəqil mənbələrə görə, bu hadisə noyabrın 3-də, 6-da, 7-də, hətta 9-da baş verib. Belə bir versiya daha inandırıcı görünür ki, Mixaylo iki dəfə dəfn edilib: Vitovlyedə partizanın ölüsünü tapmış qızın atası noyabrın 6-da səhər meyiti gizlincə kənd qədiristanlığında basdırıb. Ancaq dostları Mixaylonun meyitini qəbirdən çıxarıb, Çepovan məzarlığında təntənə ilə dəfn ediblər.

Mixaylonun məzarı həmişə tər çiçəklərlə dolu olur. Sinə daşında beşguşəli ulduz və yazı həkk olunub: "Azərbaycan xalqının qəhrəman övladı, əziz Mehdi, rahat yat! Azadlıq uğrunda göstərdiyin şücaətlər həmişə dostlarının qəlbində yaşayacaq!"

Bəzi məlumatlara görə, Mixaylo həlak olanda yanında bir çanta pul olub, amma digər mənbələr bu faktı təkzib edir.

Kitabda Mixaylo tərəfindən törədilmiş bütün təxribat əməliyyatları tarixi arxiv sənədləri əsasında təsvir olunub, bir çox faktlar və şəxs adları həqiqəti əks etdirir. Mixaylo Triestdə keçirdiyi əməliyyatlar zamanı Miryam və Olqa adlı partizan rabitəçilərinin xidmətindən istifadə edib. Əlbəttə, Mixaylo qısa fəaliyyəti dövründə bir çox hərbi əməliyyatlar həyata keçirib, ancaq kitabda onların heç də hamısı göstərilməyib.

Arxiv sənədləri sübut edir ki, Mixaylonun dəstəsi 1944-cü il oktyabrın 31-də Trbijdə bankı qarət edib. Amma bankın seyfindən gestapo xəzinəsinin və qızıl külçələrinin oğurlanması barədə dəqiq məlumat yoxdur.

Kitabı hazırlayanda xüsusi xidmət orqanlarının arxivləri, şahidlərin xatirələri, sənədli-publisistik əsərlər və fərdi araşdırmalarımdan geniş istifadə etmişəm. İkinci Dünya müharibəsi haqqında saysız-hesabsız ədəbiyyat mövcuddur. Onların arasından mövzu ilə bağlı maraq doğuran əsərləri oxuyub faktları tutuşdurmuşam. Kitabda Mixaylonun şeirlərindən istifadə edilib, ilk dəfə rus batalyonu himninin tam mətni verilib.

Azadlıq uğrunda mübarizədə şəhid olmuş Mixaylonun və döyüş dostlarının xatirəsi müharibədən sonra unudulmayıb. 1995-ci ildə Çepovanda qardaşlıq məzarlığı salınıb. Burada Trnova meşələrində həlak olmuş qəhrəman partizanlar, Mixaylo ilə çiyin-çiyinə döyüşmüş əsgərlər dəfn olunub.

Qardaşlıq məzarlığındakı xatirə lövhəsinə Sloveniyanın azadlığı uğrunda mübarizə aparmış iyirmi iki döyüşçünün adı həkk olunub. Mixaylonun adı bu siyahıda birincidir. 1957-ci il aprelin 27-də Sovet İttifaqından gəlmiş hərbi nümayəndə heyəti xatirə memorialını ziyarət edib və yerli hakimiyyət orqanlarına xoş bir xəbər çatdırıb: SSRİ Ali Sovetinin fərmanı ilə Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən sonra “Sovet İttifaqı Qəhrəmanı” fəxri adı verilib! Fərman “Pravda” qəzetinin 1957-ci il 12 aprel tarixli nömrəsində dərc olunub.

Sovet nümayəndə heyətinin iştirakı ilə Çepovandakı qardaşlıq məzarı önündə təntənəli tədbir keçirilib. Sloveniyanın müharibə veteranları, ictimai təşkilatların nümayəndələri, yerli əhali Mixaylonun təxribat qrupunun üzvü, “Tole” ləqəbli Əli Toliyevin xatirəsini yad edib. Toliyev 1945-ci ilin yazında Rençedə vlasovçu faşistlərdən ibarət dəstənin mühasirəsinə düşüb, qeyri-bərabər döyüşdə öldürülüb və orada da dəfn olunub. “Mixaylonun mələkləri” adlandırılan dəstənin bütün üzvləri öz sevimli komandirindən əvvəl həlak olub.

Xalq arasında belə bir ifadə var: “Var-dövlət heç kimə xoşbəxtlik gətirməyib!” Bəlkə də, ona görə “mələklərin” meşədə, gizli saxlanc yerlərində basdırdıqları xəzinə bu günə kimi tapılmayıb! Yalnız Mixaylonun döyüş dostu Mirdaməd Seyidov davadan sağ-salamat evə qayıdıb.

1945-ci ilin yazında, müharibənin başa çatmasına bir neçə həftə qalmış komandir Darko və Mixaylonun sloven partizan dostlarının böyük əksəriyyəti həlak olub. Mayor Razoumek sağ qalıb, faşist caniləri üçün qurulmuş ədalət məhkəməsindən canını qurtara bilib. Kitabda

vəhşilikləri təsvir olunan iki doktor – Quelli və Kollotti də cəzasız qalıb. Müharibədən sonra bir müddət italyan polisində çalışıblar, hətta “xidmətlərinə” görə təltif də olunublar.

General Qloboçnik 1945-ci ilin mayında amerikalılara əsir düşüb və intihar edib. Mixaylonun partizan dəstəsinin komandirləri – Dule və Novlyenko sağ qalıb. Qradnik briqadasının əsgəri, cəsur döyüşçü Tone davadan sonra sloven yazıçısı kimi məşhurlaşıb. Tone Svetina “Hiylə” adlı kitabını döyüş dostu Mixayloya həsr edib. İstehkamçı Marko və Mario Sosiç də davadan sağ çıxıb.

1960-cı ildə Çepovandakı qardaşlıq məzarlığı əsaslı təmirdən sonra abadlaşdırılıb. Ətraf kəndlərdə basdırılmış partizan cəsədlərinin qalıqları da bura gətirilərək dəfn olunub. Abidənin təntənəli açılışı 1960-cı il iyulun 4-də olub. Xatirə lövhəsi də yenilənib. Siyahıda birinci sırada Azərbaycanlı qəhrəmanın adı yazılıb: “Mehdi Hüseynzadə – Mixaylo. Sovet İttifaqı Qəhrəmanı. 1918–1944”.

Abidə daşlarından birinə Sloveniya yazıçısı Frants Bevkonun şeiri həkk olunub:

*Otuz, üstəgəl daha bir nəfər –*
*hamısı burda yatır.*
*Bizə görə,*
*bizim sahillərdə*
*canlarından keçdilər.*
*Onların qanı kömək etdi bizə*
*yeni həyatda yaşamaq üçün.*
*Qoy bu yol bizi qarşıdakı*
*gələcək günlərə aparsın.*
*Qəhrəmanlara eşq olsun!*
*İllər ötüb-keçdikcə*
*onların xatirəsi yalnız dirçəlir*
*və daha da canlanır.*
*Minnətdarlıq da o cür.*

1983-cü ilin iyulunda Vitovlye kəndinin yuxarı tərəfindəki küçənin 21a ünvanında, Julkinin yaşadığı evin divarına xatirə lövhəsi vurulub. Lövhədə partizan Mixaylonun 1944-cü il noyabrın 2-də burada həlak olduğu göstərilib.

1926-cı ildə Vitovlyeyə yaxın Osek kəndində doğulmuş şair Mariya Lozar partizan Mixaylo ilə şəxsən tanış olmayıb. O, müharibə dövründə faşist əsir düşərgəsinə salınıb. Ancaq əsirlikdən sonra həmkəndliləri

ona Mixaylonun şücaətləri barədə ətraflı danışıb. Vətənpərvər qadının igid qəhrəmana olan ümumxalq sevgisini əbədiləşdirmək üçün yazdığı "Mixaylo" şeiri xatirə lövhəsinə həkk edilib.

*Necə gözləyirdi doğma yurd onu –*
*oğlu dönüb gəlsin qəhrəman kimi.*
*Amma o düşünüb başqa borcunu*
*döyüş meydanından geri dönmədi.*

*Mən Sloveniyaya verdim ömrümü,*
*düşmən bu yerlərdən çəkilsin, dedim.*
*Qanımız tökülən bu torpaqlarda*
*bir vaxt nəvələrim rahat oynayar.*

*Uç, qaranquş, uç get doğma yurduma!*
*övlad salamımı Bakıya yetir!*
*Qoy bilsin qardaşlar: burda daima*
*qərənfillər açır, bülbüllər ötür.*
*Burda – vətənimdən uzaq diyarda,*
*ruhumun bədəndən qopduğu yerdə.*

*Sloven qardaşlar qoruyur indi*
*burda məzarımın sakitliyini.*
*Həm də qısa sürən sevgimiz haqda*
*söz açır ilk gənclik xatirələri.*
*Bunlar sədasıdır yeni həyatın.*
*Sevgi və gözəllik – ölməzdir axı!*

*Qardaşlar, o doğma, azad vətəndə,*
*yaşayın kədərdən, qüssədən uzaq.*
*Və qoy xatirəmi yaşatsın daim*
*ürəkdən sevdiyim bu yer, bu torpaq!*

2007-ci il oktyabrın 25-də Sloveniyanın Şempas qəsəbəsində Mixaylonun abidəsinin təntənəli açılışı oldu. Abidənin müəllifi heykəltəraş Akif Əsgərov idi.

Bakılı rejissor Tahir Əliyevin Mehdinin həyat və fəaliyyətindən bəhs edən sənədli filmi isə mötəbər beynəlxalq müsabiqələrin mükafatına layiq görülüb.

2010-cu ildə Sloveniya – Azərbaycan Dostluq Cəmiyyəti təsis olundu. 2011-ci il iyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Sloveniya Prezidenti Danilo Türk təntənəli surətdə Dostluq Cəmiyyətinin xatirə otağının qırmızı lentini kəsdilər...

*Od tutur bədənim, yanır ürəyim,*
*Qovuşur varlığın, eşqinlə, Vətən!*
*Bu uzaq ölkədə səni anıram,*
*Andıqca yanıram sevginlə, Vətən!*

*Doğuldum, böyüdüm, səndə boy atdım,*
*Günəşinlə durub, Ayınla yatdım!*
*Qəlbimi eşqinlə, nurla boyatdım,*
*Məzara gedərəm səninlə, Vətən!*

*Kim deyər qəlbimdə kinim sönəcək,*
*Kim deyər ürəyim səndən dönəcək!*
*Ağlayan gözlərim, bil, sevinəcək,*
*Tarixlər dolanır səninlə, Vətən!*

*Eşitsin qoy məni yarım, yoldaşım,*
*İftixar eyləsin torpağım, daşım.*
*Adımı səsləsin qohum-qardaşım,*
*Qollarım güclüdür elinlə, Vətən!*

***M.Hüseynzadə***

## MÜNDƏRİCAT


Ön söz ....................................................................................5
Kras. Noyabr 1994-cü il ..........................................................7
Azərbaycan. Noyabr 1994-cü il ................................................11
Noyabr 1943-cü il .................................................................13
Dekabr 1943-cü il .................................................................53
Yanvar 1944-cü il ..................................................................61
Fevral 1944-cü il ..................................................................107
Aprel 1944-cü il ....................................................................139
May 1944-cü il ......................................................................162
İyun 1944-cü il ......................................................................187
İyul 1944-cü il .......................................................................274
Avqust 1944-cü il ..................................................................281
Sentyabr 1944-cü il ...............................................................286
Oktyabr 1944-cü il .................................................................306
Noyabr 1944-cü il ..................................................................315
Epiloq .....................................................................................347


---


Amalietti PETER

BİR NƏFƏR HAMI ÜÇÜN,
YAXUD MİXAYLONUN QİSASI

**Azərbaycan Tərcümə Mərkəzi**
**Bakı – 2018**

**Kompüter dizaynı:**
***Aqil Əmrahov***
***Şahzadə İbrahimova***

**Korrektorlar:**
***Lətafət Səmədova***
***Selcan Abasova***

Çapa imzalanıb: 02.10.2018. Formatı: 70x100 $^1/_{16}$
Ofset çapı. Fiziki çap vərəqi: 22. Tiraj: 500. Sifariş: ...

**Azərbaycan Tərcümə Mərkəzi**
Ə.Topçubaşov küç., 74

Təqdim olunmuş hazır fayldan **“Aspoliqraf LTD” MMC**-nin
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
AZ 1052, Bakı, Fətəli Xan Xoyski küçəsi, 149